AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
M.FÜZULİ adına ƏLYAZMALAR İNSTİTUTU

FİLOLOGİYA MƏSƏLƏLƏRİ

№ 6

Toplu Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən rəsmi qeydiyyata alınmışdır (Filologiya elmləri bölməsi, №13).

Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Mətbu nəşrlərin reyestrinə daxil edilmişdir (Reyestr №3222).

«Elm və təhsil»
Bakı – 2013

Jurnalın təsisçiləri: Azərbaycan Milli Elmlər Akademiyası Əlyazmalar İnstitutu və «Elm və təhsil» nəşriyyatı

REDAKSİYA HEYƏTİ: akademik Ağamusa Axundov, akademik Vasim Məmmədəliyev, akademik İsa Həbibbəyli, AMEA-nın müxbir üzvü, f.e.d., prof. Tofiq Hacıyev, AMEA-nın müxbir üzvü, f.e.d., prof. Nizami Cəfərov, AMEA-nın müxbir üzvü, f.e.d., prof. Teymur Kərimli, AMEA-nın müxbir üzvü, f.e.d., prof. Əbülfəz Quliyev, f.e.d., prof. Fəxrəddin Veysəlov, f.e.d., prof. Vilayət Əliyev, f.e.d., prof. Qəzənfər Kazımov, f.e.d., prof. Rüfət Rüstəmov, f.e.d., prof. Məsud Mahmudov, f.e.d., prof. Mübariz Yusifov, f.e.d., prof. Qəzənfər Paşayev, f.e.d., prof. Əbülfəz Rəcəbli, f.e.d., prof. Nizami Xudiyev, f.e.d., prof. Cəlil Nağıyev, f.e.d., prof. Nadir Məmmədli, fil.ü.e.d. Paşa Kərimov, f.e.d., prof. Kamilə Vəliyeva, f.e.d. prof. Azadə Musayeva, f.e.d. Möhsün Nağısoylu, fil.ü.f.d. Nəzakət Məmmədli.

Buraxılışa məsul: filologiya üzrə elmlər doktoru Paşa Kərimov
Rəyçi: filologiya elmləri doktoru, professor Nadir Məmmədli

Filologiya məsələləri. Bakı, 2013, № 6

ISSN 2224-9257

© ”Elm və təhsil” nəşriyyatı, 2013

www.filolologiyameseleleri.com

DİLÇİLİK

ƏZİZƏ HACIYEVA
ADU

HİTERONİMLƏR VƏ ONLARIN HOMONİMLƏRDƏN FƏRQİ

Play our free word names

Açar sözlər: hiteronim, hiterofon, homoqraf, kapitonim
Key words: hyteronyms, hyterephones, homograph, capytonyms
Ключевые слова: гитероним, гитерефон, омограф, капитонимы

Hiteronim nədir? Dilcilikdə hiteronim eyni cür yazılıb, müxtəlif tələffüzə və mənaya malik sözlərdir. Başqa sözlə desək, onlar həm də homoqraflardır, homofon deyildir. Bu termin bəzən hiterefonla qarışdırılır. Hiterefonlar homofonlara yaxın olurlar, çünki onların da yazılışları müxtəlif olub, eyni cür səslənirlər. Heterefonların əsil mənası "müxtəlif səs" deməkdir, bu termin sözlərə tətbiq edilir və onlar yazılışına görə müxtəlif cür tələffüz olunurlar. Məsələn, sea [si:] – (expance of salt water that covers most of the earth's surface), see [si:] – (have or use the power of sight); son [s □ n] – (one's male child), sun [s □ n] – (the heavenly body from which the earth gets warmth and light). Amma, row [rou] –(a number of things or persons in a line), row [rau] – (uproar, noisy disturbance) sözləri hiteronimlərdir. "Mean" (low rank or humble birth) - "mean" (be likely to result in, to have smth in mind) sözləri hiteronim ola bilməz, cünki, onlar eyni cür tələffüz olunur. Hiteronimlərdə saitlərin tələffüzü fərqli olur və onların vurğularında dəyişiklik yaranır. Məsələn, They were too *close [klos]* to the door to *close [klous]* it; We must *polish ['poli□]* the *Polish ['pouli□]* furniture; The *wind [wind]* was too strong to *wind [waind]* the sail və s.

Hiteronimlər cümlədə iki grammatik funksiya nəticəsində yaranan sözlərdir Məsələn, When I *graduate ['gr□djueit]* the University, I'll become *a graduate ['gr□djuit]*; *Don't desert [di'zə:t] me here in the desert ['dezət]*.

Verilən misallardan göründüyü kimi, hiteronim cütlüklərindən biri isim, biri isə fel kimi işlənmişdir. Əksər hallarda onların tələffüzlərindəki fərg ya onlarin vurğularında olur, ya da xüsusi nəzərə carpdırılmalarında olur. Əslində, sözün hansı hecasının vurgulu olması əsas şərtdir. İki hecalı sözlərə nəzər salsaq, görərik ki, əsasən isimlərdə birinci heca vurğulu olur, fellərdə isə vurğu ikinci hecaya duşür. Məsələn, *'contest (n) – con'test (v*). Amma elə sözlər də vardır ki, onlarda vurğu dəyişmir. Məsələn, *abuse və use* sözləri. Burada səs əvəzlənməsi (sound interchange) baş verir. Fel formasında [zzzz] cingiltili, isim formasında isə kar samit [ssss] olur. Lakin həmişə isim və fel dəyişmələri olmur.

Bəzən xüsusi isimlər də hiteronim cütlüyü yaradir. Belə ki, "Oregon" sözünün sonuncu hecası ABŞ-da ştatın sakinləri tərəfindən "in" kimi tələffüz olunur,

amma Wiskonsin-da "Oregon" kəndinin adında sonuncu heca "on" kimi tələffuz olunur. US [ju: 'es] (Birləşmiş Ştatlar) sözünün ixtisar variantında bəzi oxşar heteronimlər yaranır. Belə ki, US Birləşmiş Ştatlarının baş hərfləri ['ju'es] kimi oxunur, "us" obyekt əvəzliyi də eyni hərflərə malik olsa da, [□s] kimi oxunur.

Heteronimlər homoqrafların spesifik növüdür. Onlarin tələffüzləri müxtəlif mənalarda birləşir. Bir sıra hiteronimlər birinin isim, o birinin fel olması nəticəsində yaranır. Bəzən elə hitronimlər də olur ki, cütlüklərdən biri alınma söz olur, halbuki onlar artıq ingilis dilində işlənir. Məsələn, *sake [seik] – for your own; sake [sok'ee] – Japanese drink*

Bildiymiz kimi, homoqraflar eyni çür yazılan sözlərdir, amma mənalarında və tələffüzlərində müxtəliflik olur. Homofonlar isə eyni çür tələffüz olunur, amma məna və yaranmalarında, yaxud da yazılışlarında fərqləri olur. Homonimlər də eyni cür yazılır, eyni cür tələffüz olunur, amma müxtəlif mənalar kəsb edir. Bu kateqoriyalar semantik qruplara aid olsalar da onlar arasında oxşarliqlar, uygunluqlar mövcuddur.

Yuxarıda dediyimiz kimi, dilçilikdə hiteronimlər həm də hiterofon adlanır. Belə söz və birləşmələr eyni cür yazılır, amma səslənməsinə və mənalarına görə müxtəlif olurlar. Başqa sözlə desək onlar homoqraflardır, homofon deyildirlər. Belə ki, *row [rau]* – səs-küy, mübahisə, *row [rou]* – cərgə, sıra və avar çəkmə mənalarındadır, amma *mean* (məna vermək, mənalandırmaq) və *mean* (orta həddvə alçaq, rəzil anlamındadır) hiteronim deyildir, çünki onlar eyni cür səslənir və eyni cür yazilir, deməli homonimdirlər. Hiteronimlərin tələffüzündə sait fərqləri olur, vurğu fərqləri olur. Məsələn, *Tell the Polish ['pouli□] cleaners to polish ['poli□] the floor.* Buradakı *Polish* təyin funksiyasında işlənib «polyak, polşalı» mənasını verirsə, ikincisi feldir və «təmizləmək, parlatmaq» mənasındadır.

İnternet saytlarindan topladiğimiz materiallara əsasən (4, 1-4) deyə bilərik ki, ingilis dilində yüzlərlə hiteronim cütlükləri mövçuddur ki, onlar da bir neçə kategoriyaya bölünürlər: əsil (true) hiteronimlər, grammatik funksiyalı hiteronimlər, kapitonimlər, üçlüklü və aksent hiteronimlər.

Əsil hiteronimlərin əksəriyyəti qoşa olur. Məsələn, *axis ['□ksis]= pl. Form of an ax (axe) (tool for felling trees or splitting wood), axis ['□ksi:s] (n) – pl. axes (line round when a turning object spins, or line that devides a regular figure into 2 symmetrical parts); buffet ['bufet] = to pound, [bu:'fei] = place where you serve yourself; conflict [kən'flikt] = to act against, ['konflikt] – fight or disagreement; dove [d□v] – a bird, [douv] – jumped off; lead [li:d] – to guide, [led] – a metallic element element və* s.

Hiteronimlərin əksəriyyəti qoşa olur, ona görə də onlara hiteronim cütlüyü deyirlər. Onu da qeyd etmək lazımdır ki, bu sözlər bir-birindən fərqli tələffüz olunurlar.

İngilis dilində əksər sözlər çoxmənalı olduğundan onlar müxtəlif nitq hissələri kimi işlədilir (isim, sifət, fel və s.). Məsələn, *dust* sözünü götürək: İf you *dust* the bedrom, you have to remove the *dust*. Birinci halda *dust* feldir «təmizləmək» mənasındadır, ikinci halda isə *dust* isimdir və «otağın tozu» nəzərdə tutulur. Burada *dust* hiteronim deyildir, çünki sözün hər iki forması ey-

ni cür tələffüz edilir. Əgər eyni söz eyni cür tələffüz edilərsə, onlar hiteronim yox, tam omonimdir (full homonyms) (5, 169).

Əgər eyni söz fərqli səslərə malikldirsə, hiteronim cütlüyü yaranar. Məsələn, *When I graduate [‘gr□djueit], I’ll become a graduate [‘gr□djuət]; These factories produce [prə’dju:s] the produce [‘pr□dju:s] that is shipped abroad; Please, put my typewriter to use [ju:s] because I never use [ju:z] it.*

Verilmiş misallarda bütün hiteronimlər qrammatik cəhətdən iki müxtəlif nitq hissəsi kimi işlənərək, müxtəlif səs formasına malikdir (isim, fel). Cümlələrdə işlənən hiteronimlər ancaq vurğuya görə müxtəlif nitq hissələrinə çevrilir və xüsusi olaraq nəzərə çarpdırılır. Əslində, sözdə hansı hecanın vurğulu olmasına fikir vermək lazımdır. Belə ki, əgər ikihecalı *contest* sözünə diqqət yetirsək, görərik ki, isim olanda birinci heca vurğulu, fel olandə isə ikinci heca vurğulu olur. Məsələn, ‘CONtest (noun), con’TEST (verb). A*buse* sözündə isə vurğu dəyişmir, burada dəyişən [s] səsidir. Fel formasında olan *use* [zzz] cingiltili səs kimi səslənir, isim formasında isə [ssss] kar səs kimi tələffüz olunur.

Hiteronimlərin bu növləri isim və fel cütlükləri ilə məhdudlaşmır, həm də sifətlə də hiteronim cütlüyü yaranır. Məsələn, *My grandfather is aged ninety-two, so he is quite aged (adj); Everything I know, I learned from that learned (adj) old man; I want you to separate (verb) the cards into two separate (adj) piles.*

Hiteronimlərə diaxronik aspektdən yanaşdıqda onlar konversiyaya da bənzəyir. Belə ki, advocate [‘□dvəkeit] (v) – (to argue for someone else); [‘□dvəkət] (n) - a person who speaks in support of smth; appropriate [ə ‘proupriət] – (suitable), [ə’prouprieit] (v) – (to set apart for); bow [bou] (n) – (a string weapon), bow (n) [bau] – (the front of a boat or a ship); conduct [‘kond □ kt] (n) – (action), [kən’d □ kt] (v) – (to lead) və s.

Məlumdur ki, konversiya heç bir morfoloji element qəbul etmədən yaranır. Belə ki, əsas söz eyni morfoloji quruluşa malik olan omonim sözlərdən törəyib, amma müxtəlif nitq hissələrinə malik olur. İngilis dilində tarixi inkişaf prosesində bəzi sözlərdə qrammatik formalar itir və yeni bir formanın başqa bir yolu yaranır. Belə ki, qrammatik formanın itməsi nəticəsində cümlədəki felləri isimdən ayırmaq çətin olur. Konversiya söz yaradıcılığının əsas növlərindən biri olub bir çox dillərdə mövcuddur. Sinxronik cəhətdən konversiya homonim kimi nəzərdə tutulur *(sleep (n)- sleep (v)* , amma diaxronik cəhətdən yanaşdıqda belə sözlər konversiya termininə yaxınlaşaraq, hiteronim və homonimlərdən fərqlənir.

Hiteronimlərin yarımqruplarından biri də onların homonimlərə oxşamasıdır. Bildiyimiz kimi, homonimlər müxtəlif nitq hissələrinə də aid ola bilir. Məsələn, *spring (bahar), spring (bulaq), spring (sıçramaq)* və s. Bu cəhət hiteronimlərə də xasdır.

İngilis dilində bir sıra sözlər vardır ki, onlar müxtəlif nitq hissələrinə mənsubdurlar və komponentlərdən biri cəm şəkilçisi qəbul edərsə, cütlüklər eyni cür səslənir. Məsələn, *asses –ass* sözünün cəm forması, *asses* sözü isə Latın mənşəli olub «qəpik» mənasındadır. *Read* sözü də hiteronimdir, çünki felin indiki və keçmiş zaman formaları eyni cür yazılır, səslənməsi isə başqadır. Məsələn, *I want to read the sequel (conclusion) today, because I read the first book yesterday.* Bunlar qrammatik funksiyalı hiteronimlərdir və əsil hiteronimlərdən

fərqlənir, çünki əsil hiteronimlər mənaca fərqli olurlar, yəni onlar nitq kateqoriyalarına görə fərqlənirlər, burada isə *read* [ri:d] və *read [red]* sözlərinin tələffüzləri müxtəlif olsa da, eyni nitq hissəsidir.

Kapitonimlər də bəzən hiteronimlərlə qarışdırılır, amma onlar arasında ciddi fərq mövcuddur. Kapitonimlərin öz oxşarlarından fərqi ondadır ki, onların həm tələffüzləri müxtəlif olur, həm də cütlərdən biri xüsusi isim olur və əsasən lüğətlərdə verilmir. Məsələn, *August[‘□:gəst]*- the eight calendar month, *august [□:’g□st]* – important; Begin – Russian born İzraili politician, begin – to start; *Job* – author of a Biblical book, job – employment; Said – Egyption port, said – spoken; *Male* – capital of Maldiv islands, *male* – man gender; *Nice* – a city in France, *nice* – beautiful; *Seat* – avtomobile producer, *seat* – place for sitting; Warms – City in South West Germany, worms – plural form of worm və s.

Kapitonimlər əsil hiteronim deyildir. Bu iki səbəbdən irəli gəlir: birincisi, tərəflərdən biri xüsusi isim olur və standard lüğətlərdə olmaya da bilər, ikincisi isə hiteronim cütlükləri eyni cür yazılmalıdır, biri böyük, biri kiçik hərflə yox.

İngilis dilində hitreronimlər üçlüyü də mövcuddur, ancaq onlar olduqca azdır. Məsələn,*ri-‘dress(compensate),‘ree-dress or ri-‘dress(compensation),ree’-dress (dress again); as(kimi), as – latın dilində qəpik(coin), as – (əla) sözünün cəm forması; pate – baş, pate – makaron məmulatı, pate – ətin yayılması, döyülməsi və s.*

Aksent hiteronimlərə də rast gəlmək olur, bu zaman burada vurğu əsas rol oynayır. Burada alınma sözlərlə ingilis sözləri qoşalaşır. Məsələn, attach’es [ə‘t□□ei] – (a person who is attached to the staff). attaches [ə’t□□iz] – (fasten or join) və s.

Ədəbiyyat

1. http://en.wikipedia.org/w/index/php?title=heteronym @oldid
2. http://www-personal.umich.edu/~cellis/heteronym.html
3. http://en.wikipedia.org/wiki/heteronym (linguistics)
4. http://www.fun-with-words.com/nym-hitronym.html
5. Hajiyeva A.H. English Lexicology, Bakı, 2011
6. Hajiyeva A.H. Contrastive Lexicology, Baku, 2010
7. Vəliyeva N.Ç. Azərbaycanca, rusca və ingiliscə frazeoloji lüğət, Bakı, 2006

Aziza Hajiyeva

Hyteronym and their Differentiation from Homonyms

Summary

The article deals with hyteronyms and their differentiation from homonyms. A pair of hyteronyms are words that have the same spelling but different pronunciation and also different meanings. In linguistics they are called homographs because they are alike.

As they have different pronunciations, they are heterophones. There are hundreds of hyteronyms in the English language and they fall into several categories. They are: true, grammatical-functional, capitonyms, accent and three-way hyteronyms. All these categories are talked in this article and based on the examples.

А.Гаджиева

Гитеронимы и их различие от омонимов

Резюме

Статья посвящена различаю между гетеронимами и омонимами. Гитеронимы – это такие слова и выражения, которые обозначают разные значения и звучания, но пишутся одинаково. Произношение гитеронимов не совпадают между собой. В лингвистике они похожи на омографы.

На английском языке есть более ста гетеронимов и они делятся на следующие категории: реальные, грамматически-функциональные, капитонимы, акцентные и трехвершинные гетеронимы. Все эти категории анализированы в этой статье и основаны на примерах.

Rəyçi: İkram Qasımov
filologiya elmləri doktoru, professor

ƏLİRZA ƏLİYEV
LDU-nun dosenti

YAZILI ƏDƏBİYYATDA ONOMASTİK VAHİDLƏRİN ÜSLUBİ XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: onomastika, antroponim, toponim, poetik, epifora, üslub, metafora, metanimiya, qafiyə, obraz.
Ключевые слова: ономастика, антропоним, топонимика, поэтический, эпифора, стиль, метафора, метанимия, рифмы, характер.
Key words: onomastics, antroponim, toponymy, poetic, epifora, style, metaphor, metonimiya, rhyme, character.

Şifahi ədəbiyyatda olduğu kimi, yazılı ədəbiyyatda da onomastik vahidlər geniş mövqedə durur ki, bunlar üslubi rəngarənglik baxımından xüsusi əhəmiyyətə malikdir. Təəssüflər olsun ki, bugünə qədər istər şifahi və istərsə də yazılı ədəbiyyatımızda onomastik vahidlərin üslubi imkanları lazımi səviyyədə tədqiq olunmamışdır. O cümlədən hər bir bədii əsərin əsasında duran şəxs adları haqqında ümumilikdə bu və ya digər istiqamətdə tədqiqat aparılsa da, onların üslubi imkanları barədə az danışılmışdır.

Xüsusi adın işarə olub ümumiləşmiş anlayış ifadə etməsi və onun əşya ilə əlaqəsinin olmaması linqivistikada aydın məsələdir. Bu barədə dilçilikdə kifayət qədər söhbət açılmışdır. Çox maraqlıdır ki, bədii ədəbiyyatda da bu, poetik şəkildə öz əksini tapmışdır. Necə ki, Qabil yazır:

Ad addı da...
Daşdəmir adından,
Şahpələng adından
Kar aşmır
Aslan dovşan olur,
Loğman nadan olur,
Həcər eybəcər.
Gülyanaq qaşqabaq,
Səadət xəyanət.

Ə.Kürçaylı isə eyni fikri başq şəkildə söyləyir

Ad veririk biz bəzən
Əzvaylara - ***Mehriban***,
Qorxaqlara - ***Qəhrəman***.
Ibdar insana - ***Mələk,***
Çirkin insana - ***Çiçək.***
Cəllad insana - ***Adil,***
Nadan insana - ***Aqil.***

Biz bunu ayrı-ayrı bədii əsərlərdə verilmiş adın çox vaxt ifadə etdiyi anlayış obrazın xarakterinə uyğun gəlməməsinin şahidi oluruq. Bədii əsərlərdə istər müsbət və istərsə də mənfi qəhrəmanların şəxs adları təsadüfi seçilən adlar deyildir. Yazıçı hər hansı obrazı bitkin yaratmaq üçün həyatda bir çox xarakterləri nəzərdən keçirir və ən mühümünü ümumiləşdirərək oxucuya təqdim edir. Məsələn, ***Qaloş*** hiyləgərli-

yi və satqınlığı, ***Mindilli*** yaltaqlığı, ***Sarvan*** və ***Sevil*** zəhmətsevərliyi, ***Hüseynbala, Həzi*** və ***Mehdi*** qəhrəmanlığı ilə seçilib yaradılmış obrazdır.

Bədii dildə üslubi rəngarənglik yaradan vasitələr çoxdur və onlardan biri də epiforadır. Epifora həm nəsr və həm də nəzm əsərlərində asanlıqla diqqət cəlb edən üslubi vasitədir. Məsələn: ***İsa*** - məcməyi böyüklükdə yağlı fətirlə, ***Musa*** - kərə yağı ilə dolu bardaq gətirmişdi (S.Dağlı). ***Əhməd*** və ***Məmməd*** bir gündə məktəbə gəldilər, birinci sinifdə bir yerdə oturdular (S.Dağlı).

Əli - Vəli
Bu nə yer-yığışdı
Bu nə əl-ayaq. (Qabil)
Ana bülbülüm ***Şövkət***
Ceyran gözlü ***Nəzakət*** (Qabil)

Biz bədii dildə iki cür şəxs adlarına rast gəlirik ki, bunların bəziləri hamı tərəfindən işlədilir və xalq arasında geniş mövqedə durur. Linqvistikada bu tip adlar real adlar adlandırılır. Ikinci qrupa daxil olan adlar isə yazıçılar tərəfindən yaradılır, yalnız onların fərdi üslubunun məhsulu sayılan poetik adlardır.

Nəbi Xəzrinin sevə-sevə yaratdığı ***Elgün, Yanar*** (Baxıram, Elgünün, susan Yanarın...), S.Rəhimovun ***Ərşad, Gülşad, Şimşad, Şəlalə*** adları kimi.

Bildiyimiz kimi real adlarımızın əksəriyyəti ərəb və fars mənşəlidir. Bu, bədii əsərlərin dilində də belədir. Lakin həyatda olduğu kimi, bədii əsərlərdə bu məsələyə münasibət birmənalı deyildir. Döyüşkən ruhlu şairimiz Xəlil Rza əsərlərində ərəb və fars mənşəli adlara qarşı çıxaraq, övladlarımıza milli xarakterli və milli kökə əsaslanan adların qoyulmasını dönə-dönə təkid edir. Şair "Adımız, soy adımız" poemasında da bu məqsədə köklənmişdir:

Heç kişi də özgədən ad oğurlayarmı?
... ***Tofiq*** - ərəb, ***Məhəmməd*** - ərəb, ***Fərhad*** - fars.
Rüstəm - yenə fars adı
Gönümüz başdan - başa
Ərəbdir, farsdır, bir az da rusdur.
Bəs heç olmayıbdırmı bu millətin öz adı?

Poemanın bu yerində şair yüksək sənətkarlıqla böyük dramaturqumuz C.Cabbarlının sevə-sevə yaratmış olduğu poetik adları şəkildə sadalamaqla bizlərə xatırladır:

Aydın, Oktay, Ərtoğul,
Gülər, Sevil, Solmaz, Almaz,
Yanardağ, Aslan, Dönməz.

"Min illər keçsə də, bu adlar sönməz. Mənim öz şəklim, mənim öz adım, öz ruhum, öz soyum, öz istedadım!" söyləyən X.Rza poemada soyumuza, kökümüzə söykənən yüzdən artıq poetik şəxs adı sadalamışdır. Şair bu adları sadəcə sadalamamış, həm də müxtəlif üslubi rəngarənglik, o cümlədən alletrasiya, xüsusi intonasiya, daxili və xarici qafiyələndirmə və ahəngdarlıqla yaratmışdır:

Dalğa, Dalğın, Dönməz, Dəmir, Daşdəmir
Bu adlar bağrımdan od-alov alır.
Uluş, Uyğur, Ucal Və Umar
Ulu Qaf dağına ucalmaq umar.

Və ya kökündə "Gül" lekseminin təkrarı əsasında yaradılmış yeni poetik adlar:

Gülyanaq, Gülöyşə, Güldəstə, Gülgəz
Gülqədəm, Güldərən, Güldostu, Gülnar
Gülsavad, Gülzarı, Gülmaya, Gülyar
Güllücə, gülnənə, Gülbədən, Gülyaz
Güllərin sanıca gülüzlümüz var.

Şair beləcə "G" samiti ilə başlanan otuz iki şəxs adı yaratmışdır, burada "S" samiti ilə başlanan ***Səhərgül, Səringül, Sonagül, Səngül*** şəxs adı, "A" saiti ilə"ay" kökü əsasında ***Aybəniz, Aypara, Ayna, Aytən, Aytac*** adlarını yaratmaqla onomastikamızı daha da zənginləşdirmişdir.

Göründüyü kimi bu adlar həm də metafora əsasında poetikləşmişdir. Ümumilikdə poetik şəxs adlarının yaranmasında bənzətmə və müqayisənin mühüm rolu vardır. "Bənzətmə və müqayisə əsasında maddi aləmdəki qeyri-insani varlıqların – canlıların, cansz aləmin, təbiət hadisələrinin, müəyyən əlamətlərin adını bildirən ümumi isimlərin insan üzərinə köçürülməsindən potensial və poetik obrazlar yaranır: ***Maral, Ceyran, Aslan, Şiraslan, Tərlan, Laçın, Tovuz, Durna, bülbül, Kəklik, Qaya, Bənövşə, Nərgiz, Novruz, Jalə, Qərənfil, Yasəmən, Çinar, Sərçe, Daşqın*** və s.".[1] Bu cür, poetik adlar bədii əsərlərimizdə kifəyət qədərdir: Onlar ***Güləbətini*** tez həmin xanımın yanına gətirdilər (M.İbrahimov). ***Qorxmaz*** bu saat çay içib ***Mədədin*** yanına gedəcək. ***Nərgiz*** kitab oxumağa başlayacaqdır (İ.Əfəndiyev). ***Sarıköynək*** namərd gülləsinə dəyəndən üç-dörd gündən sonra ***Seyran*** xala bizə gəlib görüb ki, evdə heç kəs yoxdur (İ.Əfəndiyev). Sonra ***Sevda*** yavaşcadan dilləndi (X.Həsənova).

"Bədii üslubda petk obrazlılıq yaradan vasitələr sırasında komizm və kalanburlar da var. Bunlar bədii əsərin dilində, ən çox da komediyaların, satiraların, alleqoriyaların dilində estetikanın rəzillik və eybəcərlik kateqoriyalarına uyğun karikatura obrazlılığı yaradır, mənfi xarakterləri nitqi əsaslnda ifşa etmək məqsədi daşıyır, islahedici və öldürücü gülüş növlərini formalaşdırır".[2] Bədii üslubda bu məqsədlə müxtəlif vasitələrdən, o cümlədən antroponimlərdən də istifadə olunur. Mirzə Ələkbər Sabirin müsəlman qadınlarına verdiyi ***Xansənəm, Xanbacı, Şahbacı, Fatma, Zalxa, Tükəzban*** və s. satirik qəhrəmanları fikrimizcə yaxşı nümunədir:

1. Bədbəxt ***Tükəzbanları*** neylərdin ilahi?!
2. Neyləyirik ***Fatma-Tükəzbanları***?
3. ***Zalxalar*** daxmasına çökdü qaranlıq, bizə nə?

M.Ə.Sabirin satira atəşinə tutduğu ***Xankişi, Feyzi, Məmədəli,*** Ə.Haqverdiyevin ***Zurna Balxanını,*** S.Dağlının söylədiyi "Biz eşitmirik ***Allahqulu, İmanqulu, Nəsrətqulu, Məmmədqulu, Həsənqulu, Hüseynqulu*** - yoxsa ***Qarınqulu***" kimi tiplər də eyni qəbildəndir.

Şəxs adları kimi, ləqəblər də bədii dildə mühüm üslubi əhəmiyyət kəsb edir. Ləqəblər təsadüfi olaraq obraza qoşulmur. Obrazın müəyyən əlamət və keyfiyyəti, peşəsi, xarakterik xüsusiyyəti, xarici əlamaəti və sair səciyyəvi cəhətini daha qabarıq verməkdən ötrü yazıçı məqsədinə müvafiq ləqəb seçir. Məsələn: Hanı o ***Göbələk Məmişin*** qızı, niyə burda deyil (İ.Hüseynov). Kazım kişinin anadangəlmə üst dodağı böyründən aşağıya tərəf cırıq idi. Ona görə də ona ***Dodağıcırıq Kazım*** deyirdilər (İ.Hüseynov).

Cox vaxt da yazıçı el arasında personaja verilmiş hazır ləqəbdən istifadə edərək onun bu və ya digər əlamətini oxucuya çatdırır: ***Göbələk Məmiş, Təftiq Abbas,***

Qaradönbu ... camaat yarasıdır (İ.hüseynov). Ona ***Razmenka Rzabala*** deyərlər. Kişi ancaq bunun azərkeşidir. Oyun başlamazadan əvvəl on beş dəqiqə razmenkaya baxar, bu zaman qapıya girən toplara əl çalıb gedər, daha oyuna qalmazdı (S.Dağlı).

Bəzən yazıçı ləqəbin yaranma səbəbinin izahını da geniş verməklə obrazı bütün təfərrüatı ilə oxucuya çatdırmağa nail olur. Bu üslubi gedişə S.Dağlı yaradıcılığında daha tez-tez təsadüf olunur. Sənətkarın "Bekar Məmmədəli" əsərindən aşağıdakı parçaya diqqət yetirək:

Onun adı ***Məmmədəli*** idi. Ancaq heç kim kişini bu adla cağırmırdı. Onu sadəcə "Bekar" çağırırdılar. "Bekar" isə hər yerdə məşhur idi. Demək olmazdı ki, əksər ləqəblər kimi onun da boyuna biçilmişdi. Həmçinin bu ləqəb Məmmədəliyə divarə vurulan quru palçıq kimi də yapışdırılmamışdı, bir tərəfdən ona yaraşırdı, digər tərəfdən yaraşmırdı.

Onun üçün yaraşırdı ki, Məmmədəli həqiqətən işsiz idi, yəni müəyyən peşəsi yox idi və bir sənətə qulluq etmirdi. Onun üçün yaraşmırdı ki, o tamam boş-bekar da gəzmirdi. Necə deyərlər, gündəlik ruzusunu qazanmaq üçün özünü oda-suya vurur, bir parça yavan çörəyini yemək üçün "daşdan yağ, yağdan duz çıxarırdı".

Ə.Kürçaylının "İnamın daş heykəli" şeirindən isə belə çıxır ki, ləqəb adlara təsadüfi qoyulmur:

Bu kənddə hamının bir ləqəbi var.
Ançaq ləqəbinə uyuşmur heç kəs.
Niyə uydururlar bu adları bəs?
Biri bu ***Lal Cəbi***-dünyanı gəzsən
Onuntək danışan tapa bilməzsən.
Amma adına bax?
Ya da ***Dul Bahar***
Evi var, əri var, uşaqları var.
Bəs niyə verirlər ona bu adı?
Burada ad verirlər tutdu-tutmadı adı
O da ***Nar Bikədir,*** hanı narlığı?

Əlbəttə bu şairin subyektiv fikridir. Linqivistikada bu qəbul olunmur. Bizcə, ləqəb ada səbəbsiz qoşula bilməz. Bunu bir daha istər bədii ədəbiyyatda və istərsə də adi həyatda şəxs adlarına qoşulmuş ləqəblər və bu istiqamətdə aparılmış tədqiqatlar da sübut edir. "Yazılı ədəbiyyatda bəzən bir xalqın zəngin ədəbi irsi bir neçə klassik adını sadalamaqla nəzərə çarpdırılır".[3] Yazıçılarımızın bədii yaradıcılığında buna tez-tez təsadüf olunur.

Biri deyir: öz elimsən.
Tufarqanlı Abbasımsan,
Şah Xətaim, Fizulimsən. (X.Rza)
Bizim ***Zöhrab, Tahir, Balaş, Mədinə***
Bayram libasını geyib əyninə. (B.Vahabzadə)
Səhhət, Sabir ... iki qəlb
Səslənir bir-birinə
Köklənir simlər kimi (B.Vahabzadə)
O qənim kəsilib, - dedim, -ölkəyə
Cavidlər sürülüb öz vətənimizdən. (B.Vahabzadə)
Yaşımı bilmirəm - ***İlyas Nizami***

Kölgədə dayanıb şair deyərək
Kəpəz kövrələndə ***Məhsəti*** kimi
Gözündən Göygölü salıb damcıtək. (Ə.Kürçaylı)

Bədii əsərlərdə tarixi qəhrəmanlar xatırlanıb adlarının çəkilməsi və qəhrəmanlıq nümunəsi kimi təqdim edilməsi müəyyən üslubi maneradır:

Dostlar orda zərbəçi əmək növbəsində
Hamısı-***Qafur, Gəray, İsrafil*** yaşlarında. (Ə.Cəmil)
Analar doğacaq mərd oğulları
Hər biri ***Cavanşir***, hər biri ***Babək.*** (Ə.Kürçaylı)

Nəzm dilində şəxs adları misranın sonunda verilməsi əlbəttə, təsadüfi hadisə deyildir. Bu qafiyə xatirinə verilsə də, şeir dilinin ahəngdarlığını, axıcı olmasını da təmin edir:

Deyir ***Xumara Nərgiz***
Mənim adım ***Xumardı***
Mənim adım ***Gülxardı***
Mənimki də ***Minadı***
Mənimki də ***Sevdadı.*** (S.Məmmədzadə)

Adların bu şəkildə sadələnməsi bir növ ritmin oynaqlığını və ahəngdarlığını daha da artırır. Seirdə eyni səs tərkibinə malik sözün ümumi və xüsusi isim kimi işlədilməsi həm də təsadüfi omonimin yaranması ilə nəticələnir. Məsələn:

Onun adı ***Mehriban***
Onun özü mehriban. (T.Mahmud)
On iki yaşlı ***Tutu***
Çıxıb tuturdu tutu. (Z.Xəlil)

Yazıç bəzən əsərində mütərəqqi fikir və ideyalar ifadə etmək üçün başqa xalqların dünyada məşhur olan görkəmli şəxsiyyətlərinin adlarını da xatırlatmış olur. Bu həm də yazıçının daha geniş məlumata malik olmasına dəlalət edir.

Düşünən başlara qılınc çaldılar
Danteni, Puşkini, Feyxtvangeri
Hamını vətəndən qaçaq saldılar. (B.Vahabzadə)
Ulu ***Tolstoyun,*** böyük ***Puşkinin***
Sizə irs qoyduğu həqiqət bu mu? (B.Vahabzadə)

Ə.Kürçaylı isə başqa düha sahiblərini tərənnüm edir:

Sən ***Valter Skotun***, ***Robert Bemrinin***
Taqorun yurduna, bax belə girdin.

Şifahi ədəbiyyatda olduğu kimi, yazılı bədii nümunələrdə onomastik vahidlərin xüsusi növü sayılan toponimlər geniş aspektdə durur. Bədii dildə toponimlər hadisənin baş verdiyi yer və bu yerlə bağlı müəyyən əlamət, keyfiyyət, hadisə və sairə ilə əlaqədar məsələnin tərənnüm və təsvirinə xidmət göstərmiş olur.

Məsələn:

Daşlar ***Qobustanda*** şöhrətə dönüb
Daşlar yetim qalıb ***Xudafərində.*** (Ə.Kürçaylı)
Qoşqarım, Kəpəzim, Ulu Şah dağım
Bağrımdan süzülüb sən durulmusan. (B.Vahabzadə)

Bədii əsərdə Vətənə, torpağa sonsuz məhəbbət və sevgi hissinin poetik şəkildə ifadəsində toponimlərdə mühüm rol oynayır. Məhz bu baxımdandır ki, şairlərimiz ***Kür*** və ***Araz***, ***Muğan*** və ***Mil*** adlarını da həmişə qoşa çəkirlər:

Mehriban ***Ana Xəzər***,
Yeni ilin mübarək
Neftçi dost, pambıqçı qız!
Salam, ***Kürüm, Arazım!***
Salam, ***Muğanım, Milim!*** (Ə.Cəmil)
Axıb kükrəyəcək ***Araz*** da, ***Kür*** də,
Yenə var, artacaq ***Muğanda*** ceyran. (Ə.Kürçaylı)

Doğma torpaqlarımızın düşmən tərəfindən işğalı və onun azadlıq həsrəti də toponimlərdə öz ifadəsini tapmışdır:

Mənə ayrı xəbər ***ver***
Zəngilan, ***Ordubaddan***
Söyləmə ki, ***Ağdamda***
Hava neçə olacaq
Söylə ***Ağdam*** uğrunda
Dava nə vaxt olacaq. (Qabil)

Bədii dildə toponimlərdən təkcə tərənnüm və təsvir məqsədi ilə deyil, qəlbində Vətən qeyrəti, doğma torpaq təssübkeşliyi olmayan satqınlar da tənqid və ifşa edilir:

Kürsüyə çıxmaqçün biri ***Ağdamı,***
Biri də ***Şuşanı*** qüdaza verdi. (B.Vahabzadə)

Yazılı ədəbiyyatda mövcud olan toponimlər ərazi baxımından fərqlənir. Yazıçı istədikləri toponimləri çox vaxt konkret, daha doğrusu, dar ərazinin tutumunda işlətsə də, bəzən isə əksinə, daha geniş ərazi tutumunda işlədilir. Bu aşağıdakı nümunələrdə də aydın görünür:

Bir görümlük çiçək gəzdim
Olsun ***Muğan*** çiçəyi o
Bir udumluq külək gəzdim
Olsun ***Bakı*** küləyi o. (Ə.Kürçaylı)

və ya:

Çalırdım
Bilmirdim uzaq Anqola
Mozanbik eşidir, məni dinləyir. (Ə.Kürçaylı)

Kosmonimlər də üslubi çalarlıqların yaradılmasında əvəzsiz rol oynayır. Digərləri kimi, Qabil də şeirlərində bu imkanlardan kifayət qədər bəhrələnmişdir:

1. Günəşə uçuruq, Aya uçuruq
   Bəzən irəlidə gedir bəxtimiz.
2. Ulduzlar Aya borclu
   Ay Günəşə borcludur.
3. Vahimədən ulduz axır Ay batır.

Onomastik vahidlərin üslubi xüsusiyyətləri tədqiqat obiyekti kimi geniş bir sahəni əhatə edir və bunun dərindən araşdırılıb öyrənilməsi onolmalogiyamız üçün mühüm əhəmiyyət daşıyır.

Ədəbiyyat

1. A. Qurbanov Azərbaycan dilinin onomologiyası. Bakı, 1988.
2. Aydın Paşa. Azərbaycan toponomiyasının leksik problemləri. Bakı, 1993.
3. İ.Ağayeva. Bədii və elmi üslub. Bakı, 1988.
4. X.Cabbarov. Sənətkar, söz və üslub. Bakı, 1993.
5. M.Adilov, U.Mərdənov. Uşaq və şeir. Bakı, 1983.

A.Алиев

Стилистические особенности ономастических единиц
письменной литературе
Резюме

Художественный стиль письменного литературного языка насыщен ономастическими единицами. Привлекает внимание стилистические осоБенности этих проблем, которые недостаточно были исследованы. Эта статья посвящена этим проблемам. В статье отражены разнообразность поэтических стилей, пути создания ономастических единиц и их профессиональные особенности.

A.Aliyev

Stylistic characteristic of onomastic units in written literature
Summary

Literary style of written literary literature is rich in onomastic units. One of the matters here that attracts attention is their stylistic features which necessary attention hasn't been paid to in our linguistics. The article has namely been dedicated to the same problem. On the basis of separate literary examples poetic stylistic colowrings of onomastic units, their ways of formation and features of professionality have been reflected.

Rəyçi: Qara Məşədiyev
filologiya elmləri doktoru, professor

Dosent AYTƏN HACIYEVA
ADU

MÜXTƏLİF SİSTEMLİ DİLLƏRİNDƏ EYNİ İNAMLAR ƏSASINDA YARANMIŞ İFADƏLƏR

Açar sözlər: inam və inanclar, mifologiya, mövhumat, bəd nəzər
Key words: beliefs, mythology, superstition, evil eye
Ключевые слова: верования, мифология, суеверие, сглаз

Mövhumat səciyyəli inam və inancların xalq içində çox böyük təsirə və qüvvə yə malik olması onların həmin xalqın şüurunda və yaddaşında dərin iz buraxması ilə bağlıdır. Dildən dilə, ağızdan ağıza, nəsildən nəsilə keçərək və daim xalq içində təkrar edilərək yaddaşlarda həkk olunan bu inam və inanclar heyrətamiz gücə malikdirlər. Hətta sağlam düşüncəyə malik olan insanlar onlara inanmadıqlarına əmin olsalar da, yenə də nəticədə bu mövhumatlara əməl edirlər, çünki daxildən gələn bir hiss onları bu inamlara əməl etməyə vadar edir. Çünki onlar bu mövhumat səciyyəli inamlara əməl etmədikləri halda baş verə biləcək nəticələrdən qorxurlar.

İnam və inancların nəticəsində yaranmış söz və ifadələr, hətta məsəllər xalq içində işləklik qazanaraq geniş yayılmışdır. Bu cür söz və ifadələr bədxahlığın, uğursuzluğun qarşısını almaq, uğuru və xoşbəxtliyi yaxınlaşdırmaq məqsədilə dildə istifadə edilir, belə ki, inam və inanclar fəlsəfi bir mövzu olsa da, onların əsasında yaranmış dil vahidləri, yəni nə demək, nə vaxt demək və necə demək məhz dilçiliyin qarşısında duran problemlərdir.

Müxtəlifsistemli dillərin materiallarını tədqiq edərkən biz fərqli dillərdə çox qədim tarixə malik olan eyni inamların olduğu faktına rast gəlirik. Lakin qədim dövrlərdə xalqlar arasında geniş mədəni əlaqələrin, müasir kommunikasiya vasitələrinin olmadığı bir dövrdə bu eyni inamların necə yarandığı, hansı xalqdan və ya hansı mədəniyyətdən digərinə keçdiyini dərin tədqiqatsız demək qeyri-mümkündür. Məhz bu səbəbdən müxtəlif xalqlarda və müxtəlifsistemli dillərdə rast gəlinən eyni inamları və bu inamlar əsasında yaranmış müxtəlif dil faktlarını tədqiq etmək çox vacib və həmçinin maraqlıdır. Məsələn, aşağıdakı faktlara nəzər salaq:

Həm ingilis, həm də Azərbaycan xalqı əsrlər boyu duzu ən zəngin bərəkətlərdən biri hesab etmişlər və duzun yerə və ya masanın üzərinə dağılması pis əlamət hesab olunmuşdur. İngiltərədə çox vaxt məhz duz mədənləri tapılan yerlərin ətrafında iri şəhərlər salınar, duzun digər şəhərlərə aparılması gələcək ticarət yollarını müəyyən edərdi. Əvvəllər soyuducu olmadığından qidaları məhz duzlamaq üsulu ilə uzun müddət saxlayardılar. Bütün bunları nəzərə alaraq, demək olar ki, duz qədimdə həyat mənbəyi olmuşdur. İngiltərədə və çox güman ki, elə Azərbayanda da duz mədənlərdən xam şəkildə çıxardılır və onun aşılanaraq mətbəxdə işlədilən xörək duzu vəziyyətinə gətirilməsi üçün xeyli əziyyət və vəsait lazım olurdu, ona görə də duz qədimdə çox bahalı bir nemət idi. Təbii ki, belə bir bahalı nemətin dağıdılması bədxərclik və əlbəttə ki, bəd əməl hesab edilərdi. İngilislərdə bununla əlaqədar belə bir ifadə geniş yayılmışdır: *"**Spilling salt is not good**"* və bu arzuolunmaz hadisənin nəticələrinin qarşısını almaq üçün müəyyən üsullar mövcud idi.

Duz yunan və roma dini mərasimlərində istifadə edilərdi və indi də katolik kilsələrində müqəddəs suyun hazırlanmasında duzdan istifadə edilir və ona görə də duzun dağılması "şeytan əməli" hesab edilirdi. Orta əsrlərdə İngiltərədə belə bir inam mövcud idi ki, şeytan insanın sol çiyninin arxasında duraraq bir məqam gözləyir ki, hücum etsin. Bu inam isə öz növbəsidə belə bir adətin yaranmasına səbəb olmuşdur ki, ingilislər duzu dağıdarkən tez bir çimdik götürərək sol çiyinləri üzərindən (sanki şeytanın üzünə) atırlar ki, şeytanın pis əməllərinin qarşısını alsınlar.

Norveçdə isə duzla əlaqədar belə bir inam mövcuddur ki, insan nə qədər çox duz dağıdarsa, onu o qədər də böyük uğursuzluq gözləyir. Belə ki, o duz dənəciklərini əridəcək qədər göz yaşı tökülməlidir.

Azərbaycanda duzla bağlı ən geniş yayılmış inam ondan ibarətdir ki, "***duz yerə dağılarkən evdə söz-söhbət olar***". Daha sonra duzun qədimdə çox baha olduğu faktından yaranmış: ***"Duz bərəkətdir", "Duz-çorək kəsmək", "Qız yükü, duz yükü"*** və s.

The evil eye – pis göz, bəd nəzər inamı həm ingilis xalqı, həm də Azərbaycan xalqı arasında ən geniş yayılmış, ən dərin kök salmış və indi də ən aktual olan inam və mövhumatlardan biridir. Pis gözə inam hələ qədim yunan və roma şair və filosoflarının, o cümlədən Aristofanın, Plutarxın və Plini kimi dahi yunan folosoflarının əsərlərində rast gəlinir. Bu inamı sadə şəkildə izah etsək, deyə bilərik ki, pis, bədxah gözə mənsub olan insanlar özləri də istəmədən başqalarına diqqətlə (həsədlə və ya paxıllıqla) baxarkən onlara nəzər yetirə bilirlər, daha dəqiq desək, lənətləyirlər. Bu qeyri-iradi lənətlənmənin nəticələri müxtəlif xalq və mədəniyyətlər arasında fərqli şəkildə üzə çıxır. Folklor və bəd nəzər üzrə mütəxəssis olan amerikan professoru Alan Dundes (6) yazırdı ki, bəd nəzərin gücünə inam Orta Şərq, Asiya, Afrika, xüsusilə də Aralıq dənizi bölgələrində daha geniş yayılmışdır. Bu mövhumatın qarşısını almaq üçün də fərqli yollar düşünülmüşdür. Bəd nəzərin göstərdiyi nəticələr müxtəlif xalqlarda oxşardır: qaytarma, arıqlama, sudan və yeməkdən imtina, sonda ölümlə nəticələnən həddindən artıq quruma.

Uşaqlar bəd nəzərə daha çox məruz qalırlar, belə ki, onların məsum gözəlliyi xəbis nəzəri özünə daha tez cəlb edir. Uşağın xarici gözəlliyini tərifləmək də bir çox ölkələrdə bəd nəzəri cəlb edən bir əlamət sayılır və ona görə də tərifdən sonra bəd nəzərdən uzaq olmaq üçün uşağa toxunmaq vacib əlamət sayılır. Banqladeşdə gözəl qızları olan analar bəd nəzərdən uzaq olmaq üçün qızlarının qulaqlarının arxasına qara rəng çəkirlər. Orta Şərqdə və bəzi Aralıq dənizi ölkələrində, o cümlədən də Azərbaycanda mavi göz şəklində olan həmayil gəzdirirlər və ya evdən asırlar. Azərbaycanda bu amulet "gözmuncuğu" adlanır və hər bir ailədə körpə uşaqların əlindən və ya boynundan bu cür gözmuncuğu asılır və ya paltarından tikilirdi. Azərbaycanda, bir çox Şərq ölkələrində olduğu kimi, mavi göz nadir hallarda rast gəlinən bir amildir və mavi gözlü muncuğun gəzdirilməsinə səbəb çox güman ki, mavi gözlü yadellilərə (turistlərə) vurulan ehyamdır ki, bu ölkədə uşaqların şəklini çəkmək və ya onlara yaxınlaşaraq danışmaq yerli camaat tərəfindən dəstəklənmir. Azərbaycanda gözü qaytarmaq məqsədilə uşağın başına duz çevirirlər ki, burada iki inam birləşir: həm gözdəymənin gücünə, həm də duzun gücünə olan inam. Bir çimdik duzu başa dolandıran zaman bu sözləri söyləmək vacib sayılır: "***Göz dəyənin gözü qayıtsın", "Göz dəyənin gözü çıxsın"*** və s.

Yəhudi adət-ənənələrinə görə uşağı pis nəzərdən qorumaq üçün onun biləyinə qırmızı parça bağlamaq lazımdır. Hətta müasir dövrümüzdə belə bu cür adət-ənənələrin pis nəzərdən qorumasına ciddi şəkildə inanırlar.

1958-ci ildə ABŞ-da pofessor Eduard Cifford "Bəd nəzər" kitabını nəşr edib, burada çoxlu faktik material gətirmişdir. O göstərir ki, bəd nəzərə, gözdəyməyə inam ən qədim dövrlərdən Suriya, Fələstin, Roma, Yunanıstan ölkələrində intişar tapmışdır.

Azərbaycan dilində qədim tarixi olan bu ifadə xürafatla əlaqədardır. "Pis göz" ("bəd nəzər") ifadəsinə M.Ə.Sabirin şeirlərində də rast gəlirik. Şairin "Mahi-Rəməzandır" adlı şeirində deyilir:

"Sail, qapıdan baxma bizə pis göz atarsan.
Çox qanqıma, durram, elə vurram ki, batarsan..."

Qədim insanların fikrincə, bizim bu maddi, təbii dünyamızdan əlavə bir də təbiətdən xaricdə, real olmayan aləm də var imiş. Bəzi adamların, xüsusilə cadugərlərin gözündə pis ruhlar yerləşdiyindən onların baxışı, nəzəri çox zərərlidir. Eramızdan əvvəl I minillikdə Şərqdə hər cür kosmetika dəbdən düşmüşdü. Halbuki bu dövrə qədər qədim insanlar kosmetikadan həm bəzək üçün, həm də müəyyən kultu icra məqsədilə istifadə edirdilər. İnsan özünü fərqləndirməyə, allahlara oxşatmağa çalışırdı ki, hər cür bəladan, fəlakətdən qoruna bilsin. Gözü əzilmiş, ovxalanıb toz halına salınmış malaxit ilə rəngləyirdilər. Güman edirdilər ki, belə rənglənmiş göz bəlanın qarşısını ala bilər.

Son tədqiqatlardan məlumdur ki, hələ eramızdan beş min il əvvəl qədim Şumerdə gözə sürmə çəkmək adəti olmuşdur. Bu inam M.P.Vaqifin aşağıdakı beytində ifadə edilir:

Mən sevmişəm ala gözün sürməsin,
Bəd nəzər kəsibən ziyan verməsin.

Deməli, əslində bəlanın qarşısını alan göz anlayışı sonralar özünə tam zidd bir məna kəsb etməyə başlamışdır. Qədim yunanlar çini qablara bəzək kimi iri göz şəkilləri çəkərdilər. Güman edilirdi ki, bu göz şəkli o qabdan istifadə edəni bəladan (zəhərlənməkdən, məst olmaqdan və s.) qoruyacaqdır. (Dilimizdə ***gözətləmək, göz olmaq, göz qoymaq, gözdə-qulaqda olmaq*** və s. vahidlərdə bu məna hiss edilir).

Hələ "Avesta"da göstərilir ki, bəzi adamlar pis gözə sahibdirlər və onların gözləri xəstəlik gətirir. Bu inam bir çox xalqlarda da vardır. Guya nəinki insanın, habelə ilanın, şirin, pişiyin, itin də gözləri bəla gətirmə qabiliyyətinə malikdir. İndi də bir çox xalqlar inanırlar ki, gözdəymədən adamlar və heyvanlar xəstələnir, ağaclar, güllər quruyur və s.

M.F.Axundovun "Kəmalüddövlə məktubları"nda deyilir: "İbn-Xəldunun işarət etdiyi kimi, ərəblərin vəhşilik əlamətlərindən bəzisi budur ki, onlar sehrə, caduya, gözdəyməyə.... inanırlar. Bu halət Afrika, Amerika və Avstraliya vəhşiləri arasında da görünür. İslam peyğəmbəri onların vəhşiliyini cahiliyyət adlandırmışdır". (1)

Hindistanda çox yayılan bir inama görə bəd nəzər sahibi kimə baxsa, o şəxs hökmən arıqlayıb öləcəkdir.

Professor Sübhi Bəktaşi məşhur "Şah" adlı almazdan bəhs edərkən yazır: "Almaz ona sahib olan hakimin taxtının qabaq tərəfindən qızıl zəncirlə asılarmış və hökmdarı pis gözdən qoruyarmış. Yeni torpaqların işğalı üçün səfərə çıxarkən hökmdarlar almazı qılınclarının dəstəyinə bənd edər, yaxud boyunlarından

asırlarmış. Bu, məğlubiyyət və yaralardan qorunmaq üçündür. Belə göz daşlarına ərəblər, hindlilər və farslar dərin inam bəsləyiblər".(1)

İtaliyada bəd nəzər sahiblərini xüsusi gözlüklə gəzməyə məcbur edirdilər. Tədqiqat göstərmişdir ki, ABŞ-da universitet tələbələrinin 70-90 faizi bəd nəzərə inanır. Çikaqo radiostansiyası məşhur bədnəzər Finkel haqqında geniş veriliş təşkil etmişdi. Finkel xüsusilə idmançılar arasında geniş şöhrət qazanmışdı. Finkel hansı idmançıya baxarmışsa, o mütləq uduzmalı idi. (1)

Müxtəlif xalqlarda güzgü ilə bağlı bir çox inam və inanclar mövcuddur və bu inamla bağlı ifadələrə də dildə tez-tez rast gəlinir. Məsələn, ***Breaking a mirror is for bad luck – Güzgünün sındırılması pis əlamətdir*** (uğursuzluq gətirir). Bu inam da bir çox xalqlarda, o cümlədən də ingilis və Azərbaycan xalqları arasında geniş yayılmış bir inamdır, lakin hər bir xalqda onun öz fərqli çalarları vardır. Məsələn, ingilislər inanırlar ki, güzgünün sındırılması onu sındıran şəxsə yeddi il bədbəxtlik gətirəcək. Bu inamın yaranması demək olar ki, XVIII əsrə aiddir, lakin güzgünü sındıran insanın bədbəxtliyə duçar olacağı və ya öləcəyi inamı isə ondan daha qədimdir (4). Romalılar, eləcə də qədim yunanlar, çinlilər, bir çox Afrika xalqları və hindlilər inanırdılar ki, insan güzgüyə baxarkən onun ruhu orada əks olunmuş şəklinə keçir və əgər güzgü sınarsa onun daxilinə keçmiş ruh da zədələnir. Məşhur ingilis tədqiqatçısı Con Brend 1777-ci ildə yazdığı "Observations on the popular antiquities of Great Britain" əsərində güzgünün sindirilması mövhumatı barədə qeyd edir: "The breaking a Looking Glass is accounted a very unlucky accident. Mirrors were formerly used by Magicians in their superstitious and diabolical operations; and there was an ancient [sic] Kind of Divination by the Looking Glass." (4) Yəni, güzgünün sındırılması bədbəxtlik gətirən bir hadisədir. Güzgülər qədimdən cadugərlər (baxıcılar) tərəfindən şeytani əməllərdə və baxıcılıq məqsədilə istifadə edilərdi.

Güzgü ilə bağlı mövhumat səciyyəli inamlar illər, əsrlər keçdikcə daha da inkişaf edir, xalqın içində, düşüncəsində, adət və ənənələrində daha dərin bir iz qoyurdu. Məsələn, Lord Alfred Tennison 1842-ci ildə yazdığı "The Lady of Shalott" adlı nəzm əsərində yazır: ""The mirror cracked from side to side; The curse has come upon me", cried the Lady of Shalott". (4)

Artıq 1800-cü illərdə İngiltərədə güzgünün sınması ailənin üzvlərindən birinin və ya yaxın dostlardan birinin ölümünə işarə hesab edilirdi. Güzgünü sındıran insanın yeddi il bədbəxtliyə dükar olacağı fikrinə, inamına ilk dəfə 1851-ci ildə yazılı şəkildə rast gəlinmişdir. (4) Bu inamın yaranması səbəbləri dəqiq məlum deyildir, lakin onu belə bir Roma inancı ilə əlaqələndirmək olar ki, insan bədəni hər yeddi ildən bir yeniləşir və çox güman ki, bu yeniləşmə prosesi insanın ruhunu da mənfi qalıqlardan təmizləyir.

Müasir dövrdə, "güzgünün sınması lənəti"ndən hələ də ehtiyat edilən bir dövrdə güzgünün qırıqlarını tez süpürüb tullayırlar ki, heç kim görməsin, lakin qədim ingilislər bu fəlakətli hadisəni yumşaltmaq məqsədilə bir sıra ənənəvi rituallara əməl edirdilər. Bəziləri güzgü qırıqlarını tozla basdırırdılar ki, orada ilişib qalmış ruhu azad etsinlər, bəziləri isə bütöv ayın işığı altında onu ağacın altında torpağa basdırırdılar. Amerikada yaşamış afrikalılar isə inanırdılar ki, sınmış güzgünün qırıqları cənub istiqamətinda axan çayın suyuna atılsa, onlarda olan uğursuzluq, bədbəxtçilik yuyulub gedər.

Azərbaycan xalqı və demək olar ki, bütün türk xalqları da güzgü ilə bağlı eyni inama inanırlar, yəni güzgünün qırılmağı bədbəxtlik, xəstəlik, uğursuzluq əlamətidir. Azərbaycan dilidə bu inamla bağlı ifadələrə xalq arsında tez-tez rast gəlinir. Məsələn: ***Güzgü qırıldı, ev dağıldı; Sınmış güzgü xeyrə deyil; Sınıq güzgü bədbəxtçilik gətirər; Evdə sınıq (çatlaq) güzgü saxlamazlar*** və s.

İngilis və Azərbaycan dillərində güzgü ilə bağlı inam əsasında yaranmış daha bir maraqlı ifadə var: ***Covering mirrors after a death in the home – evdə kimsə ölərsə güzgülərin üstünü örtmək lazımdır***. İgiltərədə hələ XVI əsrdən güzgülər qeyri-təbii, paralel aləmə bir qapı, portal hesab edilirdi. Hesab edirdilər ki, günaha batmış hər hansı bir insan güzgüdə uzun müddət öz əksinə baxardısa orada iblisin özünü görə bilərdi. Bu fikir xüsusilə ona görə qorxulu idi ki, insanlar güzgüdə olan simalarının onların ruhunu təcəssüm etməsinə inanırdılar və onların simaları güzgüdə əks olunarkən daha zəif olaraq ya şeytan tərəfindən, ya da təzə ölmüş bir insanın ruhu tərəfindən tutula bilərdi. Onların ruhu güzgüdə tutulub saxlanıldığı üçün cismi bədənləri də kənar bir ruh tərəfindən zəbt olunmaq təhlükəsi qarşısında idi. Bu qorxu və fobiyalar evdə bir kəs ölərkən güzgüləri nə iləsə örtmək, bağlamaq adətinin yaranmasına səbəb olmuşdur. İngilis yazılı mənbələrində bu fakta ilk dəfə 1780-ci illərdə rast gəlinmiş və 1900-cu illərin əvvəllərinədək mütləq əməl olunan adətlərdən biri idi. 1911-ci ildə ”The Golden Bough” mifoloji əsəri ilə tanınmış şotland antropoloqu Ser Jeyms Corc Freyzer bu inam əsasında yaranmış ifadənin geniş izahını verir: “It is feared that the soul, projected out of the person in the shape of his reflection in the mirror, may be carried off by the ghost of the departed, which is commonly supposed to linger about the house till the burial.” (4) Yəni, bu inamın əsasında belə bir qorxu durur ki, insanın güzgüdəki əksi formasında təcəssüm olunmuş ruhu dəfn olunana qədər hələ də evdə yubanmaqda olan ölən insanın ruhu tərəfindən tutularaq zəbt oluna bilər. Bu inamın Avropa və Amerikada daha geniş yayılmış başqa bir variantı da vardır ki, təzəcə ölmüş bir insanın otağında güzgüyə baxılarsa, həmin insanın əksini güzgüdə görmək mümkündür.

Ədəbiyyat

1. Adilov M. Niyə belə deyirik?, Bakı, 1982.
2. Seyidov M. Azərbaycan xalqının söykökünü düşünərkən, Bakı, Yazıçı, 1989.
3. Şükürov A.M. Mifologiya, 3 cild, Bakı, elm, 1995.
4. Chloe Rhodes. Book of Old-Fashioned Superstitions, London, 2012.
5. Hendrickson R. Salty Words, New York, 1984.
6. Oliver Harry. Black Cats and April Fools: Origin of Old Wives’ Tales and Superstitions in Our Daily Lives, London, 2006.

Aytan Hajiyeva

Expressions originated from the identical beliefs
in different languages
Summary

This article deals with the identical beliefs in different languages and their etymology. It also introduces expressions originated from these identical beliefs.

Such expressions and also their identity are analysed on the basis of materials of different languages. Also some word collocations and folk divinations and spells are revealed and analyzed in the article. It introduces some general theoretical notes followed by the analysis of interesting similarities between the beliefs of generally Turkish and English-speaking peoples. Some etymological features of such superstitions as belief in the power of mirrors, evil eye, power of salt and others are analyzed in the article.

А. Гаджиева

Выражения образованные на основе одинаковых
верований на разных языках
Резюме

В настоящей статье рассматриваются одинаковые верования на разных языках и их этимология. Также выявляются выражения образованные на основе одинаковых верований. Такие выражения, а также их схожесть рассматриваются на материале разных языков. А также рассматриваются и анализируются некоторые словосочетания, народные заклинания и приметы. Вслед за изложением общетеоретических положений выявляются интересные сходства между верований тюркских и англоязычных народов. Анализируются некоторые этимологические особенности таких суеверий как вера в силу зеркал, сглаз, приметы связанные с солью и т.д.

Rəyçi: İkram Qasımov
filologiya elmləri doktoru, professor

DİLARƏ HƏMİDOVA
AzTU
dilara@mail.ru

ELMİ-TEXNİKİ TƏRCÜMƏNİN BƏZİ PROBLEMLƏRİ

Açar sözlər: qloballaşma, kommunikasiya, iqtisadiyyat, sənaye, tərəqqi, beynəlxalq təşkilatlar, sıx əlaqələr, texnologiya, mültilinqualizm.
Ключевые слова: глобализации, связи, экономики, промышленности, развития, международные организации, близкие отношения, технологии, мультилингуализм
Keywords: globalization, communication, economy, industry, development, international organizations, close relations, technology, multilingualizm.

Texniki təcrüməçilərin peşəkarlığı. Bir çox texniki tərcüməçilər keçmiş mühəndislər, elm işçiləri, hüquqşünaslar və müxtəlif sahələrin mütəxəssisləridir. IBM, Dell və Apple kimi dünya miqyasında tanınmış nüfuzlu şirkətlər öz məhsullarının təlim və istifadə kitabçalarını digər dillərə tərcümə etdirərkən işə həmin sahədə alışan istedadlı mütəxəssisləri cəlb edirlər. Əlbəttə, təkcə texniki terminləri dərindən bilmək, texniki məlumata sahib olmaq lazım olan düzgün fikrin tərcümə mətndə hər hansı bir mühəndisə və ya texniki sahə işçisinə çatdırılmasına kifayət edə bilər. Ancaq texniki sahədə və ya mövzuda biliklərlə bərabər yüksək dil və yazı yazma bacarıq və qabiliyyətinə sahib olmaq lazımdır ki, lazımi məlumatlar bir dildən başqa bir dilə daha səviyyəli, dəqiq formada, daha aydın ifadələrlə tərcümə edilsin və hədəf mətndən istifadə edən hər hansı qeyri-peşəkar şəxs o mətni oxuyarkən çatdırılması nəzərdə tutulan məlumatı asanlıqla başa düşsün. Əgər texniki mətnlərin strukturunun 50%-ni terminlər təşkil edirsə, geri qalan 50% qrammatik xüsusiyyətlərdir. İngilis dilində yazılmış hər hansı bir texniki mətnin qrammatik tərkibini passiv strukturların, üçüncü şəxs əvəzliklərinin, indiki zamanın istifadəsi və texniki xarakteristik formatda olması təşkil edir.

Bəzi hallarda, texniki sahədə hər hansı bir tərcümə prosesi həmin sahənin qeyri-peşəkarı tərəfindən icra edilir. Belə olan halda, tərcüməçi çox asanlıqla qarşısına çıxan jarqon mahiyyəti texniki sözləri normal mənada verərək yanlış mənaların ortaya çıxmasına səbəb ola bilər. Bu cür problemlərin yaranmasının qarşısını maksimum dərəcədə almaq üçün tərcümə edilən sahənin qeyri-mütəxəssis tərcüməçisi ekspertlərlə məsləhətləşmələr sürətlə işin öhdəsindən gələ bilər. Hər hansı bir sahədə akademik səviyyədə dilbilmə bacarığı və ikinci bir xarici dili tərcümədə məharətlə istifadə etmə qabiliyyəti bir texniki tərcüməçidə tələb olunan ideal xüsusiyyətlərdir.

Texniki mətnlərin özünəməxsus texniki üslubu vardır. Bu tip mətnlər peşəkarlıqla yazıldığı surətdə emotiv dildən, orijinal metaforalardan istifadə edilmir, əlavə məna çalarlarına yer verilmir, səs effektləri yaradılmır. Paepcke, texniki dilin 4 müxtəlif səviyyədə növünü təyin etmişdir:

1. elmi səviyyə;
2. emal prosesi zamanı meydana çıxan dil səviyyəsi;
3. günlük istifadə səviyyəsi;

4. xalq arasında yayılmış və ya alqı-satqı səviyyəsində.

Peter Newmark, tibb terminologiyasını nəzərə alaraq o sahədəki dil səviyyəsini 3 qrupa bölmüşdür:

1. akademik səviyyədə (bu qrupa latın və köhnə yunan dillərindən ingilis dilinə keçmiş bir sıra terminlər daxildir);

2. professional səviyyədə (mütəxəssislər tərəfindən çox istifadə olunan terminlər);

3. xalq arasında yayılmış populyar səviyyədə (bəzi çətin terminlərin yerinə istifadə olunan alternativ sözlər).

Texniki tərcümə prosesi haqqında. Texniki mətn və sənədləri tərcümə edərkən əvvəlcə həmin mətni sonadək oxuyub anlamaq (çətin sözlərin alıtndan xətt çəkərək), daha sonra onun xüsusiyyətləri, formallıq dərəcəsini, mətnin məramını dəyərləndirmək və eyni zamanda, oxucular nəzərə alınaraq orijinal mətnlə hədəf mətn arasında yaranacaq mədəni və professional fərqlilikləri müəyyən etmək lazımdır. Bir sonrakı addım isə tərcümənin çərçivəsini və formatını təyin etməkdir. Tərcüməçi, sifarişçidən tərcümə mətnin hansı formatda olacağı və hansı təbəqədəki oxucular üçün nəzərdə tutulması barədə əvvəlcədən məlumat almalıdır. Texniki tərcümə əsnasında tərcümə cümlə-cümlə aparılmalı, hədəf dilin təbiiliyini qorumaq üçün bəzi qrammatik dəyişikliklər edilməlidir.

Alman linqvist-tərcüməçisi Klaus Schubert texniki tərcümə prosesi üçün «Vahid Xüsusiləşmiş Rabitə Modeli»-ni (Intergrative Model of Specialized Communication) təqdim etmişdir. Bu modelə əsasən rabitə fəaliyyəti 4 ölçüdə analiz edilir. Bu ölçülər aşağıdakılardır:

1. **Texniki mövzu.** Texniki sənədlərin mövzusu normal olaraq texniki məhsullar və xidmətlərlə əlaqədardır. Bir çox tipik texniki sənədlər cihaz, qurğu, mühərrik və proqram sistemlərinin quraşdırılması, istifadəsi, qorunub saxlanılması, təmiri və qaydaya salınması ilə əlaqəli təlim kitabçaları sayılır. Digər növ sənədlərə isə məhsul haqqında məlumat, məhsulun xüsusiyyəti, məsləhətlər, hissələrin siyahısı və kataloqların yer aldığı sənədlər daxildir. Texniki mövzu ölçüsündə texniki tərcümənin başlıca xüsusiyyətləri bunlardır: mövzunun seçilməsi (nə haqqındadır), sıraların (hansı sıraya əsasən?), daxil olma strukturu (necə tapmalı?).

2. **Linqvistik forma.** Linqvistik forma ölçüsündə texniki tərcümənin əsas maraq obyekti xüsusi məqsədlər üçün dilin istifadə edildiyi sənədlərdir. İngilis dilində bu ideyanı ifadə edən qısa akronim LSP (Languages for Special Purposes) adlanır. Avropa dillərində LSP mətnlər leksik, morfoloji, söz formasiyalı, sintaktik və mətn-linqvistik səviyyələrdə xüsusi əlamət və xüsusiyyətlərinə görə xarakterizə olunurlar.

3. **Texniki mətbuat.** Texniki mətbuat dedikdə nəzərdə tutulan ölçü tipoqrafiya, sənədlərin, eləcə də, illustrasiyaların, şəkillərin, qrafikaların, audio və video materialların, kompyuter proqramlarının web dizayn formatında tərtibi ölçüsüdür. Günümüz praktikasında tərcüməçilər tərəfindən ərsəyə gətirilmiş və ya digər texniki kommunikatorlar bu ölçüyə daxildir. Bu ölçünün əsas xarakterik xüsusiyyəti faylın formatıdır.

4. **İş prosesi.** İş prosesi ölçüsündə həm yerinə yetiriləcək vəzifələrin təşkili, həm də iş prosesində istifadə edilən vasitələr nəzərdə tutulur. Tərcümə işinin biznes

tərəfini kənara qoyduğumuz zaman, sadəcə geri qalan tərcümə prosesinə aid məqamlar nəzərə alınarsa, texniki tərcümənin vəzifə siyahısı aşağıdakı kimidir:

- qaynaq sənədin qəbul edilməsi;
- iş, vəzifə, öhdəlik və xüsusiyyətlərinin qəbul edilməsi;
- məlumatın araşdırılması;
- iş təşkilinin planlaşdırılması;
- tərcümənin edilməsi;
- formatlaşdırma;
- reviziya;
- yekunlaşdırma.

Tərcümə işinin özü normal olaraq kommunikativ proses in uzun, zəncirvari hissələrindən biridir.

Terminologiya. Texniki tərcüməni digər tərcüməni növlərindən fərqləndirən başlıca faktor terminologiyanın daha intensiv istifadəsidir. Məhz buna görədir ki, texniki tərcümə deyildikdə ağla gələn ilk mövhum müxtəlif xüsusi sahələri əhatə edən terminologiyadır.

Terminologiya elm, texnika, sosial elmlər və sənət sahələrilə əlaqəli sözləri dərindən öyrənən müxtəlif sahələrdə isifadə olunan terminləri araşdıran xüsusi bir elm sahəsidir. Uzun illərdir ki, terminologiya nəzəriyyəsi, terminlərin sttandartlaşdırılması, istifadəsi, vahid terminoloji məlumat bazasının yaradılması alimlərin maraq və çalışma obyekti olmuşdur.

Keçmişdə, tərcüməçilər və dilçi alimlər terminologiya sahəsinə tərcümənin tərkibində ayrılmaz bir hissə nəzərilə baxdıqları üçün bu sahəyə göstərilən maraq da bir mənalı olaraq məhdud dərəcədə qalmışdı. Ancaq 1980-ci illərin əvvəllərindən etibarən bu sahənin bəzi universitetlərin tərcümə bölmələrində ayrıca bir dərs olaraq keçilməyə başlanılmasından sonra əhəmiyyəti dərk edilməyə başlandı.

Effektiv etibarlı və sürətli mütəxəssis tərcümə işi çox geniş miqyaslı terminologiya işi nisbətində qiymətləndirilir. Tərcümə prosesində terminologiya işi monolingual formalardan çox bilinqual və multilinqual formaların istifadəsi daha çox əhəmiyyət kəsb edir. Elm adamları texnologiya administrasiya sahəsinin ekspertləri hüquqşünaslar hər il yeni-yeni terminlər ərsəyə gətirdilər. Hətta Avropa Birliyində vahid terminologiya mərkəzi məlumat bazası mövcuddur. Yeni ortaya çıxan hər hansı konseptə ad verildikdə yeni fərqli bir termin yaranmış olur. Yeni elmi terminlər beynəlxalq elm cəmiyyətinə ingilis və fransız dilləri kimi əsas daşıyıcı dillər vasitəsilə yayılır.

Yeni meydana çıxmış hər hansı bir terminin beynəlxalq arenada qəbul edilməsinin başlıca əhəmiyyətli kateqoriyalarından biri onun təqdim olunan konsepti aydın formada ifadə edə bilmə gücüdür. Terminoloji standartlaşmanın ən əhəmiyyətli nəticəsi isə dünya mütəxəssisləri arasındakı effektiv və sürətli rabitənin əldə olunmasına və yanlış anlaşılmalardan qaçınmağa köməklik göstərməsidir.

Tərcüməçilər üçün terminologiya nəzəriyyəsinin əsas prinsiplərinə dərindən bələd olmaq tələb olunan olduqca mühim keyfiyyətlərdəndir. Tərcümə və terminologiya koqnitiv, linqvistik və kommunikativ əsasları olan qarşılıqlı sıx münasibət daxilində interdisiplinar sahələrcir. Hər iki sahə xüsusi fikir və ya anlayışı ifadə edən, praktiki fəaliyyətin məntiqi nəticəsi olan, xüsusi sosial kontekst içərisində bilgi kateqoriya və bölmələri mövcud olan məlumat və kommunikasiya sahələridir.

Aralarında bir çox oxşarlıq olan bu sahələr arasında çox mühüm fərqlilik də vardır. Tərcümə sahəsi, tərcümə edilən mətnin analizi və tərcümə prosesi fəaliyyətilə birbaşa əlaqəli ikən, terminologiya sahəsinin diqqəti isə hər hansı bir mütəxəssisin düşüncəsində formalaşan bilgini təmsil edən məzmun düyümləri və leksik formalara yönəlmişdir.

Məqsəd baxımından da hər iki sahə arasında bariz fərqliliklər mövcuddur. Tərcümənin məqsədi semantik-praqmatik quruluşları bir digər dilə daha orijinal formada çevirməkdirsə, terminologiyanın hədəfi tərcümə ekspertləri və digər sahə mütəxəssisləri üçün istifadəyə əlverişli olan, xüsusi sahəyə aid terminləri vahid müstəvidə toplayıb lüğət, qlossari və ya məlumat baza xarakterli terminoloji qaynaq yaratmaqdır.

Əslində, tərcüməyə terminologiya arasında asimmetrik bir əlaqə mövcuddur. Professional tərcümədə adekvat mətnin əmələ gətirilməsində terminologiyanın instrumental və funksional rolu qaçınılmazdır. Tərcümə əsnasında ortaya çıxacaq hər hansı bir terminoloji problem xüsusi sahəylə bağlı dəqiq məlumatın müəyyən mənada təhrif olunmasına səbəb ola bilər. Xüsusi sahələrin tərcüməsində iştirak edən əksər tərcüməçilər aşağıdakı ortaq problemlərlə üzləşə bilərlər:

- hər hansı bir terminin mənasını tam və ya natamam formada başa düşməmək;
- terminlərin qrammatik istifadəsini və ya qaynaq dildə daşıdığı praqmatik dəyərini tam qavramamaq;
- orijinal mətndə hədəf dilə tərcümə ediləcək terminlərin leksik semantik və praqmatik ekvivalentlərinin mövcudluğundan xəbərsiz olmaq;
- tapılmıış alternativ mənalar içərisindən qaynaq verilmək istənilən mənaya ən uyğun olanını seçərkən şübhə içərisində olmaq;
- qaynaq mətndə istifadə olunan frazeoloji birləşmələrə xüsusi sahə tərcüməsi prosesi əsnasında lazımi qədər diqqət yetirməmək.

Qarşıya çıxacaq bu tip problemlərin effektiv surətdə həllini tapmaq və qaynaq mətnin tam olaraq dərk edilməsi üçün tərcüməçilər sözlərin qrammatik və praqmatik vəziyyətlərdə mənalarını öyrənmək üçün sözlərin mənbələrilə bağlı referans tipli kitablardan istifadə etməlidirlər. Bəhs edilən referans qaynaqlar orijinal dildə olan xüsusi monolinqual lüğətlər və ya multilinqual terminoloji lüğətlər ola bilər. Problemin digər effektiv həlli isə həmin sahənin mütəxəssislərilə müzakirələr apararaq lazımı məqamlarda məsləhətlər almaqdır. Tərcümə prosesinə başlamadan əvvəl terminlərlə bağlı fundamental problemlərin həll edilməsi prosesin sonrakı mərhələlərində tərcüməçinin işini olduqca asanlaşdırır.

Bəzi hallarda hər hansı bir xüsusi mövzuyla bağlı hansısa bir dildə heç bir kommunikativ material mövcud olmur və ya həmin mövzuların müzakirəsi üçün mütəxəssislər digər dillərdən alınma sözlərdən istifadə edirlər. Bu səbəbdən həmin dilə tərcümə edərkən lazımı ekvivalenti tapmaq qeyri-mümkün olur. Belə olan vəziyyətdə peşəkar tərcüməçilər ekvivalentlik təşkil edəcək bəzi yeni sözləri təklif olaraq irəli sürə bilərlər. Təbii ki, təklif edilən terminlərin qəbul edilməsi üçün məntiqi, leksik, morfoloji, sosiolinqvistik və praqmatik əsaslar olmalıdır.

Ədəbiyyat

1. Şiriyev E.C. İngiliscə-Azərbaycanca, Azərbaycanca-ingiliscə Müasir Lüğət. Bakı: Qismət, 2008, 912 s.
2. Aksoy Fatma. A Comparative Study: Translation of Legal terminology in English, French and turkish Texts: Masteŕ s Thesis. Ankara, Hacettepe University, Department of Interpretation and Translation, 2007, 114 s.
3. Ünal Elif. Turkeý s Regular Reports and An Analysis of Economical Terminologiy: Masteŕ s Thesis. Ankara, Hacettepe University, Department of Interpretation and Translation, 2007, 111 s.
4. Bassnett Susan. Translation Studies. London/New-York: Routledge, 2002, 188 s.

D.Amidova

The importance of translation.
Summury

We are living in the Era of widespread Globalization process in which rapid changes and real improvements in various spheres of human society have engendered revolutionary development and progression of all types of communication. Hence, iŕ s not surprising that the of translation has also encountered new challenges. The main reasons of improvement of communication at international level all around the world are modern economy, industry, culture, technology and development of different scientific fields. In such case, born of multilingualizm in modern human societies and close relations among international organizations have revealed and emphasized the importance of translation.

Д.Гамидова

Проблемы технического перевода
Резюме

Мы живем в эпоху широкого распространения процессов глобализации, в котором быстрые изменения и реальные улучшении в различных сферах. Человеческого общества породили революционные развитие и прогрессирование всех видов связи. Таким образом, это не удивительно что в области перевода также столкнулись с новыми вызовами. Основными причинами улучшения связи на между народном уровне во всем мире развитие современной экономики, промышленности, культуры, техники и различных научных областях. В таком случае, рожденный мултилингуализм в современном человеческом обществе и тесные отношения между международными организациями выявили и подчеркнули важность технического перевода.

Rəyçi: N.Rzayeva
filologiya üzrə fəlsəfə doktoru

İLAHƏ MƏMMƏDOVA
ADU
ilaha_1976@mail.ru

İNGİLİS DİLİNDƏ İNVERSİYA HADİSƏSİ

Açar sözlər:isim, fel, inversiya, vurğulamaq üçün, mübtəda.
Key words: noun, verb, inversion, for emphasis, subject.
Ключевые слова: существительное, глагол, инверсия, для эмфатического усиления, подлежащее.

İfadəlilik əldə etmək məqsədilə nitqdə sözlərin adi, ümumişlək sırasının pozulması, cümlə üzvlərinin yerlərinin dəyişilməsi hadisəsi inversiya adlanır. İnversiya filoloki termin kimi nitq ünsürlərinə aiddir. İnversiya latın sözü "inversio" olub, "dəyişilmə, yerdəyişmə" deməkdir. Adətən inversiyadan psixoloji və üslubi effekt üçün istifadə olunur. Ədəbiyyatda inversiyadan daha çox istifadə edilir, belə ki, yazıçılar və şairlər öz fikirlərini daha qabarıq , daha emosional şəkildə göstərmək üçün inversiyadan istifadə edirlər və bu zaman nitqi daha da ifadəli edirlər. İnversiya hadisəsi nitq hissələrinin yerini dəyişməsi yolu ilə baş verir, burada əsasən fellə isim öz yerini dəyişir. İnversiyadan müxtəlif dillərdə istifadə olunur. Azərbaycan dilində də inversiyadan geniş istifadə edilir. Məs:

Sızlar, yada düşəndə, ürəyimin telləri,
O mehriban, o əziz tələbəlik illəri (C.Novruz)

Bu beytdə çox mürəkkəb, bir neçə pilləli inversiya özünü göstərir. Əslində bu cümlədə söz sırası aşağıdakı kimi olmalıdır: "O mehriban, o əziz tələbəlik illəri yada düşəndə ürəyimin telləri sızlar." Lakin şair şeirin daha da dilə yatımlı, daha da ifadəli olması üçün inversiya hadisəsindən istifadə etmişdir.

Fransız dilində inversiya əsasən sual cümlələrində özünü göstərir. Məs: "*Tu aimes le chocolat*." nəqli cümlədir, bu cümlə ingilis dilində *"I like chocolate."* (Mən şokolad xoşlayıram) cümləsi ilə eynidir. Sual cümləsində inversiya baş verir və *tu (you)* mübtəda ilə *aimes (like)* xəbəri yerini dəyişir. Nəticədə *"Aimes tu le chocolat?"* sual cümləsi düzəlir. Bu sual cümləsi ingilis dilindəki *"Do you like chocolate?"* (Sən şokolad xoşlayırsan?) sual cümləsi ilə üst-üstə düşür. Alman dilində də inversiya hadisəsi ingilis dilindəki inversiya hadisəsinə uyğun gəlir. Məs: alman dilindəki *"du magst"* ingilis dilində *"you like"* (Sən xoşlayırsan) mənasını verir. Bu cümlə inversiyaya uğradıqda *"Magst du?"* kimi yazılır, bu da ingilis dilindəki *"Do you like?"* (Sən xoşlayırsan?) mənasını ifadə edir.

Sabit söz sırası olan dillərə nisbətən sərbəst söz sırasına malik olan dillərdə inversiya hadisəsinə daha tez-tez təsadüf edilir. Bu, xüsusi qrammatik konstruksiyaların bir hissəsi kimi yox, daha çox praqmatik səbəblərdən baş verir.

Bildiyimiz kimi ingilis dilində sabit söz sırası mövcuddur. Bu o deməkdir ki, nəqli cümlələrdə birinci yerdə fikrin predmetini bildirən, qrammatik cəhətdən cümlə üzvlərinin heç birindən asılı olmayan və cüttərkibli cümlənin baş üzvü kimi çıxış edən sintaktik vahid, yəni mübtəda; ikinci yerdə isə mübtədaya tabe olan və mübtə-

danın əks etdirdiyi əşyanın aktiv və ya passiv əlamətini bildirən cümlənin baş üzvü, yəni xəbər işlədilir. Məs:

1. I was a little nervous before seeing Mr. Rochester next morning. (Charlotte Bronte)
2. Miss Mamie Potter was not better than Joe. (J. B. Priestley)
3. I leaped to my feet, bellowing like a bull. (Max Shulman)
4. I'll eat nothing for dinner tonight. (W. S. Maugham)

Yuxarıda qeyd etdiyimiz kimi sabit sız sırasının dəyişilməsi dildə inversiya hadisəsi *(inversion; inverted word order; inverse word order)*. İngilis dilində inversiya adətən köməkçi felin, modal felin və ya əsas felin mübtədadan əvvələ keçməsi yolu ilə düzəlir. İnversiya müəyyən bir məqsədlə, xüsusilə hər hansı bir fikri vurğulamaq üçün istifadə edilir. Məs:

1. What a smile she had. (C. Bronte)
2. What do you mean? I'm telling the truth. (J. Bocarro)
3. How do you feel about Joe Pearson and the way he's leaving? (A. Hailey)
4. Then came the question of drink. (W. S. Maugham)

İngilis dilində inversiya hadisəsinin iki növü vardır:

1. **Mübtəda-fel inversiyası** (subject-verb inversion). Bu zaman mübtəda ilə əsas məna daşıyan fel yerlərini dəyişir və cümlədə söz sırası fel+mübtəda (verb+subject) strukturunda olur. Məs:

1. On the top of the hill **stood an old oak tree.**
2. Down the stairs **came the dog.**
3. On the doorstep **was a bunch of flowers**.

2. **Mübtəda-köməkçi fel inversiyası** (subject-auxiliary inversion). Bu inversiya nəticəsində mübtəda ilə köməkçi fel cümlədəki yerlərini dəyişirlər və cümlədə söz sırası köməkçi fel+mübtəda (auxiliary+subject) və ya köməkçi fel+mübtəda+əsas məna daşıyan fel (auxiliary+subject+verb) şəklində olur. Məs:

1. When **does the bus leave** ?
2. You are hungry, **aren't you**?
3. Hardly **had I arrived** at home when my phone rang.

Bu geniş yayılmış inversiya növlərindən əlavə bəzi digər qrammatik strukturlar da inversiyaya uğrayır. Buna *there is, there are* ifadələri ilə işlənən cümlələri , *here* və ya *there* sözləri ilə başlanan cümlələri, "So do I" və ya "Neither do I" tipli cavab cümlələrini və s. misal göstərmək olar.

İndi isə tipik inveersiya növlərinə ayrı-ayrılıqda bir daha nəzər salaq və onlar haqqında biliklərimizi misallarla möhkəmləndirək.

I. Sual cümlələrində inversiya:

İngilis dilində ən geniş yayılmış inversiya növü köməkçi felin mübtədadan əvvələ keçməsi ilə baş verir. Buna əsasən sual cümlələrində rast gəlinir. Məs:

1. **Will you tell** me what your attitude is – to medicine and to this hospital? (A. Hailey)
2. **Does my deep love mean** nothing to you? (C. Bronte)
3. **Why, then, shouldn't the students be allowed** to look at their textbooks during the examination? (Max Shulman)

Is this story long?
How long is this story?
Has she found her keys?

II. There is/ there are konstruksiyasında inversiya:

There is / there are ifadələri ilə işlənən cümlələrdə, eyni zamanda bu konstruksiyaların tərkibində modal fel və ya əsas məna daşıyan fel olarsa bu zaman inversiya tələb olunur. Məs:

1. There is an interesting article about Spain in today's newspaper.
2. There are several books on the table.
3. Once upon a time there lived an old man in a small house by the sea.
4. There can be no doubt about it.
5. There must be reason for their arrival.
6. There exist several theories on this matter.

III. Here və ya there sözlərindən sonra inversiya:

Here və ya *there* ilə başlanan cümlələrdə inversiya hadisəsi baş verir. Onu da qeyd edək ki, *here* və ya *there* ilə başlanan cümlələr idiomatic xarakter daşıyır. Məs:

1. **Here is the book** you asked for.
2. **Here comes my bus**.
3. **There goes my money**.
4. Unfortunately **there came a time** when Joe didn't do new things any more. (A. Hailey)
5. **Here comes your friend.**
6. **Here rises the Sun**.

Qeyd edək ki, əgər here və ya there ilə başlanan cümlələrin mübtədası şəxs əvəzliyi ilə ifadə olunarsa, bu zaman fel mübtədadan sonra işlədilir. Məs:

1. **Here he is**, Mr. Mason! Called the lawyer. (C. Bronte)
2. So **there I was**, high up on the chair, publicly displayed as an ugly example of evil. (C. Bronte)
3. **Here you are.**
4. **There she is.**
5. **Here he comes**.

IV. So və neither konstruksiyalarında inversiya:

"So do I" və "Neither do I" tipli cavab cümlələrində inversiya tələb olunur. Məs:

1. I like coffee. – **So do I.**
2. I don't like coffee. – **Neither do I.**
3. She will wait for them. – **So will I.**
4. She won't wait for them. – **Neither will I**.

İnversiya həmçinin belə konstryksiyalı mürəkkəb cümlələrdə də labüddür.

Məs:

1. I like coffee, and **so does Ella**.
2. I don't like coffee, and **neither does Ella**.
3. She will wait for them, and **so will my brother**.
4. She will not wait for them, and **neither will my brother**.

V. Şərt budaq cümlələrində inversiya:

Əgər şərt budaq cümlələrində "if" bağlayıcısı işlədilməzsə, bu zaman cümlə inversiyaya uğrayır. Əgər "if" bağlayıcısı cümlədə işlədilərsə, bu zaman budaq cümlədə söz sırası sabit söz sırası şəklində olur. Məs:

1. **Should my son call,** ask him to wait for me at home. – If my son should call, ask him to wait for me at home.
2. **Had I known him,** I would have helped him . – If I had known him, I would have helped him.
3. **Were I not so tired,** I would go there with you. – If I were not so tired, I would go there with you.

VI. Vasitəsiz nitqdən sonra inversiya:

Əgər "said, asked, replied" sözləei vasitəsiz nitqdən sonra gələrsə, bu zaman inversiya baş verir. Məs:

1. "Produce him – or go to hell!" **said Mr. Rochester.** (C. Bronte)
2. "Perhaps it'll stop soon," **said Susie hopefully**. (J. B. Priestley)
3. "I lost my purse," **replied the old woman.**
4. "If they spoil it for me to night," Susie continued, "I'll kill them, the beasts!" (J. B. Priestley)

Əgər bu tipli cümlələrdə mübtəda şəxs əvəzliyi ilə ifadə olunursa, bu zaman cümlədə söz sırası mübtəda+fel formasında olur. Məs:

1. "Oh, this is awful, awful," **she said.** (Max Shulman)
2. "I was surprisrd when I learned students go out to dinner with their lecturers," **she says**. (Bob Weinstein)
3. "No, indeed, Mrs. Fairfax," **I replied** crossly. (C. Bronte)
4. "Don't mention it," **he answered.**

Əgər "said, asked, replied" sözləri vasitəsiz nitqdən əvvəl gələrsə, bu zaman heç bir inversiya hadisəsi baş verməz. Məs:

1. Coleman said: "Thank you fortelling me." (A. Hailey)
2. John Steinbeck once said:" A great teacher is a great artist and you know how few great artists there are in the world."

VII. Nida cümlələrində inversiya:

Bəzi hallarda nida cümlələrində fikri daha vurğulu şəkildə ifadə etmək üçün inversiyadan istifadə olunur. Məs:

1. Oh my, **am I hungry!** - I am so hungry!
2. Oh boy, **was she mad**! – She was so mad!
3. **May all your wishes come true**!

4. How beautiful **are these roses**! –
How beautiful these roses are!

VIII. İnkarlıq bildirən cümlələrdə inversiya:

Əgər cümlə verilmış inkar zərfləri "never, never before, not only.....but also, not until, no sooner, hardly, scarcely, rarely, seldom" ilə başlayarsa, bu zaman həmin cümlə inversiyaya uğrayar. Məs:

1. Hardly had I begun to speak when I was interrupted.
2. Scarcely had we started our meal when the phone rang.
3. No sooner had I arrived than they all started to argue.
4. Seldom have I seen such a beautiful view.
5. Rarely did he pay anyone a compliment.
6. Never had I felt so happy.

İnversiyaya uğramış inkarlıq ifadə edən konstruksiyalar daha çox formal xarakter daşıyır və rəsmi yazılarda və ədəbi əsərlərdə özünü büruzə verir

Ədəbiyyat

1. Мешков О.Д. « Словообразование современного английского языка» Москва, 1976
2. Арнольд И.Б. «Лексикология современного английского языка» Москва, 1973
3. M.İ.Adilov, Z.N.Verdiyeva, F.M.Ağayeva "İzahlı dilçilik terminləri" Maarif, 1989
4. http://www.translationdirectory.com/article.html
5. http://en.wikipedia.org/wiki/

Bədii ədəbiyyat:

1. "Love of Life and Other Stories" M; 1979
2. Ch.Bronte "Jane Eyre" Oxford Book worms 6
3. С. Моем «Рассказы» Л; 1976

Ilaha Mammadova

Inverted Word Order

Summary

This article deals with the inversion. In linguistics, inversion is any of several grammatical constructions where two expressions switch their order of appearance, that is, they invert. The most frequent type of inversion in English is subject–auxiliary inversion, where an auxiliary verb changes places with its subject; this often occurs in questions, such as *Are you coming?*, where the subject *you* is switched with the auxiliary *are*.

Илаха Мамедова

Инверсия

Резюме

Изменение стандартного порядка слов называется «инверсия» (обратный порядок слов). Инверсия в английском языке обычно имеет в виду помещение вспомогательного, модального или основного глагола перед подлежащим. Инверсия используется с определённой целью, часто для эмфатического усиления.

Rəyçi: Nailə İbrahimova
filologiya elmləri namizədi, dosent

Dos. ŞƏHLA ƏLİYEVA

MƏNANIN DƏQİQLƏŞDİRİMƏSİNDƏ SÖZ BİRLƏŞMƏLƏRİNİN ROLU

Açar sözlər: semasiologiya, leksik semantika, qrammatik semantika, nitq situasiyası, mənanın reallaşmasında köməkçi vasitələrin rolu.
Ключевые слова: семасиология, лексическая семантика, грамматическая семантика, языковая ситуация, роль вспомогательных элементов в реализации значений.
Keywords: semasiology, lexical semantics, grammatical semantics, the language situation, the role of auxiliary members in the realization of the values.

Dil vahidlərinin mənasını öyrənən elm semasiologiyadır. Məlumdur ki, dilin məna bildirən vahidləri çoxdur. Məsələn, leksemlər, morfemlər, sintaqmlar və s. leksemlər leksik və qrammatik, morfemlər – leksik-qrammatik (əsas nitq hissələri) və qrammatik (köməkçi nitq hissələri, şəkilçilər), sintaqmlar isə leksik, qrammatik və sintaktik mənalar kəsb edən dil vahidləridir. Deməli, semasiologiya təkcə sözlərin leksik mənalarını öyrənmir.

Semasiologiya bir təlim kimi, sözün geniş mənasında dil vahidlərinin həm leksik, həm də qrammatik mənalarını öyrənir. Deməli, semasiologiyanı təkcə leksik semasiologiya ilə məhdudlaşdırmaq düzgün deyildir. Sözlərin leksik semantikası olduğu kimi, qrammatik (morfoloji və sintaktik) semantikası da vardır. Leksik semantika sözlərin leksik, qrammatik mənalarını, şəkilçilərin müxtəlif xüsusiyyətlərini, söz yaradıcılığı aspektlərini öyrəndiyi kimi, sintaktik semantika müxtəlif dil vahidlərinin vəzifələrini öyrənir. Məşhur rus dilçisi L.A.Bulaxovski qeyd edirdi ki, semasiologiya söz və ifadələrin mənasını, məna dəyişmələrini öyrənən elmdir (1, s.7).

Ümumiyyətlə, semasiologiyanın əsas tədqiq obyekti mənadır. Deməli, hansı dil vahidi olur-olsun, semasiologiya onun mənasını öyrənir, yəni məna nədir, mənanın dəyişməsi, inkişafı qanunauyğunluqları və s. məsələləri üzə çıxarır. Ümumi dilçilikdə «Semantika» - məna elmi haqqında təlim kimi başa düşülür. Burada sözlərin, dil vahidlərinin mənası, məna dəyişmələri, şəkil və məzmunca dəyişmələr və s. nəzərdə tutulur. Bu sahədə rus dilçilərindən M.M.Pokrovskinin tədqiqatları daha maraqlıdır. O, semasiologiyada aşağıdakı problemlərə toxunmuşdur: semasiologiyanın morfologiyaya münasibəti, semasiologiyanın sintaksisə münasibəti, semasioloji dəyişmələrin səbəbləri və s. müəllifin bu sahədə maraqlı fikirləri vardır. Məsələn, o. sözlərin mənalarına görə oxşar və əks olmalarını təsəvvürlərin müvafiq xüsusiyyətləri ilə əlaqələndirilir: «Təsəvvürlərimiz həm oxşarlıq, həm də əksliyə görə əlaqələnə bilir». M.M.Pokrovski morfoloji kateqoriyaların öyrənilməsinin semasioloji tədqiqat üçün əhəmiyyətli olduğunu göstərmişdir. Eyni zamanda, müəllif semasiologiyanın sintaksisə münasibəti məsələsindən danışarkən qeyd etmişdir ki, semasioloji tədqiqatlar bir sıra sintaktik qanunların kəşf edilməsinə gətirib çıxarmalıdır. Bu məsələlər müasir dilçilikdə də öz əksini tapmışdır. Azərbaycan dilçiliyində semasiologiya problemləri görkəmli dilçilər Z.Budaqova, A.Ələkbərli, S.Cəfərov, Z.Verdiyeva, M.Adilov, A. Qurbanov və s. tərəfindən geniş şərh olunmuşdur. Ayrı-

ayrı nitq hissələri semasioloji cəhətdən tədqiq edilmişdir. Bu sahədə A.Ələkbərovun «Müasir Azərbaycan dilində sadə fellərin leksik semantikası», Q.Cəfərovun «Azərbaycan dili saylarının semantik sistemi», Z.Budaqovanın «Fellərin leksik-semantik xüsusiyyətləri» əsərlərini göstərə bilərik. «Müasir Azərbaycan dilinin semasiologiyası» (oçerklər) kitabı semasiologiyaya dair ilk tədqiqat əsəri kimi Azərbaycan dilçiliyində böyük əhəmiyyət kəsb edir (4, s. 28).

Dilin lüğət tərkibindəki sözlər öz leksik mənalarına görə bir-birindən fərqlənir. Leksik mənasına görə fərqlənən sözlər, həm də leksik-qrammatik cəhətdən qruplaşaraq dilin morfoloji vahidləri olan nitq hissələrinə çevrilirlər. Məlumdur ki, sözlər kontekstdən, mətndən kənarda hər hansı bir əşyanı, hadisəni, əlaməti, hərəkəti və s. adlandıra bilir, yəni leksik məna kəsb edirlər. Lakin sözün bir yox, bir neçə mənası olur ki, bu mənalar nitq prosesində aydınlaşır, dəqiqləşir. Sözün bir çox mənası danışıq zamanı fəal olduğu üçün əsas mənası üzə çıxır və bu mənalar dildə sabitləşir. Sözün mənası ayrılıqda, yəni birləşmədən, cümlədən kənarda sanki mücərrəd olur, lakin birləşməyə daxil olduqdan sonra ayrılıqda bir neçə mənada təsəvvür edilən sözün mənası konkretləşir. Hər hansı leksik vahiddəki mücərrədlik birləşmədə aradan qaldırılır. Birləşmə, konkret sözün mənasını reallaşdırır. Azərbaycan dilində nitq hissələrinin – isim, sifət, fel və s. böyük əksəriyyəti çox mənalılığa , məcazi mənaya malikdir. Kontekst sözlərin bir çox mənasının reallaşmasını təmin edir. Ona görə də nitq hissələrinin semantikasının – mənasının müxtəlif leksik konstruksiyalarda, söz birləşmələrində öyrənilməsi həm leksikologiya, semasiologiya, həm də morfologiya və sintaksis üçün əhəmiyyət kəsb edir. Sintaktik konstruksiyalardan kənarda sözlərin semantik dairəsini müəyyənləşdirmək çətindir. Məsələn: sərin, isti sifətlərinin kəsb etdiyi mənaları kontekstdən kənarda izah etmək istəsək də, buna nail ola bilmərik, cümlə daxilində isə sözün mənaları asanlıqla anlaşılır: 1. *Sərin su isti havada bizə ləzzət verdi*. 2. *Dostların münasibəti sərin idi*. 3. *Ev yiyəsi qonaqlara isti münasibət göstərdi*. Birinci cümlədə sərin, isti sifətləri keyfiyyət bildirdiyi halda, ikinci, üçüncü cümlədə sözlər tamam başqa məna kəsb etmişdir. İkinci cümlədə sərin sözü yad, isti sifəti mehriban mənalarında reallaşmışdır. 1. *Bərk qayalar Şuşada, Laçında çoxdur*. 2. *Səlim çox bərk adamdır*. Birinci cümlədə «bərk» qaya sözünü keyfiyyət cəhətdən təyin etmişdir, möhkəmliyini bildirmişdir. İkinci cümlədəki «bərk» sözü adamın iradəcə möhkəmliyi mənasında işlənərək əvvəlki mənaya yaxın məcazi mənada işlənmişdir. Lakin başqa bir situasiyada «bərk» sifəti, «xəsis» mənasında işlənir. Məsələn, *Hacı Qara çox bərk Adam idi, heç pul xərcləməzdi*. Göründüyü kimi, bərk sözünün mənaları birləşmə daxilində dəqiqləşdi.

«Mənalar arasındakı fərqin aşkar edilməsində, sözün məna sisteminin müəyyənləşdirilməsində sözlərin leksik-qrammatik mənaya görə qruplaşdırılması olduqca əhəmiyyətlidir» (3, s.3). Bu cəhətdən sifətlər əlamət, keyfiyyət bildirən söz qrupudur, həmçinin semantiksına görə müəyyən növlərə də bölünür: dad bildirənlər, rəng bildirənlər, xasiyyət, vərdiş bildirənlər, ölçü-həcm bildirənlər və s. Belə rəngarəng mənalar bildirən sifətlər söz birləşməsi daxilində əlavə mənalar da kəsb edirlər. Əlavə mənaların yaranması sifətin aid olduğu ismin özünün də semantikasından irəli gəlir. Sifətin canlı isimlərdən əvvəl işlənəndə ifadə etdiyi məna, cansız isimdən əvvəl işlənəndə ifadə etdiyi mənalarla eyni olmur. Məsələn, *Bərk külək əsirdi* – cümləsində bərk *güclü* mənasında işlən-

mişdir. *Onun bərk sifəti var, dünya vecinə deyil* - cümləsində bərk tamam başqa mənada *duyğusuz*, *hissiz* adam mənasında işlənmişdir. *Ağ kağız* birləşməsində *ağ rəng* bildirən sifətdir. *Ağ yalan* birləşməsində *hədsiz* mənasında işlənmişdir. *Ağır kisə kişinin qəddini əymişdi*. Bu cümlədə tutumu çox mənasında əlamət və keyfiyyət mənasında işlənmişdir. *Ağır adam* birləşməsinin mənası mətndə – kontekstdə reallaşır. Belə ki, *ağır adam* birləşməsində ağır sözü çəkisi çox, ətli-canlı insanları bildirmək üçün, yaxud xaraktercə *təmkinli*, *ciddi* mənalarında da işlənə bilər. Deməli, sifət və ismin birləşməsi I növ təyini söz birləşməsini formalaşdırıb, lakin sifətin ifadə etdiyi semantika mətnin içərisində reallaşır.

Göründüyü kimi, mənanın reallaşması üçün söz birləşməsinin rolu az oldu, ona görə də məna nitq prosesində, cümlələrdə öz dəqiq mənasını ifadə edə bilir. Ona görə də çox vaxt mənanın reallaşması üçün nitq situasiyası lazım gəlir.

İsimlər cümlədə müstəqil işlənərək müxtəlif cümlə üzvü funksiyasında çıxış edir. Lakin bəzən ismin mənasının reallaşması üçün söz birləşməsi və ya nitq situasiyası tələb olunur. Məsələn: *İpək, qumaş, atlaz qiymətli parça növləridir*, - cümləsində *ipək* əşyanın (parçanın) adını bildirir və cümlədə müstəqil üzv-mübtəda kimi işlənmişdir. *Onun ipək xasiyyəti var*, - cümləsində ipək sözü *xoş, mülayim* mənasında işlənmişdir.

Söz birləşmələri sözdəki mücərrədliyi aradan qaldırır. Lakin bəzən söz birləşmələrində də mücərrədlik özünü göstərir. Söz birləşmələrindəki mücərrədlik də nitq situasiyası vasitəsilə aradan qaldırılır. Ümumiyyətlə, sözlərin nitq hissələrinin mənası – istər çoxmənalılıq, istər məcazi mənalılıq başqa nitq hissələri ilə münasibətdə, mətndə, kontekstdə, söz birləşmələrində dəqiqləşir, reallaşır. Söz birləşməsi və ya mətn-kontekst sanki sözlərin gizli qalan mənalarını üzə çıxarır, aydınlaşdırır.

Hər hansı bir sözün-nitq hissəsinin mənasının konkretləşməsi üçün onun söz birləşməsinin tərəflərindən biri kimi işləməsi vacib deyil. Məsələn: 1. *Onların araları <u>sərindir</u>*. 2. *Onun ürəyi <u>yumuşaqdır</u>*. 3. *Dostum mənim üçün çox <u>əzizdir</u>*.

Semasiologiya müstəqil leksik mənaya malik olan dil vahidlərinin nitq prosesində qazandığı əsas mənalarla yanaşı əlavə mənalarını da öyrənir. Deməli, semasiologiyada sözün mənaları başqa sözlərlə müqayisədə öyrənilir. Bu baxımdan fellər daha maraqlıdır. Hərəkət bildirən sözlər – fellər öz əsas mənasından başqa digər əlavə mənalar – çoxmənalılıq, məcazimənalılıq kəsb etmiş omonimlik, sinonimlik, antonimlik kimi xüsusiyyətlərə malik olmuşlar.

Fellərin müxtəlif məna xüsusiyyətləri söz birləşmələri və kontekstdə reallaşır. Prof. Q.Kazımov «Müasir Azərbaycan dili» kitabında fellərin bu xüsusiyyətlərindən kifayət qədər bəhs etmişdir: «Sabit birləşmələrinin bir növü də *demək* felinin iştirakı ilə formalaşır. Bu cür birləşmələrdə *demək* sözü öz həqiqi mənasında deyil, bir işi, hadisəni təsdiq edən köməkçi söz səviyyəsindədir, ona görə də onu çox zaman *-dır, -dir, -dur, -dür* şəkilçisi, *idi, imiş* hissəcikləri ilə əvəz etmək olur (baxmayaraq ki, həmin şəkilçi və hissəciklərlə birlikdə işlənir). Asılı tərəf adlıq halda məsdərlərdən və müxtəlif nitq hissələrindən ibarət olur. Məsələn: *Bu, həyatdan üz döndərmək deməkdir*» (2, s. 67). Bu nümunədən *deməkdir* felini atmaq da olar. Bizcə, *deməkdir* feli (məsdər forması) atılırsa, cümlədəki ekspressivlik – təsdiqlik məna çaları itər.

Fellərin əksəriyyəti leksik cəhətdən müstəqil məna bildirsə də, müxtəlif söz birləşmələri tərkibində leksik müstəqilliyini itirir, onların mənası birləşmə daxilində reallaşır. Məsələn: *qapıdan tutmaq*, *atı tutmaq* birləşmələrində tutmaq feli müstəqil leksik məna bildirir. Lakin bu fel müxtəlif söz birləşmələrində işlənərək öz müstəqilliyini itirir, başqa mənalar kəsb edir. Məslən, *divan tutmaq*, *dost tutmaq*, *toy tutmaq* (cəza vermək) və s. birləşmələrdə felin mənası reallaşır.

Mənanın dəqiqləşməsi, reallaşmasında əsas sözlərlə, cümlə üzvləri ilə yanaşı, digər vasitələr də – ədatlar, digər köməkçi sözlər, durğu işarələri, intonasiya və s. vasitələr də rol oynayır.

Ədəbiyyat

1. Л.А.Булаховский. Введение в языкознание. Москва, 1933, стр.7
2. Q.Ş.Kazımov. Müasir Azərbaycan dili. Bakı, 2004, səh. 67
3. Müasir Azərbaycan dilinin semasiologiyası. Bakı, «Elm», 1985, səh.3
4. М.М.Покровский. Семасиологические исследования в области древних языков. Москва, 1959, стр. 28

Шахла Алиева

Роль словосочетаний в уточнении значения

Резюме

В статье исследуется семантика лексем и рассматривается реализация и уточнение языковых единиц в контексте словосочетаний, в речевой ситуации. Семасиология - наука о значении языковых единиц. Языковые единицы имеют различные значения. Семасиология как отрасль науки изучает как лексические, так и грамматические значения единиц языка. Основным объектом семасиологии является значение слова. Слова между собой различаются значениями. Слова с различными значениями, группируясь с лексико-грамматической точки зрения, переходят в разные части речи. Слова в контексте называют любой объект, событие, знаки, движения и тем самым образуют новое лексическое значение. Реализация значения в предложении требует определенную речевую ситуацию. В статье на материале конкретных языковых фактов показываются оттенки значений прилагательных, существительных и глаголов. В реализации значения наряду с основным значением слова определенную роль играют вспомогательные средства – частицы, знаки препинания, интонация и др.

Shahla Aliyeva

Role of word-combinations in value specification

Summary

In article semantics of lexemes is investigated and realisation and specification of language units in a context of word-combinations, in a speech situation is considered. Semasiology - the science of the importance of linguistic units. Language units have

different values. Semasiology as a branch of science studying how lexical and grammatical meanings of language units. The main object of semasiology is the meaning of the word. The words are different between values. Words with different meanings, grouped with lexical and grammatical point of view, move to different parts of speech. Words in context refers to any object, event, signs, traffic, and thus form a new lexical meaning. Realization of the value in the offer requires a speech situation.On a material of the concrete language facts shades of values of adjectives, nouns and verbs are shown. In addition to the values of the basic meaning of the word play a role aids - particles, punctuation, intonation, etc.

Rəyçi: Dosent Rəhilə Quliyeva

НИНА БУНЯТОВА
ЛЯМАН АХУНДОВА
АзТУ

НЕОЛОГИЗМИ В АНГЛИЙСКОМ МОРФОСИСТЕМИ

Açar sözlər: neologizmlər, ingilis dili, morfologiya, artikl
Ключевые слова: неологизми, английский язык, артикл
Key words: Neologism English, morphological, article

Существительное. В переосмыслении заимствованных существительных, образующих множественное число при помощи суффикса -а, сделан еще один шаг: они теперь не только согласуются с глаголом в форме единственного числа, но и употребляются с неопределенным артиклем. Например: Your article completely ignores the adverse effect that a hostile media has on the situation there (Newsweek).

Правило, гласящее, что при персонификации транспортных средств существительное заменяется личным местоимением -she, нуждается в расширении. -She используется главным образом в речи мужчин применительно не только к транспортным средствам, но вообще к обьектам и средствам трудовой деятельности. Например, лесоруб о деревне: She's about to fall.

Интересна наметившаяся тенденция употребления исчисляемых существительных в собирательном значении как неисчисляемых. Например: Bu-ying Cars: More car for less money (рекламное обьявление, записано в Лондо-не).

Артикль. Продолжается распространение употребления нулевого артикля. Например: ... taking language out of classroom (из выступления участницы американо-советского симпозиума, австралийки по происхождению).

Местоимение. Личные местоимения. Вместо -he с обобщенным значением, относящимся к лицам обоего пола (например: *When a person has no will to live he is often very difficult to help),*все шире употребляется сочетание-*hes or her* вместо-*hes*.

Притяжательные местоимения. - *Your* может использоваться в качестве разговорного синонима неопределенного артикля. Например: *Have you seen your old man in a closed-down market, kicking up a paper with his worn-out shoes?*(из популярной английской песни «Streets of London »).

Возвратные местоимения. При выборе между личным и возвратным местоимением необходимо, в частности. Учитывать, что между ними существует ряд смысловых различий. Так, возвратные местоимения используются для передачи большей степени полноту признака или большей близости к живому существу, чем местоимения личные. Сравните: *Jonh pulled the blanket over himself* и *Jonh puled the blanket over him*. В первом предложении сообщается о том, что Джон укрылся одеялом с с головой, а во втором - что он укрылся одеялом не весь. Еще пример: предложение *Jonh hid thr book behind him* говорится о том же или о том, что книга. Возможно, лежала на стуле, а Джон стоял, загораживая ее; но в любом случае первое предложение - что этого не было. Сравните также: *The dictator was lying at the foot of that statue of*

him on horseback. В первом предложении речь идет о том, что диктатор лежал живой и в полном сознании рядом со своей статуей, а во втором - что он был либо мертв, либо без сознания.

Неопределенные местоимения. Употребление с существительными, обозначающими исчисляемые предметы, становится характерным не только для сравнительной степени - *less* и для превосходной - least, но также для положительной степени (*little, much*) и для неопределенного местоимения - *a little*. Например: *You'll find that recipe contains very little dried milk solids*- "малое количество сухих твердых молочных веществ" (сравните: *...very few dried milk soids*-"мало химически различных сухих твердых молочных веществ", т.е. при замене *few* на *little* может происходить изменение значения); *How much royalties do you get from you book?* (данное сочетание ьогло возникнуть по аналогии с *How much in the way of royalties); You'll have to take a little/a few pains if you want to accomplish something.*

Неопределенные местоимения, оканчивающиеся на -*one* и *body,* соотносятся в разговорном стиле с местоимениями множесвонного числа *they, their* и *tremselves,* а также с особой формой единственного числа *tremself* и взаимным местоимением *one another.* Например: *Anyone can talk to me about tremselves/tremself; But everyone I know is either shouting or dancing around like wild or beating up one another* (R. Bradbury).

С другой стороны, *they, their* и *tremselves* могут сочетаться не только с местоимениями, оканчивающимися на - *one* u - *body*, но также и с неопределенным местоимением - *each,*а в официальном стиле - с существительным в единственном числе, в том числе с имением собственным. Например: *They finished two bottles of champagne but, as before, because of what each had on their mind, while it lifted their spirits the occasion was not a gala one* (D. Daniels); *No other industry [than the airlines]would alow a customer to reserve a perishable commodity, then not make them pay for it if they did not use it; If there is a Barbara Wassman on board, could they make themselves known to the cabin?* В последнем предложении подразумевается, что екипажу точно не известно, есть ли на борту пассажирка с такой фамилией. Если бы предполагалось, что, есть, то объявление звучало бы так: *If there is a Barbara Wassman on board, could she make herself known to the cabin?*

Помимо смыслового оттенка отсутствия уверенности (как в предпоследнем примере) местоимения *they, their* и *tremselves* служат для передачи обобщенных значений. Например: *I know a member of this club who, for the obvious reason of being chairman of the nominating committee, cannot nominate tremselves* . Здесь употреблении *tremselves* преследует цель придать высказыванию характер обобщения: показать, что данных принцип распространяется на всех председателей подобных комитетов, а также избежать указания на пол председателя (этому не мешает употребление слова *chairman* поскольку оно не может относиться как к мужчине, так и женщине).

Указательные местоимения. Относительно выбора между-*this* и -*that* дополнительно отметим следующее. - *This* является разговорным синонимом:
а) неопределенного артикля и б) неопределенного местоимения - one- «некий». В значении «а»- this употребляется после *There was* для введения

персонажа устного рассказа. Например: *There was this traveling salesman, and he ...* В значении «б» употребление -*this* оживляет изложение и привносит оттенок некоторого пренебрежения, в то время как - one свидетельствует о наличии официальных отношений между собеседниками. Сравните: *This Fred Snooks turn out to have 24 cats One Fred Snooks was found to be in possession of dangerous drugs.*

При сообщении дополнительной информации о человеке или предмете, упомянутом в предыдущем высказывании, - *that* характерно для разговорного стиля, в то время как в нейтральном стиле употребляются как *this* так и -*that.* Сравните: разг. *John likes to kick puppies. That man's gonna get his,(«ему достанется) one of these days! John likes to kick puppies. That/this man will be fined one of these day!*

При соотнесенности с предшествующим высказыванием в целом -*this* и -*that* различаются не только тем, что первое более характерно для американского, а последнее - для британского варианта. Между ними есть еще два существительных различия.

Во-первых, поскольку -*this* чаще используется в речи для введения последующего высказывания, а -*that* - для ссылки на уже высказанное, то в тех случаях, когда в последней функции используется -*this* слушающий все же ожидает продолжения. При употреблении -*that* такого ожидания нет.

Во-вторых, такое употребление -*this* ограничено монологической речью, в то время как -*that* употребляется как в монологе, так и диалоге. Сравните монолог: *Dick says that the Republicans may have credibility problems. This/-that is an understatement* и диалог: "*Dick [...]problems". - "That is an understatement".*

Употреблении -*that* часто свидетельствует об эмоциональной близости собеседников. Например, механик гаража может спросить водителя-мужчину(но не женщину): *Check that oil?* -"Проверил масло?". Сравните также: *That left front tire is pretty worn u Your left front tire is pretty worn.* Первое предложение могло быть высказано механиком, а второе - полицейским автоинспектором, отношения с которым у водителя значительно более официальные.

Употребление -*that* и его синонимов -*your* и -*the* характерно при выражении сочувствия в вопросах о травмах и болезнях. При этом -*that* и -*the* носят более разговорный характер, чем -*your*. При употреблении последнего говорящий явно показывает, что болен не он. Это привносит оттенок отчужденности, которого лишены -*that* и - *the* . Они же свидетельствуют о том, что говорящий уже в течение некоторого времени знал о болезни собеседника и был обеспокоен ею. Например: *How's that throat?* В ответе можно употребит - this как синоним притяжательного местоимения - *my: This throat is better, thanks.*

Таким же образом -that употребляется в дружеских советах типа *Soak that toe twice a day*- «Делайте ванночку для пальца два раза в день» и *Button that lip* - «Попридержи язык».

При выборе между употреблением указательных местоимений -*this* и -*that* и личного -*it* необходимо, следующее. Если в предыдущем высказывании

есть распространенное словосочетание, последующее указательное (но не личное) местоимение может быть относиться к нему в целом (а) и (реже) к одному из его компонентов (б). Например: а*) I read a story about the theory of evolution. That/this look a long time to read* (указательное местоимение относится ко всему словосочетанию *a story about the theory of evolution*); б) *I read a story about the theory of evolution. That/this/it took a long time to gain popular acceptance* (указательное местоимение, как и личное -it, относится к the theory of evolution компоненту словосочетания *a story about the history of evolution*). Сравните также: I *read a story about the theory of evolution. That/this look a long time to understand*. Здесь с -*that*более вероятно значении «а», а с -this- «б».

-*Do that, -do it* и -do so часто взаимозаменимы. Например: A) Rover *is scratching the door.* B) *Yes, he always does that/it/so when he wants attention; Mr.Brown goes to the hospital for treatment every week: in fact he has been doing that/it/so ever since I have known him.*Но между ними есть и смысловые различия. -*Do it* характерно для случаев, когда речь идет об одном и том же действии, а -*do so*- при описании однотипных действии. Сравните: *Martin is painting his house. I'm told he does it every four years*(т.е. делает одно и то же) *Martin is painting his house. I'm told this is merely because his neighbour did so last year*(т.е.производит действие того же типа).

-*Do that* отличается от -*do it* в двух отношениях. Во-первых, - *that* более информативно и чаще несет логическое ударение, чем - *it.* Сравните: *Is Connie still trying to light the stove? She should have DONE it by NOW* и *Are you trying to light the stove with a match? I wouldn't do THAT.* Во- вторых, *do it,* в отличие от - *do that,* употребляется с более ограниченным числом сказуемых, а именно с такими, которые передают действия субъекта, контролируемые им самим. Сравните: *A)When you chop off a chicken's head and its already dead, it still kicks a few times. B)Why does it do THAT? A.[...]. B/I wonder how it DOES it.*

Литература

1. English grammar. M.Ganshina. N.Vasilyevskaya.
2. English grammar in USE. Murphy (advanced).
3. Иностранные языки в школе.
4. İngilis dilinin praktiki qrammatikası. İsmixan Rəhimov.

N.Bünyatova
L. Axundova

İngilis dili morfgoloji sistemində neologizmlər

Xülasə

Məqalədə həmçinin artikl isim əvəzlik və onun növləri haqqında məlumat verilir, onların cümlədə oynadığı rol və funksyalarından söhbət açılır, eyni zamanda this və that işarə əvəzliklərinin cümlədə yeni sözləri yaratmasından danışılır. Bu məqalədə İngilis dilinin morfologiyasında ayrı-ayrı nitq hissələrindən: isim, şəxs və

işarə əvəzliklərinin yeni və az tanınan xüsusiyyətləri haqqında bilgilər verilir. Verilən məlumatlarda həm köhnə, həm də yeni bir-biri ilə əlaqələndirərək izah olunur.

N.Bünyatova
L. Ashundova

Neologisms in the English mortphological system

Summary

The article gives information about the article, noun and pronoun, its kinds the function in the sentence at the same time about the demonstrative pronouns this and the forming new meanings in the sentence

Transition of loan words and their adaptation to internal laws of language is not to unilateral processes.

Follow will make a reservation, that both borrowing language and loan words are allocated ability to influence lexicon and grammaticat structure of language

Rəyçi: R.C Cəfərov
filologiya üzrə fəlsəfə doktoru

AYTƏN RƏCƏBOVA
ADU

DANIŞIQ AKTI DİL VAHİDLƏRİNİN VARİASİYASI SAHƏSİ KİMİ

(Azərbaycan və ingilis dillərinin materialları əsasında)

Açar sözlər: variasiya, danışıq aktı, məqsəd zərfliyi.
Key words: variation, speech, adverbial modifier of purpose.
Ключевые слова: враиация, речевой акт, обстоятельство цели.

Bəşəriyyətin inkişafının dillərsiz, dillərin inkişafının isə bəşəriyyətsiz mümkünsüz oluğunu desək, yanılmarıq,çünki dünya xalqlarının inkişaf tarixini dillərdən kənar təsəvvür etmək qeyri-mümkündür. Müxtəlif xalqlar tərəfindən həyatın bütün sahələri üzrə əldə edilən nailiyyətlər, elmi kəşflər məhz dillər vasitəsilə yayılır və inkişaf etdirilir(F.Y.Veysəlli). Müasir dillərin hər biri kimi Azərbaycan dili də dünyanın başqa dillərilə təmasda öz inkişafını təmin etmək məcburiyyətindədir. Elə bu səbəbdən də, son illər qloballaşan dünyamızın qlobal dili kimi çıxış edən Ingilis dili ilə Azəbaycan dilinin müqayisəli şəkildə öyrənilməsinə xüsusi önəm verilir. Bu sahədə dilçi alimlərimizin (O.Musayev, S.M.Babayev, T.Hidayətzadə, D.N.Yunusov, Ə.Ə.Abdullayev, Z.N.Verdiyeva, A.Y.Zeynalov, N.Vəliyeva və b.) yerinə yetirdikləri tədqiqat işlərinin əhəmiyyətini xüsusi qeyd etmək olar.

İstər ingilis, istərsə də Azərbaycan dillərində danışıq aktında informasiyanın göndərilməsində və qəbulunda həlledici sintaktik – semantik vahid kimi çıxış edən cümlələrin tədqiqi ilə bağlı müəyyən işlər görülsə də (O.Musayev, Z.Budaqova və b.), problemin tam şəkildə həll olunduğunu demək düzgün olmazdı. Çünki müqayisə olunan bu dillərdə cümlələrin danışıq aktında reallaşması zamanı onların semantik, sintaktik və fonetik strukturlarında elmi cəhətdən elə mübahisəli məqamlar üzə çıxır ki, müasir dilçilik baxımından onların yenidən nəzərdən keçirilməsinə ehtiyac duyulur. Belə mübahisəli problemlərdən biri də tərkibində məqsəd zərfliyi olan sadə cümlələrin tələffüzündə baş verən variativliyin xüsusiyyətlərin müəyyənləşdirilməsidir. Bu səbəbdən biz də tədqiqat işimizi bu problemin həllinə həsr etmişik. Burada konkret olaraq, danışıq aktının məqsəd zərflikli sadə cümlələrin variasiyasının sahəsi kimi çıxış etməsi məsələsi araşdırılır. Müqayisə olunan ingilis və Azərbaycan dillərində danışıq aktında reallaşan cümlələr semantik, sintaktik, fonetik strukturlarına görə müxtəlif ölçülü olur. Onların müxtəlifliyi bir tərəfdən ifadə olunan informasiya yükünün, digər tərəfdən isə danışanın ifadə tərzinin təsiri altında yaranır. Hər iki dil üzrə materialın təhlilindən məlum olur ki, ifadə olunan informasiya eyni olduğundan, danışıq aktında normativ strukturlar gözlənilir və dil daşıyıcıları tərəfindən canlı danışıqda bu qaydalara əməl olunur. Lakin konkret şəraitlə bağlı danışıq aktında heç də bütün dil daşıyıcıları dildə norma kimi qəbul olunan dil qaydalarına eyni səviyyədə əməl etmirlər. Daha doğrusu, danışanın hadisəyə münasibətindən və yanaşma tərzindən asılı olaraq, informasiyanın ötürülməsinə xidmət edilən cümlələrin ifadə formalarında variasiya yaranır. Təhlil göstərir ki, sadə cümlənin digər struktur variantlarında olduğu kimi, tərkibində məqsəd zərfliyi olan sadə cümlə modellərinin reallaşmasında da variasiyaya təsir göstərən amillərdən asılı olaraq, hər iki dildə normadan yayınmalar müxtəlif səviyyələrdə olur. Danışıq aktının məhsulu olan bu

variativ xüsusiyyətləri dəqiqləşdirmək üçün eksperimentdən isifadə olunmuşdur. Məlum olmuşdur ki, həqiqi dil daşıyıcıları ilə həmin dildən xarici dil kimi istifadə edənlərin işlətdikləri sintaktik strukturların formalarında da dəyişiklik baş verir. Şübhəsiz ki, müxtəlif koqnitiv hazırlığa malik olan ünsiyyət iştirakçılarının danışıq aktında yol verdikləri variativ xüsusiyyətləri eyniləşdirmək düzgün olmaz, çünki ikinci halda baş verən variantlar müqayisə olunan dillərin hər birinin fərqli strukturlara (semantik, sintaktik, fonetik) malik olmasından irəli gəlir. Bu da bəzən variasiyanın invariant səviyyəsinə çatması ilə nəticələnir. Həqiqi dil daşıyıcılarının nitqində isə variasiya yalnız variant səviyyəsində özünü göstərir, yəni bu variasiya ifadə olunanda məna dəyişikliyinə səbəb olmur. Məsələn,/ They go to the garden to work// cümləsinin hər üç dil daşıyıcısı konkret mənanın ifadəsi üçün müəyyən olunan invariant struktur modelə riayət etməklə tələffüz etmişlər. İnformantların ifasında forma ilə bağlı variasiya yaranmışdır ki, bu da informantların hər biri üçün xarakterik olan fərqli danışıq tərzi ilə əlaqədardır. Bu fərqi görmək üçün həmin cümlənin üç diktor üzrə akustik göstəricilərini əks etdirən rəqəmləri müqayisə etmək kifayətdir. Bax: Cədvəl 1.

Saitlər / diktorlar	Akus. Par.	eɪ	əʊ	ʊ	ə	a:	ʊ	□:
I d.	T	0,12	0,18	0,07	0,07	0,15	0,07	0,2
	ƏTT	141	147	147	143	137	136	126
	İ	83	83	65	79	77	73	73
II d.	T	0,12	0,14	0,08	0,8	0,12	0,06	0,16
	ƏTT	155	164	152	151	139	166	154
	İ	84	82	79	79	77	75	79
III d.	T	0,09	0,16	0,05	0,05	0,14	0,09	0,14
	ƏTT	152	178	199	198	156	147	135
	İ	78	80	68	73	74	67	71

Cədvəldə əks olunan akustik göstəricilərin təhlilindən məlum olur ki, fərqli informantlar fərqli akustik göstəricilərin (mlodik, dinamik, temporal) daşıyıcılarıdır. Onların nitqində müşahidə olunan formal variasiyalar konkret şəraitlə bağli həmin cümlə modelinin invariant çalarlarıdır. Ona görə də həmin cümləni eşidən dil daşıyıcısı onu məhz həmin invariantın konkret variantı kimi qəbul edir və ifadə edənin ifadə olunanının mahiyyətini dərk edir. Hər üç diktorun ifadə etdikləri eyni səviyyədə anlaşılır, çünki baş vermiş variasiya norma səviyyəsində deyil, danışıq səviyyəsində özünü göstərir. Həmin cümlənin müxtəlif parametrlər üzrə qrafikləri də göstərir ki, hər üç diktorun nitqində cümlə boyu dəyişiklik izomorf səciyyəlidir. Bax: qr.1

Qr. 1 / They go to the garden to work//- Cümlənin – ossilloqramı
Cümlə üzrə: temporal göstərici: 1,74 s
Ton dəyişikliyini əks etdirən loqorifmik qrafik
Tonun orta riyazi qiyməti: 139 hs.
Intensivliyi əks etdirən qrafik
Intansivlik üzrı orta qiymət: 77db.

Təhlilə görə melodik və dinamik strukturlarda cümlənin sonuna doğru enmə, temporal göstəricidə isə artım müşahidə olunur. Qrafiklərdən aydın olur ki, ingilis



dilində sadə cümlə daxilində məqsəd zərfliyi funksiyasını yerinə yetirən "to work" həm xəbərdən, həm də yer zərfliyindən sonra gələrək, cümlənin sonunda durmuşdur. Ingilis dilində məqsəd zərfliyinin cümlə daxilindəki bu mövqeyi danışıq prosesində bu funksiyanı yerinə yetirən sözün tələffüzündə variasiyanın yaranmasına səbəb olur. Qrafikə uyğun olaraq, belə bir fakt da təsdiqlənmiş olur ki, "to work" sözü cümlədə əsas informasiya daşıyıcısı olmasına baxmayaraq, cümlənin fonetik struktutunda digər üzvlərlə müqayisədə akustik göstəricilərin minimum səviyyəsini təşkil edir. Təhlil göstərir ki, məqsəd zərfliyi funksiyasını yerinə yetirən sözün tələffüzündə variasiya onun ton fazası ilə əlaqədardır. /work/ sözünün nüvəsini təşkil edən / □:/ saitinin öz fəzasında tonun tezliyi (ƏTT) 153 hs, intensivlik (İ) 69 db olduğu halda, həmin səsin son fazasında bu göstərici müvafiq olaraq 122 hs və 68 db – dır. /to work/ sözünün bu sintaktik strukturda məqsəd zərfliyi kimi, danışıq aktında variasiyaya uğraması həm obyektiv (cümlədəki mövqeyi), həm də subyektiv (danışanın fərdi xüsusiyyətləri) səbəblə əlaqədardır.

Problemin Azərbaycan dili materialında özünü fərqli şəkildə göstərir. Bu da ondan irəli gəlir ki, Azərbaycan dilində sadə cümlə daxilində məqsəd zərfliyinin yeri sabit olmayıb dəyişkəndir. Deməli, məqsəd zərfliyi funksiyanı yerinə yetirən söz Azərbaycan dilində hansı mövqedə (əvvəldə, ortada, sonda) işlənməsindən asılı olaraq, müxtəlif variasiya xüsusiyyətlərinə malik olur. Fikrimizi əsaslandırmaq məqsədilə müxtəlif sıralı, lakin eyni leksik vahidlərdən və cümlə üzvlərindən ibarət olan /Gəlmişəm səninlə məsləhətləşməyə// və /Səninlə məsləhətləşməyə gəlmişəm/ cümlələrinin tələffüzündən alınmış materialın kompüter təhlilini nəzərdən keçirək.

Akustik parametrlər üzrə əldə edilən faktların təhlili göstərir ki, informantlar hər iki cümlədə məqsəd zərfliyi funksiyasını yerinə yetirən /səninlə məsləhətləşməyə/ birləşməsinin cümlədəki mövqelərinə əsaslanaraq normaya uyğun tələffüz etmişlər. Ona görə "normaya uyğun" ifadəsini işlədirik ki, hər bir vahid tələffüz zamanı müxtəlif amillərin (danışan, mövzu, situasiya və s.) təsiri altında bu və ya digər dərəcədə normadan yayınılaraq, daha doğrusu, variasiya olunaraq reallaşır. Diktorlar arasında müşahidə olunan tələffüzlə bağlı variasiyalar normanın konkret mövqe ilə bağlı variantlarında ifadə olunub. Cümlədəki mövqeyi ilə bağlı məqsəd zərfliyinin tələffüzündəki variasiya xüsusiyyətlərinə aydınlıq gətirmək üçün, təhlil göstəricilərini müqayisə etmək kifayətdir.

Qeyd olunan cümlələrin birincisində "səninlə məsləhətləşməyə" məqsəd zərfliyi cümlədə remanın daşıyıcısıdır və cümlədə son mövqede durub. Bu strukturlu danışıq aktında onun (səninlə məsləhətləşməyə) akustik göstəriciləri xəbəri-temanı təmsil edən "gəlmişəm" sözünün akustik göstəricilərindən (ƏƏT və İ) zəifdir. Ikinci

Saitlər / diktor	Akus. par.	ə	i	ə	ə	i	ə	ə	ə	ə	ə	ə	ə
I d.	Ətt	122	184	184	143	169	151	131	123	120	125	112	103
	İ	80	77	79	80	77	80	78	79	80	80	76	76
II d	Ətt	134	154	168	129	136	143	128	121	119	123	116	108
	İ	82	73	79	76	75	76	77	76	77	79	72	72

Saitlər / diktor	Akus. par.	ə	i	ə	ə	i	ə	ə	ə	ə	ə	ə	ə
I d.	Ətt	123	178	182	135	130	125	116	113	143	118	94	75
	İ	73	78	81	77	76	80	79	76	81	80	72	69
II d	Ətt	130	148	152	136	121	122	124	121	143	123	124	111
	İ	80	72	77	78	75	77	76	75	76	80	72	71

cümlədə isə məqsəd zərfliyi (səninlə məsləhətləşməyə) 1- ci yerdə işlənib, xəbər isə (gəlmişəm) cümlədə son mövqede durur. Buna münasib olaraq ton və intensivlik göstəricilərinin yeri də dəyişir. /Gəlmişəm səninlə məsləhətləşməyə// strukturlu cümlədə "səninlə məsləhətləşməyə" məqsəd zərfliyinin tələffüzünə 1-ci diktor 1,65 s., 2-ci diktor 1,9 s. vaxt sərf etdikləri halda, /Səninlə məsləhətləşməyə gəlmişəm// cümləsində həmin vahidin tələfüzünə 1-ci d. 1,55 s., 2-ci d. 1,79 s. vaxt sərf etmişdir. Bu fərq məqsəd zərfliyin cümlədəki yeri ilə izah olunur. Faktların təhlili bir daha belə bir fikri təsdiqləyir ki, Azərbaycan dilində sadə cümlə daxilində məqsəd zərfliyi funksiyasını yerinə yetirən sözün mövqeyinin dəyişməsi onun akustik göstəricilərinin variasiyasına gətirib çıxarır.

Ədəbiyyat

1.Budaqova Z.Müasir Azərbaycan ədəbi dilində sadə cümlə.Bakı,1963,
3.Musayev O. İngilis dilinin qrammatikası. Bakı: Maarif, 1996, 392 s.
4.Yunusov D.N. Müxtəlifsistemli dillərdə mürəkkəb sintaktik vahidlərin variativliyi. Bakı: Mütərcim, 2005, 351 s.
5. Veysəlli F.Y.Dilçiliyin əsasları. Bakı:Mütərcim, 2013,417 s.
6. Иванова И.П.Бурлакова В.В.Почепцов Г.Г.Теоретическая грамматика со временного английского языка.М.,ВШ, 1981,285 с.
7. Смирницкий А.И. Синтаксис английского языка.М.,1957
8.Торсуев Г.П. Константность и вариативность в фонетической системе.М., 1977, 125 с.

Aytan Rajabova

The sphere of language units variation in the process of speech act
(On the materials of English and Azerbaijan languages)
Summary

The article touches upon the sphere of language units variation in the process of speech act on the materials of English and Azerbaijani languages. Here the author pays a special attention to the accoustic parametres of the adverbial modifier of purpose. According to the experimental analysis the author notes that the accoustic parametres of the adverbial modifiers of purpose in English and Aazerbaijani are different.In Azerbaijani the place of the adverbial modifier of place is not fixed.It may be used in preposition,inner position and post position. In compared languages in speech act the sentences with adverbial modifier of purpose have got different semantic,syntactic and phonetic structures.They especially depend upon their informational weight.

Айтан Раджабова

Сфера вариативности языковых единиц в процессе речевого акта
(На материале английского и азербайджанского языков)
Резюме

Статья посвящена сфере вариативности языковых единиц в процессе речевого акта на материала английского и азербайджанского языков. Автор уделяет особое внимание на акустические параметры обстоятельства цели. Ссылаясь на экспериментальный анализ, автор отмечает что акустические параметры обстоятельств цели в английском и азербайджанском языках кардинально отличаются. В азербайджанском языке позиция обстоятельства места не фиксирована, она может быть препозициональной, промежуточной или постпозициональной. Предложения с обстоятельством цели, в сравниваемых языках обладают различной семантической, синтаксической и фонетической структурой. Они зависят в частности от информативного плана.

Rəyçi: Fikrət Aslanov
fəlsəfə elmləri doktoru, professor

POLAD POLADOV
Qafqaz University
ppoladov@qu.edu.az

IELTS READING AND WRITING

Açar sözlər: bal, başliq, keçid, inteqrasiya, tapşiriq2, tapşiriq1
Key words: score, title, passage, integrated, task 2, task 1.
Ключевые слова: счет, название, проход, интегрированный, задача 2, Задача 1

Reading section

How to make most of your reading test

- 1. look out for the title, headings and any special features such as capital letters, underlining, italics, figures, graphs and tables
- 2. make sure that you understand the questions and follow instructions carefully
- 3. pay attention to timing; do not spend too long on one passage or question
- 4. do not try and read every word; remember, you are reading for a purpose
- 5. if you do not know the answer to a question, attempt it but do not waste time; move quickly onto the next one
- 6. do not panic if you do not know anything about the subject of the text; all the answers can be found in the text
- 7. the word(s) you use must be taken from the Reading text; you must not change the form of the word(s) in the text
- 8. do not worry if there is a word that you do not understand – you may not need to use it
- 9. check your spelling
- 10. be careful to use singular and plural correctly
- 11. focus precisely on what you are asked to do in 'completion' type questions
- 12. if the question asks you to complete the note 'in the…' and the correct answer is 'evening', just use 'evening' as your answer; note that 'in the evening' would be incorrect
- 13. pay attention to the word limit; for example, if you are asked to complete a sentence using no more than two words, if the correct answer is 'silk shirt', the answer 'shirt made of silk' would be incorrect
- 14. attempt all questions; there are no penalties for incorrect answers, so you have nothing to lose
- 15. check your answers

Another section that most students find difficult is writing section, you have to bear in mind that writing is a picture where everything is very visible, any little mistake can be detected, so this is where we have to be very careful. The mostly worried thing in IELTS essay writing is the number of words.

How many words in IELTS essays?

How many words do you need to write for IELTS? The short answer is 250 for the essay and 150 for the task 1 report. This is essential information because you can lose a whole band score if you do not write enough words. If you are concerned or new to IELTS, I suggest you read through the following points.

Repeating the question

If you repeat the wording of the question, the examiner may not include those words in the final word count. What this means is that you should not take whole sentences and phrases from the question. You can borrow single words: they may well be the right word to use and it would be pointless looking for another word that was not exactly correct.

How many words in IELTS essays?

How many words do you need to write for IELTS? The short answer is 250 for the essay and 150 for the task 1 report. This is essential information because you can lose a whole band score if you do not write enough words. If you are concerned or new to IELTS, I suggest you read through the following points.

Repeating the question

If you repeat the wording of the question, the examiner may not include those words in the final word count. What this means is that you should not take whole sentences and phrases from the question. You can borrow single words: they may well be the right word to use and it would be pointless looking for another word that was not exactly correct.

image courtesy of http://www. wordle.net/

Let's look at a question to see what you can and can't do: "Some people argue that the government should give every unemployed person a mobile phone and should make sure they have access to the Internet. They believe this is the best way of using public money to reduce the problem of unemployment. To what extent do you agree or disagree?"

Here you could of course repeat the words "government" "unemployed" "the internet" and "mobile phone": these are simply the correct terms to use. But what you should avoid is writing " I agree that the government should give every unemployed person a mobile phone and should make sure they have access to the internet". This is simple copying.

Repeating yourself

In the same way, if you repeat large bits of your essay, the examiner may not count those words. The key point to remember is that it is really quality and not quantity that counts – do not repeat yourself, just to get to the word limit.

All words are words

Sometimes people ask what is a word. Small words like "a" and "is" are still words. A contracted word like "isn't" is probably going to be counted as one word and not two. Generally speaking, however, you are not going to use contracted words in your IELTS writing – with the exception of a less formal letter in General IELTS.

Do not waste time counting words – count lines

Time is your enemy in IELTS writing. Whatever you do, do not waste time counting all the words you have written, there are far more important things to check. Rather what you should do is to count the number of words you normally

write in a line and then multiply that by the number of lines you have written. So if you normally write 12 words to the line, you need to write 23/5 lines in your essay.

Do not write too many words – spend more time planning and checking

Some candidates write 300 words or more in their essay. There is no deduction for this, but it is not a good idea unless you are a very high quality candidate. There are no prizes for quantity, only quality. The time you spent writing the extra 30/40 words would be much better spent either planning your essay or checking and improving its quality.

A sensible target?

It's quality that quantity that really counts. So my suggestion would be to aim for between 250-275 words in the essay and 150 – 170 words in the report. This means that you have some margin for error.

10 important tips in IELTS writing

1. Read the question – answer the question

Rule number 1 is to answer the question: read the question carefully and underline all the information you need to include. This works differently in the essay and the report.

In the essay, often you will find background information and the question itself. Make sure you answer the question

(eg "Do you agree?") and do not write generally about the topic. If you copy another essay you have written on the same topic, you will lose a lot of marks.

In task 1, all the information you need to include is in the chart/graph: make sure you identify the key points before you start writing

2. Don't start writing too soon – think and plan!

It is important to finish both pieces of writing, but the way to do this is not necessarily starting to write immediately. If you do that, you may get half way through the writing and realise you cannot finish it. Only start writing when you know how you are going to finish.

In the essay this can mean up to 10 minutes and in the task 1 report it can mean up to 5 minutes. The more you think, the better and more quickly you will write. 2/3 minutes is almost certainly not enough. For more detail on this, try looking at Planning an IELTS essay – the 10 minute solution.

3. Write enough words

250 means AT LEAST 250 and 150 means AT LEAST 150. See my post on how many words for more detail on this.

4. Don't write too many words

The more words you write, you more mistakes you are likely to make. The more words you write, the less efficient you become and the quality will fall. The ideal is to aim for between 260 – 280 words in the essay and 160-180 words in the report.

5. Don't copy whole sections of the question

If you copy whole sections of the question, the examiner will not include those words in your word count: 260 words can become 230 words if you are not careful.

6. Time is your enemy – have a plan and a watch

Timing can be a problem. It is important to keep moving and stick to your timing. Don't be tempted to spend more than 40 minutes on your essay – you need 20 minutes to answer task 1 properly.

7. Task 1 and task 2 – which do you answer first?

The essay is worth twice the marks of the report. One idea is to do task 2 (the essay) before task 1(the report), just to ensure you finish the essay. You do need to spend at least 20 minutes on part 1 though. Do not try to answer it in 15 minutes.

8. Check your writing

It is important to check your writing for grammatical errors. You need to have a checklist before you enter the exam of what mistakes you typically make. For a little more detail on this, try checking this post about how to check your writing

9. Think about range of vocabulary

You should also check your writing for unnecessary word repetition – you are graded on the variety of your language. You should note that this does not mean you need to use long, complex words, rather it means you should use precise words.

10. Think about the examiner – use paragraphs well

The examiner will not spend very long grading your paper. You need to create an immediate good impression and the best way to do this in my experience is to present a well-structured piece of writing with clearly laid out paragraphs. This way the examiner is going to be on your side. If, however, it looks disorganised, the examiner is not going to be impressed.

References

http://www.dcielts.com/ielts-writing/how-many-words/
http://www.dcielts.com/ielts-writing/editing-a-checklist/
http://www.dcielts.com/ielts-writing/10-tips-essays/
http://takeielts.britishcouncil.org/prepare-your-test/test-day-advice/reading-test-advice
http://translation2.paralink.com

Polad Poladov

Ielts oxu və yazı

Xülasə

Bu maddə xüsusən imtahan üçün oxuyan və imtahan vaxtı oxuyan tələbələrə çətinliklə rast gəlindiyi faktına diqqəti yönəldir. Burada həmçinin yazılı imtahan zamanı eləcə də bölmələrin oxunması və yazılması ilə bağlı vacib məsləhətləri tələbələrin nəzərəinə çatdırır.Onlrın ən çox narahatlığına səbəb olan akademik karyera üçün həyata keçirilən İELTS -in oxuma və yazma imtahanlarıdır.Hal-hazırda hələ də bir çox tələbə arzuladıqları universitetlərə daxil olmaq və ya akademik karyera qurmaq üçün tələb olunan yüksək qiymətləri almağa can atır.Ancaq İELTS nədir və bu imtahan nə qədər vacibdir.İlk növbədə tələbələr bunu unutmamalısınız ki, bu imtahanı verməyə hazırlaşarkən təkbaşına hazırlaşmamalısınız, öz ideyalarınız və hazırlaşma stilinizi digər tələbələrlə bölüşməlisiniz.Burada mən sizə İELTS-in dörd bölməsi barədə ətraflı məlumat vermək istərdim.

П.Поладов

Показание и произведение

Резюме

Эта статья в основном сосредоточив внимание на факты, которые трудно найти студентов либо во время учебы или во время экзамена экзамен времени. Это также в основном дело с важными советами студенты должны принимать во внимание при написании экзамена чтения и записи разделов.

Большую часть времени чтению IELTS и запись всего боялись на экзамене, так как они считаются наиболее важное значение для академической карьеры. В настоящее время все больше и больше студентов работают больше для достижения максимально возможных результатов в своей академической карьеры или просто достаточно хорош классов поступить в университет они хотят учиться или просто на рабочем месте они хотят работать. Но что такое IELTS, насколько важен этот экзамен. В первую очередь студенты не должны забывать о том, что во время учебы для сдачи этого экзамена вы не должны учиться самостоятельно, вы должны поделиться своими идеями и стилем изучения с другими студентами. Здесь я хотел бы вас, чтобы получить более подробные советы по всем четырем разделам IELTS отдельно

Rəyçi: Dosent Nərminə Əliyeva

TAHİRƏ QULİYEVA
Azərbaycan Müəllimlər İnstitutu
Mingəçevir filialı

TƏHSİLƏ VƏ ELMİ TƏDQIQATLARA QLOBALLAŞMANIN TƏSİRİ

Açar sözlər: İnteqrasiya, Katakalizm, Demokratiya,
Key words: Integrated, интегрованный, kataklizma-катализма
Ключевые слова: democracy демократия Qloballaşma globalisation глобализация

"Qloballaşma" termini etimoloji cəhətdən latın termini olan "qlobus" – yəni yer kürəsi sözü ilə əlaqədardır. Bu isə sosial-iqtisadi, siyasi, ekoloji, mədəni və təhsil sahələrinin inkişaf proseslərinin ümumi planetar xarakterlərini ifadə edir.

Qloballaşma-yer kürəsində bütün istimai fəaliyyətin beynəlmiləlləşməsi, milli iqtisadiyyatların vahid ümumdünya sisteminə qovuşmasıdır. Bu da öz növbəsində kapitalın asanlıqla yerdəyişməsinə, dünyanın informasiya üçün açıq olmasına, texnolji inqilaba, sənaye cəhətdən inkişaf etmiş ölkələrin konmunikasiya yaxınlaşması əsasında əmtəə və kapitalın hərəkətinin liberallaşmasına, planetar elmi inqilaba, millətlərarası sosial hərəkətlara, yeni nəqliyyat növlərinə, telekommunikasiya texnologiyalarının reallaşmasına, internasional təhsilə əsaslanır. Qloballşama ilə müvarizə aparmaq, ya da öz dəyərlərini diktə etdirmək üçün ona qarşı çıxa bilməyən məqamlarda başqa tərəfdən getmək və hədəfə doğru, bəzən zaman altından su kimi yeriyərək, bəzən isə sel kimi coşub cağlayaraq, amma heç vaxt məqsədi gözdən qaçırmadan axıb getmək lazımdır. Lakin bu müəyyən mənada mümkünsüz görünür. Bu zaman qədim Çin müdriklərinin bir kəlamı yada düşür. "Əgər güclü külək əsirsə, onun qarşısını almaq üçün hündür və möhkəm divarlar tikmək lazım deyil, sadəcə yel dəyirmanları tikib güclü küləkdən başqa məqsədlər üçün-enerji almaq üçün istifadə etmək lazımdır". Bəziləri bunu normal hal kimi dəyərləndirdi: dünya dövlətləri və xalqalarının bərabərliyinə, "Hərənin öz imkanına görə", "Yer kürəsi hamınındır" prinsiplərinin gerçəkləşməsinə yönəlik qarşısıalınmaz (dönməz) proses kimi qəbul edirlər. Bəziləri isə qorxunc bir şey kimi təsəvvür edir və narahat olurlar ki, qloballaşma sonucda ciddi kataklizmlərə gətirə- əldə olunmuş yaxşı- pis nə varsa, hamısını silib-süpürüb ata bilər. Bu cinahın ən çox ehtiyatlandığı məqam isə proses zamanı öz milli- mədəni-mənəvi dəyərlərini itirmək qorxusudur. Bu, təbii olaraq onların özünüqoruma "instinkt" indən irəli gələn bir hissdir. Qloballaşma həm obyektiv (bu proses heç kimdən və heç nədən asılı olmadan gedir), həm də subyektivdir (insanların iştirakı ilə gedir). Bu prosesdə biz elə iştirak etməliyik ki, o, insanlara tərəqqi gətirsin, dəhşət gətirməsin. Ona görə də bütün yer üzü bu prosesdə iştirak etməlidir. O, cümlədən də azərbayçan. Yaxşı olardı ki, azərbaycan bu prosesdə müşahidəçi deyil, iştirakçı olsun. Belə qənaətə gəlirik ki, bu gün qloballaşmadan "can qurtarmaq", yaxud onu "bir yana itələmək" yox, onunla "anlaşmaq" lazımdır. Bu "anlaşma"nın əsas yolu "yeni insan" tipi yetişdirməkdir, elə insan ki, o, bəşəriyyəti lərzəyə salan qloballaşmanın nəbzini düzgün tuta və onun yaratdığı maneələri ustalıqla aşa bilsin. İki mühüm nəticəyə gəldik: birincisi,

prosesin müsbətə və ya mənfiyə doğru getməsi təlim-tərbiyədən – bilik, bacarıq və dəyərlərin keyfiyyətindən və onların böyüyən nəslə necə ötürülməsindən çox aslıdır; ikincisi isə təhsilə sadəcə olaraq, "uyğunlaşma", yaxud "inteqrasiya" yox, həm də qloballaşmanın yaratdığı baryerləri aşmaq üçün vasitə kimi baxmaq lazımdır. İndi öz inkişafını təhsildə görən hər bir dövlət qloballaşmadan doğan bu nəticələri postulat kimi qəbul edir.

Hələ XIX əsrin əvvələrində görkəmli maarifçilər beynəlxalq əməkdaşlığın zəruri olmasına böyük diqqət verirdilər: "Biz Azərbaycanı Yevropaya tanıtdırmalıyıq. Özümüzə məxsus tarixə, gözəl və xüsusi bir ədəbiyyata, sənayei-nəfisəyə malik olduğumuzu onlara bildirməliyik. Dilimizin firəng dili Yevropada olan kimi, bütün Qafqazda ümumi bir dil olduğunu... bildirməliyik. Yevropa şairlərindən geri qalmayacaq şairlərimizi, müsənniflərimizi, yazıçılarımızı, alimlərimizi birbəbir nişan verməklə xüsusi bir mədəniyyətə malik olduğumuzu əyan və aşkar etməliyik. Cəsur və rəhimli, safdil və həqqu bir millət olub da, fitnə-fəsad, hiylə və təzvir kimi zəmimədən ari olduğumuzu gizlətməməliyik... Əlqissə, bütün xüsusiyyətimizi, bütün məziyyətimizi təfsilatı ilə Yevropaya bildirib, müstəqil yaşamağa və müstəqil bir hökumət təşkilinə kamalınca müstəhəqq olduğumuzu layiqincə isbat etməliyik...".

Azərbaycan Respublikası özünün keçid dövrünü yaşayır. Keçid dövrü yalnız bir iqtisadi, siyasi, ideoloji sistemdən digərinə keçid deyil, həm də pedaqoji-psixoloji problemdir. Yəni keçid dövrü süurlarda, təfəkkürdə, düşüncə tərzində, dünyagörüşündə dəyişikliyin, yeni sistemin tələblərinə uyğun gələn şəxsiyyətlərin formalaşdırılması deməkdir. İnsan psixikasında yeniləşmənin baş verməsi isə mürəkkəb, çoxşaxəli təsirilə həyata keçirilən prosesdir. Burada cəmiyyətdə gedən proseslər, xüsusilə təhsil sistemi həlledici təsirə malikdir. Bu isə sadə formada, qısa müddətdə həyata keçirilə bilməz.

Azərbaycan ali təhsili yeni yüzilliyin mütərəqqi meyllərini özündə əks etdirməli, əvvəlki nəsillərin təcrübəsini toplamalı, həm bəşəri dəyərlərə, həm də milli mədəniyyətin humanist ənənələrinə əsaslanmalı, Azərbaycan xalqının etnik bənzərsizliyinin qorunub saxlanılmasına istiqamət götürməlidir.

Azərbaycan Respublikasının təhsil siyasətini qlobal proseslər axınında korrektə etməyə imkan verən ən vacib məsələ, təhsil sahəsində dəqiq istiqamətləndirilmiş dövlət siyasətinin işlənib hazırlanmasıdır ki, bu da büdcə maliyyələşməsi səviyyəsinin yüksəldilməsindən, operativ informasiya təminatının, müxtəlif beynəlxalq təşkilatlarla və fondlarla sabit əlaqələrin təminindən, təhsil sahəsindəki beynəlxalq elmi- tədqiqat proqramlarında iştirakından, təhsil müəssisələrinin inkişafında iştirak edən hüquqi və fiziki şəxslərə vergi güzəştləri tətbiq etmək yolu ilə təhsil sisteminə qeyri-dövlət kapital qoyuluşunun stimullaşdırılmasından və s. aslıdır.

Təhsil sahəsində qloballaşma ilk növbədə bir-birləri ilə sıx əlaqələri olan millətlərin ölkələr arasında sərbəst hərəkət etmək və müstəqil şəkildə iş yeri tapmaq, xalqaların, millətlərin qarşılıqlı anlaşmasını və fəaliyyət göstərməsini, təmin etmək imkanına malik olan fərdlər yetişdirilməsində özünü göstərir. Bu qəbil insanlardan həmçinin fərqli şəraitdə yaşamaları, fəaliyyət göstərmələri və mədəniyyətlərarası dioloqun fəal iştirakçıları da gözlənilir.

Başqa sözlə desək, informasiya əsrində təhsili başlıca milli kimliyini itirməmək şərti ilə müxtəlif mədəniyyətlərin hakim olduğu coğrafiyalarda mövcud şəaritə

uyğunlaşmağ və uğur qazanmağı bacaran dünya vətəndaşları yetişdirməkdir. Belə olan halda, qloballaşma şəraitində yalnız öz ölkəsində oxumaq məcburiyyətində qalmayan hər bir vətəndaş təhsil alacağı ölkəni və tədris ocağını sərbəst şəkildə seçmək hüququ əldə edir. Artıq internet vasitəsilə reallığa çevirilən bu imkan nəticəsində insanlar hətta evlərindən çıxmadan dünyanın hər hansı bir yerindəki şirkətdə işləyə bilirlər. Əgər biz gələcəyimizi təhsilsiz təsəvvür etmiriksə, o zaman bu prosesin gələcək həyatımızdakı rolunu nəzərə alaraq qloballaşan dünyada ümumbəşəri dəyərləri mənimsəmiş, milli dəyərləri qoruya bilən fərdlərin yetişdirilməsi təhsilin başlıca səciyyəvi xüsusiyyəti olaraq davam edir.

Təhsilin qloballaşması dünya elmi dəyərlərinin sintezini və yeni formada təşəkkülünü ehtiva edir. Müasir dünyamızda xalqlar arasında mədəni və elmi əlaqələrin genişləndirilməsi, onların ünsiyyəti və qarşılıqlı şəkildə bir-birini dərk etməsi həmin xalqların yaxınlaşmasını şərtləndirir. Lakin belə yaxınlaşma heç də təsirsiz ötmür. Qloballaşma cəmiyyət üçün xüsusi əhəmiyyət kəsb edən ünsiyyət problemini istər ümumdünya, istərsə də bir ölkə miqyasında get-gedə daha qabarıq şəkildə ortaya çıxarımaqla həmin problemin həlli üçün düzgün prinsiplər müəyyənləşdirmək vəzifəsini qarşıya qoyur. Müşahidələr göstərir ki, ictimai ünsiyyət prosesində lokallıqdan qloballığa doğru sürətli bir keçid mövcuddur ki, bu da :

1) Ümumdünya ünsiyyət sferasının genişlənməsi
2) Lokal ünsiyyət sferalarının daralmasında təzahür edir

Bizim respublika kimi ölkəklərdə beynəlxalq dillərə yiyələnmə də böyük əhəmiyyətə malikdir. Qloballaşma prosesinə start verən proseslərdən biri də informasiya və kommunikasiya texnologiyalarının yayılmasıdır.

İnformasiya texnologiyalarının dominant rol oynadığı zaman hətta, ənənvi bəşəri fəaliyyət sahələrində- biznes, elm, incəsənət- uğur qazanmaq effektiv və enerjili təfəkkürün formalaşmasını tələb edir. Lazım olan texnologiyalardan istifadə olunmazsa, nəinki, yeni səviyyələrə qalxmaq olmaz, eləcə də, olduğun səviyyəsində möhkəmlənmək qeyri-mümkündür.

Ölkəmiz qloballlaşma prosesinə hazırlığa məhz təhsildən başlamalıdır. Bütün dövrlərdə cəmiyyətin tərəqqisi bilavasitə təhsilin inkişafından və onun əhəmiyyətinin düzgün diymətləndirilməsindən aslı olmuşdur. Cəmiyyətin tələbatı təhsilin inkişafını sürətləndirmiş, elmi və texnoloji naliyyətlər isə təhsil sistemi qarşısında həlli vacib olan daha mürəkkəb vəzifələr qoymuşdur. Bunun üçün aşağıdakılara ehtiyac var:

- Təhsildə vahid və aydın bir startegiyanın hazırlanması. Hazırlığa təhsil sahəsində qloballaşma prosesinin şərtləri nəzərə alınaraq vahid və bütün cəmiyyət üçün aydın olan bir strategiyanın hazırlanmasına ehtiyac var. İbtidai, orta və ali təhsilə kompleks yanaşma ortaya qoyulmalı, yeni təhsil qanunu dəyiçən dünyamızın şərtləri və Boloniya Prosesi nəzərə alınaraq hazırlanmalı və qəbul edilməlidir.

- Kompüterdən və internetdən istifadənin təşviq edilməsi. Ölkədə hal-hazırda məktəblərin kompütürləşdirilməsi prosesi davam edir. Qloballaşmanın geniş vüsət aldığı hazırkı mərhələdə, informasiya cəmiyyətində sosial-iqtisadi fəaliyyət sahələrindəki rəqabətin gücləndiyi, habelə təbii resussların tədricən tükəndiyi bir vaxtda təhsilin rolu artmaqdadır. Birləşmiş Millətlər Təşkilatı XXI əsri "Təhsil əsri" elan etmişdir. Yüksək intellektə malik insan kapitalının formalaşmasında, davamlı inkişafa zəmin yaradan güclü iqtisadiyyatın qurulmasında təhsilin rolu mühüm

əhəmiyyət kəsb edir.Təbii, burada təhsilin bütün mərhələrinin ümumi məzmunu nəzərdə tutulur. Ümumtəhsil siteminin müasirləşməsindən söz açarkən xüsusi qeyd etmək lazımdır ki, biliklərə əsaslanmış iqtisadiyyatın təşəkkül tapdığı şəraitdə İnformasiya və Kommunikasiya Texnologiyalarının (İKT) inkişafı ölkənin intellektual və elmi potensialının vacib göstəricilərindən biridir. Bu bir danılmaz fakdır ki, bu gün qloballaşan dünyada ölkələrin rəqabət qabiliyyəti, ilk növbədə, onların İKT- dən səmərəli istifadəsi ilə formalaşır. Müstəqilliyin şərəfli yolları ilə gələcəyə doğru inamla irəliləyən ölkəmizdə son illər ərzində aparılan davamlı islahatlar siyasəti dövlətimizin əhəmiyyətli dərəcədə güclənməsinə imkan vermiş, dinamik sosial- iqtisadi inkişafı və xalqımızın rifah halının yaxşılaşdırılmasını təmin etmişdir.

Azərbaycan Respublikası UNESCO (Birləşmiş Millətlərin Təhsil, Elm və Mədəniyyət təşkilatı), İCESCO (İslam Konfransının təhsil, Elm və Mədəniyyət Təşkilatı), Avropa Şurası kimi beynəlxalq və regional qrumlarla əməkdaşlıq edir və layihələrdə iştirak edir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzaladığı "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə Dövlət Proqramı"nın təsdiq edilməsi haqqındakı sərəncamı ölkədə gənclərə, onların savadlı, vətənpərvər, "Təhsil əsri"nə layiq olmalarına göstərilən qayğının dəstəyin bariz nümunəsidir.

Ədəbiyyat

1. Üzeyir Hacıbəyov. Mühüm məsələlər. "Azərbaycan qəzeti", 28 oktyabr, 1918
2. Ələkbərova İ. Azərbaycan beynəlxalq ünsiyyətdə. "Kontekst" toplusu, 2005 s.37
3. www.elmqazeti.com/...
4. http: // dspace. khazar.org/bitstream/123456789/…/1/ALITHS2008212.PDF
5. http://journal.qu.edu.az/

Тахира Кулиева

Воздействие глобализации на исследовательские работы и образование

Резюме

Термин «глобализация» латинский термин и переводится как земля. И это характеризует социально-экономические, политические, культурные сферы.

В данной статья говориться о планетарно-научной ревалюции, глобализации, новых видах транспортизации, о реализации телекомуникационных технологий, о воздействии на интернациональное оброзование.

Tahira Quliyeva

Implementation of globalization to investigations and teaching process

Summary

The word qlobal comes from the latin word “globus” and it means the word land.

This article is about planetary revolution of globalization, transnational social movements, new forms of transportation, telecommunications, technology implementation the impact of international education. The duties of Azerbaijan education in the globalization process are described in the article.

Rəyçi: N.D.Zeynalov
tarix üzrə fəlsəfə doktoru

ZƏRİF XƏLİLOVA
AMİ-nin Mingəçevir filialı

ORFOQRAFİYA TƏLİMİNİN TƏDRİSİ METODİKASI

Açar sözlər: Orfoqrafiya, yazılı nitq, təliminin tədrisi metodikası
Key words: Spelling, written speech, methods of teaching
Ключевые слова: Орфография, письменная речь, методика преподавания

Orfoqrafiya – yazılı nitqin normalarıdır. Bu normaların konkret dil vahidlərinə görə qanuniləşdirilmiş müxtəlif təzahürləri isə orfoqrafiyanın qaydalarını təşkil edir. Buna görə də ümumiləşdirilmiş halda orfoqrafiyaya belə olar: - Orfoqrafiya yazılı nitqdə dil vahidlərinin yazılışının tənzimedici qaydalar sistemidir. Yazılı nitqin normaları və onun müxtəlif təzahürləri sayılan qaydalar isə müəyyən prinsiplər əsasında müəyyənləşdirilir. Bu prinsiplər dilin daxili inkişaf qanunları ilə nə qədər dürüst və dəqiq uzlaşdırılmış olsa, bunlara əsasən verilmiş hər orfoqrafik qayda da ağlabatan bir qanun kimi asanlıqla dərk edilə bilər və tez də öyrənilir. Əslində orfoqrafiya cəmiyyətin ifadəsi üçün düzəldilmiş əməli məqsədli qaydalar halında asan və sadə olmalıdır. Orfoqrafiya qaydaları hamının məcburi surətdə riayət etməli olduğu qaydalardır. Buna görə də bu qaydaları elə düzəltmək lazımdır ki, işlədənlər könülsüz, şüursuz məcburiyyət hissi ilə yox, könüllü məcburiyyət hissi duyaraq işlətmiş olsunlar. Orfoqrafiya qaydaları dilin gözəlliyini, incəliyini, səlisliyini və ahəngdarlığını nəinki mühafizə etmək, hətta bu xüsusiyyətləri inkişaf etdirmək, artırmaq və genişləndirmək istiqamətində qurulmuş olmalıdır.

Orfoqrafiyamızın tarixinə müxtəsər nəzər salsaq, görərik ki, yuxarıda qeyd etdiyimiz bu və ya digər cəhət ya heç nəzərə alınmamış, ya da bir cəhətdə daha çox meyl göstərilmiş, digər cəhətə isə çox az yer verilmişdir. Orfoqrafiyanın əsl məqsədi xalqın, millətin üzvləri arasında yazılı anlaşmanı, yazı vasitəsilə fikrin dürüst, dəqiq ifadəsini təmin etməkdir. Orfoqrafiyanın ictimai mahiyyəti məhz bununla bağlıdır və buna görə də orfoqrafiya qaydaları ictimai qanunlar kimi hamı üçün məcburidir. Bu qaydaları pozmağa heç kəsin ixtiyarı yoxdur və heç kəsin özbaşına orfoqrafik qaydaları dəyişib başqa qaydalarla əvəz edə bilməz. Orfoqrafiya ümumxalq dilinin, vahid milli dilin, xüsusən bizim dövrümüzdə- bizim ölkəmizdə sosialist məzmunlu, milli formalı mədəniyyətimizin ən vacib vasitələrindən biri sayılan yazılı nitqin qanuniləşmiş normalarıdır. Vahid tələbələrə cavab verən yazı olmadan müxtəlif yerlərdə müxtəlif cür səslənən adi danışıq nitqinin insanlar arasında ünsiyyət vasitəsi sayılan yazılı nitqə çevirmək olmaz. Orfoqrafiya yazılı ədəbi dildə hamı tərəfindən qəbul edilmiş söz və onun qrammatik normalarının (morfemlərin) vahid və sabit yazılış qaydalarının sistemidir. Orfoqrafiya təlimi ədəbi tələffüzlə, orfoepik normalarla qarşılıqlı əlaqədə getməlidir. Orfoqrafiya təlimi üzrə hər bir məşğələ şifahi və yazılı nitqi inkişafı ilə, qrammatikanın tədrisi ilə vəhdətdə aparılmalıdır. Orfoqrafik savadlılıq isə öz növbəsində qrammatikanın öyrənilməsini sürətləndirir, şagirdlərin nitqinin inkişafına qüvvətli təsir göstərir. Ona görə də bu sahədə işi düşünülmüş sistemlə təşkil etmək lazımdır. Azərbaycan dilinin orfoqrafiyası üç prinsipə istinad edir: fonetik, morfoloji, tarixi-ənənəvi.

Fonetik prinsipə görə - sözlərin bir qismi tələffüz edildiyi və eşidildiyi kimi yazılır; məsələn, ana, ata, adam, saz, dəvə, nənə, alma, çəmən və s. Əgər biz bütün sözləri deyildiyi kimi yazmağa çalışsaq dialekt və şivələrin təsiri ilə böyük bir hərcmərclik alınar.

Morfoloji prinsip – müxtəlif şəkildə deyilən morfemlərin vahid formada yazılışını tənzim edir. Bu prinsipə görə sözlərin və ya şəkilçilərin qrammatik tərkibi yazıda eynilə əks olunur: Məsələn, *soyuq* sözü ayrı-ayrı şivələrdə *so:ğ, souq, sovux, savux, söyux* və s. şəklində yazılır. Yaxud cəm şəkilçisi dialektlərdə - *dar, - dər; - zar, - zər; - nar, -nər; - rar, - rər* şəklində işləndiyi halda ədəbi dildə *-lar, -lər* şəklində yazılır. Tarixi-ənənəvi prinsip - fonetik və morfoloji prinsiplərin öhdəsindən gələ bilmədiyi hallarda tətbiq edilir. Dilimizdə tələffüz olunduğu kimi yazılmayan elə sözlər var ki, onlar həm də heç bir qrammatik qaydaya tabe olmur. Belə sözlər tələffüzündən asılı olmayaraq yazıda bir ənənə kimi öz köhnə formasını saxlayır: məsələn, dövlət sözünün nə üçün belə yazılmasını əsaslandırmaq mümkün deyil. Dialektlərdə *dölət, döylət, dolət, dəvlət* şəklində işlənən bu söz ədəbi tələffüzdə həm *dövlət*, həm də *devlət* şəklində işlənir. Bu söz bir müddət elə *devlət* şəklində də yazılmışdır.

Orfoqrafiya təliminə təsir göstərən amillər 5 cür qruplaşdırılır:

1) görmə; 2) eşitmə; 3) nitq hərəki təhlil; 4) əl-hərəki proses; 5) təfəkkür fəaliyyəti. Orfoqrafiyanın mənimsənilməsində görmə qavrayışının rolu şübhəsiz böyükdür.

Yazılışı çətin sözlər üzərində işin düzgün təşkili orfoqrafiya təliminin mühüm şərtlərindəndir. Əgər uşğın nitqinin, ümumi inkişafının səviyyəsi, məktəbə və mini hazırlıqla gəlməsi, şəhərdə və ya kənddə yaşaması, nitqinə hazır dialektin təsir göstərməsi, intelektual hazırlığı, fərdi xüsusiyyətləri nəzərə alınarsa, bizim çətin hesab etdiyimiz bəzi sözlərin bir çoxları üçün çətinlik törətməsi, əksinə asan saydığımız bəzi sözlərin isə onlar üçün çətin olması aşkara çıxar – "Çətin söz" deyəndə çox vaxt yalnız ədəbi tələffüz normalarına- orfoepik normalara uyğun yazmağın mümkün olmadığı hallar *(teatr, vaqon, bulud, dovşan, igid, pomidor, rəng, bitki, briqadir, lampa, metr, neft, səhv, təqsir, ünvan və s.)* məhdudlaşdırmaq olmaz. Bəzən yazılışını çətin hesab etdiyimiz sözlərin tələffüzü ilə yazılışı arasında fərq olmur. Bu fərqi şagirdlər özləri yaradırlar. *Vərəq, qazet, palto, karandaş* və s. kimi yazılması buna misal ola bilər. Məktəb təcrübəsində yazılışı çətin sözlərin qruplaşdırılması imkanları əsasən belədir:

1) Proqramdakı ardıcıllıqla üç-üç, dörd-dörd qruplaşdırmaq;
2) Qrammatik mövzular üzrə (*qoşasamitli sözlər, isim, say və s.)* qruplaşdırmaq;
3) Semantik məna qrupu üzrə *(meyvələr, ev heyvanları və s.)* qruplaşdırmaq;
4) Bir-birinə əks olan orfoqramlarına görə (igid-söyüd, əgər-əyri, məgər-ləyək və s.) qruplaşdırmaq;
5) Qrafik cəhətdən bənzərliyinə (dörd, kənd, bənd, süd və s.) qruplaşdırmaq.

Yazılışı çətin sözlər üzrə iş müəyyən sistemlə təşkil olunmalıdır. Yazılışı çətin sözlərin mənimsənilməsi çalışmaların rəngarəngliyindən də asılıdır. Bu məqsədlə müxtəlif çalışmalar məsləhət görülür: buraxılmış hərfi yerinə qoymaqla sözü tamamlayıb yazmaq; diktəyə əsasən yazılmış sözün mənasını izah etmək; pəncərəli

cədvəl üzrə imla yazmaq; 3-4 söz üzrə izahlı lüğət – orfoqrafik imla; tapmaca xarakterli lüğət imlası; əşya şəkilləri əsasında yazı; keçilmiş qrammatik mövzuya həsr olunmuş 10-15 sözdən ibarət lüğət – orfoqrafik imla; qrammatik-orfoqrafik təhlil və s.

Orfoqrafik qaydaların hamı tərəfindən qəbul edilmiş və qanuniləşdirilmiş qaydalar olduğunu nəzərə alaraq ona hər yerdə, hamı tərəfindən məcburən əməl edilməsi vacibdir. Bunun üçün hamının riayət etdiyi vahid rejim yaradılmalıdır. Şagirdlərin sinifdə, sinifdənxaric və məktəbdənkənar tədbirlərdə yerinə yetirdikləri yazılı təlim tapşırıqları və müstəqil yazılı işlər- məktəb, qəbz, hər hansı qeydlər və s. müəllimin ciddi nəzarəti altında yerinə yetirilməlidir. Orfoqrafiya təliminin elmi əsaslar üzrə və sistemli aparılması üçün aşağıdakı tələblərə əməl olunması zəruridir:

a) Şüurluluq - şüurluluq ayrı-ayrı orfoqramların mənalarının və onların orfoqrafiya sistemində yerinin şagirdlər tərəfindən başa düşülməsini tələb edir. Şagird bilməlidir ki, *çörəyə* sözü ismin yönlük halındadır. Bu söz bəzən onları çaşdırır. Şagirdlər təhlil edərkən tələsir, yönlük hal şəkilçisinin – *yə* olduğunu bildirirlər. Buradakı - *k* samiti yönlük halda (iki sait arasında) – *y* samiti ilə əvəz olunur. Həmin sözdə hal şəkilçisi isə - ə - dir. Ona yönlük halın başqa şəkilçiləri ilə (a, ya, yə) əvəz etmək olmaz.

b) Tədricilik və ardıcıllıq – Qrammatik- orfoqrafik qaydalar tədricən öyrədilməlidir. Müəllim hərbir məşğələ üçün mətn hazırlayarkən tərkibində şagirdlərin möhkəm öyrəndikləri və yeni keçilmiş orfoqramların olmasına fikir verməlidir.

c) Çalışmaların rəngarəngliyi. Orfoqrafiya təlimi müxtəlif növ çalışmaların köməyi ilə təşkil olunur. Tələffüzü yazılışından fərqlənən sözləri, əsasən, orfoqramların oxşarlığına görə qruplaşdırıb, "Belə deyilir", "Belə yazılı" başlıqları altında təqdim edən çalışmalar kimi vermək lazım gəlir.

Elə hallar var ki, müqayisədən istifadə olunmalıdır: məsələn, - da, -də yerlik hal şəkilçilərinin eyni formalı bağlayıcılarla qarışdığı hallarda kontekst daxilində müqayisə faydalı olur.

ç) Yazılı orfoqrafik çalışmaların şifahi çalışmalara əsaslanması. Təcürbə göstərir ki, şagirdlərin şifahi nitqindəki nöqsanlar çox vaxt eynilə yazıya köçürülür. Ona görə də yazı təliminin ilk dövrlərindən yazılı və şifahi nitq arasındakı qarşılıqlı münasibət uşaqlara başa salınmalıdır. Orfoqrafik cəhətdən düzgün yazmaq üçün sözləri düzgün tələffüz etməyi öyrətmək lazımdır.

Orfoqrafik çalışmalar xarakterinə görə müxtəlif olur. N.S.Rojdestvenski onun üç qrupunu göstərir:

1)şagirdlərin dərketmə xarakterinə görə; 2) yerinə yetirilərkən iştirak edən analizatorların xarakterinə görə; 3)dərsin məqsədinə görə.

Orfoqrafiya təlimi dövründə müxtəlif təfəkkür fəaliyyətinə istinad edən çalışmalardan istifadə olunur. Yazılı çalışmaların əksəriyyəti dil dərsinin bir hissəsində tək-tək hallarda bütöv dərs ərzində yerinə yetirilməlidir. Yazılı çalışmaları nəzərdən keçirək:

Üzündənköçürmə yazılar, imlalar- *(xəbərdarlıqlı imlalar, izahlı imla, komentarili yazı, görmə imla, seçmə imla, lüğət üzrə imla, yaradıcı imla, sərbəst imla, yoxlama imla),* əzbər (yaddaşa əsasən) yazı, ifadə və inşa yazılar və s.

Orfoqrafik təhlil şagirdlərə orfoqrafik və qrammatik hadisələrin arasındakı münasibəti başa düşmək, orfoqrafik çətinlikləri görə bilmək, onları dərk etmək

vərdişi aşılayır. Orfoqrafik təhlil öz xarakterinə görə fonetik və qrammatik təhlillə əlaqədardır. Bununla belə onları eyniləşdirmək olmaz.

Orfoqrafik təhlil zamanı hər bir sözdə izaha ehtiyacı olan bir və bir neçə orfoqram tapmaq mümkündür: məsələn, *bulud* sözünün yazılışında belə orfoqram birdir. *Şagirdlər* – d samitini – t ilə əvəz edirlər, *karton* sözündə iki orfoqram çətindir *(- k samiti q, - t samiti isə - d ilə əvəz edilir)*. *Sürəyya* sözünü təhlil edərkən şagirdlərin diqqətini *ü, ə* qoşa *y* və *a* hərflərinin yazılışına yönəltməlidir. Belə olarsa, şairdlər həmin sözü *Sürəyyə, Sürəyə, Sürayə, Surayya, Surayyə, Suraya, Surayə* şəklində yazmasalar orfoqrafik təhlil yazılı və şifahi olur.

Şagirdlərin yazılarındakı səhvləri aşkar çıxartmaq, onların xarakterini, başvermə səbəblərini müəyyənləşdirib qruplaşdırmaq və aradan qaldırmaq son dərəcə vacibdir. Məktəb təcrübəsində yazı işlərinin təşkili sahəsində yol verilən nöqsanları belə qruplaşdırmaq olar:

1)Əsasən yoxlama yazılar təhlil edilir, öyrədici yazılarda buna o qədər də əhəmiyyət verilmir; 2)Yazı işlərinin təşkili və təhlili bəzən gecikdirilir, nəticədə şagirdlərin yazı haqqında təsəvvürləri köhnəlir, marağı azalır; 3)Təhlil müxtəlif rəngli karandaşlarla və səliqəsiz aparılır; 4)Yazı işləri diqqətsiz yoxlanır; 5)Səhvlərin çox olduğu yazı işləri bəzən təshih olunmur; 6)Yazı işlərində buraxılan səhvlərin hesabı aparılmır; 7)Yazı işləri qiymətləndirilmək normaları pozulmur; 8)Təhlil məşğələlərində səhvlər üzərində iş aparılmır; 9)Yazı işləri təshih edilib qiymətləndirilərkən kolliqrafik xətalar nəzərə alınmır.

K.D.Uşinski haqlı olaraq yazmışdır: *"Təshihsiz qalan və ya şagirdə izah edilməyən və onların görmədikləri səhvlər düzgün olmayan yazının kök salmasına səbəb olur..."!* Səhvlərin xarakteri və başvermə səbəbləri müxtəlifdir. Xarakterinə görə səhvləri aşağıdakı kimi qruplaşdırmaq olar: a)orfoqrafik səhvlər, b)leksik səhvlər, c)durğu işarələri səhvləri, ç)üslub səhvləri,

d) məzmun səhvləri.

Orfoqrafik səhvlər geniş mənada səhvlərin bütün növlərini əhatə edir. Dar mənada isə qrammatik-orfoqrafik qaydanın pozulması nəticəsində baş verən səhvlərdir.

1) sözlərdə hərflərin buraxılması *(şagid, + və s.)*
2) hərf və hecanın artırılması *(oktyabır, şagiridlər)*
3) sözdə hərflərin yerdəyişməsi *(kəməl-kələm və s.)*
4) bir hərfin başqası ilə əvəz olunması *(qayıq-qarıq, manqal-mandal və s.)*

Səhvlərin xəbərdarlığı iki halda olur: 1)Heç bir qayda ilə yoxlanması mümkün olmayan sözlərin yazılışında: ekskursiya, nəhayət, təəccüb, ümid, əgər və s. 2)Hələ keçilməmiş qaydalara aid sözlərin yazılışında.

Müəllim səhv yazılmış sözləri bir neçə yolla aparır: 1)Səhvin altından xətt çəkib, onun düzgün yazılışını haşiyədə yazmaq; 2)Səhvin altından xətt çəkilir və ya orfoqram mötərizəyə alınır, haşiyədə onun yazılışına kömək göstərəcək söz yazılır. Sətirdə seç (g)i, ald (u)n, bulu (t), haşiyədə içki, qaldım, palıd və s. 3)Səhvin altından xətt çəkilir və ya orfoqram mötərizəyə alınır, üstündə və ya haşiyədə həmin formanın yazılışına kömək edəcək sual yazılır: sətirdə əl (ivüz), kino(va) haşiyədə nəyvüz? Haraya? və s. Səhvlər üzərində işə həsr olunmuş məşğələnin keçirilməsi za-

manı aşağıdakıları nəzərə almaq lazımdır: yazı işinin nəticələrinin elan edilməsi; müəllimin rəhbərliyi altında səhvlərin düzəldilməsi; səhvlərin şagirdlər tərəfindən müstəqil düzəldilməsi.

Ədəbiyyat

1. Yəhya Şəfi oğlu Kərimov "Ana dilinin tədrisi metodikası", "Nasir" nəşriyyatı. Bakı 2005.
2. Abdullayev A. Azərbaycan dilinin tədrisinə dair. Azərnəşr. Bakı 1958.
3. Həmzəyev M. II sinif şagirdlərinin orfoqrafiyasının mənimsənilməsinə dair. Azərtədrisnəşr, Bakı 1961.
4. Kərimov Y.Ş.İbtidai siniflərdə şagirdlərin buraxdıqları səhvlər və onların təhlili yolları (C.Əhmədov, M.Həmzəyev, Y.Kərimov, A.Babayev, "Yazı təliminin bəzi məsələləri") Azərtədrisnəşr, Bakı, 1961.
5. Kərimov Y.Ş.İbtidai siniflərdə orfoqrafik çalışmaların sistemi. Azərnəşr, Bakı, 1965.

Zarif Khalilova

Teaching methods of spelling

Summary

Spelling is the norm of written speech. Spelling is the linguistic unit of written speech, regulatory system in spelling rules. Norms of written speech, rules, and its various manifestations are determined on the basis of certain principles.

According to the principles of phonetics some words pronounced as they are in written form. For example: mother, father.

Зариф Халилова

Методика преподавания написания

Резюме

Орфография является нормой письменной речи. Орфография система регулирования языковых единиц в речи письменной форме. Нормы письменной речи, и правила его различных проявлений, определяются на основе определенных принципов.

По принципам фонетики некоторые слова пишутся так, как произносятся. Например: папа, мама.

Rəyçi: Həqiqət Qədimova
filologiya üzrə fəlsəfə doktoru

SƏBİNƏ MƏNSÜMOVA
Azərbaycan Müəllimlər Institutu

AZƏRBAYCAN DİLÇİLİYİNDƏ TERMİN YARADICILIĞI

Açar sözlər: Termin, sufiks, milli terminlər, terminlərin əmələ gəlmə prosesi, terminlərin əməliyyatı.
Key words: termins, suffixes, national termins, process of terminology creation, termin combinations.
Ключевые слова: термины, суффиксы, национальные термины, процесс создание терминов, комбинация терминов.

Terminologiya adından da göründüyü kimi dildəki bütün terminlərin cəmi kimi dilin xüsusi leksikasının bir hissəsini təşkil edir.Termin latın mənşəli söz olan "terminus" sözündən olan "sərhəd","hədd" mənalarını verir.(1,səh 29)

Azərbaycan dilinə məxsus izahlı lüğətdə ona aid iki məna verilir.

1.Elm,texnika,incəsənət və s. müəyyən ixtisas sahələrinə aid anlayışı dəqiq ifadə edən söz,istilah.

2.Məntiqdə hökmün tərkib elementi.

Dilin leksik qatını iki hissəyə bölmək olar: ümumi – lüğət tərkibinin daha çox hissəsini təşkil edir.Xüsusi qat-lüğət tərkibinin az bir hissəsini təşkil edir,ümumi leksikadan fərqli olaraq bu və ya digər dilin daşıyıcıları nın hamısı tərəfindən işlədilmir və onlar dil daşıyıcılarının hamısına tam məlum olmur.Yuxarıda da qeyd etdiyimiz kimi terminleri de dilin xüsusi leksik qatına aid edilir.

Dilin ümumi leksik qatı kimi xüsusi qatında da daim yeniləşmə,zənginləşmə prosesləri gedir.Bu özünü terminologiya sahəsində də göstərir.Müasir dövrümüzdə də bu proses daha aktualdır.İstər ümumi leksikada,istərsə də xüsusi leksikada zənginləşmə prosesləri həm dilin öz daxili imkanları hesabına,həm də digər dillərdən söz almaq yolu ilə zənginləşir." Azərbaycan dilində terminlər aşağıdakı üsulları istifadə etməklə yaradılır.

1.Semantik üsul
2.Morfoloji üsul
3.Sintaktik üsul
4.Kalka üsulu
5.Sözlərin ixtisarı və qısaldılması üsulu (1,səh 134)

Bu üsullar dildə yeni- yeni terminlərin yaranmasında böyük rol oynayır və dilin terminoloji sisteminin zənginləşməsində əvəzsiz rola malikdir.Son zamanlar dilin lüğət sistemində termin yaradıcılığında yeni üsullar araşdırılmışdır.Ən maraqlı üsullardan biri də arxaikləşmiş sözlərin və ya dilin aktiv lüğət fondundan çıxmış dil vahidlərinin yenidən dilə gətirilərək müxtəlif sahələrə aid yeni məfhumların ifadə olunması üçün istifadə edilməsidir. Əlbəttə dilin terminoloji qatında özünü göstərən daimi dəyişikliklərin, yeniləşmə və zənginləşmə prosesinin, onun əsas xüsusiyyətlərinin linqvistik baxımdan təhlil edilməsi əhəmiyyətli məsələlərdəndir.Yuxarıdakı yaranma yollarını tək – tək araşdırılmasına keçək.Semantik yolla termin yaradıcılığı dedikdə əsasən terminoloji leksikada müşahidə olunan müxtəlif

xarakterli leksik prosesləri aşağıdakı kimi ümumiləşdirərək qruplaşdırmaq mümkündür: terminləşmə,transterminləşmə, abbreviasiya, determinləşmə, terminyaratma.

Terminləşmə semantik üsulla terminyaratma prosesinin ən maraqlı qrupudur.Beləki bu zaman terminləşmə prosesi dildə artıq mövcud olan sözlər hesabına aparılır.Elm, texnika daim inkişafda olduğu üçün dildə yeni–yeni terminlərin yaranmasına həmişə ehtiyac duyulur.Bu proses xüsusilə dildə bu və ya digər sahənin yenicə formalaşdığı dövrdə daha fəal şəkildə özünü göstərir.Bunun əsası odur ki, yeni yaranmış anlayışı ifadə etmək üçün dilin sözyaratma qanunları əsasında yeni terminlərin yaradılmasına deyil,dildə artıq hazır şəkildə mövcud olan müxtəlif məzmunlu leksik vahidlərə yeni mənalar verməklə müəyyən elmi- texniki anlayışların ifadə olunmasına xüsusi diqqət yetirilir. Məsələn hərbi terminologiya sahəsinə diqqət yetirək. Məsələn: ağız,bölmə, daraq, bölük və s.Bu sözlər hərbi sahədə terminləşərək müəyyən bir anlayışın adını ifadə edir. Ağız sözü ümumişlək mənada işlənəndə bədən üzvünü göstərir. Hərbi termin kimi işləndikdə isə odlu silahların ön tərəfindəki deşik, güllə çıxan yer kimi anlaşılır.Sonra dilimizdə işlənən daraq sözünə nəzər salaq. Bu həm saçı daramaq üçün istifadə edilən dişli alət kimi başa düşülür. Hərbi termin kimi isə silahın sandığına keçirilən patronları yan – yana qoymaq üçün qab,qutu mənasına malik söz kimi anlaşılır. (3,səh34)

Terminləşmə prosesi zamanı ayrı- ayrı sözlərin mənalarının xüsusiləşməsi, genişlənməsi özünü göstərir ki,bütün bu terminoloji mənalar da metaforikləşmə, metonimiyalaşma vasitəsilə reallaşır.Yəni sözlərin əvvəl ifadə etdiyi mənaların hər hansı biri konkretləşir və bunun sayəsində də terminoloji vahid meydana gəlir. Azərbaycan dilində tarixən də işlənən, bu gün əsas mənası müəyyən qədər arxaikləşən "çaxmaq"sözü hərbi termin səciyyəsi qazanarkən onun ifadı etdiyi funksional mənalardan biri aktuallaşır və funksional oxşarlıq nəticəsində odlu silahdan atəş açmaq vasitəsi olan hissələrdən birinin adını ifadə edərək terminləşir.Deməli terminoloji qatda özünü göstərən və bunun nəticəsində terminoloji qatın zənginləşməsində mühüm rol oynayan terminləşmə dilin terminoloji qatında özünü göstərən proseslərdən biri kimi semantik – funksional dilçilik hadisəsi olaraq diqqəti cəlb edir. (1,səh 140).

Dilin leksik qatında müşahidə olunan digər proses determinləşmədir – yəni terminoloji leksik vahidlərin ümumişlək qata keçməsidir.Müəyyən bir zaman keçdikdən sonra dildə olan bəzi terminoloji vahidlər bu sahədə işlənmə xüsusiyyətlərini itirir və ümumi işlənmə səciyyəsi daşımaqla dilin ümumişlək leksik fondunun vahidi kimi işlənməyə başlayır.Determinləşmə zamanı terminlərin ifadə etdiyi anlayışın mahiyyət və məzmunu hamının başa düşə biləcəyi səviyyədə özünü göstərir.Bu zaman artiq hami terminin daşıdığı mənanı anlayır.

Digər bir metod isə transterminləşmədir.Burada müəyyən terminlərin konkret bir semantik yük əsasında bir terminoloji sistemdən başqa terminoloji sistemə keçməsi və ya eyni zamanda müxtəlif sahə terminoloji sistemlərdə işlənməsi hesab edilir.Yəni bu və ya digər terminoloji vahid öz mənasını tam və ya qismən qorumaqla digər terminoloji sahəyə keçir və bu zaman sahələrarası omonimləşmə baş verir."Bölmə, kaman, daşatan" kimi terminlər keçid zonasının vasitəsilə hərbi məzmun kəsb etməsinə baxmayaraq riyaziyyata,inşaata və digər sahələrə keçir.Başqa sözlə deyilsə ümumi ədəbi dilin sözləri terminləşmə nəticəsində terminoloji vahidə çevrilə bildiyi kimi, müəyyən bir bilik sahəsinə aid olan terminlər də öz semantika-

sını dəyişərək digər elmi- texniki sahənin terminoloji sisteminə daxil ola bilir.Bu prosesə dilçilikdə transterminləşdirmə adlandırılır.(1,s 142).

Ümumiyyətlə isə dil faktlarının hərtərəfli şəkildə araşdırılması göstərir ki, terminoloji səciyyə daşıyan ayrı-ayrı sözlər müəyyən bir terminoloji sahədən digərinə keçərək hər iki sahədə işlədilə ki , bu da terminoloji qatda gedən əsas proseslərdən biri olmaqla transterminləşdirmə hesab edilir. Bu proses də ayrı- ayrı dillərin terminoloji qatının zənginləşməsində müəyyən rol oynayan dilçilik hadisələrindən biri hesab edilir.

Terminyaratma dedikdə dünya dillərinin əksəriyyətinin, o cümlədən Azərbaycan dilinin terminoloji qatında daha çox müşahidə olunan və lüğət tərkibinin bu qatının zənginləşməsində çox mühüm rol oynayan proseslərdən biri olmaqla dillərdə hər bir dilin daxili sözyaratma qanunauyğunluqları əsassında yeni terminlərin yaranma prosesi nəzərdə tutulur.Hər bir dil daim inkişafdadır.Dilin terminoloji leksikası da daim inkişaf edir.Bu da tebii bir prosesdir.Çünki istər dil, istər cəmiyyət bir- biri ilə daima sıx əlaqədədirlər. Bu da cəmiyyətin inkişafının ayrı- ayrı mərhələlərində, ayrı- ayrı sahələrində özünü göstərən inkişaf, yeniləşmə həmin anda bu və ya digər şəkildə özünü dildə göstərir. Elmi- texniki tərəqqi isə hər an yeni anlayışların yaranmasına səbəb olur və ona görə də terminoloji qat fasiləsiz olaraq dəyişib inkişaf edirki, bu da dildə terminyaratma prosesi nəticəsində reallaşır.

Terminyaratma prosesi əsasən iki yolla gedir: hər bir dilin daxili imkanları hesabına və digər dillərdən sözalma yolu ilə.Bu proses özünü həm ümumi leksik fondda, həm də terminoloji qatda göstərir. Əlbəttə, bu proseslərdən dilin öz daxili imkanları prosesinə daha çox üstünlük verilməlidir.Milli dilin daxili qanunları əsasında terminyaratmada milli dilin müxtəlif mahiyyət daşıyan leksik vahidləri, istərsə də milli dilin terminyaratma elementləri öz məhsuldar səciyyəsi ilə seçilir.

Azərbaycan dilinində terminyaratma prosesində də əksər hallarda ümumi leksikada olduğu kimi qrammatik (morfoloji və sintaktik) və kalka üsulundan istifadə edilir.(1,səh 145).Bəzi hallarda semantik üsula da müraciət edilir.

Morfoloji üsulla terminyaratma prosesi həm çox maraqlıdır, həm də digər üsullardan daha məhsuldardır.Bu zaman forma və məzmun cəhətdən yeni leksik vahidlər meydana çıxır ki, bu milli dilə məxsus sözdüzəldici şəkilçilər və bəzən də alınma şəkilçilərin içtirakı ilə baş verir. Burda maraqlı cəhət bir də ondan ibarətdir ki, şəkilçi qəbul etməmişdən öncə kök söz olan leksik vahidlər müxtəlif nitq hissələrinə mənsub olurlar.Şəkilçi qəbul etdikdən sonra isə bu sözlərin əksəriyyəti nominativ səciyyə daşıyır ki, bu da terminoloji leksikanın əsas xüsusiyyətlərindən biri olan adlandırma semantikasının nəticəsi kimi meydana çıxır.Bu zaman əmələ gələn terminləri adlardan və fellərdən əmələ gələn terminlər şəklində qruplaşdırmaq olar.(1,səh 146- 147)

Azərbaycan dilində əsasən morfoloji yolla əmələ gələn terminləri əsasən feildən düzələn terminlər təşkil edir. Morfoloji yolla əmələ gələn terminlərin daha çox üstünlük təşkil etməsi isə dilimizin leksik şəkilçilərlə daha zəngin olmasə ilə əlaqədardır.Əsasən aşağıdakı şəkilçilərdən istifadə olunur.

-çı[4] şəkilçisi vasitəsilə əsl Azərbaycan sözlərindən və alınma sözlərdən peşə, sənət , ixtisas, vəzifə və s. məzmunlu terminlər yaranır.Ümumi leksikada ol-

duğu kimi terminoloji leksikada da öz işlənmə tezliyi ilə seçilir.Elmi – texniki anlayışlı terminlərin yaradılmasında iştirak edir.Məsələn: avtomatçı, kimyaçı, rabitəçi, dilçi, hücumçu və s.

-ma fellərə artırılaraq ad bildirməklə termin səciyyəli sözlər yaradır. Məsələn : bölmə, vurma, yamsılama, qazma, atışma, maskalama və s.

- ış şəkilçisi də fellərə artırılır.Bu şəkilçilərin köməyilə əsasən hərəkət və prosesləri bildirən terminlər yaradılır. Məsələn : uçuş, qaçış, vuruş, döyüş və s.

-gi ,-gü, -qı,-ki, -ğu . Az məhsuldar şəkilçilər sırasına daxildirlər. Məsələn : qoşqu, qurğu, basqı, pusqu, itki və s.

-lıq şəkilçisi vasitəsilə Məsələn : sıxlıq, tezlik, başlıq,ağızlıq və s.

-ıq şəkilçisi vasitəsilə Məsələn: bölük , vuruq, danışıq, örtük və s.Bu şəkilçi də az məhsuldar olan şəkilçilər sırasına daxildir.

Bundan əlavə -ım, - id, - aq, -ar,-an ,-gah , -i,vi, -dar,- anti şəkilçiləri də morfoloji yolla termin yaradıcılığında iştirak edir.Sadalanan son şəkilçilər də az məhsuldar olan şəkilçilər sırasına daxildirlər.

Sintaktik yolla yaranan mürəkkəb termin və termin – söz birləşmələrinin struktur- semantik baxımdan formalaşmasında iki üsul özünü göstərir. Leksik – sintaktik və morfoloji – sintaktik üsul.(1, səh160).

Birinci üsulla termin yaradıcılığında heç bir morfoloji vasitələrdən istifadə olunmur. Burada terminlərin formalaşmasında sözlərin semantik bağlılığı aparıcı rol oynayır. Qrammatik göstəricilər burada rol oynamır. Burada sözlər bir- birinə yanaşma əlaqəsi ilə bağlanır.Məsələn: interaktiv televiziya, daxili şrift, fövqəladə və səlahiyyətli səfir və s. Nümunələrdən də göründüyü kimi bu tip terminlərin yaradılması eynilə birinci növ təyini söz birləşmələrində olduğu kimidir.Burada da birinci tərəf ikinci komponentin təyininə xidmət edir.

Morfoloji – qrammatik yolla termin yaradıcılığı zamanı komponentlərin birləşməsində müxtəlif morfoloji əlamətlərdən – həm leksik, həm də qrammatik şəkilçilərdən istifadə olunur.Bu üsulla yaradılan terminlər dilimizdə daha çoxluq təşkil edir.(1, səh 163)

Termin söz – birləşmələri quruluşuna görə sadə və mürəkkəb, komponentlərin xarakterinə görə feli və ismi birləşmələr kimi formalaşa bilir.Sadə termin söz birləşmələri iki sözün semantik və qrammatik cəhətdən birləşməsindən əmələ gəlir. Məsələn : qırıcı aviasiya, aviasya alayı və s.

Mürəkkəb söz – termin birləşmələri əsasən üç və daha çox sözün məzmun və müxtəlif qrammatik vasitələrin köməyilə birləşməsindən əmələ gəlir.

Çox komponentli söz birləşmələrinin hər bir komponenti öz arasında sıx semantik əlaqə yaradır və bütöv sintaktik vahid kimi çıxış edir.Məsələn : dəniz piyadası briqadası, texniki yardım maşını, yerli telefon şəbəkəsi və s.(1,səh 164)

Mürəkkəb termin söz birləşmələri komponentlərinin morfoloji mənsubiyyətinə görə də iki şəkildə özünü göstərir.İsmi və feli termin söz birləşmələri. Terminlər daha çox ismi təyini söz birləşmələri çəklində özünü göstərir.

Termin yaradıcılığında və terminoloji sistemin zənginləşməsində digər bir üsul isə kalka üsuludur.Bu üsulla yaranana terminlər dilimizdə son zamanlar daha üstünlük təşkil edir.Kalka üsuluna bir sıra dilçi alimlər müəyyən aspektdən yanaşmışlar. Ancaq onu qeyd etmək daha doğru olardı ki, kalka söz almanın bir növüdür. Yəni kalkalarda anlayış, məfhum başqa dillərdən alınsa da, onun ifadə for-

ması kalka edən dilin öz materialı , daxili inkişaf qanunları əsasında reallaşır.(2 ,səh 135).Yəni anlayış digər dildən alınır, söz öz milli sözümüz olur.Bu da milli dilin öz gücü hesabına başa gəlir.Bu üsul daha asan və daha əlverişlidir. Məsələn: устный приказ – şifahi əmr, счетчик циклов - dövrlər sayğacı və s.(1, səh 175).

Müasir Azərbaycan dilində termin yaradıcılığında bu üsulların demək olar ki, hamısından istifadə edilir.

Ədəbiyyat

1.Qasımov İ. Azərbaycan terminologiyası, Bakı, "Mütərcim, 2007".
2.Məmmədov N., Axundov A. Dilçiliyə giriş. Bakı, "Maarif ", 1966.
3.Azərbaycan dilinin izahlı lüğəti. Bakı, "Elm", I cild, 1966
4.Kazımov Q. Ş. Müasir Azərbaycan dili. Sintaksis. Bakı, 2000.
5.Babayev A.Dilçiliyə giriş. Bakı , "Maarif" , 1992.

Sabina Mansumova

The creation of termins in Azerbaijan linguistic

Summary

The main purpose of article is about the researching of the process of terminology updating in Azerbaijan linguistic. Here are talked about creating and researching ways of termins nowdays. Termins are investigated on morphological, syntactical, semantic sights. Here are also given productive ways in creation of termins and about the termins created by from the internal resources of our native language.

Сабина Мансумова

Создание терминов в Азербайджанском языке

Резюме

Основной целью статьи является исследование процесса обновления терминологии в Азербайджанском языке. Здесь речь идет о способах создание терминов и исследованиях в этой области в наши дни. Термины анализируются морфологически, синтактически , семантически. Здесь также говорится о продуктивных способах в создание терминов и о терминах созданных из внутренных ресурсов языка.

Rəyçi: Dosent Yeganə Hacıyeva

E.H. ƏHMƏDOVA
Azərbaycan Müəllimlər İnstitutu
Sumqayıt filialı

M.Ə. SABİRİN ŞEİRLƏRİNDƏ SAY, ƏVƏZLİK VƏ FEİLLƏR

Açar sözlər: M.Ə.Sabir, say, əvəzlik, feil, morfoloji xüsusiyyətlər, loru sözlər, arxaik sözlər.
Ключевые слова: М.А.Сабир, числительный, местоимение, морфологические особенности, вульгарные слова, архаичные слова
Key words: M.A.Sabir, numeral, pronoun, morphological features, vulgar words, archaic words

Azərbaycan ədəbiyyatında realist ənənələrinin inkişafında görkəmli ədib M.Ə.Sabirin misilsiz rolu olmuşdur. Əsil sənətkarların ömrü, həqiqətən də, onların qoyub getdikləri sənət əsərləri ilə ölçülür. Onlar canlı, ölməz yaradıcılıqları ilə əbədiyyətə qovuşurlar. Ruhən xalqa bağlı olan, xalq həyatını, onun məişətini, adət-ənənəsini dərindən bilən Sabir məhz bu mənada əsil xalq sənətkarı olmuşdur. "Böyük sənətkarın yaradıcılığı təkcə xalqın şüurunda və tarixində həyatını davam etdirmir, eyni zamanda elmi-ictimai fikirdə də yaşayır. Onun irsi dövrdən-dövrə, mərhələdən-mərhələyə elmi tədqiqatın predmetinə çevrilir, yeni gözlə oxunur və dövrün ictimai-mənəvi problemləri mövqeyindən öyrənilir" [1, s.3].

Xalq həyatı ilə bağlı olan sənətkarları hər zaman narahat edən və düşündürən vacib məsələlərdən biri də bədii dil, üslub və onun məna gözəllikləri olmuşdur. Məhz belə sənətkarlardan olan Sabir əsl sənət hikmətini xalq dilinin incəliklərində, şirinliyində, canlı danışıq dilində axtarmışdır. Şairin yaradıcılığının sənətkarlıq xüsusiyyətlərini müxtəlif baxımdan tədqiq edən Cəfər Xəndan yazır: "Sabir kimi böyük söz ustasının poetikasını məhdud və mücərrəd halda təsəvvür etmək olmaz. O, ədəbiyyatımızın dünəni, bu günü və sabahı ilə bağlıdır...Böyük bir kitaba sığışması lazım gələn geniş bir mövzunun o, kiçik bir şeirə yerləşdirə bilirdi" [2, s.8].

Sabir əsərlərinin lüğət tərkibinə məxsus olan sözlər həm əsl Azərbaycan sözləri, həm də alınma sözlər olmaqla bəziləri fonetik tərkibcə, bir qismi isə qrammatik quruluşuna görə hazırda dilimizdə işlənən variantlarından fərqli şəkildə işlənmişdir. Onlardan bir qismi isə müasir dilimiz baxımından arxaikləşmişdir. Belə sözlərə aşağıdakıları nümunə göstərmək olar:

Ey (eyi)-yaxşı, qarındaş, arı-təmiz, pak, qılmaq-etmək, irmək/irişmək-yetmək/yetişmək, uyqu-yuxu, həp-daim, həmişə, nəsnə-şey/əşya, soqaq-küçə və s.

Zəngin yaradıcılıq irsinə malik olan böyük sənətkarın şeirləri həm orijinal dili və üslubu, həm də rəngarəng morfoloji quruluşu ilə fərqlənir. Sabir müxtəlif məqsədlər üçün dilin bütün qramatik imkanlarından məharətlə istifadə etmişdir. Şeirlərinin dilini ayrı-ayrı nitq hissələri əsasında araşdırarkən morfoloji xüsusiyyətləri izlədiyimiz zaman onların xarakteri, hansı məqamda, nə məqsədlə işləndiyi aydınlaşır. Belə ki, qrammatik quruluşun üzvi hissəsini təşkil edən, əsas nitq hissələrindən biri olan sayların da Sabir şeirlərində özünəməxsus cəhətləri diqqəti cəlb edir. Sayların, demək olar ki, bütün məna növlərinə yer verilmiş və sayın məna

və vəzifəsinə aid olan xüsusiyyətlər mühafizə olunmuşdur. Lakin hazırda dilimizin say sisteminə nəzərən bir sıra dəyişikliklər də özünü göstərməkdədir.

Beş deyil, on beş deyil, hər yan, baxırsan, madam... [3, s.211]
Əlli uşaq banladı birdən-birə... [3, s.177]
Ana dilini belə bilməyir iyirmi yaşlı cobanlar,
Bilirlər indi bular beş lisan bu boyda, bu boyda! [3, s.152]

Nümunələrdə işlədilən beş, on beş, əlli, iyirmi miqdar saylarının fonetik tərkibində fərqli cəhətlərə təsadüf olunmur, yəni bu miqdar sayları hazırki variantları ilə eynilik təşkil edir.

Dilimizdə XIX əsrdən etibarən təsadüf olunan, avropa mənşəli "milyon" miqdar sayı "milyan" fonetik variantında işlədilmişdir:

Bir abbası gün muzdunu milyanmı sanırsan?... [3, s.74]

Müxtəlif imlalarda yazılan qeyri-müəyyən saylara, eləcə də kəsr mənasında işlənən müxtəlif sözlərə də yer verilmişdir. Qeyri-müəyyənlik bildirən, "bu qədər" mənasında işlənən bunca sayı həm bunca, həm də munca formasında işlənmişdir:

Bəs deyilmi bunca Mehdilər xüruci indi də
Volqadan bir tazə Mehdi xəlqi iğfal eyləyir [3, s.292].
Nə gərəkdir mənə bir munca ümur [3, s.179].

Müəllif eyni zamanda beş-üç, az-çox, xeyli, beş-on, bir para və s. kimi qeyri-müəyyən və təqribi saylardan da istifadə etməklə öz şeirlərinə poetik bir rəng qatmışdır.

Yenə az-çox bərəkət varsa, bizim qəryədədir[3, s.280].
Bir para şəxsə sataşdın, bu nəsihətdi dedin[3, s.208].
Qaldırardım büsbütün İranı da, Turanı da-
Kisəmə girsəydi ancaq bir beş-on yüz min tümən...[3, s.279]

Kəsr sayı mənasında işlənən sözlərə də təsadüf olunur. Belə saylara yarm, puçuq (yarım), çərək (1/4), tən yarı, parə və s. kimi sözlər daxildir.

Səy elə ki, saqqal uzanıb üç çərək olsun [3, s.27].
Ta ki, var əldə beş buçuq quruşun-
Mötəbərsən gözündə əşrafin [3, s.192].

Bir qarandaş, bir-iki parə kağız,
O qədər çəkmir-olur qarə kağız [3, s.174].

Sabirin şeirlərində əvəzliklərin müxtəlif məna növləri işlənmişdir ki, onların müəyyən hissəsi ədəbi dilimizdə mühafizə olunmuş, bir qismi isə dildə fəaliyyətini itirmişdir. Məsələn: kəndi (öz), işbu (bu), cümlə (bütün), böylə / boylə / şoylə (belə), oylə /öylə (elə), hiç (heç), neçin (nə üçün?), cümləsi (hamısı), qanda (harada?), anın (onun), nasıl (necə?), ol /sol (o) və s.

Göstərilən əvəzliklərdən oylə-elə, ol-o, hiç-heç, neçin-nə üçün, anın-onun, boylə-belə fonetik variantlarında hələ dədilimizdə işləməkdədir. Fikrimizi nümunələrlə əsaslandıraq:

Kəndinə (özünə) et, kəndi (öz) şəkviyyatını [3, s.280].
Ol (o) gün ki sənə xaliq edər lütf bir övlad ,
Olsun ürəyin şad! [3, s.19].
Işbu (bu) səbəblə şerimiz müxtəsər ərzi-hal olur [3, s.100].
Cümləsi (hamısı) bir yolda qoyub niyyətin [3, s.171].
Sərmayeyi-irfanı nasıl kəsb edər insan? [3, s.346].
Sinəmdə səni bəslədiyim anın (onun) üçündür [3, s.35] və s.

Bunlarla yanaşı digər bir cəhətə də diqqət yetirək. Eyni luğəvi məna daşıyan, imlasında təkcə bir səslə fərqlənən belə, boylə və böylə, elə, oylə və öylə, anın və onun, ol və o əvəzliklərinə paralel olaraq müxtəlif şeirlərdə təsadüf olunur:

Tuf belə dövranə ki, bedtər olur
Seyri-fələk, dövri-zəman ilbəil! [3, s.44].
Boylə eləməzsən, bilirəm, çox xətərin var,
Həm şurü şərin var [3, s.103].
Yox böylə iki dilli, yaman üzlü cəfakar,
Bir zərrə utanmaz! [3, s.28].
Məhv olur öylə ki, bilmir özünü [3, s.173]
Oylə işlər çox olur, cümləsi şeytan işidir [3, s.282].
Elə bir hala düşərsən ki, tükün biz-biz olar [3, s.

O yetim Məmdəlidən var yenə bir pis xəbərim [
Ol başı kəsilmiş qələmin tutma belindən [3, s.31].

Sabir sənətinin böyüklüyü ondadır ki, ustad sənətkar dilimizdə mövcud olan ən adi, ən neytral dil vahidlərindən belə müxtəlif məqamlarda öz məqsədinə uyğun olaraq istədiyi şəkildə istifadə etməyi bacarmışdır. Belə bir maraqlı cəhət hal-hazırda dilimizdə qeyri-müəyyən əvəzlik kimi sabitləşmiş "hamı" sözünün işlənməsində özünü göstərir. Belə ki, Sabirin müxtəlif şeirlərində "hamı" sözü məqamından və məqsəddən asılı olaraq bəzən qeyri-müəyyən, bəzən təyini əvəzlik kimi işlənmiş, müəyyən məqamlarda isə hətta inkar əvəzliyini də əvəz etmişdir. Aşağıdakı nümunələrə nəzər salaq:

Verdi bu hamı qonşulara sənətü dövlət [3, s.28].

Çoban-çoluq oğlu bəy ilə bahəm olubdur,
Hamunu bəyənməz [3, s.33].

Birinci misrada hamı sözü bütün qeyri-müəyyən əvəzliyinin yerində işlənmişdir. Bu xüsusiyyət hazırda Azərbaycan dilinin şimal və şərq qrupu dialektlərində saxlanmaqdadır. Ikinci misrada isə "hamı" sözü müasir dildə işlək

olan "heç kim" inkar əvəzliyini əvəz etmişdir. Bu xüsusiyyət müasir Azərbaycan dilinin qrammatik quruluşu ilə uyğunlaşmır, çünki "hamını bəyənmir" deyil, "heç kəsi bəyənmir" ifadəsi dilin hazırki vəziyyətində daha məqbuldur. Eyni zamanda hamısı əvəzliyinin qamusu və həpisi variantlarına da təsadüf olunur:

Qamusu əhli-zövqü əhli-səfa,
Həpisi əhli-halü əhli-vəfa [3, s.342].

Neçin?, qanda?, nerələrdə?, nasıl?, hankı?, haçan? Sual əvəzlikləri məlumat almaq məqsədilə və ya bədii sual kimi bəzən də nisbi əvəzlik kimi işlənmişdir. Bu əvəzliklərdə az-çox nəzərə çarpan fərqlər yalnız həmin əvəzliklərin tərkibindəki səslərdə işlənmişdir. Bunlardan bəziləri, məsələn, neçin? nerədə? nasıl? müxtəlif türk dillərində bu gün də istifadə olunur.

Qanmayır heç kəs ki, kəşti qanda, dərya qandadır? [3, s.239]
Məst ol gecə-gündüz, nə bilim, yat nerələrdə [3, s.43].
Nasıl da əsrə görə məzhər olmasın şair? [3, s.327].
Hankı məktəbdən nə dərs alsın bu gün əhfadımız? [3, s.320].

Həm danışıq dilində, həm də bəzi hallarda yazıda da tələffüz şəklini saxlayan neçin əvəzliyi iki tərkib hissəsindən ibarətdir: nə+üçün. Ayrı-ayrı tarixi dövrlərdə müxtəlif ədəbiyyat nümunələrində bu əvəzlik nişe, neşün, nə için, neyçin şəkillərində ifadə olunmuş və nə üçün əvəzliyinin variantları kimi işlənmişdir. Bu çoxçalarlılıq, şübhəsiz ki, danışıq dilinin təsirindən yaranmışdır. Sabirin şeirlərində bu əvəzliyin hər iki variantına təsadüf edilir:

Nə üçün susdu natiqlər?
Alındı həbsə sadiqlər [3, s.169].

Neçün məşrutə bağlandı,
Müzəvvirlər qoçaqlandı [3, s.168].

Başqa bir maraqlı cəhət bütün təyini əvəzliyini əvəz edən fars mənşəli "cümlə" və "yeksər" sözləri ilə bağlıdır. Şair müxtəlif şeirlərində bu əvəzliklərin hər üçündən istifadə etmişdir. Bütün əvəzliyi büsbütün kimi də işlənmişdir.

Büsbütün məxluqə elan etməli bundan sonra [3, s.167].
Mən salim olum, cümlə cahan batsa da, batsın [3, s.18].
Bərcəhənnəm, olmasın yeksər müsəlmanın sonu! [3, s.125].
Alaq ayinəyə qarşı bütün əsnafımızı [3, s.158].

Şübhəsiz ki, Sabirin dili yaşadığı, yazıb-yaratdığı dövrün ədəbi dilindən, onun inkişaf xəttindən kənarda qala bilməzdi. Şairin şeirlərində işlədilən fellər də həmin dövrdə şifahi ədəbi dilin əsas lüğət fondunu əks etdirən vahidlərdir. Fellər öz quruluşu, fonetik tərkibi, semantikası, növləri və zənginliyi ilə seçilir. əvəzliklərdə olduğu kimi fellərdə də ikili imla müşahidə olunur. Belə ki, bəzi fellərin fonetik tərkibində müxtəlif tipli dəyişmələr özünü göstərir. Məsələn, urmaq-vurmaq,

söyləmək-söləmək, tutmaq-dutmaq sözlərinin işlənməsində bu xüsusiyyət aydın nəzərə çarpır:

Çatcaq urub bu qoca saili, qusdurdu qan [3, s.129].

Kafir olub, vurun, vurun!
Rişteyi-ülfətin qırın! [3, s.67]

Dutsun çörəyim gözlərinin ağü qarasın [3, s.21].

Tutdum orucu irəmazanda,
Qaldı iki gözüm qazanda [3, s.303].
Münsif həqə həq batilə batil söləsəydi
Əlbəttə ki, nahəq söləyən utanardı! [3, s.127].

Həq söyləyənin küfrünə hökm eyləməsəydik,
Həqgü məgər öz fikrini gizlərdi, danardı?! [3, s.127]

Elə sözlər də vardır ki, həmin sözlərin tərkibində, xüsusilə zaman və feli bağlama şəkilçilərində son sait ixtisara düşür. Buna misal olaraq daralı(r) (Dur itil cəhənnəm, ürəyim daralı, fəhlə[3, s.180]), baxmazla(r) (Baxmazla sənin sinədə dürlü gühərin var[3, s.102]), görü(b) (Hər kəs görə söylər: necə ləli-şəkərin var[3, s.102]), alı(r) (İldə bir arvad alı(r) mömin olan[3, s.123]) fellərini göstərmək olar.

Əmr, xahiş, rica və s. məzmunları ifadə edən tarixən ta qədim dövrlərdən əsrə qədər bir sıra ədəbi abidələrin dilində rast gəlinən -gil şəkilçisinin mürəkkəb şəkli olan, XVII əsrin ikinci yarısından sonra dildə formalaşan -gilə, -gilən şəkilçiləri də Sabir üslubundan kənarda qalmamışdır.

Buynuzlu ilan seydinə get yazgilə əfsun,
Etmə bizi məhzun! [3, s.102]
Çəkgilən ömrün çatınca, binəva, ahü fəğan [3, s.23].

Şeirlərdə, əsasən, adi danışıqda işlənib emosionallığı, ifadəliliyi artıran nitqə ironik rəng qatan ünsürlərə-loru sözlərə də yer verilmişdir. Belə sözlər arasında fellərin məxsusi yeri var. Məsələn: dəbərişmək, cumuxmaq,veyylənmək, mırtıldamaq, dadanaq olmaq(dadanmaq), şıllaq atmaq və s.

Bu qədər qışqırığa durdu qonum-qonşu təmam,
Dəbərişməz də, veribdir, deyəsən, can, ölübə! [3, s.78]
Cumuxub canına bitlər, birələr, hiss eləmir,
Çalsa əqrəb də hənuz eyləməz əmman, ölübə! [3, s.78]
Gəh "iskoroxod" çəkmə, gəhi gey "lakeronni",
Vellən gecə-gündüzdə xuramanını görcək [3, s.43].

Mırtılda dəmadəm,
Qıl elmə fərahəm...[3, s.22].

Həmmali-yaraq ol,
Xəlqə dadanaq ol...[3, s.34].

Atdı şıllaq, dedim, əfəndim, sus,
Dağılar bilmə xaneyi- "Zənbur" [3, s.277].

Sabir xalq danışıq dilinin zəngin qatlarından məharətlə istifadə etməklə, həm də onu yeni notlarla, yeni naxışlarla bəzəməyi və daha da zənginləşdirməyi bacarırdı. "Azərbaycan ədəbi dilinin inkişafında, onun ümumxalq danışıq dili xüsusiyyətləri əsasında formalaşdırılmasında Sabir yaradıcılığı xüsusi əhəmiyyətə malikdir" [4, s.4]. Böyük şair, ustad, sənətkar xalqının mənəvi dünyasından qopmuş, bu mənəvi dünyanın xəzinəsini ləyaqətlə qorumuş, ona yeni-yeni incilər əlavə etmişdir. Sabirin yaradıcılığı-onun zəngin bədii irsi özündən sonra gələn şairlər üçün ədəbi-bədii məktəbə çevrilmişdir.

Ədəbiyyat

1.Tərlan Novruzov. M.Ə.Sabir irsinin tədqiqi və təbliği. Bakı, 1981.
2.Cəfər Xəndan. Sabir yaradıcılığının sənətkarlıq xüsusiyyətləri. Bakı, 1962.
3.M.Ə.Sabir. Hophopnamə. Bakı, Yazıçı, 1992.
4.R.Məhərrəmova. Sabirin dili. Bakı, Maarif, 1976.
5.H.Mirzəzadə.Azərbaycan dilinin tarixi qrammatikası. Bakı, 1992.
6.Klassik Azərbaycan ədəbiyyatında işlənən ərəb və fars sözləri lüğəti. Bakı, Şərq-Qərb,2005.
7.M.Adilov, M.Ə.Sabirin dil və üslub xüsusiyyətləri haqqında bəzi qeydlər. Bakı, 1962.
8.M.Şirəliyev.Sabirin dili haqqında bəzi qeydlər. "Azərbaycan" №3, Bakı, 1963.

Э.Г. Ахмедова

Числительные, местоимения и глаголы в стихах М.А.Сабира

Резюме

Статья посвящается тем особенности языка стихов народного поэта М.А.Сабира. Здесь анализируются грамматическое строение и морфологические элементы стихов. В данной статье определяется звуковой состав, семантика числительных. Здесь также показаны возможности использования грамматических форм местоимении и глагола. В статье также даны образы стихов поэта.

E.H. Akhmedova

Numerals, pronouns and verbs in M.A.Sabir's poems

Summary

This article is devoted to the linguistic features of folk poet Sabir's poems. Here are analyzed the grammatical structure and the morphological features of the words. The structure, the voice composition, the semantic sights of numerals was determined in this article. Here are also shown the using opportunities of grammatical form of pronouns and verbs. Here are given examples of poet's too.

Rəyçi: f.e.n. İ.Ağayev

ŞƏLALƏ ABDULLAYEVA
Fil.elm.nam., BDU
s.calal qızı@mail.ru

SABİT SÖZ BİRLƏŞMƏLƏRİNİN SEMANTİKASINDA EMOSİONAL AMİLLƏRİN MÜQAYİSƏLİ TƏDQİQİ

Açar sözlər: frazeologiya, frazeologizm, sabit söz birləşmələri, leksika, emosional, ekspressiya.
Ключевые слова: фразеология, фразеологизм, фразеологические единицы, лексика, эмоциональный, экспрессивность.
Key words: phraseological, phraseology, phraseological units, lexica, emotion, expression.

Sabit söz birləşmələri tərkibinə və quruluşuna görə dəyişməzdir, tam məna ifadə edir, təsir dairəsinə görə səciyyələnir, hər bir dilin ümumi lüğət tərkibində özünəməxsus yer tutur. Bu vahidlərin tamlığı onlardan nitqdə ayrı söz kimi istifadə etməyə imkan verir. Bu birləşmələrin hər biri dilin frazeoloji lüğətində öz əksini tapır.

Ayrı-ayrı dillərin tərkibində xüsusi bir fond təşkil edən bu frazeoloji birləşmələr ümumi və xüsusi cəhətləri ilə seçilirlər, başqa sözlə desək, onların eyni və fərqləndirici xüsusiyyətləri vardır. Hər hansı bir xalqın mənəvi dəyərləri, adət-ənənələri haqqında məlumat toplamaq üçün o xalqın atalar sözləri və məsəlləri ilə yaxından tanış olmaq lazımdır. Dilin lüğət tərkibindən – leksikadan fərqli olaraq frazeologiya özündə köhnəlmiş sözləri, arxaik formaları, sintaktik quruluşlarını saxlayır. Sabit söz birləşmələri mili özünüdərkin inikası, tam eynisidir; onların vasitəsilə xalqların milli təfəkkürü, adət və ənənələri, həyatları haqqında dəqiq məlumatlar əldə etmək olar. Bununla yanaşı, müxtəlif dillərin bəzi frazeologizmləri eyni quruluş sxemi əsasında yaranmışdır və özünün semantik ümumiliyi ilə diqqəti cəlb edir. Həyatı dərk etmə, təbiəti müşahidə etmək qabiliyyəti bir çox xalqlarda eynidir. Buna görə təəccüblü deyildir ki, bizə bu faktların sabit söz birləşmələrində eyni mənaları məlumdur. Bütün müşahidələr və təcrübələr nəticədə eyni və oxşar frazeoloji vahidlər əmələ gətirir. Bu vahidlərin semantikasının ümumiliyi təsdiq edir ki, onların yaranması insanların bütün hallarda vəziyyətləri ilə həmahəngdir. Həmçinin bu frazeologizmlər müxtəlif dillərdə bir-birindən asılı olmayaraq eyni mənalar ifadə edir. Frazeologizmlərin yaranmasında etnik və kənar linqvistik amillər xüsusi rol oynayır. Bu amillər frazeoloji vahidlərin formalaşmasını və inkişafını şərtləndirən mühüm cəhətlərdir.

Dildə olan sabit söz birləşmələri ayrı ekvivalent sözlərə malikdir. Bu vəziyyət sübut edir ki, frazeoloji vahidlərin ifadəsi zamanı danışan adam nitqinə atmacalar və ya yeni semantik rənglər qatır. Nitq zamanı bu vahidlərdən müxtəlif məqsədlər üçün istifadə olunur. Məsələn, bəzi hallarda fikrin daha çox obrazlı ifadəsi, digər hallarda isə fikrin emosional şəkildə ötürülməsi diqqəti cəlb edir. Doğrudan da, frazeoloji vahidlərin tərkibində nominativ və emosional qiymətləndirmə elementlərinin olması dilin daşıyıcılarına imkan verir ki, frazeologizmlər təkcə fikrin məntiqi tərkibinin köçürülməsi kimi deyil, nə haqdasa obrazlı göstəriş, daha doğrusu, fikrə emosional münasibətin ifadəsi kimi qəbul edilsinlər. Məsələn, «O, əlli-ayaqlı adamdır» - «Он

ловкий человек». Bu cümlə mətndən asılı olaraq başqa mənanı da ifadə edə bilər: «Он деловой человек». Başqa bir ifadəyə diqqət edək: «O, əlli-ayaqlı getdi» – «Он ушёл навсегда». Bunu hərfi tərcümə olaraq belə də çevirmək olar: «Он ушёл с руками и ногами».

Hər bir sabit söz birləşməsi nominativ vasitədir. Frazeoloji vahidlər emosional, rəngarəng xarakterə malikdir. İnsanı emosional sferada fərqləndirmək üçün tipik frazeoloji vahidlər seçilir. Həm leksik, həm də frazeoloji planda sözlər və insan həyatının emosional tərəflərini ifadə edən frazeologizmlər seçmək olar. Verilmiş semantika ilə birlikdə frazeologizmlər müəyyən funksional, semantik sahə yaradır. Bu sahə öz ənənəvi təqdimatında mərkəzlə, nüvəsi ilə birlikdə bir mühit, dairə təşkil edir. Burada onun xarakteristikası birmənalı şəkildə təqdim edilir: yaxın zahiri cəhətləri ilə, uzaqlaşdırılmış zahiri cəhətləri ilə və s. Həmin bu funksional, semantik sahə – ümumi məzmun və tərkibdə birləşmiş dil vahidlərinin (xüsusilə leksik) cəmidir. Həmçinin bu dil vahidləri aydın, əşyavi və ya funksional oxşarlığı özündə əks etdirir. Frazeologizmlər dilin leksik sistemi ilə bilavasitə əlaqəlidir. Onlar bu sistemə daxildirlər; ona görə də frazeologizmlərin müxtəlif funksional, semantik sahələrini yaratmaq olar.

İnsan həyatının emosional tərəflərini ifadə edən frazeologizmlərin funksional semantik sahəsi, təbii olaraq özündə çoxlu frazeoloji vahid saxlayır. Bu sahəyə daxil olan frazeologizmlər müxtəlif dillərdə öz yaranma üsuluna və semantikasına görə fərqlənir. Hər bir xalqın həyatında emosional sahə olan frazosemantik qrup insan təfəkküründə dünyanın inikası ilə əlaqəlidir. Bu qrup genişdir və ona daxil olan frazeoloji birləşmələrin semantikasına görə rəngarəngdir, müxtəlifdir. Hadisəyə emosional münasibət və emosional vəziyyətin ifadəsi iki müstəqil frazeosemantik sahənin seqmentini təşkil edir. O, üç nişanlanmış bölgəyə – müsbət, mənfi və sıfır qiymətə ayrılır. Bu bölmələrin hər biri öz növbəsində mətn prinsipinə uyğun olaraq, mikrosahələrə bölünür.

Nəzərə alsaq ki, verilmiş sahənin frazeoloji vahidlərinə baxılmış və onlar ingilis və rus dillərində tədqiq edilmişdir, hesab etmək olar ki, Azərbaycan dilində öz əksini tapan, funksional – semantik sahəyə daxil olan frazeoloji birləşmələrlə müqayisəli analiz aparmaq mümkündür.

Frazeoloji vahidlər – müsbət emosiyaların təqdimatıdır, onlarda xoşbəxtlik hissinə yaxın olan hisslər cəmlənmiş, yığılmışdır. Məsələn, to be in admiration - в полном восторге, восхищении – heyran olmaq, riqqətə gəlmək; to be in a fat city – быть в отличном настроении – keyfi yaxşı olmaq; to be have a ball – веселиться – şadlanmaq və s.

Azərbaycan dilində «qol-qanad açmaq», «keyfi göyün yeddinci qatında olmaq», «Araz aşığından, Kür topuğundan» kimi sabit söz birləşmələri yuxarıda sadalanan ingilis frazeologizmləri ilə eyni mənanı ifadə edərək işlənirlər.

Mənfi emosional ifadələrin tədqiqatı zamanı onu da qeyd etmək yerinə düşərdi ki, mənfi reaksiyalar bir çox hallarda insanın dünyagörüşündən, özünü qiymətləndirməsindən, ətrafdakıların ona münasibətindən asılıdır. Verilən emosiyalar – bu orqanizmin strukturunun, xassəsinin anında dəyişilməsi və xarici və daxili mühitlərin müxtəlif hərəkət funksiyasıdır. Bu şəkildə emosiyanın əsas funksiyasını psixolinqvistlər hücum hərəkatı üçün enerjinin səfərbər edilməsi hesab edirlər.

Nəsələn, to get off one's boots – сердиться – acıqlanmaq; fear makes one's flesh creeps – мурашки побежали – gözündən qığılcım çıxmaq; to get the monkey off one's back - сбросить груз с плеч – yükü çiynindən atmaq; to give smb. a turn – расстроить кого- либо – kiminsə keyfini pozmaq; to rub salt into smb.'s wounds – досадить кому - либо – kiminsə aşına soğan doğramaq; to bear a drudge against smb. – иметь зуб на кого- либо – dişini kiməsə qıcıtmaq; to be at rock bottom – быть в отчаянии – ümidsiz bir halda olmaq (əlini üzmək); to be down in the mouth – повесить голову – başını sallamaq; to cry like a baby – лить слёзы - uşaq kimi göz yaşı axıtmaq; to take one's heels – бежать без оглядки – dabanına tüpürmək; to be all of a jump – быть в напряжении – gərgin olmaq; to move smb.'s scalp – жаждать крови – qanına susamaq.

Qeyd edək ki, milli özünəməxsusluq ingilis, Azərbaycan, həmçinin rus, eləcə də digər dillərin frazeologiyasında, frazeoloji vahidlərin semantik xüsusiyyətlərində, onların məna tərkibində özünü göstərir.Yada salaq ki, frazeoloji vahidlərin formalaşmasında ekstralinqvistik və etnolinqvistik amillər mühüm rol oynayır. Doğrudan da, Azərbaycan və digər dillərin frazeologiyası xalqın tarixi, mədəniyyəti və yaşayışı ilə sıx əlaqədardır. Burada xalqın ruhu, psixologiyası və təxəyyülü toplanmışdır.

Seçilən vahidlərin özünəməxsusluğu ondan ibarətdir ki, onların semantikasında emosional vəziyyətləri təsvir edən zahiri əlamətlər əks olunur: to raise eyerbows – выводить из себя –özündən çıxartmaq, təbdən çıxartmaq; to breathe freely – свободно воздохнуть (как гора с плеч) –rahat nəfəs almaq, yükü çiynindən atmaq (ürəkdən yük atmaq).Göstərilən frazeoloji vahidlər özünün lakonizmi, yığcamlılığı ilə fərqlənir. Bu lakoniklikdə frazeologizmlərin bütün maksimal effektlərinin cəmi, obrazlılıq birləşmişdir.

Müşahidələr göstərir ki, uyğun şəkildəyişmələr başlıca olaraq uyğun frazeoloji vahidlərdə təsdiq edilmişdir, daha dəqiq desək, dilin formalaşmasında fellər mühüm əhəmiyyət kəsb edir.

Obrazlılığın formalaşması, informasiyanın ötürülməsi vasitəsi olan, danışanın qarşısındakına emosional münasibətini özündə əks etdirən frazeoloji vahidlər təkcə yeni sözlərin yaranmasına xidmət etmir, həmçinin bütün mətnin təsir gücünü artırır.

Məsələn, dünyanın ingilis dili xəritəsində heart anlayışı müxtəlif növ emosiyaların cəmini ifadə edir və hissləri, əhval-ruhiyyələri, həyəcanları simvolizə edir:

– sevinc: to cheer (delight, gladden, rejoice, warm) the cockles of one's heart-könlünü şad etmək, kimi isə sevindirmək;
– narahatçılıq: to lie (heavy) at smb's heart – ürəyi üzülmək;
– rahatlıq: to set one's heart at rest – sakitləşmək, həyəcanını boğmaq .

«Ürək» sözündən Azərbaycan dilində frazeoloji vahidlərdə danışanın müxtəlif emosional hisslərini ifadə edərkən istifadə edilir. Məsələn,

– sevinc bildirənlər: ürəyi döyünmək; ürəyi sinəsinə sığmamaq; ürəyi gülmək; sevincdən ürəyi partlamaq və s.
– narahatçılıq: ürəyi düşmək; ürəyi darıxmaq; ürəyi dözməmək; ürəyinə yatmamaq; ürəyi çırpınmaq və s.
– rahatlıq: ürəyi yerinə gəlmək; ürəyi rahat olmaq; ürəyi sakitləşmək və s.
– kədər: ürəyi sıxılmaq; ürəyinə salmaq.

Baş (ingiliscə: head) müasir təqdimatda informasiyanın emalının mərkəzidir. Bununla yanaşı, ingilis və Azərbaycan dillərində emosiyaların əksi frazeologizmlər-

də işarə edilmiş komponentdir: to bother (trouble) one's head about (over) smb. – həyəcanlanmaq, kimdənsə narahat olmaq; to hang (down) one's head – ümidsizliyə qapılmaq; to draw (anger, scorn) upon one's head – kiminsə qəzəbinə düçar olmaq, kiminsə nifrətini qazanmaq; to be not right in the heard – ağlı başında olmamaq; a head of steam – başını dolamaq; to bite someone's head off – kimdənsə, nədənsə qoparmaq və s.

– sevinc bildirənlər: sevincdən başı gicəllənmək; sevincdən ağlı başından çıxmaq;
– həyəcan bildirənlər: başını itirmək; başı işləməmək və s.

İngilis dilində «head» somatizmi hadisələr sırasında məhəbbət emosiyasını ifadə edir. Çünki ingilislər üçün baş təkcə ağlın mərkəzi deyil, həmçinin ürəyin analoqudur: to be head and (over) ears / to be over head ears (in love) – təpədən- dırnağadək vurulmaq; head over heels (over head and heels) in love – təpədən-dırnağa aşiq olmaq; tu turn one's head – başı gicəllənmək; to go to one's head – kiminsə başını gicəlləndirmək və s.

Hər bir dilin tədqiqatı təsdiq edir ki, frazeoloizmlər müxtəlif emosiyaları, müəyyən mənada dünyanın dillər xəritəsini ifadə etməyə qadirdir. Burada əsas potensial danışıq üslubunun frazeologiyasında və leksikasında qoyulmuşdur. İngilis dilindəki frazeoloji vahidlərin simvolik dəyərlərinin müşahidəsi imkan verir ki, ingilislərin nitqlərində bəzi linqvistik xüsusiyyətləri, frazeologizm komponentlərində olan mədəni informasiyaları aşkara çıxaraq.

Müxtəlif dillərin cəmiyyəti müxtəlif təsəvvürlərin yaranmasında iştirak edir. Onlar milli mədəniyyətin əsasını təşkil edən dünyanın müxtəlif xəritələrini formalaşdırır. Beləliklə, dillər arasında fərqlər mədəniyyətlərin fərqli olması ilə şərtləndirilmişdir və onlar daha çox frazeoloji vahidlərin materiallarında nümayiş olunurlar. Dilin verilmiş nominativ xassələri birbaşa olaraq daha çox dildən kənar həqiqətlərlə əlaqəlidir. Bədii ədəbiyyatda da frazeologizmlərirn tədqiqatı çox maraqlıdır.

Ədəbiyyat

1. A.A.Buqayeva. Rus və ingilislərin frazeoloji dünya xəritəsində «Emosiyalar» anlayışı. «Rus nitqinin mədəniyyəti» məqalələr məcmuəsi. Stavropol: Armavir, 2005 s.
2. Funksional qrammatika məsələləri. Sahə quruluşları. Sankt-Peterburq. «Nauka» jurnalı, 2005.
3. A.M.Meleroviç, V.M.Mokienko. Rus dilində frazeologizmlər. Moskva, Rus lüğətləri, 1997.
4. Y.Y.Muratova. XX əsr poetik dil sistemində sözün mənaları. Minsk, MDU, 2008.

Шалала Абдуллаева

Сравнительное исследование эмоциональных факторов в семантике фразеологических сочетании

Резюме

В статье рассматриваются общие вопросы употребления эмоциональных фразеологизмов в разных (английском, русском, азербайджанском) язы-

ках. Выявляется семантическая общность некоторых фразеологизмов в разносистемных языках. Известно, что богатейшая информация о культурных ценностях того или иного народа раскрывается в лексике фразеологии. Через фразеологию можно получить удивительно тонкие и точные сведения о носителях данного языка, о способах мышления народов, об их традициях, обычаях, условиях, реалиях их жизни. В статье изучается семантическая эквивалентность некоторых фразеологических единиц в разносистемных языках.

Shalala Abdullaeva

Comparative investigation of the emosional factors in semantics of the phraseology

Summary

The article investigates some aspects the use of common emotive phraseology in different (English, Russian, Azeri) languages. On the article we tray to study the semantic equivalence of some phraseological units in different systems languages. The analysis of phrasologisms related with ethno cultural features and extra linguistic factors reveals that such phraseological units are not equivalent and can't be translated literally.

Rəyçi: İ.Şəmsizadə
BDU-nun dosenti

NİGAR HƏSƏNOVA
LEYLA NƏCƏFOVA
AzTU

İNGİLİS DİLİNDƏ LEKSİK ALINMALARIN FONETİK MƏNİMSƏNİLMƏSİ

Açar sözlər: termin,transliterasiya,transkripsiya,fonetika,fonem.
Ключевые слова: термин, транслетрасия, транскрипция, фонетика, фонем.
Key words: term, transliterasiya, transcripsiya, fonetica, fonem.

Alınma sözlərin, o cümlədən beynəlmiləl termin və sözlərin qrafik mənimsənilməsi onların alan dilin qrafik vasitələri,hərfləri,qrafemləri ilə yazılışını nəzərdə tutur. Qrafik mənimsəmə transkripsiya və transleterasiya ilə birbaşa bağlıdır. Transliterasiya latın dilindəki trans+litera komponentlərinin birləşməsindən əmələ gəlmişdir.”Trans” ikikomponentli sözün birinci hissəsi olub Azərbaycan dilində “vasitəsi ilə” mənasına gəlir.İkinci komponent “litera” “hərf” mənasındadır. Transliterasiya bir dilin hərflərinin başqa dilin hərfləri ilə verilməsidir (1475). Transkripsiya əcnəbi sözün səslərinin alan dilin səsləri ilə verilməsidir. Başqa dilin səslərinin yazıda verilməsi səsin uyğun gələn səsi verən qrafemlə əvəzlənməsi nəzərdə tutulur. Bu baxımdan transkripsiya da qrafik mənimsəmə ilə bağlıdır. Bir dildən digərinə transliterasiyanın yerinə yetrilməsi üçün bu iki dilin əlifbasındakı qrafemlərin qarşılaşdırılmasını,onların qarşılıqlarını müəyyənləşdirməyi tələb edir. Şübhəsiz ki,bu zaman bir dildə olan hərflərin bütünlüklə və ya olduğu kimi başqa dildə verilməsi mümkün olmur.Bunun əsas səbəblərindən biri hərf-səs uyğunluğunu nəzərə almaqdır.Beynəlmiləl sözün hansı dildən alınması müvafiq dildən transliterasiyanı nəzərdə tutur.Azərbaycan dilində işlənən beynəlmiləl termin və sözlərin böyük bir hissəsi rus dili vasiəsi ilə alınmışdır.Deməli,termin əvvəl mənbə dildən rus dilinə keçmişdir.Bu isə alınmanın rus dilində qrafik mənəmsənilməsinin ilkin mərhələ olduğunu göstərir.Rus dilinə daxil olan sözlər Avropa dillərindən alındıqda latın qrafikalı və kiril əlifbasının qarşılaşdırılması baş verir. Rus dilində alınma sözlər kiril qrafikası ilə verilir. Məsələn, кровать (yun), сельдь (qədim skandinav), isteblişment (faks,stepler, memdcment, ofis,ing) və s.Mənimsəmə prosesi dildə dərhal baş vermir. ün qrafik yazılışı bəzən uzun müddət ərzində dəqiqləşir. Məsələn, rus dilində ofis vSözə ofis, rostbif və rosbif,komillo və комиль-фо, isteblişment və istgblişment variantları qeydə alınır. Bir sıra sözlərin latın qrafikası ilə rus dilinə keçməsi də vardır.Məsələn,A.S.Puşkinin əsərlərində “Beef-steaks”,”roast-beef” sözləri işlənmişdir.Minimum və maksimum latın sözləri də uzun müddət latın qrafikası ilə yazılmışdır.İlk əvvəllər ədəbi əsərlərdə özünü göstərən bu ənənə müasir dövrdə elan və reklamlarda,müəssisə adlarında istər rus,istərsə də Azərbaycan dilində özünə yer almışdır.Məsələn,kater ingilis dilindən “cutter” rus dilinə keçmişdir.Söz həm transkripsiya, həm də transliterasiya olmuşdur.İngilis dilində “s” qrafemi “i” fonemindən əvvəl “k” kimi oxunur.Qapalı hecada “i” ingilis dilində qoşa foneminə uyğun gəlir.İngilis dilində qoşa “tt” oxunuş zamanı “t” ilə əvəzlənir.Göründüyü kimi ingilis dilində altı qrafemdən ibarət olan söz rus dilində 5 qrafemlə alınmışdır.Bunlardan birinci qrafem rus dilinə oxunuşuna əsasən keç-

mişdir.Son iki qrafem isə transliterasiya olmuşdur.Nəticədə rus dilində "kater" alınma sözü əmələ gəlmişdir.Söz rus dilindən Azərbaycan dilinə keçmişdir.Bu zaman hər iki dildə kiril qrafikalı əlifba olduğundan söz özünün rus dilindəki qrafik cildində də Azərbaycan dilinə keçmişdir.

Yarqon.Müəyyən sosial və peşə qrupunun söz və ifadə tərkibinə görə fərqlənən nitqini bildirir. Termin fransız dilində formalaşmışdır: yargon.Bu dildən ingilis və rus dilinə keçmişdir.Keçid prosesində qrafem tərkibi sabit qalmışdır. Transliterasiya ilə alınma sözdür. Rus dilindən Azərbaycan dilinə olduğu kimi keçmişdir: jaqon və yaxud qalvonometr zəif elektrik cərəyanını ölçən cihazın adıdır.Termin italyan dilində formalaşmışdır. Onun birinci komponenti zəif elektrik cərəyanını kəşf etmiş italyan aliminin "Galvani" adından götürülmüşdür. Cihaz alimin şərəfinə "qalvonometr" adını almışdır.Rus dilinə keçid zamanı "l" səsinin incə tələffüzü ilə əlaqədar rus əlifbasındakı "ь" qrafemi "l"dən sonra artırılmışdır. Azərbaycan dilində terminin alınması zamanı əlifbamızda olmayan və konkret səsi ifadə etməyən "ь" atılmışdır. Söz rus dilində "гвльванометр", Azərbaycan dilində isə "qalvonometr" kimi mənimsənilmişdir.

Fonetik mənimsənilmə zamanı obyekt dil özünə xas olmayan fonetik vasitələri alır.Yəni bu halda əslində dildə fonetik alınmalar özünə yer tapır.Fonetik alınma dedikdə başqa dilin fonemeni almqa nəzərdə tutumamalıdır.Belə bir fonetik hadisənin baş verməsi az ehtimallıdır və çox ola bilsin ki,mümkün deyildir.

Alınmaların fonetik xüsusiyyətləri araşdırıldıqda onlarda reseptor dildə mənbə dilə uyğunlaşdırma müşahidə olunur.Dilçilikdə alınma söz və terminlər fonetik quruluşu izah edilərkən "fonetik uyğunlaşma" və "fonetik mənimsənilmə" terminlərindən istifadə edilir. Bu iki anlayışın ifadə etdiyi proses bir-birindən fərqli mahiyyət kəsb edir və onları bir hadisənin mərhələləri saymaq düzgün düyildir. Elmi ədəbiyyatda fonetik uyğunlaşmanı fonetik mənimsənilmənin mərhələlərindən biri hesab etməklə bağlı fikirlərə rast gəlinir. Bununla yanaşı,hadisənin daha düzgün izahı da vardır. İ.Tahirov alınma sözlərin fonetik mənimsənilməsini dil əlaqələrinin əsas aspektlərindən biri saymaqla bərabər,bu hadisənin bir dildən digərinə söz alınması prosesində mütləq baş verməsini qeyd edir.O deyir:" Sözlərin bir dildən digərinə keçməsi, həmin dilin fonem vasitələri ilə ifadə olunması ,o dildə uzun müddət yaşayaraq onun sisteminə daxil olması iki mərhələdən ibarət prosesdir.Dilşilik ədəbiyyatında bu prosesin mərhələlərinin terminoloji ifadəsində müxtəliflik diqqəti cəlb edir. Azərbaycan dilçiliyində də bu məqsədlə "fonetik adaptasiya","fonetik uyğunlaşma","fonetik mənimsənilmə" terminləri işlədilir.Bizə elə gəlir ki,leksik alınmalar prosesinin mərhələlərini "fonematik əvəzlənmə" və "fonetik mənisənilmə" terminləri ilə adlandırmaq məqdədəuyğun olardı." Leksik alınmaların müəyyən qismi fonematik əvəzlənmə prosesini keçir. Bu prosesin müəyyən dövrü əhatə etməsi haqqında fikir iki cür şərh oluna bilər. Leksik alınma obyekt dildə yazılı nitqdə qeydə alındığı andan onun fonetik tərkibi və tələffüzü müəyyənləşmiş olur.Bu sözün tələffüzündəki sonrakı dəyişiklik onun fonetik formasının dəyişməsi ilə səciyyələnməlidir. Bəzi hallarda tələffüzü üçün xüsusi qaydaların qəbul edilməsi özünü göstərə bilər.Eyni bir sözün müxtəlif səs cildinə malik variantlarının dilə daxil olması dildə qəbul ediləcək variantın qərarlaşmadığını ifadə edir.Bu proses uzunmüddətli ola bilər. Lakin sözün dildə özünə yer tapa bilməməsi bütünlüklə foneika ilə bağlı deyildir.Bu həm qrammatik, həm də leksik normalarla əlaqəli prosesidir.

Leksik alınmaların qrafik cildinin onun dildəki tələffüzünü təyin etməsi bütün dillərə şamil olunmalıdır. Aydındır ki, söz yazılışına görə oxunur. Oxunuş zamanı müəyyən istisnaların mövcud olduğu dillərdə fonetik transkripsiyadan istifadə edilir. İngilis dilində bu dilin oxu qaydalarına tabe olmayan külli miqdarda istisnalar vardır. Dil daşıyıcıları bu istisnaları asanlıqla qavrayırlar.Lakin başqa dilin daşıyıcıları ingilis dilini öyrənərkən,şübhəsiz ki,transkripsiyadan geniş istifadə edirlər. Dildə qrafemlə səs arasında müəyyən qarşılıqlı uyğunluq vardır.Ayrı-ayrı dillərdə bu uyğunluq özünü müxtəlif şəkildə göstərə bilər.Məsələn,ingilis dilində sözlərin tərkibində elə hərflər olur ki,nitq prosesində nlar tələffüz olunmurlar. Yaxud bir neçə qrafemdən ibarət birləşmə bir səslə ifadə olunur.(müqayisə et:sh-ş,ch-ç,sion tion-şn və s.) İşarə ilə səs arasındakı münasibətin 3 aspektini göstərmək olar: sintaqmatik, paradiqmatik və semiotik. Sintaqmatik münasibətdə sözdəki hərflərin sayı səslərin sayına uyğun gəlir.Semiotik münasibətdə sözdəki hər bir səs öz qrafik işarəsinə malik olmalıdır.V.Q.Qakın açıqladığı cəhətlər heç də həmişə dildə öz əksini tam tapmır. İstisna hallar, demək olar ki, dillərin əksəriyyətində rast gəlinir.Məsələn,rus dilindəki "мйагкийзнаг" işarəsi ayrıca səsi ifadə etmir. Bu işarə özündən əvvəlki səsin incə tələffüz olunması haqqında informasiya verir.Praktik olaraq ль, ть, рь birləşmələrindən hər biri bir səsə uyğun gəlir.Bu səs işarə münasibətindəki semiotik prinsiplə zidiyyət təşkil edir. Yuxarıda ingilis dilinə aid nümunələrdə bunun nisbətən başqa halı ilə üzləşmiş olduq.Dildə müvafiq səs qarşılığı olan işarələr birləşərək bir səs əmələ gətirmiş olurlar.

Ümumiyyətlə,dil əlaqələri prosesində leksik alınmaların obyekt dilə keçməsinin ilkin təsiri özünü dilin fonoloji sistemində göstərir. Dilin fonetik sistemi dəyişməsə də onun müəyyən səciyyələrində yeni xüsusiyyətlər meydana çıxır.Bəzi hallarda bu özünü dilin fonetik qanunlarına təsirdə də büruzə verir. Məsələn, Azərbaycan dilində ahəng qanununun pozulması məhz leksik alınmalar hesabına baş vermiş və fonetik mənimsəmə səviyyəsinə qalxmışdır.

Leksik alınmalar üzərində aparılmış tədqiqat göstərir ki,fonetik mənimsəmənin əsas təzahür formaları aşağıdakılar ola bilər:

1.Dildə olan fonemin həmin dilin normalarından kənara cıxan mövqedə işlənməsi.(R fonemi türk dillərində)

2.Dildə olmayan lakin mənşəcə kök dildə yaxud qohum dillərdə fonemin olması.(C fonemi-Azərbaycan-qazax-pratürk)

3.Dildə olmayan lakin onun müəyyən inkişaf mərhələsində fonetik sistemdən çıxmış fonemin leksik alınmalarda işlənməsi.(sağır nun,uzun saitlər)

4.Dil daşıyıcılarının artikulyasiya ukladına yad olmayan fonemin,yaxud səslərin leksik alınmalarda işlənməsi.(K fonemi,uzun saitlər)

Fonematik əvəzlənməni konkretmisallar üzrə nəzərdən keçirək:Altrnative [o:l`tə:nətiv]-alternativ,seçim.Müxtəlif sahə terminlologiyalarında,xüsusən ictimai-siyasi terminologiyada istifadə edilən termindir. Termin ingilis dilindən rus dilinə və rus dili vasitəsilə Azərbaycan dilinə keçmişdir.Mənbə dildə verilmiş transkripsiya ilə oxunuşu və tələffüzü[o:ltönətiv] şəklindədir. Lakin rus dilinə alternativ formada keçmişdir.Sözalma prosesində sonuncu qrafemin oxunmaması və sözün tərkibindəki qrafemlərin səs uyğunluğu əsasında transliterasiya edilmə prinsipi əsas götürülmüşdür. Nəticədə deyilişin ingilis dilindən fərqli frması yaranmışdır. Alınmada həm qrafik, həm də fonetik fərqlər vardır. Qrafik fərq mənbə dildəki "e"

qrafeminin obyekt dildəki variantda olmamasıdır.Azərbaycan dilində söz rus dilindən alınmışdır. Rus dilində alınma prosesində nə qrafik,nə də fonetik dəyişmə aparılmamışdır. Deməli,fonematik əvəzlənmə rus dilinə sözün keçməsi prosesində getmişdir. Anlautdakı uzun [o] saiti [a] ilə əvəz edilmişdir. İnlautda ingilis dilində tələffüz olunmayan [r] rus dilində vardır. Yenə inlautda ingilis dilində olan "ö" rus dilində "a"ilə dəyişdirilmişdir.Göründüyü kimi rus dilində sözün alınması zamanı 3 fonematik əvəzlənmə aparılmışdır. Orfoqrafik mənimsəmənin başlıca ictimai mahiyyəti həmin dildə danışanların yazıda dərketmə prosesini təmin etməkdir. Burada dilimizin orfoqrafiya qayda və prinsipləri başlıca yer tutur.İngilis və rus dillərindən keçən informatika terminlərinin yazılış normasında vahidlik prinsipi poulmuş olur. Bir sıra alınmalar üçün qənaət səciyyəvidir.Söz alan dildə bir sözə xas olan məna izah şəklində verildiyindən alınmanın istifadəsinə üstünlük verilir. Sözalma prosesi əcnəbi dil materialının yeni dil mühitinə uyğunlaşması kimi mürəkkəb bir prosesdir.Alınma sözlərin "yerli"dildə möhkəmlənməsi,funksional cəhətdən işlək vahidə çevrilməsi üçün bir sıra şərtlərə əməl olunması zəruridir.Alınma sözün "yerli"dilin fonetik və qrafik vasitələrinə uyğunlaşması ,dilin qrammatik kateqoriyaları ilə alınma sözün həmahəngliyi,yəni onun qrammatik cəhətdən mənimsənilməsi, alınma söz yaradıcılığında fəallığı,alınma sözün semantik cəhətdən mənimsənilməsi, mənanın diferensiallaşması,həmin sözün "yerli" dildə müntəzəm işləkliyi və s. bu qəbildən olan şərtlərdir. Fonetik mənimsəmə hadisəsi başqa dildən fonemin alınması deyildir.Dil başqa dilə məxsus fonemi almır.Çünki belə bir proses dilin fonemlərinin sayca artmasına səbəb olur.Formalaşmış dil isə mümkün fonemlər sisteminə malik olur və bu sistemdə dəyişməyə əlavə yer qoymur. Əlbədə,dilin tarixən ən qədim dövrlərində onun fonemlər sistemi tədricən tam formalaşmışdır.Dildə olan fonemlərin sayı artmış,bəzi fonemlər,səslər dildən çıxmış, bəziləri allofonlara çevrilmişdir.Bu hadisələr tarixən baş vermişdir və müasir dil çərçivəsində təkrarlanmır. Başqa dilin foneminin olduğu kimi tələffüzü şifahi nitqdə spesifik xüsusiyyətlərlə meydan açır. Şəxs yad və tamamilə mənimsəmədiyi dildə danışarkən öz ana dilinin xüsusiyyətlərini saxlayır.Aksentin əmələ gəlməsi bir dilin tləffüz xüsusiyyətlərinin digər dilin fonetik vasitələri ilə ifadə olunması prosesinin nəticəsidir. Bu,əslində iki dilin fonemlər sisteminin və fonetik normalarının qarışdırılmasıdır. Fonem alınması hadisəsi ayrı-ayrı subyektlərin nitqində özünü göstərə bilsə də, bütövlükdə dil üçün məqbul hal deyildir.

Dildə istifadə edilən beynəlmiləl termin və sözləri onların mənbə və ya aralıq variantları ilə tutuşdursaq,ilk növbədə həmin vahidlərin zahiri cildində,sonrada səs cildində, morfoloji strukturunda,nəhayət semantikasında fərqləri aşkara çıxara bilərik. Belə fərqlər alınma sözün müxtəlif səviyyələrdə assimiyasiyasının nəticəsi sayılır. Bəzən "leksik assimilyasiya" kimi şərti işarələdən istifadə edilir. Çünki sözlərin leksik assimliyasiyasında fonetik,qrafik və qrammatik assimilyasiyanın nəticəsi sayılır.Azərbaycan dilində işlətdiyimiz qəzet sözünün əslində orijinal variantı "gadzetto" sözüdür. Bu söz italyan dilindən rus dilinə "qazeta" kimi keçmiş,rus dilindən Azərbaycan dilinə isə 19-cu əsrin sonlarından əvvəl "qəzetə" formasında daxil olmuş,sonralar isə indiki "qəzet" şəklini almışdır.Göründüyü kimi Azərbaycan dilindəi qəzet sözünün orijinal "gadzetto" sözü ilə tutuşdurduqda bəzi formal-struktur fərqlər özünü göstərir ki,bu da leksik assimiliyasiyanın nəticəsidir.Bundan başqa hind dilinə məxsus olan "zangal" sözü ingilis dilində "cungle", rus dilində

“dcunqli”,osmanlı türkcəsində “cengel”, ”cengelistan”, Azərbaycan dilində isə “cəngəl”,”cəngəllik” kimi işlədilir.Bunun kimi yüzlərlə belə misallar var. Əcnəbi dillərdən alınmış sözlər həmin dilin fonetikasına, qrammatikasına, yazılışına uyğunlaşdırılaraq leksik assimilyasiya olunur.Lakin qeyd etmək lazımdır ki,elə alınma sözlər vardır ki,heç bir formal dəyişikliyə məruz qalmadan da işlədilir.Yəni,alınma söz assimilyasiyaya məruz qala bilər,qalmayada bilər.Bu həmin sözün hansı dildən götürülməsindən deyil,onun fonetik tərkibindən,qrafik cildindən asılıdır. Fonetik mənimsəmə.

Ədəbiyyat

1.Розенталь Д.Э.Теленкова М.А.Словарь-справочник липгвистических терминов.Москва:Просвещение,1976.
2.Tahirov İ.Göstərilən əsər terminlərinin mənimsənilməsi
3.Гак В.Г.Сопоставительная лексикология.М. 1977
4.İsrafoliva S.Alınma informatika terminlərinin mənimsənilməsi. Terminologiya məsələləri. Bakı, Elm, 2006.

Н. Гасанова
Л.Наджафова

Фонетическое освоение интернациональных терминов

Резюме

В данной статье было исследовано графическое и фонетическое освоение интернациональных терминов с теоретической и практической точки зрения. В частности, определены формы освоения интернациональных терминов в языках. Учитывая фонетические и грамматические нормы языка можем прийти в выводы, что интернационализм играют значительную роль а обогащению языка.В ряде случаев интернационализм превосходили слова родного языка и получили быстрое распространение в народе. В результате чего слова родного языка перешли в архаизмы.

N.Hasanova
L.Hacafova

Phonetic adoption of international terms

Summary

Graphic and phonetic adoption of international terms has theoretically and practically been studien in the paper.İn particular,forms of adopting international terms in languages have been determined. Phonetic and grammatical standards gave the opportunity to stud the international words in enriching the vocabulary of a language some cases borrowings are used in wider circle and even dominate native words, moreover, the latter turn into arxaismus.

Rəyçi: Dosent R.C.Cəfərov

SEVİNC BAĞIROVA
ADİU

İNGİLİS DİLİNDƏ FRAZEOLOGİZMLƏRİN MƏNA TƏRKİBLƏRİ

Açar sözlər: İngilis dili, frazeologiya, Azərbaycan dili.
Ключевые слова: Английский язык, фразеология, Азербайджанский язык.
Key words: Enqlish, frazeologiya, Azerbaydjany.

Hər bir dilin özünəməxsus frazeologizmləri var.İngilis dilinin də frazeologiya dünyası çox böyük və müxtəlifdir. İngilis dilinin tarixi inkişafı nəticəsində əmələ gəlmiş bu mürəkkəb frazeoloji sistem o dərəcədə zəngindir ki, danışıq prosesində, frazeologizmlərin vasitəsi ilə bu və ya digər fikri aydın şəkildə başqasına çatdırmaq mümkündür. Bu dilin frazeologizmləri minillik tarixə malikdir. Onlar müxtəlif ictimai tarixi şəraitdə və çox müxtəlif səbəblər əsasında əmələ gəlmişdir.

İngilis dilinin frazeologizmlərinin əmələgəlmə mənbəyi, əsasən, xalq danışıq dili, yazılı ədəbiyyat və folklor olmuşdur.

Hər hansı bir dilin mürəkkəb formada öyrənilməsi, o cümlədən ingilis dilinin öyrənilməsi onun frazeologizmlərini bilmədən mümkün deyildir. İngilis dilini öyrənən şəxslər üçün onun frazeologiya sahəsi böyük çətinlik törədir. Onlar əsasən bu dilin frazeologizmlərinin tərcüməsi zamanı böyük çətinliklərlə üzləşirlər. Frazeologizmlər əksər hallarda başqa bir dildə olduğu kimi tərcümə etmək olmur və çox zaman mənasız, gülünc alınır.

Frazeologiyaya, adətən, dildə məna cəhətdən parçalanmayan, lakin işlək sitat materialı kimi möhkəmlənən atalar sözləri, məsəllər, yazıçıların «qanadlı sözlər» şəklinə düşmüş ifadələri və bunun kimiləri daxildir. Onlar müəyyən bütövlük təşkil edən söz birləşmələridir.

B.N.Qolovinin fikrincə frazeologizmlər danışan tərəfindən hazırlanmır. Onlar dildə hazır şəkildə mövcuddur. Hamı onlardan hazır şəkildə dil vahidi kimi istifadə edir.

Dilin üslubi kateqoriyaları içərisində maraqlı, zəngin struktur-semantik münasibətlərə malik olan sahə frazeologiyadır. Frazeoloji ifadələr dilçilikdə müxtəlif terminlərlə adlansa da, bu sabit söz birləşmələrinin dilimizin «mədəni özülündə» mühüm yer tutması şübhəsidir. Belə etalonların milli-mədəni spesifikasını üzə çıxarmaq və ingilis dilinin incəliklərini tələbələrin daha dərindən öyrənilməsi məqsədilə Azərbaycan dilində obyektiv müqayisələrlə qarşılıqlı təhlil edilir. Bunun üçün bir sıra qaynaqlardan, o cümlədən frazeoloji lüğətlərdən yararlanırıq. Bu məqsədlə ingilis və Azərbaycan dillərində bir neçə semantik qrup ayırırıq:

1.Predmetlər arasında münasibətləri ifadə edən müqayisələr. Hər iki bu qrup müqayisələri adətən bu cür fərqləndirmək olar:

a) əlamətin mənasını birbaşa verən müqayisələr: *Suyun iki damcısı kimi oxşardır* (və ya; iki yarı alma kimi) - *as like as two reas;*

b) deyilən əlamətin əks mənasını verən müqayisələr; *arabaya birinci təkər kimi lazımdır* (lazım deyil).

2.İnsanların xarakter, xasiyyət əlamətlərini və onların əqli qabiliyyətini ifadə edən müqayisələr maraqlıdır ki, hər iki dildə bu qrupa daxil olan müqayisələr üçün

depotat adətən heyvan adları ilə səciyyəvidir. Bəzən eyni bir keyfiyyət ingilis dilində bir, azərbaycan dilində isə başqa bir heyvana şamil edilir.

Məsələn: *Eşşək kimi qanmazdır – As silli as a goose.*

3.İnsanın fiziki xarakteristikasını bildirən müqayisələr. Bu semantik qrupun müqayisələri arasında yalnız birinin, ingilis və azərbaycan dillərinin daşyıcıları üçün assosiativ ümumilik nəzərə çarpır.

As dimb as ma fish – Balıq kimi laldır.

Qalan hallarda eyni əlamət müxtəlif predmetlərə şamil edilir.

4. Predmetlərin fiziki xarakteristikasını əks etdirən müqayisələr.

Məsələn: *Buz kimi soyuqdur - As cold as ice.*

Bir çox müqayisələr azərbaycan və ingilis dillərində müxtəlif koordinatlara malikdir; *daş kimi möhkəmdir – as hard as nail* (a bone, a stone, iron, the nether millstone). Qeyd edək ki, ingilis dilində bu semantik qruplar çoxluq təşkil edir.

3. Rəng, çalar, işıq intensivliyini bildirən müqayisələr, *Palçıq kimi* (kömür, qır, qarğa, gecə) *qaradır - as bleak a crow* (a raven, a raven's, wring, cool, ink, a sloe, yet, soot)

«Qar» hər iki mədəniyyət daşıyıcıları üçün eyni keyfiyyəti - «ağ» rəngi bildirir: *qar kimi ağdır - as white as show.*

Azərbaycan dilində «qar» denotatı ilkin reaksiya kimi özlüyündə artıq «ağ» tələb edir. Ancaq dilimizdə başqa müqayisələr də mümkündür.: *kağız (süfrə, qatıq) kimi ağdır* və s.

4.İnsanların əhvalının, ovqatının səciyyələndirən müqayisələr. İngilis dilində bu müqayisələr qrupu kifayət qədər zəngindir. Məsələn: *as cheerful as lark; as mad as ax March hare; as cross as a bear; as quilt as a monse; as melancholy as a cat.*

Azərbaycan və ingilis dililərinə komporativ frazeoloji vahidlərin təhlili dil daşıcılarda müqayisə etalonlarında fərqləri və oxşarları üzə çıxarır. Bu fərqlər iki mədəniyyətin bənzərliyi ilə əlaqədardır. Azərbaycan və ingilis dillərində frazeoloji vahidlərin müqayisəli öyrənilməsi müəyyən sistemlərin, dil daşyıcılarının təsəvvür imkanlarını açıqlayır.

Məlumdur ki, dilin lüğət tərkibi ayrı-ayrı sözlərdən və söz birləşmələrindən ibarətdir. Dildə mövcud olan bəzi söz birləşmələri leksik vahidlər kimi çıxış edir və tədqiqatçıların daim diqqətini cəlb edir. Leksik vahidlər adı altında frazalar, sabit birləşmələri və frazeologizmlər başa düşülür.

Bir sıra sözlər başqa sözlərə nisbətən bir-biri ilə daha sıx bağlılığa meyl edir. Dildə sabitləşən bu birləşmə «frazeoloji ifadə» adlanır.

Frazeoloji vahidin xarakterik xüsusiyyəti onunla müəyyən olunur ki, frazeoloji vahidin ayrı-ayrı komponentlərinin mənası ilə sabit ifadənin mənası arasında qeyri-qanuni əlaqə hökm sürür.Frazeoloji vahidin və onun tərkib hissələrinin mənasındakı bu qanunsuzluqdan məlum olur ki, sabit birləşmələrdə komponentlər arası semantik bağlılıq mövcuddur. Bu fikrə istinad olunarsa, mürəkkəb quruluşa malik kompakt mənalı birləşmələrin tədqiqinin zəruriliyi mühüm əhəmiyyət kəsb edir. Məhz buna də frazeologizmlərlə bağlı külli miqdarda tədqiqatların olmasına baxmayaraq, bu sahədə tədqiqat işlərinin davam etdirilməsinə ehtiyac duyulur.

Qeyd etmək olar ki, frazeoloji derivasiyaların bütün növlərinə xas olan xüsusiyyət bundan ibarətdir: «Frazeoloji vahidin əmələ gəlməsi müəyyən proseslərlə bağlıdır ki, bu da dildə mövcud olan bəzi nümunələr əsasında baş verir».

İngilis dilinin frazeologizmləri müxtəlif ictimai-tarixi şəraitdə və çox müxtəlif səbəblər əsasında əmələ gəlmişdir. Bu dilin frazeologizmlərinin əsas mənbələri Bibliya, bədii ədəbiyyat, mifik rəvayətlər və əfsanələrdir. İngilis dilinin frazeologizmlərlə zənginləşməsində Bibliyanın böyük rolu var. Qədim dövrlərdən indiyədək Bibliya insanlar tərəfindən ən çox oxunan kitab olmuşdur. Buna görə də, ingilis dilindəki frazeologizmlərin əksəriyyəti Bibliyadan götürülmüşdür. İngilis dili Bibliyadan götürülmüş frazeologizmlərlə bibliezmlər adlandırılır. İngilis dilindəki geniş yayılmış bibliezmlər aşağıdakılardır:

To be ofone mind – bir fikirdə qalmaq; to answer a fool according to his folly – bir kəslə layiq olduğu kimi davranmaq; at the eleventh hour – son məqamda; in the twinkling of an eye – bir göz qırpımında; a wolf in sheep's clothing – qoyun dərisi geymiş canavar; to possess one's soul in patience – səbrini yığmaq; forbidden fruit - haram; a drop in the bucket — dənizdə bir damla; daily bread – gündəlik ruzi; the promised land – həsrəti çəkilən yer; a labour of love –təmənnasız, şəxsi mənfəət güdməyən; a little bird (whispered to) me – yerin də qulağı var.

Frazeologizmlərin bəziləri dualardan götürülmüşdür. Məsələn: *for better, for worse - yaxşı və pis gündə, hər nə olursa olsun; from the bottom of the heart – səmimi qəlbdən, ürəkdən: lay xiolent on one self – özünə qəsd etmək; the world, the flesh and the devil – yanlış həvəs: like a giant refreshed – yeni qüvvə ilə, yeni hisslə.*

Bəzi bibliezmlər zaman keçdikcə formaca qismən dəyişdirilmiş və ingilis dilinin lüğət tərkibinə müasir formada daxil olmuşdur.

The gall and the wormwood - nifrət oyadan bir şey, mənfur frazeologizmin komponentləri *«the»* artiklı gorürülərək onun forması qismən dəyişdirilmişdir. Bu frazeologizmin müasir forması belədir: *«wormwood and gall».*

A man soweth, that shall he reap nə əkərsək, onu da biçərsən frazeologizmində *«to sow»* felinin arxaik forması atılmışdır. Bu frazeologizmin müasir forması isə belədir: *«Whatever a man sows, that shall he reap».*

Hope against hope - möcüzəyə ümid etmək, möcüzələrə inanmaq frazeologizmi *«who against hope bealieved in hope»* frazeologizminin müasir formasıdır.

Müasir dövrdə elə bir dil yoxdur ki, onun lüğət tərkibi yalnız öz frazeoloji birləşmələrindən ibarət olsun. Müasir inkişafla əlaqədar olaraq xalqlar bir-biri ilə elmi, mədəni, siyasi, iqtisadi cəhətdən sıx əlaqədardır. Bu dillərin yaxınlaşması, birinin digərinə frazeoloji birləşmə verмək üçün zəmin yaradır. Bir dildən başqa bir dilə keçən, müxtəlif xalqların bir-biri ilə sıx əlaqəsi, əmək fəaliyyəti, elm və incəsənətin inkişafı nəticəsində əmələ gələn frazeologizmlər beynəlxalq frazeologizmlər adlanır.

İngilis dili frazeologizmlərin əksəriyyəti Qədim Roma və Yunan ədəbiyyatlarından götürülmüşdür. Bu frazeologizmlər aşağıdakılardır:

The golden age - qızıl əsr. Bu frazeologizm yunan yazıçısı Qesiodun poemasından götürülmüşdür. Bu poemada Saturn əsri təsvir olunmuşdur ki, bu əsrdə insanlar qayğısız, rahat, müharibəsiz həyat keçirmişlər.

A labor of Hercules - Hen des əməyi (həddindən artıq çətin iş); *Achilles heel - axilles dabanı* (yeganə ən zəif yeri: *Augean stables -avgi tövlələri* (bərbad, çirkin, baxımsız bir yer).

Yunan tarixindən, Ezop və digər əfsanələrdən götürülmüş frazeologizmlər: *to blow hot and cold — ikili mövqe tıutmaq; the lion's share - ən yaxşı hissə, ən çox*

hissə; the last straw - səbr kasası dolmaq; take the wolf by ears - özünü riskə atmaq.

İngilis dilinin frazeologizmləri sırasına fransız, ispan, italyan, alman, ərəb, çin dillərindən alınmış frazeologizmlər də daxildir.

İngilis dilindəki bəzi frazeologizmlər latın dilindən fransız dilinə, fransız dilindən də ingilis dilinə keçən frazeologizmlərdir. Məsələn: *Homer sometimes nods — hər kəs səhv edə bilər, səhvsiz insan yoxdur; at the creak calends - heç vaxt; to pass under the yoke — məğlubiyyətlə barışmaq; a word is enough to the wise - arifə bir işarə.*

Beləliklə, digər dillərdə olduğu kimi, ingilis dilinin də frazeologiya dünyası çox böyük və müxtəlifdir. Bu dilin frazeologizmlərlə zənginləşməsində Bibliyanın, roma, yunan əfsanələrinin, bədii ədəbiyyatın və başqa dillərin rolu olmuşdur. Qədim dövrlərdən indiyədək Bibliya insanlar tərəfindən ən çox oxunan kitab olduğu üçün ingilis dilindəki frazeologizmlərin əksəriyyəti Bibliyadan götürülmüşdür. Bibliyadan götürülmüş frazeologizmlər bibliezmlər adlandırılır. İngilis dilinin lüğət tərkibi bibliezmlərlə yanaşı şekspirizmlər və ingilis ədəbiyyatından götürülmüş frazeologizmlərlə zəngindir. Bu dildəki frazeologizmlərin müəyyən bir qismi İngiltərəyə ABŞ-dan gətirilmişdir. Amerika mənşəli bu frazeologizmlərin əksəriyyəti amerika bədii ədəbiyyatından alınmış frazeologizmlərdir.

Alınma frazeologizmlərin bir qismi nisbətən dəyişdirilərək müasir formada ingilis dilinin lüğət tərkibinə daxil edilmişdir. Bütün bu frazeologizmlər ingilis dilinin zənginləşməsinə xidmət edir.

Ədəbiyyat

1. H. Bayramov: «Azərbaycan dill frazeologiyasının əsasları». Bakı-1961. «Maarif» nəşriyyatı.
2. У.У.Авамани: «Некоторые вопросы глагольной фразеологии курдского языка». Труды Самаркандского Университета. Вып. 106, 1961 г.
3. В.П.Жуков: «Русская фразеология». Москва, 1986 г.
4. Qurban Səid «Altınsaç». Bakı-2005 il (Alman dilindən çevirəni *Çərkəz* Qurbanlı).
5. Horn P. «Crundries der neupersisiche horriwing». Lang. 1950.
6. Ожегов СИ. «О структуре фразеологии». Лексикографический сборник. Вып. М. 1974 г.
7.Филин П.П. «Очерки по теории языкознания». М. 1982 г.

С..Багирова

Фразеологические соединение в английском и азербайджанском языках

Резюме

В этой статье рассматриваются некоторые важные аспекты в процессе перевода фразеологические соединение в английском и азербайджанском языках, их роль и значение в простых и сложных предложениях, а также, некоторые трудности и их проаделение в обоих языках.

В статье такде анализируется целостность лексического и семантического содержания некоторых фразеологических сочетании считающимся самыми древними. Различаются письменные функции с положениями фраземов в идиомов и в современном языке. В результате выясняется что фраземы различающиеся с поетизмом и стабильностью зарабатывает своего консервативного положения.

S.Bagirova

Translation of frazeological units in English and Azerbaijan languages

Summary

Some important aspects in the process of translation of frazeological units in English and Azerbaijan languages, their role and importance in simple and complex sentences as well as some difficulties and the idea how to overcome them in both languages are considered in this article.

Places of phrazems in proverbs and it's function in writing (offical) language were analised paralelly with (were compared with) our modem language. As a result it's cleared that phrases which are different with their poetism and stabilizm took their most unchangable place in proverbs.

Rəyçi: Nuriyə Rzayeva
filologiya üzrə fəlsəfə doktoru

LEYLA EMİNOVA
AzTU

KANADA İNGİLİSCƏSİNDƏ FONETİK SİSTEMİN BƏZİ PROBLEMLƏRİ

Açar sözlər: Kanada, İngilis dili, fonetika.
Ключевые слова: Канада, Английский язык, фонетика.
Key words: Kanada, Enqlish, phonetika.

Kanada ingilis dili standart ingilis dilinin amerika variantı ilə bir sıra fonoloji xüsusiyyətlərə malikdir. Bunlara rotisiti hadisəsini (syllab final rhoticity) və yuvaq flıpinq hadisəsini (alveola flopping) misal göstərmək olar. Kanada ingilis dilini rotik adlandırmaq ola,r belə ki, ingilis dilinin standart Amerika və İrlandiya variantlarında olduğu kimi , kanada ingilis dilində də son heca [r] kimi tələffüz olunur. Məsələn <car>, <farm> sözlərində olduğu kimi . Maraqlısı budur ki, ingilis dilinin Laneburq və Yeni Şotlandiya variantları [r] düşümlü nadir Kanada dialekti kimi seçilir.

Fləpinq (tək zərbəli) intervokal (iki sait səs arasında) [t] və [d] səslərinin tələffüzü zamanı dilin yuvaqlara cəld cingiltili zərbəsi (toxunması) deməkdir. Kanada və Amerika İngilis dilində bu hadisə yalnız [t] və [d] səslərinin iki sait səs arasında və sonuncu saitin vurğusuz mövqeydə olması zamanı baş verir. Məsələn, waiting, wading,seated, seeled, capital və s. Saitlə kipləşən samit arasında [r] səsi olduqda da fləpinq baş verir (məsələn, barter, party). Kanada İngilis dilində bu xüsusiyyət yaşla əlaqədardır. Havard Vuds göstərir ki Kanadada yaşlı nəsil gənc nəsillə müqayisə kipləşən zərbəli samitlərin zərbəli samitlərlə əvəz olunmasına daha az yol verirlər.

Kanada İngilis dilinin əsas xarakter xüsusiyyətlərindən biri dilçilərin <<Canadian Raising>> adlandırdıqları modeldir. Diftonqlar üzərində aparılan ümumi araşdırmalar göstərmişdir ki , İngilis dilində 3 fonematik diftonq vardır.

Bu diftonqlardan ikisinin nüvəsi alçaq vəziyyətli saitlərdir; ride [aI] və loud [av]. Kanada İngilis dilində hər iki diftonqun müəyyən fonoloji şərtlər daxilində variantları mövcuddur- kar samitdən əvvəl [aI] diftonqu [vI], [av] diftonqu isə [vu] ilə əvəz olunur . Bu variantlar qalxan və ya mərkəzləşmiş diftonqlar adlandırırlar çünki onların nüvəsi daha açıq sait deyilir.

‘’Canadian Raising’’ ilk dəfə Martin Cus tərəfindən diqqətə çatdırılmışdır (1942). Bu xüsusiyyətləri isə başqa dialektlərdə mövcuddur Şimali ABŞ şəhərlərində [av] kimi işlənir. İngilis dilinin Martars Vineyard variantında isə hər iki diftonq işlənir (writer və poriter kimi sözlər çıxmaq şərtilə). Hər bir Amerika dialektində bu model dəyişkəndir. Kanada İngilis dilində isə bu model əhəmiyyətli dərəcədə qətidir; bu yalnız kar samitlərdən öncə mümkündür.

Kanada İngilis dilinin mənşəyi hələ də mübahisəlidir. Palatalar və digərləri ondan Kanada İngilis dilinin loyalist köklərinin dəlili kimi istifadə edirlər. Onun Amerika inqilabı zamanı qaçqın düşmüş loyalistlərin İngilis dili olması güman edilir.

Bu xüsusiyyət Kanadada hələ də müəyyən linqvistik anklavlarda xüsusilə də Loyalist İngilis dilinin ən az təsirinə məruz qalmış Yeni Şotlandiya və Ottava vadisinə özünü büruzə verməkdir. Bundan başqa Kanada İngilis dilinin Yeni Şotlandiya və Ottava variantlarına təsir göstərmiş Şotlandiya və İrlandiya variantlarında da eyni modelləri görmək olar.

Beləliklə, bu modelin Cənubi Ontarioya (həmçinin Qərbi Kanadaya) kim razılığa gəlmişlər ki, bu model İngiltərə 15 və 16-cı əsrlərdə baş vermiş Böyük sait Dəyişməsinin daşlaşmış bir qalığıdır. Böyük Sait Dəyişməsi (Great Vowel Shift) bütün İngilis sait sisteminin Orta əsr İngilis dilindən tutmuş müasir İngilis dilinə qədər dəyişməsinə deyilir. Dəyişməyə qədər <five> , <house> sözləri [fi:v] , [hu:s] kimi, qapalı saitlərlə tələffüz olunurdu. Böyük Sait Dəyişməsi nəticəsində qapalı saitlər açıq saitlərlə [faIv], [havs] əvəz olundu. Qalxan diftonq modeli müəyyən Orta əsr İngilis dili dialektlərindən miras qalmışdır.

Kanada İngilis dilində digər bir özəl xüsusiyyət sözlərdə prerotik (r-dan öncə) saitlərin paylanmasıdır. Amerikan İngilis dilində iki sait arasında yerləşən [r] səsindən öncə yerləşən [a] səsinin [v] səsi ilə əvəz olunması kimi mövcud modelə müqavimət göstərmək Kanada dilində prerotik saitlərin nəzərə çarpan aspektidir.

Sorry, tomorrow, borrow, sorrow və Laura kimi sözlər Amerikan İngilis dilində məcburi olaraq bu modelə əsasən tələffüz olunurlar. Florida, orange, oracle, Norwich, adorable , thesaurus kimi sözlərlə (a) əvəzinə (v) səsinin işlənməsi dəyişkən şəkildə aşkarlanır.

Cari dəyişikliklər göstərir ki, Amerikan İngilis dilində intervokal [r] samitindən öncə işlənən [a] səsi öz qüvvəsində qalır.Nəticədə Amerikan tələffüzü ilə, məsələn, [‘sarı], [‘barov] və Kanada tələffüzü [‘sarı], [darov] arasında ziddiyyət yaranır. Bildiyimizə görə, bu xüsusiyyət Kanada dialektologiyasının nəşr edilmiş heç bir müzakirələrində nəzərdən keçirilməmişdir,lakin onun Kanada İngilis dilinin dəyişməz,qəti markeri olması təklifi məqsədəuyğundur.

Baxmayaraq ki, Kanada dilində intervokal [r] səsindən öncə [a] saiti öz qüvvəsində qalır,eyni mövqedə [ae] və [e] sairləri arasında olan fərq qismən və ya tamamilə aradan götürülmüşdür. Nəticədə <<marry-merry>> və <<Barry-berry>>kimi söz cütlükləri homofon sözlərlə çevrilmişdir.Ottava sakinləri ilə apardığı tədqiqatlar nəticəsində Hovard Vuds yaşla əlaqədar belə bir model yaradır:yaşlı nəslin nümayəndələri <<marry>> sözünü [‘maeri],gənc nəsil isə sözü [‘meri] kimi tələffüz edir. HO Vudsun fikrincə [aeri] səs birləşməsinin saxlanılması kanadianizm olmaqla yanaşı, həmçinin,Britişizdirmdir.[aeri] birləşməsinin itməsi isə onu İngilis dilinin Nyu York və Yeni İngiltərə variantlarından fərqləndirən əsas xüsusiyyətdir. B elə ki, yuxarıda qeyd olunan dillərdə [aeri]saxlanılmaqdadır.

Kanada İngilis dilinin digər maraqlı xüsusiyyəti onun alınma [a] saitini özününküləşdirməsidir.Nəticədə alınma <<pasta,Mazda,drama və taco>> kimi sözlər alçaq vəziyyətli saitlərlə tələffüz olunurlar.Kanadalılar bu sözləri ön sıra [ae], amerikalılar isə [a] səsi ilə tələffüz edirlər.

Bu modelin bir qədər dəyişkən olmasına baxmayaraq,Çarlcs Boberq aşkar etmişdir ki,15 belə alınma sözdə Kanada tələffüzü Amerika tələffüzünə nisbətən daha çox ehtimal olunur.Məsələn,94% kanada ilə müqayisədə 82% Amerikalı <<panorama>> sözünü üçüncü hecada [ae] saitilə,81% kanadalı ilə müqayisədə 5% amerikalı <<pasta>> sözünün birinci hecasını [ae] saitilə tələffüz edir.

Aşağıdakı cədvəldə Boberqin qeyd etdiyi sözlərin siyahıçı verilmişdir. V erilmiş sözlərin 70%-i (<<macho,taco və Vietnam>> sözlərini çıxmaq şərtilə) kanada tələffüzünə əsasən [ae] saiti ilə tələffüz olunur.

Hindu dilindən alınma sözlərin bəziləri kalka yolu ilə daxil olmuşdur. Məsələn, ABŞ vətəndaşını ifadə edən Long Knife şindu mənşəli alqonkinlərin dilindəki eyni mənalı *keechchi* sözündəndir. Onun mənası *böyük, uzun bıçaq*dır.

Bu alınmaların bəziləri ingilis dilində semantik inkişafa məruz qalaraq, törəmə mənalarda işlənməkdədir. Misal üçün, eskimos dilindən ingilis dilinin Kanada və Amerika variantlarına daxil olmuş kayak yalnız yüngül qayıq mənasında işlənməyib. Kayak yarışı mənasında da işlənir: kayak maraton.

Toboggan ismində konvensiya yolu ilə ingilis dilində **to toboggan – xizəkdə sürüşmək** feli əmələ gəlir və onun iştirakı ilə mürəkkəb söz yaranır: *toboggan – slide – tobogganla sürüşmək üçün dağ*.

Toboggan fel funksiyasında frazeoloji ifadə kimi də rastlanır (*qiymətin kəsikin olaraq düşməsi*): *prices tobogganed – qiymətlər kəskin düşmüşdür*.

Aborigen dillərindən ingilis dilinə daxil olmuş bir çox başqa sözlərin də fonetik və semantik assimilyasiyaya məruz qalması hallardı geniş müşahidə olunur.

Belləiklə, ingilis dilinin Kanada variantındakı hindu mənşəli sözlər ölkənin yerli əhalisi olan hinduların adət və ənənələrini, məişətini, təbiətini, bitki və heyvanat aləmini əks etdirir.

Müasir kanadalılar bir çox irq və millətləri özündə birləşdirən bir xalqdır. Onların arasında avropalılar, yerli hindular və eskimoslar vardır. Avropa mənşəli kanadalılar dilinə görə iki əsas qrupa bölünür: ingilisdilli və farnsızdilli kanadalılar.

Kanadada ingilis dilinin tarixi XVIII əsrdən başlayır. İngilis dilinin Kanada varniantı daha çox Amernika variantına yaxındır ki, bu da kanadalıların ABŞ mətbuat. Radio və televiziyasından daim istifadə etmələri və əhalinin sıx qarşılıqlı əlaqələri ilə bağlı olmuşdur. Lakin bununla belə ingilis dilinin Kanada variantının bir qrup özünəməxsus xüsusiyyətləri də vardır. Bu xüsusiyyətlər Kanada variantında ölkənin özünəməxsus heyvanat və bitki aləmi ilə bağlı xeyli sözlərin olması, Kanadaya gəlmiş immiqrantların ana dillərinə məxsus sözlərin Kanada ingiliscəsinə daxil olması, yerli hindu və eskimos dillərindən alınmış sözlər ilə bağlıdır.

İngilis dilinin Kanada variantına məxzsus fərqli xüsusiyyətləri U.Alvis, G.Allekn, G.Stori, D.Homilton, K.Din və başqa tədqiqatçıların əsərlərində əks olunur. Onların tədqiqatlarında əsl kanadizmlər, yəni yalnız Kanada variantında işlənən sözlər Kanada mənşəli olub, həmçinin ingilis dilinin başqa variantlarına da daxil olmuş sözlər və s. qrup sözlər fərqləndirilir. Həmin tədqiqatlarda həmçinin ingilis dilinin Kanada variantına başqa dillərdən alınmış sözlər də müxtəlif həcmdə təsvir olunmuşdur.

Alınma sözlərin Kanada variantına daxil olmasının iki əsas mənbəyindən biri yerli hindu və eskimosların dilləri, digəri isə neçə yüz illər ərzində Avropadan gəlmə immiqrantların ana dilləri idi. Bundan başqa, alınma sözlər həm Kanada ingiliscəsinin lüğət tərkibinə daxil olmuş, həm də ölkənin onomastikasında öz əksini tapmışdır.

Alınma sözlərin böyük bir qrupu fransız mənşəlidir. Bu onunla əlaqədardır ki, Kanada əhalisinin bir hissəsini Kvebek vilayətində məskunlaşmış faransızdilli əhali təşkil edir.

Kanada variantında daxil olmuş fransız dillərin çoxu e (ee) şəkilçiləri ilə birir: *brule – yanmış meşə; saqamite – ət və ya balıqlı bulyon və ya sup* və s.

Bəzən fransız sözləri Kanada ingiliscəsində fonetik assimilyasiyaya məruz qalmışdır. Assimilyasiyaya uğramış sözlərin arasında euse şəkilçisi ilə bitən sözlər də vardır. Məsələn, fameuse – payızın sonunda yetişən alma iki cür tələffüz olunur [fəmu:z] ,[fəmə:z] .

İngilis dilinin Kanada variantında ey şəkilçisi ilə bitən sözlər də assimilyasiyaya məruz qalmışdır. Eu hərf birləşməsi Kanada variantında[u] kimi tələffüz olunur. Məsələn: Kvebek konservative partiyası ilə bağlı olan bleu sözü[blu] tələffüz olunur.

Bəzən fransız alınma sözlərinin fonekti assimilyasiyası özünü vurğuda da göstərir. Misal üçün, vurğusu son hecada olan barbate sözü Kanada ingiliscəsində belə assimilyasiyaya məruz qalır: vurgu ingilis dilində olduğu kimi birinci hecaya düşür.

Guignolee sözü fransız dilində bu mənalarla işlənir: *petruşka, kukla teatrı* və s.

İngilis dilində vurğu dəyişməsi ildə guignolee gəenclərin şən görünüşlü paltapr geyinib mahnı oxuya-oxuya gəzinmək adətini bildirir.

İngilis dili Kanada variantındakı yad mənşəli sözlərin bir qrupu coğrayi adlarda əks olunur. Ölkədə böyük sayda fransız və aborigen mənşəli yer adları da vardır. İngilis dili Kanada variantına daxil olmuş fransız və aborigen mənşəli sözlər mənaca rəngarəngdir. Onlar ölkə həyatının müxtəlif sahələrinə aiddir. Bu sözlər aborigenlərin maddi və mənəvi mədəniyyətini əks etdirir.

Beləliklə, ingilis dili Kanada variantının formalaşmasında bu kimi amilərin rolu böyük olmuşdur.

Bundan başqa,Dil Nümunələri Proyekti (The Language Samples Project) Kanada İngilis dilində, bir qayda olaraq (ae) səsi ilə tələffüz olunan alınma sözlərin siyahısını təşkil etmişdir. Belə sözlərə ,<<Natasha, Tania, avocado, pecan, Fiat, Mazda, Lada, bravo, saga, Yugoslavia>> və s misal göstərmək olar. Lakin,<< Bach, Luatemala Kamikaze, karate, garbanzo>> kimi sözlər [a] səsi ilə tələffüz olunur. Bu sözlərdə [a] əvəzinə [ae] səsini işlətmək daha əlverişlidir. Onlar yeni alınma sözlərlə qarşılaşdırdıqda onları [ae] səsi ilə tələffüz etməyə davam edirlər.

Kanada İngilis dilinin bu xüsusiyyəti belə bir hipoteza yaradır. Çarles Boberq yuxarıda qeyd olunan mənbəyə nəzərən düşünmür. Bunun səbəbi sadəcə bir şey ola bilər ki, Kanada İngilis dili bu sözlərin tələffüzünün əsası kimi onların əlyazmasından istifadə edir. Kanada və Amerika sait sistemində mövcud fərqli konfiqyrasiyalar bu sualın cavabı ola bilər. Belə ki, Şimal şəhərlərində Sait Dəyişməsi və Kanada Sait dəyişməsi [ae] səsinin tələffüzü fərqli istiqamətdə aparırlar. Nəticədə stock sözünün amerikan tələffüzünü ilə stack sözünün kanada tələffüzü, demək ki, eynidir. Yəni, amerikan [a] saiti ilə kanada [ae] saiti eyni səslərdir.

Qəribə də olsa, lava və pasta kimi alınma sözlərin amerikan və kanada tələffüzü burada məlum fərqli fonemlərin işlənməsinə baxmayaraq, fonetik cəhətdən çox yaxındır. Yeganə fərq budur ki, Şimal bölgələrin Sait Dəyişməsinə görə [ae] səsi bu alınma sözlərdə müvafiq sait olmaq üçün daha ön və qapalı səsdir.

Oxşar şəkildə, Kanada Sait Dəyiçməsinə görə [a] səsi eyni sözlərdə daha çox arxaya meyillidir. Tədqiqatlar göstərmişdir ki, Kanada Sait Dəyişməsində qadınlar kişilərdəç öndə gedir.

Kanada İngilis dilinin gələcək istiqaməti Amerikan İngilis dilinin xarici təsirləri və mədəniyyət ilə sıx əlaqədardır. Kanada dilinin Amerika İngilis dilindən ayrılması məsələsi, onun sosial əhəmiyyətini yeni immiqrantlar daxil olmaqla müasir və gələcək nəsillər arasında qoruyub saxlaya bilməsindən asılıdır.

Ədəbiyyat

1. The Language Samples Project. 2001
2. Charles Borger. The English Language in Canada; Status. History and Comparative Analysis. 2010
3. Woods Howards B.A Sychronic Study of Enlish Spoken in Ottawa:Is Canadan English Becoming More American? In Focus on Canada.Sandra Clark (Ed.).Amsterdam:Jonh Benjamins Publishing Company.

L.Eminova

On the vowel system in Canadian Enlish

Summary

Canadian English has appeared on a number of factors. Canadian English was first determined by a number of immigrants settled from the northern part of the United States. Because of the geographical proximity of the two countries and the influence on each others histories, economic systcms, international policies and television media Canadian English continus to be formulated by American English.

Л.Еминова

К вопросу системе гласых в Канадском Англйском яэыке

Резюме

Канадский Ангийский яаык зто результат многих факторов. Канадский Английский был первочально определен в значительной степени поселением в Канаде иммигрантов из северных Соединенных Штатов. Из-за географической близости этих стран и переплетения их историй, экономической системы, международной политики и печати и телевизионных СМИ, Канадский английский язык продолжает формироваться американским вариантом английского языка.

Rəyçi: dos. R.C.Cəfərov

QƏNİRƏ ALLAHVERDİYEVA
YEGANƏ QURBANOVA
AzTU

İNGİLİS DİLİNDƏ SÖZ BİRLƏŞMƏLƏRİNİN FRAZEOLOGİZMLƏRDƏN FƏRQLİ CƏHƏTLƏRİ

Açar sözlər: frazeoloji birləşmələr, idiomlar, sintaktik və semantik xüsusiyyətlər
Ключевые слова: фразеологические соединеий, идиомы, синтаксические и семантические особенности.
Key words: phrasal combinations, idioms, syntactic and semantic features

Söz birləşmələri dilin hərtərəfli inkişafında aparıcı mövqe tutur. Elə bu səbəbdən də söz birləşmələrinin müxtəlif növləri dəqiq şəkildə tədqiq və təhlil olunmalıdır.

Jackendof-un qeyd etdiyi kimi dilçilikdə söz birləşmələrinin əhəmiyyəti onların indiyə qədər ənənəvi şəkildə şərhindən və işlədilməsindən daha böyükdür. O hesab edir ki, daşınanın leksikonunda olan birləşmələrin kəmiyyəti adi sözlərin sayı ilə təqribən eynidir. (4, s. l56) Əlbəttə, göründüyü kimi, bu tam dəqiq şərh hesab oluna bilməz, çünki biz hətta dildə olan leksik birləşmələri də bura daxil etsək kəmiyyətcə eynilik qismən uyğun gələr. Dildə olan birləşmələrin ətraflı şərhi və kəmiyyəti tam dəqiq şəkildə verilə bilməz. Çünki bu birləşmələrin bir çoxu şifahi nitqdə istifadə olunur və sayı getdikcə artmaqdadır.

Söz birləşmələrinə bütün mətn janrlarında rast gəlinir və təbii dilin inkişafında mühüm problemlər yarada bilir. Bunlardan birincisi "yeni sözdüzəltmə" (overgeneration) problemidir ki, bu da ədəbi dilin qanunlarına uyğun olmayaraq müəyyən dialektlərdə söz birləşmələrinin yaranmasına səbəb olur. Məsələn: *telephone booth(american)* və ya *telephone box* (british/australian). Bəzən isə dildə tam tərkibi, ancaq xoşagəlməz, qəbul olunmaz nümunələr yaranır: *telephone cabinet, telephone closet və s.*

İkinci problem isə "idiomlaşdırma" (idiomaticity) problemidir ki, birləşmə tərkibində olan sözlərin əsas mənaları ilə heç bir uyğunluğu olmur. Məsələn: *kick the bucket (ölmək)*

Çoxları birləşmələrə öz ciddi məhdudiyyətləri olan "məsafəli və ya boşluqlu sözlər" (words with spaces) kimi yanaşırlar. Məs: fel-qoşma tərkibləri haqqında kifayət qədər biliyə malik olmayan şəxs *look up the tower* birləşməsinə 2 cür tərcümə verə bilər: *qalaya baxmaq (glance up at the tower)* və ya *qala haqqında məlumat kitabına müraciət etmək (consult a reference book about the tower),* ancaq *look up the tower* birləşməsinin iki yox yalnız bir mənası var ki, o da *qala haqqında məlumat kitabına müraciət etməkdir.*

Nəhayət sonuncu birləşmələrin "leksik cəhətdən sürətli artımı" (lexical prolifcration) problemidir. Məs: belə birləşmələrə tez-tez fel nümunələri şəklində təsadüf olunur: *take a walk (gəzişmək), take a hike (yürüyüş etmək), take a trip (səyahət etmək), take a flight (uçmaq).* Belə birləşmələri isə öyrənmək və fərqləndirmək çətin olur.

Ümumiyyətlə birləşmələr problemi tam inkişaf etməmiş və ətraflı şəkildə tədqiq olunmamışdır. Elə buna görə də birləşmələrin hərtərəfli öyrənilməsi üçün onların növlərini aid etmək lazımdır.

Birləşmələri geniş şəkildə leksik birləşmələr və tərkibi birləşmələr adı altında təsnif etmək olar (1 ,s. 121)

Leksik birləşmələr ən azı qismən də olsa xüsusi sintaksisə və ya semantikaya malik olur və ayrı – ayrılıqda işlənməyən "sözləri" özündə cəmləşdirir və nəhayət üç qrupa bölünürlər: *"fixed expressions", "semi-fixed exptressions","syntactically-flexible expressions"*. Nitqdə danışıq zamanı yaranan birləşmələr isə sintaktik və semantik cəhətdən tərkibi olur və onlara gözə çarpacaq qədər tez-tez rast gəlinir. İndi isə hər bir kateqoriyanı dil faktları ilə əsaslandıraq:

Sabit ifadələr (Fixed expressions). İngilis dilində bir qrup dəyişməz ifadələr vardır ki, onlar ümumi qrammatik qaydalara riayət etmir. Bu birləşmələrə *by and large (bütövlüklə), in short (qısaca), kingdom come (axirət), every which way (hər yerdə)* və başqaları daxildir. Bir çox dilçilər tərəfindən mənşəyi tədqiq olunan və danışıqda tez-tez rast gəlinən bəzi birləşmələr də bu qrupa daxil edilir: *ad hoc (xüsusilə, bu halda) (ad nauseam (mənfur dərəcədə), ad hominem (şüurdan daha çox emosiyaya qapılan),...), Palo Alto (Kaliforniyada şəhər adı) (Los Altos (Kaliforniyanın şərqində şəhər adı), Alta Vista,...)* və başqaları.

Sabit ifadələr tamamilə leksikləşmiş birləşmələrdir və nə morfosintaktik dəyişikliyə, növ müxtəlifliyinə *(in shorter),* nə də daxili dəyişikliyə *(in very short)* məruz qalır. Əgər sabit ifadələrin təqribi sayı təyin olunsaydı, onda "hoc" ilə işlənən ifadələrin leksik xüsusiyyətləri açıqlanardı.

Yarı-sabit ifadələr (Semi-fixed expressions) Bu ifadələrin söz sırasında və tərkibində ciddi məhdudiyyətlər olur, ancaq leksik dəyişmənin (növ müxtəlifliyinin) bir neçə formasına görə dəyişir. Məsələn: fleksiya (sözlərin hallanma və ya təsrif zamanı dəyişən sonluğu) formalarında, variantların qayıdış formasında və determinativ (təyinedici) seçimində. Bu imkan verir ki, onlara xüsusi hallarda leksik cəhətdən dəyişən ayrıca nitq hissəsi olaraq söz kompleksi kimi yanaşılsın. Onlara da öz növbəsində bölünə bilməyən (nondecomposable) idiomların, müəyyən mürəkkəb adların və xüsusi adların müxtəlif formalarını daxil etmək olur.

Bölünməyən idiomlar (Non-decomposable idioms) Nunberq və başqaları idiomlara aid semantik tərkiblilik (semantic compositionality) adlı xüsusi anlayış, ideya hazırlayıb, idiomun bütöv mənasının onun komponentləri ilə əlaqəli olduğunu göstəriblər (6, s. 492). Məsələn: *spill the beans* və *reveal the secret (s)* idiomları belə təhlil oluna bilər: *spill* (tökmək), *reveal* (aşkara çıxartmaq) mənasında və *the beans* onun *reveal the secret(s)* (sirrin üstünü açmaq) mənasına uyğun gəlir. Ancaq digər tərəfdən tez-tez sitat gətirilən *kick the bucket* frazeoloji birləşməsini belə təhlil etmək olmaz.

Müşahidəyə əsaslanaraq belə nəticəyə gəlmək olur ki, semantik cəhətdən belə parçalanma və ya bölünmə prosesi idiomla başlanılır və tam xüsusi komponentlərinin ayrı-ayrı hissələri ilə əlaqələndirilir və "semantik tərkib hissələrinə bölünən" (semantic decomposability) kimi yenidən düzəldilir.

Mürəkkəb nominallar (Compound nominals). *Car park (avtodayanacaq), attorney general (baş prokuror)* və *part ofspeech (nitq hissəsi)* kimi mürəkkəb adlar bölünməyən idiomlara bənzəyir, yəni onlar da bölünməyən idiomlar kimi sintaktik

cəhətdən dəyişməyən vahidlərdir. Mürəkkəb nominallar kəmiyyət şəkilçisi qəbul edə bilir və şəkilçilər əsasən birləşmədəki əsas sözə əlavə olunur. Məsələn: *car park* birləşməsi cəm formasında işlənərkən *car parks,* yəni "s" cəm şəkilçisi ikinci komponentə əlavə olunur, amma *attorney general, congressman at large (bir ştatın konqresmeni)* və *part ofspeech* birləşmələrində isə birinci komponentə artırılır.

Xüsusi adlar (Proper names) sintaktik cəhətdən çox fərqlidir. Məsələn, ABŞ-da idman komandasının adları, əsasən, təşkilatın adı və ya yer adlarına uyğun qoyulur**bəlkə də özlüyündə birləşmə olan *San Francisco* kimi) və ya komandanın** olduğu

yerin adı bütünlüklə rəqəmlə idmançılara aid edilir. Məsələn: 49 – cular *(40ers)*

Sintaktik cəhətdən tez uyuşan ifadələr (Syntactically-flexible expressions) Yarı-sabit ifadələr əsas söz sırasını hər yerdə qoruyub saxlaya bilməsinə baxmayaraq sintaktik cəhətdən tez uyuşan ifadələrdə sintaktik dəyişkənliyə daha çox hallarda rast gəlinir. Biz bu dəyişmənin növlərini sözönülü feli frazeoloji birləşmələrdə, bölünən idiomlar və xüsusi feli birləşmələrdə (light verbs) görə bilirik.

Sözönülü feli frazeoloji birləşmələr (Prepositional phrasal verbs) Fel + qoşma tərkibləri feldən, bir və ya daha çox sözönü və zərfdən ibarət olur. Məsələn: *write up (təsvir etmək), look up (axtarmaq), brush up on (təkrarlamaq)* və s. Onlar ya *brush up on* kimi semantik cəhətdən unikal, ya da *break up (parçalanmaq)* kimi - *the meteorite broke up in the earth 's atmosphere* tərkibi olur.

Təsirli sözönülü feli frazeoloji birləşmələr ya birləşmədən sonra, ya da fellə sözönü arasında isim və ya ismi birləşmə qəbul edir. Məsələn: *call Tom up (Tomazərtg etmək) və fall off a truck (yük maşınından düşmək).* Bu birləşmələrin təsirli formalarının bir çoxunda isim həm sözönüdən əvvəl, həm də sonra işlənə bilir.

Məsələn: *Call Tom up* və ya *Call up.* Hətta sözönülü feli frazeoloji birləşmələrin təsirsiz formalarında da zərf fellə sözönü arasında işlənə bilir. Məsələn: *fight bravely on (səylə mübarizə aparmaq).* Onu da qeyd etmək olar ki, sözönülü feli frazeoloji birləşmələrin təsirli formalarının leksik variantlarını "məsafəli, boşluqlu sözlər" (words with spaces) kimi təyin etmək qeyri-mümkündür. Hətta bunu da qeyd etmək olar ki, bəzi sinonimlik təşkil edən fellər eyni qoşmalarla işlədilir. Məsələn: *call/ring/ phone + up (zəng etmək).*

Bölünən idiomlar (Decomposable İdioms). *Let the cat out of the bag (sirri dilindən qaçırtmaq) və sweep under the rug (üstünü örtmək (promlemin və s.)* kimi hissələrə bölünə bilən idiomlar sintaktik cəhətdən tez uyuşan ifadələrə müəyyən dərəcədə yaxındır. Ancaq daha dəqiq desək, verilən hər hansı bir idiomun sintaktik cəhətdən dəyişməsinin hansı növünə məruz qalmasını qabaqcadan söyləmək qeyri-mümkündür (7, s. l 17). Çünki bölünən idiomların hər biri müəyyən dərəcədə sintaktik cəhətdən dəyişkəndir, yəni onların hər birində yalnız bir, özlərinə xas olan sintaktik xüsusiyyəti görmək mümkündür. Əvəzində onlar bir-birinə semantik cəhətdən bağlı hissələrdən ibarət olan idiomlar kimi görünürlər, onlar yalnız semantik yanaşma ilə müəyyənləşdirmək olar (6, s. 494). Çünki onlar sintaktik cəhətdən müxtəlifdir.

Bölünən idiomlarla (decomposable idioms) belə ki, [a]*spill the beans* və *let the cat out ofthe bag"* və tərkib hissələrinə bölünə bilməyən idiomlar (non-decomposable idioms) belə ki, *"kick the bucket, trip the light fantastic* (*həvəslə oynamaq, rəqs etmək)* və *shoot the breeze (boş-boş danışmaq) "* arasındakı fərqləri müəyyənləşdirmək heç də asan deyil. Ümumiyyətlə anlaşılması çətin olan, mənaların görə bölünməyən idiomlar sintaktik dəyişkənliyə tabe olmur. Məsələn: bölünməyən idiomlar daxili dəyişiklik formasında: *kick the great bucket in the sky* və ya məchul formada: *the breeze was shot* işlədilə bilmir. Bölünməyən idiomlarda müşahidə olunan leksik dəyişmə yalnız şəkilçi əlavə olunma: *kicked the bucket* və qayıdış formasıdır: *wet oneself (qorxudan paltarına ishal etmək).*

Xüsusi feli birləşmələr (Light verbs). Bu birləşmələr çox fərqlidir (məsələn: *make a mistake (səhv etmək), give a demo (nümayiş etmək)* və hamıya məlumdur ki, verilən hər hansı bir isimlə hansı felin işlənməsini öncədən söyləmək çətindir. Buna baxmayaraq belə birləşmələrin bəzən idiom olduğu iddia edilir: idiom normal mənada istifadə olunur və felin mənası isə idiomdan daha çox anlaşılan olur.

Bu birləşmələr tam sintaktik dəyişkənliyə tabedir, yəni məchul formaya (məsələn: *demo was given),* sitat (məsələn: *How many demos did Tom give?)* və daxili dəyişməyə, modifikasiyaya (məsələn: *give a revealing demo)* məruz qalır.

Tərkibi birləşmələr (İnstitutionalized phrases). Bu birləşmələr semantik və sintaktik cəhətdən xüsusi quruluşa malik olsalar da statistik cəhətdən fərqlidir. *Traffic light* (işıqfor) birləşməsinə əsaslanaraq demək olar ki, həm *traffic,* həm də *light* sözlərinin leksik mənalarını saxlayır və struktur cəhətdən birləşib tərkibi birləşmələr yaradırlar. Bu quruluşa diqqətlə baxdıqda görə bilərik ki, həmin anlayış başqa cür də ifadə oluna bilər. Məsələn: *Traffic director* və ya *intersection regulator* və s. Buna baxmayaraq, belə əlavə forma mövcud deyil, çünki *traffic light* forması ümumişlək olub, üslubi cəhətdən işlənmişdir. Tərkibi birləşmələrə nümunə olaraq başqa birləşmələri də göstərmək olar: *telephone booth* (və ya *telephone box* british/australian English), *fresh air (təmiz hava), kindle excitement (həyəcan siqnalı)* və s. Bu birləşmələr bütün sintaktik variantlara məruz qalırlar.

Ədəbiyyat

1. Bauer, Laurie "English Word-formation"Cambridge University Press 1983, 243 səh
2. Dixon, Robert "The grammar of English phrasal verbs" Australian Journal of Linguistics, 2 1982, səh 149-247
3. Hacıyeva Ə.H., Necefov E.B. "English Phraseology" Bakı 2009, 228 səh
4. Jackendoff Ray "The Architecture of the Language Faculty"Cambridge l997, 223 səh
5. Nunberg, Geoffefy, Ivan A. Sag & Thomas Wasow "Idioms" Language, 70 1994, səh 491-538.
6. Riehemann, Susanne "A constructional approach to idioms and word formation" Stanford 2001, 312 səh
7. Vəliyeva N.Ç. "Müxtəlifsistemli dillərdə feli birləşmələrin tipoloji təhlili" Bakı 2008, 861 səh

Г.Аллхвердиева
Е.Гурбанова

О некоторых словосочетаний на английском языке

Резюме

В этой статье словосочетании классифицируются под называнием лексических словосочетании и составных словосочетании и доказывается что они более интересные и разные чем были отмечены до сих пор. Семантический и синтаксические особенностей каждого из них описывается отдельно с пояснительными примерами.

Q. Allahverdiyeva
Y. Qurbanova

About some combinations in the English language

Sammary

In this artide phrases are classified in terms of lexicalized phrases (made up of fixed, semi-fixed and syntactically flexible expressions) and institutionalized phrases are far more diverse and interesting to master than is standardly appreciated. Semantic and syntactic features of each type of multi word expressions are analyzed separately with some examples.

Rəyçi: dos. R.C.Cəfərov

B/m RƏNA ZÜLFÜQAROVA
B/m RƏHİLƏ MƏMMƏDOVA
ADNA, Xarici dillər kafedrası

WRITING: WHERE WE SEEM TO BE

Key words: emphasis, assignment, reader, approach, writing
Açar sözlər: vurğu, tapşırıq, oxucu, yanaşma, yazı
Ключевые слова: ударение, задание, читатель, подход, письмо

In the recent part writing was the most ignored of language skills. But many changes in attitude have occurred about teaching writing in a second language. This article cover some of those changes and details what the resulting was emphases are:

The traditional writing assignment.

Traditionally, when students write in a second language ,the purpose of the writing activity is to catch grammar, spelling and punctuation errors. Under this circumstances, sometimes the only writing students do is to write out grammar exercises, Sometimes those grammar exercises are disquised as composition writing; those are called quided writing ,in which students are given a short text and instructed to change all the masculine pronouns to feminine ones or to change all singular nouns to plural nouns or to change from present tense to past tense. The students do not create the texts themselves, because a more traditional philosophy of teaching language has persuaded teachers that students are not ready to create language ; they are only ready manipulate forms. The writing is carefully controlled so that the students see only correct language and practice grammar structure that they have learned. Children learning a second language often go no real writing at all even if they can already write in their first language. In other, more advanced ,classes following the same philosophy, students are assigned compositions or other kinds of texts to write. Most often in these classes the poor teachers takes home many student papers at night and carefully marks all the grammatical and mechanical errors in the writing. When the papers are returned to the students often the students are asked to take the paper home and correct all the errors and may be recopy the text into a clean sheet. The focus in these types of writing exercises is primarily on language structure. Students get good marks if they write texts with as few errors is possible .In order to avoid errors, then ,students naturally write very cautiously and conservatively in their second language. If what they have to say does not fit with what they already know how to say, they simply write something easier, something they know they can control. The result can be student writing that is cripped ,filled, with clichés, and very boring both for the student who is writing and for the poor teacher reading all those papers.

New emphasis:

But attitudes have changed about the role of writing a second language .Instead of being the last skill taught and instead of being only a servant to grammar, writing has now become much more important in the second language curriculum. There is every reason it should be. Writing is the natural outlet for the

students reflections on their speaking ,listening and reading experiences in their second language. When students are not focused on grammatical error but when they are instead writing freely, writing or trying to write what they think they want to say ,they develop confidence and a sense of power over the language that none of the other skills is likely to produce until the students are very well advanced in their language studies. In other words ,students have to be quite advanced users of English before they can feel a great deal of satisfaction at being able to hold a conversation in English ,understand an overheard conversation in English or a radio broadcast, or even read a newspaper or short story .But writing in a second language is different .Writing gives students time to shape what they want to say, to go over it until it seems to reflect what they think and to exert their influence over the second language ,and this is true even at the most elementary levels of English proficiency. Anyone who writes in any language invents a reader to whom writer is addressing the text; English students ,too, get to invent this reader who will understand their English. Writing is the one language skill where the language student has a least as long as the text is being created ,complete control over that orner, slippery, new linguistic code. This feeling of control can be very invigorating and satisfying. So what are the new emphasis in teaching writing in a second language that allow students to develop this sense of success with the second language? The first and most important new emphases is an the rhetorical context in which these students are writing. There are many different kinds of writing and many different reasons for writing. It is important for us as second-language teachers to figure out exactly what we are training our students for .Why will our students ever write anything in English? Will they be writing to apply for visas or applications for admission to schools in English speaking countries? Will they be writing to English – speaking agencies for information? The basic question is : how will writing in English be useful to our students? We may examine the role of writing in our curriculums and realize that actually English writing is taught for only one reason :as reinforcement for English speaking .This is certainly a reasonable goal for English classes ,but then we must engage in writing activities that support that goal, like doing interviews in English or taking notes for oral reports or writing dialogues and acting them out. Next ,there is a new emphasis on the content of student writing. Teaching writing no longer means simply having students do grammar exercises in writing ;it no longer means having students manipulating alien texts that have no special meaning for them .Instead ,now students are writing about what they are interested in and know about but most especially ,what they really want to communicate to someone else ,what they really want a reader to know. This desire on the part of the writer to communicate something is very important because if it is already difficult for students to write if they are required to write about something they have no interest in when, for example, they don´t enough information on a subject to write about it or they simply have no particular desire or reason to communicate information .For the part writing is easiest to do and is likely to have the highest quality when the writer is committed intellectually to expressing something meaningful though writing.

Audience and purpose.

Part of the rhetorical context and part of the content of student writing is determined by who the audience of the writing is and what the purpose of the writing is.

Assignments that direct students to write for the general public or for anyone who might be interested tend to be much more difficult to write than assignments in which students have an idea why they are writing and who will be quite different . And who is the audience of this writing ? If the students are always and only writing for their teacher, there is the risk that they will simply try guess what the teacher wants and deliver that without commiting themselves intellectually to what they are writing . In other words they will complete assignments without caring about what they written. This lack of commitment to the topic is a problem for language students, because if students don´t care what they are saying ,if they are not committed to what they are saying ,they will not take risk with the language: they will stick to what they know they can say rather than trying to find a way to say what they want to say. They will never expand the horizons of their ability to express themselves in their second language. But another very available and perfectly legitimate audience is their fellow classmates , or even other students in the school. If students know that what they are writing will actually be read by real people other than the teacher ,people who care about the message not the medium ,then writing often becomes much easier, because knowing who the audience is and what the audience already knows helps writers to decide what to say and how to say it. And knowing that the audience is a real one that is reading for real purposes of cooperating in an act of communication is more likely to encourage student writers to make a commitment to what they are writing and thereby to push those outer limits of their language abilities. Audiences should be as real as possible, not imaginary readers but real ones. Young ,inexperienced writers in any language tend to write what is called writer-based prose. This means that they don´t naturally take into account what the reader may need to know in the way of background information in order to understand the writing .We may make references to all kinds of people ,places, and ,events familiar to us but not to anyone else. But as writers mature, they also need to learn to take their audience into consideration more and to produce reader-based prose, or prose that posits or temporarily invents a potencial reader and that takes that reader´s needs into account. In order to do this ,writers must try to place themselves into account. In order to do this, writers must try to place themselves into the mind of the future reader to try to predict the problems the reader may have in understanding a text. It is extremely difficult to do this when the writer has only a vaque idea who the reader is. So writing teachers are now trying to develop assignments in which there is a real audience for the students to accommodate and some real purpose for the writing.Another development in teaching writing in a second language has been the emphasis on writing as a means of inventing ,of exploring ideas , and of gathering information . As a result, students are now taught invention techniques to enable them to explore their own knowledge of a subject before attempting to write about it. When we write , of course, we can note down what is important at particular moment leave that information in order to explore something else, and then come back to what we originally wrote without losing anything. It is sometimes amazing

how just the act of writing itself will help the writer to remember, to analyze and to think through ideas or experiences. Professional writers do this kind of mental information gathering and sorting before they write and while they write , and now students, too, are being specific techniques to enable them to use writing as a tool to help them think.

All of these new emphasis constitute what is called the process approach to teaching writing. Previously what was important when a student wrote was the product that the student created. What does the final paper look like? Is it neat? Is it free from errors? The emphasis in the newer ,process approach is less on the product and more on the wandering path that students use to get to the product. In the process approach , students are taught strategies that should help them to finally reach a decent product , because of course the product is still important and grammatical accurancy is still an important goal , but the writing class is more exploratory , less punitive , less demoralizing; the student writer is less alone. The process approach encourages students to experiment with ideas through writing and then to share their writing with their classmates and to get the opinions of several people to help them figure out what to say and how to say it. The result is that the writing class is suddenly noisy, maybe more noisy than even a conversation class , as students work in groups to write , read each other´s writing ,and comment on it. A second result is a change in the kinds of assignments made in writing classes. The process approach encourages many different types of writing assignments for a variety of purposes. For example, many ESL teachers have experimented with content-based writing courses .In such courses there is a body of material to be learned – for example, the material in a history course or an inductory psychology or sociology course- and the writing the English class consists of assignments that might be made for that psychology class. In other words the students learn psychology through English. Content-based approaches to teaching writing nearly always include quite a bit of reading in the content being studied, and the link between reading and writing assignments has become more obvious . But once again the reading is chosen for a purpose – to learn or to communicate something interesting or important about the subject – not primarily to practice English. Such arrangements for content – based writing courses may require the cooperation of content – area teachers , and as such may be difficult to arrange , but other types of assignments also take the students out of the English classroom into other environments. There is , for instance , a new acceptance of translation from the native language , but again, not simply for the purpose of the exercise of translating but rather for the purpose of communicating something interesting in English that originally appeared in the native language, or the other way around. Interviews with people who do not speak English but when the students are interested in for whatever reason, for example, can be rewritten in English and shared in class. In order to allow students to write on subjects they know about, many writing classrooms now spend time on personal writing, such as journal writing. While this is the easiest type of writing , when writing journals the students are alone and creating writer- based prose . But long term group projects or collaborative writing, on the other hand, give a clearer purpose to writing assignments than might occur with more personal writing. In all of these assignments, there is a

new emphasis on the students and their interests . Students are working with teachers now to actually help the teacher make assignments by letting the teacher know what kinds of writing they are interested in dealing with. Teachers are trying to find out where their students´ interest lie. After all, one of the great advantages of language classes is that the content can be anything of interests as long as the topic is dealt with in the target language. Another result of these changes in the attitude toward teaching writing is that students now produce several drafts or versions of their writing. In more traditional writing classes students often rewrote papers, but usually this rewriting was like punishment for having made grammatical errors. Students who didn't make those errors or who made fewer of them didn't have to rewrite the papers. With the emphasis on the process of writing and on getting feed-back from classmates, multiple drafts are the norm. Everyone writes several drafts , not necessarily so that the result will be error free but so that the result will express what the student wants to say. Drafts are often sloppy ,full of errors; students may find themselves using scissors to cut a section from one page and paste it into another page.

R.Zülfüqarova
R.Məmmədova

Yazının rolu

Xülasə

Verilmiş məqalədə tədris olunan hər hansı bir elm sahəsinin yazı problemlərindən bəhs edilir. Yazı, şifahi nitqin güzgüsüdür desək, yanılmarıq. Yazını lazımlı, yüksək səviyyədə qurmaq, tələb olunan işə müvəffəq olmaq deməkdir. Bunun öz metodikası, qayda və qanunları mövcuddur və biz də bunun fövqəladə olmasının fövqündəyik. Tələbələr bütün məsuliyyətliklə dərk etməlidirlər ki, yazısız heç bir savaddan söhbət gedə bilməz.

Р Зулфугарова
Р.Мамедова

Роль письма

Резюме

В данной статье речь идёт о высоком профессионализме правописания. Мы знаем, что письмо зеркало знаний, и мы не должен отрицает то, что правописания требует особое внимание, методику преподавание как наука. Ученые делятся всеми навыками преподавание письма. Для успешного, благополучного результата освоения любой темы, отрасли обучающий должен иметь грамотную правописании везде и во всем.

Rəyçi: B/m S.N.Şıxıyeva

İRADƏ ABDULLAYEVA
BDU

TÜRK DİLİÇİLİYİNDƏ *Kİ* BAĞLAYICISI İLƏ FORMALAŞAN CÜMLƏLƏRİN YERİ MƏSƏLƏSİ

Açar sözlər: türk dilçiliyi, sintaksis, tabeli mürəkkəb cümlə
Key words: the Turkish linguistics, syntax, compound sentence
Ключевые слова: турецкое языкознание, синтаксис, сложноподчинённое предложение

Türk dilçiliyində mübahisəli şəkildə qalan məsələlərdən biri də *ki* bağlayıcısının köməyi ilə meydana çıxan cümlələrin (ki′li cümleler) türk dilinin sintaktik quruluşunda yerinin müəyyən edilməsidir. Məsələ bundadır ki, tədqiqatçıların böyük qismi *ki* bağlayıcısı ilə yaranan cümlələri mürəkkəb cümlə (ki′li birleşik cümle) hesab etsə də, bu quruluşa malik cümlələri mürəkkəb cümlə hesab etməyən, onların mürəkkəb cümlədən fərqli quruluşa malik olduqlarını (ki′li bağlı cümle) iddia edən araşdırıcılar da var. Başqa sözlə desək, bəzi tədqiqatçılar *ki* bağlayıcısı ilə formalaşan cümlələri mürəkkəb cümlələrdən ayrı araşdırmışlar. Məsələn, H.Ediskun (12), L.Karahan (15) və başqaları bu cümlələri "ki′li bağlı cümle", R.Şimşek isə "ilgi tümcesi" adlandırır (19). Bu isə öz növbəsində bu problemlə bağlı türk dilçiliyində vahid fikir olmadığını aydın şəkildə göstərir.

Türk dilçiliyində bağlayıcılarla formalaşan cümlələr ayrı-ayrı tədqiqatçılar tərəfindən araşdırılmışdır. Həmin tədqiqatların, demək olar ki, hamısında *ki* bağlayıcısı ilə düzələn cümlələrin türk dillərində sonradan meydana çıxdığı, belə cümlə quruluşlarının türk dilinə yad olduğu xüsusi vurğulanır. Məsələn, M.Ergin *ki* bağlayıcısının türk dilinə fars dilindən qədim zamanlardan keçdiyini, türk dilinə yad olan bir mürəkkəb cümlə formalaşdırdığını söyləyir. Onun fikrincə, *ki* bağlayıcısı vasitəsilə əmələ gələn mürəkkəb cümlələrin türk dilində çox işlənməsinin səbəbi təkcə fars dilinin türk dilinə təsiri deyil, eyni zamanda fars dilindən türk dilinə tərcümə edilmiş əsərlərin çoxluğudur (13, 363). M.Ergin *ki* bağlayıcısı ilə formalaşan cümlələr barəsində aşağıdakıları yazır: "Yad mənşəli olan və türkcə üçün normal olmayan bu mürəkkəb cümlə fars dilindən keçmiş ki bağlayıcısı və onun türkcəsi olaraq qədimdən istifadə edilən kim ədatı ilə qurulan mürəkkəb cümlədir. ‹...› *ki* ya iki feili, iki cümləni, ya da bir isimlə bir feili, bir isim ünsürü ilə onun izahı olan bir cümləni bir-birinə bağlayır. Hər iki halda da *ki*-dən sonra gələn cümlə budaq cümlədir. *ki* özündə sonra gələn budaq cümləni özündən əvvəl gələn ünsürə bağlayır. Özündən əvvəl gələn ünsür əsil ünsür olur, *ki*-dən sonrakı budaq cümlə onun izahını təşkil edir. *ki*-dən əvvəl gələn ünsürün isim və ya feil olmasına görə iki növ *ki*′li mürəkkəb cümlə vardır" (13, 405).

S.Tokatlı da *ki* bağlayıcısının köməyi ilə meydana çıxan cümlələrin yad dillərin təsiri altında formalaşdığını iddia edir. Bu münasibətlə o yazır: "Bağlayıcılarla əmələ gələn budaq cümlələr ilk dəfə uyğurlar zamanında soqd və toxar dili kimi İran dillərinin təsiri altında istifadə olunmağa başlamışdır. *Ki* bağlayıcısı ilə qurulan budaq cümlələr isə fars dilindən çoxlu tərcümələr olunan əski osmanlı dövründə daha geniş yayılmışdır" (20, 453). F.Kaya bu tip cümlələrin fars dilinin təsiri altında

formalaşması fikrini qəbul edir (16, 15-26). Uyğun fikrə M.Özkan (18, 243-255) və M.Yeltəndə də rast gəlirik (21, 46-56).

Əski Anadolu mətnlərində mürəkkəb cümlələri tədqiq edən Ş.H.Akalın *ki* bağlayıcısı ilə əmələ gələn mürəkkəb cümlə tipi haqqında yazır: "Türkcənin tarixi inkişafı zamanı ilk örnəklərini uyğur ədəbi dili dövründə *kim* sual əvəzliyi ilə əmələ gələn cümlə kimi gördüyümüz *ki*′li mürəkkəb cümlələrin sonrakı tarixi dövrlərə aid mətnlərdə, əski Anadolu türkcəsi, xüsusən də Türkiyə türkcəsi mətnlərində geniş şəkildə istifadə edildiyini bilirik. Yad dillərin təsiri altında istifadə etməyə başladığımız bu cümlə növü qeyd edilən tarixi ləhcələrdəki səviyyədə olmasa da, bu gün də geniş şəkildə istifadə olunur" (6, 51). Tədqiqatçı uyğun quruluşda olan, lakin *ki* bağlayıcısı olmadan istifadə edilən mürəkkəb cümlələr haqqında yazır: "Bir baş cümlə ilə bir budaq cümlənin *ki* bağlayıcısı olmadan birləşərək əmələ gətirdiyi və *ki*′li mürəkkəb cümlələrdə olduğu kimi bir semantik bağlılıq göstərən cümlələri *ki*′si düşmüş mürəkkəb cümlələr adlandırırıq. Eynilə *ki*′li mürəkkəb cümlələrdə olduğu kimi bu cümlələrdə də baş cümlə əksər hallarda budaq cümlədən əvvəl gəlir, budaq cümlə baş cümləyə onun bir üzvü kimi daxil olur və ya baş cümlədəki hər hansı bir üzvün təyini, tamamlığı olur. *Ki* bağlayıcısı olmasa belə, baş cümlə ilə budaq cümlə bir-birini tamamlayan əlaqə içərisindədir. Bu cümlələri bir-birindən ayrı düşünmək semantikanı poza bilər. Baş cümlə ilə budaq cümlə arasında bir bağlayıcı varmış kimi düşünməli, bu cümlələr ona görə dəyərləndirilməlidir" (6, 51-52). Ş.H.Akalın aşağıdakı cümlələri *ki*′si düşmüş cümlələrə nümunə göstərir: *Girüp hücreye gördi kız anda yox, Sanasın yüregine doxındı ox; Yâ İdrîs eger dilersen ölen oğlun gine diri ola, Allah'a çok tesbîh dua eyle; Meseldir taş olur yirinde ağır* (6, 51-56).

Türk dilinin şivələrini tədqiq edən B.Brendemoen yazır ki, *ki* bağlayıcısı ilə əmələ gələn mürəkkəb cümlələr Şərqi Qara dəniz və Şimal-Şərqi Anadolu şivələrində daha geniş yayılmışdır. Müq. et: *öDeGi da söyledi Gi hane Bize de DüDüG GeDireceGDi[n]* (7, 167). Müəllif bu cümlə strukturunun Trabzon şivəsində *ki* bağlayıcısı olmadan da istifadə olunduğunu qeyd edir. Müq. et: *o da dedi Barayı veren Düdüü calar; oturuydum bi DeliGa:nli gä:ldidedi bana yaun var midu* (7, 167-168). B.Brendemoen *ki* bağlayıcısı ilə əmələ gələn budaq cümlələrin, eləcə də ki′si düşmüş mürəkkəb cümlələrin türk dili şivələrində istifadə olunmasını fars dilinin təsiri hesab edir (23, 226-238). O yazır: "Ərzurum və digər Şərqi Anadolu şivələrində də bu ifadə tərzi (yəni *ki* bağlayıcısının düşməsi) müşahidə olunur; məsələn, Ərzurumlu Əmrahın "Dedim ′İnci nedir?′ dedi ′Dişimdir.′ Dedim ′Kalem nedir?′ dedi ′Kaşımdır′" şəklindəki şeirlərinə baxsaq, bu ifadə tərzinin Şimal-Şərqi Anadolu və Şərqi Qara dəniz bölgəsindən kənarda da, az da olsa, rast gəlinməklə bərabər bu şivələrin əsas xüsusiyyəti qərarına gəlirik. Fars dilində də bənzər ifadənin olması diqqəti çəkir. Yəni fars dilində *goftan* feili vasitəli nitqdən əvvəl heç bir bağlayıcı olmadan istifadə oluna bilir. ‹...› sadəcə Trabzon şivələrində deyil, Şimal-Şərqi Anadolu ağızlarının əksərində fars dili ilə ortaq olan və dolayısı ilə, yəqin ki, fars dilinin təsiri altında bu şivələrə daxil olmuş sintaktik ifadələr çoxdur. Bu bənzərliklərin bir çoxunu müəyyən bir təsir altına düşmə təsbit etmədən "areal hadisələr" kimi dəyərləndirmək mümkündür" (7, 168).

Türk dillərinin sintaksisində yad dillərin təsiri altında meydana çıxan təzahürləri araşdıran F.Özkan və B.Musa yazırlar ki, cümlədə köməkçi ünsürün əsas ünsürdən əvvəl deyil, Hind-Avropa dillərinin quruluşuna uyğun şəkildə, sonra istifadə

olunması daha çox başda Türkiyə türkcəsi olmaqla oğuz qrupu türk dillərində, daha az isə digər dillərdə ki′li mürəkkəb cümlə şəklində qarşımıza çıxır. Keçmişi çox əskilərə - uyğur mərhələsinə qədər uzanan bu şəkilçinin dilimizə fars dilindən keçməsi məsələsinə etiraz edənlər olsa da, türk dili qrammatikası müəlliflərinin, demək olar ki, hamısı həmfikirdir (17, 105).

Müasir türk ədəbi dilində köməkçi nitq hissələrinin inkişafı tarixini tədqiq edən N.Hacıeminoğlunun fikirləri digər türk dilçilərinin mülahizələrindən kifayət qədər fərqlənir. Tədqiqatçıya görə, türk dillərində bağlayıcılar Qaraxanlılar dövründən özünü göstərməyə başlayır. Bağlayıcıların qədim türk dilində olmaması, sonralar xeyli sayda bağlayıcının başqa dillərdən alınması, yaxud dilin öz imkanları daxilində təşəkkül etməsi hadisəsinin dilçilər tərəfindən yad dillərin, xüsusən də ərəb və fars dillərinin təsiri ilə izahı qənaətbəxş deyildir. N.Hacıeminoğlunun fikrincə, qərbi türk dillərində bağlayıcıların bir qismi alınma olsa da, digər qismi türk dillərinin öz materialı əsasında əmələ gəlir ki, bəzi isimlər, feil şəkilləri, hətta söz birləşmələri daşlaşaraq "ədatlaşır". Buna görə də türk dillərində bağlayıcıların əmələ gəlməsini sadəcə yad dillərin təsiri ilə izah etmək doğru deyildir. Burada türk dillərinin inkişaf etmiş və uzun müddət istifadə olunmuş dil olmasının rolu da mütləq nəzərə alınmalıdır (14, 112).

Qeyd edək ki, türk dilçiliyində təkcə *ki* bağlayıcısı deyil, eləcə də digər bağlayıcılarla meydana çıxan cümlə tipləri də yad mənşəli hesab olunur. Tarixi Türkiyə türkcəsi mətnlərinin sintaktik quruluşunu araşdıran E.Doğan yazır: "*Çün, çü, çünki, egerçi, gerçi, vâkıa, her çend, çendân, vâkta ki, tâ ki, mâdem ki, kaçan, kaçan ki* və digər çoxu cümlənin əvvəlində gələn fars mənşəli bağlayıcılar əvvəlində gəldikləri cümlələri zaman, səbəb, vasitə, tərz, qarşılıq və digər funksiyalarla başqa bir cümləyə bağlayırlar: *Çün 'Arafat'a yakın oldular; yohsul ol baya baktı* "Ərafata yaxınlaşanda yoxsul o varlıya baxdı". Əvvəlində bu bağlayıcılardan biri olub, xəbəri təsriflənən bir feil, yaxud isimlə ifadə olunan və beləliklə yuxarıda sadalanan funksiyalardan birini yerinə yetirən ilk cümlə budaq cümlə, bu cümlədən sonra gələn cümlə isə baş cümlədir. Bu şəkildəki cümlə quruluşları farscadan tərcümə edilən əsərlər vasitəsi ilə türk dili sintaksisinə girmişdir" (9, 965). Tədqiqatçının digər əsərlərində də uyğun fikrə rast gəlirik (10, 29-40; 11, 153-165). Ş.H.Akalın (5, 156-163) və İ.Cemiloğlu da (8, 409-413) türk dilində cümlənin əvvəlində işlənmiş ədatlarla qurulan mürəkkəb cümlələrə eyni münasibəti göstərirlər.

Buradan aydın olur ki, türk dilçiliyində *ki* bağlayıcısı ilə meydana çıxan mürəkkəb cümlə tipi İran dillərinin, o cümlədən də fars dilinin təsiri nəticəsi hesab olunur. Bu mülahizə təkcə türk dilçiliyində deyil, eyni zamanda türkoloji dilçilikdə də özünü göstərir. Məsələn, A.N.Kononov türk dilindəki *ki* bağlayıcısının fars dilindən alınma olması fikrini irəli sürür və yazır: "İran dillərindən olan ki bağlayıcısı ilə iki cümlənin birləşib, tabeli mürəkkəb cümlə əmələ gətirməsi aşağıdakı sxem üzrə olur: baş cümlə + ki + budaq cümlə. Türk dillərində mürəkkəb bütövün əsas və asılı hissələrinin bir-birinin dalınca bu qaydada işlənməsi hind-avropa dillərinin xüsusiyyəti olaraq, İran sintaksisinin təsiri kimi izah edilir" (22, 544). Qeyd olunmalıdır ki, əksər türkoloqlar (V.A.Qordlevski, N.K.Dmitriyev və başqaları) bu mülahizəni müdafiə edir.

Türkoloji dilçilikdə kök salmış bu yalnış fikrə qarşı çıxan H.Mirzəzadə yazır: "*Ki* müasir Azərbaycan dilində, eləcə də şifahi nitqdə tez-tez özünü göstərir.

Buna görə də həmin bağlayıcının milli və orijinallığına şübhə etmək olmaz. *Ki* bağlayıcısı bütün türk dillərində eyni dərəcədə istifadə edilməmişdir. Məsələn, Azərbaycan dili üçün səciyyəvi olan bu bağlayıcı türk dilində bir o qədər də geniş yayılmamışdır. qazax və qırğız dillərində isə yox dərəcəsindədir. Şərq dillərindən fars dilində bu bağlayıcı که şəklində yazılıb *ke* kimi tələffüz edilir. Fars dili ilə bəzi türk dilləri arasında olan bu yaxınlıq belə bir yanlış nəticəyə gətirib çıxarmışdır ki, türk dillərindəki *ki* bağlayıcısı fars-iran dilindən keçmədir. Azərbaycan dilində *ki*-nin tutduğu vəziyyəti və tarixən mütərəqqi bir bir xətt üzrə inkişaf etdiyini, nəhayət, yazı dilində olduğu kimi, şifahi dildə də geniş yayıldığını nəzərə alaraq, onun gəlmə olduğunu söyləməyə heç bir əsas vermir, çünki *ki* bağlayıcısının türk dillərində daha qədim və tam şəklinin olması da bu fikri təsdiq edir. Halbuki fars dilində və o dilin qədim yazılarında *ki* bağlayıcısının Azərbaycan variantına - *kim* şəklinə rast gəlmirik" (3, 231). Ə.Tanrıverdi ki//kim bağlayıcısı ilə əlaqədar yazır: "Müasir ədəbi dilimizdə "ki" şəklində sabitləşmişdir, qərb şivələrində isə ilkin formasına yaxın, daha dəqiqi, "kin" şəklində mühafizə olunur. XVIII əsrə qədərki dilimizdə ki//kim paralelliyinə təsadüf edilsə də, "kim" formasının aktivliyi qabarıq şəkildə görünür" (4, 347).

Azərbaycan dilində tabeli mürəkkəb cümlələri tədqiq edən Ə.Z.Abdullayev ki bağlayıcısı və bu bağlayıcının mənşəyi ilə bağlı irəli sürülən fikirlərə münasibət bildirərək belə bir nəticəyə gəlir: "1. Fars dilinin tarixində indiki *ke* bağlayıcısının *kim* forması olmamışdır (nə sual əvəzliyi kimi, nə də bağlayıcı kimi). Buna görə də bəzi türk dillərində olan *kim* bağlayıcısı fars dilindən alınmamışdır. Deməli, *kim* bağlayıcılı cümlələr də başqa dillərin təsiri ilə yaranmamışdır.

2. Bizim *ki* bağlayıcımızın başqa dillərdə (fars, fransız, rus və s.) qarşılığı olan bağlayıcılar sual əvəzliyindən inkişaf etmişdir. Bəzi türk dillərində (Azərbaycan, özbək, tatar, türk) *kim* sözünün həm sual əvəzliyi, həm nisbi əvəzlik, həm də bağlayıcı kimi işlənməsi eyni inkişaf qanununun nəticəsidir" (1, 366).

Ə.Z.Abdullayev başqa bir əsərində də bu problemə qayıdır: "*Ki* forması *kim*-ə nisbətən sonrakı hadisədir. Türkoloqların əksəriyyəti *kim* şəklinin üstündən sükutla keçir, olsa-olsa, onun qədim forma olduğunu qeyd etməklə kifayətlənirlər. Onlar *ki* formasının fars dilindəki *ke* formasına bənzədiyini (bəziləri isə fransız dilindəki *qui* formasına bənzədiyini) nəzərə alaraq, həmin formanın türk dillərinə fars dilindən (yaxud Qərb dillərindən) gəldiyi iddəasını irəli sürür və *ki* bağlayıcısı ilə bağlanan cümlələri də xalis türk cümlələri hesab etmirlər" (2, 249). Ə.Z.Abdullayevin apardığı bir hesablama da bu baxımdan maraq doğurur: "İndi dilimizdə işlənən tabeli mürəkkəb cümlə tiplərinin neçəsi bizim dilin öz vasitələri ilə, neçəsi kənardan gəlmə vasitələrlə - ərəb və fars dillərinin bağlayan vasitələri ilə qurulur?" sualını cavablandıran görkəmli alimin fikrincə, Azərbaycan dilində bu vaxta qədər qeydə alınan 204 variant iki komponentli tabeli mürəkkəb cümlədən 190 variantı öz dilimizin vasitələri ilə qurulur, yalnız 14 variant budaq cümlənin qurulmasında gəlmə vasitələr iştirak edir (2, 255).

Türk dilçiliyində *ki* bağlayıcısı ilə meydana çıxan cümlələrlə bağlı ayrı-ayrı fikirlər barəsində bura qədər söylədiklərimiz aydın şəkildə göstərir ki, bu cümlə strukturunun mənşəyi, eləcə də müasir türk ədəbi dilinin qrammatik quruluşundakı yeri mübahisəli şəkildə qalmaqdadır. *Ki* bağlayıcısı ilə meydana çıxan cümlələrin türk dilinin sintaktik quruluşunda yerinin dəqiq müəyyənləşdirilməsi və bu prob-

lemlə bağlı mübahisələrə son qoyulması türk dilində mürəkkəb cümlənin, xüsusən də tabeli mürəkkəb cümlənin tədqiqinə ciddi təkan verə bilər.

Ədəbiyyat

1. Abdullayev Ə.Z. Müasir Azərbaycan dilində tabeli mürəkkəb cümlələr, Bakı, Maarif, 1974.
2. Abdullayev Ə.Z. Azərbaycan dili məsələləri, Bakı: Bakı Universiteti nəşriyyatı, 1992.
3. Mirzəzadə H. Azərbaycan dilinin tarixi qrammatikası, Bakı: Azərbaycan Universiteti nəşriyyatı, 1990.
4. Tanrıverdi Ə. Azərbaycan dilinin tarixi qrammatikası, Bakı: "Elm və təhsil", 2010.
5. Akalın Ş.H. Eski Anadolu Türkçesinde Cümle Başı Edatlarıyla Kurulmuş Cümleler // Türk Dili, sayı 518, Şubat 1995.
6. Akalın Ş.H. Eski Anadolu Türkçesinde Ki′si Düşmüş Birleşik Cümleler Üzerine // Zeynep Korkmaz Armağanı, Ankara: Türk Dil Kurumu yayınları, 2004.
7. Brendemoen B. Anadolu Ağızlarındakı Sözdizimi Üzerine Bir Not // Turkish Studies, İnternational Periodikal For the Language, Literature and History of Turkish and Turkic , Volume 3/3, Spring, 2008.
8. Cemiloğlu İ. Eski Anadolu Türkçesi Söz Diziminde Çün′lü Cümleler // Türk Dili, sayı 510, Haziran 1994.
9. Doğan E. Tarihî Türkiye Türkçesi Metnlerindeki "Karmaşık Cümle" Örnekleri Üzerine // Turkish Studies, İnternational Periodikal For the Language, Literature and History of Turkish and Turkic , Volume 6/1, Winter 2011.
10. Doğan E. Ahlâk-i Âlâî′deki Çün′lü Birleşik Cümle Yapıları // Türk Dili Araştırmaları Yıllığı Belleten, 2006/2, Ankara: 2009.
11. Doğan E. Osmanlı Türkçesinde Kullanılan Farsca Yapılı Karşıtlama Cümleleri // Uluslararası Türk Dili ve Edebiyatı Konqresi. 27-28 Ağustos 2007, UTEK 2007, Bildiriler, Türkçenin Söz Dizimi ve Türk Edebiyatında Üslup, c. 1. Türkçenin Söz Dizimi, İstanbul: İstanbul Kültür Üniversitesi, 2009.
12. Ediskun H. Türk Dilbilgisi, Remzi Kitabevi yayınları, İstanbul, 1999.
13. Ergin M. Türk Dil Bilgisi. İstanbul: Boğaziçi yayınları, 1987.
14. Hacıeminoğlu N. Türk Dilinde Edatlar. İstanbul:MEB yayınları, 1992.
15. Karahan L. Türkçede Söz Dizimi, Ankara, Akçağ yayınları, 2004.
16. Kaya F. 18. Yüzyıla Ait Bir Siyer-i Nebî′deki Ki′li Cümleler // The Journal of Academic Social Science Studies, Volume 2, Issue 2, Winter, 2009.
17. Özkan F., Musa B. Yabançı Dillerin Türkçenin Söz Dizimi Üzerindeki Etkisi // Bilig, Ahmet Yesevi Üniversitesi, Yaz 2004, sayı 30.
18. Özkan M. Eski Türkiye Türkçesinde ki/kim Bağlaclarının Kullanışı Üzerine // İstanbul Üniversitesi Edebiyat Fakültesi Türk Dili ve Edebiyatı Dergisi, c. XXXI, İstanbul: 2004.
19. Şimşek R. Türkçe Sözdizimi, Kuzey Gazetecilik Matbaacılık, Trabzon, 1987.
20. Tokatlı S. Anadolu Ağızlarında Ki Bağlama Edatı İle Kurulan Yardımçı Cümleler // Sosyal Bilimler Enstitüsü Dergisi, sayı 21, 2006.

21. Yelten M. Parsnâme′deki Ki′li Cümleler Üzerine // Modern Türklük Araştırmaları Dergisi, C. II, sayı 4, Ankara: 2005.
22. Кононов А.Н. Грамматика современного турецкого литературного языка, М.-Л.: Издательство АН СССР, 1956.
23. Brendemoen B. Ottomon or Iranian? An example of Turkic-Iranian language contact in East Anatolian dialects. // Turkic-Iranian Contact Areas. Historikal and Linguistic Aspects, Wiesbaden: Harrassowitz, 2006.

Абдуллаева Ирада
БГУ

Проблема места предложений, образованных союзом *ki* в турецком языкознании

Резюме

В статье рассматриваются мнения относительно образования сложных предложений при помощи союза *ki* в турецком языкознании. Основной нашей задачей является научное исследование роли союза *ki* в сложных предложениях, образованных при помощи союза *ki,* с целью выявления сходных и отличительных особенностей сложносочинённых и сложноподчинённых предложений в современном турецком литературном языке.

Abdullayeva Irada
BSU

The problem of the place of sentences formed through *ki* conjunction in Turkish linguistics

Summary

There are reviewed the different opinions about forming of composite sentences through *ki* conjunction in the Turkish linguistics in this article. Our main goal is the scientific research of the place of *ki* conjunction in the composite sentences formed by *ki* in order to identify the similarities and distinctive features of compound and complex sentences in modern Turkish literary language.

Rəyçi Rüfət Rüstəmov
filologiya elmləri doktoru, professor

С. ВЕРДИЕВА
АГНА

ОБУЧЕНИЕ ЛЕКСИКЕ В НЕЯЗЫКОВЫХ ВУЗАХ

Ключевые слова: лексика,вуз, слова, материал, обучение
Key words:lexics,higher educational school,words,material,teaching
Açar sözlər: lüğət, ali təhsil müəssəsi,sözlər,material, tətbiq

Одной из главных задач при обучении иностранному языку, помимо грамматики и фонетики, является обучение лексике. Основной целью обучения иностранному языку является формирование лингвистической компетенции, т.е обучение лексики на уроках английского языка. Лингвистическая компетенция предполагает овладение определенной суммой формальных знаний и соответствующих им навыков, связанных с различными аспектами языка: лексикой, фонетикой, грамматикой.

Лексические знания обеспечивают успешное овладение основами всех видов речевой деятельности. Под лексическими знаниями понимается не только совокупность языковых сведений об иноязычном слове, но и знание определенных стратегий обращения с иноязычным словом.

Обучение лексике на любом уровне это весьма сложный процесс. Особенно это вызывает большую трудность в неязыковых вузах. Лексический минимум в вузах чаще всего определяется теми текстами, которые студенты прорабатывают в аудитории и вне ее. Попытки определить лексический объем в неязыковых вузах делались неоднократно, особенно в отношении пассивной лексики. Например, авторы «Основ общей методики обучения иностранным языкам» определяют его для неязыкового вуза в 2500 – 3000 слов, а И. М. Берман гораздо больше – 8000 – 10000 слов (И. М. Берман предлагает начинать отбор с определения школьного ядра, которое в первую очередь необходимо для дальнейшего обучения в вузе). Из 1400 единиц, предлагаемых школьной программой, он включает в ядро только 700 – 800 слов и словосочетаний.

Тематически вузовская лексика разделяется на несколько пластов:

1) бытовая лексика;
2) общественно-политическая;
3) общенаучная;
4) специальная.

В большинстве вузов на I курсе в 1 семестре изучается бытовая и общественно-политическая лексика, во 2 семестре – общенаучная и специальная, на II курсе – специальная (техническая) и общественно-политическая (в зависимости от направления вуза). Но исходя из программы вуза,в частности нефтяной академии,где обучение иностранному языку продолжается всего лишь один год,то второй пласт отбрасывается,а в некоторых случаях и первый, и основной акцент падает на общенаучную и специальную лексику. Активная лексика входит во все пласты, но особой активизации подлежит лексика бытовая и общенаучная. Пассивная лексика включает все пла-

сты, прежде всего специальную лексику. Характер активного и пассивного лексического материала зависит от формы его организации и целевого назначения. В учебнике для неязыкового вуза можно выделить следующие формы лексической организации учебного материала:

1) лексическое упражнение до текста;

2) текст (диалог, монолог для устного высказывания, монологические тексты в виде отрывков из газет, общенаучной и специальной литературы для чтения или аудирования);

3) лексические упражнения после текста.

Методы обучения лексике в различных методических школах усваивается по-разному.

Грамматико-переводный метод. Слова заучиваются до текста, а потом приступается к чтению текста.

Текстуально-переводный метод. Слова заучиваются в тексте. Усваивается только контекстуальное значение слова.

Прямые методы. Слова усваиваются по тематическому признаку, без перевода, с помощью наглядных пособий, языковой догадки, синонимов и антонимов.

Сознательно-сопоставительный метод. Слова усваиваются как в контексте, так и без него. Перевод используется как средство раскрытия значения слова. Но приемлемы и другие пути – языковая догадка, словообразование и т.д.

При этих методах применяются следующие виды контроля:

1) перевод на родной язык (список слов до перевода);

2) контекст;

3) беспереводное раскрытие значения слова.

Обычно в неязыковом вузе лексика усваивается в процессе чтения учебных текстов. Вопрос о том, как целесообразнее организовать усвоение лексики очень сложный вопросю,т.к невозможно придумать методику работы над каждым словом. Но анализ словаря показывает, что многие слова имеют сходные особенности и трудности для усвоения, и для них необходима единая система.

Многие методисты работают над созданием методической типологии слова и уже сделали немало. Научно обоснованная методическая типология слова помогает педагогу выявить наиболее эффективные способы введения, закрепления и повторения определенного типа слова.

Одним из средств активизации лексики является выработка лексического навыка, который представляет собой быстрое учебное действие по выбору лексической единицы, ее правильное сочетание с другими единицами речи и ее ситуативность.

Какие же средства необходимы для формирования лексического навыка? Мнение методистов единодушное – многочисленные упражнения. Лексических упражнений много, но нужно выбрать те, которые помогают лучше установить связь между лексикой и ситуацией. Интересны в этом отношении вырабатывающие навыки употребления слов вречевой ситуации коммуникативные упражнения, разработанные и введенные Е. И. Пассовым.

Он выделяет в их организации несколько определенных этапов:

1) восприятие слова в речи;

2) осознание значения слова;

3) имитация;

4) обозначение – способность назвать предмет в речевых ситуациях;

5) комбинирование слов

6) употребление на основе самостоятельного выбора.

При усвоении лексического материала работа ведется одновременно над формой, значением и употреблением слова. В неязыковом вузе лексический материал усваивается в двух планах, т. е. рецептивно и репродуктивно. Для этой цели предусмотрены лексические упражнения после текста и лексические упражнения до текста.

Лексические упражнения до текста в основном закрепляют форму слова (фонетическую и грамматическую), вводят значение слова, словосочетания. Значение слова дается с учетом последующего контекста, отрабатываются типы упражнений, которые будут употреблены в тексте (типы придаточных, инфинитивные обороты, обороты долженствования и т. д.). Отрабатывается произношение новых слов, особенно трудных. На упражнениях выделяется тематическая лексика.

Лексические упражнения после текста направлены на тренировку употребления слов и на расширение лексического запаса. Ведется разнообразная работа с лексическим материалом текста уже в связи с его содержанием, используются вопросы и ответы, употребление слова в новом контексте, синонимы, антонимы, устойчивые словосочетания и т. д.

Основная же работа над лексикой ведется на основе учебного текста. Расширение словарного запаса происходит непрерывно при обильном чтении и выполнении упражнений, которые обеспечивают повторение новой лексики. Все лексические упражнения делятся на две категории, направленные на:

1) запоминание слова, его семантики в единстве с произносительной и грамматической формой;

2) формирование сочетаний слов смыслового характера.

При усвоении новой лексики важно видеть и слышать слово, т. е. при чтении слово читается вслух и проговаривается про себя при аудировании.

В расширении и закреплении словарного запаса большое значение имеет перефразировка, т. е. умение студента выражать свою мысль не одной, а рядом форм.

Например, составить из монологического высказывания диалог и, наоборот, пересказать текст, сложный по форме, своими словами.

Что же важно для студента при работе над словом?

I. Для рецептивного владения языком важно:

1) найти новое слово, определить исходную форму, найти значение, выбрать из словарной колонки нужное значение;

2) определить значение слова по словообразовательным признакам, не заглядывая в словарь;

3) заучивать лексически некоторые грамматические формы, особенно исключения из правил, узнавать их в тексте;

4) заучивать наиболее употребительные глаголы и уметь опознавать их;

5) знать все служебные слова, особенно предлоги, местоимения и союзы;

6) ориентироваться в порядке слов в предложении.

II. Для репродуктивного владения важно:

1) уметь употреблять конкретное значение слова в речевой ситуации, которая выступает здесь в роли контекста;

2) знать определенный набор слов и словосочетаний по темам;

3) знать и уметь пользоваться грамматическими структурами, наиболее употребительными в речи, лексика к ним заучивается на предложениях-образцах;

4) уметь поставить вопрос и ответить на него, пользуясь определенным тематическим подбором лексики, вопросы могут быть к фильму, тексту и т. д.

5) уметь дать монологическое высказывание по прочитанному тексту или по проработанной теме, употребляя уже усвоенную лексику;

6) уметь быстро делать обратный перевод всех учебных текстов.

Введение иноязычной лексики с помощью технических средств обучения является наиболее рациональным и эффективным. Использование серий ситуативных лексических диафильмов по специальности способствует созданию у обучаемых профессиональной мотивации и усилению внимания. Интенсивность же внимания оказывает существенное влияние на процесс запоминания.

Психологи считают, что самой благоприятной для изучения иностранного языка и в то же время самой распространенной является смешанная память, сочетающая способность усваивать образы путем слухового, зрительного и моторного восприятия.

Чрезвычайно важным в учебном аспекте следует считать приобретение навыков самостоятельной работы с лексикой.

Развивающим аспектом является осознание средств выражения мыслей, того, как люди произносят, какие слова употребляют для номинации предметов, сравнение и сопоставление явлений родного и иностранного языков, развитие чувства языка, языковой догадки, памяти во всех ее видах, логики (анализа, синтеза, сравнения, умозаключения), развитие сенсорного восприятия, мотивационной сферы, умения общаться, таких черт характера, как трудолюбие, воля, целеустремленность, активность, умение учиться.

Обобщая все вышеизложенное,при обучении лексики следует помнить, что успех во многом зависит от соотнесенности качеств упражнения с содержанием намеченной цели и условиями ее достижения.

Библиографический список

1.Michael J.Wallace Teaching Vocabulary. London,1982

2. Кузнецова Р. А. Изучение иностранных языков в неязыковом вузе. Казань: Издательство Казанского университета, 1989. – С. 112

3. Вопросы использования учебного кино и телевидения в преподавании иностранных языков. Обучение лексике. – Свердловск, 1980. – С. 126

4. Джалалов Д. Д. Проблемы содержания обучения иностранному языку. / Д. Д. Джалалов. – Ташкент, 1987. – С. 110

S.U Verdiyeva

Ali texniki təhsil müəssələrində xarici dil fənnı üzrə lüğətin tətbiqi

Xülasə

Bu məqalədə ali texniki təhsil müəssələrində xarici dil fənnı üzrə lüğətin tətbiqi məsələlərindən bəhs edilir.Göstərilir ki, lüğətin tətbiqinin müxtəlif üsullari və mərhələləri mövcuddur.Və bu üsulların secimi əksər hallarda mətnin leksikasından və mətnin cətinniyinnən asılıdır.Lüğət ehtiyatını zənqinləşdirmək ücün, məqsədə uyqun olaraq,müəllim müəyyən tapşırıqlar secir.

S.U Verdiyeva

Teaching vocabulary in non-linquistic higher educational schools.

Summary

This article deals with teaching foreign vocabulary in non-linquistic higher educational schools.It considers the stages and methods of introduction of lexics. Teaching vocabulary is a complex process.Teachers can choose different methods depending on the difficulty of the texts.It requires some skills and abilities. According to the objective, teachers choose proper exercises developing vocabulary.

Rəyçi: b/m L.Muradlı

DÜRSƏDƏF CƏFƏROVA
Azərbaycan Dillər Universiteti
lamka13@rambler.ru

FRANSIZ DİLİNDƏ BUDAQ CÜMLƏLƏRDƏ İŞLƏNƏN "SUBJONCTIF"IN AZƏRBAYCAN DİLİNDƏ QARŞILIĞI

Açar sözlər: arzu şəkli, budaq cümlələr, bağlayıcılar, bağlayıcılı ifadələr.
Key words: Subjunctive, subordinate clauses, conjunctions, conjunctive expressions.
Ключевые слова: сослагательное наклонение, придаточные предложения, союзы, союзные выражения.

İstər fransız dilində, istərsə də Azərbaycan dilində ən mürəkkəb, mübahisəli məsələlərdən biri felin "subjonctif – arzu" şəklidir.

Hər iki dildə "subjonctif" fel şəkilləri içərisində öz qrammatik məna və xüsusiyyətləri, işləndiyi məqamları ilə həmişə dilçilərin nəzər-diqqətini cəlb etmişdir.

Assimilyasiya prosesi o dərəcədə dərin olur ki, həmin sözlərin xarici dil mənşəli olması ingilis dilində danışanlar tərəfindən hiss olunmur, yalnız etimoloji təhlil vasitəsilə müəyyən olunur. Bu, skandinaviya və latın dilindən erkən alınma sözlər üçün xüsusilə uyğundur, məsələn, get "almaq", skill "bacarıq", sky "səma", skirt "ətək", skin "dəri", they "onlar", street "küçə" və s. Tam assimilyasiya olunmuş və mənimsənilmiş alınma sözlərdən fərqli olaraq, qismən assimilyasiya olunmuş xarici dil vahidləri özlərinin fonetik (məs. (garage) chaise - longue chic), qrammatik (məs. tək datum, nucleus, antenna – cəm datd, nuclei, antennae) və semantik (məs. taiga, tundra, rouble və s. rus dilindən alınma, ingilislər üçün başqa məna verən sözlər) xüsusiyyətlər kimi xarici mənşəli izlərini saxlayır. Bunların ingilis dilinin izahlı lüğətlərində adekvat təsvirini vermək üçün leksikoqraflar ensiklopedik məlumatdan çox istifadə edir, verilən obyekt və hadisənin yayilma yerləri, mövcud olduğu formalar, istifadə etmə üsulları və s. barədə məlumat verirlər.

Etimoloji nöqteyi-nəzərdən, leksikanın alınması xalqların iqtisadi, siyasi, elmi və mədəni əlaqələr zəminində yaxınlaşmasının nəticəsidir. Çox vaxt alınma sözlər dilə yeni əşyaların adlandırılması və əvvəllər məlum olmayan məfhumların ifadə edilməsi vasitəsi kimi gəlir. Alınma sözlər artıq məlum olan əşya və hadisələrin ikinci dəfə adlandırmaq üçün də istifadə oluna bilər. Bu o zaman baş verir ki, alınma söz predmetin hər hansı başqa xüsusiyyətini bildirmək üçün istifadə olunur, o, ümumi qəbul olunmuş beynəlxalq termindir və ya (hərbi işğal zamanı) xarici sözlər dilə məcburi şəkildə tətbiq olunur.

Çoxmənalı sözlər adətən öz mənalarından birində götürülür və alınma zamanı sözün məna həcmi daralır.

İngilis dilinin lüğət tərkibinin inkişafında latın dilindən alınma sözlər böyük rol oynayır və latın leksikasının daxil olması əsasən ingilis xalqının tarixində üç hadisə ilə əlaqədar olmuşdur: Roma hakimiyyəti (I-V əsrlər), İngiltərədə xristianlığın yayılması (VI-VII əsrlər) və İntibah dövründə mədəniyyətin inkişafı (XV-XVI əsrlər).

Hələ german tayfaları, anqllar, sakslar və yutlar Britaniya adalarında məskunlaşmamışdan bu tayfalarla romalılar arasında dillərində də öz izlərini buraxan ticarət əlaqələri var idi. Latın dilindən birinci mərhələdə alınma sözlər roma və german tayfalarının mədəni-iqtisadi və hərbi münasibətlərinin xarakterini əks etdirir. Yeni sözlər adətən bu mərhələdə Roma xalqının daha yüksək mədəniyyətə qoşulması ilə əlaqədar əmələ gələn yeni məfhumları ifadə edir. Bu alınma sözlərə aşağı-

dakılar aiddir: port (lat.portus), cycene kitchen(lat. coquina), piper pepper (lat. Piper) və s.

Bu sözlərin anql-sakslar tərəfindən Britaniya adalarına köçməmişdən öncə qəbul edilməsi ehtimalımüqayisəli tarixi təhlilin göstəricilərinə əsaslanır. Müxtəlif german dilləri və dialektlərinin leksik tərkibini müqayisə edərkən, müqayisəli – tarixi dilçilik bu dillərdə çoxlu latın mənşəli sözlərin ümumiliyini müəyyən etmişlər. Təbii ki, bu sözlərin anql-sakslar tərəfindən gətirildiyi də zənn olunmuşdu. Bu sözlərin çoxunun anql-saksların adalarda üzləşdiyi keltlərin dilində də mövcud olması, abidələrin yoxluğu üzündən, bu sözlərin qədim ingilis dilinə bilavasitə latın dilindən keçdiyi və ya artıq Britaniya ərazisində kelt dilindən alındığını dəqiq təyin etmək olmur.

Latın dilindən alınma sözlərin əsas hissəsi 597-ci ildə xristianlığın yayılması ilə əlaqədar olmuşdur. Bu sözlərin əksəriyyəti kilsə-dini məfhumları ifadə edir. Xristianlığın gəlişi ilə mədəniyyətin ümumi yüksəlişi dildə də müvafiq şəkildə formalaşmalı olan yeni məfhumların yaranmasına səbəb olmuşdur. Mədəniyyət və məişət sferasında latın dilindən yeni sözlər daxil olmuşdur. Qədim ingilis dilinə daxil olan, müasir ingilis dilində də qorunub saxlanmış latın sözlərindən nümunələr göstərək:

Ev əşyaları, alətlər: ancor (anchor) lat.ancora; box (box) lat.buxus; cealc (chalk) lat.calcem; paper (paper) lat.paryrus; pyle (pillow) lat. pulvinus; post (post) lat. postis; purs (purse) lat.bursa; sicol (sikle) lat. secula;

Geyim əşyaları: cappe (cap) lat.cappa; socc (sock) lat. soccus.

Çəki və uzunluq vahidləri: circul (circle) Latınca circulus sözündən, pund (pound) Latınca pondo sözündən, ynce (inch) Latınca incia sözündən.

Heyvan, quş və balıq adları: assa (ass) Latınca asinus sözündən, camel (camel) Latınca camelus sözündən, turtle (turtle) Latınca turtur sözündən, truht (trout) Latınca tructa sözündən.

Bitki adları: palm (palm) Latınca palma sözündən, pere (pear) Latınca pirum sözündən, rose (rose) Latınca rosa sözündən, lilie (lily) Latınca lilium sözündən, plante (plant) Latınca planta sözündən

Dini anlayışlarla əlaqəli sözlər:

engel (angel) Latınca angelus sözündən, biscop (bishop) Latınca episcopus sözündən, cyrice (church) Latınca cyriaca sözündən, munuc (monk) Latınca monachus sözündən, nunne (nun) Latınca nonna sözündən, papa (pope) Latınca papa sözündən.

İngilis dilşünası Bonun gəldiyi nəticəyə görə, qədim ingilis dili mərhələsinin sonlarında törəmə sözlər və xüsusi isimləri nəzərə almasaq, təxminən 450 latın dilindən alınma sözün olduğu müəyyən olunmuşdur.

XI-XIII əsrlərdə, normanların dövründə ingilis dilində xeyli sayda latın sözləri var idi. Belə ki, latın dilindən alınan bu sözlərin əksəriyyəti artıq fransız dilinin normand dialektində az-çox fonetik, qrammatik, semantik dəyişikliklərə məruz qalmışdı.

İngilis dilində latın dilindən alınma sözlərin əksəriyyətini "kitab" sözləri təşkil edir. Bu sözlər dilə xalqlar arasında bilavasitə canlı ünsiyyət nəticəsində deyil, yazılı sənədlər, kitablar və s. vasitəsilə keçmişdir. Kitab alınma sözləri keyfiyyətcə digər alınma sözlərdən fərqlənir. Hər şeydən öncə, bu sözlər dəyişikliklərə, xüsusilə də

semantik dəyişikliklərə az məruz qalmışlar. Bunun məntiqi izahı ondan ibarətdir ki, kitab alınma sözləri uzun illər boyunca məhdud sferada- bu dilin ədəbi formasında istifadə olunmuşdur. Daha sonra bu alınma sözlər əsasən mücərrəd, abstrakt və ya terminoloji xarakter daşıyır.

İngilis dilində latın dilindən alınma kitab sözləri XVI əsr, həmçinin XV-XVI əsrlərə, yəni İngiltərədə İntibah dövrünə təsadüf edir. Uiklif, Lenqland və Çoserin əsərlərində mindən artıq əvvəlcə ingilis dilində rast gəlinməyən latın dilindən alınma sözlər işlənmişdir. İntibah dövründə tibb, ədəbiyyat, ilahiyyat sahələrində sözlər, texniki terminlər və s. yaranır. Bu sözlərin siyahısını qısa fəsil çarçıvəsində vermək mümkün deyil. Bunun üçün xüsusi lüğət tərtib etmək lazımdır.

Bu alınma sözlərin çoxunu morfoloji əlamətlərinə görə təyin etmək olar, məsələn, məsdər formasında –ate- şəkilçisi olan, latın dilində fellərin I təsrif formasının keçmiş zaman feli sifətindən əmələ gələn fellər- separate, translate, meditate, exaggerate, congratulate; məsdər formasında –ute- şəkilçisi olan, latın dilində fellərin III təsrif formasının keçmiş zaman feli sifətindən əmələ gələn fellər- prosecute, execute; latın dilində indiki zaman feli sifətlərindən əmələ gələn –ant- və -ent- şəkilçili sifətlər, məsələn, evident, transparent, patient, triumphant, apparent, obedient.

Sonrakı əsrlərdə - XVII, XVIII əsrlərdə latın dilindən alınma kitab sözləri müşahidə olunmuşdur. Əsasən bu "elmi sözlər" latın sözlərinin morfoloji xüusiyyətlərini qoruyub saxlamışlar, məsələn, inertia, sanatorium, genus, radius, curriculum, datum, vacuum.

Nəhayət, müasir ingilis dilində elə alınma sözlər də vardır ki, onlar bütünlükdə öz latın "simasını" saxlamışdır, yəni, heç bir assimilyasiyaya uğramamış və hal-hazırda da uğramır. Bu söz və ifadələr dildə latın dilindən sitat kimi işlənir. Onların istifadə olunma sferası məhduddur: onlar adətən elmi nəsr üslubunda, işgüzar sənədlərdə, yüksək natiqlik üslubunda işlənir. Belə alınma sözlərə aiddir: alma mater, bina fide, ex officio, condito sine qua non və s.

Alınma sözlərin daxil edilməsinin nəticələrindən biri də etimoloji dubletlərin yaranmasıdır. Etimoloji dubletlər – etimoloji cəhətdən eyni kökə aid olan, lakin dildə müxtəlif məna, tələffüz və yazılışa malik sözlərdir. Məsələn,channel və canal.

Etimoloji dubletlərin yaranması müxtəlif konkret səbəblərlə izah olunur. Eyni söz müxtəlif zamanlarda, müxtəlif mənbələrdən alına bilər. Məsələn, latınca canalis "kanal" ingilis dilinə mərkəzi Fransa dialekti vasitəsilə "channel" formasında və şimalı Fransa dialekti vasitəsilə "canal" formasında gəlib və bu formalar mənasına görə ayrılır.

Latınca quies, quietus "sakitlik, istirahət" bilavasitə ingilis dilinə daxil olmuş, quiet formasına malikdir, fransız dilindən keçən həmin söz dildə quite kimi mövcuddur.

Qeyd olunduğu kimi, bir dildən digər dilə sözlərin keçməsi zamanı elə hallar da baş verir ki, eyni söz iki dəfə götürülür. Bu, yalnız təmasda olan xalqlar arasında uzun müddət tarixi-mədəni əlaqələrin olması zamanı baş verə bilər. Latın dilinin ingilis dilinə təsir tarixi məhz belədir. Bir çox latın sözləri latın sözləri ingilis dilində iki dəfə gəlib: bir dəfə fransız dilindən, bir dəfə bilavasitə latın dilindən. İkinci dəfə alınma birincidən xeyli vaxt fasiləsi ilə ayrılır ki, bu da sözün yeni söz kimi

qəbul edilməsi üçün zəruridir. Beləliklə, etimoloji fransız-latın dubletləri əmələ gəlir.

Latın dilindən keçən kitab xarakterli alınmalara bəzi sözəmələgətirici elementlər – ön şəkilçilər və şəkilçilər də aiddir. Bu sözəmələgətirən morfemlər latın dilindən ayrıca dil vahidi kimi keçməmişdir; onlar bütöv sözlərin tərkibində gəlmişdir və yalnız sonralar sözəmələgətirən morfem kimi başa düşülmüşdür. Bununla belə, onları alınma şəkilçilər adlandırırlar.

Beləliklə, latın dili ingilis dilinin yeni sözlərlə zənginləşməsinə böyük təsir göstərmişdir. Bu onunla izah olunur ki, İngiltərənin normand işğalı ilə dilə çoxlu fransız sözləri gəlmiş, bu da etimoloji cəhətdən yaxın olan latın sözlərinin nisbətən sərbəst axını üçün zəmin hazırlamışdır. Tarixi leksikologiyada bəzən bu və ya digər sözün ingilis dilinə fransız və ya latın dilindən keçdiyini təyin etmək çətinlik törədir.

Latın dilindən alınma sözlər arasında bir qrup sözlər vardır ki, onlara səs formasına, qramatik şəklinə, məna mahiyyətinə görə beynəlxalq sözlər sırasında rast gəlinir. Məhz latın dili xeyli miqdarda belə sözlər bəxş edib. Bu, onunla izah olunur ki, feodalizm dövründə latın dili Qərbi Avropanın bir çox ölkələri üçün beynəlxalq elmi dil, bəzi ölkələrdə isə ümumiyyətlə, ədəbi dil hesab olunurdu. Latın dilinin elmi dil olnası XVII-XVIII əsrlərə kimi davam etmişdi. Müasir təbabət, kimya, botanika, zoologiya, fəlsəfə, siyasət elmlərində indiyə kimi latın sözlərindən istifadə olunur.

Müasir ingilis sözlərində audio – lat. dinləmək, qulaq asmaq: auditorum, audience. Bios – yun. həyat: biology, biography. Centum – lat. yüz: cent, century, centenary. Demos – xalq:democracy, demography. Grapho – yun. yazmaq: graphic, phonograph. Homos – yun. eyni: homonym, homophone. Lexis – yun. lüğət: lexicology, lexicography.

Onoma – yun. ad: synonim, antonim, pseudonym

Phone – yun.səs: phonetics, phoneme, phonology

Scribe, scriptum – lat. yazmaq, yazılmış: describe, subscribe, scritwriter, inscription

Tele – yun.uzaq: telescope, telegraph

Video – lat.görmək: visus lat. görünüş, mənzərə: visible, vision, revise, television, evidence.

Vita – lat. həyat: vital, vitality, vitamin.

Latın dilindən ingilis dilinə keçən beynəlxalq sözlərdən aşağıdakıları qeyd etmək olar: obligation, constitution, alibi, agriculture, microscope, modern, laboratory, program, system, socialism, communism, capitalism, climate, radius, tradition və s.

Başqa dillərdən alınma sözlər dilin lüğət tərkibinə ayrı-ayrı təsirlər göstərir. Bəzi dillərdə alınmalar dilin lüğəti tərkibinə elədə təsir göstərə bilməmişdilər. Müxtəlif tarixi dövrlərdə söz alınmaları dilin lüğəti tərkibinə elə çox əhəmiyyətli təsirini göstərmişdir ki, hətta başqa dillərdən alınmış misal üçün, əvəzlik, önlük kimi xidməti sözlər, qədim xidməti sözləri sıxışdırıb istifadadən çıxarırdılar. Başqa dillərdən sözlərin alınma prosesi hər bir dilə xas olduğuna və ingilis dilinin leksikonunun ayrılmaz hissəsi olduğu üçün, bu tema həmişə aktual olaraq qalır və həmişə onun öyrənilməsi və nəzərdən keçirilməsi üçün kifayət qədər materiallar var. Çünki fəal dil həmişə inkişaf olunan dildir. Nə isə təzə bir şey gəlir, lazımsızlar, artıqlar yoxa

çıxır, burada leksikologiya sahəsində çalışan alimlər üçün də həllini tələb edən çox suallar qalır.

İngilis dilinin müasir lüğəti dəyişir və uzun əsrlər boyu təkmilləşdirilərək, indi də ehtiyatda çox sayda sözləri var ki, onun vokabulasının formalaşmasına öz çoxmənalı təsirini göstərir. Bütün bunlara baxmayaraq, ingilis dili öz orijinallığını itirib "hibrid" dilinə çevrilməmişdir.Əksinə, öz tarixi boyu, o özünü ən gözəl dil elementləri ilə zənginləşdirib.

İngilis dili heç bir məhdudiyyət çərçivəsində olmadığına baxmayaraq öz "simasını" itirməmişdir: o alman dili qrupunda, inkişafın bütün dövrlərində,öz səciyyəvi xüsusiyyəti ilə qalır və alınma sözlər onun söz tərkibinin daha da zəngin olmasına xidmət edirlər.

Ədəbiyyat

1. Modern English Lexicology – Moscow external university of humanities.1996
2. Алехина А.И. Идиоматика современного английского языка. – М., 1982
3. Англо-русский лингвострановедческий словарь – Американа.
4. Арбекова Т.И Лексикология английского языка – М. 1977
5. Арнольд И.В. Лексикология современного английского языка – М.,1989
6. Бруннер К. История английского языка – М.,1956
7. Войнова Е.А. Лексикология современного английского языка – М.1991
8. Гинзбург, Хидекель Лексикология английского языка – М. 1981
9. Смирницкий А.И. Лексикология английского языка – М. 1949
10. Харитончик З.А. Лексика английского языка – Минск: Высшейшая школа, 1992

Фатма Агамирова

О влиянии заимствований из латинского языка на лексическую систему английского языка

Резюме

Будучи результатом длительного исторического взаимодействия языков, заимствование как процесс и заимствование как результат этого процесса представляют собой значительный интерес для истории языка, в рамках которой получают детальное освещение преобразования, которые претерпевают заимствованное слово в языке, его заимствованием.

Представленная статья посвящена заимствованиям перешедшим в английский язык из латинского языка, выявлению путей этого перехода, числа и сферы использования латинских слов, а также роли в обогащении словарного состава английского языка.

Fatma Agamirova

About influence of adoption from the Latin in lexical system of English language

Summary

Being a result of long term historical interaction of the languages, adoptions (loan words) as a process and as a result of this process represent significant interest

for history of language, within the framework of which the loan words get detailed coverage, transformation in the language.

The given article is dedicated to adoptions from the Latin language in English, definition of ways of this transformation, number and spheres of using of adoptions, as well as its role in enriching words of lexical system in English language.

Rəyçi Aygün Əbdülova
filologiya elmləri namizədi, dosent

SÜCƏDDİN ƏYYUBOV
Azərbaycan Dillər Universiteti
sujaddin@hotmail.com

ZOONİM TƏRKİBLİ FRAZEOLOJİ BİRLƏŞMƏLƏRİN LEKSİK-SEMANTİK VƏ QRAMMATİK XÜSUSİYYƏTLƏRİNƏ DAİR

Açar sözlər: frazeologiya, zoonimlər, linqvo-kultorologiya.
Key words phraseology, zoonyms, linguaculturology.
Ключевые слова:, фразеология, зоонимы, лингвокультурология.

Dilin frazeologiyasının öyrənilməsi sırf dilçilik elmində tədqiq olunsa da, bu sahə yalnız leksikologiya və leksikoqrafiya sahələrində deyil, eyni zamanda linqvo-kulturologiya adlanan sahədə də tədqiq olunur. Bu onunla bağlıdır ki,haqqında söhbət gedən ifadələr bu və ya digər xalqın təkcə dili ilə deyil,həm də onun təfəkkür tərzi ilə bağlıdır.

Bu işimizdə biz frazeologiyanın sırf leksik və qrammatik aspektdə araş-dırmağa çalışacağıq və burada əsas diqqətimizi iki sahəyə yönəldəcəyik:

1) zoonim tərkibli frazeoloji birləşmələrin leksik-semantik xüsusiyyətləri.

2) bu birləşmələrin morfoloji və sintaktik xüsusiyyətlər baxımından araşdırılması.

3) həmin ifadələrin Azərbaycan dilində müvafiq qarşılığın tapılması.

Əvvəlcə zoonim tərkibli frazeoloji birləşmələrin leksik cəhətdən kəsb etdik-ləri xüsusiyyətlərə nəzər salaq. Seçdiyimiz frazeoloji birləşmələrin Azərbaycan dilində leksik baxımdan hansı mənalar verdiyi, onların olduğu kimi yaxud başqa cür tərcümə olunduğu maraq doğurduğundan xüsusi analiz aparmağa ehtiyac duyulur. Belə ki, bunlardan bəziləri tərcümə zamanı fransız dilində olduğu kimi eyni mənada saxlanılır, bəzilərinin mənası qismən və ya tam dəyişir. Məsələn "*coller à la vie comme on colle à un cheval*" - hərfi tərcümə: *həyatdan atdan yapışan kimi yapışmaq*, əsil mənada isə elə eyni fikir demək olar ki, saxlanılır və bu birləşmə "*həyatdan iki əllə yapışmaq, suda batan saman çöpündən yapışan kimi yapışmaq, canını əziz tutmaq*" kimi tərcümə olunur. Göründüyü kimi, zoonim tərkibli bu birləşmə Azərbaycan dili ilə müqayisədə eyni qarşılığa malikdir və o qədər də lek-sik məna müxtəlifliyinə məruz qalmır. Fransız dilində olan frazeoloji birləşmələrin Azərbaycan dilinə tam və ya qismən uyğunluğunu nəzərə alaraq onları şərti olaraq 2 qrupa ayırmaq olar:

a) bu birləşmə Azərbaycan dilinə tərcümə zamanı olduğu kimi saxlanılır.

Misallara nəzər salaq:

- *travailler comme un cheval* - birləşməsi Azərbaycan dilində eyni cür səslənir və müqayisə zamanı görünür ki, o qədər də leksik-semantik məna dəyişikliyinə uğ-ramır. Bu tip frazeoloji birləşmələrə aşağıdakı misalları göstərə bilərik:

- *manger comme un loup* (*canavar kimi yemək*) hərfi mənasını verdiyi halda "*acgözlüklə, görməmiş kimi yemək, özünü ölü kimi yeməyin üstünə salmaq*" bu birləşmənin əsil mənasını verir;

- *avoir un caractère de chien* - hərfi məna: "*it xasiyyəti olmaq*", əsil məna "*çətin xarakteri olmaq, çətin xarakterə malik olmaq, dözülməz olmaq*";

- *battre qqn comme un chien* - hərfi mənada : "*kimisə iti döyən kimi döymək*", əsil məna: "*kimisə qəddarcasına döymək, işgəncə vermək*";

- *enterrer comme un chien* - hərfi məna: "*iti basdıran kimi basdırmaq*", əsil məna: "*hörmətsiz dəfn etmək*";

- *mourir comme un chien* – hərfi məna: "*it kimi gəbərmək*", əsil məna: "*sahibsiz, yiyəsiz ölmək, tənha ölmək*";

- *vivre comme chien et chat* - hərfi məna: "*həyatda itlə pişik kimi davranmaq*" əsil məna: "*yola getməmək, dil tapmamaq*";

- *vivre comme un chien* - hərfi məna: (*it kimi qapı – qapı gəzmək*), əsil məna: "*veyil-veyil gəzmək, yurd-yuvasız olmaq*";

- *laid comme un singe* - hərfi məna: (*meymun kimi çirkin*) əsil məna: "*eybəcər, çirkin, bədheybət*";

- *aller comme une tortue* - hərfi məna: (*tisbağa kimi sürünmək*) əsil məna: "*yavaş – yavaş getmək, ləng tərpənmək, astagəl olmaq*";

- *avoir les yeux ouverts comme un lièvre* - hərfi məna: (*dovşan kimi gözü açıq yatmaq*) əsil məna: "*fərasətli (diribaş) olmaq*";

Misallardan göründüyü kimi, belə zoonim tərkibli frazeoloji birləşmələr Azərbaycan dilinə tərcümə zamanı demək olar ki, fransız dili ilə müqayisədə eyni cür qalır, yaxud çox cüzi məna dəyişikliyinə məruz qalır. Təhlil zamanı elə birləşmələrə də rast gəlinir ki, onların Azərbaycan dilində eyni cür səslənməsi məqsədə uyğun deyildir və müqayisə zamanı ekvivalent axtarmağa ehtiyac duyulur. Bu da fikrimizcə, bu və ya digər zoonimlərin fərqli mədəniyyət və dillərdə özünəməxsus məna kəsb etdiyindən irləli gəlir.

b)qismən uyğun gələn frazeoloji birləşmələr.

Bir neçə misala baxaq:

- *connu comme le loup blanc* - (*ağ canavar kimi məhşur olmaq*) deyimi Azərbaycan dilində mövcud deyil. Odur ki, belə bir müqayisə tərcümə zamanı məqbul deyildir, əslində bu deyim Azərbaycan dilində "*ala itdən məşhur*" formasında rast gəlinir və çoxsaylı kontekstlərdə işlənir, nəticə etibarilə biz yenə də, müqayisə zamanı bənzətmənin şahidi oluruq;

- *enrumé comme un loup* - (*canavar kimi zökəm*), belə bir deyimə də Azərbaycan dilində rast gəlinmir, əvəzində "bərk soyuqlamaq, möhkəm xəstələnmək" ifadələri işlənir və frazeologizmdən uzaqlaşır;

- *droit comme la jambe d'un chien* - (*itin ayağı kimi düz*), formasında tərcümə, yaxud deyim Azərbaycan dili üçün xarakterik deyil, əslində bu birləşmənin daha çox kinayə xarakteri kəsb edərək "*əyri*" mənası verdiyinə rast gəlinir.

Bu nümunələrdən gördüyümüz kimi, bəzi frazeoloji birləşmələrin Azərbaycan dilində eyni qarşılığı yoxdur. Fikirmizi bir neçə misalla davam etdirək:

- *soûl comme un cochon* - (*donuz kimi sərxoş*), bu misaldan göründüyü kimi, belə bir ifadə tərzinə heç cür Azərbaycan dilində rast gəlinmir, bir az da fikirimizi dəqiqləşdirsək, deyə bilərik ki, sərxoşluqla bağlı Azərbaycan dilində zoonim tərkibli frazeoloji birləşmələr mövcud deyil.

- *malicieux comme un singe* - hərfi məna: (*meymun kimi hiyləgər*), əsil məna: " *bic, vələdüzna, çox hiyləgər, fırıldaq, cüvəllağı*";

- *pleurer comme une vache* - hərfi məna: (*inək kimi ağlamaq*), əsil məna: "*zar-zar ağlamaq, hönkürtüylə ağlamaq, zülüm-zülüm ağlamaq*";

- *parler français comme une vache espagnole* - hərfi məna: (*fransızca ispan inəyi kimi danışmaq*), əsil məna: "*fransızca çox pis danışmaq*";

- *glisser comme chat sur braise(s)* - hərfi məna: (*od üzərində pişik gəzən kimi gəzmək*), əsil məna: "*nə barədəsə səthi məlumat vermək; üstündən keçmək; ötəri toxunmaq; mövzudan kənara çıxmaq*";

- *retomber comme un chat sur ses pattes* - hərfi məna: (*pişik pəncələri üstündə gəzən kimi gəzmək*); əsil məna: "*çətin vəziyyətdən ustalıqla çıxmaq; sudan quru çıxmaq* və s.";

Zoonim tərkibli frazeoloji birləşmələr təkcə məna baxımından deyil, qrammatik baxımdan da analiz edildikdə maraqlı mənzərə üzə çıxır. Belə ki, eyni bir nitq hissəsi əsasında formalaşan (məs: isim, sifət, fel) ifadələr hər iki dildə mövcud olsa da, yuxarıda göstərildiyi kimi, onların qarşılığının heç də həmişə eyni morfoloji tərkibə malik olmasına dəlalət etmir. Bu cəhətdən də eyni və müxtəlif morfoloji tərkiblərə malik olan uyğunluqlara və uyğunsuzluqlara rast gəlinir.

Tərkibinə görə onları (haqqında sözügedən birləşmələri) aşağıdakı kimi qruplaşdırmaq olar:

a) ismi (nominal) birləşmələr
b) sifət tərkibli birləşmələr
c) fel tərkibli yaxud verbal birləşmələr

İlk olaraq ismi birləşmələr üzərində dayanacağıq. Bu tip birləşmələrə fel və sifət tərkibli birləşmələrə nisbətən araşdırdığımız mənbədə az rast gəlinir, bununla belə bir neçə misala nəzər salaq:

- *langue de serpent* - hərfi məna: (*ilan dili*), əsil məna: "*acı dil, zəhər tuluğu*";
- *comme une poule qui a trouvé un couteau* - hərfi məna: (*bıçaq tapan toyuq kimi*), əsil məna: "*nabələd, ilk dəfə görən, matı-qutu quruyan*";
- *tigre de guerre* - hərfi məna: (*döyüş pələngi*), əsil məna: "*çin əsgəri* və s";

Misallardan göründüyü kimi, ismi birləşmələrin əsas komponentləri isimdən ibarətdir və əsasən cümlədə ismi təyin (complément du nom) funksiya yerinə yetirir.

Təhlil zamanı sifət tərkibli frazeoloji birləşmələr çoxluq təşkil etdiyindən onlara aid bir neçə misala nəzər salaq:

- *maigre comme un chien* - hərfi: *it kimi arıq*, əsil: *cansız, zəif, bir dəri – bir sümük*

- *gras comme un cochon* - hərfi: *donuz kimi piyli*, əsil: *kök, şişman, çox kök, goppuş*;

- *soûl comme un cochon* - hərfi: *donuz kimi sərxoş*, əsil: *bərk sərxoş, ayaq üstə dura bilməyən* və s.

Fikrimizcə, zoonim tərkibli frazeoloji birləşmələr içərisində əsas yerlərdən birini feli (verbal) konstruksiyalar tutur ki, onların da təhlili üzərində dayanaq. Bu verbal frazeoloji birləşmələrdə əsas komponent olan fel həm məsdər şəklində, həm də şəxslənən formalarda rast gəlinir. Misallara baxaq:

-*il marche comme une tortue* - hərfi: *o, tısbağa kimi yeriyir*, əsil: *o zorla yeriyir, hərəkət edir, tısbağa kimi sürünür, yaman ləngdir*;

- aller (courir) comme un chat maigre - hərfi: *arıq it kimi getmək (qaçmaq)* , əsil: *təngənəfəs qaçmaq, tövşüyə-tövşüyə getmək, zorla yerimək, ortası bulana- bulana yerimək; arvadbaz olmaq, şorgöz olmaq*;
-il faut hurler avec les loups - hərfi: *canavarlarla ulamaq lazımdır*, əsil: *palaza bürün, elnən sürün; eldən geri qalma*;
-n'avoir ni cheval ni mule - hərfi: *nə atı, nə dayçası olmaq*, əsil: *çox kasıb olmaq, yeməyə çörəyi olmamaq, kasıblıqla yaşamaq, bir təhər keçinmək*;
-les loups ne se mangent pas entre eux - hərfi: *canavarlar öz aralarında yeməzlər*, əsil: *it-itin ayağını basmaz*.

Verbal konstruksiyalı zoonim tərkibli frazeoloji birləşmələri təhlil edərkən bir məqam da nəzərimizi cəlb etdi. Belə ki,bu konstruksiyaların bəziləri təsirli fellər , digərləri isə təsirsiz fellər əsasında formalaşır:

a) təsirli fel komponentli frazeoloji birləşmələr:

- claquer un cheval ou crever un cheval;
- fermer l'écruie quand les chevaux sont dehors-hərfi: atlar bayırda olanda tövləni bağlamaq; əsil toydan sonra nağara, sonrakı peşmançılıq fayda verməz, davadan sonra yumruq göstərməzlər;
- *traîner le cheval mort* - hərfi: *ölü atı sürümək*, əsil: *haqqını bəri başdan istəmək, pulunu əvvəlcədən almaq*;
- *tenir le loup par les oreilles*
- *faire le chien couchant*
- *faire un pied de cochon* və s.

b) təsirsiz fel komponentli frazeoloji birləşmələr:

- *aller (courir) comme un chat maigre;*
- *pleurer comme une vache;*
- *agir comme un chien* və s.

Morfolji tərkib nöqteyi nəzərindən ortaya çıxan maraqlı məqamlardan biri də bəzi nominal və verbal konstruksiyalarda isim qarşısında artikllərin işlənməsi və ya işlənməməsi halları oldu. Bu da, zənnimizcə, müəyyən formal və qrammatik qaydalarla izah olunur və ya bağlıdır. Belə birləşmələrə dair misallara baxaq.

a) artikllə işlənən konstruksiyalar:

- *manger comme un loup*
-*peureux comme un lièvre;*
-*laid comme un singe;*
-*aller comme une tortue* və s.

b) artiklsiz konstruksiyalar:

-*temps de chien ;*
-*entre chien et loup ;*
-*jamais bon chien n'aboie à faux;*
-*prendre martre pour renard* və s.

Belə birləşmələrdə ismin artikllə yaxud artiklsiz işlənməsi həmin konstruksiyaların tarixi və onların müasir dildə müxtəlif kommunikativ situasiyalarda işlənməsi ilə əlaqədardır. Bu barədə B.İsmayılovun müşahidələri ilə razılaşdığımız üçün onların üzərində xüsusi olaraq dayanmırıq. (B.B.İsmayılov,1970)

Zoonim tərkibli frazeoloji birləşmələrin təhlili zamanı onların sintaktik baxımdan hansı funksiyaları yerinə yetirdikləri, yəni bu və ya digər birləşmənin

hansı cümlə üzvü rolunda çıxış etdiyi də çox vacib məqamlardandır. Çoxsaylı misalların təhlili onu göstərdi ki, bu birləşmələr əsasən zərflik, təyin və başqa cümlə üzvü kimi çıxış edə bilir və həmçinin müqayisə bildirməklə qarşılaşdırlır və uyğunluqlar bəzən isə ,uyğunsuzluqlar meydana çıxır.

İfadə etdiyi müxtəlif mənalara görə sintaktik funksiyalar da dəyişə bilir. Semantik və morfoloji baxımdan bu frazeoloji birləşmələr fərqli xüsusiyyətlərə malik olduğu kimi, sintaktik baxımdan da maraqlı mənzərələr ortaya çıxır.Fikrimizi əyani olaraq təhlil etdiyimiz bir çox nümunələrlə təsdiq etməyə çalışaq. İlk əvvəl verbal konstruksiyaların hansı sintaktik funksiyalar yerinə yetirdiyinə nəzər salaq:

−*écrire à qqn. une lettre de cheval* (hərfi: *kiməsə at məktubu yazmaq*); əsil: *kiməsə təhqiramiz məktub yazmaq*. Gördüyümüz kimi bu misalda söhbət fransız dilində təyini funksiyadan gedir, yəni "*hansı məktub*?" sualına cavab axtararkən söhbətin "*təyinedici*" funksiyadan getdiyi aşkar görünür;

- *monter sur ses grands cheveaux* (hərfi: *öz böyük atlarının üstünə minmək*): əsil məna: *özünü yuxarıdan aparmaq, yekə-yekə danışmaq, özünü böyük adam hesab etmək: əsəbiləşmək, hirslənmək, cin atına minmək*. Bu nümunədə əsasən zərflik (*yekə-yekə*) və xəbərdən (*danışmaq*) bəhs edilir;

- *travailler comme un cheval* - hərfi: *at kimi işləmək*, əsil məna: *yorulmaq bilmədən işləmək, həddən artıq çox işləmək*, bu misalda da yenə tərzi-hərəkət zərfliyindən söhbət gedir.

Nominal (ismi) birləşmələr fransız dilində əsasən təyin funksiyasını daşıyır.Bir neçə misala baxaq:

- *écriture de chat* - hərfi: *pişik xətti*, əsil məna: *pis oxunan xətt, anlaşılmaz xətt, çox pis oxunan xətt, oxunmaz xətt* və s;

- *tigre de guerre* - hərfi: *müharibə pələngi*, əsil məna: *çin əsgəri*;

- *langue de serpent* - hərfi: *ilan dili*, əsil məna: *acıdil, zəhər tuluğu* və s.

Sifət tərkibli frazeoloji birləşmələrin təhlili zamanı da əsasən təyini funksiyanın daha çox təzahür etdiyini müşahidə etdik. Məs: *peureux comme un lièvre* hərfi: *dovşan kimi qorxaq*: əsil məna: *qorxaq, ağciyər, ürəksiz* və s.

Söz sırası baxımından da bu birləşmələrin tədqiqi xeyli maraq doğurur. Məs, müqayisə bildirən "comme des chats" tipli ifadələr tərzi-hərəkət zərfliyi funksiyasını yerinə yetirərək cümlənin sonunda yerləşmişdir. Bu daha çox təsadüf olunan bir haldır. Azərbaycan dilində isə həmin zərflik bu dil üçün tərzi-hərəkət zərfliyinin daha çox işləndiyi yerdə,yəni feldən əvvəl yerləşmişdir.Xəbər kimi işləndikdə isə fransız və Azərbaycan dillərində ismi xəbərə uyğun gələn hallarda da belə birləşmələr cümlənin sonunda işlənir.

Aşağıdakı cümlələrdə də müqayisə ifadə edən və tərzi-hərəkət bildirən zərflik funksiyasında çıxış edən birləşmə fransız dilində xəbərdən sonra, Azərbaycan dilində isə xəbərdən əvvəl yerləşir. Göründüyü kimi, bu sintaktik mövqe hər iki dilin quruluşundan asılı olaraq bir-birindən fərqlənir:

- *me voila donc cheval de retour. On me remit à Toulon ; cette fois avec les bonnets verts*. (V. Hugo, Le dernier jour d'un condamné)

Budur yenə həbsxanadayam. Məni bu dəfə Tulona azadlıqdan ömürlük məhrum olunanların yanına aparacaqlar;

Cheval de retour -hərfi: *qayıtma atı*, əsil: *təkrar cinayətkar* (*residivist*)

- *boeuf de labour* - hərfi: *yük öküzü*, əsil: *yorulmaz adam, işgüzar adam*;

Ces gens-là sont comme les boeufs de labour :infatigables à l' ouvrage mais, ils claquent tout d'un coup (R. Vailland, « Beau Masque »)

Bu insanlar yük heyvanlarından heç nə ilə fərqlənmirlər, ömrü boyu zillətlə işləyib sonra qəfildən ölürlər;

- *comme des vaches espagnoles* hərfi: *ispan inəkləri kimi*, əsil: (*gicbəsər, səfeh, axmaqcasına*) ;

Les gens d' ailleurs, ça les fait rigoler comme des vaches espagnoles de savoir que je m'appelle Carmen. (P. le Bailly « Scandale pour un Goncourt »)

Insanlarsa mənim adımın Karmen olduğunu bilincə gic-gic gülürlər.

- *(en) revenir à ses moutons* - hərfi: *öz qoyunlarına qayıtmaq*, əsil: *əsas mövzuya dönmək, mətləbə keşmək*;

J'aurais besoin d'être adouci par une lettre de vous. J'en reviens toujours à mes moutons (P.Mérimé « Lettre à une inconnue » ,1846).

İndi sizin məktubunuza daha çox ehtiyacım var, o məni ovudardı,gördüyümüz kimi, həmişə eyni məsələdən bəhs edirəm.

- *se dibrouiller comme un poisson dans l'eau* – hərfi: *özünü suda balıq hiss edən kimi hiss etmək*, əsil: *özünü tam sərbəst hiss etmək*.

Quand à Emile, il était repris par la course. Il s'y débrouillait comme un poisson dans l'eau (L. Aragon « Servitude et grandeur des Français »).

Emiliyaya gəldikdə onu dalğalar yenidən ağuşuna aldı və o, özünü çox rahat hiss etdi və s.

Yuxarıda deyilənlərdən belə bir ümumi nəticəyə gəlmək mümkündür ki,hər iki dildə işlənən zoonim tərkibli frazeoloji birləşmələr hər dilin daxili qanunlarına uyğun olaraq formalaşmışdır. Ona görə də müşahidələr göstərir ki,hətta eyni morfoloji tərkibə malik olan və bir birinə bəzi hallarda uyğun gələn birləşmələrdə belə hər dilin öz xüsusiyətləri qabarıq şəkildə nəzərə çarpır. Biz bunu həmin ifadələrin təkcə leksik tərkibinə aid etmirik,belə dəyişiklik sintaktik cəhətdən qarşılaşdırma daha bariz şəkildə müşahidə olunur.

Ədəbiyyat

1. Tağıyev M.T. Русско-азербайджанский фразеологический словарь, Rusca-azərbaycanca frazeoloji lüğət, , "MAARİF" nəşriyyatı,Bakı-1974 .
2. Бали Ш., Французская стилистика, М., 1961
3. Буюккутлу Й., Лексический фон русских и турецких зоонимов. Учёные записки Таврического национального университета имени В.И.Вернадского, Серия «Филологические науки» Том 15 (54). 2002 г. №4, стр. 88-93
4. Гак В.Г., Кунина И.А., Лалаев И.П., Мовшович Н.А., Рецкер Я.И., Хортик О.А., Французско-русский фразеологический словарь, Государственное Издательство Иностранных и Национальных Словарей, МОСКВА-1963.
5. Исмаилов Б.Б., Способы грамматической детерминации имени существительного во французском языке, Ленинград, 1970.
6. Rédaction dirigée par ALAIN REY, Le Robert Micro Poche, Dictionnaire de langue française, 12, avenue d'Italie-Paris XIIIe.

S.F. Ayubov

On lexico-semantical and grammatical features of the phraselogical units with names of animals

Summary

The paper deals with lexico-semantical and grammatical pecularites of the phraselogical units with names of animals.These units are under consideration using the data mainly from french, a special focus has been made on comporative analyses between french and azeri phraselogical units.

С.Ф Эюбов

О лексико-семантических и грамматических особенностях фразеологических единиц имеющих в своих составах зоонимы

Резюме

В этой статье исследуются лексико-семантические и грамматические особенности фразеологических единиц, имеющих в своих составах зоонимы. В основном эти единицы изучаются в основном на материале французского языка, особое внимание уделяется также их соответствиям в азербайджанском языке.

Rəyçi: b.m D.Cəfərova

БОЗОРОВА ДИЛДОР БАХРОНОВНА
исследователь Каршинского государственного
университета (Узбекистан)

ВАРИАНТЫ ФОРМ РОДИТЕЛЬНОГО ПАДЕЖА В УЗБЕКСКОМ ЯЗЫКЕ И ИХ ХУДОЖЕСТВЕННО-ЭСТЕТИЧЕСКАЯ РОЛЬ

Açar sözlər: yiyəlıik hal, müəyyənlik bildirən yiyəlik hal, qeyri-müəyyənlik bildirən yiyəlik hal, məna çalarları
Ключевые слова: родительный падеж, оформленный родительный падеж, неоформленный родительный падеж, оттенки значения.
Keywords: the genitive case, the issued genitive case, not properly executed genitive case, value shades.

Некоторые формы падежа так же отличаются высокой поэтичностью. Особенно, формально невыраженный вид родительного падежа, краткий, диалектный вариант (***-им***) отличаются стилистической окраской.

Известно, что формально невыраженный вид родительного падежа отличается от оформленного варианта высокой поэтичностью, широким семаннтическим охватом. Вот что пишет Х.Неъматов о неоформленном варианте данного падежа: «все формы глагола делятся на две части - оформленные –формы, имеющие определенное оформление при контрасте форм в категории и неоформленные (нейтральные) формы, не имеющие определенного оформления при этом контрасте. Пользование и значительные оттенки оформленной формы первой группы ограничиваются знаком относящихся категории и знаком оппозиции в категориях каждой формы. Пользование и сфера значительной оттенки неоформленной формы второй группы ограничивается только знаком относящейся категории (например, определенный залог, форма времени с окончанием **-ар**, деепричастие **-(и)б**). то есть, сфера использования и значительные оттенки форм первой группы определяется отношением внутри категории, а сфера пользования и значительные оттенки форм второй группппы определяется отношением среди категорий и эти категории играют роль репрезентанта этой категории. Поэтому значение форм определенной категории определяется значением репрезентантной формы этой же категории» [1]. Из этого следует, что неоформленная форма сближается с главной формой, его использование, семантические и стилистические возможности расширяются.

Очиб нигоҳим чиқса,
Чопган қилич зулфмидур.
Соҳибдилим — дилоро,
Қақнус гулхани қани.

(Абдували Қутбиддин, “Ҳофизга”)

Словосочетание «Қақнус гулхани» является вариантом словосочетания «қақнуснинг гулхани», это вариативность обусловлена наличием оформленной и неоформленной форм родительного падежа. Использование слово-

сочетания «Қақнус гулхани» в отличие от своего варианта основано на трех причинах.

а) по требованию литературной формы;

б) по требованию литературного значения;

в) по требованию грамматического значения.

Стих написан в силлабическом размере, состоит из двухсложных стоп, семислоговых строк. Если использовать словосочетание «қақнуснинг гулхани» количество слог увеличится на одну и в результате, стих ритма разрушится.

«Қақнус гулхани» является крылатой фразой, его «полет» равен узбекской классической литературы просвещения. В качестве литературного образа упоминается один из традиционных символов узбекской художественной литературы. Поэтому, совсем не обязательно подчеркивать его, использовать оформленную форму родительного падежа. Также, литературная цель поэта – поручить ученику цельно осмыслить понятия «гулхан» и «қақнус».

Оформленные и неоформленные формы родительного падежа имеют лингвистические основы [3]. При этом, задача неоформленного варианта родительного падежа является образование оппозиции между значением художественной «точности» и грамматической «неточностью». Например, в словосочетании «китоб варроғи» сущестует грамматическое значение «неточности». Если оно оформляется в форме родительного падежа, то на него ещё возлагается задача выделения, обособления (что он не лист другого предмета). Созидатель успешно использует эту возможность. Так как, форма текста гармонирует с литературным и грамматическим значениями. А это, в свою очередь, обеспечивает полную реализацию художественной цели автора.

Пайғомлар йўлладим, уйғон, ҳилолим,
Жунун оқшомлари очди жамолин,
Поялар боғладим домингга сенинг.
(Абдували Қутбиддин, “Ҳофизга”)

Пробежав глазами по строкам стихотворения, несложно понять, что слова - ***оқшом*** и ***жунун*** следует оценивать по искусству пропорциональности. В этих строках они требует друг друга. А это, является результатом стремления к их - цельному литературному осмыслению. Использование в словосочетании «Жунун оқшом» неоформленного варианта формы родительного падежа, выступающего в качестве выражения и лингвистического, и литературно-логического значения. Грамматическая возможность подчиняется литературному значению.

Неоформленный вариант винительного падежа в стихотворении тоже используется в литературных целях. Он поддерживает использование неоформленного варианта родительного падежа, и, в свою очередь, на форму родительного падежа возлагает такую же задачу.

В стихах поэта Сираджиддина Саййида также можно встретить подобное явление:

Илк оғриғим, илк ёмғирим,
Найсоним, Ватан.
Қир устида ёнбошлаган

Бобом чайласи,
Бу дунёда кимларнингдир
Орзу-ҳаваси.

Поэт цельно созидает значения слов «бобо» и «чайла». Эта целостность укрепляется внешними приметами, физическим состоянием национальностью, связанностью бытия. Понятие старения (безусловно, результат тяжелого труда на протяжении всей жизни) диалектически связывается с утомленной избой, живущей вместе. Схожие значения слов «чайла» и «бобо» требуют использование неоформленного варианта литературной формы словосочетания в родительном падеже.

Краткий вариант родительного падежа в особенности представлен согласно требованиям литературного значения и формы. Эту форму варианта безусловно можно оценить как литературный вариант.

Оламда фожиа кўп эрур, бироқ,
Бунисин алами ҳаддан зиёда.
Оҳ, нечоғ даҳшатдир, тирик турган чоғ
Умринг оёқости бўлса дунёда...
(Абдулла Орипов, “Фожиа”)

Использование местоимения «бу» в неоформленном родительном падеже не является нормой языка. Однако, использование его краткой формы реализовано как результат обеспечения соответствия требованиям литературной формы и ритма. Также, придает пафос и обеспечивает поэтическое звучание. Использование слово «буниси» тоже, иногда является поэтическим требованием. Но, в грамматической норме правила, не позволяющие возможность его использования, связываются с литературными правилами. Также, краткая форма мотива относительно гармонируют со словом «умринг» в четвертой строке (бунисин-умринг). В общем, правила «неиспользование неоформленного родительного падежа» в местоимениях также в этих строках применяется согласно требованиям литературной формы:

Неча минг мусулмон туну кун бедор,
Каъба атрофини тинмай айланар,
Барчасин муроди илоҳий дийдор,
Саждага ҳар бири ҳар зум шайланар.
(Абдулла Орипов, “Аллоҳ даргоҳи”)

Краткая форма родительного падежа, употребленная в нижеуказанных строках Шавката Рахмона, служит одной из особенностей художественной формы – уравниванию метрической системы и частично используется для рифмовки.

Сўйиб Роза Камборонинг

маммаларин жандармлар,
қўйиб кетар дарвозасин
токчасига лаганларда.

Бошқа қизлар эса қочар, (Шавкат Раҳмон, “Испан жандармлари ҳақида романс”). Потому что, здесь употребляется тип неполной рифмы. (Камборанинг – дарвозасин, жандармлар – лаганларда).

Следовательно, краткая форма родительного падежа часто употребляется как **-н** в словах, оканчивающихся на гласную букву, или имеющим притяжательную форму, как **-ин** в словах, оканчивающихся на согласный звук. Этот вариант использования форм определяет особенность творческого стиля авторов. При этом, если в творчестве выше указанных авторов мы видим использование -им, то в стихах таких поэтов, как Эркин Вахидов, Омон Матжон, Икбол Мирзо примеры подобного типа не встречались.

Литература

1. Неъматов Ҳ. Феъл, унинг форма ва категориялари // Ўзбек тили ва адабиёти, 1972. -№ 1. – Б. 39–47;
2. Она тили. Қомус. (Тузувчилар Б.Менглиев,Ў.Холёров). - Тошкент, 2009.
3. Шоабдураҳмонов Ш., Асқарова М. Расулов И. Ҳожиев А. Ҳозирги ўзбек адабий тили. 1980. Морфология. - Тошкент: Ўқитувчи. 1980.

Бозорова Дилдор Бахроновна

Варианты форм родительного падежа в
узбекском языке и их художественно-эститечкая роль

Резюме

В данной статье речь идёт об особенностях вариантов форм родительного падежа в узбекском языке. А также об их художественной, эститечкой роли. Некоторые формы падежа так же отличаются высокой поэтичностью. Особенно, формально невыраженный вид родительного падежа, краткий, диалектный вариант (*-им*) отличаются стилистической окраской. Автор исследует варианты форм родительного падежа в узбекском языке.

Bozorova Dildor Bahronovna

Options of forms of a genitive case in
Uzbek language and their art - aesthetic role

Summary

In this article it is a question of features of options of forms of a genitive case in the Uzbek language. And also about their art, esthetic role. Some forms of a case as differ high poetry. Especially, formally not expressed type of a genitive case, short, dialect option (-to it) differ stylistic coloring. The author investigates options of forms of a genitive case in the Uzbek language.

Bozorova Dildor Bahronovna

Özbək dilində yiyəlik hal formalarının variantları
və onun bədii-estetik rolu
Xülasə

Bu məqalədə Özbək dilində yiyəlik hal formalarının variantlarının xüsusiyyətləri öyrənilir. Eləcə də onların bədii-estetik rolu araşdırılır. Müəllif göstərir ki, onun çoxlu sayda formaları, eləcə də yüksək poetik xüsusiyyətləri vardır. Məqalədə xüsusilə onun qısa, dialect (-im) variantı vardır ki, o üslubi çalarlara malik olması vurğulanır. Müəllif yiyəlik halın variantlarını özbək dilinin materialları əsasında araşdırır.

Rəyçi: Afaq Ramazanova
filologiya üzrə fəlsəfə doktoru, dosent

Fil.ü.f.d. RASİM HEYDƏROV
AMEA Nəsimi adına Dilçilik İnstitutu

AZƏRBAYCAN VƏ TALIŞ DİLLƏRİNDƏ HAL KATEQORİYASI

Açar sözlər: hal, müxtəlifsistemli, kateqoriya, Azərbaycan dili, talış dili, müqyisə, dil əlaqələri
Ключевые слова: падеж, разносистемный, категория, азербайджанский язык, талышский язык, сравнение, языковые связи
Key words: case, different systems, category, the Azerbaijani language, talish language, comparison, language relations

İsmin hal kateqoriyası haqqında antik dövrlərdən filosoflar və dilçilərin fikir söyləmələrinə baxmayaraq, hələ də bu barədə ziddiyyətli məqamlar mövcuddur. "Dilçilik terminləri lüğəti"ndə O.S.Axmanova hal kateqoriyasına belə tərif verir: "Hal – ismin adlandırdığı predmetin gerçəkliyin digər predmetlərinə münasibətini ifadə edən və deməli həmin ismin hal kateqoriyaları formasında cümlənin digər üzvlərinə münasibətini müəyyən edən qrammatik kateqoriyadır. Hallanma isə ismin və digər substantiv sözlərin hallar üzrə dəyişmə paradiqmasıdır" [1, s. 416].

Hal kateqoriyasına dilçilikdə müxtəlif təriflər verilsə də, prosesin özü digər sözlərin (əsasən, fellərin) tələbi ilə ismin, və digər isimləşmiş sözlərin bir haldan digər hala düşməsi ilə səciyyələnir.

Dünya dilçiliyində hal kateqoriyasına münasibət fərqlidir. Belə ki, müxtəlif dillərdə halların sayı tam fərqli göstərilir. Bəzi dillərdə hal kateqoriyasının olmamasına rəğmən (fars, tacik, çin), digər dillərdə 40-dan çox hal göstərilir. "Bu kəmiyyətlərin hamısının hal kateqoriyası haqqında nəzəri dilçilik prinsipləri əsasında müəyyənləşdirildiyinə inanmaq olmur. Faktlar göstərir ki, morfoloji kateqoriyaların mütləq şəkilçilərlə, həm də qrammatik şəkilçilərlə əmələ gəlməsi haqqında nəzəri fikir bir sıra hallarda nəzərə alınmamış və nəticədə ismin halına uyğun gəlməyən formalar hal sırasına salınır. Qəribədir, daha çox halı olan və yaxud halı çox qeyd edilən dillərin əksəriyyəti zəngin yazılı tarixi olmayan, müasir baxımdan da zəif inkişaf etmiş dillərdir. İngilis dilində iki (üç), alman dilində dörd, rus dilində altı hal varsa, ləzgi dilində on səkkiz, avar dilində iyirmi hal qeyd edilir" [2, s. 228].

Y.Seyidov yazır: "Göründüyü kimi, hal sisteminə düzgün yanaşmama və nəzəri dilçilik müddəalarından istifadə etməmək nəticəsində bir sıra hallarda heç hal sisteminə aid olmayan şəkilçilər, bəzən isə, ön və son qoşmalar belə, hal kimi qeydə alınır, bu da müxtəlif dillərdə, məsələn tabasaran dilində 46 halın qeydə alınmasına gətirib çıxarır. Bundan əlavə, məsələn, lak dilində qırxa qədər halın qeydə alınması da, fikrimizcə, hələ bu dillərdə hal sisteminin tam dəqiq araşdırılmaması ilə əlaqədardır. Belə ki, müxtəlif illərdə nəşr edilmiş Azərbaycan dilinin qrammatika kitablarında da Azərbaycan dilində beş, altı, yeddi, hətta doqquz hal olduğu qeyd edilmişdir" [2, s. 226]. Amma bu o demək deyildir ki, Azərbaycan dilində bu qədər hal olmuş, indi isə yoxdur. Əslində, "çağırış", "birgəlik", halları kimi qeyd edilən halların son dövr tədqiqatlarda hal olmaması və onların səhvən hal kimi qeyd edildiyi dəqiqləşib.

Tarixən Azərbaycan dilinin hal sistemi öz sabitliyi ilə səciyyələnir. Baxmayaraq ki, bir sıra müəlliflər müxtəlif vaxtlarda halların sayını bəzən çox,

bəzən isə az göstərmişlər. Bununla belə, Azərbaycan dilinin tarixi qrammatikasına nəzər salsaq, Azərbaycan dilinin yazı materialları tarixinin araşdırılması, bu dildə altı halın ilk dövrlərdən öz sabitliyi ilə fərqləndiyinin şahidi olarıq. Azərbaycan dilinin qədim dövrlərinə aid materiallarını gözdən keçirdiyimiz zaman aydın olur ki, bütün dövrlərdə isimlərin hallanması eyni qaydada olmuşdur. "Təxminən, yeddi əsrlik bir dövr ərzində ədəbi dilimizə aid olan materiallarda belə bir xüsusiyyətin ardıcıl surətdə davam etməsi dilimizin qrammatik quruluşundakı sabitliyini bir daha təsdiq edir" [3, s. 40].

Lakin, bu o demək deyil ki, Azərbaycan dilində hal sistemində, ümumiyyətlə, heç bir dəyişiklik olmamışdır. Baxmayaraq ki, "faktlar göstərir ki, dilin başqa sahələrində, eləcə də, hal kateqoriyasında əsas qaydalar qalmaq şərti ilə, az da olsa bir dəyişiklik olmuşdur. Cümlədə sözlər arasında sintaktik əlaqəni yaratmaq üçün lazım olan formal əlamətlər daha əvvəllər müəyyən qədər dəqiq olmamışdır. İsmin müəyyən bir hal şəkilçisi bəzən paralel, bəzən də bir vəzifədə işlənmişdir. Müasir dilimizdə tam sabitləşən hal şəkilçiləri hələ əvvəllər yerinə görə biri digərini əvəz etmişdir" [3, s. 42].

Beləliklə, Azərbaycan dilinin indiki hal sistemi XIV əsr Azərbaycan ədəbi dilində formalaşmışdı. Sonralar halların qrammatik mənalarında müəyyən dəqiqləşmə və sabitləşmə getmişsə də, sistem dəyişməz qalmışdır.

Azərbaycan dilinin müasir hal paradiqması aşağıdakı qaydadadır:

Ad	Şəkilçi	Sual
Adlıq	–	Kim? Nə? Hara?
Yiyəlik	ın[4]	Kimin? Nəyin? Haranın?
Yönlük	a[2]	Kimə? Nəyə? Haraya?
Təsirlik	ı[4]	Kimi? Nəyi? Haranı?
Yerlik	da[2]	Kimdə? Nədə? Harada?
Təsirlik	Dan[2]	Kimdən? Nədən? Haradan?

Azərbaycan dilində sözlər hallanarkən müəyyən dəyişiklər baş verə bilər. Azərbaycan dilində saitlə bitən sözlərə saitlə başlayan şəkilçi artırdıqda bitişdirici samitlərdən (n, y, s) istifadə edilir. Bu hal özünü sözlər hallanarkən də göstərir. Belə ki, Azərbaycan dilində yiyəlik, yönlük və təsirlik hallarının şəkilçiləri saitlə başlayır. Buna görə də, saitlə başlayan şəkilçilərə bu hal şəkilçiləri qoşulduqda bitişdirici samitlərdən istifadə olunur. Maraqlıdır ki, bu zaman "n" və "y" samitlərindən istifadə olunsa da, "s" samitindən istifadə edilmir.

Əvəzliklər hallanarkən müəyyən fərqli xüsusiyyətlərə rast gəlinir. Belə ki, şəxs əvəzliklərinin birinci şəxsləri (mən və biz) hallanarkən yiyəlik halda -ın[4] deyil, -im şəkilçisi qəbul edir.

O, bu işarə əvəzlikləri hallanarkən müəyyən fonetik dəyişikliklərə məruz qalır, hallanma zamanı "n" bitişdirici samitindən istifadə edilir. Bu kiçik fonetik fərqləri nəzərə almasaq, Azərbaycan dilinin hal sistemi sabit və dəyişilməzdir.

Talış dilində hal kateqoriyasının olması isə ziddiyyətli məsələlərdən sayılır. Nəinki hal sistemi, ümumiyyətlə, bu dilin qrammatik quruluşunun az araşdırılması özünü, xüsusən də, hal sisteminə münasibətdə göstərir.

Qədim İran dillərindən danışarkən mütəxəssislər bu dillərdə çoxsaylı hal sistemindən bəhs edirlər. İlk növbədə İran dillərinin yazılı abidələri olan Avesta və qədim İran dillərinin materialları əsasında bu nəticəyə gəlmək olar. Avesta dilində 8 halın olduğu qeyd edilir: adlıq, yiyəlik, yönlük, təsirlik, çıxışlıq, instrumental, yerlik, çağırış. Qədim İran dillərində isə halların sayı bir qədər azalır və altıya enir.

Qədim İran dillərində çoxsaylı hal sistemin olmasını eyni zamanda orta İran dillərinin daha arxaik dilləri olan sak və soqdi dillərinin materialları da təsdiq edir. Bu dillərin qədim dövr yazılı abidələrində altı haldan ibarət olan hal sistemini saxlanmışdır. Eyni zamanda, İran dillərinə yaxın olan qədim hind dilində də səkkiz hal forması qeydə alınmışdır. Bu hal sistemləri də, cüzi fərqlər istisna olmaqla, öz əsas xüsusiyyətlərində Avesta və qədim İran dilləri ilə oxşarlıq təşkil edir [4, s. 117].

Qədim İran dillərində hal kateqoriyası tədricən dağılır. Belə ki, bir çox müasir İran dillərində (məsələn, fars dilində) artıq hal sisteminin olmaması diqqəti cəlb edir. Bu xüsusiyyətlər, yəni hal sisteminin tədricən dağılması artıq özünü Avesta dilində göstərməyə başlayır. Bu özünü həm təmiz formal-morfoloji, həm də mahiyyət-funksional baxımdan göstərir. İlk əlamətləri artıq qədim İran dillərində görünən qədim hal sisteminin dağılması sonrakı dövrlərdə daha intensiv inkişaf edir. Qədim İran dövründən sonra hal sisteminin inkişafı aşağıdakı istiqamətdə baş vermişdir: 1) hal sistemi tiplərinin azalması; 2) tədricən halların sayının azalması; 3) bəzi halların mənalarının və funksiyalarının genişlənməsi [5, s. 69].

Müasir İran dillərində isə hal sistemi tam müxtəlifdir. Bəzi dillərdə iki, üç hal qalsa da, digərlərində bu hallar tam itmişdir.

Talış dilində hal sistemindən danışmazdan əvvəl hal kateqoriyasının özünün dilçilikdə yerini bir daha dəqiqləşdirmək istərdik. Qeyd etdiyimiz kimi, dilçilik ədəbiyyatında hal sistemi bəzən düzgün izah edilmir və bu anlayışın özünün izahı daha doğru olardı. İsmin cümlədə bir sözün tələbi ilə (əsasən, felin) bir haldan digər hala düşməsinə hallanma deyilir və hallanma sırf olaraq morfoloji kateqoriyadır. Məlum olduğu kimi, bəzən, dilçilər morfologiya və sintaksisin sərhədlərini dəqiq müəyyənləşdirmir, önqoşmaları, sonqoşmaları hal paradiqması kimi təqdim edir, bəzən isə ümumiyyətlə sırf sintaktik funksiyaları nəzərə alaraq hal kateqoriyasından danışırlar. Halbuki, dilçilikdə qrammatik kateqoriya deyərkən sırf morfoloji əlamətlər nəzərə alınır və morfoloji əlaməti (yəni şəkilçisi) olmayan formalar qrammatik kateqoriya hesab edilmir. Bu xüsusiyyətlərin nəzərə almayan dilçilər isə bəzən səhv nəticələrə gəlib çıxırlar. [6, s. 151-152; 7, s.221]. Azərbaycan dilində hal kateqoriyasını tədqiq edərkən A.Əsədova yazır: "Türk dillərində hal kateqoriyası formasına (şəklinə) görə morfoloji, funksiyasına (vəzifəsinə) görə sintaktik kateqoriyadır. "Buna görə də "hal kateqoriyası mahiyyətcə morfoloji-sintaktik kateqoriyadır" demək olar, başqa sözlə desək, türk dillərində hal kateqoriyası sözün əsl mənasında, qrammatik kateqoriyadır" [8, s. 117].

İngilis dilindən danışarkən bəzi tədqiqatçılar dörd, bəzi tədqiqatçılar beş, bəziləri isə ümumiyyətlə bu dildə hal kateqoriyasının olmamasını iddia edirlər [9, s. 35]. Bu da heç şübhəsiz, artıq qeyd etdiyimiz kimi, problemin mahiyyətinin doğru təhlil edilməməsindən irəli gəlir. Belə ki, hal kateqoriyasından danışmaq üçün, bir sözün şəkilçi qəbul edərək dəyişməsi, yəni idarə olunması hallanmanın əsas və yeganə şərti olduğunu qeyd etmək lazımdır. Yəni başqa vasitələrdən (məsələn, qoşmalardan) istifadə edərək mənanın əldə edilməsi hallanma deyil. Necə ki, İngilis dilində *I go to school* deyərkən, *mən məktəbə gedirəm* anlayışı ifadə edilirsə, burada önqoşma vasitəsi ilə yaradılan yönlük hal məzmunu şəkilçi ilə yaranmadığından, yəni söz bir haldan digər hala düşmədiyindən biz ingilis dilində yönlük haldan danışa bilmərik. Məhz bu incə məqamın bəzən dilçilik ədəbiyyatında qarışdırılması, daha doğrusu, nəzərə alınmaması eyni bir dildə bəzən bir neçə halın qeyd edilməsinə, bəzən isə qeyd edilməməsinə gətirib çıxarır.

Müasir talış dilinin hal sistemi keçid sistemə aid edilir (fleksiyadan aqqlütinasiyaya). Yəni talış dilində hal sistemi artıq dağılmaq üzrədir. Yuxarıda qeyd etdiyimiz, kimi, qədim İran dillərində tədqiqatçılar çoxsaylı hal sistemindən danışırlar [10, s. 44-61]

Talış dilində artıq cins kateqoriyasına rast gəlinmir. İki hal – vasitəli və vasitəsiz hal yalnız təkdə işlənir [11, s. 18; 12, s.127-129; 13, s. 94]. Ə.Rəcəbli isə talış dilində əsas (adlıq hal) və vasitəli hal olduğunu qeyd edir [13, s. 36-40]. Cəmdə ismin ancaq bir forması var (-on şəkilçisi ilə düzəlir) və hallara görə dəyişmir. B.V.Miller isə -o ilə bitən ayrıca bir halı da qeyd edir, bu vurğusuz –o elementini hal fleksiyası kimi izah edir və bu hal çox vaxt **çı** (-dan[2]) önlüyü ilə birlikdə işlənir. Bu halı izah etmək üçün, onun bir neçə mövqedə işlənməsini verir:

1. -o suffiksi ayrılıqda hər şeydən əvvəl predmetdən istiqaməti və ondan uzaqlaşmanı bildirir: bıdə bışu çımı torpağo – qoy o mənim ölkəmdən çıxsın.

2. ton (“tərəf”) sözü ilə birləşərək -o şəkilçisi felin semantikasından asılı olaraq, həm də əks istiqaməti – yəni “predmetə tərəf” mənasını verə bilər. Şe piə jeni tono – qoca qarının yanına getdi.

3. ba // bi və bo qoşmaları ilə kombinasiyada “üçün”, “ötrü”, “ondan ötrü ki” mənalarını alır və işin səbəbini və məqsədini ifadə edir. Ba piə jenon – o “qoca qarılar üçün”, ba pia jeni-o “qoca qarı üçün”, bo ay-o “onun üçün”. B.V.Miller bu halı bir sıra digər misallarla da aydınlaşdırmağa çalışır [15, s. 75-76].

“Hal paradiqmasını müəyyən edərkən, bütün dialektlər üçün əsas xüsusiyyəti, onun ikihallılığını qəbul etmək lazımdır” [12, s. 127]. Şübhəsiz biz də bu fikirlə razıyıq ki, hallanma deyərkən ismin bir haldan digər hala düşməsi nəzərdə tutulduğundan talış dilində yalnız iki hal mövcuddur:

1. Vasitəli hal;
2. Vasitəsiz hal.

Vasitəli hal –i şəkilçisi ilə düzəlir, yalnız samitlə bitən tək isimlərə artırılır. Bu halın şəkilçisi saitlə bitən tək isimlərə və cəm halında olan, yəni –on şəkilçisi qəbul etmiş isimlərə artırıla bilmir. Azərbaycan dilində bu şəkilçi yiyəlik və təsirlik hallarının məzmununa uyğun gəlir. Məsələn, Həsəni kitob – Həsənin kitabı, kitobi bahand – kitabı oxu və s.

Nəticə olaraq onu qeyd etmək lazımdır ki, çox vaxt qrammatik kateqoriyalar haqqında danışarkən morfoloji kateqoriyalar nəzərdə tutulur. Amma bir sıra

hallarda morfoloji və sintaktik kateqoriyalar qarışdırılır. Morfoloji təsnifatın əsasında sözün struktur tərtibi prinsipləri dayanır. Buradan da aydın olur ki, qrammatik kateqoriyaların ifadəsi dilin morfoloji tipindən asılıdır. Belə ki, eyni miqdarda qrammatik kateqoriyaları ifadə etmək üçün iltisaqi dilə flektiv dildə olduğundan daha çox şəkilçi lazım olur. Ənənəvi təsnifatlara görə hal, cins, şəxs, zaman, növ və kəmiyyət kateqoriyaları qrammatik kateqoriyalara aiddir. Amma bütün bunlar morfoloji vasitələrlə ifadə olunmalıdır. Əks təqdirdə müvafiq dildə həmin kateqoriyalardan danışmaq mümkün olmaz. Buna görə də, məsələn, əgər biz Azərbaycan dilində mənsubiyyət kateqoriyasından ayrıca kateqoriya kimi danışırıqsa, talış dilində bu kateqoriyadan ayrıca danışa bilmirik. Çünki bu dildə həmin kateqoriyanı ifadə edən şəkilçilər və söz formaları yoxdur. Bu məntiqlə çıxış edərək, deyə bilərik ki, Azərbaycan dilində ismin altı, əksinə talış dilində isə iki halı var. Çünki talış dilində, Azərbaycan dilində olan digər halların məzmunu şəkilçilər vasitəsi ilə deyil, digər vasitələrlə ifadə edilir.

Ədəbiyyat

1. Ахманова О.С. Словарь лингвистических терминов. М., Сов. энциклопедия, 1969, 608 с.
2. Seyidov Y. Azərbaycan dilinin qrammatikası. Morfologiya. Bakı: Bakı Universiteti Nəşriyyatı, 2006, 371 s.
3. Mirzəzadə H. Azərbaycan dilinin tarixi qrammatikası. Bakı: Azərbaycan Universiteti Nəşriyyatı, 1990, 376 s.
4. Опыт историко-типологического исследования иранских языков. Том II, Эволюция грамматических категорий, Москва, «Наука», 1975, 476 с.
5. Kərimov A. Hal münasibətlərinin fars dilində ifadə vasitələri (tarixi aspektdə). Bakı, Adiloğlu, 246 s.
6. Axundov A. Ümumi dilçilik. Bakı, Şərq-Qərb, 2006, 280 s.
7. Rəcəbli Ə. Nəzəri dilçilik. Bakı, Nurlan, 2003, 515 s.
8. A.Əsədova Azərbaycan dilində qrammatik hallar. Bakı: Elm və təhsil, 2009, 132 s. S.117
9. Musayev O. İngilis dilinin qrammatikası. B., Maarif, 1996, 392 s.
10. Соколов С.Н. Авестийский язык. Изд. Восточной лит. М. 1961, 124 с.
11. Sadıqov Ə. Talış dilinin qrammatikası. S.Peterburq; Павел Ног, 2002, 170 s.
12. Пирейко Л.П. Талышский язык. Диалекты тати Ирана. / Основы Иранского языкознания. Новоиранские языки. Северо-Западная группа. ч. 1, М.: Наука, 1991, с. 91-175
13. Виноградова С.П. Талышский язык, Языки мира. М., Индрик, 1999, с. 89-97
14. Rəcəbli Ə. Talışlar və talış dili. Bakı: BDU, 1994, 81 s.
15. Миллер Б.В. Талышский язык. М., Изд. Акад. Наук СССР, 1953, 268 с.

Расим Гейдаров

Категория падежа в азербайджанском и талышском языках

Резюме

Статья посвящена исследованию категории падежа в азербайджанском и талышском языках, принадлежащим к различным языковых семьям. Впервые категория падежа в двух исследуемых языках сравниваются с родственными и неродственными языками. В отличии от азербайджанского языка, в талышском языке категория падежа реализуется посредством послелогов и эти вопросы широко и подробно анализируется в данном статье.

Rasim Heydarov

The category of case in the Azerbaijani and Talish languages

Summary

The article is dedicated to investigation of the category of case in the Azerbaijani and Talish languages belonging to different languages systems. For the first tame the category of case in two investigated languages are compared with related and unrelated languages. In contrast to the Azerbaijani in tallish language the category of case is realized by means of postpositions and these questions are widely and minutely analyzed in this article.

Rəyçi: Röza Eyvazova
filologiya üzrə elmlər doktoru, professor

AYNURƏ ƏLİYEVA
Əlyazmalar İnstitutu

"BÜRHANİ-QATE" LÜĞƏTİNDƏ DİNİ VARLIQLAR (MƏLƏKLƏR)

Keywords: "Burhani-Kati", names of angels, zoroastrianism, names of person
Açar sözlər: "Bürhani-qate", mələk adları, zərdüştlük, şəxs adları
Ключевые слова: «Бурхани-гате», имена ангелов, зороастризм, антропонимы

Ən dəyərli klassik lüğət nümunələrindən biri də görkəmli Azərbaycan leksikoqrafı Məhəmməd Hüseyn bin Xələf Təbrizinin h.q. 1062 (1651/52)-ci ildə tərtib etdiyi "Bürhani-qate" ("Tutarlı dəlil") lüğətidir. Fars leksikoqrafiyasının bu dəyərli nümunəsində iyirmi mindən çox söz vardır ki, onlar olduqca müxtəlif anlayışları özündə birləşdirir. Bu baxımdan mənbədə toplanan mələk adları da diqqəti cəlb edir.

Quranda və hədislərdə vəhy mələyi Cəbrail (ə), təbiət hadisələrini idarə edən Mikail (ə), şeypurunu çalmaqla qiyamətin qopduğunu xəbər verəcək İsrafil (ə), ölüm mələyi Əzrail (ə), cənnət mələklərinin başçısı Rizvan, cəhənnəm mələklərinin başçısı Malik, insanın yaxşı əməllərini yazmaq üçün sağ çiynində, pis əməllərini yazmaq üçün sol çiynində oturmuş iki həfəzə mələk, insan öldükdən sonra qəbirdə onu bu dünyada gördüyü işlər barədə sorğu-sual edəcək Nəkir – Münkər haqqında müəyyən bilgilər verilir (11). Məlum olduğu kimi, bunlardan Cəbrail (ə), Mikail (ə), İsrafil (ə) və Əzrail (ə) islam dini ədəbiyyatında adı çəkilən dörd böyük mələkdir.

Ümumiyyətlə, səmavi dininə aid olan mələk adları bir qayda olaraq "il" şəkilçisi ilə tamamlanır. "Bürhani-qate" lüğətində də yer alan "هفت فرشته ایام هفته" (həftə günlərinin yeddi mələyi) ifadəsində adları çəkilən "Uryail, Hidail, Şəmail, Rəfail, Əqail, Cəbrail, Əzrail" mələk adlarının "il" şəkilçisi ilə tamamlandığının şahidi oluruq (3,s.425[b]). Lakin həmin mənbədə verilən mələk adlarının heç də hamısı bu qaydaya uyğun gəlmir. Belə ki, "Bürhani-qate" lüğətində toplanan və əksərən bir neçə anlamda, istər müxtəlif onomastik vahidlər kimi, istərsə də ümumi ad olaraq, izah edilən bu sözlərin mənalarından biri məhz mələk adlarına işarə edilərək "...نام فرشته", bəzən də "...نام ملکی" (mələk adı) ifadəsi ilə təqdim edilir. Həmin sözlərin dini varlıq olaraq, izahlarına nəzər saldıqda bu mələklərin demək olar ki, hamısının müəyyən anlayışları (məsələn: od, hər hansı bir ayın günü və s.) mühafizə edən varlıqlar kimi təqdim olunmasının şahidi oluruq. Hətta zərdüştlük dinində tanrı olaraq qəbul edilən xeyir və şər tanrıları mənbədə tanrı kimi deyil, əməlləri müqabilində mələk və şeytan şəklində izah edilmişdir. Müasir fars şəxs adları lüğətlərində isə rast gəldiyimiz bu adların bəzilərinin mənalarında mələk deyil, zərdüştlük dinində tanrılardan birinin adı kimi təqdim edilməsi diqqətə çatır. Qeyd etdiyimiz kimi, həmin sözlərin yalnız onomastik vahid deyil, həmçinin ümumi isim olaraq ifadə etdiyi mənaları da verilmişdir. Ümumiyyətlə, geniş arealda izah edilən həmin sözlərin dini varlıq kimi ifadə etdiyi adların İran mifologiyası ilə bağlılığını düşünmək olar.

Lakin bu məqaləmizdə işin həcmini nəzərə alıb mələk adlarının bir hissəsindən bəhs edəcəyik. Bu qrupa daxil etdiyimiz mələk adları "Bürhani-qate" lüğətində bir neçə qrafik və fonetik variantda təqdim edilmişdir.

Ümumiyyətlə, hər bir dilin lüğət tərkibində bir neçə qrafik və fonetik variantlı eyni mənanı ifadə edən sözlər mövcud olur. Belə sözlər içərisində müxtəlif variantlar şəklində işlənib, tələffüz olunan mələk adları da kifayət qədərdir. Həmçinin bu adlar və onların variantlarının bir çoxu müasir fars şəxs adları sisteminə daxil olub antroponim sıralarını zənginləşdirir və şəxs adları lüğətlərində də əksini tapmış olur. Bu baxımdan "Bürhani-qate" lüğətində də müxtəlif qrafik variantlı belə adlar da kifayət qədər olub, istər müasir fars dili izahlı lüğətləri, istərsə də şəxs adları lüğətlərində yer almaqdadır. Əlbəttə ki, onları birləşdirən əsas ümumi məna ilə yanaşı, fərqli izahlara da rast gəlinir. Bu sözlər aşağıdakılardan ibarətdir:

İlk növbədə "آذر" (Azər) sözünün əsasında yaranan aşağıdakı adlara nəzər salaq:

Qeyd etmək istərdik ki, lüğətdə bir neçə mənada izah edilən "آذر" sözü dini varlıq olaraq "günəşi himayə edən və azər ayının günündə baş verən işlərə aidiyyəti olan mələk" adını ifadə edir (3,s.11[b]).

آذرشپ (azərşəp) – alovu qoruyan mələkdir, səməndər mənasında da işlənir (3,s.12[a]). Fars şəxs adları lüğətlərindən "فرهنگ نام سخن" lüğətində bu adın "آذرشب" (azərşəb) variantına rast gəlirik. Bu adın açıqlanması "hər zaman alovda olan, atəşi qoruyan mələk"dir (8,s.6). Göründüyü kimi "Bürhani-qate"də verilmiş "آذرشپ" və şəxs adları lüğətindəki "آذرشب" variantları arasındakı fərq məlum "پ" "ب" əvəzlənməsindədir. "فرهنگ نام ها" lüğətində də "آذرشب" variantında rast gəlinən antroponimin izahı "səməndər və həmişə alov içərisində olan, onu mühafizə edən mələk"dir (6,s.23).

آذرشسپ (azərşəsp) – bu adın mənasının yuxarıdakı adla eyni olduğuna görə (3,s.12[a]) onları eyni adın müxtəlif variantları kimi qəbul edə bilərik. "فرهنگ نام سخن" lüğətində yer almış "آذرشسب" variantının izahında bu adın "آذرگشسب" adının qısaldılmış variantı olduğu və "1. sıçrayan atəş (آتش جهنده); 2. hər zaman alovda olan, atəşi qoruyan mələk; 3. "Atəşgah" mənalarını ifadə etməsi qeyd olunub (8,s. 6). "فرهنگ نام ها" lüğətində adlar cərgəsində yer alan "آذرشست" variantının "alovda paklaşan və təmizlənən, səməndər və asbest (odadavamlı lifli mineral)" mənalarına rast gəlirik. Burada quruluşca mürəkkəb olan bu adın transkipsiyası "āzar-šost" şəklində verilib (6,s.23). Məlum olduğu kimi "āzar" – od, alov, "šost" isə "şostən" (شستن) felinin əsası olub, açıqlanması "yumaq" deməkdir. "آذرشست" sözünün ifadə etdiyi mənalara əsasən, bunun da "آذرشسپ" adının digər variantı olduğunu deyə bilərik.

آذرگشپ (azərgəşp) – mənası, alovu qoruyan mələkdir, "آذرگشسب" kəlməsinin qısaldılmış variantıdır (3,s.12[a]). "فرهنگ نام سخن" lüğətində آذرگشب "āzargošb" kimi qrafik variantında təqdim olunmuş bu sözün digər variantının "آذرگشسپ" (āzargošasp) olduğu qeyd olunub (8,s.6). Və "آذرگشسپ" adının izahında sözün pəhləvi dilində "āturgušnasp" şəklində olub, alov mənasında "ātur"; erkək heyvan anlamında "gušn" və at "اسب" sözlərinin birləşməsindən yaranması qeyd olunub. Mənaları isə "1. Şahnamə şəxsiyyətlərindən olub, Sasani padşahı Xosrov Pərvizin komandanlarından birinin adı və 2. Azərbaycanda atəşgah adı"dır (8,s.6).

آذرگشسپ (azərgəşəsp) – Bəlxdə tikilən "گشتاسب" (gəştasb) atəşgahıdır, həmçinin parıltı mənası da var, atəş və atəşpərəstlərə də belə deyilir, daima atəşdə olan və odu mühafizə edən mələk adıdır (3,s.12[a]). "فرهنگ نام سخن" lüğətində (āzargošasp) fonetik variantında verilmiş "آذرگشسپ" adı "آذرگشب" adının digər

variantı kimi verilmişdir (8,s.6). Və bu adın mənaları isə yuxarıda verilmiş آذرگشپ (azərgəşp) sözünün izahında yer almışdır. "فرهنگ اسامی" lüğətində isə (āzar-goşəsb) fonetik variantlı آذرگشسب antroponimi məlum "nər atın alovu" (آتش اسب نر) və Sasanilər zamanında Azərbaycanda mühüm atəşgahlardan biri" mənalarındadır (5,s.4). "فرهنگ نام ها" lüğətində "Xosrov Pərvizin məşhur komandanlarından birinin adı" izahında verilmiş "آذرگشسب" (āzar-goš-asb) sözünün digər variantı isə "آذرگشنسب" (āzar-gošn-asb) olduğu qeyd olunmuşdur (6,s.24). "آذرگشنسب" adının izahında da "sıçrayan alov, atın tullanması kimi, Zərdüşt dinində cahanı qoruyan üç müqəddəs atəşdən biri və Bəlx atəşgahlarından birinin adı" anlamlarına rast gəlinir (6,s.24). "فرهنگ نامهای ایرانی" lüğətində isə həm "آذرگشسب", həm də "آذرگشسپ" variantlari verilsə də, bunlardan birincisi yalniz "Bəhram Çubinin komandanlarından biri", digəri isə "Gəştasbın Bəlxdə tikdiyi və İskəndərin dağıtdığı atəşgah adı, sıçrayan atəş – müqəddəs atəşgahlardan biri və məşhur Xosrov Pərvizin komandanlarından biri" mənalarındadır (7,s.24). Göründüyü kimi, yuxarıdakı mənbələrə istinadən bu adların hər ikisi eyni adın müxtəlif variantları kimi qəbul olunsa da, sonuncu lüğətdə müxtəlif mənalarda izah olunmuşdur. Bu fərqliliyi lüğət tərtibçisinin müxtəlif mənbələrə istinad etməsi ilə əlaqələndirmək olar.

Ümumiyyətlə isə, yuxarıda sadalanan adlar arasında müəyyən fonetik dəyişilmələr olsa da, onları bağlayan ümumi mənalar bu sözlərin eyni adın müxtəlif variantları olmasına əsas verir.

Belə adlardan biri də اسفندارمذ (esfendarmuz) sözüdür.

اسفندارمذ (esfendarmuz) – "اسپندارمذ" (espendarmuz) mənasındadır, şəmsi ilinin on ikinci ayının, şəmsi təqviminin hər ayının beşinci gününün adıdır, farslar bu günü mübarək hesab edib, bayram edirlər. Onlar arasında olan qaydaya əsasən, məlumdur ki, günün adı ilə ayın adı uyğun gələrsə, gərək o gün bayram kimi qeyd olunsun və mübarək sayılsın. Ağacları və yaşıllığı himayə edən və esfendar ayında baş verən işlərə aidiyyatı olan mələk adıdır, həmçinin yer, torpaq mənasında verilmişdir və ərəbcə "ارض" deyilir (3,s.31[a]). Yuxarıdakı izaha əsasən, bu isim "اسپندارمذ" (espendarmuz) sözünün digər variantıdır. Bu sözün də izahında həmin mənalar verilmişdir (3,s.28[b]-29[a]). M.Müinin tərtib etdiyi lüğətdə də rast gəlinən "اسفندارمذ" (esfandār-maz) sözünün digər variantının "اسپندارمذ" olduğu qeyd olunub (9,s.142). Həmin mənbədə izahı ilə təqdim olunmuş "اسپندارمذ" (espand-ārmaz) sözünün Avesta mənşəli olması verilmişdir (9,s.132-133). Bundan başqa "Bürhani-qate"də "اسفندارمذ" sözünün həmin mənalarda izah olunan digər "سپندارمذ" (sependarmuz) (3,s.217[b]), "سفندارمذ" (sefendarmuz) (3,s.229[a]) kimi qısaldılımış variantlarına da rast gəlirik.

İstinad etdiyimiz mənbədə çox sayda qrafik variantı olan onomastik vahidlərdən dünyanın ən qədim etiqadlarından biri olan zərdüştlük dinində xeyir və şər qüvvələri təmsil edən Əhrimən və Hörmüz adlarını çəkə bilərik. Lakin əlavə olaraq qeyd etmək istərdik ki, Azərbaycan onomastikasında "hər hansı dini panteonda allahların, ilahi varlıqların xüsusi adları: Yəzdan, İzıd, Hörmüzd, Əhrimən (zərdüştilikdə), Ra, Hut, Hu (Qədim Misirdə), Şiva, Çandra, Krişna, Budda (Hindistanda), Perun, Dajboq, Striboq (qədim slavyanlarda), Zevs, Demetra, Poseydon, Apollon, Afina (Qədim Yunanıstanda), Tanrı, Çələbi, Allah, Xuda" onomastik termin olaraq "teonim" adlanır" (2,s.425). Ümumiyyətlə, "Bürhani-qate" lüğətində bir çox

mənalarda izah olunan və mənalarından biri məhz İran mifologiyası, zərdüştlükdən gələn 40-a yaxın Tanrı adlarını ifadə edən teonimlər yer almışdır.

Onomastik termin olaraq "teonim" adlanan Əhriman və Hörmüz zərdüştlük dinində əsasən xeyir və şər Tanrısı olaraq təqdim edilsələr də, "Bürhani-qate"də verilmiş çoxsaylı izahlarından birində məhz müəyyən atributları təmsil edən mələklərdən olması diqqətə çatır. Daha dəqiq desək, şər Tanrısı hesab edilən Əhriman burada pisliklər bələdçisi olub, cin şeytan mənasında, Hörmüz isə müəyyən günü nizama salan mələk anlamında izah edilir. Məhz "Bürhani-qate"yə istinadən bu teonimləri onların hər birinin müxtəlif qrafik variantlarını birləşdirən yuxarıdakı ümumi mənaya əsasən, mələk adları qrupuna daxil etdik. Məlum olduğu kimi, qədim İran mifologiyasında şər Allahı hesab olunan Əhriman bəd əməllər törədicisidir. Bu teonimin "Bürhani-qate" lüğətində verilmiş izahları içərisində həmçinin şeytan, div və cin mənalarına görə də Əhriman adını "əfsanəvi adlar" bölməsinə aid edə bilərik. Bu adın şər qüvvə olaraq ifadə etdiyi mənaya əsasən, onun şəxs adları sırasına daxil edilərək işlənməsini məqbul saymaq olmaz. Aşağıdakılardan yalnız mənalarından biri antroponimə aid olan اهرن (əhrən) variantı şəxs adları lüğətlərində diqqətə çarpır. Bunu nəzərə alıb, Əhriman adının "Bürhani-qate" lüğətində verilmiş aşağıdakı variantlarını təqdim etməklə kifayətlənirik.

آهرامن (ahramən) – bəlalar, bədbəxtliklər bələdçisinə deyilir, necə ki Yəzdan xeyirxahlıqlar bələdçisidir (3,s.19[b]).

آهرمن (ahrəmən) – bəlalar, bədbəxtliklər bələdçisidir, bəziləri Ahrəmənin şeytan, Yəzdanın mələk olduğunu deyir. Başqaları Yəzdanın Allah-təalanın adı olduğunu bildirir və Ahrəmən isə şeytandır, bu da doğrudur. Zərdüştilər deyirlər ki, o şər, fitnə, fəsad tötədən, qaranlıq və zülm yaradıcısıdır (3,s.19[b]).

آهرن (ahrən) – "آهرمن" (Ahrəmən) mənasında olub, şeytanı bildirir (3,s.19[b]).

آهریمن (ahrimən) – "آهرن" (ahrən) mənasında olub, pisliklər bələdçisi olan şeytanı ifadə edir (3,s.19[b]).

آهریمه (ahrime) – آهریمن (ahrimən) mənasında olub, pisliklər bələdçisi olan şeytanı ifadə edir (3,s.19[b]).

اهرامن (əhramən) – pisliklər bələdçisinə deyilir və ona şeytan, div də deyilir (3,s.47[a]).

اهرمن (əhrəmən) – pisliklər bələdçisidir, Yəzdan da xeyirxahlıq bələdçisidir. Şeytana, divə də deyilir. "Əhremən" kimi də tələffüz olunur (3,s.47[a]).

اهرن (əhrən) – اهرمن (əhrəmən) mənasındadır, pisliklər bələdçisi olub şeytandır. Həmçinin "cin" də deyilir. Və Rum Qeysərinin (Bizans imperatorunun) kürəkəninin adıdır, Gəştasbla da sələf olmuşdur, yəni onlardan biri Qeysərin qızını almışlar. Və sind hindlilərinin dilində zərgəri və həmkəri də deyilir (3,s.47[a]).

اهریمن (əhrimən) – اهرمن (əhrəmən) mənasında olub, pisliyə yol göstərəndir, necəki Yəzdan xeyirxahlıq bələdçisidir. Şeytan, div və cini də belə adlandırırlar (3,s.47[a-b]).

اهریمه (əhrime) – pisliklər bələdçisidir, şeytana da deyilir (3,s.47[b]).

هرماس (hurmas) – pisliklər bələdçisi olan Əhrimənə, həmçinin şeytana da deyilir (3,s.421[b]). Lakin göründüyü kimi bu ad zərdüştlükdə şər Allahı kimi qəbul edilən Əhrimənin yuxarıda sadalanan variantları ilə uyğun gəlmir. Həmçinin M.Müin lüğətində də verilmiş variantları içərisində (9,s.202-203) bu adın "Hurmas" şəklinə rast gəlinməməsi və onun qrafik olaraq daha çox "Hörmüz" adına

uyğunluğunu nəzərə alaraq, həmin variantın Əhrimən adını ifadə etməsi maraq doğurur. Hörmüz isə məlum olduğu kimi, zərdüştlük dinində xeyir Allahının adını ifadə edir. Bu adın da xeyir Allahı olan Hörmüzün digər fonetik variantı kimi qəbul etsək, daha düzgün olardı.

Belə adlardan biri də İbrahim adını ifadə edən sözün aşağıdakı qrafik variantlarıdır. Lakin variantların içərisində mələk və peyğəmbər izahları qeyd olunsa da, bu mənalara bütün variantlarda rast gəlinmir.

ابرهام (əbərham) – təbiət, dünya işini nizamlayan mələk və peyğəmbər adı mənalarındadır (3,s.21[a]). "Bürhani-qate" lüğətində bu dini antroponimin براهام (bəraham) (3,s.62[a]) və ərəbcə variantrının "ابراهیم" olaraq göstərilən, qədim fars adlarından olan "پراهام" (pəraham) (3,s.92[a]) qrafik variantları da söz sırasına daxil edilmişdir. Bir neçə mənalarda izah olunan bu sonuncu iki variantın izahlarının birində müştərək olaraq "ابراهیم" (ebrahim) adı qeyd olunsa da, bunların heç birində "İbrahim" adının məhz peyğəmbər adının ifadə etməsi verilməyib. Lakin aşağıda qeyd olunan müasir fars şəxs adları lüğətlərinə istinadən, bu adların məhz peyğəmbər adının digər variantları olması qeyd olunur. Həmçinin "Bürhani-qate" lüğətinin redaktə variantında bu ad haqqında M.Müinin ətraflı sətiraltı izahı verilmişdir (4,s.81). Eyni zamanda, istinad etdiyimiz "Bürhani-qate" lüğətində verilmiş bu adın digər variantları içərisində onun, demək olar ki, mələk adını ifadə etməsinə rast gəlinmir. M.Müinə məxsus lüğətdə belə sıralanmış "ابراهیم" antroponiminin variantları içərisində onun mələk adını ifadə etməsi qeyd olunmayıb (9,s.75-76). Lakin "فرهنگ اسامی" lüğətində rast gəldiyimiz "ابرهام" variantı məhz təbiət, aləmi nizamlayan mələk və İbrahim mənalarındadır (5,s.15).

Müasir fars şəxs adları lüğətlərində bu adın müxtəlif variantlarına rast gəldiyimiz üçün lüğətlərə ayri-ayriliqda nəzər salacağıq. "نام سخن فرهنگ " kitabına istinadən "Xəlilullah" ləqəbli böyük peyğəmbərlərdən biri olan ibrani mənşəli "ابراهیم" dini antroponiminin (8,s.19), "براهام" (bəraham), "براهیم" (bəraham) (8,s.40), "پراهام" (pəraham) (8,s.51) və "پرهام" (pərham)(8,s.53) variantları da daxil edilib. Hətta burada adın "ابراها" (əbraha) variantı sual altında həbəşi dilində işlənmə variantı kimi təqdim olunub (8,s.19). "فرهگ اسامی" kitabında "ابرام" (əbram), "ابراهام" (əbraham), "ابراهیم" (ebrahim) - ərəbləşmiş variantı, "ابرهام" (əbərham) (5,s.15), "براهام" (bəraham) (5,s.45), "پراهام" (pəraham) – fars dilində işlənən variant kimi qeyd olunub (5,s.58). "فرهنگ نامها" kitabında da "ابرام" (əbram), "ابراهام" (əbraham), "ابراهیم" (ebrahim) - ərəbləşmiş variant (5,s.43-44), "براهام" (bəraham), "براهیم" (bəraham) (4,s.102), "پراهام" (pəraham) – farsca işlənən (5,s.123) variantları şəxs adları sırasında diqqətə çatır.

Azərbaycan şəxs adları sistemində çox müraciət olunan "İbrahim" antroponiminin şəxs adları lüğətində izahı belədir: "Əsli "Abram"dır. Yüksək ata, böyük ata, həqiqətlərin atası anlamını verir. Beynəlxalq adlardandır. Bir sıra xalqlarda Abrham, Abrhams, bəzilərində isə Avram, Avraam, Avraamiy və s. biçimdə işlənir..." (1, s.197).

Peyğəmbərlərin Allahın elçiləri – sevimli bəndələrindən oldunu nəzərə alsaq, bu adın məcazi mənada mələk adını da daşımasını məqsədəuyğun hesab etmək olar.

Lüğətdə verilmiş bir neçə fərqli qrafik və fonetik variantlı ماراسپند , ماراسپندان , ماراسفند ,ماراسفندان (3,s.370[a]) və مهراسفند (3,s.389[a]) sözlərinin izahlarına əsasən, onların eyni mənalı sözlərin olması nəzərə çarpır. Əvvəlki iki sözün mənalarında şəxs

adlarından atəşpərəstlərin kahinlərindən və alimlərindən biri olan Azərbadın atasının adı, suya müvəkkil olan və bu günlə bağlı işlərlə əlaqəsi olan mələk adı izahına rast gəlirik. ماراسفند və ماراسفندان sözlərinin izahlarında da bu sözlərin əvvəlki iki sözün mənalarında işlənməsi qeyd olunmuşdur. Həmçinin مهراسفند sözünün də izahında onun suyu qoruyan və bu günlə bağlı işlərə aidiyyəti olan mələk və şəmsi təqviminin aylarının 29-cu gününün adı izahları verilmişdir. Şəxs adları lüğətlərindən "فرهمگ نام سخن" kitabında verilmiş ماراسپند sözünün izahlarından birində "suyu qoruyan mələk adı"na rast gəlirik (8,s.223). Həmçinin bu mənbədə yer alan ماروسپند sözünün (8,s.223) birinci izahının, ماراسفند sözünün isə birmənalı şəkildə ماراسپند sözü ilə eyni mənalara malik olmaları qeyd olunmuşdur. Digər mənbələrdən "فرهگ اسامی" lüğətində isə fars mənşəli ماراسپند sözünün müqəddəs kəlam, gün adı mənaları ilə yanaşı, onun ilk olaraq "مهراسپند" mənasında olması verilmişdir. Bu sözün də "Bürhani-qate"də verilmiş مهراسفند sözünün digər variantı olduğunu desək, yanılmarıq.

"Bürhani-qate" lüğətində bir neçə qrafik və fonetik variantda verilmiş adlardan biri də zərdüştlük dinində xeyir Allahı hesab olunan Ahurəmazda teonimidir. Bu ad Azərbaycan dilində əsasən Hörmüz şəklində tələffüz olunur. Fars şəxs adları lüğətlərində yer alan bu adın "اهورا" (ahurā) variantı "qədim İran sözlüyündə Tanrı" (8,s.33), "Avestada Tanrı adlarından" (7,s.49) şəklində izah edilmişdir. Qeyd edək ki, bu varianta "Bürhani-qate" lüğətində rast gəlinmir.

Aşağıda sıralanan bu variantların ifadə etdiyi etdiyi mənalar da rəngarəng olub, onomastik vahidlərdən antroponim, yəni "hər hansı bir şəxsi və ya müəyyən insan qrupunu bildirmək üçün işlədilən xüsusi ad" (2,s.56), astronim, yəni "hər hansı ayrıca bir səma cisminin, o cümlədən planetlərin, ulduzların, səyyarələrin, kiçik planetlərin (asteroid və ya planetoidlər), bürclərin xüsusi adı"nı (2,s.88) əhatə edir. Ümumiyyətlə, M.Müinin lüğətində ilk öncə yer almış bu teonimin "آهورامزدا" (9,s.71) və "اهورمزدا" (9,s.205) variantları yalnız məlum mənada izah olunmuşdur. Adı çəkilən mənbədə bu adın "اورمزد" (ūrma(o)zd) (9,s. 195), "هرمز" (hormoz) (10,s.2270) və "هورمزد" (hūrmazd və ya hūrmozd) (10,s. 2310) variantları verilmişdir. Bunlardan yalnız "هرمز" (hormoz) variantının izahında "Bürhani-qate" də rast gəlinən digər mənalara da rast gəlinir. "فرهنگ اسامی" kitabına daxil edilən "اهورامزدا" (ahūrāmazdā) – ağıllı başçı (سرور دانا), qədim iranlıların Tanrısının adı mənalarındadır (5,s.38).

ارمز (urmuz) – şəmsi təqviminin ayının birinci günü, mələk adıdır – urmuz gününün işləri və mənfəətləri ona aiddir, Yupiter ulduzu və İsfəndiyarın oğlunun adıdır (qeyd etmək istərdik ki, bu adın aşağıdakı variantlarında oğlu deyil, nəvəsinin adı olması qələmə alınıb. Bunu katib tərəfindən yol verilən səhv olduğunu demək olar) (3,s.26^{a-b}).

ارمزد (urmuzd) – Urmuz mənasında olub, Yupiter ulduzunun adıdır, şəmsi təqviminin hər ayının birinci günü (qeyd etmək istərdik ki, burada "şəmsi" sözü yazılmamışdır. Səhvən katib tərəfindən qələmə alınmamasını güman etmək olar), İsfəndiyarın oğlunun adı və mələk adıdır (3,s.26^{b}).

اورمز (urmuz) – Yupiter ulduzunun adı, şəmsi təqviminin hər ayının birinci günü – bu gündə təzə geyinmək, səfər etmək, kağıza möhür vurmaq yaxşıdır, borc vermək pisdir, urmuz gününün işlərinə aidiyyəti olan mələk adı və İsfəndiyarın nəvəsi – Bəhmənin oğlunun adıdır (3,s.45^{b}). "فرهنگ اسامی" lüğətində bu ad həmin

qrafik, lakin "ūrmaz" fonetik variantında verilmiş, izahında isə aşağıda verilən variant onun qarşılığı kimi təqdim olunmuşdur (5,s.36). Həmçinin bu mənbədə baş söz olaraq verilən aşağıdakı "اورمزد" (ūrmazd) variantı məlum Yupiter planeti, Ahurəmazda, qədim iranlıların Tanrısı və şəmsi təqviminin hər ayının birinci günü mənalarında izah olunub (5,s.36).

اورمزد (urmuzd) – Urmuz mənasında olub, şəmsi təqviminin hər ayının birinci günü, yupiter ulduzunun adı, hər ayın birinci gününü nizama salan mələk (çox güman ki, burada şəmsi təqviminin hər ayı nəzərdə tutulur) və İsfəndiyarın nəvəsinin adı (3,s.45[b]). "فرهنگ نام سخن" lüğətində verilmiş "اورمزد" (urmazd) dini antroponiminin "اهورامزدا" adına bərabər olub, "هرمز" adına müraciət olunması qeyd olunub (8,s.33). Bu adın izahı da məhz "هرمز" variantında verilmişdir. Izahında "1. Ahuraməzdanın (اهورامزدا) digər variantı, 2. Qədim İranda şəmsi təqviminin hər ayının birinci günü, 3. Yupiter ulduzunun adı (Bürhan), 4. Sasani padşahlarından birinin adı" mənaları verilmişdir (8,s.274). "فرهنگ نامهای ایرانی" lüğətində də bir neçə xüsusi və ümumi ismi ifadə edən اورمزد sözünə rast gəlinir (7,s. 49).

هرمز (hurmuz) – şəmsi təqviminin hər ayının birinci gününün axırının adı – bu gün səfər etmək, təzə geyinmək yaxşıdır, borc verilməməlidir və mələk adıdır – hurmuz gününün işləri və mənfəətləri ona aiddir, yupiter ulduzu (ستارهٔ مشتری) və Bəhmən ibn İsfəndiyarın oğlunun, həmçinin Nuşirəvanın oğlunun adıdır (3,s. 421[b]). "فرهنگ اسامی" lüğətində "hormoz" fonetik variantında verilən bu ad da yupiter planeti, şəmsi təqviminin hər ayının birinci günü, Ahurəmazda, Tanrı mənalarındadır (5,s.309), həmçinin həmin şəxs adları lüğətində "هرمز" adının digər variantı olan "hormozd" (هرمزد) da bu sırada yer almışdır (5,s.309). "فرهنگ نامهای ایرانی" lüğətndə də yer alan bu ad məlum mənalarda verilmişdir (7,s.184).

هرمزد (hurmuzd) – Hörmüz mənasındadır, mələk adı, Yupiter ulduzunun adı və s., həmçinin "پنجشنبه" gününün (cümə axşamı) adıdır, o günə görə yupiterə aiddir (3,s.421[b] - 422[a]). "فرهنگ نام سخن" lüğətində də yer almış "هرمزد" (hormazd) variantının "هرمز" adına bərabər olması qeyd olunmuşdur (8,s.274). "فرهنگ نامهای ایرانی" kitabında Ahurəmazdaya işarə olunmuş və tarixi şəxsiyyətlərin adını ifadə etməsi qeyd olunmuşdur (7,s.184).

هرس (hurus) – Hörmüz mənasındadır, mələk adı, şəmsi təqviminin hər ayının birinci adı (çox güman ki, burada da "gün" sözü katib tərəfindən səhvən qələmə alınmamışdır), yupiter ulduzu, yunanların etiqadına görə İdris peyğəmbərin adıdır və s. (3,s.422[a]).

هرمست (hurmust) – Hurmuzd mənasındadır, şəmsi təqviminin hər ayının birinci gününün adı, yupiter ulduzu və s. adıdır (3,s.422[a]). Göründüyü kimi, bu sözün izahında mələk adını ifadə etməsi qeyd olunmamışdır. Lakin izahın "və s." ilə tamamlanması və sözün qrafik variantının əvvəlkilərlə yaxınlığına əsasən, bu sözün də məlum adın digər variantı olması və mənalarından birinin məhz mələk adını ifadə etməsini demək olar.

هورمز (hurmuz) – mələk adıdır, şəmsi təqviminin hər ayının birinci gününün adı, yupiter ulduzu, İsfəndiyarın qızının övladının adı (3,s.429[b]). "فرهنگ نام سخن" lüğətində verilmiş bu adın "هرمز" (hurmaz) teoniminin digər variantı olduğu qeyd olunmuşdur (8,s.277).

هورمزد (hurmuzd) – Hörmüz mənasındadır, mələk adı, şəmsi təqviminin hər ayının birinci günü, yupiter ulduzu və İsfəndiyarın qızının övladının adı (3,s.429[b]).

“فرهنگ نام سخن” lüğətində verilmiş bu adın da “هرمز” (hurmaz) teoniminin digər variantı olduğu qeyd olunmuşdur (8,s.277). Bu variant “فرهنگ نامهای ایرانی” kitabında da verilmiş və izahında teonim olaraq, yalnız Ahurəmazdaya işarə olunmuşdur (7,s.186).

Əldə olan müasir fars şəxs adları lüğətlərinə istinadən yuxarıda adları çəkilən və bilavasitə İran mifologiyası ilə bağlı olan həmin dini varlıqların qismən də olsa, şəxs adları sırasının zənginləşməsindəki rolu danılmaz faktdır.

Ədəbiyyat

1. Aydın Abi Aydın. Şəxs adları lüğəti. “Çıraq” nəşriyyatı. Bakı-2002.
2. Adilov M., Paşayev A. Azərbaycan onomastikası (izahlı terminoloji lüğət). Bakı, Nurlan, 2005.
3. برهان قاطع. محمد حسین بن خلف تبریزی.(Əlyazmalar İnstitutu. D-183/10160)
4. برهان قاطع، تالیف محمد حسین بن خلف تبریزی متخلص ببرهان، باهتمام دکتر محمد معین. جلد اول، آ – ث. تهران 1342
5. فرهنگ اسامی. مولف: محمد حماصیان. چاپ ششم: 1385
6. “فرهنگ نام ها”. پژوهش و تدوین: مهدی حمیدا. چاپ پنجم: 1388
7. فرهنگ نامهای ایرانی. گرد آورنده:منصوره چراغی. تهران - 1388، چاپ ششم، 192 ص
8. فرهنگ نام سخن. به سر پرستی حسن اموری، تالیف مرجان انصاری، سولماز شرکت افتخار، تهران، سخن، 1384
9. فرهنگ فارسی. تالیف: دکتر محمد معین. جلد پنجم (اعلام). تهران 1345
10. فرهنگ فارسی. تالیف: دکتر محمد معین. جلد ششم (اعلام). تهران 1352
11. http://forgenc.net/31182-melekler-haqqinda-melumat.html

Aynura Aliyeva

Religious creatures (angels) in the “Burhani -Kati” dictionary

Sammary

This article deals with the part of angel names concentrated in the “Burhani-Kati” dictionary which was compiled by prominent Azerbaijani lexicographer Muhammad Husayn ibn Khalaf Tabrizi in A.H. 1062 (1651/52). The same angel names demonsrated in several graphic and phonetic variants draw attention for being related to Iran mithologhy. Referring to the modern dictionaries of person names we can see that the role of those religious creatures in partially enriching of Persian person names system is undeniable.

Айнура Алиева

Религиозные существа (ангелы) в словаре "Бурхани-гате"

Резюме

В данной статье рассматриваются некоторые имена ангелов, собранные в словаре «Бурхани-гате», составленного в 1062 г. Хиджры (1651/52) видным азербайджанским лексикографом Мухаммад Хусейн ибн Халаф Тебризи. Следует отметить, что имена ангелов, представленные в нескольких графических и фонетических вариантах привлекают внимание тесной связью с иранской мифологией. Ссылаясь на современные иранские словари антропонимов мы видим, что роль тех религиозных существ, хотя и частично, неоспорима в обогащении персидских антропонимов.

Rəyçi: Möhsün Nağısoylu
filologiya elmləri doktoru, professor

KÖNÜL MİRZƏYEVA
AMEA-nın M.Füzuli adına Əlyazmalar İnstitutu

KLASSIK İRSİN TƏRCÜMƏSİ VƏ NƏŞRİ

(Nizaminin "Leyıi və Məcnun" əsəri üzrə)

Açar sözlər: tərcümə, nəşr, klassik irs, Nizami.
Ключевые слова: перевод, публикация, классическое наследие, Низами.
Key words: translation, publication, classical heritage, Nizami.

Tarix boyu yaranan bütün böyük mədəniyyətlər bir-birinə qarşılıqlı təsir göstərməklə inkişaf etmişlər. Bu proses, şübhəsiz ki, yazılı mədəniyyətlər arasında daha intensiv getmişdir. Müxtəlif xalqların bir-birinin yazılı irsi ilə tanışlığı əsasən tərcümələr vasitəsilə baş tutmuşdur. Tərcümə tarixinin kökləri yazılı mədəniyyətlə bağlıdır. Bu sırada Çin, Hind, İran, Misir, Mesopotomiya kimi qədim mədəniyyətlər ilkin qaynaq olaraq daha çox diqqəti cəlb edir. Hind sanskrit və Avesta abidələri arasında olan yaxınlıq İran-Hind mədəni əlaqələrinin qədimliyinə və dərinliyinə dəlalət edir. Maraqlı haldır ki, zəngin antik elm və mədəniyyəti də Şərqdən faydalanaraq inkişaf etmişdir (5,120). Bu sırada Misir və Mesopotamiya mədəniyyəti ilə yanaşı, Hind-İran mədəniyyətinin təsiri xüsusi qeyd oluna bilər. Makedoniyalı İskəndərin İrana yürüşündən sonra bir çox elmi məlumatlar yunan dilinə çevrilmişdir. Aparılan araşdırmalara görə, yaradılması e.ə. 1700-1500-cü illər ehtimal olunan Zərdüştlük mədəniyyəti və onun "Avesta" adlı mühüm abidəsi qnostisizm, yəhudilik, xristianlıq və buddizmə güclü təsir göstərmişdir (11, 281).

Hər bir xalqın elm və mədəniyyət tarixini təhlili və başqa xalqlara tanıtdırılması həm ayrı-ayrı mədəniyyətlər arasında əlaqə və dialoq baxımından, həm də qarşılıqlı təsir və faydalanma cəhətdən əhəmiyyət daşıyır. Bu baxımdan, tərcümə işi ayrı-ayrı sivilizasiya məkanlarında gedən ictimai-mədəni, elmi-fəlsəfi və ədəbi-estetik inkişaf prosesinin tərkib hissəsi kimi qəbul edilir və böyük sivilizasiya məkanında bir çox mədəniyyətlər bu yolla zənginləşmişdir. Orta əsrlər islam dünyasında intensiv inkişaf yolu keçmiş tərcümə sənəti öz həcmi, dinamikliyi və əhatə çevrəsinə görə həqiqətən heyrət doğurur. İslam mədəniyyətində tərcümə fəaliyyətini ***iki əsas mərhələyə*** ayırmaq olar:

1. Abbasilər xilafəti zamanı qədim Suriya, pəhləvi, hind və yunan dillərindən ərəbcəyə tərcümə.
2. İslamdan sonra ərəbcədən fars və türk dillərinə, farscadan türkcəyə tərcümə.

Birinci mərhələyə əsasən elmi və fəlsəfi əsərlərin tərcüməsi daxildir, burada demək olar ki, ədəbi əsərlərin tərcüməsinə rast gəlmirik. Abbasilər xilafəti zamanı xəlifə Mənsur dövründən başlayan tərcüməçilik fəaliyyəti xəlifə Məmunun zamanında zirvəyə qalxır. Öncə Xəlifə Mənsur nücum və tibb elminə maraq göstərir. Harunun dövründə də əsasən təbiətə və nücuma dair kitablar ərəbcəyə çevrilirdi – bu, tərcümə işinin ***birinci mərhələsi*** idi. Xəlifə Məmun dövründə isə tərcümə fəaliyyəti fəlsəfə, məntiq, həndəsə və başqa sahələri əhatə etməklə intensiv şəkildə davam etdirilirdi (19,73)

Hind, qədim Suriya, yunan və pəhləvi dillərində müxtəlif sahələrə aid əsərlərin ərəbcəyə çevrilməsi və müxtəlif sahələr üzrə elmi fəaliyyətin aparılması üçün

Xəlifə Harun dövründə "Beytül hikmət" (Hikmət evi), yaxud "Xəzanətül-hikmət" ("Hikmət xəzinəsi" adlı mərkəz təsis edilmişdir. Xilafətin maddi və mənəvi himayəsi ilə ayrı-ayrı ölkələrdən alimlər və mütərcimlər bu mərkəzə dəvət olunurdular. Doktor Zəbullah Səfa "Hikmət" evində çalışan və yüzlərlə əsəri ərəbcəyə çevirən 42 mütərcim nəslinin adlarını qeyd edir və onların tərcümə etdiyi əsərlərin siyahısını verir. Maraqlıdır ki, bunların bir qismi qeyri-ərəblər və əsasən də iranlılardır (6, 34-36).

Dövrünün məşhur tərcüməçiləri Xalid ibn Yəzid ibn Müaviyənin əmri ilə bəzi kimya kitablarını çevirmişlər. Qədim Suriya və yunan dilindən tibbi risalələri ərəbcəyə çevirən Masərcis, İranın cənubunda yerləşən Gündşapur xəstəxanasının baş həkimi Bəxtişular nəslindən olan Curcis ibn Bəxtişu və oğlu Cəbrail Bəxtişu xəlifə Mənsur və Harun zamanı Bağdada dəvət olunmuşlar. Bu nəsildən olan tərcüməçilər əsasən tibbi kitabları çevirmişlər (6, 52-56).

Məşhur tərcüməçilərdən biri Əbu Zeyd Hüneyn ibn İshaq əsasən tibbi və fəlsəfi əsərləri ərəbcəyə çevirmiş özü də müstəqil əsərlər yazmışdır. Onun tərcümələrinin sayı 50-dən çoxdur. Sabit ibn Qürrətül-Hərani nəslindən olan müəlliflərin də əcnəbi elmlərinin tərcümə və yayılmasında xidməti böyükdür. Onlar özləri də tibb, həndəsə, nücum, təbiətşünaslıq, məntiq, fəlsəfə, musiqi, əxlaq, dərmanşünaslıq və s. sahələrə dair əsərlər yazmışlar (6, 63-78).

Həmin dövr tərcümə işinin ***ikinci mərhələsi*** ərəbcə mətnlərin farscaya, daha sonra isə türkcəyə çevrilməsi prosesi ilə səciyyələnir. Bir müddət sonra isə farscadan türkcəyə tərcümə ənənəsi yaranmışdır. Ərəbcədən istər farscaya, istər türkcəyə çevrilən ilk mətn təbii ki "Qurani-Kərimi"in tərcüməsidir.

Qeyd etmək lazımdır ki, Orta əsrlərdə çevrilmiş mətnlərə müasir tərcümə kimi yanaşmaq elmi baxımdan düzgün deyil. Bununla bağlı bir sıra mühüm məqamlara toxunmaq lazım gəlir. "Qurani-Kərim" istisna olmaqla, başqa əsərlər müəllifin əlində olan hər hansı bir nüsxə əsasında işlənir və çerililirdi. Həmin müəlliflər sadəcə tərcüməçi deyil, həm də mətn üzərində işləyən, onu öz zövq və savadına uyğun dəyişdirən, ona əlavələr edən yaradıcı şəxslər olmuşlar. Bəzi tərcümə əsərlərini çıxmaqla bir çox əsərlər əslində orjinal yaradıcılıq məhsulu olaraq dəyərləndirilə bilər. Orta əsr müəlliflərinin üzərində işlədiyi mətnlər adətən yoxlanılmamış, təshih edilməmiş mətnlər idi. Müasir tərcümələr isə əslində düzəliş edilmiş və ya elmi-tənqidi mətnlər üzərində aparılmalıdır.

İkinci mərhələdə gerçəkləşdirilən tərcümələr mövzu baxımından rəngarəng və zəngindir; burada bədii ədəbiyyat nümunələrinin xüsusi çəkisi nəzərəçarpacaq dərəcədə çoxdur. Xüsusilə, fars dinidən türkcəyə tərcümə daha geniş yayılmışdır.

Bütün hallarda keçmiş irsin tədqiqi və nəşri ilk növbədə yazılı abidələr üzərində qurulur. Şərq xalqlarının mədəniyyət tarixində yazılı abidələrin xüsusi yeri vardır və böyük mədəniyyətlərin əsasında yazı dayanır. Mədəniyyətin dərki yazının və yazılı irsin dərkindən başlayır. Akad.N.İ. Konrad yazır: "Yazılı abidəni dərk etmək, hər şeydən əvvəl, həmin yazı və dilin aid olduğu tarixi bilmək, yaxud həmin dövrə aid yazı və dili bilməkdir" (8, 10). Məhz, bu baxımdan, hər bir abidə elmi-məntiqi təyinatına uyğun olaraq kompleks şəkildə tədqiq olunmaqla, öz dövrünə və mövcud ictimai ideologiyaya uyğun təhlil edilir.

Bu baxımdan mətnşünaslıq elminin inkişafı klassiklərin əsərlərinin müasir tələblərə uyğun tərcümə nəşri üçün daha münasib zəmin yaradır. Bir çox klassiklərin

əlyazmalarının tədqiq edilərək müxtəlif nəşr tipləri üzrə çap olunması, məhz mətnşünaslıq elminin inkişafı nəticəsində mümkün olmuşdur. Mətnşünaslıq - görkəmli şair və yazıçıların, zəka sahiblərinin yaratmış olduqları klassik əsərlər ayrı-ayrı dövrlərdə üzü köçürülmüş katib nüsxələrində gəlib bizə çatmış yazılı abidələrin mətnlərini araşdıran, müəyyən metod və prinsiplər əsasında həmin abidələrin mətnlərinin tarixini öyrənən ədəbiyyatşünaslıq, dilçilik, tarix, poliqrafiya sahələri ilə bağlı olan bir elmdir. Bu barədə K.Şərifli yazır: "Klassiklərin ayrı-ayrı yüzilliklərdə yaratmış olduqları əsərlərin düzgün elmi mətnlərini tərtib etmək və onlatrı öz müəlliflərinə mənsub etmək, hər şeydən əvvəl ədəbiyyat və mədəniyyət tarixinin düzgün öyrənilməsi deməkdir" (17,3)

Nizami əsəsrləri Orta əsrlərdə dil və etnik mənsubiyyətinə görə bir-birindən fərqlənən şairlər üçün əbədi ilham mənbəyi olsa da, bəzi Avropa şərqşünasları nəzirə kimi yazılan əsərləri təqlid adlandırmışlar. Həmin əsərlər Qərb alimləri tərəfindən mexaniki olaraq "adi tərcümə" kimi qəbul edilsə də, N.İ.Konradın fikrinə görə, bunlar "digər dil ifadəsi" ilə yazılmış bədii əsərlərdir (4,12). Qədim türk ədəbiyyatının mükəmməl bilicisi A.S.Levendin aşkarlamalarına görə, "divan ədəbiyyatı müəllifləri öz oxucularını dəfələrlə xəbərdar etmişlər ki, onların əsərlərini adi tərcümə kimi qəbul etməsinlər" (4, 12). Bundan əlavə, A.S.Levend "Türk ədəbiyyatı tarixi" (13) kitabında tərcümə işinin şəkilləndirərək,

- əslini (orijinalı) pozmamaq üçün kəlmə kəlmə edilən tərcümələr;
- kəlmə-kəlmə olmaqla , əslinə (orijinla) uyğun edilən tərcümələr;
- mövzusuna görə edilən tərcümələr;
- genişləndirilərək edilən tərcümələr kimi qruplaşdırmışdır. (13, 80)

III və IV növ tərcümələr mahiyyət etibarilə eynilik təşkil etdiyi üçün tərcümə işini 3 növə ayırmaq olar:

1. Hərfi tərcümə.
2. Əslinə uyğun tərcümə.
3. Sərbəst tərcümə.

Tərcümə sənəti əsasən iki prinsip üzrə təşəkkül tapıb inkişaf etmişdir.

1. ***Hərfi tərcümə*** bu sənətin ilkin və ənənəvi prinsipi kimi geniş yayılmışdır. Tərcümə ədəbiyyatı tarixində bu prinsipə əsasən dini kitabların tərcüməsində əməl olunmuşdur.

2. ***Sərbəst tərcümə***nin ən qədim nümunələri XIV yüzilliyə aiddir. Şərq tərcümə tarixinə dair mənbələrdə adı çəkilən və peşəkar tərcüməçilərin üstünlük verdiyi bu tərcümə növü lər geniş yayılmışdır. Bəzən tərcümə işinə "sərbəst" yanaşma nəticəsində əsərin tərcümə, yaxud müstəqil əsər olduğunu təyin etmək çətin olur. Çünki, "... tərcüməçilər bəzən oxucu tələbləri ilə hesablaşmağı tərcümənin orijinala yaxınlıqdan daha üstün tuturlar" (15, 41).

Tərcümə ədəbiyyatının əsasını təşkil edən hər iki prinsip işlənmə yerinə görə - nəsr və nəzm əsərlərinə aidlik baxımından fərqlənsə də, tamamlayıcı vasitə kimi biri digərindən asılıdır. Məsələn, sərbəst tərcümə zamanı hərfi tərcümə prinsipindən istifadə qaçılmazdır. Lakin hərfi tərcümələr nə qədər dəqiq olsa da, yalnız orijinal mətn əsasında hər hansı bir mətnin mənası anlaşıla bilər.

Sərbəst tərcümələrin inkişafında Nizami "Xəmsə"sinin böyük rolu olmuş, türkdilli ədəbiyyatda xəmsəçilik ənənəsinin yayılması ilə paralel tərcümə sənətinin inkişafına da təkan vermişdir.

Nizami mətn və süjetlərinin izi orta çağ italyan, ingilis, alman, ərəb-islam və başqa Avropa ədəbiyyat nümunələrindən bizə tanışdır və bu, mütəmadi olaraq bir çox aspektdən dünya ədəbiyyatının inkişaf prosesi ilə əlaqəli olsa da, ən çox ümumi şəkildə bəzi mütəxəssislərə məlumdur. Bu barədə V.Dəstgirdi yazır: "Dünyanın bütün kitab fondlarına baxılsa, minlərlə Nizami əsərlərinin təsiri ilə yazılmış məsnəviyə rast gəlmək olar. Düzdür, minlərlə demək bir az şişirdilmiş rəqəm kimi görünə bilər, lakin yaddan çıxarmaq olmaz ki, Şərq xalqlarınn ədəbiyyatında Nizami əsərlərinə xas süjetlərinin izi görünür. Bu barədə L.Araqon qeyd edir: "Nizami süjetləri əsasında yazılanların çoxu poema deyil, təqliddir" (4,8). Lakin təqlid təqliddən fərqlidir. Şərq xalqlarının ədəbiyyat tarixindən bəlli olduğu kimi, istər bədiilik baxımından zəif, boz və saxta, istərsə də samballı əsərlər bədii-ideoloji cəhətdən Nizami ənənələrini digər sosial-mədəni şəraitdə davam etdirir.

Məlum olduğu kimi, "Xosrov və Şirin" poemasının türk dilinə ilk tərcüməsi Qütbüyə aiddir. 1383-cü ilə aid bu əsər əlyazma şəklində Paris Milli Kitabxanasında saxlanılır. İlk baxışdan səthi tərcümə təsiri bağışlayan bu tərcümə ilə orijinal arasında müqayisə aparan akad. A.A.Zayonçkovski, - Qütbünün "Xosrov və Şirin" poeması ilkin mənbənin bədii cəhətdən təkmil şəklidir. Hər iki əsərin süjet xətti üst-üstə düşsə də, hadislərin cərəyan etdiyi mühiti dəyişik verir; Sasanilərə xas həyat tərzi Qızıl Ordanın xarakterik məişətinə uyğun təsvir edir. Qütbü kompozisiya baxımından fars məsnəvi ənənəsini saxlasa da, tərcüməsində 1500 beyt ixtisarla verdiyini qeyd edir.

Qütbüdən sonra İsa bəyin sifarişi ilə 1367-ci ildə Fəxri "Xosrov və Şirin" poemasını orijinaldan yayınmadan, fikri tam saxlamaqla 4683 beyt həcmində tərcümə etmişdir ki, bu da türkdilli ədəbiyyatyata Nizami poetik ənənsinin nüfuzu üçün yol açmşdır.

Müasir tərcümələr

Şərq müəlliflərinin əsərlərinin müasir tərcüməsi Avropada və Rusiyada daha erkən başlasa da, bu iş iyirminci yüzillikdə sistemli və intensiv şəkildə aparılmışdır. Müasir tərcümələr müxtəlif elm sahələrinə (təbiətşünaslıq, nücum, riyaziyyat, musiqi nəzəriyyəsi, təbabət, əczaçılıq, ilahiyyat, fəlsəfə, əxlaq, təsəvvüf, tarix və başqa humanitar elmlər) ilə yanaşı, bədii ədəbiyyatı da əhatə edir. Müasir tərcümələr Orta əsr tərcümələrindən bir sıra cəhətlərə görə fərqlənir:

1. İndi sərbəst tərcümələrə yol verilmir, dəqiqlik, konkretlik və orjinala kifayət qədər uyğunluq tələb olunur;
2. Bu səbəbdən də müasir tərcümələrdə ixtisarlar, əlavələr, dəyişmələrə icazə verilmir;
3. Müasir tərcümələrdə artıq bu və digər sahələr üzrə qəbul edilmiş terminoloji aparat və münasib məfhumlardan istifadə ön plana keçir;
4. Mətnin daha yaxşı anlaşılması üçün əlavə məlumatlar (qeydlər, izahlar və şərhlər) verilir;
5. Müasir tərcümələr mötəbər çaplar, təshih edilmiş nüsxələr, elmi-tənqidi mətnlər əsasında yerinə yetirilməlidir.

Bədii əsərlərin, xüsusilə nəzmlə yazılmış mətnlərin çevrilməsində adətən poetik tərcümələr işlənir və belə nəşrlər daha çox geniş oxucu kütləsi üçün nəzərdə tutulur. Lakin son dövrlər poetik irsin filoloji tərcüməsinə də geniş yer verilir, çünki

bu növ tərcümə orjinalın məzmununu daha yaxşı, daha uyğun, eyni zamanda dəqiq və mükəmməl çatdırır.

Azərbaycanda Nizami Gəncəvinin "Xəmsə"si öncə poetik tərcümə şəklində nəşr edilmiş, keçən əsrin 80-ci illərində isə bu topluya daxil olan beş məsnəvinin filoloji tərcüməsi işıq üzü görmüşdür. Bu nəşr nizamişünaslıqda mühüm bir hadisə sayıla bilər, çünki 40-cı illərdə böyük sənətkarın anadan olmasının 800 illik yubileyi münasibətilə çap olunanmağa başlayan poetik tərcümələr əsasən orjinaldan edimişdir. Poetik tərcüməyə girişən şairlər isə, Abdulla Şaiq və Mikayıl Rzaquluzadə istisna olmaqla, klassik Şərq poetikasından məlumatsız olmuşlar. Bu səbəbdən həmin tərcümələr orjinaldan daha uzaq olmaqla yanaşı, bir sıra qüsur və yanlışlıqlarla müşaiyət olunur. Nizaminin iç aləmini, dərin düşüncələrini daha yaxşı anlamaq baxımından və eyni zamanda şairin ədəbi irsinin daha səmərəli tədqiqi nöqteyi-nəzərindən filoloji tərcüməyə böyük ehtiyac vardı. Təbiidir ki, bütün halarda tərcümə orijinalı əvəz edə bilmir. Xüsusilə zəngin poetikaya malik Nizami şeirinin filoloji tərcüməsində orijinala xas məzmun çalarları, bədii-estetik incəliklər, ifadə tərzindəki gözəlliklər tam ifadə oluna bilmir. Orijinal mətn, filoloji tərcümə və poetik tərcümə ilə müqayisə edildikdə maraqlı məqamlar ortaya çıxır.

Ümumiyyətlə, klassik irsin tərcümə, tədqiq və nəşrində nəzərə çarpan qüsurların böyük bir qismi yubileylərin keçirilməsi ilə əlaqədar görülən tələsik tədbirlərdir. "Kitabi-Dədə Qorqud" kimi möhtəşəm abidənin ensiklopedik yubiley nəşrində yüzlərlə səhvin buraxılması buna bariz nümunədir. Yaxud 1996-cı ildə Füzulinin anadan olmasının 500 illiyi münasibətilə nəşr edlən altıcildlik həm poleoqrafik keyfiyyət baxımından, həm də səhvlərin sayına görə çox qəbahətlidir.

Klassiklərin əsərlərinin nəşrinin keyfiyyəti də mühüm məsələ kimi narahatlıq doğurur. Bir sıra nəşrlərin keyhiyyətinin aşağı olması, yol verilən texniki qüsurlar, tərtibatda müşahidə edilən naşılıq və zövqsüzlük həqiqətən təəssüf doğurur. Klassik irsin, o cümlədən, Nizami əsərlərinin tədqiqi, tərcüməsi və nəşri yubileydən yubileyə, epizodik direktiv tədbir kimi deyil, ardıcıl və sistemli bir proses kimi ciddi şəkildə tənzimlənərsə, onun elmi səmərəsi və ictimaiyyətə faydası daha çox olar.

Məlum olduğu kimi, klassik ədəbiyyat umumi maraq dairəsinə görə differensiallaşan soasial oxucu qrupları (kütləvi, təkmilləşmiş, mütəxəssis-ixtisasçı) üzrə deyil, hər bir oxucu qrupunun maraq dairəsini əhatəetmə xüsusiyyəti ilə seçilir. Tarixi-ədəbi yanaşma konteksinə əsaslanaraq məşhur fransız kitabşünası R.Eskorpi yazır ki, 100 yazardan birinin ölümündən 20 il sonra əsəri təkrar nəşr olunur. Bu baxımdan, tərcümə ədəbiyyatı sahəsində araşdırmaların daha intensiv və səmərəli aparılması tələb olunur. Araşdırmalara görə, Amerikada nəşr olunan ədəbi əsərlərin 2%-ni tərcümələr təşkil etdiyi halda, müasir Şərq ölkələrində, əsasən dini yönlü və Avropada çap olunmuş əsərlərin tərcümə edilərək nəşrinə daha çox üstünlük verilir. Başqa ölkələrlə müqayisədə bizdə isə kitab işi zəif, daha doğrusu, birmənalı inkişafdadır. Yəni, yalnız sərgi üçün, kataloq xarakterli, yaxud fərdi şəkildə, tək-tək insanların yaradıcılığını işıqlandıran, xaricdə nümayiş etdiriləcək kitabın nəşrinə, tərtibatına maraq göstərilir. Bu baxımdan klassik əsərlərin nəşri yetərli şəkildə özünü ifadə etmir.

Klassik Azərbaycan ədəbiyyatına xas səciyyəvi xüsusiyyətlər ərəblərdən əxz olunmuşdur məhz klassik Azərbaycan tərcümə ədəbiyyatının növ və xüsusiyyətlərini araşdırarkən, bu amil nəzərə alınmalıdır. Azərbaycanda tərcümə ədəbiyyatı ana-

dilli ədəbiyyatın inkişafı ilə bilavasitə bağlı olmuşdur. Bu gün klassik ədəbiyyat nümunələri kimi öyrənilən orta əsərlər Azərbaycan ədəbi abidələrinin çoxu tərcümə ədəbiyyatı olaraq tədqiqatdan uzaq qalıb.

Əsərlərinin Azərbaycan dilinə tərcüməsi müxtəlif illərə təsadüf edilsə də, Nizami Gəncəvinin bədii irsi ilə tanışlıq baxımından əhəmiyyətli sayılan nəşrlər orijinala istinadən edilmədiyinə görə, şairin poetikası əhatəli şəkildə əks olunmur. Nəşrlər üzərində aparılan müqayisələr nəticəsində filoloji tərcümələrin biryönlü şəkildə həyata keçirilməsi aşkar olunur. Nəzərə alsaq ki, "Nizaminin əsərlərinin poetik tərcüməsi geniş oxucu kütləsi, filoloji tərcümələr nisbətən savadlı zümrələr, orjinal mətn isə peşəkar araşdırıcılar və mütəxəssislər üçündür" (9,87), müxtəlif oxucu auditoriyasına uyğun və bir-birindən fərqli mükəmməl nəşr nümunələri ictimaiyyətə çoxdan çatdırılmalı idi.

1981-ci ildə "Elm" nəşriyyatında çapdan çıxmış "Leyli və Məcnun" əsərinin filoloji tərcüməsi ilə (7) həmin əsərin poetik tərcüməsi (12) arasındakı fərq, məhz orijinala istinad olmadığını göstərən faktlardandır.

Həmin tərcümələri Vəhid Dəstgirdinin 1934-cü ildə hazırladığı orjinal tənqidi mətn ilə müqayisə edək:.

ای چارده ساله قرة العین
بالغ نظر علوم کونین

پیغمبر گفت علم علمان
علم الادیان و علم الابدان

آب ار چه همه زلال خیزد
از خوردن پر ملال خیزد *(18,332)*

Ey on dörd yaşlı gözümün işığı!
İki dünya elmlərində tam yetkin!

Peyğəmbər demişdir ki, elmlərin elmi,
Bədənlər elmi (təbiblik) və dinlər elmidir.

Sudan bütün zülali (maddələr) əmələ gəlsə də,
(Onu) çox içməkdən məlal (zərər) törəyir. (7, 51-53).

***

Ey on dörd yaşa ermiş nuri-çeşmim!
Oğul! Kəsb eylə elmi-dinü əbdan.

Buyurmuş Fəxri-aləm: elm elman,
Biri əbdan, digər elmi-ədyan.

Nə rütbə olsa da su pakü safi,
Çox içmək səhhətə olar mənafi. (10, 393-394)

***

Sən ey on dörd yaşlım, hər elmə yetkin,
Gözündə əksi var iki aləmin!

Elmlər elmidir demiş peyğəmbər
Din elmi, təbabət elmi, müxtəsər.

Bir inci saflığı varsa da suda,
Artıq içiləndə dərd verir o da. (12, 64-65)

N. Göyüşovun orijinaldan tərcüməsi:

Ey on dörd yaşlı göz bəbəyi,
İki aləm elmində yetkin nəzər sahibi!

Peyğəmbər demişdir: Elmlər elmi,
Din elmləri və bədən elmləridir.

Su tamamilə zülal süzsə də,
Onu çox içməkdən məlal gələr.

Filoloji tərcümədə sözlərin mətndə ifadə etdiyi məna incəliyinə diqqətlə yanaşmaq lazım gəlir. Nizaminin "Leyli və Məcnun" məsnəvisindən bir neçə beytin filoliji və poetik tərcüməsini müqayisə etməyə çalışaq.

ای نام تو بهترین سرآغاز
بی نام تو نامه کی کنم باز ؟!(18,311)

Ey adı ən yaxşı başıanğıc olan,
Sənin adın olmadan kitabı necə başlayım? (7, 17)

Ey adı ən gözəl bağlanğıc olan,
Adınla başlanır yazdığım dastan (12, 27)

N. Göyüşovun orjinaldan tərcüməsi:
Ey adı ən yaxşı başlanğıc olan,
Adın olmadan haçan bir yazıya[naməyə] başlayaram?

صاحب تویی آن دگر غلامند
سلطان تویی آن دگر کدامند؟!(311)

Sahib sənsən, başqaları qullardır,
Soltan sənsən başqaları kimdir? (nəçidir) (7, 17-18)
Ağasan, qulundur hər şey dünyada,
Sultan sən özünsən, başqası gəda (12, 28)

N. Göyüşovun orjinaldan tərcüməsi:
Sahib sənsən, başqaları qulamdır,
Sultan sənsən, başqaları nəçidir?!

خاک تو ادیم روی آدم
روی تو چراغ چشم عالم (18, 315)

Sənin torpağın Adəm üzünün cilası,
Sənin nurun iki dünyanın çırağıdır (7,23)

Sənin torpağınla bəzəndi Adəm,
Nurunla parladı hər iki aləm. (12, 34)

N. Göyüşovun orjinaldan tərcüməsi:
Sənin torpağın Adəmin üzünün cilasıdır,
Sənin üzün aləmin gözünün çırağıdır [nurudur]

ای عقل نواله پیچ خوانت
جان بنده نویس آستانت (18,315)

Ey süfrəsinin (başında) ağıl tikə bükən olan!
Ey astanasında can qul kimi oturan (7,23)

Hər əqlə süfrəndə bir nemətin var,
Qapında qul kimi dayanar ruhlar (12,34)

N. Göyüşovun orjinaldan tərcüməsi:
Ağıl süfrəndən bir tikə [ehsan] alar,
Can isə astanana qul yazılar.

Burada işlənən "nəvalepiç" sözü ehsan mənası bildirir (20, 4830).

Bundan başqa, Allahın mədhi ilə başlanan ilk səhifədə 4-cü misrada qoyulan ulduz işarəsinə (*) qeyd olaraq, - *"Leyli və Məcnunun ikinci nəşri zamanı (1959) əsər elmi-tənqidi mətnlə tutşdurularkən üstündə (*) işarəsi qoyulmuş misralar Mübariz Əlizadə tərəfindən yenidən tərcümə edilmişdir. İzahlar isə sıra nömrəsi ilə kitabın axırında verilmişdir"*- yazılsa da, 1981-ci il "Elm" nəşriyyatında çap olunmuş filoloji tərcümə ilə müqayisə apararkən natamamlıq ilk baxışdan gözə çarpır. Belə ki, həmin işarələr qoyulmuş misralar izahlar və qeydlər bölməsində yer almayıb. Həm filoloji, həm də poetik tərcümə eyni ön söz məqaləsilə (müəllif - M.İbrahimov) çap olunmuşdur. Məqalədə yazılıb: "Nizaminin dərin fikirləri S.Vurğunun tərcüməsində öz parlaqlığını saxlamış, orijinalda olduğu kimi güclü çıxmışdır. Əsər oxunarkən tərcümə olunduğu qətiyyən bilinmir. Bu isə, ən böyük müvəffəqiyyətdir, çünki orijinaldan uzaqlaşmaq və təhriflər hesabına yox, dəqiqilik və doğruluq hesabına əldə edilmişdir. Orijinalın bütün məziyyətləri saxlanmış, fikirlər dərinliyi və müdrikliyi ilə ifadə olunmuşdur...". (12, 23). Onu da qeyd edək ki, nə filoloji, nə də poetik tərcümədə əsərin hansı mənbəyə əsasən tərcümə olunduğu haqda məlumat yoxdur.

Ədəbiyyat

1. Adilov M. Azərbaycan poliqrafiyası . Bakı: Elm, 2009.
2. "Azərbaycan" qəzeti, 13 yanvar 2004.
3. "Azərbaycan" qəzeti, 25 avqust 2004.
4. Алиев Г.Ю. Темы и сюжеты Низами в литературах народов Востока. М., 1985.
5. Чанышев А.Н. Курс лекций по древней философии . –М.: «Высшая школа», 1981.
6. Doktor Zəbihullah Səfa. Tarixi-olumi-İslami dər təməddüni-İslam. Tehran; Əmir Kəbir, 2536.
7. Nizami Gəncəvi. Leyli və Məcnun. Əlizadə M. Filoloji tərcümə. "Elm", 1981.
8. Конрад Н.И. Конрад Н.И. Старое востоковедение и его новые задачи. Запад и Восток. Статьи -М.: 1972.
9. Göyüşov N. Nizamişünaslığın müasir problemləri və Nizami dünyası ilə ümumi tanışlıq ("Sirlər xəzinəsi"ndən "İskəndərnamə"yə) Nizamişünaslıq. Elmi əsərlər. №2.
10. Hadi M. Seçilmiş şeirlər. Bakı: "Yazıçı", 1982.
11. Грантовский Э.А. Послесловие к кн. «Зороастрийцы. Верования и обычаи». Мэри Бойс. М. «Наука»,1988.
12. Nizami Gəncəvi. Leyli və Məcnun. Tərcümə S.Vurğun. "Yazıçı", 1982.
13. Levend A.S. Türk ədəbiyyatı tarixi. Ankara:1984, I c.
14. Лихачов Л.С. Текстология на материале русской литературы. -М.-Л.: «Наука», 1962.
15. Nağısoylu M. Orta əsrlərdə Azərbaycanda tərcümə ədəbiyyatı. -Bakı: "Elm", 2002.
16. Nağısoylu M. Azərbaycan əlyazmaları sorağında 10 gün Praqada. "Ədəbiyyat" qəzeti, 12.10. 2012, №38.
17. Şərifli K. Mətnşünaslığın əsasları. –Bakı: "Nurlan", 2003.
18. Külliyyati NizamiGəncəvi. Təshih və həvaşi: Həsən Vəhid Dəstgərdi. Tehran: Ərmağan.
19. Халидов А.Б. Арабские рукописи и арабская рукописная традиция. –М. «Наука», 1985.
20. Fərhəngi farsi. Dr.Məhəmməd Main. -Tehran: 1375, Əntişarat Əmir Kəbir, 1375.

К.Мирзоева

Проблема перевода и публикации классического наследия
(поэма «Лейли и Меджнун» Низами)
Резюме

В статье рассматриваются общие вопросы перевода и публикации классического наследия и в качестве примера затронут некоторые моменты данной проблемы относительно поэмы Лейли и Меджнун» Низами.

Поэтический перевод классического наследия начался еще в Средневековье, который чаше всего считался самостоятельным произведением.

Современный перевод стал популярным в 20-м веку. Сначала был осуществлен поэтический, а потом филологический перевод «Хамсе» (Пятерица) Низами. В статье дается большая оценка проделанной в этом направлении работе, одновременно указываются имеющиеся в ней пробелы и недостатки.

K.Mirzayeva

The problem of the translation and publication of classical heritage
the poem “Leyli and Mecnun” by Nizami

Summary

The paper considers general aspect’s of of the translation and publication of classical heritage. There has be analyzed some points from the the poem “Leyli and Mecnun” by Nizami.

Poetic translation of the classical heritage was begin in Middle Ages, which often have been perceived independent work. Modern translation became popular in 20^{th} century. Firstly was created poetic and then philological translation Nizami’s works. In this paper were discussed gaps and weaknesses of the this work.

Rəyçi: N.Göyüşov
filologiya elmləri doktoru, professor

F.ü.f.d. YEGANƏ ERGİN
ADPU

AZƏRBAYCAN VƏ TÜRKMƏN DİLLƏRİNDƏ HAL KATEQORİYASI

Açar sözlər: hal kateqoriyası, adlıq hal, yiyelik hal, yerlik hal
Ключевые слова: категория дел, именительном падеже, родительный падеж
Key words: category of cases, nominative, genitive, people

Əksər türk dillərində tarixən o qədər də ciddi dəyişikliyə uğramayan hal kateqoriyası cümlə üzvləri və söz birləşmələrinin komponentləri arasında qrammatik əlaqə yaradaraq isim, sifət, say, əvəzlik, zərf, feli isim, feli sifət və məsdərləri əhatə edir. Hallanma, əslində, formaca morfoloji, vəzifəcə sintaktik tələblərdən irəli gələn kateqoriya hesab edilir. (9,s.50) Türk dillərinin qrammatik quruluşunda öz zənginliyi ilə seçilən hal kateqoriyasının tədqiqində A.M.Şerbak, N.A.Baskakov, B.İ.Boqoroditski, A.Kononov, O.Süleymanov, T.Banquoğlu, F.Zeynalov, Ə.Şükürlü, M.Hüseynzadə, B.Xəlilov və başqalarının xüsusi rolu olmuşdur. B.Xəlilov hallanmaya belə tərif verir: Hallana bilən sözlərin söz birləşməsi və cümlə daxilindəki fellərin, qoşmaların, adların tələbinə görə bir formadan başqa formaya düşməsinə hallanma deyilir.(1,s.153)

1920-30-cu illərdə ismin hallarına heç bir ad verilməmiş, onlar yalnız şəkilçiləri ilə göstərilmişdi. Halların miqdarı isə səkkizə çatdırılmışdı. Ilk dəfə 1934-cü ildə Azərbaycan dilində hal adları yaranmış və ismin yeddi halı qəbul edilmişdir. Yeddinci hal birgəlik hal adlanmış, 1939-cu il qrammatikalarında yiyəlik halla birgə birgəlik hal da artırılaraq yalnız beş hal saxlanmışdır. Yiyəlik halın hallar sırasından çıxarılması həmin halın üçüncü növ təyini söz birləşməsi yaratması və bu birləşmələrin sintaksisdə öyrənilməsi ilə əlaqədər idi. Lakin 1944-cü ildə yiyəlik hal doğru olaraq yenidən hallar sırasına qaytarıldı. Birgəlik hal isə bugünkü türk dillərinin bir çoxunda olsa da, Azərbaycan dilçiliyində məqbul hesab edilmədi. Ümumiyyətlə, bu hal haqqında mübahisəli fikirlər mövcuddur. Tarixən birlən qoşmasından təşəkkül tapan ilə qoşması (və onun şəkilçiləşmiş forması olan la, lə) birgəlik halın ifadə forması olmuş, həm sözlərə bitişik, həm də ayrı yazılmışdır. A.Axundov bu qoşmanın müxtəlif fonetik variantlarla Azərbaycan dilinin dialekt və şivələrində birgəlik halın ifadəsinə xidmət etdiyini göstərir. Fikrimizcə, Azərbaycan dilində bir çox qoşmalar ismin halları ilə işlənə bilir və bəziləri sözlərə həm bitişik, həm də ayrı yazılır. Əgər birgəlik hal ayrıca hal kimi qəbul edilərsə, o zaman digər qoşmaların da hər hansı halın ifadə forması olduğunu qəbul etmək lazım gələr. Buna isə ehtiyac yoxdur. Çünki ismin digər halları yalnız şəkilçilərlə ifadə olunur. Qazax, qaraçaybalkar, karaim, xakas, şor, çuvaş, yakut dillərində birgəlik hal bu gün də ayrıca hal kimi fərqləndirilir. Orxon Yenisey abidələrində alətlik-birgəlik hal ismin doqquzuncu halı kimi göstərilir. Əlisa Şükürlü qeyd edir ki, "alətlik-birgəlik hal görümü orta əsr türk dillərində, olsun ki XVIII əsr-dən işlədilmişdir. Lakin qrammatik və semantik vəzifəsinə görə fərqlənməyən birlə, ilə qoşmaları tədricən alətlik hal şəkilçisinin unudulmasına səbəb olmuşdur. Bununla yanaşı –ın[4] hal şəkilçisinin iz və qalıntılarına indiki türk dillərində təcrid olunmuş bir leksik vahid halında sabitləş-

miş bəzi sözlərin tərkibində rast gəlmək mümkündür.-ın, -in, -un şəkilçi variantları ilə ifadə olunan alətlik-birgəlik hal şəkilçisinə uyğur yazlı abidələrində də rast gəlmək mümkündür". (4, səh. 82).

Ümumiyyətlə, ismin hallarının bir-birini əvəz etməsi faktına həm digər türk dillərində, həm də qədim yazılı abidələrimizdə rast gəlirik. Y.Məmmədov yazır ki, Orxon-Yenisey abidələrində ismin hallarının funksiyaca bir-birini əvəz etməsi, müasir türk dillərindən fərqli olaraq, o qədər geniş yayılmışdır ki, bunu abidələrin dilinin qanunauyğun xüsusiyyəti hesab etmək olar. Nümunələrə nəzər yetirək.

Uruz qarşusunda yay söykənib durardı . ("Kitabi-Dədə Qorqud)
Çün bilürsən Kişvərinin dərdi dərmandurur. (Kişvəri)
Sənə gələn ağrı mənciyəz gəlsin. (Qax)
Pişig atmağa istiyədü. (Dərbənd)(4, səh 197)

Türkmən dilində də ismin altı halı mövcuddur:
Baş hal
Eelik hal
Yöneliş hal
Eniş hal
Vaqt-orun hal
Çıkış hal.

Türkmən dilində adlıq hal şəkilçisidir. Bu dildə yiyəlik hal -ıη,- nıη,-η şəkilçiləri ilə formalaşır:tovuqıη, Orazovıη və s.

Göründüyü kimi, türkmən dilində yiyəlik hal şəkilçisi sağır nun variantı ilə işlənir. Bu formaya "Kitabi- Dədə Qorqud" dastanında, eləcə də lassiklərimizin əsərlərində XIX əsrədək tez-tez rast gəlinir. Qədim türk yazılı abidələrində də yiyəlik halın sağır nun variantı işlənmişdir: Bilga kağanın, bodunu (Bilgə xanın xalqı); türk bodunun ilin (türk xalqının elinin) ; igidmiş kağanının sabın almatın (sizi yüksəltmiş xanımnızın sözünü eşitmədiniz).

Qədim uyğur yazılı abidələrində də yiyəlik halın sağır nun variantı işlənir. Məs: yaruknun – işığın, burxanlarnın – buddaların.

R.Mədətova yazır ki, "yiyəlik halın sağır nun"la işlənməsi arxaik bir fakt kimi dilimizin qədim qatları ilə köktürkcə ilə bağlıdır. (11,s.75)

M.Kaşğari divanında və "Dədə Qorqud" dastanında da bu forma işlək olmuşdur: anınğ barduki barmaduki bir.

Tün kün turup yığlayu yaşım meninğ savrulur. (2,s.42)

Mərə ozan, qopuzıη mana vergil, atumi sana verəyim. (8,s.60)

Maraqlıdır ki, Kişvəri dilində yiyəlik hal şəkilçisi –ın[4], -nın[4] formasında işlənsə də, samitlə bitən sözlərdə də "n" bitişdiricisindən istifadə olunur. R.Eyvazova bu faktın dilimizin dialekt və şivələrində olmadığını nəzərə alaraq yazır ki, "həmin formanın Orta Asiya xalqlarının şairləri ilə yaradıcılıq müadiləsinin nəticəsi kimi dilimizə gətirildiyini düşünmək olar". (10,s.20)

Müəllif ,həmçinin divanda yiyəlik halın yönlük hal yerində işlənməsinə də misal gətirmiş, bunu tarixən ismin hallarının bir-birini əvəzlənməsi faktı kimi təqdim etmişdir: sənün sarı – sənə sarı.

Ə.Tanrıverdiyev yiyəlik halın tarixi xüsusiyyətlərindən bəhs edərkən yazır ki, "Orxon-Yenisey abidələrində mən və biz əvəzlikləri yiyəlik halda - ıη şəkilçisi ilə işlənib: məniη, biziη. Bu, M.Kaşğarinin "Divan"ı üçün səciyyəvidir: məninq kızım – mənim qızım, bizinq əv – bizim ev. "Kitab"da isə mən və biz əvəzlikləri – im şəkilçisi ilə işlənib: mənim ərligim, bizim tağla. Deməli, mənim və bizim şəklində işlənmə birdən-birə sabitləşməyib". (5,s.198) F.Cəlilov birinci şəxsin təkində yiyəlik halın ım allamorfunu sonrakı hadisə hesab etmiş və bu dəyişmənin mənsubiyyət şəkilçisindən başladığını göstərmişdir. (6,s.223)

A.N.Kononov yiyəlik hal və mənsubiyyət şəkilçilərinin hər ikisinin eyni kök əsasında əmələ gəlməsini göstərsə də , Ə.Şükürlü yiyəlik hal şəkilçisinin "nan"-şey, əşya mənalı isimdən əmələ gəlməsi barədə yürüdülən mülahizənin daha ağlabatan olduğunu söyləmişdir. Müəllifin fikrinə görə, türk yazılı abidələrində yiyəlik hal şəkilçisinə çox az təsadüf olunur. Bu da, görünür, həmin şəkilçinin başqa hal şəkilçilərindən sonra meydana çıxması hadisəsi ilə bağlıdır. (4,s.84)

Fikrimizcə, yiyəlik hal şəkilçilərinin nisbətən sonrakı dövrlərdə meydana çıxması faktını qəbul etmək olsa da, bu şəkilçinin "nan" əşya mənalı sözdən əmələ gəldiyini söyləmək o qədər də inandırıcı deyil. Bizcə, bu şəkilçinin kökünün mənsubiyyət şəkilçiləri ilə əlaqələndirilməsi daha ağlabatandır.

Türkmən dilində yönlük halın əsasən –a, -ə, -e, qismən də -ra, -re, -k şəkilçiləri ilə formalaşdığı göstərilir. Məs:öyünə, dostlarqa ,sözqe və s.

Ş.Xəlilov göstərir ki, "yönlük halın ən qədim ifadə vasitələrindən biri olan –a, -ə tarix boyu oğuz dilləri üçün səciyyəvi olmuşdur. (7,s.45) Ə.Tanrıverdi də -ğa, -gə morfe-minin məhdud dairədə, həm də qıpçaq-qarluq təsiri ilə işləndiyini qeyd edir. Lakin qədim türk yazılı abidələrində başlıca olaraq –ka, -kə, çox az hallarda isə -a, -ya, -yə şəkilçi variantları işlənmişdir: Tabğaç kağanka (Tabğaç xanına), Tuputka (Tibe-tə), kanğa (xana), yağıya(yağıya).

Maraqlıdır ki, yönlük halın –gə, -ka variantına Kişvəri "Divan"ında da rast gəlinir:

Nə halimə behbud, nə dərdimğə təbib.
Bizka ruzi qıldı bikəslik bilə biçarəliğ.

"Kitabi-Dədə Qorqud"da, Nəsimi, Q.Bürhanəddin, Xətayi, Fizuli yaradıcılığında yiyəlik halın – a, -ə, -ya, -yə variantı işlək olmuşdur: Tənriyə şükrlər qıldılar. (K.D.Q)

Düşdü yenə dəli könül gözlərinin xəyalinə,
Bilmirəm ki, bu könlumün dərdi nədir, xəyali nə.
(Nəsimi).

Ər oldur həq yoluna baş oynaya
Döşəkdə ölən yigit murdar bolur.
(Q.Bürhanəddin).

Qamu bimarinə canan, dəvayi-dərd edər ehsan,
Neçün qılmaz mənə dərman, məni bimar sanmazmı?
(Fizuli).

Gözündən ahutək dağlara düşdüm,
Nə sehr etdi mənə ol iki cadu?

(Xətayi)

Qeyd edək ki, oğuz qrupu türk dilləri üçün xarakterik olan –a, -ə şəkilçisinin monqol dilində də mövcud olduğu göstərilir.

Türkmən dilində təsirlik hal yalnız ikivariantlı –ı, -i, -nı, -ni şəkilçisi ilə formalaşır. Bu şəkilçinin –u, -ü, -nu, -nü variantı bu dil üçün xarakterik deyil. Məs: otı, obanı, qeçisini və s. Burada təklik hal müəyyənlik və qeyri-müəyyənlik bildirir: O, kitap aldı.

Bu dildə yerlik hal –da, -de şəkilçisi ilə düzəlir. Sonu saitlə bitən sözlərdə "n" bitişdiricisindən istifadə olunur: qyüzde, ilində və s.

Türkmən dilində çıxışlıq hal –dan, -den şəkilçisi ilə formalaşır: obasından, adamdan, dereden.

Göründüyü kimi, türkmən dilində hal kateqoriyası müəyyən fərqli xüsusiyyətlərə malik olsa da, dilimizlə əsasən uyğunluq təşkil edir.

Ədəbiyyat

1.B.Xəlilov. Müasir Azərbaycan dilinin morfologiyası. I hissə. Bakı "Elm", 2000
2.Divani-lüğat-it-türk. Tercümesi. II, Ankara 1992,
3.E.Əzizov. azərb.dilinin tarixi dialektologiyası. Bakı, 1999
4.Ə.Şükürlü. Qədim türk yazılı abidələrinin dili. Bakı, 1993
5.Ə.Tanrıverdi. Azərb.dilinin tarixi qrammatikası. "Elm və təhsil". Bakı, 2010
6.F.Cəlilov. Azərb.dilinin morfonologiyası. Bakı, 1988
7.Xəlilov Ş. "Əsrarnamə"nin dili. Bakı, 1988
8.Kitabi-Dədə Qorqud. Bakı, Yazıçı, 1988
9.M.Hüseynzadə- Müasir Azərbaycan dili, Bakı "Maarif" nəşr. 1983
10.R.Eyvazova. Kişvəri "Divan"ının dili. Bakı, 1983
11.R.Mədətova. XIII-XVIII əsrlər Az.dili yazılı abidələrində məsdər, Bakı, "Nurlan", 2012

Эгана Эргин

Категория падежа в Азербайджанском и туркменском языках

Резюме

Известно что история языка как история общества очень древня. Язык среди людей был главным и незаменимым средством язык без слов в устном и в письменной форме перерос в этом смысле история языка – история общества говорящие конечно неправы. Язык всегда был с обществом: во время возвышения общества его во время упадка был в кризисе. А во время ничтожности общества умер в языке забылось. С этой стороны изучение современных языков расследование любых языковых категорий здешних родственных языков и павших языков-дает нам обратиться материалам писменных источников.

Yegana Ergin

Category of case in the Azerbaijani and Turkmen language

Summary

It is well known that the history of language as a society are very ancient history. Language of the people was a major and indispensable means of language without words in oral and written form evolved in this sense, the history of language - the history of public speaking course wrong. Language has always been with the company: during the elevation of society at the time of his demise was in crisis. And during the nullity of the society died in the language has been forgotten. On this side, the study of modern languages investigate any language kategoriy.zdeshnih related languages and dead languages, allows us to turn the materials written sources.

Rəyçi: Vilayət Əliyev
filologiya elmləri doktoru, professor

ƏZİZƏ MİKAYILOVA
filoloğiya elmləri doktoru, professor

DİLÇİLİK ŞÖBƏLƏRİ VƏ ONLARIN QARŞILIQLI ƏLAQƏSİ

Açar sözlər: Azərbaycan dili, dilçilik, dilçiliyin bölmələri, morfologiya, sintaksis, leksika, orfografiya, orfoepiya.
Ключевые слова: Азербайджанский язык, языкознание, разделы языкознания, морфология, синтаксис, лексика, орфография, орфоэпия.
Key words: Azerbaijani language, linguistics, sections of linguistics, morphology, syntaxes, lexicology, orthography, orthoepy

Bütün dilçilik şöbələrinin tədqiqat obyekti ünsiyyət vasitəsi olan dildir. Bu səbəbdən də bu və ya digər şöbələr arasında daim qarşılıqlı əlaqə vardır. Vahid bir elmin tərkib hissələrini təşkil edən dilçilik şöbələri arasında daima qarşılıqlı əlaqə mövcuddur (12, 159).

Qrammatikanın (ayrı-ayrılıqda morfologiya və sintaksisin) yaranması, formalaşması, inkişafı, tədrisi həmişə dilçiliyin digər şöbələri ilə bağlı olmuşdur. "Dil iki ayrılmaz tərkib hissədən ibarətdir: lüğət tərkibi və qrammatik quruluş. Sözlər dilin qrammatikasının ixtiyarına keçəndə dil şəklini alır. Qrammatik quruluş isə iki hissədən ibarətdir: dilin morfoloji və sintaktik quruluşu. Bu da, leksika, morfologiya və sintaksisin daim bir-biri ilə bağlı olduğunu göstərir" (1, 9). Çox düzgün və dəqiq ifadə olunmuş fikirdir. Alimin bu fikri bir sıra qrammatika dərslik və monoqrafiyalarda eyni ilə, dəyişilmədən, əlavə mülahizə, izahat verilmədən getmişdir. Bu da dilçilərimizin sitata göstərdiyi münasibəti təsdiq edir.

Qrammatikanın fonetika ilə əlaqəsi möhkəm və yaxındır. Fonetika dilin səs sistemindən, fonetik qanunlarından, fonetik hadisələrindən bəhs edən dilçilik sahəsidir. Hər hansı bir vahid, ilk növbədə, sözdür, söz isə səslərdən təşkil olunmuşdur. Morfologiyada isə həmin sözlərin qrammatik quruluşu öyrənilir. Sözlər məna və formalarına görə qruplaşdırılaraq, müəyyən qrammatik və leksik şəkilçilər əsasında dəyişir. Dil vahidləri yarandığı gündən bu günə kimi müəyyən fonetik dəyişkənliklərə, fonetik hadisələrə (uyuşma, səsartımı, səsdüşümü, səs fərqləşməsi və c.) məruz qalmışdır. Bir sıra sözlərdə fonetik hadisələrin baş verməsii həmçinin morfologiya bölməsində də öyrənilir. Məsələn; adamlar – adamnar, biletlər – biletdər, orada – orda, burada – burda, harada – harda, haradan – hardan, gedirsiniz – gedirsiz, yazma – yazmayır – yazmır və s.

Fonetikada nitq parçalarının fono-semantik əlamətlərindən biri də vurğudur. Türk dillərində adətən vurğunun yeri sabitdir, heca vurğusu, adətən, sonuncu hecanın üzərinə düşür: tələbə, tələbələr, tələbələrin və s. Lakin Azərbaycan dilində vurğu qəbul etməyən bir sıra şəkilçilər vardır: *tələbəyəm – tələbəsən– tələbədir, oxu – oxuma, gəlmədən – gəlin – gəlincə* və s. Belə şəkilçilər sözə əlavə edildikdə vurğu şəkilçiyə keçmədən yerində sabit qalır. Bu zaman morfologiya ilə fonetika bölmələri arasında əlaqə yaranır. Fikrin müxtəlif məna çalarlarını ifadə etmək məqsədilə cümlə daxilindəki vurğudan

istifadə olunur ki, buna fonetikada məntiqi vurğu deyilir. Məntiqi vurğu anlayışı fonetika ilə sintaksisin bir-biri ilə əlaqəsidir.

Leksik vahidin müqayisəli morfoloji təhlili zamanı da səs tərkibləri öyrənilir. Məsələn: Oğuz dil qrupuna məxsus olan Azərbaycan və türk dillərinin qrammatik şəkilçilərinə nəzər yetirək. Azərbaycan dilində kəmiyyət şəkilçiləri *–lar, -lər* türk dilində *-lar, -ler* (çoxluk eki) variantında; yaxud Azərbaycan dilində ismin yönlük, təsirlik, yerlik, çıxışlıq hal şəkilçiləri: *-a, -ə;-ı, -i, -u, -ü; -da, -də; -dan, -dən;* türk dilində isə müvafiq hallar *-i, -ı, -u, -ü* (*masayı, sırayı* və s.); *-e, -a* (*İzmire, okula* və s.); *-da, -de, -ta, -te* (*yolda, başkentte* və s.); *-dan, -den, -tan, -ten* (*yoldan, başkentten* və s.) morfemləri vasitəsilə düzəldiyini izah edərkən qrammatika ilə fonetika bölmələri arasında əlaqə yaranır..

Dilimizdə işlənən bu və ya digər söz linqvistik qaydalara uyğun olaraq müəyyən dəyişikliyə məruz qalır, nəticədə, yeni sözlər yaranır. Morfologiyada hər hansı bir nitq vahidinin hansı üsul və vasitələrlə yaranmasından bəhs olunur, yəni sözlərin dəyişilməsi, quruluşu öyrənilir. Bu zaman sözlərin nitq hissələrinə görə qruplaşdırılmasının böyük əhəmiyyəti vardır. Bizim dilimizdə söz yaradıcılığının müxtəlif vasitələri vardır. Bunlardan ikisi daha əsasdır: 1) leksik şəkilçilər vasitəsi ilə yeni sözlərin yaranması; 2) iki sözün birləşməsi ilə yeni sözlərin yaranması. Vahidin belə bir araşdırılması zamanı qrammatikanın dilçiliyin digər şöbələri – söz yaradıcılığı və leksika ilə əlaqəsi yaranır.

Morfologiyada sözlər həm nitq hissələrinə görə, həm də mənaca növlərinə görə məhz leksik anlamları əsasında qruplaşdırılır. Məsələn: isimlərin əşyanın adını, sifətlərin əşyanın əlamət və keyfiyyətini, sayların əşyanın miqdar və sırasını, zərflərin hərəkərin tərzini, zamanını, yerini, miqdarını, fellərin hərəkət bildirməsi əslində leksika bölməsi üçün xarakterikdir. Fikrimizi əsaslandırmaq üçün sifətin mənaca növlərinə nəzər yetirək.

Sifətin mənaca növləri aşağıdakılardır: rəng bildirən sifətlər (*ağ, qara, yaşıl, qırmızı* və s.); keyfiyyət bildirən sifətlər (*yaxşı, pis, acıdil, tənbəl* və s.); dad bildirən sifətlər (*acı, şirin, turş* və s.); həcm bildirən sifətlər (*iri, böyük, kiçik* və s.); görkəm bildirən sifətlər (*nurani, kor, qəşəng, çirkin* və s.); forma bildirən sifətlər (*uzun, dairəvi, yumru* və s.). Qeyd etdiyimiz kimi, nitq vahidinin mənaca qruplaşdırılması sözlərin leksik, yəni lüğəvi mənası əsasında izah olunmalıdır.

"Müasir Azərbaycan dili" dərs vəsaitində sintaksisin tədqiqat obyekti aşağıdakı kimi verilir: "Sintaksis dilin qrammatik quruluşu haqqında elm olmaq etibarilə sintaktik vahidlər sistemini (söz birləşmələri, sadə cümlələr, mürəkkəb cümlələr, mürəkkəb sintaktik bütövlər), sintaktik vahidlərin qurulması və bağlama vasitələrini öyrədir. Sintaksis iki böyük bəhsdən ibarətdir: söz birləşmələri və cümlələr" (1, 3). Sözlər, söz birləşmələri və cümlələrin bitmiş bir fikir ifadə edərkən (tabelilik əlaqəsi və tabasizlik əlaqələri nəticəsində) leksik və qrammatik şəkilçilərin qəbul olunması leksika, morfologiya, sintaksis, həmçinin söz yaradıcılığının və s.-nin bir dilçilik bölümündən digərinə keçid baş verir. Tədqiqatçılar sintaksislə leksika arasındakı qarşılıqlı əlaqədən bəhs edərək yazırlar: "Söz birləşmələrinin və cümlələrin tikinti material-

ları sözdür. Məlumdur ki, fikrin dəqiq və təkmil ifadəsində leksik zənginliyin böyük əhəmiyyəti var. Söz birləşmələrində sözlərin əlaqələnməsi morfoloji prinsiplərə əsaslanır. Məsələn, təyini söz birləşmələrinin üç növdə qruplaşması morfoloji əlamətlərə görə müəyyənləşir (uca dağlar, maraqlı kitab, yazı taxtası, dərs cədvəli, Aydanın qardaşı, bağçanın hasarı və s.)" Dərslikdə verilən əlavə izahat bizim bütün fikir və mülahizələrimə aydınlıq gətirir: "Dilin qatları arasındakı əlaqəni izah etmək üçün müəllif bəzən əyanilik xatirinə elmin ayrı-ayrı sahələrini də, yənu morfologiya, sintaksis, leksikologiya və fonetikanı da bilərəkdən müqayisəyə və izahata cəlb edir" (1, 9). Dərsliyin aşağı hissəsində verilmiş kiçik hərflərlə yazılmış məlumatdan, məlumatda gedən fikrin məzmun və strukturundan aydın olur ki, bu cümlə müəlliflərə aid deyildir. Çox güman ki, bu fikir kitabın elmi redaktoru Azər.Respublikası AMEA-nın müxbir üzvü, prof. A.M.Qurbanova aiddir. Alimin fikri bir qədər aydın deyildir, sanki alim "bilərəkdən" deyərək, müəlliflərə bir qədər haqq qazandırmaq istəyir. Dilçiliyin bölmələri arasındakı əlaqə qarşılıqlı, daimi və möhkəmdir, bir dilçilik bölməsindən digərinə keçid labüddür.

Elmi araşdırmalar nəticəsində qəbul olunmuşdur: dilimizdəki söz birləşmələrinin iki növü var: ismi birləşmələr və feli birləşmələr. İsmi birləşmələrin tərkibində, həmçinin, zərf birləşmələri və qoşmalı birləşmələrin də özünəməxsus yeri vardır. Feli birləşmələr isə tərkibindəki morfoloji əlamətlərə görə üç yerə ayrılır: feli sifət, feli bağlama və məsdər tərkibləri. Əsaslanaraq, demək olar ki, sintaksisin tədqiqat obyekti olan söz birləşmələri və cümlələr bütövlükdə morfoloji əlamətlər əsasında yaranıb formalaşmışdır.

Dilimizin leksikasındakı sözlər mənşəyinə görə iki qrupa bölünür: türk mənşəli sözlər və başqa dillərdən alınma sözlər. Sübut olunmuşdur ki, dünyada yalnız öz milli sözlərindən ibarət saf dil yoxdur. "Sözlərin bir dildən başqa bir dilə keçməsi prosesi dünyanın bütün dillərinə xasdır. Hələ çox qədim zamanlardan başlamış dövrümüzə qədər dünya dilləri bir-biri ilə əlaqədə inkişaf etmiş, zaman keçdikcə bu əlaqələr genişlənmişdir. Bunun nəticəsində də, müasir dünya dillərinin hər hansı birinin lüğət tərkibində başqa dillərin sözlərinə rast gəlmək mümkündür" (13, 122). Dilimizin lüğət tərkibində mövcud olan alınma sözlər iki grupa ayrılır: ərəb-fars dillərindən alınma sözlər və Avropa dillərindən alınma sözlər. Morfoloji araşdırmalar zamanı bəzən sözlərin mənşəyinə müraciət etmək lazım gəlir. Dilimizdə saitlə bitən beş alınma söz *(tale, mövqe, mənşə, mənafe. mənbə)* mövcuddur ki, onların qəbul etdikləri mənsubiyyət şəkilçiləri digər sözlərə artırılan mənsubiyyət şəkilçilərindən bir qədər fərqlənir. Belə sözlərdə mənsubiyyət şəkilçilərinin əvvəlində *y* bitişdirici samiti işlədilir: *mövqeyim, mövqeyin, mövqeyi, mövqeyimiz, mövqeyiniz, mövqeyi* Dilimizdə bəzi ikihecalı sözlər var ki. onlara saitlə başlanan şəkilçi artırdıqda kökünün son saiti düşür. Yenə sözün mənşəyinə müraciət etmək lazım gəlir, çünki bu tip ikihecalı ərəb-fars mənşəli sözlərə (*nəsil, şəkil, fəsil, isim, qisim, cisim, sinif* və s.) hər zaman saitlə başlayan şəkilçi artırdıqda kökün son saiti düşür (*nəsli, fəsli, ismi, qismi, cismi, sinfi* və s.). Lakin türk mənşəli sözlərdə isə bu proses fərqli tərzdə baş verir. Bunlara yalnız mənsubiyyət şəkilçiləri artırdıqda kök-

lərin son saiti düşür (*mənim oğlum, sənin oğlun, onun oğlu, bizim oğlumuz, sizin oğlunuz, onların oğlu)*, saitlə başlanan hal şəkilçiləri artırıldıqda isə söz kökləri dəyişməz qalır: *(oğul, oğulun, oğula, oğulu* və s.) - (morfologiya və leksikanın əlaqəsi).

Təbiidir ki, Azərbaycan dili müxtəlif tarixi inkişaf dövrlərində ərəb-fars, rus dilləri ilə qarşılıqlı münasibətdə olduğundan leksikamıza xeyli miqdarda sözlərlə yanaşı, şəkilçilər də *(-na, -bi, -ba, -ban, -güzar, anti-, a-, -stan* və s.) keçmişdir. Dilimizdə baş vermiş bu proses leksika, söz yaradıcılığı, morfologiya bölmələrinin hər biri üçün xarakterikdir.

Qrammatika dilçiliyin onomastika şöbəsi ilə bağlıdır. Hər hansı onomastik vahid müəyyən bir nitq hissəsidir, ümumi adları bir-birindən fərqləndirməyə xidmət etdiyi üçün xüsusi isimdir. Onomastik vahidlərdən danışarkən sözlərin morfoloji dəyişməsindən, quruluşundan bəhs edilməlidir.

Morfologiyada dilimizin lüğət tərkibindəki bütün isimlər iki yerə bölünür: ümumi isimlər və xüsusi isimlər. Bu bölgü dilin leksik tərkibinin ən qədim ənənəvi bölünmə üsuludur. Xüsusi isimlərin və ümumi isimlərin öyrənilməsi dilçilik elminin əsas vəzifələrindən biridir. Onomalogiyada ümumi isimlər – apelyativ leksika, xüsusi isimlər onomastik leksika terminləri ilə əvəz olunmuşdur. Onomastik vahidlər öz vəzifə, funksiya və mənalarına görə ümumi adlardan kəskin sürətdə fərqlənir. "Onomastikanı dilçiliyin xüsusi bir qolu" adlandıran A.V.Superanskaya yazmışdır: "Xüsusi adlar linqvistik kateqoriyalara daxil olan bütün sözlər kimi eyni elementlərdən təşkil olunsa da, cəmiyyətə fərqli xidmət edir" (3, 7). Onomastik vahid dil işarəsi üçün tələb olunan ikitərəfliyə – ümumi adlara xas olan ifadə edənin və ifadə edilənin birliyinə malik deyildir. Eynicinsli bütün əşyalar ümumi isimlər, eynicinsli əşyaları bir-birindən fərqləndirmək üçün verilən adlar isə xüsusi isimlərdir. Xüsusi adların, yəni xüsusi isimlərin bir neçə qrupa bölündüyünü nəzərə alsaq, onomastikanın da həmin bölgüyə uyğun olaraq bölmələri olduğunu görərik. Xüsusi isimlərin tədqiqat obyekti aşağıdakılardır:

a) şəxs adları, soyadlar, təxəllüs və ləqəblər;
b) coğrafi adlar;
c) səma cisimlərinə verilən adlar;
ç) qəzet və jurnallara, müxtəlif əsərlərə, ictimai və məişət obyekтlərinə verilən xüsusi adlar;
d) heyvanlara verilən xüsusi adlar.

Xüsusi isimləri onomastik vahidlərlə eyniləşdirərək aşağıdakı kimi qruplaşdırmaq olar:

a) şəxslərin adları, soyadları, təxəllüs və ləqəbləri antroponimlərə;
b) bütövlükdə coğrafi adları toponimlərə;
c) müxtəlif yaşayış məntəqələrinin adlarını – yəni şəhər, rayon, kənd adlarını oykonimlərə;
ç) səma cisimlərinin adlarını (ay, planet və s.) astronim və ya kosmonimlərə;
d) çay, göl, dəniz, okean adlarını hidronimlərə;

e) heyvanlara verilən xüsusi adları zoonimlərə;

ə) bina – tikili adlarını oykodonimlərə və ya urbanonimlərə;

f) qəzet və jurnallara, müxtəlif əsərlərə verilən xüsusi adları isə ideonimlərə aid etmək olar.

Qrammatikanın öyrənilməsi sahəsində xüsusi mövqeyə malik olan şöbələr içərisində orfoqrafiya əsas yer tutur. Bildiyimiz kimi, hər bir dilin ilk meydana gəlməsi danışıq dili formasıdır, yazı isə sonrakı hadisədir. Dil və yazı ıkı müxtəlif işarələr sistemidir ki, onlardan ikincisinin yeganə mənası birincinin təsvirinə xidmət etməkdir (14, 87). Hər hansı bir dili yazısız təsəvvür etmək mümkün deyildir, vahidin düzgün yazılması zəruridir. Dilimizdəki bütün dil vahidləri əsas orfoqrafik qaydalara tabe olub orfoepiya – yəni düzgün tələffüz əsasında olmalıdır. Ə.Dəmirçizadə orfoqrafiya qaydalarının beş prinsip (fonetik, morfoloji, tarixi-ənənvi, fərqləndirici və etimoloji) əsasında müəyyənləşdirilməsini göstərir ki, bu prinsiplərdən də biri (morfoloji) dilçiliyin qrammatika bölməsi ilə başlıdır. O yazır: "Morfoloji prinsipə görə oqfoqrafiya qaydalarının müəyyənləşdirilməsində, əsasən mənalı vahidlərin – sözlərin (söz kökləri, şəkilçilərlə düzəldilən, dəyişdirilən sözlər və şəkilçilər) orfoqrafiyası nəzərdə tutulur. Məhz morfoloji prinsip dilin əsas mənalı ünsürlərinin – sözlərin yazıya vahid şəkildə köçürülməsi qaydalarını istiqamətləndirən ən mühüm prinsipdir... Eyni vahidin müxtəlif çalarlıqda tələffüzü müxtəlif məqam və şəraitlə əlaqədar ola bilir. Məsələn: *öy, öv, əv, ev* və s. Morfoloji prinsip əsasında bu variantlardan ancaq biri (*ev*) qəbul olunur və yazıda sabitləşir" (9, 272).

Qrammatika ilə orfoepiyanın da ortaq dil elementləri mövcuddur. Orfoepiya şifahi danışıq dilinin ümumi normalar əsasında formalaşdırılmasıdır. Sonu *n, m* samitləri ilə bitən sözlərdən sonra çıxışlıq hal şəkilçisi və ilə qoşması *–nan, nən* formasında çıxış edir. İsmin hal şəkilçisində vurğu şəkilçinin üzərinə, *ilə* qoşması işləndikdə isə vurğu sözün öz saitinin üzərinə düşür. Təbii ki, belə nümunələrin sayını artırmaq mümkündür.

Dilimizin frazeoloji sistemi qrammatika ilə bağlıdır. Nitqdə ayrı-ayrı sözlərlə yanaşı, bütövlükdə müəyyən bir leksik mənanı ifadə edən sabit söz birləşmələri də istifadə olunur. Frazeoloji birləşmələr tərkibcə dəyişməz, hazır şəkildə işlənən məcazi birləşmələrdir ki, bütövlükdə cümlənin bir üzvü olur: Uşağın qorxudan *dili qurudu*. Frazeoloji birləşmə cümlənin xəbəri vəzifəsində çıxış etmişdir.

Qrammatikanı həmçinin dilçiliyin digər bölmələri – etimologiya, semasiologiya və digər bölmələri ilə də əlaqələndirmək mümkündür.

Morfologiya tədris olunarkən sözün leksik, fonetik, morfoloji cəhətləri ilə bərabər, onun sintaktik rolu da nəzərə alınmalıdır. Sintaktik təhlil zamanı hər bir cümlə üzvlərinin ifadə vasitələrinin izahı verildikdə morfologiya ilə sintaksis arasında əlaqə yaranır. Sintaksisin cümlədən kiçik obyekti söz birləşmələridir. Dilimizdə bəzən elə bir vahidə (mürəkkəb sözə) rast gəlirik ki, həmin sözün tərkibinə nəzər saldıqda onun söz birləşmələrindən yarandığı məlum olur: *itigöz, özfəaliyyət* (birinci növ təyini söz birləşməsi); *dünyagörüşü, xalqlararası* (ikinci növ təyini söz birləşməsi); *qaniçən,*

pambıqyığan (feli sifət tərkibli mürəkkəb söz) və s. Belə nümunələr dilçiliyin morfologiya, sintaksis, leksika və söz yaradıcılığı bölmələri arasındakı əlaqəni göstərir.

Ədəbiyyat

1. Abdullayev Ə.Z., Seyidov Y.M., Həsənov A.Q. Müasir Azərbaycan dili (Sintaksis). IV hissə, Bakı: Bakı Universiteti nəşriyyatı, 1992.
2. Axundov A. Ümumi dilçilik, Bakı: Maarif, 1979.
3. Антропонимика. Москва: Наука, 1970.
4. Azərbaycan dilinin qrammatikası. Bakı: EA nəşri, 1960.
5. Cəfərov S. Müasir Azərbaycan dili. Leksika. Bakı: Maarif,1982.
6. Dəmirçizadə Ə.M. Müasir Azərbaycan dili (Fonetika, Orfoepiya, Orfoqrafiya), I hissə, Bakı: Maarif, 1972
7. Hüseynzadə M.H. Müasir Azərbaycan dili (morfologiya). Bakı: 1983.
8. Qurbanov A.M. Müasir Azərbaycan ədəbi dili. Bakı: Maarif, 1967.
9. Qurbanov A.M. Ümumi dilçilik. Bakı: Maarif, 1977.
10. Məmmədov N., Axundov A. Dilçiliyə giriş. Bakı: Maarif 1980.
11. Sössür F. Ümumi dilçilik kursu, Bakı: BDU nəşri, 2003.

Азиза Микаилова

Разделы языковедения и их взаимная связь

Резюме

Между разделами языковедения существует взаимная связь. Морфология связана с фонетикой, лексикой, словообразованием, ономастикой, орфоэпией. А также синтаксис связан с лексикой, словообразованием, фразеологией, и с другими разделами. По этой причине, во время обучения каждый раздел связывается с другим. Для изучения фонетических особенностей в некоторых словах также изучается морфология этого слова. Существительные делятся на два типа: собственные и нарицательные. Собственные существительные изучаются в разделе ономалогия. Несмотря на то, что словосочетания изучаются в разделе синтаксис, типы соединений изучаются в разделе частей речи. Все лексические единицы должны правильно произноситься (орфоэпия и лексика), правописание должно быть по орфографическим принципам.

Aziza Mikailova

Sections of linguistics and their mutual connection

Summary

Between sections of linguistics there is a mutual connection. Morphology associated with phonetics, vocabulary, word formation, onomastics. A pronunciation and syntax associated with the vocabulary, word formation, phraseology, and with other sections. For this reason, during the training, each section associated with each other. To study the phonetic features in some words also studied the morphology of the word. Nouns are divided into two types: internal and common nouns. Internal nouns are studied in the onomalogy. Despite the fact that the phrases are studied in the syntax, the types of compounds are studied in the parts of speech. All lexical items must be correctly pronounced (ortphoepy and leksicology), spelling should be by spelling principles.

Rəyçi: Q. Məşədiyev
filologiya elmləri doktoru, professor

SAMİRƏ ŞIXKƏRİMOVA
ADU

ALMAN DİLİNDƏ İŞLƏNƏN SLAVYAN MƏNŞƏLİ SÖZLƏR VƏ ONLARIN DİLƏ DAXİL OLMA SƏBƏBLƏRİ

Açar sözlər: dilin lüğət tərkibi, slavyan mənşəli sözlər, slavyan xalqları, alınma sözlər, dilçilərin əsasları, dilin lüğət tərkibinin zənginləşməsi.
Ключевые слова:словарный состав языка, слова славянского происхождения, славянские народы, заимствованные сова.
Key words: vocabulary structure the language, word of Slavic origin, the words derived from Slavic.

Ayrı-ayrı dillər arasındakı qarşılıqlı əlaqə və təsir problemi həmişə dilçilik elminin diqqət mərkəzində olmuş və hal-hazırda da müasir dilçiliyin aktual problemlərindən biri olaraq qalır. Müxtəlif coğrafi ərazilərdə yerləşən, ayrı-ayrı dil ailələrinə mənsub olub morfoloji quruluşlarına görə bir-birindən əsaslı şəkildə fərqlənən dillərin müqayisəli tədqiq olunması çağdaş dilçiliyin aktual problemlərindəndir.

Bu baxımdan müasir alman dilinin lüğət tərkibini mənşəyinə görə təhlil etsək, məlum olar ki, onun söz ehtiyatı yekcins deyildir. Dildə əsl alman sözləri ilə yanaşı xeyli alınma sözlər də mövcuddur. Hər bir dilin lüğət tərkibinə digər dillərdən sözlərin daxil olması təbiidir və onun müxtəlif səbəbləri vardır. Alman dilinə digər dillərdən sözlərin daxil olma səbəblərini tarixi nöqteyi-nəzərdən təhlil etmək lazımdır. Məsələn, Almaniyanın ərazisində alman tayfaları məskunlaşmamışdan öncə orada bir çox tayfalar, o cümlədən, keltlər yaşayırdılar. Ona görə də müasir alman dilinin lüğət tərkibinin bir qismini kelt mənşəli sözlər təşkil edir.

Müasir alman dilində slavyan mənşəli sözlər də az deyildir. Slavyan mənşəli sözlərin alman dilinə keçmə səbəbləri müxtəlifdir. Slavyan mənşəli sözlərin alman dilinə daxil olması XII-XIII əsrlərə təsadüf edir.

O dövrlərdə almanlar tərəfindən slavyan ölkələrinin (Baltikyanı ölkələr, Polşa, Çexiya) işğalı sayəsində həmin ölkələrdə yerli əhalinin məcburi almanlaşdırılması siyasəti irəli sürülürdü. Bu zaman xeyli alman sözləri slavyan xalqlarının dilinə daxil olmuş, eyni zamanda bir çox slavyan mənşəli sözlər alman dilinin lüğət tərkibinə daxil olmuşdur. Alman dilinin lüğət tərkibinə daxil olan slavyan mənşəli sözlər ilk növbədə -itz, -ow, -in, -au sonluqlu yer adlarıdır. Məsələn, *Strelitz, Ostritz, Graditz, Grabow, Treptow, Wollin, Kamin, Zittau, Libau* və s. Bundan başqa bir çox almanlaşdırılmış adlar da alman dilinə daxil olmuşdur.

Məsələn, *Brandenburg* (*бранный бор*), *Starqard* (*старый град*), *Leipzig (Липск), Chemnitz (Каменец), Lübeck (Любечь) Pommern (Поморье)* və s. O dövrlərdə kənd təsərrüfatı və hərbi sahəyə aid bir çox slavyan mənşəli sözlər alman dilinə daxil olmuşdur. Məsələn, polyak dilindən alman dilinə *Gurke* (*ogurek*), *Droschke* (*droşka*), *Säbel* (rus dilində *szabla*), *Dolch* polyak və rus dillərindən *Quark* (orta yuxarı alman dilində *twark*) (*twarog*), çex dilindən *Peitsche* (*bic*), *Haubitze* (*houfnice*), rus dilindən *Steppe* (*степь*), sözləri daxil olmuşdur.

Slavyan mənşəli sözlər əsrlər boyu alman dilinə daxil olmuş və onun lüğət tərkibini zənginləşdirmişdir. Rus dilindən alman dilinə keçən sözlər xüsusilə çoxluq təşkil edir. Şübhəsiz, rus dilindən alman dilinə daxil olan sözləri alman və rus xalqları arasındakı ictimai, siyasi, mədəni, iqtisadi, elmi və digər əlaqələrin genişlənməsinin nəticəsi kimi qiymətləndirmək olar.

Ayrı-ayrı dilçilər slavyan mənşəli sözlərin alman dilinə daxil olma səbəblərini müxtəlif cür əsaslandırmış və xronoloji qruplaşdırma baxımından onları müxtəlif cür təsnif etmişlər. Məsələn, M.D.Stepanova və İ.İ.Cernyşeva rus dilindən alman dilinə keçən sözləri tarixi aspektdən aşağıdakı kimi qruplaşdırmışdılar:

1.XI-XIV əsrlər

2. XVII-XIX əsrlər

3. Böyük Oktyabr Sosialist İnqlabından sonrakı dövr. Bu dövrə 1945-ci ildə Almaniya iki yerə bölündükdən sonra Almaniya Demokratik Respublikasında sosializmin quruluşu, inkişafı və Almaniyanın yenidən birləşməsinə qədərki dövr aid edilir (6).

B. Abbasova onları ayrı-ayrı dövrlər üzrə aşağıdakı kimi qruplaşdırmışdır:

1. X-XI əsrlər
2. XII-XVI əsrin birinci yarısı
3. XVI əsrin 2-ci yarısı və XVII əsr
4. XVIII əsr və X X əsrin əvvəlləri
5. Böyük Oktyabr Sosialist İnqlabından sonrakı dövr:

a) 1917-1945-ci illər

b) 1945-ci ildən müasir dövrədək (1).

Birinci dövr Almaniya ilə slavyan ölkələri arasındakı ticarət əlaqələrinə əsaslanır. 986-cı ildə almanlar Kiyevdə yaşamış və xəz dəri mallarını Kiyev Rusiyasından Krakov, Praqa və Cənubi Almaniya aparmışlar. Bunun sayəsində də bir çox rus mənşəli sözlər alman dilinə daxil olmuşdur.

XII əsrdə almanların Qərbi Slavyan və Baltikyanı torpaqlara müstəmləkə hücumları onların Novqorod və Şimali-Qərbi Rusiyaya qarşı maraqlarını gücləndirməyə başlatdı. Novqorod, Pskov və yaxınlıqdakı Şimali-Qərbi Rus şəhərləri ilə yanaşı Baltikyanı ölkələrdən Lyübekə və başqa şimali alman şəhərlərinə qədər olan ticarət yolu, ticari-siyasi ittifaq olan Hanzada (XIV-XVII əsrlər) birləşirdi. Həmin əlaqələr tarixi inkişafın sonrakı gedişində daha əlverişli və önəmli xarakter aldı.

İkinci dövr əlaqələrinin nəticələrini bir tərəfdən qədim rus abidələrində, digər tərəfdən isə Hanza mənbələrində tapmaq olar. XIII-XVI əsrlərdə orta aşağı alman dilində Hanza ticarətçilərinin rəsmi sənədləri, məktubları, müqavilələr, hesablar, mühasibat işlərinin bəzi hissələrinin rəsmiləşdirilmiş formalarını əks etdirən sözlərə rast gəlinir. Hanzanın bir sıra ölkələrlə, o cümlədən Rusiya, İngiltərə, Skandinaviya və s. əlaqələri alman dilinin lüğət tərkibini xeyli zənginləşdirdi. O dövrlərdə digər dillərlə yanaşı rus dilindən də bir çox söz alman dilinin lüğət tərkibinə daxil olmuşdur. Məsələn, die Werst, die Temenitze, die Teleteni, der Strelitze və s.

Üçüncü dövr alınma sözlərin də əsasını ticarət əlaqələri təşkil edir. Alman dilinin lüğət tərkibinin təhlili onu göstərir ki, həmin dövrdə rus dilindən alman dilinə xeyli ictimai-siyasi terminlər də daxil olmuşdur.

Məsələn, der Zar, der Ukas, der Zarewitsch və s. Belə sözlər artıq arxaikləşmiş sözlərə çevrilmişdir.

XV əsrin sonu Rus dövlətinin təməlinin möhkəmlənməsi və sonrakı inkişaf dövrü hesab olunduğu üçün Moskva ticarət və siyasət mərkəzi kimi ancaq alman tacirlərinin deyil, həm də alman diplomatlarının, siyasətçilərinin, elm və incəsənətin qabaqcıl nümayəndələrinin diqqətini cəlb edirdi. Bir çox məşhurların Moskvaya səyahətlərini və həmin səyahətlərin cazibədarlığını və bədii dəyərlərini təsdiqləyən faktlar mövcuddur.

Həmin faktlardan biri də Z. Herberşteynin Moskva haqqında olan məktublarıdır. Həmin məktublar ilk dəfə 1553-1567-ci illərdə Bazeldə, sonra isə 1576-1580-ci illərdə Frankfurt Maynda nəşr olunmuşdur.

XVI-XVII əsrlərdə rus bədii və elmi ədəbiyyatının tərcüməsi, Rusiyaya səyahətlər sayəsində yaranan təsvirlər və s. rus mənşəli sözlərin alman dilinə daxil olmasının əsas səbəblərindən olmuşdur. Buna görə də həmin dövrdə rus dilindən alman dilinə daxil olan sözlərin əksəriyyətini coğrafiya, zoologiya, geyim və s. sahəyə aid olan sözlər təşkil edir. Lomonosovun "Rus qrammatikası"nın tərcüməsi də həmin dövrə aid edilir.

XVII-XIX əsrlərdə rus ordusunun Almaniyanın ərazisinə basqınları sayəsində də xeyli slavyan nənşəli sözlər alman dilinə daxil olmuşdur.

1917-ci ildən sonra rus dilinin alman dilinin lüğət tərkibinə təsirini əsasən iki dövrə ayırırlar:

1. 1917-ci ildən 1945-ci ilin mayına qədər, yəni Almaniyada faşizmin darmadağın olduğu müddətə qədərki dövr;
2. 1945-ci ildən müasir dövrə qədər.

1933-cü ildən sonra hakimiyyətin faşistlərin əlində olduğu dövrdə də rus dilindən alman dilinin lüğət tərkibinə hələ də sözlər daxil olurdu.

Faşizmin işğalçılıq siyasətinin nəticəsi olaraq onlar tərəfdən slavyan olkələrinin zəbti zamanı alman dilindən rus dilinə, eləcə də rus dilindən alman dilinə sözlər daxil olurdu.

Qədim tarixə malik olan alman dilinin lüğət tərkibinin zənginləşməsində slavyan mənşəli sözlərin mühüm rolu olmuşdur.

Qədim alman mənbələrində bu gün artıq istifadə olunmayan slavyan mənşəli sözlərə də rast gəlmək olur. Zaman keçdikcə bu sözlərin təxir olunmasına baxmayaraq, alman dilində slavyan sözlərin ehtiyatı az deyildir.

XI-XVI əsr alman mənbələrində serb dilindən götürülmüş, bu gün artıq istifadə olunmayan sözlərə rast gəlinir. Məsələn:

alman dilində *Withas, Witschas* (vassal), serb dilində *vitaz*, rus dilində *витязь*
alman dilində *Smurde* (kəndli), polyak dilində *smard*
alman dilində *Supan,Supe* (ağsaqqal), qədim serb dilində *zupan*, rus dilində *жупан*
alman dilində *Zip, Zipkorn* (buğda), qədim seb dilində *syp*, rus dilində *сыпать*

Türinqdən Sileziyaya qədər olan ərazilərdə bu gün də slavyan mənşəli sözlər istifadə olunmaqdadır. Bu ərazilərdə istifadə olunan sözlərə aşağıdakıları misal göstərmək olar.

Nusche – нож
Kalina, Kalinka – калинка
Moch – мох
Tobel – tabola (polyak)

Həmçinin orta şərq alman dilindən ədəbi alman dilinə bir çox slavyan sözləri daxil olmuşdur. Onların bir çoxu alman ədəbi və danışıq dilində istifadə olunur.
Graupe – крупа
Quark – творог
Plinse – blinc - блин
Kren – chren - хрен
Kummet – chamot - хомут
Dolmetscher – tolmac
Bemme, Pemme – pomska - помазать
Papprosch – papros, paprat - папоротник.
Alman dilində yalnız Maklenburqda istifadə olunan slavyan mənşəli sözlər də var:
Meddel – metleca, metla – метла
Zappe – capla –цапля
Brüch – brzuch – брюхо
Lunert – luna –луна

Lakin əcnəbi sözləri dilə qəbul edərkən, onlara nə dərəcədə ehtiyac olub-olmamasını götür-qoy etmək lazımdır. Çünki dilin lüğət tərkibində mövcud olan sözə sinonim kimi işlədilən əcnəbi sözlərin bir qismi dilin lüğət tərkibini zənginləşdirmir, əksinə dili ağırlaşdırır.

Ədəbiyyat

1. Abbasova B. Sözalma hadisəsinin əsasları. Bakı,1995.
2. Bielfieldt, H.H.Die slawischen Wörter im Deutschen.Leipzig, 1982.
3. Duden. Das grosse Wörterbuch der deutschen Sprache in acht Bänden, Mannheim, 1993, 4096 S.
4. Duden. Deutsches Universal Wörterbuch, Mannheim, 1996, 1816 S.
5. Heller K. Das Fremdwort in der deutschen Sprache der Gegenwart. Leipzig 1966.
6. İskos A, Lenkova. A. Deutsche Lexikologie. Leningrad,1963
7. Kluge Friedrich. Etymologisches Wörterbuch der deutschen Sprache, 21 Berlin, Walter die Gruyter, 1975, 915 S.
8. Langenschedt K. G. Grosswörterbuch Deutsch als Fremdsprache. Berlin und München, 1993, 1216 S.
9. Lexikon der Fremdwörter, Köln, 2001
10. Ruth Klappenbach und Wolfgang Steinitz. Akademie-Verlag-Berlin, I, 1968, 800 S., II, 1978, 800 S., III, 1978, 813 S., IV, 1978, 799 S., V, 1978, 799 S., VI, 1978, 567 S.

Samira Shikhkerimova

Words of Slavic origin used in German and the reasons of their derivation

Summary

If we analyze modern German language according to the origin of its vocabulary, we can see that its vocabulary isn't homogeneous. Beside the words of German origin there are a lot of words derived from different languages as well as from Slavic languages and there are different reasons for that.

The reasons why words from different languages came into German can be analyzed from historical standpoint.

Different linguists have differently grounded the reasons for derivation of Slavic origin words into German language and have classified them differently from chronological point of view. The words derived from Slavic into German language as a result of public, political, cultural, economic, scientific and other relations between German and Slavic peoples.

Самира Шихкеримова

Слова славянского происхождения в немецком языке и причины их проникновений в язык.

Резюме

Если проанализировать состав происхождение современного словаря немецкого языка, становится ясно, что его словарный запас не является однородным. Наряду с большим количеством немецких слов на языке есть слова, также славянского происхождения.

Причины включения иностранных слов в словарный состав немецкого языка необходимо проанализировать с исторического точки зрения.

Слова заимствованные с славянского языка можно оценить как результат расширения социальных, политических, культурных, научных отношений.

Rəyçi: Ç. Qurbanlı
filologiya elmləri namizədi, professor

MÖHSÜN NAĞISOYLU
filologiya üzrə elmlər doktoru, professor
AMEA Əlyazmalar İnstitutu

SEYİD YƏHYA BAKUVİNİN "GÜLŞƏNİ-ƏSRAR" ƏSƏRİ: ŞƏRH, YOXSA NƏZİRƏ

Açar sözlər: Bakuvinin "Gülşəni-əsrarı", Şəbüstərinin "Gülşəni-razı", şərh, nəzirə.
Ключевые слова: «Гюльшани-асрар» Бакуви, «Гюльшани-раз» Шабустари,комментарий, подражание
Keywords: Bakuvi's "Gulshan-i-Asrar", Shabustary's "Gulshan-i-Raz", commentary, imitation

XV yüzilliyin görkəmli Azərbaycan mütəfəkkiri, xəlvətilik təriqətinin inkişafı və yayılmasında böyük xidmətləri olan Seyid Yəhya əş-Şirvani-əl-Bakuvinin (vəfatı: 1466) elmi-ədəbi irsində fars dilində qələmə aldığı əsərlərinin özəl yeri və çəkisi vardır. Belə ki, S.Y.Bakuvinin həyatı və yaradıcılığı haqqında dəyərli əsər yazmış d-r Mehmet Rıhtımın müəyyən etdiyinə görə alim-şairin qələmindən çıxan əsərlərinin ümumi sayı təxminən 23-ə bərabərdir ki, onlardan 17-si fars dilindədir (**3**, 43-48). Seyid Yəhyanın fars dilində yazdığı əsərlərindən biri ilahi eşq mövzusunda qələmə aldığı qəzəllər kitabından, digərləri isə təsəvvüflə bağlı məsələlərdən bəhs edən risalələrindən ibarətdir. Qeyd edək ki, Bakuvinin həm nəsrlə, həm də nəzmlə qələmə aldığı farsca əsərləri indiyədək, təəssüf ki, ayrıca və geniş şəkildə araşdırılmamış və onlar haqqında yalnız tanışlıq səciyyəli ümumi bilgilər verilmişdir. S.Y.Bakuvinin fars dilində yazdığı ən məşhur əsərlərindən biri "Şərhi-sualati-Gülşəni-əsrar" adlanır. Alimin məsnəvi şəklində qələmə aldığı bu əsərinin məşhurluğunun başlıca səbəblərindən biri onun tanınmış Azərbaycan alimi-şairi Şeyx Mahmud Şəbüstərinin (1287-1320) məşhur "Gülşəni-raz" ("Sirr bağçası") əsəri ilə bağlı olmasındadır. Bəlli olduğu kimi, Şeyx Mahmud Şəbüstərinin 1317-ci ildə fars dilində məsnəvi şəklində qələmə aldığı "Gülşəni-raz" əsərində təsəvvüfün mahiyyəti yığcam şəklində açıqlanır və bir sıra sufi mətləbləri və rəmzlərinə aydınlıq gətirilir. Xorasanın nüfuzlu alimi Seyid Hüseyn Hərəvinin (1246-1320) Şəbüstəriyə ünvanladığı 15 suala cavab şəklində qələmə alınan "Gülşəni-raz" təsəvvüfün ana qaynaqlarından sayılır. Məhz buna görə də "Gülşəni-raz" yazıldığı dövrdən başlayaraq geniş şöhrət qazanmış, əsərə 40-a yaxın şərh yazılmışdır ki, onlardan ən məşhuru Şəmsəddin Məhəmməd Lahicinin (öl.1506) "Məfatihül-ecaz fi şərhi-Gülşəni-raz" ("Gülşəni-raz"ın şərhinə dair möcüzələrin açarı") adlı əsəridir. Məşhur "Danışməndani – Azərbaycan" kitabının müəllifi Məhəmmədəli Tərbiyət "Gülşəni-raz"a şərh yazan müəlliflər sırasında Seyid Yəhya Xəlvəti Şirvaninin də adını çəkir (**7**, 195). Görkəmli türk alimi Əbdülbaqi Gölpınarlı da "Gülşəni-raz"ın tərcüməsinə yazdığı ön sözdə bu əsərə yazılan 35 şərh sırasında *"868de (1463-1464) vefat eden Seyyid*

Yahya-yi Şirvaninin şerhini" də qeyd edir (**8**, XI). Ə.Gölpınarlı onu da əlavə edir ki, "Danışməndani – Azərbaycan"a görə bu şərhin bir nüsxəsi Türkiyədə Muradiyə Kitabxanasındadır (**8**, XI). D-r M.Rıhtım da Bakuvinin "Şərhi-sualati-Gülşəni-əsrar" əsəri haqqında yazdığı kiçik qeydlərində onu *"azərbaycanlı sufi Şeyx Mahmud Şəbüstərinin "Gülşəni-raz" adlı məsnəvisinin şərhi"* kimi təqdim edir (**3**, 46).

Bakuvinin "Şərhi-sualati-Gülşəni-əsrar" əsəri adından da göründüyü kimi, Şəbüstərinin adı çəkilən məsnəvisi ilə yaxından səsləşir. Bununla belə, hələlik yalnız əlyazma şəklində mövcud olan Bakuvinin bu məsnəvisinin əlyazmaları üzərindəki ilkin müşahidələr onun şərh olması ilə bağlı fikirlərlə razılaşmaq üçün heç bir əsas və dəlil-sübut vermir. Belə ki, Bakuvinin "Şərhi-sualati-Gülşəni-raz"ı ilə Şəbüstərinin "Gülşəni-raz"ının mətnlərinin müqayisəsi birinci əsərdə ikincidən alınmış heç bir beytin olmadığını göstərir. Məlum olduğu kimi, orta yüzilliklərdə müsəlman Şərqində geniş yayılmış şərhlərin özünəməxsus tərtib qaydaları vardır. Şərhlərdə, bir qayda olaraq, öncə şərh olunan əsərdən müəyyən nümunələr gətirilir, sonra isə onların açıqlamaları verilir. Burada isə belə bir vəziyyətlə qarşılaşmırıq, yəni Bakuvinin əsərində "Gülşəni-raz"dan nümunələrə rast gəlmirik. Bundan əlavə Bakuvinin əsərindəki suallar və onlara verilən cavablar Şəbüstərinin "Gülşəni-raz"ındakı eyni mətləblərə uyğun gəlmir. Məsələn, "Gülşəni-raz"da Şəbüstəriyə ünvanlanan ilk sual və onun cavabı təfəkkürlə bağlı olduğu halda, Bakuvinin əsərində bu anlayışla bağlı sual və cavaba rast gəlmirik. Bu məsələ ilə bağlı daha bir məqam bu iki əsərin həcmi ilə bağlıdır. Belə ki, adətən, şərhin həcmi ilk qaynağın-şərh olunan əsərin həcmindən müəyyən qədər böyük olur. Məsələn, Lahicinin şərhi Şəbüstərinin əsərindən həcm baxımından ikiqatdan da çoxdur. Bakuvinin əsərinə gəlincə, onun həcmi Şəbüstərinin məsnəvisindən nəzərə çarpacaq dərəcədə azdır, təxminən onun yarısı qədərdir. Bütün bunlardan əlavə Bakuvinin sözügedən əsərində onun "Gülşəni-raz"a yazılmış şərh olması ilə bağlı heç bir qeydə rast gəlmirik. Əksinə əsərin mətnindən aydın olur ki, Bakuvi bu əsərini ona ünvanlanan suallara cavab olaraq qələmə almışdır. Bəlli olduğu kimi, Şəbüstəri də "Gülşəni-raz"ı məhz bu səbəb üzündən qələmə almışdır.

Bununla belə, Şəbüstərinin "Gülşəni-raz"ı ilə Bakuvinin "Şərhi-sualati-Gülşəni-əsrar"əsəri arasında, sözsüz ki, müəyyən bağlılıq və səsləşmələr də, yox deyildir. Bu bağlılığı elə Bakuvinin əsərinin adında görmək olar. Qeyd edək ki, Bakuvinin əsərinin adı Bakı əlyazmasında "Risaleyi-Gülşəni-əsrar" kimi verilmişdir (**8**, 76b). Əsərin Türkiyədəki Nuruosmaniyyə və Manisa Muradiyyə kitabxanalarında saxlanılan əlyazmalarında isə bu ad "Şərhi-sualati Gülşəni-əsrar" adlanır (**3**, 47). D-r Mehmet Rıhtımın araşdırmasına görə, ümimiyyətlə götürdükdə Bakuvinin bu əsərinin beş əlyazması mövcuddur. Noruosmaniyyə Muradiyyə və Bakı nüsxələrindən başqa əsərin Türkiyədəki Millət kitabxanasında (Ali Əmiri – Farisi, 1044) və İstanbul Universitetinin Mərkəzi Kitabxanasında da (FY 954, Xalis əf. 8194) əlyazmaları vardır. Əsərin adı 1083/1672-ci ildə köçürülmüş Bakı nüsxəsindən başqa, Millət Kitabxanasındakı əlyazmasında da "Gülşəni-əsrar" kimi verilmişdir (**3**, 39). İstanbul Universiteti Mərkəzi Kitabxanasında saxlanılan nüsxədə isə əsərin adı "Sualati - "Gülşəni-əsrar" kimi qeyd olunmuşdur (**3**, 37). Bu nüsxənin təxminən XV-XVI əsrlərdə köçürülməsi ehtimal edilir (**3**, 37). Digər nüsxələrə gəldikdə Nuruosmaniyyədəki əlyazma 940/1534-cü il tarixlidir (**3**, 38). Muradiyyə kitabxanasındakı nüsxənin tarixi 837/1434-cü il kimi göstərilsə də, fikrimizcə bu tarix

əsərin yazılma tarixi ola bilər, çünki bəlli olduğu kimi, Bakuvi 1466-cı ildə vəfat etmişdir. Bütün bunları götür-qoy etdikdə düşünmək olar ki, "Şərhi-sualati-Gülşəni-əsrar" adı şərti səciyyə daşıyır, onu əlyazmanın katiblərinin qələminin məhsulu kimi dəyərləndirmək daha məqsədəuyğundur. Düşünürük ki, bu iki əlyazmada qeyd olunan "şərh" sözü onu "Gülşəni-raz"a yazılmış şərh kimi dəyərləndirməyə əsas vermişdir. Əsərin dəqiq və məntiqi adına gəldikdə isə, bizim fikrimizcə, onu "Gülşəni-əsrar" kimi qəbul etmək daha məntiqi və ağlabatandır. Aydındır ki, Bakı əlyazmasında, eləcə də digər əlyazmalarda tez-tez işlənən "risalə" sözü kiçik həcmli elmi əsərlərə verilən ümumi addır. Belə olduqda Şəbüstəri və Bakuvinin sözügedən əsərlərinin adları arasındakı səsləşmə daha qabarıq şəkildə özünü göstərmiş olur: "Gülşəni-raz" və "Gülşəni-əsrar". Bu iki əsərin adları arasında fərqli görünən ikinci tərəflərin - "raz" və "əsrar" sözlərinin sinonim olmaları da bəllidir. Fars mənşəli "raz" sözü "sirr" deməkdir, ərəb mənşəli "əsrar" isə "sirr"in cəm şəklidir.

Şəbüstəri və Bakuvinin adları çəkilən əsərlərini bir-birinə bağlayan ən başlıca cəhət isə onların quruluşları və məzmunlarındadır. Belə ki, Bakuvinin bu əsəri eynilə "Gülşəni-raz"dakı kimi sual-cavab şəklində qurulmuşdur. Hər iki əsərin məzmununu müəlliflərə ünvanlanan suallara verilən cavablar təşkil edir. Düzdür, burada kiçik və incə bir fərq də özünü göstərir. Belə ki, Şəbüstəridə ona ünvanlanan sualların kimə məxsusluğu göstərildiyi halda, Bakuvidə həmin şəxs sadəcə "bir əziz adam", "ağıl sahibi" kimi təqdim olunur. Qeyd edək ki, bu iki əsərdəki sual və cavablar heç də üst-üstə düşmür, onlar fərqli anlayışları əhatə edir. Bununla belə, hər iki əsərin quruluşu eyni biçimdədir: öncə sualın özü qeyd olunur, sonra isə onların yığcam cavabı verilir. Qeyd edək ki, sual-cavablar fərqli mətləblərə aiddir. Bununla belə, onları bir cəhət birləşdirir. Hər iki əsərdəki suallar təsəvvüf anlayışları, sufi rəmzləri ilə bağlıdır və bu baxımdan onlar arasında müəyyən səsləşmələrin də olması qaçılmaz bir faktdır. Məsələn, hər iki əsərdə "qürb" ("yaxınlıq") və "böd" ("uzaqlıq"), "cüz" ("hissə") və "küll" ("bütöv") və s. kimi təsəvvüf anlamlarından bəhs edilir.

Şəbüstəri və Bakuvinin bu iki əsəri arasındakı oxşar cəhətlərdən biri də hər iki müəllifin bəzi sufi anlayışlarının şərhi-açıqlanması üçün yeri gəldikcə misallara ("misal", "təmsil") üz tutmalarıdır. Qeyd edək ki, Şəbüstəridə verilən "təmsil"lər sayca çoxdur. Bakuvidə isə bu cəmi bir yerdədir.

Hər iki əsərin məsnəvi şəklində və eyni bəhrdə ("həzəc" – məfailün məfailün fəulün) qələmə alınması da onları birləşdirən ortaq xüsusiyyətlər kimi dəyərləndirilə bilər. Bundan əlavə Şəbüstəri kimi Bakuvi də yeri gəldikcə Qurani-Kərimə üz tutmuş və təsəvvüfə bağlı öz fikirlərini bu müqəddəs kitabdakı ayələrlə, bəzən də hədislərlə əsaslandırmağa çalışmışdır. Bütün bu oxşar cəhətləri nəzərə alaraq Bakuvinin "Şərhi-sualati-Gülşəni-əsrar" əsərini Şəbüstərinin "Gülşəni-raz"ının təsirilə yazılmış, daha doğrusu, ona nəzirə şəklində qələmə alınmış bir əsər kimi dəyərləndirmək məqsədəuyğun olardı.

Bakuvinin "Şərhi-sualati-Gülşəni-əsrar" əsərinin quruluşu və məzmununa gəldikdə isə öncə onu qeyd edək ki, d-r Mehmet Rıhtım əsərin 5 əlyazma nüsxəsinin olduğunu göstərir (**3**, 47). Həmin nüsxələrdən 4-ü Türkiyə kitabxanalarında, biri isə Bakıda – AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda saxlanılır (B-6960/9). Biz Bakuvinin əsərini Azərbaycan türkcəsinə tərcümə edərkən onun Nuruosmaniyyə (4904/7), Manisa Muradiyyə (2906/7) və Bakı nüsxələrindən (8)

istifadə etmişik. Maraqlıdır ki, hər üç əlyazmada Bakuvinin bu əsəri əlyazma məcmuəsindədir və müəllifin "Bəyanül-elm" adlı digər bir məsnəvisindən ya əvvəl, ya da sonra yerləşdirilmişdir. Əsərin bu əlyazmalardakı mətnləri arasında istər həcm, istərsə də mətnşünaslıq baxımından elə bir ciddi fərq müşahidə olunmur. Hər üç nüsxədə "Şərhi-sualati-Gülşəni-əsrar"ın mətninin həcmi 543 beytdir. Qeyd edək ki, d-r Mehmet Rıhtım bu rəqəmi 1071 göstərir (3, 47; 4, 79). Fikrimizcə, burada özünü göstərən fərq misra-beytlə bağlı və sırf texniki səbəblər üzündən ola bilər. Bu iki əsərdəki sualların sayı da fərqlidir. Şəbüstəridə ona ünvanlanan sualların sayı 15-dir, Bakuvidə isə cəmi 8 sual qeyd olunmuşdur ki, bu da əvvəlkindən təxminən ikiqat azdır. Bu rəqəmlər də Şəbüstəri və Bakuvinin əsərləri arasında mövcud fərqin bir göstəricisidir. Yeri gəlmişkən onu da qeyd edim ki, "Gülşəni-raz"ın mətni 1005-1007 beyt arasındadır və Bakuvinin əsərindən fərqli olaraq onun tənqidi mətni dəfələrlə nəşrə hazırlanmış, araşdırılmış və müxtəlif dillərə, o sıradan Türkiyə və Azərbaycan türkcələrinə tərcümə olunmuşdur (6; 89).

"Şərhi-sualati-Gülşəni-əsrar" ənənəyə uyğun olaraq tövhidlə - Allahın birliyinin tərənnümü ilə başlanır. Maraqlıdır ki, Bakuvinin ilk beyti məzmunca Şəbüstərinin əsərinin başlanğıc beyti ilə müəyyən mənada səsləşir:

Şəbüstəridə: Benam-e anke canra fekrət amuxt,
Gerağ-e del benur-e can bər-əfruxt.
(Cana düşünməyi öyrədən
Könül çırağını can nuru ilə işıqlandıranı Allahın adı ilə)
Bakuvidə: Benam-e Kerdeqar-e hekmətamuz,
Ze elm-e u şəb-e tire şəvəd ruz.
(Hikmət öyrədən Allahın adı ilə,
Onun elmi ilə qara gecə gündüz olur).

Bakuvi 20 beytlik tövhiddə (Şəbüstəridə bu hissə 32 beytdir) Allah-taalanın sonsuz qüdrətindən, bənzərsiz əzəmət və böyüklüyündən söz açır. Daha sonra 19 beytdə Peyğəmbər əleyhissəlamın mədhi verilir. Kitabdakı "Ağazi-süxən" ("Sözün başlanğıcı") adlı başlıq altında verilən 4 beytlik şeir "Gülşəni-raz"dakı "Səbəbi-nəzmi-kitab" ("Kitabın yazılması səbəbi") başlığına uyğun gəlir. Bakuvi burada bir əziz adamın müəyyən mətləblərlə bağlı çətinliklərlə üzləşməsindən və bu səbəbdən də ona üz tutaraq bəzi sirləri açmaqda yardımçı olmasını xahiş etdiyini bildirir. Daha sonra bir-iki beytlik sual qeyd olunur, sonra isə onların cavabları verilir.

Əsərdə verilən ilk sual "ruh" və "nəfs"lə bağlıdır. Müəllif öncə "ruh"un, sonra isə "nəfs"in cavabını ayrı-ayrılıqda açıqlayır. Bakuvi "ruh"un izahında yazır ki, bu sual heç də asan deyil və çoxları ona cavab tapa bilməyiblər. Müəllifə görə "ruh"un cavabını Quran və hədisdə axtarmaq lazımdır; təzəkkür, təfəkkür, tədəbbür ondan hasil olur. Bir çox mütəsəvviflər kimi Bakuvi də ruhu Tanrı tərəfindən endirilən nur kimi qəbul edir. Qeyd edək ki, ümumiyyətlə, təsəvvüfdə ruh qəlbin yüksək və ilahi məqamına işarə anlamında işlənir (2, 157).

Bakuvi nəfslə bağlı açıqlamasında ruhun insanın dostu, nəfsin isə onun düşməni olduğunu bildirir və ondan uzaq olmağı tövsiyə edir. Bakuviyə görə cəhənnəmin qapısı nəfsin əli ilə açılır. Qeyd edək ki, təsəvvüfdə nəfsə qarşı mübarizə - mücadilə böyük cihad adlanır (2, 42).

Kitabdakı ikinci sual ürəyin sirləri ilə bağlıdır. Bu suala cavab olaraq Bakuvi yazır ki, ürəyin sirlərinə bələd olan Allah-taaladır. Müəllif daha sonra ürəyi İlahi

məhəbbətinin qaynağı, İlahi sirrinin gövhəri adlandırır. Bu gövhərlər gizlidir və onları Allahdan başqa kimsə bilməz. Qeyd edək ki, sufi dünyagörüşünə görə ürək-qəlb Haqqın mərifətinin gerçəkləşdiyi yer, Haqqın evi kimi mənalandırılır (2, 55). Sirrə gəldikdə isə bu duyğu qəlbdə olan İlahi cazibədir, xilqətdən gizlidir və yalnız Allah-taala üçün məlum olan, bilinəndir (2, 168).

Bakuvi daha sonra "qəbz" ("sıxılma"), "bəst" ("genişlənmə") kimi sufi anlayışlarını açıqlayır və burada fikrinə aydınlıq gətirmək üçün əkinlə bağlı bir misal çəkir. Müəllifə görə əgər bir əkinə daima yağış yağsa və ya əksinə, onun üzərinə həmişə günəş nuru saçılsa, onda məhsul əmələ gəlməz. "Qəbz" və "bəst" anlayışları da bu iki halın meydanıdır və Allah-taalaya məxsus bir keyfiyyət olaraq ortaya çıxır. Allah xofu-qorxusu və qəzəbi ilə bağlı olan bu hallar ariflərə məxsusdur və əsərdə açıqlanan "heybət" mərhələsindən öncə baş verir (2, 44).

Kitabda daha sonra "vaxt", "qürb" (yaxınlıq), "böd" (uzaqlıq), "qeybət" "üns", "heybət" kimi sufi anlayışları ilə bağlı şərhlər – açıqlamalar verilir. Qeyd edək ki, təsəvvüfdə geniş yayılmış bu anlayışlarla bağlı suallara "Gülşəni-raz"da rast gəlmirik. Bu fakt bir daha sübut edir ki, S.Y.Bakuvinin "Şərhi-sualati-Gülşəni-əsraz" əsəri şərh deyil, müəllifin "Gülşəni-raz"a cavab olaraq qələmə aldığı müstəqil əsəridir.

S.Y.Bakuvinin adı çəkilən əsərində təsəvvüfdə önəmli yer tutan və birbaşa idrakla bağlı olan "elmül-yəqin", "eynül-yəqin" və "həqqül-yəqin" anlayışları haqqında verilən açıqlamalara daha geniş yer verilmişdir. Bu suallarla bağlı açıqlamalar əsərin ümumi həcminin beşdə birindən də çoxdur: 113 beytdən ibarətdir. Qeyd edək ki, bu sufi anlayışları ilə bağlı suallara da "Gülşəni-raz"da rast gəlmirik.

Bəlli olduğu kimi, təsəvvüfdə "elmül-yəqin" idrakın – "yəqin"in ilkin mərhələsi sayılır və əsasən Məhəmməd peyğəmbərdən (s.) çatan bilgi ilə - şəriətlə əldə edilir. Bakuvi də elmül-yəqini məhz belə açıqlayır:

Elə ki sənin içinə elmül-yəqin yol tapar,
Çoxlu nurlar qəlbində parlar.
Cəhalət pasını qəlbinin aynasından
Əhmədin şəriət elmi yox edər.
Bu elm bəsirətə sığal verər-yol açar,
Elmindən isə helmin-gözəl əxlaqın hasil olar.

Bakuvinin də açıqlamasından göründüyü kimi, "elmül-yəqin" insanın qəlb aynasındakı pası Əhmədin – Məhəmmədin şəriəti ilə yox edər. Deməli, "elmül-yəqin" həqiqəti dərk etmənin, anlamağın – Allaha qovuşmanın birinci mərhələsidir ki, bu da təsəvvüfdə əqli mühakimə yolu sayılır (1, 25-26; 2, 71). Bakuvi də bu mətləbə işarə ederək yazır:

Bu elminlə Quranı bilmək hasil olar,
Bu, sənə din yolunda kömək olar.
Hər mənzildə bir özəllik qazanarsan,
Onunla bədən qəlibindən xilas olarsan

Kitabda "elmül-yəqinlə" müqayisədə "eynül-yəqin"in açıqlamasına az yer verilmişdir. Adından da göründüyü kimi, bu təsəvvüf anlamı bəsirət gözü ilə bağlıdır. Allah tərəfindən qəlbə nüzul olan müşahidə nuru ilə mümkün olan "eynül-yəqin" sahibi arif bəsirət gözü ilə vəhdətin gözəlliyini kəsrətdə görür (2, 70). Bakuvi bu münasibətlə yazır:

Bu gizli sirri bilincə
Onun adı olar elmi-əyani.

Cani-dildən görərsən və bilərsən,
Can gözü ilə cananların gözəlliyini görərsən.
Onun gözəlliyinin sonu əsla olmaz,
Hər zərrədən sənə gözəlliyini göstərər.

Bakuvi daha sonra "həqqül-yəqin"lə bağlı bilgilərini şərh edir, açıqlamalarını dilə gətirir. Məlum olduğu kimi "yəqin"də - sufi anlayışının sonuncu – üçüncü mərhələsi olan "həqqül-yəqin"də arif Haqdan başqa heç nəyi görməz və hər şeyi uca Yaradanın nurunda seyr edər. Təsəvvüfdə bu məqam Haqqın əlçatmaz substansiyası sayılır (**2**,101). Bakuvi də bu məqama işarə edərək yazır:

Bu halda sən O oldun və O sən
Bu, halın sirridir, sözün sirri deyil.
Haqq yerə və göylərə sığmaz,
Sənin ürəyinə bu zat yer verdi
Haqqın xəlvət evi bu ürək oldu,
Həqqül-yəqində o, kamil oldu.
Bu həqqül-yəqinin elə qüdrəti var
Ki, bütün işlərə vüsəti çatar.
Həqqül-yəqin sərvətini qazanan kəsə
Diqqət-qayğı nuru daim işıq saçdı

Bakuvi burada mürşidi olduğu xəlvətilik təriqətinə işarə edərək yazır:

Bil ki, eynül-yəqin talibin nəqli oldu,
Onun məqsədinə doğru yolda eşq qalib oldu.
Bu xəlvət yeri həqqül-yəqindir,
Talibin və mətlubun yeri budur.

Müəllifin "həqqül-yəqin"lə bağlı açıqlamaları yuxarıdakı beytlərlə sona yetir və bu mətləblərlə bağlı oxucuda bitkin təsəvvür yarada bilir.

Seyid Yəhya Bakuvinin "Gülşəni-əsrar" əsəri 6 beytlik münacatla bitir. Ənənəyə görə özünü aciz, biçarə adlandıran Seyid Yəhya burada üzünü uca Yaradana tutaraq Ondan bütün günahlarını bağışlamasını diləyir.

Son olaraq onu da qeyd edək ki, Bakuvinin bu əsəri şeriyyət baxımından çox da yüksək səviyyədə deyil və bu xüsusiyyətinə görə "Gülşəni-raz" onu üstələyir. Bununla belə, bütövlükdə götürdükdə əsər sadə və axıcı bir dillə qələmə alınmışdır və sufi rəmzləri istisna olunmaqla olduqca anlaşıqlıdır. Seyid Yəhya Şirvani-Bakuvinin "Gülşəni-əsrar" əsəri haqqındakı kiçik qeydlərimiz göstərir ki, bu görkəmli Azərbaycan mütəfəkkirinin bütün elmi-ədəbi irsinin dilimizə tərcüməsi və nəşri əhəmiyyətli və zəruridir. Konkret olaraq Bakuvinin bu əsərinə gəldikdə isə, onun filoloji tərcüməsi tərəfimizdən yerinə yetirilmişdir və çapa hazırlanır.

Ədəbiyyat

1. Azadə Rüstəmova. Mövlana Cəlaləddin Rumi. Bakı, "Elm", 2005.
2. Göyüşov Nəsib. Təsəvvüf anlamları və dərvişlik rəmzləri, Bakı, "Tural-Ə", 2001.
3. Rıhtım Mehmet. Seyid Yəhya Bakuvi və xəlvətilik, Bakı, "Qismət", 2005.

4. Seyid Yəhya əş-Şirvani əl-Bakuvi. Şəfa əl-əsrar (sufiliyin sirləri). Nəşrə hazırlayan: Mehmet Rıhtım. Bakı, "Elm", 2010.
5. Şəbüstəri Şeyx Mahmud. "Gülşəni-raz" (elmi-tənqidi mətn, tərtibçi: Q.Məmmədzadə; ərəb əlifbası ilə). Bakı, "Elm", 1978.
6. Şəbüstəri Şeyx Mahmud. "Gülşəni-raz" (farscadan tərcümə edən: M.Nağısoylu). Bakı, "Nurlan", 2005.
7. Tərbiyət Məhəmmədəli. Danişməndani – Azərbaycan. Bakı, Azərnəşr, 1987.
8. Məcmuə, əlyazma. B-6960. AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu.
9. Gülşən-i Raz. Şebüsteri. Çeviren Prof. Abdülbaki Gölpınarlı, İstanbul, 1989.
10. Uludağ Süleyman. Tasavvüf terimleri sözlüğü. İstanbul, 1991.

Мохсун Нагисойлу

«Гюльшани-асрар» («Цветник тайн») Сейид Йахйа Бакуви:
комментарий или подражание

Резюме

Сочинение «Гюльшани-асрар» Сейид Йахйа Бакуви до сих пор считался комментарием к философскому труду «Гюльшани-раз» Шейх Махмуда Шабустари. Автор статьи сопоставляя тексты этих двух сочинений, впервые установил, что труд Бакуви является не комментарием, а подражанием к сочинению Шабустари. Оба эти сочинения написаны в форме ответов на вопросы, касающиеся суфийских понятий и терминов.

Mohsun Naghisoylu

Seyyed Yahya Bakuvi's "Gulshan-i-Asrar" ("Secret Rose Garden"): The commentary or imitation

Summary

Seyyed Yahya Bakuvi's "Gulshan-i-Asrar" till now considered as a commentary of"Gulshan-i-Raz" – the philosophical work of Shaikh Mahmoud Shabestary. Author of the article compared these two works and proved that the "Gulshan-i-Asrar" of Bakuvi is not a commentary, it is more the imitation of Shabustary's poem. Both of these works were written in the form of answers to questions regarding the Sufi concepts and terms.

Rəyçi: Azadə Musayeva
filologiya elmləri doktoru, professor

Fil.e.n. **E.SƏFƏRLİ**
Lənkəran Dövlət Universiteti
e-mail:elshadsafarli@mail.ru
UOT: 8.82

SABİR MUSTAFANIN "TÜRK SONETLƏRİ"

Açar sözlər: Sonet, katren, terset, sintez, lirik "mən", teza, antiteza, model, lirik qəhrəman.
Ключевые слова: сонет, катрен, терцет, синтез, лирический «я», теза, антитеза, модел, лирический герой.
Key words: a sonnet, catren, terset, syntez, lirical "I", teza, antiteza, model, lirical hero.

«**Türk sonetləri»** - istedadlı şair və tərcüməçi Sabir Mustafanın türkün şanlı keçmişi, qəhrəmanlıq, şər üzərində hökmranlıq, «dünyanın ələkdən keçiriləcəyi təqdirdə, qızıltək ələnən şöhrət» tarixi, türkün təfəkkür dəyərləri,elmi, idraki, hərbi qüdrəti, qurub-yaratmaq əzmi, eşqi, intim dünyası, sevgi-məhəbbət hissləri, ülviliyi, humanist təbiəti haqqında və digər ictimai-mənəvi, siyasi-fəlsəfi, etik-estetik, əxlaqi - tərbiyəvi, ibrətverici həyati mövzuların poetik ümumiləşdiril-məsinə həsr edilən sonetlər silsiləsi belə adlanır. Mövzu dairəsinin əhatəliliyinə, ideya-məzmun əlvanlığına, bədii materialın, poetik detalın hərtərəfli, bütün təfərrüat incəlikləri ilə açılışına, onun mahiyyətinin obrazlı dərkinə xidmət edən bədii təsvir və ifadə vasitələrinin zənginliyindən məharətlə istifadə imkanlarına görə bu sonetlər həm keyfiyyət, həm də kəmiyyət əlamətlərinə görə yalnız Adil Babayevin sonetləri ilə müqayisə edilə biləcək sənət örnəkləridir. Sabir Mustafa sonetləri A.Babayevdən sonra sonet haqda düşüncə və təsəvvür üfiqlərimizin bir az da genişliyə açılması və bu janrın poeziyamızda ərazi arealının daha da artması, yeni hüdudlar əlddə etməsi deməkdir.

Ədəbiyyat tariximizdə tərcümə işi ilə də məşğul olan söz sahiblərindən bəzilərinin digər dillərə məxsus bədii nümunələri tərcümə edərkən, çox vaxt tərcümə etdikləri əsərin təsir gücündən, sehrli-möcüzəli qüdrətindən yayına bilməməsi, ya həmin mövzularda, ya da həmin əsərə məxsus şəkillərdə öz orijinal əsərlərini yaratmaqları haqda faktlar məlumdur. S.Mustafa da Şekspir sonetlərini tərcümə edərkən «keçmişin bu sonet möcüzəsinə ürəkdən vurulmuş»[1, s.6] və bu janrın sehrini, təsirini həmişə ürəyində hiss etmişdir. Və şübhəsiz, belə olan halda onun bir gün özü də sonet yazacağı gözlənilən idi. «Türk sonetləri» də məhz Şekspir sonetlərinə vurğunluğun, heyranlığın, böyük sevginin nəticəsi kimi meydana gəlmişdir. Şekspirin sonetlərinin sayı 154 olduğu halda, S.Mustafada bunların sayı 151-dir. Azərbaycan poeziyasında bu, A.Babayevdən sonra ikinci göstəricidir. Və belə bir göstərici keyfiyyət əlamətlərinin güclənməsi ilə müşayət edilən sonet təcrübəmizdə say göstəricisinin də artdığından xəbər verir.

S.Mustafa sonetləri mövzu əhatəliliyi, məzmun, ideya-bədii əlvanlıqla yanaşı, Şekspir sonetlərindən müəyyən qədər fərqli forma cəhətlərinə də malikdir. Biz bu sonetləri Şekspir sonetləri ilə müqayisə ona görə edirik ki, bunlara böyük ingilis dahisinin ənənələrinin S.Mustafanın yaradıcılığında başqa bir aspektdə, özünəməxsus,

fərdi müstəvidə davamı kimi baxırıq. Belə ki, «Türk sonetləri»də əsasən üç katren +bir beyt prinsipi ilə yazılmışdır. Lakin bunların sırasında 120 -121 və 122-ci sonetlər isə İtaliya soneti formasında işlənmişdir. Əksər sonetlər **abab/cdcd/efef/gg**, lakin İtaliya sonet tipləri isə dairəvi (qapalı) qafiyə modelində **– abba/cddc/eef/ggf** şəklindədir. Və bu sonetlərin hamısı 11 hecalı şeir ölçüsündə yazılmışdır.

Yuxarıda qeyd etdiymiz kimi S.Mustafanın sonetlərində türk təfəkkür dəyərlərinin, elementlərinin fəlsəfi ümumiləşdirmələri ümumturk ideologiyasının, türkçülük konsepsiyasının daşıyıcısı kimi əyaniləşir. Və bu nəzəri dünyagörüşü daha böyük bir nəzəri məqsədin – türançılığın tərkib hissəsi kimi ümumturk amalının birlik, vəhdət ideyasını özündə birləşdirir. Fikrimizi əsaslandırmaq üçün şairin «Üçrəngli bayrağım-üç rəng dünyası» soneti sübutedici bədii fakt verir. Buna görə də həmin soneti bütövlükdə diqqətə çatdırmağı məqsədəuyğun hesab edirik:

Üçrəngili bayrağım-üç rəng dünyası,
Nurlu dan yerindən nur saçdı bizə.
Onun göy rəngidir türkün ziyası,
Zülmətlər içində yol açdı bizə.

Onun qızıl rəngi şəhidlər qanı,
Qanlı döyüşlərdən bir yadigardır.
Onun yaşıl rəngi haqqın vicdanı,
Rühumda, dinimdə bir ilk bahardır.

Yanar bir vüsətlə səkkiz ulduzu,
Gözəl bir sarayın çıraqları tək.
Bu birlik ucaldır qədim Oğuzu,
Möhtəşəm palıdın budaqları tək.
Aypara Turandır, Böyük Turanda
Nur saçır ulduz tək Azərbaycan da. [2, s.20]

Göründyü kimi, şair lirik «mən»in simasında Azərbaycanın dövlət atributlarından biri olan üçrəngli bayrağımıza öz vətəndaşlıq, vətənpərvərlik sevgisini bildirməklə, həm də bayrağımızın, «zülmətlər içində bizə yol açması, nurlu dan yerindən nur saçması» ifadələrilə keşməkeşli yollarla müstəqillik əldə etməiymizə, asılılıq əsarətindən qurtulmağımıza işarələr vurur və onun qanlı döyüşlərdən bir yadigar, üstündəki səkkizguşəli ulduzun «gözəl bir sarayın çıraqları tək» yandığını ifadə etməklə müstəqilliyimizin ədəbiliyini inandırıcı poetik boyalarla diqqətə çatdırır. Və həmin ulduzları türk dünyasının birlik pəmzlərindən biri kimi xarakterizə edir. Sonetdə üç katrendə ümumiləşən fikrin həmqafiyə beytdə sintezindən doğan ideya isə bütün türk dünyasının son ideoloji məqsədinin türançısıq olduğunu da aşkarlayır. Ayparanın Turanla müqayisə edilməsi və Turanda Azərbaycanın bir ulduz kimi bərq vurması bu ölkənin nikbin, parlaq gələcəyindən xəbər verməklə yanaşı, həm də onun türk dünyasının birlik amalında – turançılıqda önəmli yer tutacağına böyük inam hissi ifadə edilir.

S.Mustafanın sonetlərində vətən hissi, vətən sevgisi, doğma ulusa, yurda məhəbbət motivləri önəmli yer tutur. Və bu motivlərdə poetik tərənnümunü tapan

əxlaqi-mənəvi, idraki-estetik dəyərlər təkcə bir xalqın yox, ümumtürk dünyasının müştərək dəyərləri timsalında mənalandırılır. Buna görə də şairin vətənpərvərlik, türkçülük ideyalarının daşıyıcısı olan lirik qəhrəmanın müraciət və xitablarında türk birliyinə, vəhdətinə çağırış motivləri çox qabarıqdır. Bu tipli şeirlərdə türk insanına böyük hörmət və ehtiram da aşılanır. Bu mənada şairin türk insanının nümayəndələrinə, qadınına, kişisinə, gözəlinə, igidinə müraciətlə yazılmış şeirləri həmin insanları mənəvi yüksəkliyə, təmizliyə, saflığa, rəşadətə, vətənə sevgi bəsləməyə səsləməklə yanaşı, həm də onlara yüksək qiymətin, ehtiramın təcəssümü idi.

Lakin türkün bugünkü mövqeyi şairi heç də razı salmır. Və buna görə də onun bəzi şeirlərində lirik «mən»in təəssüf, peşimançılıq duyğuları da haqlı olaraq yer almışdır:

Bir kökük, min yerə parçalanmışıq,
Bir budaq sənindir, bir budaq mənim.
Yadların əliylə haçalanmışıq,

Bir calaq sənindir, bir calaq mənim.
Bütövlük olsaydı əgər özündə,
Türk özü dünyaydı dünya üzündə [2, s.42]

Şair bu katrenlə türk dünyasında bütövlüyün olmaması, onun parçalanmasını bədii ifadə vasitələrindən mübaliğənin əksi olan litota vasitəsilə çox məharətlə ifadə etmişdir. Bütöv kökün min yerə parçalanması, yadların əliylə haçalanması litotaya gözəl nümunədir. «Bir budaq sənindir, bir budaq mənim», yaxud «bir calaq sənindir, bir calaq mənim» ifadaləri türkün genefondunun, nəsil tərkibinin, söykökünün «yad calaqlar» ucbatından müəyyən qədər dəyişməyə məruz qaldığı və çox fəsadların da həmin dəyişmələrə görə meydana çıxdığını göstərir və bu hal nəticədə türkün sırasında ayrıseçkiliyi, parçalanmanı labüd edir. Doğru olaraq müəllif ideyasında «yad calaqlar» milləti, xalqı içəridən güvə kimi didən, sökən, fitnələrə, nifaqa sürükləyən zərərli amil kimi aşkarlanır. Çünki gizli fəsadların çox vaxt metastaz törətməsi kimə bəlli deyil ki?...

Ümumiyyətlə, haqqında söhbət gedən sonet öz məna-məzmun, mövzu mükəmməlliyi, ideya dərinliyinə, oxucunun düşünməyə sövq etmə xüsusiyyətlərinə görə mühüm əhəmiyyət daşıyır.

S.Mustafanın sonetlərində lirik «mən» əsarətə, köləliyə, mütiliyə etiraz edir və belə bir durumun mövcudluğunu müti adamlarla bağlayır. Çünki mütilər qorxaq, mübarizə ruhundan məhrum olurlar. Belələrinin üstünlük təşkil etdikləri mühitdə azadlıqdan, müstəqillikdən danışmağa dəyməz. 100-cü sonetin katrenlərinin birində bu haqda şair qənaəti öz dolğun ifadəsini tapır:

Mütidən doğulan yalnız qorxaqdır,
Müti igid olmaz, qəhrəman olmaz. [2, s.107]

«Türk sonetləri»nin sıralarında bir qisim şeirlər də vardır ki, onlarda insanın gözəlliyinə vurğunluq, pak sevgi hisslərinin tərənnümü hansısa mövzuya əlavə edilmiş kiçik bir detal və ya cizgi şəklində yox, bütöv təfərrüat genişliyində öz əksini tapır. Və belə sonetlərdə klassik Şərq aşiqanə şeirlərində olduğu kimi metaforikləş-

miş ifadə tərzindən, məcazlar sisteminin çeşidli növlərindən istiafdə halları çox qabarıqdır. Buna görə də S.Mustafanın aşiqanə mövzularda – sevgiylə bağlı şeirlərində obrazlı düşüncə tərzi poetik fikrin daha təsirli, daha effektli alınmasında dominant mövqeyə malikdir. Şairin 151-ci sonetinin axırıncı katren və yekunlaşdırıcı beytinə diqqət yetirək:

Şehli çəmənləri gəzərdik qoşa,
Kaş şehdən olaydı sırğaların da.
Şeh kimi vuraydıq saf ömrü başa,
Şeh kimi olaydı düz-ilqarın da.
Çiçəyi öpməsə şeh inci olmaz,
Sevgisiz ürəyin sevinci olmaz. [2, s.158]

Şair bu sonetdə məcazın təşbeh, epitet və metafora kimi növlərindən istiafdə etməklə füsunkar təbiət lövhəsi yaradır və həmin mənzərənin ülvi, pak, zərif cəhətlərilə özündə və sevgilisində oxşarlıq gəzir. «Şeh kimi ömrü saf başa vurmağı» və sevgilisinin düz ilqarının da şeh kimi saf, büllur olmasını arzulayır. Şehin inci kimi bərq vurmasını səhər-səhər çiçəkləri öpməsi ilə əlaqələndirirsə, insan ürəyinin sevinci üçün də sevgini əsas şərt kimi xarakterizə edir. S.Mustafanın belə yüksək ideya-estetik dəyərləri, mövzuları özündə birləşdirilən sonetləri

çoxdur. Bütün bu məziyyətlər onun sonet yaradıcılığında poetik nailiyyətlərinin əsas şərti kimi səciyyələnir.

S.Mustafanın sonetlərinin ideya-bədii, məna-məzmun və digər sənətkarlıq xüsusiyyətlərini S.Əsədullayev və H.Həşimli öz monoqrafiyalarında ətraflı elmi-nəzəri araşdırmalar əsasında şərh etmişlər. Biz həmin məsələlərə eyni kontekstdən təzədən nəzər salmağı məqsədəmüvafiq hesab etmirik, sadəcə şairin bəzi sonetlərinə tənqidi münasibət bildirməyi bu məqamda vacib bilirik.

Şairin uğurları ilə yanaşı, sonetlərində müəyyən qədər sənətkarlıq qüsurları ilə də üzləşirik. Bildiyimiz kimi, S.Mustafa Şekspir ənənələrinin poeziyamızda kamil davamçısıdır, öz sonetlərinə də dahi ingilis şairinin ənənələrini tətbiq etmiş, həmin nümunələrini onun şeirləri tipində yazmışdır. Lakin bu məsələnin bir tərəfidir, çünki həmin tipdə Şekspirdən sonra müxtəlif sonetçilər şeirlər yazmışlar. Əsas məsələ S.Mustafanın öz sonetlərində Şekspir ruhunu yaşatması, əksər sonetlərində onun mövzu-ideya dairəsində qapanıb qalması ilə bağlıdır. Düzdür, şair Şekspir ideyalarına milli zəmində elə bil təzədən həyat verir, onlara milli kolorit xüsusiyyətləri əlavə edir, mövzu, mündəricə və hasil olan ideyanı özününküləşdirməyə nail olmağa çalışır və ədalət naminə qeyd etmək lazımdır ki, buna müəyyən qədər nail olur da. Lakin müəyyən məqamlar da təkrarçılıq kimi görünür. Belə nümunələrdə S.Mustafanı elə bil ki, dahi şairin ruhu addım-addım, qarabaqara izləyir. Belədə biz S.Mustafanı öz cığırında yox, Şekspirin cığırı ilə addımladığını görürük. Və bu hal, əlbəttə, şairin sonetlərinə müəyyən dərəcədə xələl gətirir.

Maraqlıdır ki, onun sonetlərinin əksəriyyətində Şekspirin 66-cı məşhur sonetinin «ab-havası»nı, məzmun və ideya xüsusiyyətlərinin paylaşmasını, intişarını görürük. Bu məqamda S.Əsədullayevin fikri ilə tam razılaşırıq: «burada Şekspir sonetlərindəki və xüsusən onun məşhur 66-cı sonetinin fikir və ideyaları, Şekspir üslubu açıq-aydın oxunur» [3, s.47] . Və belə bir qənaətə gəlirik ki, S.Mustafanın Şekspir

təsirindən heç də həmişə qurtula bilməməsi onun sonetlərinin xeyrinə deyil, onların orijinallığına müəyyən qədər kölgə salmış olur. Bir məsələni də qeyd etməyi vacib bilirik ki, belə nümunələrdə hətta şair Şekspirin sonet leksikonundakı işlək anlayış və məfhumlarından da çox istiafdə edir, demək olar ki, əksər sonetlərdə biz onların işlənməsinin şahidi oluruq. Rəzalət, ləyaqət, ədavət, tamah, mənlik, xəyanət, mənfur, günah, qəbahət, qüsur, haqq, mənsəb, düzlük, mərdlik, doğruluq, kütlük və s. bu tipli anlayış və məfhumların S.Mustafanın sonetlərində işlənməsi dediklərimizi bir daha təsdiq edir.

Bir türk olaraq biz hamımız bu mövzunun S.Mustafa yaradıcılığında əhatəli, geniş poetik tərənnümünə sevinirik. Çünki şair türkün şərəf tarixirndə bizim qürur, fəxr duya biləcəyimiz elə epik-estetik, əxlaqi-mənəvi, ictimai-fəlsəfi, humanist və

bəşəri mövzulara toxunur ki, türkün qüdrəti, əzəməti və onun bəlkə də bizə bəlli olmayan digər mənəvi sifətləri haqqında əlavə bilgi əldə edirik. Bu, əlbəttə, S.Mustafanın yaradıcılıq uğurudur. Lakin şairin bu mövzuların poetik şərhində bəzən heç də türkün təəssübkeşliyində müəyyən ölçü, etalonu, meyarları gözləmədiyinin də şahidi oluruq. Özünə vurğunluq, özünə heyanlıq ifrat dərəcədə olanda bu heç də millətin, xalqın həmişə xeyrinə olmur. Bu bəzən millətdə arxayınçılığa gətirib çıxarır. Onun qüdrət damarının müəyyən qədər boşalması prosesi baş verir. Bəzi nümunələrə diqqət yetirək:

Qədim türk dövləti möcüzə imiş,
Bünövrəsi yerdə, zirvəsi ərşdə.
Bir saray ucaldıb göy kimi geniş,
Zəfər bayrağıymış göydə günəş də. [2, s.32]

İşlənən mübaliğələrin mükəmməlliyində şairin türkün əzəmət və qüdrətnin hüdud tanımadığını və türkün həmin qüdrətinə «bir saray ucaldıb göy kimi geniş, zəfər bayrağıymış göydə günəş də» misralarıyla oxucuda inam yaratmağa çalışması ilə razılaşırıq. Lakin bu əzəmətin, qüdrətin belə mübaləğəli ifadəsi qarşısında

Gəlib kiçiltdilər Azərbaycanı- [2, s.32]

kimi litotanın işlədilməsi, mübaliğədə əksini tapan məzmunun litotadakı məzmunla uzlaşmadığı və nəticədə mübaliğədə türkün qüdrətinin bu dərəcədə şişirdilməsinin heç də obyektiv olmadığını və müəllifin tərif meyarına düzgün yanaşmadığını göstərir. Çünki bir sıra sonetlərdə tərənnüm edilən türkün möhtəşəm qüdrəti qarşısında onun torpağından kiminsə bir çimdik qoparmağa da cürəti çatmamalı idi. Biz hələ bugünkü reallığı bura əlavə etmirik. Bu məqamda tanınmış yazıçımız Əkrəm Əylislinin nəşriyyat içilərinin iştirak etdiyi yığıncaqların birində dediyi sözləri xatırlamaq yerinrə düşər: «Əgər biz özümüzə həddindən artıq vurğunluq göstərib, desək ki, dünyada bizim Nizamidən, Füzulidən böyük şair yoxdur, özümüzü heç də yaxşı vəziyyətdə qoymarıq. Biz bu cür düşüncə ilə ədəbiyyatımızın inkişafına nail ola bilmərik»[4, s.5] . İstedadlı yazıçımızdan gətirdiyimiz sitata şərh verməyə ehtiyac duymuruq.

Qədim türk tarixi, baxdın bir də bax,
Yaradan yaradıb çox nadir türkü.
Şöhrət, sərvət, rüşvət – üç bəla ancaq,
Bölür, parçalayır, məhv edir türkü. [2, s.32]

Şair sonetlərində ifadə vasitələrindən biri kimi inversiyadan ifadənin bədii təsirini artırmaq, onu bədii- emosional cəhətdən qüvvətləndirmək üçün tez-tez istifadə edir. Sözlərin semantik xüsusiyyətlərinə uyğun olaraq onların misra daxilində uğurlu yerdəyişməsinə müəllif nail ola bilmişdir. Lakin yuxarıdakı katrenin birinci beytinin ikinci misrasında bizcə, inversiya prinsipi heç də müvəffəqiyyətli deyil. Misranın sonunda işlədilən «Yaradan yaradıb çox nadir türkü» ifadəsindəki «nadir» sözü misranın tələffüzünə sonluqda bir ağırlıq gətirir və ahəngdə bu dərhal hiss olunur. İkincisi, burada yenə də «özünəvurğunluq motivləri» özünü göstərir. Yəni məntiqi yanaşsaq, hər bir xalq, millət özünü nadir adlandıra bilər. Müəllifin fikri ilə razılaşmaq da olar. Amma ikinci beytdə «şöhrət, sərvət, rüşvət – bu üç bəla türkü bölür, parçalayır, məhv edir» qənaəti isə məntiqi cəhətdən türkün «nadir» olması fikrinə böyük şübhə salır. Çünki həmin qənaət türkün bütün müsbət, mənəvi, mental dəyərlərini kölgədə qoyub, onun yalnız şöhrət, sərvət və rüşvət sahəsində «nadir» olduğu anlamını doğurur. Bizcə, ikinci beyt müəllif yozumunda birinci beytlə məntiqi cəhətdən heç də bağlanmır.

Bütün bu dediklərimiz belə bir qənaətə gəlməyə əsas verir ki, S.Mustafanın «Türk sonetləri»ndə poetik predmetin, obyektin və obrazın bəzi cəhətlərinin qabarıq verilməsi üçün bədii vasitələrdən və meyarlardan tələb olunan şəkildə istiafdə edilmir. Məhz onun nəticəsidir ki, onun türkün tərənnümünə həsr edilən bəzi beytlərində həqiqi poetik meyarları çox vaxt ritorika, saxta pafos və patetika üstələyir.

Şairin ictimai-əxlaqi mövzuda yazılmış 91-ci, yəni «Yandırır saxtalıq bu dünyanı ah!» sonetinin üçüncü katreninə nəzər salaq:

Qalıb ayaq altda mənlik, ləyaqət,
Mənfur çirkinliyə saflıq əl açıb.

Səsləyir qoynuna məni məhəbbət,
Sanki cəngəllikdə qızılgül açıb.

[5, s.101]

Şekspirin 66-cı sonetinin S.Mustafa tərcüməsində üçüncü katrenini də müqayisəyə cəlb edək:

Yumruqla tıxanır ilhamın ağzı,
Əl açıb dilənir mənlik, ləyaqət.
Nadanlıq geyinib müdrik libası
Hər yerdə saxtalıq, hər yerdə zillət [5, s.76]

S.Mustafanın sonetindən misal çəkdiyimiz 3-cü katrenin 1-ci beytinin Şekspir sonetinin 3-cü katreninin 1-ci beyti ilə səsləşdiyini görmək çətin deyil. Belə təkrarlara S.Mustafa sonetlərində təəssüf ki, tez-tez rast gəlmək mümkündür. Maraqlıdır ki, S.Mustafa sonetlərinə yüksək qiymət verən nə S.Əsədullayev, nə şairin kitabına

ön söz yazan Ş.Xəlilli, nə də ki, H.Həşimli şairin yaradıcılığına müəyyən qədər xələl gətirən bu amilə nədənsə əhəmiyyət verməmişlər. Düzdür, S.Əsədullayev bu amili qabartsa da, lakin məsələnin dərinliyinə varmamışdır.

S.Mustafanın sonetlərində müəyyən qədər qüsurların mövcudluğu onların heç də ictimai-siyasi, əqli-mənəvi, əxlaqi-fəlsəfi və bəşəri, humanist məzmununun əhəmiyyətini azaltmır. Əslində həmin xırda qüsurlar günəşdə bir-iki kiçik ləkənin mövcudluğu kimi bir şeydir. Sonet təcrübəmizdə ingilis tipli sonetin yaradıcısı olan S.Mustafa özünəqədərki sonetçilərin müraciət etdikləri poetik formadan fərqli bir formada özünün mükəmməl, kamil sənət örnəklərini yaratmağa müvəffəq olmuş, bu tipli sonetlərin klassik sonet modellərindən heç də ifadə imkanları baxımından geridə qalmadığını sübut edə bilmişdir. İngilissayağı sonet onun qələmi ilə Azərbaycan poeziyasında bərqərar olmuş və həmin modelin də şeirimizdə tərəfdarları, yaradıcıları meydana çıxmışdır. Bütün bunlar Azərbaycan sonetinin iki tipdə, formada mövcudiyyətini aşkarlamaqla yanaşı, XX əsrin axırlarında poeziyamızda bu janrın yeni üfüqlər əldə etməsi və daha da kütləviləşməsində S.Mustafanın da öz xidmət payının olduğunu göstərir. Onun sonet təcrübəmizdə yeri və mövqeyi danılmazdır.

Ədəbiyyat

1. Xəlilli Ş. Sonet sevgisi. V.Şekspirin «Sonetlər» (Tərcüməçi: S.Mustafa) kitabına "Ön söz". Bakı: Azərbaycan Dövlət Nəşriyyatı-Poliqrafiya Birliyi, 1992,176 s.
2. Mustafa S. Türk sonetləri. Bakı: Xəzər Nəşriyyatı, 1998, 160 s.
3. Əsədullayev S.Q. Azərbaycan poeziyasında sonet janrı. Bakı: Mütərcim, 2002, 68 s.
4. Əylisli Ə.N. Ədəbiyyat yanğısı. Bakı: Yazıçı, 1989, 232 s.
5. Şekspir V. Sonetlər (Tərcüməçi: S.Mustafa). Bakı: Azərbaycan Dövlət Nəşriyyatı – Poliqrafiya Birliyi, 1992, 176 s.
6. Şekspir V. Sonetlər və poemalar (Tərcüməçi: T.Əyyubov). Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1964, 214 s.
7. Şekspir V. Pyeslər və sonetlər. Bakı: Yazıçı, 1980, s. 344 – 444.
8. Şekspir V. Seçilmiş əsərləri. "Dünya ədəbiyyatı klassikləri" seriyası. Bakı: Şərq-Qərb, 2009, 776 s.
9. Elçin. Vilyam Şekspir haqqında söz. V.Şekspirin "Pyeslər və sonetlər" kitabina "Ön soz". Bakı: Yazıçı, 1980, 445 s.
10.Elçin. Sosrealizm bizə nə verdi? "Ədəbiyyat qəzeti" qəz., Bakı: 2010, 29 oktyabr.
11. Həşimli H. Avropa lirik janrları və Azərbaycan ədəbiyyatı. Bakı: Elm və təhsil, 2009, 444 s.

Эльшад Сафарли

«Турецкие сонеты» Сабира Мустафы

Резюме

В статье рассматривается идейно-композиционные и профессиональные особенности «Турецких сонетов» одаренного поэта и переводчика Сабира Мустафы. Разъясняется его сонеты с научно-теоретического аспекта, имеющие определенные отличительные черты от Шекспирских сонет.

В том числе, наряду с успехами в сонетных циклах, уделяется внимание и выражаются критическое отношение на профессиональные недостатки некоторых сонет.

Elshad Safarli

Sabir Mustafa's “Turkish Sonnets”

Summary

The theme, idea-composition and craftsmanship features of “Turkish Sonnets” of the talented poet and translator Sabir Mustafa is dealt with. His sonnets are explained from a scientific ─ theoretical aspect of a certain form in comparison with Shakespeare's sonnets.The positive and negative points of these sonnets are paid attention to and approached critically.

Rəyçi: Professor Tərlan Novruzov

АФЕР АЛИЗАДЕ
Бакинский Славянский Университет

ВОПЛОЩЕНИЕ ЖЕНСКИХ ОБРАЗОВ В РАССКАЗАХ НИНЫ ГОРЛАНОВОЙ

Açar sözlər: qadın səadəti, ailəcanlılıq, daxili harmoniya, məişət, xarakterin bütövlüyü
Ключевые слова: женское счастье, семейственность, внутренняя гармония, быт, цельность характера
Key words: feminine happiness, family man, internal harmony, living, personal integrity

Прозе Н.Горлановой характерна напряженная самоуглубленность. Для прозаика главное – познание человека, постижение его стремлений, осмысление психологического склада героев, вбирающего в себя все грани характера. В рассказах писательницы любовь безответная, неразделенная; героиня – изломанная, израненная, отвергнутая. Душевная боль героини нестерпима, но она всегда с присущей ей достоинством пересиливает напасти судьбы («Как устроена любовь?», «Дом со всеми неудобствами», «Припадок», «Нюся и мильтон Артем»). Мечта о простом женском счастье, ее хрупкость и недостижимость, внутреннее рвение к преодолению барьеров, препятствующим ей, а также сочувствие человеку – черты прозы писательницы («Что же в ней было?», «История Озера Веселого», «Девятины»).

Ailənin mənşəyi haqqında ən köklü məsələlər üzrə alimlərin bu fikir ayrılığı onların nəticələrinə böyük ehtiyatla yanaşmanın zəruriliyinə ən yaxşı sübutdur və elm bu haqda hələ öz qəti sözünü deməmişdir.

Xristian xalqlarında ailə hüququnun hazırkı vəziyyətinə xristian dini hədsiz güclü təsir göstərmişdir. Xristian dini üçün ailə həmişə xüsusi qayğının və himayənin predmeti olmuşdur. Bu təsir özünü həm nikahını bağlanması və pozulmasının müəyyən edilməsində, həm də onun formasında göstərmişdir. Məlum dərəcədə o, ailə üzvləri arasında qarşılıqlı şəxsi münasibətlərin müəyyən edilməsində də əks olunmuşdur. Müasir ailə hüququ dövlətin hədsiz fəal iştirakı ilə inkişaf edir. Nikah hüququnu kilsənin əlindən alan dövlət onu müxtəlif dini inanclarla əlaqədar olmayan ümummədəni başlanğıclarda (təməllərdə) qurur, ailə hüququnun digər bölmələrində isə bərabərhüquqluluq prinsipini, ailə ittifaqının zəif üzvlərinin himayədarlığını və müdafiəsini aparmağa səy edir. Bu və ya digər məcəllələrlə izlənilən qanunverici siyasətin müxtəlif vəzifələri onlarda göstərilmiş ailə hüquq normalarına məlum fərqləri daxil edir, lakin ümumilikdə bütün mədəni xalqlarda o, eyni başlanğıclarla dərk edilir. (16,87)

Hər bir insan üçün və bütövlükdə cəmiyyət üçün əhəmiyyətli olan bu münasibətlər adət, əxlaq normaları, dini müddəalarla yanaşı, həm də hüquq normaları ilə tənzimlənir ki, bu da qanunvericiliyin xüsusiləşdirilmiş bir sahəsini - ailə qanunvericiliyini təşkil edir. Ailə münasibətlərinin hüquqi tənzim etməsinin əsas istiqaməti ilk öncə ailə üzvlərinin hüquq və mənafelərinin mühafizəsi, onların arasında qarşılıqlı məhəbbət və hörmət, qarşılıqlı yardım, biri birisinin qarşısında məsuliyyət hissləri əsasına qurulmuş münasibətlərin formalaşması, uşaqların tərbiyəsi üçün zəruri şəraitin yaradılmasından ibarətdir. Azərbaycan Respublikasının Ailə Məcəlləsinin 1-ci maddəsində ailə münasibətlərinin dövlət tərəfindən tənzimlənməsi belə təsbit edilmişdir:

"Ailə qanunvericiliyi ailənin möhkəmləndirilməsi zəruriyyətindən, ailə münasibətlərinin qarşılıqlı məhəbbət və hörmət hissləri əsasında qurulmasından, ailənin işinə hər kəsin qarışmasının yolverilməzliyindən, ailə üzvlərinin ailə qarşısında qarşılıqlı yardım və məsuliyyətindən, onların hüquqlarının maneəsiz həyata keçirilməsinin təmin olunmasından və bu hüquqların məhkəmədə müdafiəsi imkanlarından irəli gəlir." (Ailə Məcəlləsi, maddə 1.3).

Ailə münasibətlərinin hüquqi tənzimi qadınla kişinin nikahının könüllülüyü, ər-arvadın hüquq bərabərliyi, ailədaxili məsələlərin qarşılıqlı razılıq əsasında həll olunması, uşaqların ailə tərbiyəsinin üstünlüyü, onların rifahına və inkişafına qayğı, ailənin yetkinlik yaşına çatmayan və əmək qabiliyyəti olmayan üzvlərinin hüquq və mənafelərinin müdafiəsinin təmin olunması prinsiplərinə uyğun həyata keçirilir (AR Ailə Məcəlləsi, maddə 2.2.).

Ədəbiyyat

Azərbaycan dilində

1. Abdullayev H. İslam dini haqqında. Bakı : Azərnəşr, 1958, 118s.
2. Imam Səccad(ə)-ın («Risalətul-Hüquq» kitabının şərhləri). Islamda hüquq Nəzəriyyəsi. Qum, 2002, 361s.
3. Qurani Kərim. Ərəb dilindən tərcümə edənlər Z.M.Bünyadov; V.M.Məmmədəliyev. Bakı: Qismət, 2004, 607s.
4. Məmmədov Abutalıb. İslam, tarix, fəlsəfə, ibadətlər. Baki: Elm 1994,
5. Yunusov A. Azərbaycanda İslam. Bakı: Zaman, 2004, 364 s.
6. Islam Ansiklopedisi 30 cildde. Istanbul, 1993, XVI -ci cild, 355 s.
7. Islam ilmihali (Ailenin-el-kitabı). Ankara: Conca yayım evi, 1990, 429 s.
8. Karaman Hayreddin. , Anahtarlarıyla islam hüququ C. I, s.. Istanbul: Nesil yayınları, 1974, 460 s.
9. Keskioğlu Osman. Fıkıh tarihi ve islam hukuku. Ankara: Ayyıldız matbaası, 1985, 279 s.
10. Yıldırım Celal. Kaynaklarıyla islam hukuku, IV cildde. Ankara, n.i.y., II-ci cild 516s., III-cü cild 434s.

Rus dilində

11. Аль-Аттас С.М.Накиб. Концепция обучения Ислама. Коала Лумпур: IS-TAS, 1990, 290стр.
12. Керимов Г.М. Шариат и его социальная сущность. Москва: Наука, 254стр.
13. Сюкияйнен Л.Р. Мусульманское право и семейное законодательство стран Арабского Востока. Москва: Мусульманское право, 1984, 296 стр.
14. 127стр.
15. Резван Е.А. Коран и его мир. Санкт-Петербург: Петербургское востоковедение, 2001, 608 стр.
16. Роузенталь Ф. Торжество знания. Концепция знания в средневековом исламе. М.: Наука, 1978.
17. Пиотровский Г. Коранические сказания. М.: Политиздат, 1987.

С.Г.Мирзоева

Место и важность семейной правы в исламском литературе

Резюме

Семья и брак, является маленькой группой кровное родство. Члены семьи, связаны между собой по единству благосостояния, моральной ответственности и взаимной поддержки. В браке и семье отношения, возникающие из разницы секса и сексуальных потребностей выявляются в виде морально-психологических отношений. Со времен образования семья прошла разные стадии развития, формировались различные типы семей и развивались семейные отношения.

S.H.Mirzoyeva

The place and importance of family in islamic literature

Resume

Family and marriage is a small group of consanguinity. Family members are linked to the domestic unity, moral responsibility and mutual support. In marriage and family relations, arising from the difference between sex and sexual needs are identified in the form of moral and psychological relationships. From the formation the family has passed various stages of development, formed the different types of families and family relationships have evolved.

Rəyçi: Vasim Məmmədəliyev
Akademik

KÖNÜL CABBAROVA
AMİ-nin Mingəçevir filialı
"İctimai və təbiət fənləri" kafedrası

AŞIQ SƏNƏTİ VƏ ONUN ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ TƏDRİSİ PROSESİ HAQQINDA

Açar sözlər: Aşıq sənəti, tədqiqat, musiqi aləti, şifahi xalq ədəbiyyatı, musiqi folkloru.
Ключевые слова: Ашугское творчество, исследование, музыкальный инструмент, устное народная литература, музыкальный фольклор.
Key words: Ashuq art, research, musical instruments, oral folk literature, folk music

Aşıqlıq sənəti saz çalmaq, oxumaq, şifahi xalq ədəbiyyatının nağıl, dastan və başqa növlərini toylarda, məclislərdə ifa edərək yaymaq deməkdir. Aşıq xalqın sevimlisi, onun qəlbinə, ürəyinə daha yaxın sənətkardır. Bir zamanlar aşıqlar ordunu döyüşə getməzdən öncə ruhlandırmaq, onlarda döyüş əzmi yaratmaq vəzifəsini yerinə yetiriblər. Onlar həmişə xalqın şad və qəmgin günlərində xalqla birlikdə sevinib, kədərlənib. Məhz buna görə də aşıq ədəbiyyatı və aşıqlıq sənəti xalq arasında rəğbətlə qarşılanaraq yaşamış və bu gün də yaşamaqdadır. Ozan - aşıq sənəti Azərbaycanda ta qədimlərdən formalaşmağa başlamışdır.

Aşıq sənəti - xalq mühitində yaranmış şifahi xalq yaradıcılığı musiqi formasıdır və təsir gücü, məşhur olması və kamilliyi baxımından analoqu olmayan bir təzahürdür. Bu, kiçik bir tamaşadır, burada musiqi, saz və müəllif-aşıq vəhdət təşkil edir. Aşıq sənətinə qədim epik dastanlar, xalqın azadlığını, qəhrəmanlığını, dostluğu, məhəbbəti vəsf edən mahnılar daxildir. Aşıq sənəti sintetikdir, yəni aşıq şeir yazır, musiqi bəstələyir, həm də oxuyaraq sazda çalır və rəqs edir. Aşığı çox vaxt balaban və nəfəsli alətlər ansamblı da müşayiət edir. Lakin aşığın əsas musiqi aləti sazdır.

Saz qədim Azərbaycan dartımlı simli musiqi alətidir. Aşıq yaradıcılığının ən geniş yayılmış janrı epik janrdır-yəni dastanlardır, xüsusilə də qəhrəmanlıq dastanları. Dastanlarda vokal-instrumental hissələr şeirlə danışıq parçalarını əvəz edir. Aşıq yaradıcılığının lirik janrında tərifləmələr, "gözəlləmə"lər xüsusilə məşhurdur. Bu "gözəlləmə"lər həm sevimli, gözəl qadına, həm də qəhrəmana, məsələn, igid Koroğluya, onun əfsanəvi Qıratına həsr oluna bilər. Qədim dövrlərdə və orta əsrlərdə aşıqlara "ozan", "varsaq", "dədə" deyirdilər.

Müasir Azərbaycan aşıqlarının əcdadı olan qədim ozanların həyatına, məhəbbətinə, vətənpərvərliyinə, igidliklərinə həsr edilmiş ən qədim yazılı mənbə, yeddinci əsrə aid olan "Kitabi Dədə Qorqud" xalq dastanıdır. Azərbaycanın peşəkar aşıqları iki qismə bölünür: ifaçı aşıqlar və şair aşıqlar. İfaçı aşıqlar poetik yaradıcılıqla məşğul olmurlar. Peşəkar dastançı kimi onlar folklorun xüsusiyyətinə dərindən bələddirlər. Fərdi qabiliyyətlərindən asılı olaraq onlar folklorun xüsusilə nəsr formalarında (dastan, rəvayət) müxtəlif dəyişikliklər edirlər.

Tarixən musiqi folklorunun bəstəkarların yaradıcılığına böyük təsiri olmuşdu. İlk dəfə aşıq musiqisinin xüsusiyyətlərindən bəstəkar Ü.Hacıbəyov "Koroğlu" ope-

rasında istifadə etmişdir. Müasir musiqinin texniki vasitələriylə aşıq musiqisinin xüsusiyyətlərini birləşdirən digər bəstəkar Qara Qarayev üçüncü simfoniyasının ikinci hissəsində onların vəhdətini yarada bilmişdir.

Qurbani (16-cı yüzillik), Abbas Tufarqanlı, Sarı Aşıq (17-ci yüzillik), Xəstə Qasım, Aşıq Valeh, Aşıq Dilqəm (18-ci yüzillik), Aşıq Alı, Aşıq Ələsgər, Aşıq Hüseyn Şəmkirli (19-cu yüzillik) və b. aşıq sənətinin klassikləri hesab olunurlar. Azərbaycan aşıqları bütün Qafqazda məşhur idilər. Bu gün də aşıqlara böyük ehtiram göstərilir. Tanınmış müasir aşıqlar A. Mikayılov, B. Qədirov, A. Rüstəmov, Ş. Hacıyev, P. Salahlı, P. Pənahov və başqaları aşıq poeziyası ənənələrini davam etdirirlər. Aşıq sənəti Azərbaycanın Qazax, Tovuz, Şamaxı rayonlarında, həmçinin tarixi Göyçə və Borçalı mahallarında xüsusilə vüsət tapmışdır.

Azərbaycanın dahi bəstəkarı Ü.Hacıbəyli başda olmaqla, görkəmli bəstəkarlardan - M.Maqomayev, Q.Qarayev, F.Əmirov, Niyazi də aşıq yaradıcılığının böyük bədii-estetik əhəmiyyətini qeyd etmişlər və bu nümunələrdən böyüməkdə olan gənc nəslin musiqi inkişafının tərbiyəsi sistemində istifadə etməyi öz məqalələrində məsləhət görmüşlər. Bu fikirlər bir neçə on il bundan əvvəl söylənilməsinə baxmayaraq indi də öz aktuallığını itirməmiş və bu nəzərdən aşıq musiqisindən məktəblilərin musiqi inkişafında istifadə etməklə əlaqədar ciddi tədqiqat aparmaq problemi ortaya çıxır.

Ümumtəhsil məktəblərinin musiqi fənni üçün ilk proqram 1923-cü ildə tərtib olunmuş və Azərbaycan Xalq Maarif Komissarlığı tərəfindən təsdiq edilmişdir. Bu dövrdə musiqi dərsləri yalnız ibtidai siniflər üçün nəzərdə tutulmuş və yuxarı siniflərdə bu fənn tədris planına daxil edilməmişdi. Proqrama daxil edilmiş mahnılar uşaqların yaş səviyyələrinə uyğun deyildi və yalnız xalq mahnılarından ibarət idi. 1929-cu ildə nəşr edilmiş proqramlarda əvvəlki illərə nisbətən müəyyən dəyişikliklər aparılır. Lakin yenə də əsasən «Üç telli durna», «Küçələrə su səpmişəm», «Gözəlim sənsən», «Gəl, gəl, maralım», «Qalada yatmış idim», «Uca barıdan endim», «Evlərinin dalı qaya» və digər sevgi mövzusunda olan mahnıların proqrama daxil edilməsinə baxmayaraq, aşıq musiqisindən heç bir nümunəyə rast gəlinmirdi. Digər tərəfdən proqrama daxil edilmiş bu xalq yaradıcılığı nümunələri məktəblilərin yaş xüsusiyyətlərinə uyğun gəlmirdi.

1951-ci ildə nəşr edilmiş proqram (müəllif A.Gəray) da yalnız ibtidai siniflər üçün nəzərdə tutulmuşdur. Burada yalnız bir aşıq musiqisi «Yaşa, Azərbaycan!» özünə yer tutmuşdur. Lakin bu aşıq musiqisi nədənsə bəstəkar S.Rüstəmovun adına getmişdir. 1962-64-66-cı illərdə I-VI siniflər üçün çap olunmuş «Musiqi» proqramlarında (müəllif N.Məlikməmmədov) da heç bir aşıq musiqisi nümunələrinə rast gəlmirik.

1985-ci ildə uzun sürən eksperimentlərdən sonra I-VII siniflər üçün yeni tipli «Musiqi» proqramı (müəllif O.Rəcəbov) «Maarif»nəşriyyatı tərəfindən çap olunur. Bu proqramın ona qədərki proqramlardan fərqli cəhəti ondadır ki, ilk dəfə olaraq, hər bir rüb üçün nəzərdə tutulmuş müəyyən mövzulu bütün musiqi əsərləri rüb ərzində bu mövzunun aydınlaşdırılmasına xidmət edirdi. Digər tərəfdən proqramın məzmunu təyin edilərkən müəllif «Millidən ümumbəşəriliyə» kimi bir prinsipdən istifadə etmişdir ki, bu da şagirdlərin milli musiqi ilə yanaşı ümumbəşəri musiqi nümunələrini qavramasına gətirib çıxarır. Əlbəttə ki, bu prinsipin praktik tətbiqi musiqi dərslərinin effektivliyini, keyfiyyətini artıra bilər. Digər tərəfdən proqrama

daxil edilmiş ritmika vasitəsilə not savadının verilməsi mərhələsində müəllif müxtəlif xalq musiqi nümunələrini, o cümlədən bəzi aşıq musiqisi nümunələrinin ritmlərindən istifadə etməyi məsləhət görür ki, bu da sonradan dinlənilə biləcək aşıq musiqisi nümunələrinin melodiyalarının qavranılmasına köməklik göstərə bilər. Lakin proqramın ayrı-ayrı siniflərə daxil edilmiş musiqi materiallarının təhlilindən məlum olur ki, məktəblərimizdə qüvvədə olan 1985-ci il proqramına da aşıq musiqi nümunələri kifayət qədər daxil edilməmişdir. Bu proqramın V-VI, VII siniflərin proqramına daxil edilmiş Ü.Hacıbəyovun «Aşıqsayağı» triosu, Ü.Hacıbəyovun «Koroğlu» operasından «Aşıq mahnısı», R.Qliyerin «Şahsənəm» operasından «Aşıqların deyişməsi» əsərləri heç də demək deyildir ki, məktəblilər əsl aşıq yaradıcılığı ilə tanış olurlar. Belə ki, adları çəkilən musiqi nümunələri aşıq musiqisi ənənələrinə əsaslansa da bunlar əsl aşıq musiqi yaradıcılığına aid edilə bilməz.

Beləliklə, 1923-cü ildən bu günə qədər respublikamızda mövcud olmuş ümumtəhsil məktəbləri üçün «Musiqi» proqramlarına aşıq musiqi nümunələri demək olar ki, daxil edilməmişdir. Aşıq musiqisi məktəb proqramlarında özünə yer tuta bilməsə də aşıq dastanlarından bir qismi orta ümumtəhsil məktəblərinin ədəbiyyat proqramlarına daxil edilmişdir.

1970-ci ildə görkəmli Azərbaycan pedaqoqu Ə.Həşimovun «Azərbaycan xalq pedaqogikasının bəzi məsələləri» adlı monoqrafiyasında aşıq musiqisinin tərbiyəvi əhəmiyyəti haqqında belə bir fikirlə rastlaşırıq.

«... el aşıqları, onların oxuduqdarı mahnı və muğamlar, danışdıqları nağıl və dastanlar, indiki mədəni tələblər mənasında desək, əhali üçün vaxtı ilə müəllimi də, mətbuatı da, kinonu da, professional teatrı da, radionu da əvəz etmişdir». Göründüyü kimi, görkəmli pedaqoq-alim də aşıq yaradıcılığının böyük tərbiyəvi əhəmiyyətini qeyd etmişdir.

Aşıq musiqisi mövzusu elmi, metodik-pedaqoji ədəbiyyatda da öz əksini müəyyən dərəcədə tapmışdır. Məmmədov T.A. «Azərbaycan aşıqlarının ənənəvi havaları» monoqrafiyasında Azərbaycan şifahi xalq ənənələrinə əsaslanan aşıq havaları, onun musiqi-poetik dili, janr formaları haqqında geniş məlumat verir. Bu monoqrafiyanın daha bir yaxşı cəhəti odur ki, burada 60 aşıq havalarının not yazısı öz əksini tapmışdır. Lakin bu əsər sırf musiqişünaslıq səpgisində yazıldığından biz burada araşdırdığımız problemlərlə rastlaşmırıq. Nota salınmış 60 aşıq havalarının ümumtəhsil məktəblərində istifadə edilməsi şagirdlərin bədii-estetik tərbiyəsinə müəyyən dərəcədə müsbət təsir göstərə bilər. Məhz bu baxımdan həmin aşıq havalarının not yazılarından məktəblərdə musiqi dərsləri və dərsdən kənar musiqi məşğələləri prosesində istifadə etmək mümkündür.

Ü.Hacıbəyli özünün «Aşıq yaradıcılığı» məqaləsində aşıq musiqisini epik və lirik olaraq iki kateqoriyaya ayırmaqla bərabər bu nümunələri ümumtəhsil və musiqi təhsili sistemində böyüməkdə olan nəslə öyrətməyi məsləhət görür.

V.Xəlilov «Azərbaycan folklor nümunələrindən istifadə kiçik yaşlı məktəblilərin estetik tərbiyə vasitəsi kimi» dissertasiyasında aşıq musiqisinin məktəb praktikasında az istifadə olunduğunu qeyd etməklə bərabər bu janrdan olan nümunələri kiçik yaşlı məktəblilərin tədris proqramlarına daxil etməyi tövsiyə edir.

V.Xəlilov öz dissertasiyasında aşıq musiqi nümunələrinin şagirdlərin mənəvi hisslərinin formalaşması prosesində böyük əhəmiyyətə malik olduğunu göstərməklə

bərabər, bu nümunələrdən fənlərarası əlaqə mərhələsində də istifadə etməyi məsləhət bilir.

Azərbaycan Respublikası 1986-cı ildə O.Rəcəbovun və F.Sadıqovun «Musiqi dərslərində tərbiyə işinin təşkili» adlı metodik tövsiyələr çap olunur. Bu metodik vəsaitdə uşaq mahnılarından kiçik yaşlı məktəblilərin estetik tərbiyə sistemində istifadə imkanları araşdırmaqla bərabər həm də müxtəlif xalq musiqisi janrlarından, o cümlədən aşıq musiqisindən məktəbdə istifadə edilməsi məsləhət görülür. Bu haqda müəlliflər belə yazırlar: «Ayrı-ayrı mahnıların (o cümlədən aşıq havalarının) vətənpərvərlik və beynəlmiləlçilik imkanlarından istifadə etmədikdə dərs sönük, zəif keçir».

Göründüyü kimi, müəlliflər aşıq havalarından da vətənpərvərlik tərbiyəsi sistemində istifadə etməyi məsləhət görsələr də, məhz aşıq havalarının necə məktəbə gətirilməsini göstərməmişlər.

Tədqiqatlar və elmi axtarışların nəticəsi göstərir ki, aşıq musiqisi yaradıcılığından dərs və dərs-dənkənar musiqi məşğələlərində istifadə edilməsi haqqında «Azərbaycan məktəbi», «Məktəbəqədər və ibtidai məktəb» jurnallarında heç bir məqalə çap olunmamışdır. Bu bir daha sübut edir ki, uzun illər aşıq musiqi yaradıcılığı məktəb təcrübəsindən kənarda qalmış, uşaqlarımızın musiqi estetik tərbiyəsi prosesinə güclü təkan verə biləcək bu xalq yaradıcılığı nümunələrindən istifadə edilməmişdir.

Aşıq musiqisi ilə əlaqədar aparılmış təqqiqatların əksəriyyəti isə məhz musiqişünaslıq istiqamətində olmuşdur ki, bunlardan da ümumtəhsil məktəblərimizdə müəllimlərimiz üçün didaktik material kimi istifadə edilməmişdir. Bu isə ondan irəli gəlmişdir ki, qədim Azərbaycan xalq yaradıcılığı nümunəsi olan aşıq musiqisi uzun müddət respublikamızda lazımınca qiymətləndirilməmiş və onun böyük tərbiyəvi əhəmiyyəti diqqət-nəzərdən kənar qalmışdır.

Azərbaycan dövlətinin, xüsusilə YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın aşıq sənətinin qorunması, inkişafı və təbliği istiqamətində fəaliyyəti nəticəsində 28 sentyabr – 2 oktyabr 2009-cu il tarixində Birləşmiş Ərəb Əmirliyinin Abu-Dabi şəhərində YUNESKO-nun Qeyri maddi-mədəni irsin qorunması üzrə Komitəsinin 4-cü sessiyasında YUNESKO-nun Hökumətlərarası Komitəsinin yekun qərarına əsasən Azərbaycanın aşıq sənəti YUNESKO-nun Qeyri-maddi mədəni irs üzrə Reprezentativ siyahısına daxil edilmişdir.

Beləliklə, bu gün biz Azərbaycan hökumətinin həyata keçirdiyi məqsədyönlü siyasət və bu istiqamətdə müvafiq tədbirlər nəticəsində Azərbaycan aşıq sənətini dünya qeyri-maddi irsinin inciləri sırasında görürük. Bu hadisə beynəlxalq səviyyədə aşıq sənətinin Azərbaycan mədəni irsinin ən qədim nümunələrindən biri olduğunu bir daha təsdiqləyir.

Ədəbiyyat

1. Həşimov Ə. Azərbaycan xalq pedaqogikasının bəzi məsələləri. Bakı, Maarif, 1970.

2. Sadıqov F. Məktəb özfəaliyyət musiqi dərnəkləri. Metodik tövsiyələr. Bakı, Azərbaycan Maarif Nazirliyinin mətbəəsi, 1988.

3. Quliyev S. Musiqi tərbiyəsi və tədrisi metodikası. Bakı, API nəşr., 1976.

4. Mustafayev J.Ə. Şagirdlərin vətənpərvərlik tərbiyəsində xalq pedaqogikası materiallarından istifadə. Bakı, 1992.

5. Qadcibekov. U. O muzıkalğnom iskusstve Azerbaydcana. Baku, Azqosizd., 1966.

6. Rəcəbov O., Sadıqov F. Musiqi dərslərində tərbiyə işinin təşkili. Bakı, 1986.

7. Həşimov Ə., Sadıqov F. Azərbaycan xalq pedaqogikası. Bakı, "Ünsiyyət", 2000.

Кенюл Джаббарова

Ашугское творчество и процесс его
преподавания в общеобразовательных школах
Резюме

В этой статье говорится, об ашугском творчестве и о процессе его преподавания в общеобразовательных школах.

Здесь, также показывается, как ашугская поэзия влияет на эстетическое, нравственное и патриотическое воспитание подрастающего поколения. Ашугская поэзия широко используется в воспитательном процессе.

Kenul Jabbarova

Ashuq art and the process of its teaching at the secondary schools
Summary

This article deals with the ashuq art and its teaching at the secondary schools here it is. Shown that how the ashuq poetry effects the patriotic and esthetic training of young generation. Ashuq poetry is widely used in the process of education.

Ashuq poetry is also used in the international area as an educational process.

Rəyçi: Zemfira Əzizova
pedaqogika üzrə fəlsəfə doktoru, dosent

TƏRANƏ RƏHİMLİ
filologiya üzrə fəlsəfə doktoru, dosent
ADPU
E-mail: t_raqimli@mail.ru
UOT: 821 (479. 24)

İSA HÜSEYNOVUN HEKAYƏLƏRİ JANR, ZAMAN VƏ ƏDƏBİ QƏHRƏMAN KONTEKSTİNDƏ

Açar sözlər: hekayə, müasir nəsr, ədəbiyyat, milli
Ключевые слова: сочинение, современная проза, литература, национальное.
Key words: composition, contemporary prose, literature, national.

1960-70-ci illərdə Azərbaycan yeni nəsrinin yaranmasında və inkişafında görkəmli yazıçı İsa Hüseynovun yaradıcılığının müstəsna rolu olmuşdur. Ədəbi fikir yeni nəsrin ilkin tarixi sərhədlərini müəyyənləşdirərkən bu mərhələnin 60-cı illərdən və məhz «İsa Hüseynovun «Teleqram» povestindən başladığını» (Anar) göstərir. Nəzəri fikir bu əsərdən başlayaraq «sosializm»in artıq fakturada qaldığını», yazıçı düşüncəsində ona qətiyyən yer olmadığını, buradan da «bilmərrə sosializm realizmi poetikasının izlərinin belə yoxal»dığını dəqiqləşdirir.

İsa Hüseynov ədəbi həyata hekayələri ilə vəsiqə alıb. Nasirin hələ hekayə janrında ilk yaradıcılıq uğurları tənqidin diqqətini cəlb etmiş, kiçik janrda böyük mətləbləri məharətlə əks etdirən istedadlı yazıçının bu janrda ilk təşəbbüsləri yüksək dəyərləndirilmişdir. Məmməd Arif, Qulu Xəlilov, Məsud Əlioğlu, İlyas Əfəndiyev və başqa ədəbiyyatşünas və tənqidçilər bu hekayələrə elmi-nəzəri münasibət bildirmişlər. Yazıçının hekayələrini janr, zaman və ədəbi qəhrəman kontekstində tədqiq edən Məhərrəm Hüseynov nasirin bu sahədə ilk uğurlarında sənətkar fərdiyyətinin müəyyənliyinə diqqət yetirir. Görkəmli yazıçının yaradıcılıq təkamülünü izləmək baxımından onun hekayə yaradıcılığı 1950-ci və 1960-cı illər kimi iki mərhələdə öyrənilir.

Tədqiqatçı İsa Hüseynovun 1950-ci illərdə yazdığı «Cığırlar», «İki ovçu», «İnciklik», «Milis leytenantı Səlim Qədirov», «Başa düşə bilmirəm», «Dərd», «Əmiqızı», «Zülfüqar əmi» hekayələrində yazıçının hələ ilk qələm təcrübələrindən başlayaraq cəmiyyət həyatının ən aktual məsələlərinə, düşündürücü problemlərinə toxunduğunu vurğulayır. Həyatla əlaqənin möhkəmliyi, bədii konfliktin aydınlığı və təbiiliyi, təsvirdə konkretlik, insanın daxili aləminin dərinliklərinə nüfuzetmə, onun təbii düşüncə və həyəcanlarına müraciət bu hekayələrin başlıca sənət məziyyətləri kimi dəyərləndirilir.

Məhərrəm Hüseynov yazıçının ilk hekayələrinin onun epik təfəkküründün genişliyindən xəbər verdiyini, sənətkarın hekayədən-hekayəyə dəyişən, inkişaf edən, zənginləşən yaradıcılıq üslubunun spesifik cəhətlərini müşahidə edir. İsa Hüseynovun milli ədəbiyyatımızın, nəsrimizin yaradıcılıq ənənələri ilə daxili təmasda inkişafını izləyən tədqiqatçı nasirin ilk mətbu hekayəsi haqqında yazır: «Cığırlar»da (1953) onun (İ.Hüseynovvun – T.R.) ilk yaradıcılığına, o cümlədən hekayəçiliyinə xas olan bir sıra müsbət keyfiyyətlər: yüksək ictimai qayə və bədii

mükəmməllik, fikir aydınlığı, qələmə alınmış həyat hadisələrinin real və inandırıcı təsviri, bir sözlə, onu ədəbiyyat aləminə gətirən özünəməxsus «cığırlar» görünməkdədir.» (2, s.44)

Müəllifin öz qəhrəmanlarını, onların hərəkət və davranışlarını, əhval-ruhiyyəsini, psixologiyasını, sosial mühitlə əlaqədə göstərməsi, yadda qalan təbiət lövhələrini onların psixoloji vəziyyətləri ilə uyğunlaşdırması bu hekayənin bədii dəyərini təmin edən əsas cəhətlər kimi göstərilir. Məmməd Arif, Qulu Xəlilov bu hekayəni müsbət qiymətləndirmiş, Məsud Əlioğlu, İlyas Əfəndiyev əsərə elmi-nəzəri münasibət bildirmişlər. Həmin tədqiqatlarda hekayənin baş qəhrəmanlarının səciyyəsi ilə bağlı müəyyən yaradıcılıq nöqsanları da yazıçının nəzərinə çatdırılmışdır.

Məhərrəm Hüseynov təhlilində əsərin müəyyən motivlərinə ədəbi tənqidi münasibətin «hekayənin vüsət və dramatizmində nöqsan aşkar edə bilmədiyi» qənaətinə gəlir, İ.Hüseynovun yazıçı üslubunun əsas spesifik əlamətlərinin məhz bu ilk qələm təcrübəsində göründüyünü əsaslandırır. Tədqiqatçı hekayə haqqındakı tənqidi fikirlərin birtərəfli oduğunu, bütövlükdə «Cığırlar»ın ideya-bədii istiqamətini dəqiq səciyyələndirmədiyini vurğulayır. Məhərrəm Hüseynov insanın həyat və düşüncə tərzinin, yaşantılarının önə çəkilməsini hekayənin əsas uğuru hesab edir.

İsa Hüseynov nəsrində insan və təbiət münasibətlərinin təməlinin qoyulduğu «İki ovçu» hekayəsinin təhlilində əsərin ideyasının 60-cı illərdə «Teleqram» povestində davam etdirildiyi nəzərə çatdırılır. Təbiətə zülm edənlərin kəskin tənqidi hər iki əsərin əsas ideyasıdır. «Teleqram» povestinin qəhrəmanı Zəlimxan insanın təbiətə qarşı amansız rəftarını öz təbiətinə, həyatına qəsd kimi qəbul edir, təbiətə yad olan insanın bütövlükdə özgələşdiyini düşünür. Tehran Əlişanoğlunun yazdığı kimi, Zəlimxan «saxta qohumluq hissləri, ailə təəssübkeşliyinə arxalanmaq zəminində ağacların, meşənin qırılması və hətta bunun ört-basdır edilməsi cəhdini görəndə fəlakətin miqyasının daha böyük olduğunu anlayır. Saxtakarlıqla, yalançı patriarxallıqla vüqar, əzəmət bir araya sığmır.» (6, s.39). «Teleqram»ın qəhrəmanı Zəlimxan meşədə hara baxırsa kötük görür, lakin qəhrəmana görə əsil müsibət adamların da çevrilib «kötük» olmasıdır.

Məhərrəm Hüseynov 1954-cü ildə yazılmış «İki ovçu» hekayəsi ilə «Teleqram» (1963) povesti arasındakı ümumi və oxşar cəhətləri aşkara çıxarır, «Teleqram»da daha əhatəli planda işlənmiş problemin – təbiətin ilkinliyini qorumağa «həyəcanlı çağırışın» doqquz il öncə «İki ovçu» hekayəsində xüsusi kəskinliklə qoyulduğunu nəzərə çatdırır. Hekayədə vəzifəsindən sui istifadə edərək qoruqların maral-larını, qırqovullarını məhv edənlərin ifşasını rayon ovçuluq idarəsinin direktoru Həşimlə qoruqları mühafizə edən ləyaqətli insan Balacanoğlu qarşıdurmasının haqqın qələbəsi ilə başa çatması, yazıçı dilindəki satirik-yumoristik çalar, məişət detallarının ictimai münaqişələrlə vəhdətdə təqdimi, personajların daxili aləminə psixoloji nüfuzun dərinliyi, surətlərin dil xüsusiyyətlərinin fərdiləşdirilməsi «iki ovçu» hekayəsinin başlıca məziyyətləri kimi təqdir olunur.

M.Hüseynov yazıçının 1950-ci illərdə yazdığı «İnciklik», «Milis leytenantı Səlim Qədirov», «Başa düşə bilmirəm», «Dərd», «Əmiqızı» hekayələrini bədii mühakimələrin dərin məntiqinə görə, insan taleyinə həssas münasibətin ifadəsilə seçilən, hadisələrin mükəmməl psixoloji təsviriylə yadda qalan, sosial həyatın dərin ictimai təhlili, bədii sənətə yüksək estetik tələbkarlıq xüsusiyyətləriylə fərqlənən bə-

dii sənət nümunələri kimi nəzəri təhlilə cəlb edir, bu hekayələrin müvəffəqiyyətini təmin edən cəhətlərə diqqəti çəkir.

Məhərrəm Hüseynov görkəmli nasirin 1960-cı illərdə qələmə aldığı hekayələrin özünəməxsus bədii ümumiləşdirmə xüsusiyyətlərinə, fabula və kompozisiya tamlığına, mövzu rəngarəngliyinə, problem müxtəlifliyinə malik olduğunu göstərir, lakin yazıçının 60-cı illərdə yazdığı hekayələrin bədii səviyyəsi ilə daha çox fərqləndiyini, bütövlükdə İsa Hüseynov yaradıcılığının bu illərdə yeni bədii məzmun kəsb etdiyini, yeni bədii-estetik dəyər qazandığını vurğulayır. Tədqiqatçı bu münasibətlə yazır: «Doğrudan da sonrakı onillikdə (yəni 60-cı illərdə – T.R.) İ.Hüseynov intensiv bədii axtarışları ilə fərqlənməyə başladı. Bu təkamül və yeniləşmə bədii keyfiyyət və sənətkarlıq tələblərinə söykəndi. Bədii səviyyəsi ilə fərqlənən İsa Hüseynovun hekayələrində yenilik ruhu özünü xüsusilə göstərdi.» (2, s.97).

M.Hüseynov yazıçının 1960-cı illərdə yazdığı hekayələri ideya-bədii təkamül və sənətkar fərdiyyətinin təsdiqi aspektində təhlil edir. Tədqiqatçı bu mərhələdə nasirin hekayələrini səciyyələndirən əsas xüsusiyyətləri müəyyənləşdirir, onların estetik məziyyətlərini aşkara çıxarır. «İctimai həyatın daha real münasibətlərini vermək, insan qəlbinə asanlıqla yol tapmaq, müasirlərimizin mənəviyyatını, görüşlərini, əxlaq xüsusiyyətlərini və s. ön plana çəkmək», təbiilik, inandırıcılıq, «həyat materiallarını dərindən mənimsəmək və bunu yüksək bədii formada ifadə etmək arasındakı uyğunluq, fərdi üslubun müəyyənləşməsi, şəxsiyyətlərin psixologiyasını ictimai əlaqələr fonunda açmaq, yeni orijinal ifadə və təsvir vasitələri axtarmaq təşəbbüsü, insan qəlbinin gizli təhlilinə güclü meyl» bu hekayələrin ümdə yaradıcılık məziyyətləri kimi qiymətləndirilir.

Tədqiqatçı görkəmli ədibin «Dəqiqələr və illər», «Plyajda», «Zəhər», «Kənddə toy vardı», «Şəppəli» hekayələrini yazıçının poetik təfəkküründün inkişafını göstərən mühüm bədii örnəklər hesab edir. «Dəqiqələr və illər» əsərini yazıçının hekayə ustalığının «ümumi mədəni səviyyəsinin göstəricisi», son illərin (yəni 60-cı illərin – T.R.) ən qüvvətli psixoloji hekayələrindən biri kimi yüksək dəyərləndirir.

Yeknəsəq həyat tərzinə, ömrün günlərinin mənasız keçirilməsinə qarşı kəskin etiraz tək səslənən hekayədə mənəvi-əxlaqi və psixoloji proseslərin bədii ifadəsinin obrazın zehniyyətinin təsviri fonunda meydana çıxarıldığı göstərilir. M.Hüseynov «Plyajda» hekayəsini nasirin 60-cı illərdə mahir bir hekayənəvis kimi püxtələşdiyini göstərən əsərlərdən biri kimi təqdir edir, burada müasir insanın mürəkkəb xarakterini məharətlə yaratmağı, onun daxili aləmini, iç dünyasını açmağı, yadda qalan bədii surətlər və tablolarla mahiyyəti nəzərə çatdırmağı yazıçının yaradıcılıq imkanlarının genişliyi ilə əlaqələndirir.

Tədqiqat işində cəmiyyətin ən aktual məsələlərinə fəal yazıçı müdaxiləsi və həyat səhnələrinin böyük sənətkarlıqla, bədiiliklə «zinətləndirilməsi» İsa Hüseynov hekayələrinin müasirlik ruhunu qüvvətləndirən keyfiyyətlər kimi araşdırılır.

M.Hüseynov yazıçının hekayələrinin sonralar meydana gələn monumental povest və roman yaradıcılığı üçün zəmin rolunu göstərir, bu hekayələri səciyyələndirən estetik özəlliklərin yeni poetik dolğunluqda və daha mükəmməl şəkildə irihəcmli janrlarda yazılmış əsərləri zənginlədirdiyini vurğulayır. Tədqiqatçı milli nasirlərimizin ədəbi təcrübəsinə dair faktlara istinad edərək yazır: «Geniş oxucu kütləsinin rəğbətini qazanmış povest və romanlar öz mayasını məhz hekayə üslubundan

götürmüşdür. Hekayə bünövrəsi üzərində formalaşan fərdi yaradıcılıq özünəməxsusluğu sonradan irihəcmli nəsr əsərlərinə istiqamətlənmişdir.» (2, s.21-22).

Məhərrəm Hüseynov «Janr, zaman və ədəbi qəhrəman» adlı tədqiqatında İsa Hüseynovun hekayələrini 1950-60-cı illər ədəbi prosesinin başlıca inkişaf meylləri və problemləri fonunda araşdırmış, hekayə janrının estetik prinsipləri mövqeyindən apardığı təhlillərində yazıçının hekayələri haqqında dürüst elmi təsəvvür yaratmağa müvəffəq olmuşdur.

Ədəbiyyat

1. Anar. Nəsrin fəzası, «Азярбайжан», 1984, № 7, c.166.
2. Hüseynov M. Janr, zaman və ədəbi qəhrəman. Bakı, Elm və təhsil, 2012.
3. Hüseynov A. Nəsr və zaman. Yazıçı, Bakı, 1980.
4. Arif M. Yeni nəsil. Seçilmiş əsərləri. 3 cilddə, c.1, Bakı, Azərb. EA nəşri, 1963.
5. Xəlilov Q. Hekayələr haqqında. «Ədəbiyyat və incəsənət» qəz., 1954, 10 aprel.
6. Əlişanoğlu T. Azərbaycan «yeni nəsr»i. Bakı, Elm, 1999.

T.Рагимли

Сочинении Иса Гусейнова в контексте жанр, время и литературный герой

Резюме

В исследовании повествуется о сочинении Иса Гусейнова, рассмотрен сечинении 1950-1960-х годов, которые вызвал большой интерес в литературной критике. Сочинении И.Гусейнова, оцененный в контексте прозаических произведений «шестидесятников» охарактеризован как произведение, отображающее социальную действительность современного периода, ясную картину правдивости, горькие переживания современной молодёжи и навечно воплотившимися в памяти живыми художественнымы полотнами. Сочинение писателья оценивается как из значимых образцов посвященных национально-духовной тематике в азербайджанской прозе 50-х и 60-х десятилетий. Статья имеет применительное значение на научных семинарах филологических факультетов высших школ, посвящённых вопросам спецкурсов и спецсеминаров.

T.Rahimli

Composition of Isa Huseynov's n the context genre, time and literary hero

Summary

In a study is narrated about the composition of Isa Huseynov's, it is examined *composition*, 1950-1960- X of the years, which the great interest in the literary criticism caused. Composition Isa Huseynov, evaluated in the context of the prosaic works "of man of the sixtien" is described as the work, which reflects the social reality of contemporary period, the clear pic-

ture of truthfulness, the bitter experiences of contemporary young people and by the forever personified in the memory living of artistic by fabrics. Novels and to composition writer is evaluated as of the significant models of those dedicated to nation- spiritual thematics at Azerbaijan prose 50th and 60th decades. Article has applicable value at the scientific seminars of the philological departments of the higher schools, dedicated to questions of special courses and special seminars.

Rəyçi: Şamil Vəliyev
filologiya elmləri doktoru, professor

MOHAMMADREZA ZAKERABBASALI
Islamic Azad University,
Kazeroun Branch, Iran
reza.zaker13@yahoo.com
MOHAMMAD JAFAR JABBARI
Yasouj University, Iran
mjjabbari@yahoo.com
ALI MAMMAD BAGIR
National Academy of Sciences of
Azerbaijan Republic, Institute of Manuscripts,
named after Mohammad Fuzuli
ali.aliyev55@gmail.com

THE ROLE OF MODERN APPROACHES IN THE DEVELOPMENT OF LIFELONG LEARNING

Açar sözlər: Həyat boyu öyrənmək, müasir yanaşmalar.
Key words: Lifelong learning, modern approaches.
Ключевые слова: Учиться на протяжении всей жизни, современный подход.

Abstract

Human being has an unlimited capacity for learning and acquiring skills. His mental abilities and faculties are so vast that even if he spends his whole life to learn and acquire, he is never able to benefit from all his capacity. Employing his mental power, human being can remove all obstacles, solve all his problems and achieve all his goals. A main pivot of sustainable development in human life is lifelong learning, which results in the development of human knowhow, skills and insight. Lifelong learning is a ground for people's dynamism, and their effective participation in social activities, so that they can fulfill their social tasks and responsibilities with a clear insight. Human's success can be guaranteed when he benefits from modern means optimally. Nowadays, man has come to the conclusion that for optimal learning he cannot limit himself to reading and writing; for lifelong learning, he should utilize all approaches and technologies optimally. Non-official and unnoticeable teaching, extending virtual space for (electronic) learning, holding conferences, seminars, workshops, etc. will be of a great help in lifelong learning.

1-Introduction

One of the main pivots of sustainable development in human societies is lifelong learning. Lifelong learning is a new synonym for learning and is a finding of the progressive development of information (Brahmai, 2007). Development of knowledge, skills, interests and learning opportunities in life survive by people via the process of lifelong learning. For Patterson (2004), lifelong learning includes a process lasting from the cradle to the grave, practiced willingly and without any imposed pressure. Brahmai, in his research on lifelong learning (2007), uses this term as a synonym for such terms 'learning how to learn', 'learning throughout life', 'option-free learning', 'self-directed or self-supported learning', 'learning without boarder' and 'information literacy'. It is by virtue of this lifelong learning that human beings keep improving knowledge and skills, throughout their lives. Lifelong learn-

ing is a ground for humans' dynamism and their effective participation in social activities, so that they can fulfill their social tasks and responsibilities from a clearer perspective. Although lifelong learning is usually the continuation of people's fields of study and specialty, owing to the human being's unlimited capability and talent, one can make permanent effort to learn and acquire skills in other fields, to achieve his objectives. Man's mental abilities and intelligence are to the extent that even if he spends all his life to learn and acquire knowhow, he will not be able to use all his capacities. By utilizing mental power in different circumstances, there would be no obstacle impassable, no problem unsolvable and no goal unachievable. Mind is similar to a muscle in that its growth needs permanent activity and effort. To improve his muscles, one should bear pressure. By the same token, he should use his mental 'muscles' to make it powerful. The more he earns, the more he acquires learning talent. The more he spends time on lifelong learning, the easier the learning would become. Lifelong learning includes all after graduation activities to preserve the acquired skills, to enhance what is already learned quantitatively and qualitatively, and to learn new scientific materials and skills, which can result in the society's quantitative and qualitative enhancement. Nowadays, people, in general, have become more informed about the potentials and importance of lifelong learning as a means of developing living standards. Learning equips us with a scientific means of promoting or modifying living standards. Our efforts for learning must not terminate after the completion of primary education and literacy programs. We should keep on our endeavor throughout our lives. Lifelong learning provides us with opportunities of being involved in permanent acquisition. Modern man knows that training is not limited to kids controlled within classrooms. There are individuals equipped with a boundless ocean of information. So, it can be said that permanent training is a continuous trend which increases the individual's capacities and talents throughout his life. In order to organize a more appropriate and meaningful permanent training towards empowering people, we should have a clear perspective. We should bear in mind that lifelong learning is not limited to reading, writing and arithmetical operations. It should result in the promotion of knowledge, skills, and insights into a more comfortable, more complete and happier life. Therefore, permanent learning pursues an academic objective; it can help us coordinate with a world undergoing permanent changes in socio-economic, cultural, physical and spiritual aspects. If we acknowledge that the present world is changing moment by moment towards human novel needs, then we should admit that learning should also be permanent and perpetual. Nowadays, we observe a variety of similar programs for lifelong learning in a number of countries. Here, a question of paramount importance is what are the modern approaches to lifelong learning? To answer this question, one has a long path to pass. To make the long story short and sweet, it can be said that enhancing lifelong learning insights requires the improvement of such new skills as data collection and developing new insight and tendencies into learning. To achieve these skills, curricula should be developed on the basis of skills and sponsoring training programs including academic software and national and international networks, so that learners are trained lifelong (Demirel, 2009 and Bryce, 2002). In a word, it can be said that some approaches are related to the means used for lifelong learning and some others are relevant to methods of lifelong learning.

2. Electronic Learning

When we talk about training, what comes to the mind is teaching rather than learning; that is to say, in training the teacher's part is more prominent. Learning, however, focuses on the role the learner plays. In E-learning, since its early days of emergence, the focus shifted from teaching to learning and to the significant reality that an eager person can learn anytime and anywhere, adjust his learning speed and decide to learn a little or much more; therefore, the reason behind the emergence of E-learning has been to provide people with massive possibilities to learn better, more, and easier.

One consequence of the development of modern communicative technology is profound developments in education. Electronic learning is one of human achievements which has developed the present world. It is a new method of pedagogy introducing and managing learning opportunities for the promotion of knowledge and know-how via internet and computer networks and has shifted the nature of education from training to learning. (Rezaei Rad, 2011). By comparing E-learning with traditional training, one can manifestly find out the advantages of E-learning. In E-learning, physical presence, which is an integrated part of traditional trainings, is ruled out. Therefore, learning is never interrupted and keeps on along with business and coincides with other activities such as employment. The term 'E-learning' includes a variety of pedagogical usages and functions based on 'webs', virtual classes, and mobile learning.

2.1 Weblog as a Learning Tool

Nowadays, the meaning of being literate has changed; the standard of literacy has increased from reading and writing to computer literacy and command over modern technological sources. If we consider the educational function of the teacher and school as preparing students for living in the present world, it is necessary to regard a prominent share for information technology. Challenges which substitute student-oriented activities for teacher-oriented ones are required and measures should be taken to promote the teacher's task from a knowledge conveyer to a 'knowledge manager' and 'learning process facilitator'. A weblog, equipped with various tools and unique particularities, is a vehicle which paves the way for such learning processes. (Afshinmanesh, 2006).Weblog-aided learning has the following features: A- Lack of time and space limitations:

Learning has always been subject to time limitation. Weblog-aided learning method, however, has the capacity of the achievement of permanent and lifelong learning time-independently. It defines the educational domain beyond the school time; therefore, this way, the coincidence of the teacher's and the learner's time is not needed. On the other hand, wherever there is access to weblogs, the educational space is provided.

B- Independent learning focused on individual skills.

A weblog functions like a guide and a tutor focusing attention only on one addressee, to satisfy his pedagogical needs with regard to his personal characteristics; therefore, this style of learning does not undergo the serious problems of traditional collective training which usually happens with no attention to individual capabilities and needs. Under this circumstance, training has a better quality and is more effective.

Learning this way, hand in hand with the traditional way and permanently after it, can be fruitful.

Weblog-aided learning might also have some weak-points as possible aimless and idle wandering away while searching the intended weblog, access to pornographic sources, harm to children's eye sight, owing to the monitor radiations, etc. (Afshinmanesh, 2006).

2.2 Learning via Electronic (Distant) Universities

It is years since distant education has become popular all around the World. Distant Education, hand in hand with the internet, has resulted in a new method of education, referred to as "E-learning". By utilizing this method the difficulties of face-to-face education, spatially and temporally, will be solved. E-learning is not only very effective and efficient, but also very economical. It is available for people of different socio-economic levels. This was, a mutual relation via the internet is achieved and rapport between the professor and the student, one the one hand, and communication among students, on the other, are established without any temporal and spatial limitation. Applicants can enroll online, select courses from among the courses offered, study the materials of the desired subject, benefit from the professor's lecture and eventually take exams at the end of the semester. Moreover, they can communicate with their professor and classmates, any day and any moment they prefer, via the internet and exchange their views about their academic syllabus and homework assigned by the professor. In short, it can be said that:" E-learning is to present academic syllabuses by experienced professors of all fields, by means of electronic technology to the students of concern, who can benefit from these academic courses, all around the world. In other words, an electronic educational system is a novel and artistic task and a comprehensive solution which provides the institutes demanding to move with the updated technological trends and modify their academic methods and settings with the possibility of access to new methods of teaching." (Zakerabbasali & Jabbari, 2010.)

2.3 Mobile Learning

Mobile learning is a developed branch of E-learning which, in comparison with other branches, provides learners with more and easier access to the learning content and better opportunities of interaction within the learning environment. (Abdollahi, 2007). Mobile learning is learning via mobile computational devices. The main objective is to make learning part of the routine life. (Jalali Yazdi, 2006). Mobile learning is a sub-set of E-learning, having become popular since around the year 2000 in organizations, institutions and schools. From 2007 onward, mobile learning system was employed and covered the dropouts of 16 to 24 years of age, in Britain, Sweden and Italy. Mobile learning develops literacy and numerical skills, and enhances self-confidence, independent learning and egocentricity. (Assadpour, 2008). Mobile learning provides people with plenty of possibilities and opportunities, because users of cell phones largely outnumber internet users. Moreover, many restrictions of other learning systems are ruled out in mobile learning. Users can learn even while taking trips all around the world. The objective of this type of learning is that users can benefit from permanent learning, optimally using their time, anywhere and anytime at the lowest expense.(Saffarzadeh, 2009).

3. Informal Learning

The view that learning and individual growth last throughout one's life implies that education cannot be limited to formal settings such as schools, colleges and academic centers; education is not only possible in informal environments like

home, workplace and society, but also brings about noticeable outcomes. As "the main objective of lifelong training is the maintenance and promotion of living standards, it needs three preconditions, namely opportunity, motive, and trainability. Lifelong training comprises formal and informal patterns of education" (Noughani, 2008:679). Formal training is defined as "an academic discipline which has temporal hierarchy and ranking, designed from primary up to higher education and which includes university general studies, various specialty programs and full-time institutions for vocational trainings" (Noughani, 2008:12). On the other hand, informal training is less structural and deals with routine experiments. It is not pre-planned and organized (random learning). When the elderly or peers narrate and explain their experiences, informal learning takes place. Informal learning is achieved via conversation to a great extent, and its content is usually acquisition and accumulation of experiences and can happen anywhere.

With regard to the influential role of social networks in the facilitation of training process particularly informal trainings, the pathology of these networks has a very important part in optimized utilization of their innate capacities towards offering training particularly informal training. It is crystal clear that informal training, instead of paying attention to formal infra-structures and grids, focuses on informal grids which are active in people's routine and customary life. As was said before, informal training often occurs via dialogs and conversations. The main objective of this type of training is to prepare the environment so that people can establish mutual cooperation. This way the necessary ground for the formation of social capital and civil society will shape up (Noughani, 2008, 13).

4- In-Service Training

An in-service training or short-term vocational course is a man-power improving method and includes all vocational trainings offered to the trainee to increase his qualities (Gillis, 1998).

The most effective training methods of promoting specialties and professions aim at the improvement of vocations and increase of competence. But it should be remembered that training programs can improve and develop man-power, only if they are offered correctly, methodologically and based on the employee's needs (Krisrjanson, 1992).

5- Permanent Learning by Means of Congresses, Seminars, Conferences, Symposia and Workshops

5.1 Congress

Конец 1950 - начало 1960-х годов ознаменовались взлётом творчества таких видных английских писателей-экзистенциалистов, как Айрис Мёрдок, Мюриэл Спарк, Уильям Голдинг, Колин Уилсон и некоторых других. Определённую дань этому направлению отдал, кстати, и сам Г. Грин. (см., к примеру, кандидатскую диссертацию М.Э. Королёвой «Экзистенциальный тип мышления в романах Г. Грина 1940-х годов «Сила и слава» и «Суть дела»). Знаменательно, что спустя несколько лет после их смерти по книгам этих писателей пишутся сценарии, ставятся спектакли не только на родине, но и далеко за её пределами, отрывки из повестей и романов публикуют в учебных пособиях и хрестоматиях как образцы стилистического мастерства, некоторые произведения переведены на многие языки мира.

Экзистенциализм как художественное направление - явление сложное, неординарное и противоречивое. По нашему мнению, его некорректно искусственно приравнивать к «массовикам» и тем более сопоставлять с авангардизмом. Немаловажен тот факт, что в советском литературоведении произведения А. Мёрдок, М. Спарк, У. Голдинга и К. Уилсона, как правило, выставлялись реакционными и антинаучными. Но это не совсем верно.

Объективно они ломали привычные нормы мировидения связей человека с обществом, и беспристрастный поиск идей, подвергавшихся в своё время необоснованной обструкции, бесспорно, свидетельствует о важности некоторых избранных ими тем.

В отличие от «массовой» английской литературы, в данном случае уже проблематичнее навешивать ярлыки. Круг исследовательских интересов гораздо шире, жанровая палитра разнообразнее. Они писали не только романы, но и рассказы, повести-притчи, новеллы, пьесы, которые отличаются оригинальностью в той степени, что национальная критика до сих пор не может придти в оценке их мастерства к единому мнению. Этих писателей причисляют к адептам теории отчуждённости или проповедникам «тёмных сил» (Голдинг); относят к течению ортодоксального символизма с синтезом глубокой экзистенции и детективного жанра (К. Уилсон); обнаруживают явное пристрастие к мистицизму и иррационализму (А. Мёрдок); в лице Спарк видят представителя католического экзистенциализма, использующей элементы сатиры и модернизма.

Однако поляризация мнений в оценке этих художников не должна смущать исследователей английской экзистенциальной литературы. Нам представляется, что при данном терминологическом расхождении есть единый стержень, на основе которого разрабатываются волнующие их проблемы. Одной из таких, несомненно, актуальных и в наши дни, является свобода выбора, как продолжение философской дискуссии А. Камю, Ж.-П. Сартра, С. Кьеркегора, М. Хайдеггера, Ф. Ницше, Н. Бердяева и некоторых других. Разрастаясь по принципу «снежного кома», эта масштабная проблема влечёт за собой тему вины и ответственности (по Сартру, возложения личной ответственности вообще за судьбы человечества).

Итак, в послевоенной английской литературе определенное распространение получили массовая литература, авангардизм, направление «рассерженных молодых людей», «муза конкретной поэзии», экзистенциализм при ведущей роли реалистического искусства.

Литература

1. Мир Джалал. Азербайджанские писатели о А.С. Пушкине – в книге А.С. Пушкин и азербайджанская литература. Баку: АН Азерб. ССР, 1949, с. 15-28.
2. Пристли Д.Б. Заметки на полях: Худ. публицистика. М: Прогресс, 1988, 467с.
3. Чаплин Сид. Предисловие к роману «День сардины» в кн.: С. Чаплин «День сардины». М: Мол. гвардия, 1964, с.3-23

Ülviyyə Allazova

İkinci dünya müharibəsindən sonra İngilis ədəbiyyatında
bəzi cərəyanlar və yeniliklər məsələsi

Xülasə

Ikinci dünya müharibəsindən sonra İngiltərədə kütləvi ədəbiyyat və mədəniyyət öz binciliyini saxlayırdı. Kütləvi ədəbiyyat kəskin beynəlxalq məsələ və mövzuların müzakirəsindən azad idi və bəşəriyyətin taleyinin fəlsəfi təfəkkürü ilə mürəkkəbləşməmişdir. Realistik cərəyanının tərəfdarı olan ingilis yazıçıları kütləvi ədəbiyyatın nümayəndələrini qətiyyətlə qınadılar. 1950-ci illərin sonu və 1960-cı illərin əvvəli görkəmli ekzistensialist yazıçıların yaradıcılığının yüksəlişi ilə damğasını vurdu.

Ulviyya Allazova

The İssue of Some Trends and novelty in English Literature after
World War II

Summary

After World War II mass literature and culture kept priority in England. It was free of discussions of acute international issues, not complicated with philisophic thinking about fates of a mankind. English writers following realistic trends categorically condemned the representatives of mass literature. Late 1950s - early 1960s were marked by an ascent of creative work of eminent English existentialists.

Rəyçi: Qorxmaz Quliyev
filologiya elmləri doktoru, professor

NUR ÇEVİK
LDU

"FÜYUZAT"DA SATİRİK ŞEİRİN İŞLƏNİLMƏ İMKANLARI

Açar sözlər:satira, ədəbi proses, tənqid, ifşa, poeziya.
Key words: satire, literary process, criticism, exposure, poetry.
Ключевые слова: сатира, литературный процесс, критика, сатирическая поэзии.

"Molla Nəsrəddin" sovet dövrü ədəbiyyatşünaslığında, orta və ali məktəb dərsliklərində uzun müddət təqdir və təbliğ olunduğu halda, görkəmli jurnalist, şair və yazıçı Əli bəy Hüseynzadənin redaktorluğu ilə Bakıda nəşr olunan "Füyuzat" (1906-1907) jurnalı diqqətdən kənarda qalmış,daha çox mürtəce nəşr orqanı kimi nişan verilmişdir. Lakin dərindən araşdırdıqda bunun heç də belə olmadığı anlaşılır. Jurnalda gedən yazılar bu fikrin əksini söyləyir. Maraqlı cəhət həm də ordadır ki, "Molla Nəsrəddin" satirik dərgisində çıxış edən müəlliflər yeri gəldikcə maneəsiz olaraq "Füyuzat"da da öz şeirlərini dərc etdirmişlər. Xalqımızın milli oyanışında misilsiz xidmətləri olan bu nəşrlər arasında oxşar və fərqli cəhətlər barədə danışarkən İ.Ağayev çox doğru olaraq göstərmişdir: "Bu ideal birliyi yenə də realist və romantik şeirin başında dayanan M.Ə.Sabir və M.Hadinin yaradıcılığında özünü göstərməkdədir. Məsələn, 1905-ci il inqilabının siyasi oyanışı dövründə fəal mötədil maarifçi kimi çıxış edən M.Hadi öz xalqına:

Mahi Kənanın gələr, ey piri Kənan,qəm yemə,─
sözlərilə təskinlik verdiyi zaman, inqilabçı –maarifçi M.Ə.Sabir ona:

Mahi-Kənanın batıb, ey piri-Kənan qəm yemə,─
şəklində etiraz etsə də bu ideal birliyi deyil, üslub ayrılığı idi (1, 74)"

Aydın həqiqətdir ki, "Molla Nəsrəddin" jurnalı satira, kinayə üstündə köklənərək, geniş xalq mövqeyindən çıxış edərək sözünü deyirdi. "Füyuzat" ın da sözünü həmin mövqedən ifadə etməsi şübhə doğurmur. Lakin "Molla Nəsrəddin"də olan fikir, söz demək sərbəstliyini Bakı milyonçusu, məşhur xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin vəsaiti ilə, milyonçunun malikanəsində nəşr olunan, bu səbəbdən də müəyyən dərəcədə iqtidar məcmuəsi sayılan "Füyuzat"dan gözləmək düzgün olmazdı. Buna baxmayaraq "Füyuzat"da gedən nəzm və nəsr parçalarının da böyük əksəriyyəti eyni məfkurə birliyinə xidmət edir, həmin əsərlərdə xalqın oyanışı, istibdaddan qurtuluşu arzulanırdı. Bunu M.Hadi yaradıcılığı nümunəsində daha aydın şəkildə izləmək mümkündür. M.Hadi də M.Ə.Sabir və digər satiriklər kimi xalqın ağır vəziyyətini görərək baş verən olaylara, mənfi hallara qarşı biganə qala bilmirdi. M.Hadinin Füzuliyə nəzirə şəklində yazdığı və 1907-ci ildə "Füyuzat"ın 7-ci sayında dərc etdirdiyi "Təraneyi-milli" şeirində qəflətdə olan millətinin yuxudan oyanması, öz hüquqlarını tələb etməsi arzulanırdı:

Hüququn anlayıb da bu səfalətdən usanmazmı?
Açıldı sübhi-sadiq, xabdən millət oyanmazmı?

(2, 45)

Şair cəmiyyətdə baş verən ədalətsizlikləri, xüsusən toplumun az bir qisminin tox, böyük əksəriyyətinin isə ac-yalavac vəziyyətdə olmasına özünəməxsus tərzdə etiraz edir, ictimai bəlaların ünvanını dəqiq şəkildə göstərir:

Kərəmkarın edər sərfi-məsan nəfi-ümmətdə,
Səzadırmı sən izzətlə yaşa, məxluq zillətdə?
Təhəmmül etməz insaniyyət, olsun xəlq zəhmətdə,
Olur məhzuz vicdan görsə xəlqi əmmü rahətdə.

(2, 46)

Maraq doğuran daha bir cəhət ondan ibarətdir ki, tənqidi-satirik istiqamətdə qələmə alınan poetik nümunələr polemika doğurur, mövzuya müxtəlif tərəflərdən müraciətlər edilirdi. Əli bəy Hüseynzadənin "Dəli şair" imzasıyla qələmə aldığı və "Bir osmanlı qəzetəsindən götürülmüşdür" qeydi, daha dəqiq, ədəbi priyomu ilə "Füyuzat"ın 1-ci sayında dərc etdirdiyi "Heyrət, yaxud bir mələgin insanlara xitabı" adlı şeiri buna yaxşı misaldır:

Səmadan bir mələk heyrətlə der: İnsanlar! İnsanlar!
Nədir bu, ruyi-ərzi qapıyor al qanlar, insanlar!
Şəhidiginiz ixvanınızdan almasun fəryad!
Əcəb kimdir şu xınalud olan bicanlar? İnsanlar!
Ölən kim, öldürən kim, zülm edən kim, ağlayan kimdir?
Bir az fikir eyləyin: sizdən degilmi onlar? İnsanlar!

(2, 10)

Jurnalın 6-cı sayında dövrün qüdrətli vətənpərvər şairi M.Hadi "Dəlilər mühibbi" imzasıyla yazdığı cavab şeirində "Dəli şair"lə, başqa sözlə desək, Ə.Hüseynzadə ilə fikir, məslək birliyi nümayiş etdirərək deyirdi:

Xitab eylər bizə bir mürğ, der: insanlar, insanlar!
Nədir tutmuş cahanı nalәvü əfğanlar, insanlar?
...Baxın çeşni həqiqətlə, cahan bir qətlgah olmuş,
Cəhalət eydinə kəsməkdəsiz qurbanlar, insanlar!

(2, 85)

"Füyuzat" satirik şeirə geniş meydan verməsə də, ictimai-fəlsəfi mahiyyət daşıyan, daha çox ziyalılara ünvanlanan bədii nümunələrlə cəmiyyət hadisələrinə diqqəti yönəltməyə çalışırdı. Belə bir istiqaməti dərgidə təqdim olunan poetik parçaların böyük əksəriyyətində rast gəlirik. "Molla Nəsrəddin" şairi M.Ə.Sabir də "Füyuzat" səhifələrində məhz həmin səpkidə çıxışlar etmişdir. "Ə.Sabir Tahirzadə" imzasıyla "Füyuzat"ın 5-ci sayında "Söz" şeiri ilə çıxış edən şair yazırdı:

Ey söz, nola dersəm sana xurşidi-səmavat,
Səndən alıyor nurü ziyayi həmə zərrat.

Bir nuri-həqiqətsən, edüb həq səni nazil
Kim, bəxş edəsin gülşəni-nasutə füyuzat.
(2, 72)

Göründüyü kimi şair şeirin əsas vəzifəsini həqdən gələn doğru kəlamların ifadəsində görürdü. "Füyuzat"da dərc olunan bütün bədii yazıları diqqətlə izləyən şair yaradıcılığında onlardan mümkün qədər bəhrələnməyə çalışmışdır. M.Ə.Sabirin məşhur "Fəxriyyə" şeirini əzbər bilməyən adam az tapılar. "Hophopnamə"də dərc olunan "Hərçənd əsirani qüyudatı zəmanız" misrası ilə başlanan həmin satiranın "Füyuzat"ın 24-cü sayında (1907) Əbdülxalıq Qafarzadənin imzasıyla çapa gedən "Fəxriyyə" şeirinin təsiri ilə yazıldığı şübhəsizdir. Şeirin satirik ruhu, eləcə də müsəddəs şəklində yazılışı bunu aydın şəkildə göstərir:

Hərçənd düçari-mihəni-əhli cəfayız,
Hərçənd bu əyyamdə pabəndi bəlayız
Ey xar görən bizləri, bizlər nücəbayız
Mehdani-həmiyyətdə-ələmdari-vəfayız
Turanlılarız, sahibi-şanü şərəfiz biz,
Əclafımızın naibi xeyrül-xələfiz biz.
(2, 374)

Belə müqayisələr digər şairlər arasında aparmaq mümkündür.

Jurnalda fəaliyyət göstərən yaradıcı ziyalılar təkcə Azərbaycan məkanı ilə kifayətlənmir, həm Şərq, həm də Qərb ədəbiyyatı ilə səsləşir, tərcümələr edir, nəzirələr yazırdılar. Belə əsərlərdə, əsasən, ictimai motivli nümunələr üstünlük təşkil edirdi. "Füyuzat" jurnalının daha bir mütərəqqi cəhəti ondadır ki, toplu yaradıcı ziyalılara fərq qoymur, müxtəlif dünyagörüşlü insanların bədii, eləcə də, publisistik məqalələrinə meydan verirdi. Dərc olunan yazılar qeyd etdiyimiz kimi, əsasən, dövrün, zamanın təhlilinə, vəziyyətin qiymətləndirilməsinə həsr olunurdu. Həmin yazılar müxtəlif səpkidə olsa da, poeziya üstünlük təşkil edirdi. "Füyuzat" səhifələrində işıq üzü görən şeirlərin əksəriyyətində həmin əsrin əvvəllərində baş verən sərt gerçəkliklərə kəskin etiraz özünü göstərməkdədir. Məhəmməd Əmin Rəsulzadənin jurnalın 30-cu sayında dərc olunan "Həsbi-hal" şeiri bu cəhətdən xarakterikdir. Şair dünyanın dərdini çiyinlərində daşıyan söz, sənət adamı, öz millətinin,xalqının gələcəyinə ürəkdən bağlı olan vətəndaş olaraq yazırdı:

Qaranlıqdır bana dünya,
Bütün dünyavü ma-fiha.
Deyirlər cümləsi guya:
Çəkil bir yanə sakitləş!

Şair gördüyü dəhşətləri həzm etməkdə çətinlik çəkir. Odur ki, zamana, dövrə münasibətini sual tərzində ifadə edərək düşünməyə, mübarizəyə əsaslar yaradır:

Təhəmmül, səbr mümkünmü?!
Həyata, səbr mümkünmü?!
Zəvali-qəhr mümkünmü?!
Çəkil bir yanə sakitləş!

Əslində "çəkil bir yanə sakitləş!" müraciəti ironik tərzdə deyilir. Dünya od tutub yandığı, insanlar Hadi demişkən bir-birinin qəsdində durduğu, vəhşiliklərin baş alıb getdiyi yerdə sakitləşmək mümkünmü? Əsla, yox! Ədib ona "sakitləş!" deyənlərə sonluqda cavab verməyi də unutmur:

Çəkildim ey hərifan bən!
Bu meydani-şücaətdən.

Əslində böyük insanlar, xalqın ağrıları ilə yaşayanlar şücaət meydanını tərk etmi, ön sıralarda addımlayırlar.

"Füyuzat" şairləri dövrün, zamanın acı həqiqətlərini bədii-publisistik yazılarında qələmə alır, münasibət bildirməkdən çəkinmirdilər. Bir çox hallarda şeir parçaları publisistik mətnlərin arasına salınır, fikrin, ifadənin daha da qüvvətlənməsinə xidmət etmiş olur. "Füyuzat"ın 3-cü sayında (1907) "Ə.H." imzasıyla "Şüknat" başlıqlı yazıda Əli bəy Hüseynzadə yazırdı: "Zəmanəmiz əcayib bir zamandır, hər kəs əndişə içindədir". Ədib insanların qırğın silahları hazırlığını dəhşətlə xatırlayır və deyirdi: "Bəşəriyyət əqlini top, tüfəng, barıt, dinamit, roborit kibi heyvanlıq asarı icad edəcəyinə, əqlini ziraət və sənaətin, iqtidasın tərəqqisinə həsr etsə idi, bu gün ac və biəlac qalmaz idi". Yazıdakı fikirlər şeirlə də belə ifadə olunur:

Əql ismini vermiş bəşər ol nurə dilində,
Heyvanlığa lakin gözəl alətdir əlində.
(2, 35)

Bütün bunlar belə deməyə əsas verir ki, "Füyuzat" jurnalı satirik dərgi olmasa da, tənqidi-satirik poeziyanın inkişafına mühüm xidmətlər göstərə bilmişdir.

Ədəbiyyat

1. Ağayev İ. XX əsrin əvvəllərində Azərbaycan şeiri. Bakı: Elm,2002
2. Füyuzat (1906-1907) Bakı: Çaşıoğlu, 2006
3. Hadi M. Seçilmiş əsərləri, 2 cilddə, c.I, Bakı: Elm, 1978
4. Qarayev Y. Tarix: Yaxından və uzaqdan. Bakı: Sabah, 1996
5. Sabir M.Ə. "Hophopnamə", Bakı: Yazıçı, 1992

Нур Чевик

Возможности использования сатирического стихотворения в «Фюизат»-е.

Резюме

В статье дан краткий анализ того периода и времени. Просматриваются вопросы о роли «Фуюизат»-а в общественно-художественном процессе, особенно, в развитии сатирической поэзии. В статье на основе конкретных поэтических образцах рассказывается о взаимного литературного влияния, рассматривается совпадения критическо-сатирического стихотворения с остро публицистическими статьями.

Nur Chevik

Usage possibilities of satiric poems in “Fuyuzat”

Summary

Brief analysis of the period was given, the role of “Fuyuzat” in the social-literary process, especially in the development of satiric poetry was considered in the article.

It deals with mutual literary influences on the basis of the concrete poetic pieces, discusses the unity of critical-satiric uerse with senere publisistic writings.

Rəyçi: Yədulla Ağazadə
filologiya üzrə fəlsəfə doktoru, dosent

VÜSALE GULİYEVA
TC Sakarya Üniversitesi
Sosyal Bilimler Enstitüsü İlahiyat fakültesi
vusale.guliyeva@hotmail.com

MUTAHHAR HILLI'NIN "TAHRIRU'L-AHKAMI'Ş-ŞER'IYYE ALA MEZHEBI'L-İMAMIYYE" ESERI KAPSAMINDA CAFERI FIKHINDA NIKAH HUKUKU

Açar sözlər: Cəfərilik, fiqh, ailə, nikah hüququ.
Keywords: Jafari, law, family, marriage low.
Ключевые слова: Джафаризм, фикх, Хилли, брак.

Aile, insanlık tarihinin en eski ve köklü kurumudur. İnsanların toplum halinde varlığını sürdürmesi her şeyden önce ailenin varlığına ve yapısını düzgün bir şekilde devam ettirmesine bağlıdır. Bu bakımdan başta dinler olmak üzere bütün hukuk sistemleri ailenin teşekkülü, varlığını sürdürmesi ve dağılması konularına büyük önem vermişlerdir. İslamî ilimler içinde Müslümanların bir yandan hukuk ihtiyacını temin eden diğer yandan gerek Allah'a karşı gerekse insanlararası ilişkileri dinî açıdan düzenleyen fıkıh ilmi de teşekkül döneminden itibaren aile kurumuna büyük önem vermiştir.

İnsan, tabiatı itibarıyla medenî yani sosyal bir varlıktır. Onun bu özelliği topluluk halinde yaşamasını da zorunlu kılmaktadır. Topluluk halinde yaşamak kaçınılmaz olarak bir düzen fikrini de beraberinde getirmektedir. İnsanların toplu olarak uyacakları bir takım sosyal düzen kurallarına sahip olmayan bir topluluktan söz etmek mümkün değildir. Topluma yön veren sosyal düzen kuralları din, ahlak, örf ve âdetler ve hukuk kuralları şeklinde sınıflandırılmaktadır. (4, s.23; 6, s.1; 11, s.1)

İslam fıkhı, kaynağı itibarıyla vahye dayanan, bununla birlikte müctehidlerin ictihadlarıyla oluşturulmuş bulunan bir hukuk sistemidir. Fıkıh, doğuşundan itibaren farklı görüş ve ictihadlara sahne olmuş, zaman içinde birer sosyal kurum haline gelen mezhepler Müslüman toplumların hukuk ihtiyacını da karşılar hale gelmişlerdir. Fıkıh ilminde mezheplerin ibadetlere ilişkin konuları ele almalarının yanında sosyal hayata ilişkin başta evlilik kurumu olmak üzere çok farklı alanları düzenledikleri bilinmektedir. Bu bağlamda fıkıh ilmi ve bu ilmî alanda faaliyet gösteren mezhepler âileye ilişkin konuları da bir düzene bağlama yolunda büyük gayretler göstermişlerdir.

Şiilik, özellikle onun mu'tedil kolu olan Câferîlik ehli Sünnet'ten sonra en çok taraftarı bulunan bir mezhep olup İslam dünyasında oldukça önemli bir yere sahiptir. Böylelikle İslam dünyasının en yaygın mezheblerinden biri olan Câferîlikteâile müessesesikonusu ehamiyyetli meselelerdendir.

Fıkıh literatürünün muâmelâta ilişkin konuları arasında aile kurumuna ilişkin konular son derece ayrıntılı bir yekün tutmaktadır. Bir yandan ailenin kurulması ve buna ilişkin şartlar diğer yandan ailenin dağılması ve buna ilişkin hukukî sonuçlar geniş bir perspektifle ele alınır. Câferî fıkıh literatürü içinde mezhebi temsil gücü yüksek temel eserler olarak bu konuyu ihtiva eden bir çok değerli eserler bulun-

maktadır. Câferî fıkhının temel hükümlerini, kaidelerini içeren tüm eserlerde aile, nikah akdi konuları daele alınmıştır.

X. yüzyılın sonlarıve XI. yüzyılın ilk başlarında Şeyh Müfid gibi tanınan Muhammed b. Muhammed b. Numan el-Bağdadinin Câferî fıkhının temel prensiblerini sistematik olarak ihtiva ettiği eseri orjinal şekilde değil, öğrencisi Ali b. Osman el-Keracekinin *Kenzul-fevaid* adlı eserinde muhtasar kitab biçiminde elimize ulaşmıştır. Şeyh Müfid tüm hükümlerin delillerini Kitab, Sünnet ve Ehli-beyt imamlarının görüşleri gibi üç kaynak ile sınırlandırmış, re'y ve kıyası kabul etmemiştir.Onun öğrencisi olan ve devrinin meşhur fıkıhçılarından sayılan eş-Şerif el-Murtaza Ali b. el-Huseyn el-Musevinin kaleme aldığı *ez-Zarie ila usuliş-şe'riye* eseri Câferî fıkhına aid temel prensıb ve kaideleri içerenkaynak eserlerdendir. Bu eserde eş-Şerif el-Murtaza bu eserinde sunni alimlerin de görüşlerine de değinmiş, kendi görüşlerini delillerle şerh etmiştir. Eserin önemli hususu usuliddin ve usulü-fıkh arasında çizgilerin belirlenmesidir.

Câferî mezhebinin meşhur alimlerinden olan Şeyhu-t Taife lakabıyla anılan Ebu Cafer et-Tusî'nin *el-Mebsut* ve *en-Nihaye*, Şehid-i Evvel Âmilî'nin *es-Serair*, Câferî Mezhebinin istinat ettiği hadis kitaplarından *Tehzîbu'l Ahkâm*, İbn Babaveyh el Kummî'nin *Men La Yahduruhu'l Fakih*, yine Tûsî'nin *el-İstibsar*, Hür el-Âmilî'nin *Vesâilü'ş-Şia* adlı eserleri nikâha ilişkin bölümleri ihtiva etmekle temel kaynaklar sırasındadır.

Allame mahlasıyla tanınan Cemâlüddîn el-Hasan b.Yusuf b. Alî İbnü'l-Mutahhar el-Hillî (ö.726/1326)(3, s.210-227) VIII/XIV. yüzyılın en büyük İmâmî âlim ve fakihidir. Öğrenimine babası Sedîdüddin Yûsuf'un yanında başlamış. Küleynî, İbn Babaveyh ve Ebu Cafer et-Tusî'ye ait *Kütüb-i Erba'a*'yı, İmam Malik'in *el-Muvatta'*ını, Ahmed b. Hanbel'in *el-Müsned*'ini, Buhâri'nin *el-Câmi'us-Sahih*'ini ve Ebû Davud'un *es-Sünen*'ini ondan okumuştur. Fıkıh usulünü Hillî sülalesinin diğer bir meşhur âlimi olan dayısı Muhakkik el-Hillî'den, aklî ilimleri de Nasîrüddîn et-Tusî'den öğrenen el-Hillî'nin hem akla ve hem de nassa dayalı İslamî ilimlerdeki bilgisi, İslami ilimlerin her alanında birçok eser kaleme almasına sebep oldu (12, s. 127). Hillî'nin ansiklopedik bilgisinin derinliğini, fıkıh sahasında yazmış olduğu *Muhtelefü'ş-Şia fi Ahkâmi'ş-Şerî'a* ve *Tezkiretü'l-Fukahâ* adlı eserleri ispatlar. Şiî fakihleri arasındaki görüş farklılıklarının nasıl giderileceğini araştıran Hillî aynı zamanda adı geçen ikinci eserinde İslam fıkıh ekollerini de araştırmıştır. İslamî ilimlerdeki bu derin bilgisi kendisine "Allâme" lakâbını kazandırmıştır (2, s. 210-227) (3, 210-227). Hillî, Şia fıkhına Sünnî fıkhından istifade ederek iki önemli yenilik getirmiştir. Bunlardan biri muâmelat bahsine getirdiği genişliktir; çünkü o, Şiî fıkhı kadar Sünnî fıkhını da çok iyi biliyordu. Diğer taraftan ondan önceki Şiî âlimler tarafından yazılmış olan fıkıh kitaplarının hiçbirisi, Sünni fıkıh metodolojisinden müstağnî kalamamıştı. Diğeri de kendinden önceki usûlîlerden bir adım daha ileriye götürmüş olduğu içtihat anlayışıdır.

Şiî geleneğinde o zamana kadar içtihat kavramına karşı olumsuz bir tavır ortaya konulurken Hillî re'y veya kıyas terimlerinden ziyade doğrudan ictihad üzerinde durmuştur. Bundan dolayı kendisinden sonraki Şiî fakihleri eserlerine onun ictihad tanımıyla başlarlar. Hillî, kıyası reddetmekle birlikte ictihadın aklî istinbat anlamında Şîa bünyesinde asırlardan beri uygulandığını göstermiştir.

Hillî'nin sünnet anlayışına gelince o, hadis tenkidinin fıkıhta çok önemli bir safha olduğuna işaret ederek, ahbârın hepsinin, sahih ve güvenilir olarak kabul edilmesinin mümkün olmadığını ileri sürmüştür. Şîa'nın usulî geleneği içinde Sünnî sistemden de faydalanarak yetişen Hillî bazı farklı görüşleriyle Şiî düşüncesine canlılık getirmiştir. Bütün bu yönleri sebebiyle Hillî, İmamiyye Şîa'sı içinde Usûlî ekolü zirveye çıkaran kişi olarak kabul edilir.Hillî İslami konuların hemen hepsinde çok sayıda eser kaleme almıştır. Şeyhüttaife Ebû Cafer et-Tûsî'nin ibadet ve dualara dair *Misbâhu'l-müctehid adlı eserini Minhâcü'ş-Salah fi Muhtasari'l-Misbah adıyla ihtisar eden Hillî'*nin usûlü'd-dinle ilgili olarak kitaba ilave ettiği bölüm on birinci babdır.

Caferî mezhebinin önemli fıkıh alımlerinden olan Hillî'nin füruya dair önemli eserlerinden biri*Tahrîru'l-ahkâmi'ş-şer'iyye 'alâ mezhebi'l-İmâmiyye* adlı eseridir. Hillî bu eserinde konuları ele alırken herhangi bir ayrım yapmaksızın konuya ilişkin farklı mezheplerin görüşlerinin tümüne temas etmeye çalışmıştır.

Müslüman toplumların âile hukuku araştırılırken elbetteki temel kaynakların vahye dayalı olan Kur'an ve Sünnet olduğu hususu reddi mümkün olmayan bir gerçektir. Bunlara ilave olarak her toplumun âile kurumuna ilişkin kendilerine özgü örf ve âdetleri de bulunmaktadır. Diğer yandan müctehidlerdin ictihadları ve aklî çıkarımları da bu hukukun teşekkülüne yön vermiştir.

Caferî fıkhında nikah aile kavramı ve bu kurumun oluşmasında genel vasıta olan nikah akdi ile alakalı muhtelif yanaşma ve görüşler vardır. İlk olarak onu kaydedelim ki "nikâh" kelimesinin sözlük anlamı konusunda farklı görüşler bulunmaktadır. Hillî'ye göre nikah sözcüğünün hakiki ve mecazi olmak üzere iki anlamı vardır. Hakiki anlamda nikâh, akit demektir. Mecazi anlamda ise cinsel ilişkiyi ifade eder (8, III, 413).

Nikah kavramı Kuran-ı Kerim'de her iki anlamda da kullanılmıştır. Örneğin Ahzap suresi 49. Ayette hakiki anlamda kullanılmıştır: *"Ey iman edenler! Mü'min kadınları nikâhlayıp, sonra onlara dokunmadan (cinsel ilişkide bulunmadan) kendilerini boşadığınızda, onlar üzerinde sizin sayacağınız bir iddet hakkınız yoktur. Bu durumda onlara mut'a verin ve kendilerini güzel bir şekilde bırakın". Bakara Suresi 230.ayette ise mecazı anlam kullanılmıştır: "Eğer erkek karısını (üçüncü defa) boşarsa, kadın, onun dışında bir başka kocayla nikahlanmadıkça ona helal olmaz. (Bu koca da) onu boşadığı takdirde onlar (kadın ile ilk kocası) Allah'ın koyduğu ölçüleri gözetebileceklerine inanıyorlarsa tekrar birbirlerine dönüp evlenmelerinde bir günah yoktur. İşte bunlar Allah'ın, anlayan bir toplum için açıkladığı ölçüleridir".*Kurani-Kerim,Ahzap suresi 49. Ayette nikâh sözcüğünün mecazî anlamda kabul edilmesi doğru değildir. Aksi halde nikâhsız ilişki (zina) söz konusu olur ki, bu mana elbette doğru olamaz. Bakara 230. Ayette Nikah kavramının hakikî anlamda alınması ise yine zina anlamını içerir. Bu sebeple söz konusu ayetteki nikâh sözcüğü mecazi anlam ifade etmektedir (8, III, 413).

Hillî evliliğin hükmü konusuna da temas ederek bu konuda mutlak bir hükmün söz konusu olmayıp insanların durumuna göre evliliğin hükmünün de değişeceğini belirtir.

İnsanların maddî durumlarının evliliğin hükmünü belirleme açısından doğrudan bir etkisi yoktur.Nikah zengin ve fakire müstehabtır. Fakirin geçim

korkusundan dolayı evliliği terk etmesi gerekmez. Câferî mezhebinde bu görüşün temellendirilmesi amacıyla çeşitli rivayetlere yer verilir.

Câferîlikte evlilik, bir süreye bağlı olup olmama bakımından da çeşitli kısımlara ayrılmıştır. Kimi müellifler bu açıdan evliliği ikiye ayırırken başkaları ise üçe ayırmaktadır.İki kısma ayıranlara göre evlilik daimi veya sürelidir (2). Üç kısma ayıranlara göre ise nikah şu kısımlardan ibarettir: a) Belli bir süre ile sınırlı olmayan daimi nikah (5, s.450). İzdivacın müddeti akitte belirlenmez talak ve ayrılığı gerektirecek sebepler olmadığı müddetçe ebedi olarak devam eder. b) Mut'a nikâhı:Sabit bir süre için akdedilmiş bir evliliktir, süre sonunda otomatik olarak çözülür c) Milk-i yemin: Bir kimseye sahibi olduğu cariyesi ile ilişkide buluna bilme hakkını veren mülkiyet ilişkisine milk-i yemin adı verilir.

Bir akit olarak nikâhın nasıl tanımlanacağı konusunda gerek sünnî gerekse Caferî ekollerinde farklı görüşler söz konusudur.Bazı alimlere göre bir fıkıh terimi olarak nikah kelimesiyle ifade edilen evlenme akdi, birbirileriyle evlenmelerine hukuken bir engel bulunmayan bir erkek ile bir kadının sürekli bir hayat ortaklığı kurmak üzere aralarını birleştiren ve bunun için karşılıklı hak ve görevler belirleyen bağdır (7, VII, 3; 9, III, 185). Diğerleri ise nikâhın bir akit olduğunu ve bunun sonucunda da oluşan birlikteliğin evlilik olduğunu söylemişler.

Caferî mezhebine mensup müellifler tarafından yazılan fıkıh ve hadis kitaplarında nikahın dinde nasıl teşvik edildiğine dair pek çok rivayete yer verilir. Aşağıda Şiî-Câferî ilim muhitinde genel kabul gören bu rivayetlerin bir kısmına yer almıştır:

Hz. Peygamber (s.a.v.) şöyle buyurmuştur: **"Kim ki evlenmiştir dininin yarısını elde etmiştir** (1, 14/5). Başka hadislerde de Hz. Peygamber (s. a) evliliği kurulan en güzel binaya benzetmiştir: "**İslam'da Allah-u Teâla'ya evlilikten daha sevimli bir bina kurulmamıştır (6, s.241).**Hz. Peygamber (s.a.v.) evliliğin uhrevî bir yararını da şu şekilde dile getirmiştir:**"Evlenin, şüphesiz yarın kıyamet günü ben ümmetime çok derim, o denli ki kızgın, içi öfke dolu (canlı gelip düşük çocuk) düşük çocuk cennet kapısının önüne gelir ve ona denilir: Cennete gir, o da "Ebeveynlerim benden önce cennete girene kadar ben girmeyeceğim"** (1, 14/6 bab1, hadis2).

Câferîlikte bekârlığın hoş karşılanmadığını, evliliğin bekârlığa göre üstün bir konumunun bulunduğuna dair rivayetlere de sıklıkla rastlanır.

Örneğin Muhammed Bâkır'danrivayet olunduğuna göre "Evli olanın kıldığı iki rekat namaz bekarın kıldığı yetmiş rekat namazdan daha faziletlidir " (1, 14/6, bab 2).

Bir başka rivayette ise doğrudan Hz. Peygamber (s.a.v.)'e atıfla şöyle bir hadis nakledilir: "Evli olanın kıldığı iki rekat namaz bekar erkeğin kılmış olduğu gece namazından ve tuttuğu gündüz orucundan daha faziletlidir."

Bir başka hadiste ise şöyle buyurmuştur: "Sizin en reziliniz bekar öleninizdir. Cehennem ehlinin çoğu bekarlardır. İslam'dan sonra bir Müslüman erkeğin ona baktığı zaman onu sevindiren, ona emrettiğinde ona itaat eden, ondan uzak olduğunda kendisini ve kocasının malını koruyan Müslüman zevceden daha faziletli bir faydadan yararlanmamıştır" (1, 14/23, bab 9).

Caferî fıkhında da –tıpkı sünnî fıkıh ekollerinde olduğu gibi- nikâh akdinin sahih olan ve olmayan şeklinde ikili taksimine temas edilmektedir. Evlilik,

geçerlilik bakımından sahih olan ve sahih olmayan evlilik şeklinde ikiye ayrılır: sahih olan ve sahih olmayan evlilik. Sahih evlilik evliliğin oluşması için gereken bütün şartları taşıyan nikâh türüdür. Akdin unsurları, sıhhat şartları, in'ikâd şartları tam olduğunda evlilik hayata geçer ve nikâh akdi hukukî sonuçlar doğurur. Sahih olmayan evlilik ise evlilik şartlarını, unsurlarını taşımayan nikâh akdidir.

Sonuç olarak bunu kaydedelim ki, aile, ciddiyetine çok önem verilecek, kutsiyetine saygı duyulacak öyle bir kurumdur ki, bu kurum yalnız iki farklı tarafın birlikteliği değil, aynı zamanda önemli bir vazifenin ifa edilmesi, toplumun temelini teşkil edecek organların sağlam bir temele dayandırılmasıdır. Kur'an'ın hukukî konulara ilişkin en çok ayrıntıya girdiği alan âile hukuku alanıdır ki, Câferî fıkıh ekolüne mensup olan temel eserlerde de âile hukuku, evlilik ve nikah akdi gibi önemli meseleler sistematik bir şekilde şerh olunmuştur.

Kaynakça

1. Amili Muhamed. b. El-Hasen el-Hür. Vesailu'ş Şia ila tahsili mesaili'ş şeriati. Tah. Hacı eş-Şeyh-Muhammed er Razi, Beyrut.
2. Ayetullahu'l Uzma Seyyid Ali Huseyni Sistani. İzahlı Şeriat Meseleleri, Kum şehri.
3. Bahrani Şeyh Yusuf b. Mesut (v.320/932). Lü'lüetü'l Bahreyn fı'l-İcazat va Teracimi'r-Rical li Kurratı'l-Ayn. Naşir: Muhammed Sadık. Necef, 1996.
4. Bilge N. Hukuk Başlangıcı, Turhan Kitabevi, Ankara 1994.
5. TusiEbu Cafer Muhammed b. Hasen b. Ali. En-Nihaye fi müceredd-i-l-fiqh ve'l fetava. Daru'l-Kitabi'l-Arabi, Beyrut, 1980.
6. Gözübüyük A. Ş. Hukuka Giriş ve Hukukun Temel Kavramları, Turhan Kitabevi, Ankara 1998.
7. El-Kummi Ebu Cafer es Saduk Muhammed b. Ali ibn huseyn b. Babaveyh, Men le yahduruhu'l-fakih, (thk. Seyyid Hasen el-Mevsuyi el-Xorasani), Beyrut, m.1981/h.1401.
8. İbnu'l Humam Kemaleddin Muhammed b. Abdulvahid b. Abdulhamid. Şerhi fethu'l-kadir ala'l-Hidayeti serhi bidayeti'l mubtedi, I-X, (thk. Seyh abdurrezak galip el-Mehdi) Beyrut, 2003.
9. İbnu'l Hilli, Cemâlüddîn el-Hasan b.Yusuf b. Alî İbnü'l-Mutahhar, Tahrîru'l-ahkâmi'ş-şer'iyye 'alâ mezhebi'l-İmâmiyye, (thk. Şeyh İbrahim el-Bahadiri), Kum.
10. Karaman H. Şiada fıkıh usulü ve şeri deliller. (Milletlerarası Tarihte ve Günümüzde Şiilik Sempozyumu tebliğleri ve müzakereleri), İstanbul,1993.
11. Oğuzman M. K. Medenî Hukuk Dersleri, Filiz Kitabevi, İstanbul 1994.
12. Uyar M. İmamiyye Şiası'nda Düşünce Ekolleri: Ahbârîlik, Ayişığıkitapları, İstanbul, 2000.

V. Quliyeva

Mutahhar Hillinin "Təhrirul-ehkami-ş-şəriyyə ala məzhəbil-İmamiyyə" əsəri əsasında Cəfəri məzhəbi fiqhində nikah hüququ

Xülasə

Şiəlik, xüsusilə onun mö'tədil qolu olan Cəfərilik Əhli Sünnədən sonra ən çox tərəfdarı olan bir təriqətdir. Cəfəriliyin fiqhi sistemində ailə və nikah əqdi çox əhəmiyyətli mövzulardan biridir. Cəfəri məzhəbinin fiqh (hüquq) alimlərindən olan Əllamə Mutahhar Hillinin "Tahrirul-ahkami'ş-şəriyyə-alə məzhəbil-İmamiyyə" əsərində ailə, evlilik və nikah hüququna dair müxtəlif məsələlər fərqli məzhəblərin görüşləri ilə müqayisəli şəkildə təhlil olunmuşdur.

V. Guliyeva

The marriage law in Jafari fiqh (jurisprudence) in the base of the work named "Tahriru'l-ahkami'ş-şer'iyye ala mezhebi'l-İmamiyyeh" by Mutahhar Hilli

Summary

Shiism, especially its ortodox branch named Jafari is a sect which has the most supporters after ahlul-Sunnite. Family and marriage questions are very significant subject in Jafari's jurisprudence system. Mutahhar Hilli one of the fiqh (lowyer) scolars of Jafari faith. The various questions about family and marriage notions are comparatively analyzed from the different views of faiths in the work named "Tahriru'l-ahkami'ş-şer'iyye ala mezhebi'l-İmamiyye" of Allama Mutahhar Hilli.

В. Кулиева

Вопросы брака в фикхе Джафаризма в контексте произведения Мутаххара Хилли «Тахриру'ль-ахками'ш-шер'ийе ала мезхеби'ль-Имамийе».

Резюме

Шиизм, в особенности, его умеренное ответвление Джафаризм, занимают особое место в исламском мире. В системе фикха Джафаризма вопросы семьи и брфиака одно из важнейших тем. В произведении Мутаххара Хилли «Тахриру'ль-ахками'ш-шер'ийе ала мезхеби'ль-Имамийе» анализируются различные вопросы по правам семьи и брака в сравнении с положениями других мазхабов.

Rəyçi: Nailə Suleymanova
ilahiyyat elmləri üzrə fəlsəfə doktoru, dosent

SAKİBƏ ƏLƏSGƏROVA
filologiya üzrə fəlsəfə doktoru,
Azərbaycan Dövlət Pedaqoji Universiteti,
UOT: 821 (479,24)

DEMOKRAT ŞAİRƏ HÖKUMƏ BİLLURİNİN VƏTƏN HƏSRƏTLİ, KƏDƏR MOTİVLİ MÜHACİRƏT YARADICILIĞI

Alınmazdır əsl sənət-şer qalası,
Gedərgidir hamı, hamı, sənət qalası.
H.Billuri

Açar sözlər: Vətən, inqilab, irtica, poeziya, arzu.
Keywords: Patriotism, revolution, reactionary, poetry, dream.
Ключевые слова: родина, революция, реакция, поэзия, мечта

Ümumazərbaycan demokratik poeziyasının inkişafında Cənubi Azərbaycanın ləyaqətli şairəsi Hökumə Billurinin böyük əməyi olmuşdur. Uşaqlıq və gənclik illərində İran tarixi, fars dili və ədəbiyyatını öyrənməyə məcbur olan Hökumə Hafiz, Sədi, Firdovsinin əsərlərinin təsirinə düşmüş, odur ki, ilk qələm təcrübələrini farsca yazmışdır. Zəncanda fəaliyyət göstərən "Azərin" qız məktəbinin şagirdi, sonrakı illər müəllimi olmuş şairənin yaradıcılıq həvəsi çox böyük idi. Cənubi Azərbaycandakı ağır mühit, xalqın zülm altında əzilməsi şairəni daima düşündürürdü. Böyük Vətən Müharibəsinin başlanması, Almaniyanın İran ərazisindən təhlükə törədəcəyindən ehtiyat edərək qoşunlarını Cənubi Azərbaycan torpaqlarında yerləşdirən Sovet hökuməti nümayəndələrinin gəlişi şairənin həyat və yaradıcılığında dəyişikliyə səbəb oldu. Birinci növbədə ana dilində əsərlər yazmağa başladı, sonralar ictimai fəaliyyətə qoşuldu və inqilabi demokratik hərəkatın fəallarından oldu. Cənubi Azərbaycan ədəbiyyatı antologiyasının III cildində oxuyuruq: "Billuri Cənubi Azərbaycanda inqilabi mübarizə dövründə ciddi ictimai-siyasi fəaliyyəti və bədii yaradıcılığı ilə zəhmətkeş kütlələrin azadlığı işinə yardım göstərmişdir." (1, səh.247). Kitablarını vərəqləyərkən hər səhifəsindən vətən həsrəti, xalqının köməksiz olması və zülm altında inləməsi kimi qayğılar, gözü yollarda qalmış şairənin kədəri və s. kimi qəmli notlarla üzləşirsən. 1949-cu ildə nəşr olunmuş "Mənim arzum" şeirlər toplusundakı birinci şeir "Mənim arzum" adlanır. Şairə həqiqət tərəfdarıdır. Onun xoşbəxtliyi xalqı ilə bağlıdır, onunla birgə gülür və kədərlənir. Ədalətin onun ölkəsinə nizam verməsini istəyir. Xainə, satqına düşmən olan şairə əyilməz vicdanı, sınmaz vüqarı ilə xalqını düşməndən intiqam almağa səsləyir.

Deyərlər nazikdir qəlbi şairin,
Fəqət hiss etməyir hər şair bunu.
İntiqam, intiqam, yenə intiqam!
Mən ondan almışam bu pak duyğunu,
Ona söyləyirəm ürəkdən salam.

Həqiqət axtarışında olan şairə həyatın haqqın təkərilə dolanacağına inanır. Tək öz xalqının deyil, dünya məzlumlarının da əsrlərin daş zindanlarından çıxacaqları o yaxın gələcəyi görürmüş kimi "Qoy dünya o günə etsin ehtiram"

deyir. İnqilabi demokratik hərəkatın genişlənməsi, müvəqqəti hökumətin qurulması, xalqın əksər nümayəndələrinin "demokrat" olması şairəni sevindirir. Ancaq bu xoşbəxtlik bir il sürür. İngilis və Amerika imperialistlərinin təhrikilə İran şovinizmi xalqa divan tutur. Milli demokratik hökumətin əzabla nail olduqları nə varsa, məhv edilir. Başlıcası ana dilində yazmaq və oxumaq yenidən qadağan olunur. Şairə bu qadağalara məhəl qoymur. Təbrizdə də, mühacirətdə də ana dilində yazır, vətən oğluna doğma dilində uğurlar arzulayır. 1946-cı ildə yazdığı "Ananın cəbhəyə məktubu" şeirində el yolunda, vətən yolunda döyüşən əsgərə anası adından nəsihət verir, dualar edir. Ana dilini öyrədib, hər il doğulduğu günü bayram edib, o da vətənini, elini düşmənlərdən qorumağa borcludur. Ona zəfər, açıq alın, qəhrəman ömrü, azad nəfəs alan bir vətən və düşmənə baş əyməyən əsgər qüruru arzulayır.

H.Billuri həyatı boyu öz üzərində işləmiş, siyasi mühacirətində belə oxumaq və təhsilini davam etdirməkdən əl çəkməmişdir. Yaradıcılığı ilə bağlı olan bir çox işlərdə çalışmış, əsərləri Zəncanda "Azər" qəzetində, Təbrizdə "Vətən yolunda" qəzetində, Bakıda "Azərbaycan" jurnalı və digər mətbu orqanlarda nəşr olunmuşdur. Kitabları uzun illər ərzində ardıcıl olaraq nəşr edilmişdir. "Mənim arzum" adlı ilk şeirlər toplusundan başlamış ən son kitabına qədər şairə oxucularını doğru yolda olduğuna inandıra bilmişdir. "Mənim arzum" (1949) adlı ilk şeir toplusunda kövrək, səmimi və həsrət dolu poetik lövhələr, vətən məhəbbəti, mübarizə pafosu onun pərəstişkarlarını sevindirmişdi, oxucuların qəlbində gənc şairənin gələcəyinə inam doğurmuşdu" (2, səh.123).

Şairə hələ uşaqlıq illərindən həyatın çətinlikləri ilə üzləşməli olub. Atası dəmirçi olduğundan ailəsi ilə bərabər çörək pulu ucbatından şəhərbəşəhər gəzmiş, qəribliyə dözməyərək doğma Zəncana qayıtmışdır. Xalqın ağır vəziyyəti, farsların qeyri millətləri əzməsi əvvəllər ona qərib görünsə də, sonralar bu münasibəti anlamış, düşüncələri düşmənə qarşı sərt, barışmaz mövqeyə çevrilmişdir. 1946-cı ildə Zəncanda olarkən yazdığı "Kargər" şeirində inqilabın qələbə sevincini yaşayan şairə muzdlu işçiyə azadlığın xəbərini verir. Məmurlar ömrü boyu ona əzab verib, az əmək haqqıyla səhərdən-axşama işlədib. Ancaq indi ayılmalıdır, zülmə təhəmmülü qalmayıb. Ruhunu sıxan qanlı pəncələr qoparılıb. Azadlıq həyat yoluna şam kimi işıq tutub. Biganəlikdən əl çəkib özünü, xaqlını zəncirdən, dərddən qurtarmalıdır.

Himmət elə, qurtar özünü rəncü-qüssədən
Olma öz ölkənə belə biganə kargər.

Bir çox Cənubi və Şimali Azərbaycan şair və yazıçıları kimi H.Billuri də Sovet Ordusunun Cənuba azadlıq gətirəcəyinə inanırdı. Odur ki, hələ 1941-ci ildə yazdığı "Sülhün keşiyində" şeirində ədalət və həqiqətin mürtəcelərə qalib gələcəyini, xalqı üçün yeni bir səhərin açılıb günəşin parlayacağını təsvir edir, zülm altında inləyən Azərin ruh alıb yenidən cana gəldiyini, xalqın xoşbəxt olduğunu göstərirdi. Şairə milli demokratik hökuməti qurmaq uğrunda gedən mübarizənin önündə olmuş, həm qələmi, həm ictimai fəaliyyəti ilə, həm də partizan kimi firqəyə dəstək olmuşdur. Fars şovinizmi tərəfindən xalqının əzilməsi, ingilis və amerikanlara qulluq göstərib, qonaqlıq verənlərin təbrizli balasına yavan çörək uzatmaması onu qəzəbləndirir. "Təbrizdə bayram" şeirində (3, səh.18) oxuyuruq:

Bax belə başlayır Təbrizdə bayram
Bir tərəfdə şadlıq , bir tərəfdə qəm,

Bir evi bəzəmiş neçə rəngli şam,
Bir evdə bayramdır, bir evdə matəm.

Valideynləri öldürülmüş, qarnı ac, küçələrdə sərgərdan gəzən uşağa çörək verən kimsə yoxdur. Ancaq imkanlı bir ailənin anası oğlunun başını oxşayır, əynində ingilis modalı paltar var, evinin salonunda Amerika qonaqları oturub. İki fərqli təsvir, iki fərqli dünya. Sevinc və kədər, imkan və kasıblıq, aclıq və toxluq şairənin qələmilə qarşılaşdırlır, döyüşür. Ancaq təntənə imkanlınındır. Taqətdən düşmüş bir ana zibil qutusuna yön alır. Başqa bir evdə üç ac körpə onu gözləyir. Ana zibil qutusundan ölü toyuq tapır, sevinclə evə qayıdır, qazan asır, yorğunluq onu əldən salıb, yuxlayır, ayılanda nə qazanı, nə də ölü toyuğu tapa bilmir. Şairə əsərlərini yazarkən real həyat hadisələrinə söykənir. Elə zamanın tələbi də belə idi. Vətəni darda olan bir xalqın şairinin başqa yolu da yox idi. "Könül" (3, s.24) şeirində şairə bir illik azadlığın xoşbəxtliyini yaşayır. Ürəyinə qəmdən uzaqlaşmağı tövsiyə edir. Dərd göz qarşısında idi, əziyyəti də ağır olurdu. İndi hər şey keçmişdə qalıb. Xoşbəxtliyin mənasını anlamaq, şən həyatı yaşamaq, intizar, ayrılıq və qəlb çırpıntısından kənarlaşmaq lazımdır.

Azadlıq adında o məna ki var
Bax, ona bağlıdır böyük arzular.

"kargər" şeirində əməkçi insanı haqqını müdafiə etməyə çağıran şairə "Könül" şeirində azadlığın çox qiymətli olduğunu həm özünə, həm xalqına təlqin etməyə çalışır. Demokratik hökumət ləğv ediləndən sonra da mübarizədən əl çəkməyən şairə "Sürgün" (4, səh.27) şeirində odlara qalanan vətəninin dərdlərini qələmə alır. Dağılan xanimanlara, dara çəkilən igidlərə baxdıqca intiqam hissi alovlanır. Vətəni sevənlər sürgünlərdə, zindanlarda əzab çəkir, acından, soyuqdan can verir. İranın ən yolkeçməz yerləri igidlərin sürgün yerinə çevrilib, körpələr imdad istəyir. Şairə çəkilən dağlara cavab olaraq səsini ucaldır: biganə qala bilməz, yurduna uzanan əl kəsilməlidir, bizi yaşadan Vətən eşqidir.

Qoymaram zərbələr dəysin elimə,
Gərək sahib olum ana dilimə.
Əlimlə uçurub qara zindanı
Gərək azad edim Azərbaycanı ! (1947)

Şairə açıq yazmasa da, müraciəti vətən oğlullarına, fədailərədir. Onlar ölkədə zülmdən nişan qoymamalıdır. Kədər, qəm, qüssə gömülməli, elin üzündən ələm çəkilməlidir. Şairə buna ümidlidir, gələcəyə inanır. Şimali Azərbaycanda mühacir həyatı yaşayan şairənin hər cür təminatı var. Ancaq Cənubi Azərbaycanın viranəyə çevrilməsini, vətənli günlərini hər zaman xatırlayır. 1948-ci ildə yazdığı "Xatırlaram o günləri" (4, səh.29) şeirini kədərli anlarla başlayır. Vətənin başına gələnləri xatırlayır, azadlığın tez əldən getməsinə təəssüflənir. Sonra qəlbində yeni ümidlər işarır, inqilabın şəfəqlərinin dalğalanacağı sabaha, o məchul günə inanır. Vətənini xoşbəxt görsə, ürəyindəki qübar əriyər, həyat yenidən təzələnər. Vətən gülsə, ayrılıq həsrəti bitər, şairin də üzü gülər.

Qəhrəman Təbrizim, sənə
Müjdə verim ilk bahardan.
Bax, ağaran üfüqlər də
Səadətdən verir nişan.

Təbriz həsrətiylə yaşayan şairə ona olan sevgisini misralara tökür, kədərli, ayrılıq dərdi ilə dolu poeziya nümunələri yaradır. Şairənin lirikasında qəhrəmanların ən xoş günləri belə qayğılıdır, vətən nisgili ilə doludur. Prof. Teymur Əhmədov yazır: "Tarixən iki hissəyə bölünən Azərbaycanı bütövlükdə görmək arzusu onun müqəddəs vətən sevgisini vətən həsrəti haləsinə bürümüşdür. Hökumə Billuri poeziyasında qayğılı həsrət motivlərinə vüsət verən onun boya-başa çatdığı Cənubi Azərbaycandan aralı düşməsidir" (2, səh.119).

Şairənin özü də, poeziyası da intiqama çağırır. Onun çox sayda şeirlərində intiqam həyəcanları var. "İntiqam" (4, səh.31) adlı şeirində isə bu hissləri əsaslandırmağa çalışır. Ana torpağı dəfələrlə qana batıb. Düşmən tərəfindən məhv edilən qəhrəmanların yerinə odlar ölkəsi Azərbaycan yeni igidlər bəsləyib, yadlara təslim olmayıb.

Bu torpaqda ölüb min igid aslan,
Burda can vermədi məgər Səttar xan?

***

Can verdi burada Xiyabanilər,
Zindanlar küncündə mərd Əranilər.

Cahandan gedən bu fədailəri tarix yaşadacaq. Vətənin oğlu, qızı pərişandır, torpağı, daşı qana boyanıb. Zindanların qapısı açılıb, haqq səsini ucaldan namusla can verir. Zülmün zənciri nakam gənclərin həyatını söndürür. Odur ki, şairə nifrətlə düşmənə səslənir; bu gün inləyən vətən övladı sabah azadlıq günəşinə baxacaq. Olmuşları xatırlayan şairənin ürəyi düşmənə nifrətlə doludur. Bilir ki, indi tufan eyləyən cəllad odlar yurdunu boğa bilməyəcək. Yenidən ayağa duracaq, silaha sarılacaq və zalımın əlini kəsəcək. Səttarxandan qalan şanlı bayraq da, şəhid qanı hopmuş qara torpaq da, başı əyilməyən uca dağlar da intiqama çağırır:

Hamı bir səsiylə deyir – intiqam!
Bu səsdən alıram şerimə ilham. (1947)

Ağır cinayətlərin səbəbkarlarından biri də demokratik inqilab dövründə İranın baş naziri olmuş Qəvaməssəltənədir. "Sənin nəyin var" (4, səh. 33) şeirində onu "alçaq xain, zülmkar Qəvam" adlandırır. Açıq gözü, həqiqət sözü olan bir xalqla müqayisədə Qəvamın heç nəyi yoxdur, vətən duyğusu nədir bilmir, arzuları yoxdur. Şairə bir xalqın nümayəndəsi kimi özüylə onu müqayisə edir. Ən ülvi duyğuları var: eşq kimi, ilqar kimi, gözəl vətəni var – onunsa heç nəyi. Şairənin parlaq iqbalı, cahü-cəlalı var, aslanlar yurdu olan şərəfli Təbrizi var, şanlı firqsəi var – onunsa heç nəyi. Heç nəyə dönmüş, qaniçən qəvamları birdəfəlik məhv etmək arzusu var H.Billurinin. Ölkəsini çırağa, azadixahları pərvanəyə bənzədən şairə göstərir ki, Qəvamdan gələcəyə törətdiyi cinayətlər qalacaq. Şərəfli xalqı, haqqı, hüququ olan bir fədai hara, gələcəyini qan içində boğmuş Qəvam hara?

Sən öz vətənini özgələrə sat.
Nə qədər bacarsan xalqını aldat.
Mənimdir gələcək adlı xoş həyat.
Şanlı bayrağım var, sənin nəyin var?
Öz əməl bağım var, sənin nəyin var? (1946)

Şeirdə keçmişin və gələcəyin təntənəsi var. Ümidsizlikdən əsər-əlamət yoxdur. Şairə düşmənə "meydan oxuyur". Özünün və xalqının gücünə, iradəsinə, edə biləcəklərinə inanır. "Boğar dalğasında səni inqilab" (4, səh.35) deyərək insanlığın

quduz düşmənino nifrət dolu səslə hayqırır. İnanır ki, odlar vətəni bir gün bu caninin yaxasından yapışıb hesab istəyəcək. Anaların ahına, sitəminə, şərəfinin tapdanmasına acımayan, qaranlıq gecəyə bənzəyən fitnəkar zalım şad günləri, gündüzləri boğdu, çünki ürəyi daşdandırır, fitnə, dəhşət törədən çirkin əməl sahibidir. Pislikdən çəkinməyən, utanmayan bu iblislər zamanla xalqın kininin və nifrətinin içində boğulacaq. Şairə tarixin şahidliyinə inanır. Həyat ölümə əbədi məhkum olmayıb, hər qaranlıq gecənin bir aydın sabahı var.

Ölməz tarix boyu sənətim, dilim,
Yanıb kül olsa da min dəftər, kitab,
Silaha əl atar yenidən elim.
Boğar dalğasında səni inqilab!.. (1947)

Şairə "İnanıram o parlaq günə" (4, səh.37) deyir. Ədalətin divanına güvənir. Ölkəni al qana boyayan, anamı balasından ayıran, xanimanları dağıdan, bağladığı müqavilələrə xəyanət edən azğınların sevincinin kədərə dönən zamanı olacaq. Nəinki Azərbaycan, İran mülkünü belə dollara satan əli qanlı cəlladlar tarix qarşısında cavab verəcəklər. Bu məqamda S.Cəfər Pişəvərinin aşağıdakı fikirləri yada düşür: "Tək Azərbaycan xalqını yox, bütün İran xalqlarını ayağa qaldırmaq lazım idi". Doğrudan da, xalq düşmənləri hamıya xəyanət etdi. Ona görə ki, onların yalnız şəxsi həyatı var. Onlar üçün xalq, el, torpaq, Vətən məvhumları yoxdur. Yalnız xalqın intiqamı ağır olur. Şairə o inqilablara, o qiyama inanır. Qəhrəman Azəri elinin azad gələcəyinə inanır.

Vətənin nicatı tez gələcəkdir!
O yenə çıxacaq bir gün ağ günə.
Mən ki inanıram o parlaq günə!... (1948)

"Gənc şairə üçün xalqının bu vəziyyətini görmək ağır idi. O, indi İran irticaçılarının Cənubi Azərbaycanda törətdiyi vəhşilikləri ürək yanğısı ilə təsvir edir" (4, səh. 4) Qəlbi yaralı şairə xoş günlərində belə vətəni, doğma Təbrizi, Zəncanı unutmur. Hisslərini qələmi, kağızı, əsərləri ilə bölüşür. Qərib ellərdə Zakirə, Vaqifə, Vidadiyə "Durnalar" şeirini yazdıran ilham pərisi Hökumə Billuriyə elə "vətəndən yaz" hökmünü verir. Vətənlə arasında dağlar, çaylar var. Şairə "Vətən" (4, səh.25) şeirində torpağının halını dağlar arxasından soruşur. Durna qatarına müraciət edir. Həsrətindən gündüzü gecəyə çevrilib. Anasından da xəbər ala bilmir. Vətənin halına acıyır. Şəhərləri qanlara batan vətəninin böyük amalı ölməyəcək. Torpağını bircə dəfə görcə, dizinə qüvvət gələr. Ona şeirlər, dastanlar yazdıran vətən eşqidir. Həsrətindən pərişan olsa da, vüsalına inanır.

Hüsnün aşiqiyəm, bilir hər diyar,
Sonsuz məhəbbətin olsun payidar.
Könlüm məndən sənə qalmış yadigar
Gəlmir özgə şeyə gümanım, vətən!

Şairə elə əzəldən vətən aşiqidir. Mühacirətdə olması bu hissləri bir qədər alovlandırır. Hələ 1946-cı ildə Zəncanda olarkən vətəninin şərəfinə yazdığı "Azərbaycan" şeirində onu dilbəri, cananı, işıqlı məkanı, cənnət yurdu, arxası, gümanı, pənahı, idealı adlandırır. Onun qala dağlarını, dərələrini, bağlarını tərənnüm edir. Vətəninə olan xoş arzularını dilə gətirir.

Qeyrətlidir oğlanların, qəhrəmandır qızların,
Bil qarşında düşmən bükər acizanə dizlərin.

Sənsən bizə əzəl gündən Səttar xandan yadigar,
Çalışaram mən uğrunda nə qədər ki, canım var.

Şah üsul-idarəsinə, onun məmurlarına nifrətlə dolu olan Hökumə Billuri "Mənim arzum" (1949), "Ölməz qəhrəman" (1950), "Həyat yollarında" (1951), "Mübarizə illərində (1954), "İstərəm" (1969), "Dünya belə dünyadır" (1989), "Səndən uzaqlarda" (1961), "Apar məni o yerlərə" (1981), "Bir də bahar gəlsə" (1984), Seçilmiş əsərləri (1986) və s. kitablarında dönə-dönə bu məsələlərə toxunmuş, təbindən asılı olaraq müxtəlif təpkili emosional münasibət bildirmişdir. Azərbaycan demokratik poeziyasının inkişafında böyük əməyi olan H.Billuri elmi əsərlər üzərində işləmiş, Cənubi Azərbaycan demokratik poeziyasının inkişafını da tədqiq etmişdir. Şəhriyar poeziyasını dərindən sevən şair-alim H.Billurinin onun haqqında yazdığı elmi monoqrafiya Cənubi Azərbaycan ədəbiyyatşünaslığına böyük töhfədir. Xalqımızın böyük yazıçısı Mirzə İbrahimov yazırdı: "...Hökumə Billuri İkinci Dünya müharibəsinin son illərində İranda və Cənubi Azərbaycanda başlamış demokratik hərəkatda fəal iştirak etmiş, azadlıq uğrunda mübarizəyə qalxmış xalq kütlələrinin ön cərgələrində gedən mübarizlərdən biri olmuşdur". (5, səh.3)

H.Billuri həm ədəbiyyatımızın, həm elmimizin inkişafında xidmətlərinə görə daima dövlətin diqqətində olan sənətkarlardandır. Cənubi Azərbaycan xalqının həyatını, yaşam tərzini, azadlıq uğrunda mübarizəsini, başına gələn tələtümləri, həyat gerçəklərini əsərlərində əks etdirən şairə Azərbaycan ədəbiyyatı tarixində layiqli yerini tutmuşdur.

Ədəbiyyat

1. Cənubi Azərbaycan ədəbiyyatı antologiyası. III cild. Bakı, 1988.
2. Teymur Əhmədov. Ədəbi qeydlər. Bakı 2005.
3. Hökumə Billuri. Ölməz qəhrəman. Bakı, 1950.
4. Hökumə Billuri. Mənim arzum. Bakı, 1949.
5. Hökumə Billuri. İran Azərbaycanı realist demokratik poeziyasının inkişafı. Bakı, 1972.

Sakiba Alasgarova

Democrat poetess Hokuma Billuri's migration creativity in motive of regret to homeland and sorrow

Summary

H. Billuri was a poetess who believed the future happiness of her nation. She believed that the people of South Azerbaijan will achieve their freedom. Fighter poet-scholar H. Billuri is one of the master's who has great role in developing of Azerbaijan democratic poetry. Her dream is Azerbaijan nation's dream who grow up Sattarkhan, Khiyabani, Pisheveri.

Сакибе Алескерова

Творчество демократической поэтессы Хокюмы Биллури в эмиграции
с тоской по родине, с мотивом печали

Резюме

Х.Биллури была поэтессой, верившей в счастливое будущее своего народа. Она верила, что народ Южного Азербайджана поверит в свою свободу. Х.Биллури – борец, поэтесса-учёный, художник слова, внёсший большой вклад в развитие азербайджанской демократической поэзии. Её мечта – это мечта народа Азери, вырастившего таких замечательных героев, как Саттархан, Хиябани и Пишевери.

Rəyçi: Alxan Bayramoğlu (Məmmədov)
filologiya elmləri doktoru, professor

SEVİL HƏSƏNOVA
BDU-nun doktorantı

H.CAVİD YARADICILIĞINDA TƏLİM-TƏRBİYƏ MƏSƏLƏLƏRİ

Açar sözlər: Romantika, tərbiyə, ideologiya, aktual, yaradıcılıq.
Ключевые слова: актуальность, воспитание, романтика, идеология, творчество, содержание.
Key words: creation, education, romance, ideology, creativity, content.

1930-40-cı illərdə Azərbaycanın ədəbiyyatının Hüseyn Cavid kimi böyük şairinin, mütəfəkkirinin yaradıcılığı sosialist realizminin ideoloji, metodoloji əyintilərinin qurbanı olaraq səhv təbliğ edildi. Dövrün tanınmış ədəbi tənqidçiləri, yazarları H.Zeynallı, M.Cəfər, M.K.Ələkbərli, Ə.Nazim, M.Quliyev, M.Arif, M.Hüseyn, S.Rüstəm və başqaları yerli-yersiz H.Cavidi nəinki tənqid, hətta təhqir etməkdən belə çəkinməmişlər. Amma nə yaxşı zaman, tarix həqiqətləri faş etdi.

"Bu gün tarix və elm həqiqət güzgüsündə yenidən görünməyə Cavid qədər ehtiyacı olan ikinci böyük ədəbi simamız bəlkə də yoxdur" söyləyən ədəbiyyatşünas alim Y.Qarayevin nə qədər haqlı olduğunu zaman üzə çıxardı və H.Cavid yaradıcılığına, şəxsiyyətinə layiq qiymət verilməyə başlandı. Çünki bu yaradıcılıq həm də böyük bir tərbiyə məktəbidir və bu məktəbin tədqiqinə, təbliğinə gənc nəsilin çox böyük ehtiyacı var.

Çox şaxəli və çox sahəli yaradıcılığa sahib olan Hüseyn Cavidin əsərləri həm də tərbiyəvi xarakter daşıyır, böyüməkdə olan gənclərin tərbiyəsi üçün zəngin material verir. Belə ki, Cavid xalq adət-ənənlərinə, milli əxlaqa dərin hörmətlə yanaşan, humanist hisslərlə zəngin olan bir sənətkardır. Bu cəhətləri ədibin bütün əsərlərində çox aydın şəkildə görmək olur. Nümunə kimi onun həcmcə yığcam, ilk qələm təcrübəsi kimi diqqəti çəkən əsərlərindən olan "Ana" mənzum pyesinin məzmununu xatırlamaq kifayətdir. Bu əsərdəki ana (Səlma) oxucunun mənəvi aləminə qüvvətli təsir göstərən surət (obraz) kimi heyrətamiz xarakterə malikdir.

Ana oğlunun qatilini böyük ürəkaçıqlığı, qonaqpərvərliklə qarşılayıb himayə edir, istəkli oğlunun qanlısı olduğunu bildikdə qəlbi intiqam hissi ilə coşub-daşır, tərəddüdlər, sarsıntılar, iztirablar keçirir. Bir tərəfdən xalq adət-ənənəsinə dərin və möhkəm etiqad, qonağa hörmət, bir yandan da övlad intiqamı hissi bu mərd qadının mənəvi əzab və faciəsinə səbəb olur. Ana-Səlma bu daxili mənəvi böhrandan milli adət-ənənəyə əsaslanan böyük insani bir hisslə çıxır. Beləliklə də alicənab bir qadın obrazı, mükəmməl bədii xarakter kimi oxucunun nəzərində yüksəlir.

Verilən parçadan aydın olur ki, ana-Səlma ciddi əxlaqi sifətlərə malikdir-humanisdir, adət-ənənəyə sadiqdir, bağışlamağı bacarır. Şairin zəngin yaradıcılıq nümunələrinin hər birini nəzərdən keçirdikdə, araşdırdıqda insanın mənəvi aləminə təsir edən, onu zənginləşdirən keyfiyyətlər-insanpərvərlik, həqiqətsevərlik, ədalət, xeyirxahlıq, yaxşılıq, sadəlik, təvazökarlıq, məhəbbət, səadət, cəsarət, qorxmazlıq kimi əxlaqi sifətlər oxucunun diqqətini çəkir. Bununla yanaşı, şair özünün sənətkarlıq ustalığı ilə oxucusunu mənfi sifətlərdən qorumağı da diqqət mərkəzində saxlayır. Cavid yaradıcılığında maraqlı cəhət ondan ibarətdir ki, o, nəyin yaxşı, nəyin pis olduğunu sənət dilində deyir. Bu işdə oxucuya bələdçilik edən ədibin yaratdığı obrazdır. Obrazın

əməllərinin, başqalarına münasibətinin, ayrı-ayrı adamlarla necə rəftar etməsinin təsiri onun necəliyinin meyarıdır. Bütün bunlar onu göstərir ki, H.Cavidin yaradıcılığı yüksək sənət nümunəsi kimi diqqəti cəlb edir və əsərləri sənət adamları tərəfindən şeiriyyət zirvəsi kimi qiymətləndirilir və sevilə-sevilə oxunur.

Hüseyn Cavid Azərbaycan ədəbiyyatında təkcə şair kimi yox, eyni zamanda görkəmli dramaturq, (həm də novator dramaturq) istedadlı publisist kimi də şöhrət tapmışdır. Belə ki, o, ədəbiyyatımızda mənzum dramın ilk nümunəsini yaratmış və demək olar ki, yeni bir ənənənin əsasını qoymuşdur. Bu ənənə S.Vurğun kimi sənətkarlar tərəfindən müvəffəqiyyətlə davam etdirilmiş və mənzum dramın klassik nümunələri yaranmışdır. Azərbaycan ədəbiyyatında H.Cavidin bu xidməti ədəbiyyatşünaslar tərəfindən xüsusi olaraq qiymətləndirilir. "XX əsr Azərbaycan ədəbiyyatı tarixi" əsərində "Hüseyn Cavid oçerki"ndə (oçerk görkəmli ədəbiyyatşünas professor Mir Cəlal və Firudin Hüseynov tərəfindən yazılıb) deyilir: "H.Cavid Azərbaycan ədəbiyyatı tarixində bir sıra dramaturq, faciə-nəvis kimi məşhurdur. Dram əsərlərinin əksəriyyətini şeirlə yazmış, öz şairlik istedadını, qələm qüdrətini də ən çox bu sahədə göstərmişdir. O, şeiri səhnəyə gətirən, səhnədə yüksək ahəngli şeir dilini dəb salan, bu cəhətdən klassik dünya dramaturgiyasının yaxşı ənənələrini bizim ədəbiyyatda əsaslandıran, beləliklə də öz xələflərinə güclü ədəbi təsir göstərən qüdrətli sənətkardır" (4.s.190).

Poeziyadan poetik dramaturgiyaya keçid Cavid yaradıcılığında qanunauyğun bir hadisə idi. Poema ilə yanaşı mənzum dram dünya romantizm ədəbiyyatı üçün səciyyəvi janrdır. Hüseyn Cavid Azərbaycan romantiklərindən biridir. Akademik M.C.Cəfərov Azərbaycan mütərəqqi romantiklərini səciyyələndirərək yazırdı: "...mütərəqqi romantiklər də sənətləri, zövqləri, fərdi üslubları, hətta bir çox hallarda fəlsəfi, siyasi görüşləri etibarilə bir-birinə bənzəməmişlər. Onlardan bəziləri (Abbas Səhhət) eyni zamanda realizmə qüvvətli meyl göstərmiş, romantik əsərlərlə bərabər tənqidi realizim ruhunda da əsərlər yaratmışdır. Bəziləri (Abdulla Şaiq) zaman keçdikcə romantizmdən tamamilə uzaqlaşıb realizm yolunu tutmuşlar. Mütərəqqi romantiklərdən iki sənətkar (Məhəmməd Hadi və Hüseyn Cavid) axıra qədər romantik olaraq qalmışlar" (3.s.90).

Göstərilənlərdən aydın olur ki, Hüseyn Cavid Azərbaycan romantikləri arasında öz üslubuna sadiq qalan mütərəqqi romantikdir. Tədqiqatçı alim Q.Məmmədli yazır ki: "...Cavid və Hadi, Şaiq və Səhhət bu prosesin məxsusi, spesifik bir təzahür tərzi və güzgüsü idilər" (6.s.72).

XX əsrin əvvəllərində həm romantik, həm də realist ədəbi məktəbin nümayəndəsi olan Abdulla Şaiq "Xatirələrim" adlı əsərində bu haqda fikirlərini belə şərh edirdi; "O zaman mətbuat və ictimai mühit islamlaşmaq, milliləşmək və müasirləşmək kimi yeni fikirlər ortaya atdı. Romantizm ədəbi məsləkini davam etdirən, bir çox mənzum tarixi faciələri ilə şöhrət qazanmış Əbdülhəq Hamid yaradıcılığı Hüseyn Cavidin diqqətini daha çox cəlb etmiş və Cavid bunu bəyənmişdir. Elə bu vaxtda "Cavid" təxəllüsü ilə yeni tərzdə bir necə şer də yazmışdır" (1.s.21).

Məlumdur ki, romantika söz sənətkarının həyat hadisələrinə yanaşma üsuludur. O, real həyatda olanlarla, ictimai quruluşla, adamların yaşayış tərzi ilə, bir-birinə göstərdikləri münasibətlə razılaşa bilmədikdə, görmək istədiklərini, arzularını ifadə edir. Bu baxımdan yanaşdıqda Hüseyn Cavidin romantikası həyatdan gəlir.

Azərbaycan ədəbiyyatı tarixində H.Cavidin əsərlərinin yarandığı dövr belə səciyyələndirilir:"Romantik ədəbiyyat, hətta romantik təffəkür üçün Azərbaycanda nisbətən əlverişli zəmin yaranmışdır. Müasir dövr, yəni ölkənin o zamankı vəziyyəti heç kəsi təmin etmirdi. Feodalizm quruluşu və ictimai ənənələri kökündən laxlatmışdı, ancaq hələ tamam yıxılmamışdır" (6.s.69).

Hər bir sənətkarın yaradıcılığı onun yaşadığı dövrlə sıx bağlı olduğu kimi, H.Cavidin yaradıcılıq üslubunu da yaşadığı dövrdən ayrı təsəvvür etmək çətindir. Hətta sonrakı dövrdə də bu üslubdan uzaqlaşa bilməmişdir. Buna görə də Cavid yaradıcılıq ruhu etibarilə romantik şair olaraq qalır. Onun romantikasının əsas motivini insanpərvərlik təşkil edir. O, həyat hadisələrinə həssaslıqla yanaşan sənətkardır. H.Cavid yaradıcılığında insanlığı fəlakətə sürükləyən qanlı müharibələrə dərin nifrət ifadə olunur. Şairin əsərlərindəki bu cəhət indi də öz aktuallığını saxlayır, böyüməkdə olan gəncliyin təlim-tərbiyəsi üçün mühüm əhəmiyyət kəsb edir. Bunu aydın dərk etmək üçün Ümummilli liderimiz cənab H.Əliyevin "Hüseyn Cavidin 120 illik yubileyi haqqında" 24 oktyabr 2002-ci il tarixli sərəncamına nəzər salmaq kifayətdir. Sərəncamda deyilir:

"Hüseyn Cavid klassik milli ədəbiyyatın ənənələri ilə yeni dövrün bədii və fəlsəfi axtarışları arasında vəhdət yaradaraq XX əsr Azərbaycan ədəbiyyatının inkişafında misilsiz rol oynamış qüdrətli sənətkarlardandır. Dünya romantik poeziyası ilə qırılmaz tellərlə bağlı olan Hüseyn Cavid yaradıcılığı öz bədii estetik qaynağını Azərbaycan mədəniyyətinin dərin tarixi qatlarından alır" (2).

Azərbaycan poeziyasında yeni zirvə fəht edən filosof-şair Hüseyn Cavid romantik bədii düşüncənin, fəlsəfi lirikanın orijinal nümumələrini yaratmışdır. Onun həyatının mənası ilə bağlı axtarışlarının ifadəsi olan yaradıcılığı bədii növ janr və forma cəhətdən də çox rəngarəng və zəngindir. Yüksək bədii sənətkarlığı, dərin emosionallığı ilə seçilən Hüseyn Cavid poeziyası milli ədəbiyyat tarixində yeni bir dövrün başlanğıcını qoymuşdur.

Bu haqda hələ 1918-ci ildə "Millət" qəzeti yazırdı ki: "Son zamanlar yeni şairlər vücuda gəlmişlərdir. Bunların əsərləri yeni bir ədəbiyyat dövrünün başlanmasını duydurur. Bunların ən müqtədiri "Bahar şəbnəmləri", "Maral", "Şeyx-Sənan" və qeyri əsərlərin müəllifi Hüseyn Caviddir" (7).

Poeziyada olduğu kimi, böyük dramaturqun özü ilə səhnəyə gətirdiyi ideya-bədii yenilik də daha böyük idi. "Ana", "Maral", "Şeyx Sənan" və "Uçurum" əsərləri ilə milli səhnədə tamamilə yeni üslubun-mənzum və romantik teatrın təməl daşları qoyuldu. M.F.Axundovdan sonra ilk dəfə idi ki, tamaşaçı "Təmsilat"a bənzəməyən, öz ideya, obraz aləmi və estetikası ilə misilsiz və bənzərsiz olan poetik və romantik bir aləmlə qarşılaşdı" (4.s.59).

Beləliklə, zamanın ümumbəşəri problemlərinin qaldırdığı dram əsərləri ilə Hüseyn Cavid romantizmin görkəmli nümayəndələrindən biri kimi Azərbaycan dramaturgiyası tarixində yeni bir mərhələ yaratmışdır. Azərbaycan ədəbiyyatında mənzum faciə və tarixi dramların ilk nümunələrini yaradan sənətkar ədəbiyyatımızı həm mövzu baxımından, həm də parlaq xarakterlərlə zənginləşdirərək milli bədii fikir tariximizdə mühüm yer tutmuşdur. Özünün üslub, yazı tərzi və forma yeniliyi baxımından seçilən bu xarakterlər dramaturgiyası teatr mədəniyyətimizin inkişafına güclü təsir göstərmiş, milli teatr tarixində "Cavid teatrı" kimi səciyyələndirilmişdir.

Yeri gəlmişkən, qeyd etmək lazım gəlir ki, Hüseyn Cavid yaradıcılığı geniş şəkildə tədqiq olunan, təhlil edilən söz sənətkarlarındandır. Onun fikir dünyası filoloji cəhətdən, fəlsəfi baxımdan tədqiq olunub və bir sənətkar kimi bundan sonra da araşdırılacaq. Maraqlı cəhət budur ki, müxtəlif dövrlərdə yazıb-yaradan görkəmli mütəxəsislər: Mustafa Quliyev (vaxtilə Maarif naziri olub) Hənəfi Zeynallı, Abdulla Şaiq, Mehdi Hüseyn, Mir Cəlal, Məmmədcəfər Cəfərov, Əli Sultanlı, Əjdər İsmayılov, Məmməd Rahim, Mirzə İbrahimov, Əziz Şərif, Rəsul Rza, Adil İsgəndərov, Mehdi Məmmədov, Qulam Məmmədli, Rza Təhmasib, Məsud Əlioğlu, Rəfiq Zəka Xəndan, Abbas Zamanov, Nazim Axundov, Əbülfəz İbadoğlu, Teymurçin Əfəndiyev, Rafael Hüseynov və başqaları kimi çoxsaylı ixtisas sahibləri tərəfindən Hüseyn Cavid yaradıcılığı çox əhatəli şəkildə tədqiq edilmişdir. Cavid yaradıcılığını filoloji, teatrşünas, fəlsəfi baxımdan təhlil edib, ona münasibət bildirənlər göstərilənlərlə məhdudlaşmır, lakin tədqiqi qarşıya məqsəd qoyulan mövzu ilə bilavasitə bağlı olmadığı nəzərə alınaraq təfərrürata getməyə ehtiyac duyulmur. Ümumiləşmiş şəkildə onu deməklə kifayətlənmək olar ki, Hüseyn Cavid yaradıcılığı keçən əsrin 20-ci illərindən başlayaraq günümüzə qədər müxtəlif cəhətdən təhlil olunub. Həm də kommunist ideologiyasının Cavid yaradıcılığına saldığı kölgə hər hansı tədqiqatçının bu görkəmli sənətkarın yaradıcılığı və eləcə də şəxsiyyəti haqqında fikir söyləməkdə daha həssas olmağa vadar etmişdir. Bu baxımdan yanaşdıqda akademik M.Cəfərin "Hüseyn Cavid" monoqrafiyası, C.Cəfərovun "Cavid teatrı", Ə.İsmayılovun "Dünya romantizminin ənənələri və Hüseyn Cavid" və s. kimi tədqiqatlar diqqəti xüsusilə çəkir.

Hüseyn Cavid yaradıcılığı üzrə aparılan bütün tədqiqatlarda şairin bu və digər əsəri bütün ziddiyyətləri ilə təhlil süzgəcindən keçirilib. Aparılan tədqiqatlardan alınan nəticə ondan ibarətdir ki, Hüseyn Cavid yaradıcılığı ilə Azərbaycan ədəbiyyatına müəyyən yenilik gətirən, digər yazarlardan əsaslı şəkildə fərqlənən, yeni ədəbi ənənə yaradan görkəmli sənətkardır.

Cavidşünaslığa baxışdan, daha doğrusu, araşdırmadan aydın olur ki, Cavid yaradıcılığı 90 ildən artıq tədqiqat obyekti olmasına baxmayaraq, ondan məktəb ədəbiyyat kursunda təlim-tərbiyə işində istifadə istiqamətində sanballı tədqiqat aparılmamışdır. Bütövlükdə ədəbiyyatın çox təsirli təlim-tərbiyə vasitəsi olduğunu nəzərə alsaq, H.Cavid yaradıcılığı bu cəhətdən daha zəngin material verir. Nəzərdən keçirilən və yuxarıda adları qeyd olunan tədqiqatlardan alınan nəticə də budur.

Ölkəmizdə böyüməkdə olan gənclərin milli ruhda, milli zəmində tərbiyə olunması əsas vəzifələrdən biri kimi qarşıya qoyulduğu indiki şəraitdə Hüseyn Cavid yaradıcılığının təlim-tərbiyəvi əhəmiyyətini, gənclərdə milli şüurun inkişafına onun təsirini də tədqiq edib öyrənmək qarşıya əsas məqsəd qoyulur.

Hər şeydən əvvəl, Hüseyn Cavid yaradıcılığının orta ümumtəhsil məktəblərində öyrədilməsinə münasibət bildirmək lazım gəlir. XX əsrdə Azərbaycanda 500-dən çox söz sənətkarlarının fəaliyyət göstərdiyi aydındır. Bunların hər birinin yaradıcılığında müəyyən bir maraqlı cəhətin olması şübhəsizdir, lakin sual olunur: bunların hamısını orta məktəb proqramına daxil edib, onlardan təlim materialı kimi istifadə etmək mümkündürmü? Əlbəttə, orta məktəb şagirdlərinin yaş səviyyəsi, psixoloji xüsusiyyəti, qavrama dərəcələri buna imkan vermir. Bu işdə söz sənətkarlarının yaradıcılıq xüsusiyyətləri, ədəbiyyat tarixində onun mövqeyi nəzərə alınmalıdır. Yazıçının öz əsərlərində qaldırdığı problemlər, onların bədii həlli, böyüməkdə olan

gəncliyin təlim-tərbiyəsində yazıçı ideyasının əhəmiyyəti əsas amildir. Bu məsələlərin H.Cavid yaradıcılığında əksi onun orta ümumtəhsil məktəblərində öyrədilməsi zərurətini meydana qoyur.

H.Cavid Azərbaycanın bədii-ictimai fikir tarixində özünəməxsus yer tutan, əsərlərində insanları humanistliyə, gözəlliyə, həqiqətsevərliyə, xeyirxahlığa, əmin-amanlığa, əməksevərliyə çağıran bir sənətkardır. Bu gün gənclərimizi bu ruhda böyütmək üçün hamılıqla mübarizə aparmalıyıq. Onun yaradıcılığında bu motivlər üstünlük təşkil edir. Əslində bu təkcə H.Cavidin deyil, XX əsrin əvvəllərində romantik ədəbi məktəbin nümayəndələrinin əksəriyyətinin yaradıclığında aparıcı yer tuturdu. H.Cavid yaradıcılıq ruhu etibarilə romantik şairdir və Azərbaycan romantizminin inkişafında özünəməxsus mərhələ təşkil edən filosofdur, zəngin yaradıcılıq irsinə malik olan bir sənətkardır. Onun yaradıcılığı sadəcə şeir yazmaqla məhdudlaşmır. Azərbaycan teatrının inkişaf tarixi H.Cavid yaradıclığı ilə sıx şəkildə bağlıdır ki, burada da tərbiyəvi mövzular üstünlük təşkil edir. Ona görə də o, yaxşı müəllim rəmzi idi. Məktəb üçün ilk dərs vəsaiti hazırlayan şəxsiyyətlərdəndir. Bu görkəmli sənətkar haqqında çox yazılıb, təxminən bir əsrə yaxındır ki, onun haqqında yazılır. Şairin yaradıcılığı bir neçə cəhətdən-şair kimi, dramaturq kimi, filosof-sənətkar kimi tədqiq olunub, qiymətləndirilib. Bu da bir həqiqətdir ki, göstərilən sahələr üzrə fikir söyləyənlərin hamısının tədqiqat obyekti şairin bədii yaradıcılığı olmuşdur. Hüseyn Cavid hər şeydən əvvəl qüdrətli söz sənətkarıdır, yaradıcılığının mayası şeyriyyatdır. Ona görə də onun haqqında deyilənlərin mərkəzində onun bədii sözdən istifadə bacarığı durur.

H.Cavid haqqında o qədər tədqiqat aparılıb, irili-xırdalı o qədər məqalə, kitab yazılıb ki, onları təhlil edib münasibət bildirmək imkan xaricindədir. H.Cavid yaradıcılığı geniş, hərtərəfli olduğundan onun yaradıcılığına həsr olunmuş tədqiqatlar da müxtəlif istiqamətləri-fəlsəfəni, teatrşünaslığı, pedaqoqikanı əhatə edir. Azərbaycanın görkəmli ədəbiyyatşünasları, yazıçılarından Ə.Cəfər, M.Cəfər, M.Əlizadə, K.Əliyev, İ.Əhmədoğlu, T.Əfəndiyev, Q.Xəlilov, M.İbrahimov, Ə.İsmayılov, M.Məmmədov, Q.Məmmədli, B.Vahabzadə, İ.Bəktaşi, M.Arif, M.Əlioğlu və b. Cavid haqqında seriya məqalələr, kitablar yazmışlar. Bu tədqiqatlar son dövrlərin tədqiqatlarıdır, lakin Hüseyn Cavid bir sənətkar kimi keçən əsrin 20-ci illərindən ədəbi tənqidin, fəlsəfi fikrin, teatrşünaslığın tədqiqat obyekti olmuşdur. Əlbəttə, göstərilən elm sahəsində H.Cavidin fəaliyyəti o dərəcədə zəngindir ki, hər bir sahə üzrə yazılmış yazılar xüsusi tədqiqat, xüsusi münasibət, xüsusi profesionallıq tələb edir. Bu isə bir tədqiqatçının imkanı xaricindədir. Gərgin axtarışlar nəticəsində meydana çıxan yazıların hər biri Cavidşünaslığın inkişafında müəyyən dərəcədə rol oynayır, Cavidin yaradıclığının başa düşülməsinə kömək edir, lakin bu tədqiqatın məqsədi şairin yaradıcılığının orta ümumtəhsil məktəblərində tədrisinin zəruriliyini əsaslandırmaq olduğundan onun fəaliyyətinin bir söz sənətkarı (şair və dramaturq) kimi tədqiqi ön plana çəkilir, bu sahədə görkəmli, tanınmış mütəxəssislərin Cavid haqqında fikirlərinə münasibət bildirilir.

Bütün bunlarla yanaşı, qeyd etmək lazımdır ki, H.Cavidin təlim-tərbiyə məsələsinə həsr etdiyi əsərləri haqqında o qədər də geniş məlumat verilməyib. Doğrudur, həmin əsərlər tədqiqata cəlb edilib, lakin tamamilə başqa istiqamətdə.

Ümumiyyətlə, H.Cavid haqqında ilk yazanlardan biri Mustafa Quliyevdir. O, 1926-cı ildən başlayaraq Cavidin yaradıcılığını diqqətlə izləmiş, şairin ayrı-ayrı

əsərlərinin təhlilinə xüsusi məqalələr həsr etmiş, incəsənət və ədəbiyyata aid yazdığı bir sıra başqa məqalələrində şairin hər bir yeni əsərinə öz münasibətini bildirməyə çalışmışdır. Hüseyn Cavid haqqında yazanlar dövrün tələbini əsas götürərək onun yaradıclığında ziddiyyət axtarmışlar.

Tənqidçinin bu məzmunlu yazıları o zaman H.Cavid yaradıcılığına daha çox qənim kəsilmiş, "Hücum", "İnqilab", "Zəhmət", "İnqilab və mədəniyyət", "Maarif və mədəniyyət", "Kommunist" mətbu orqanlarında çap olunub. Tənqidçi Mustafa Quliyev "Maarif və mədəniyyət" jurnalında çap olunan məqalələrinin birində şairin "Topal Teymur" əsərini tənqid edərək "ideyasız, məzmunsuz, boş bir əsər " adlandırır.

Onu da qeyd edək ki, M.Quliyevlə şairin arasında bu ideoloji mübarizə bir neçə il çəkmişdir. Dəfələrlə Cavidin əsərlərini tənqid edən M.Quliyevə Cavid bir dəfə məktub yazaraq bildirir ki: "Bəncə, ədəbiyyat başqa, siyasət və təbliğat daha başqadır". (H.Cavidin bu məktubu haqqında 1927-ci ildə "Maarif işçisi" jurnalının 4-cü sayında dövrün tanınmış jurnalisti Xəlil İbrahim geniş məlumat vermişdir).

Tənqidçi M.Quliyev yazılarında H.Cavidə qarşı nə qədər birtərəfli tənqidi mövqe tutsa da, onun sənətkarlığını, böyük sənətkar olduğunu etiraf etməyə, yüksək qiymətləndirməyə məcbur olur və bildirirdi ki, Cavid kimi orijinal bir sənətkarı zorakılıqla ədəbi həyatdan uzaqlaşdırmaq, əsassız olaraq onu düşmən cəbhəsinə atmaq, eyni zamanda başqa məqsədlə şairin nüfuzundan sui-istifadə etmək yanlışdır. Müəllifin bu sözlərində Cavidə qarşı bir qayğının ifadə olunduğunu da duymamaq olmaz. Və yaxud 1932-ci ildə "Hücum" jurnalının 2-ci sayında çap olunan "Oktyabr və türk ədəbiyyatı" adlı məqaləsində yazırdı ki: "Hüseyn Cavid olduqca böyük bir sənətkar və söz ustasıdır. "İblis"in müəllifi, şeirin musiqisi və gözəlliyi etibarilə Puşkinin şeirlərini xatırladır. İblisin monoloqları, öz şiddətli həyacan və qüvvəsilə hər bir oxucunu özünə bağlayır".

H.Cavid yaradıcılığı haqqında Azərbaycan ədəbiyyatşünaslığının ən mötəbər nümayəndələri fikir söyləmişlər. Belə şəxsiyyətlərdən biri də görkəmli nasir, dramaturq və qüvvətli tənqidi təfəkkür sahibi olan Mehdi Hüseyndir. 1930-cu illərdə Cavidin romantizmi məsələsi üzərində düşünən M.Hüseyn yazırdı: "Cavidin romantizmi çox zaman canlı həyatdan uzaqlaşmağa meyl göstərən sənətkarın romantizmi olmuşdur, lakin bu heç də Cavidin fantaziya aləminə qapılmış olduğunu iddia etmək deyil".

M.Hüseyn kimi bir sənətkarın Cavid haqqında söylədiyi bu fikirdə də ikili münasibət olduğu aydın hiss olunur. M.Hüseynin Azərbaycan ədəbiyyatşünaslığının tənqid sahəsində prinsipal mövqeyə malik olduğu ədəbiyyata bələd olanlara məlumdur. Göründüyü kimi, Mehdi Hüseynin sitat kimi verilən fikrində də müəyyən ziddiyyət nəzərə çarpır; bir tərəfdən Cavidin canlı həyatdan uzaqlaşmağa meyl etdiyi deyilir, digər tərəfdən, onun fantaziya aləminə qapılması fikri ifadə olunur.

Cavidşünasların diqqətini bu məsələyə də yönəldərək bu mühüm problemin həll edilməsinə dəstək olmalarını arzu edərdik. Çünki bu gün gənc nəslin mənəvi-əxlaqi zövqünün formalaşmasında, soy-kökünə qayıdışında, milli-mənəvi dəyərlərin yaşanmasında, təlim-tərbiyə prosesinin gücləndirilməsində Cavid ədəbi-bədii irsinin mühüm rol oynadığı göz qarşısındadır. Əsərlərində insanları bəşəri ideyalara, sülhə, insanlığa, xeyirxahlığa, paklığa, vətənpərvərliyə, ədalətə, mübarizliyə səsləyən müəllifin zəngin ədəbi-bədii irsi hər zaman aktualdır.

Ədəbiyyat

1. Abdulla Şaiq. "Xatirələrim". Bakı. Yazıçı, 1964
2. "Azərbaycan" qəzeti, 24 oktyabr 2002
3. Cəfərov. M.C. Hüseyn Cavid. Bakı. Elm, 1960
4. Hüseynov Firudin. Mir Cəlal. "XX əsr Azərbaycan ədəbiyyatı tarixi". Bakı. Elm, 1965
5. Qarayev Yaşar. Əsrin romantikası. Bakı. Yazıçı, 1975
6. Məmmədli Qulam. Cavid ömrü boyu. Bakı, Gənclik, 1964
7. "Millət" qəzeti, 28 oktyabr 1918

С.Гасанова

Вопросы воспитание в творчестве Гусейн Джавида
Резюме

Учебно образовательные вопросы в творчестве Гусейна Джавида. Наследие Гусейна Джавида которое обладает многогранным творчеством и в нынешний день не теряет своей актуальности. Оно представляет большую важность в учебе и образовании подрастающего поколения. Потому что творчество Гусейна Джавида взяло свою художественно эстетическую основу из глубоких исторических слоев Азербайджанской культуры.

S.Hasanova

Questions of education in Hussein Javid
Summary

Instructive and educational issues in the works of Huseyn Javid The legacy of H Javid which have the multi-faceted creations remains urgent today. It is important for the training and education of the growing youth. Because creations of Huseyn Javid took their artistic and aesthetic sources from the deep layers of Azerbaijani culture.

Rəyçi: Şamil Vəliyev
filologiya elmləri doktoru, professor

QƏRƏNFİL QULİYEVA
BDU-nun doktorantı

MƏTNŞÜNAS ALİM

Açar sözlər: Publisist, arxiv, tarixçi, tədqiqatçı.
Ключевые слова: публисист, исследователь, архив, литературный критик, историк.
Key words: writer, researcher, library, literary critic**,** historian.

20-ci yüzilliyin əvvəllərindən sonuna kimi Azərbaycan ədəbiyyatının, mətbuatının tədqiqi ilə məşğul olan publisist, teatrşünas, salnaməçi, mətbuatşünas alim Qulam Məmmədlini tədqiqatçı alimlər çox haqqlı olaraq "canlı ensiklopediya" adlandırırdılar. 1913-cü ildən İ.İ.Aleksandrov mətbəəsində mürəttib kimi işə başlayan Qulam Məmmədli ömrünün sonuna, 1994-cü ilin son aylarına qədər ömrünü Azərbaycan mətbuatının, mədəniyyətinin inkişafına, tədqiqinə həsr etdi. Respublikanın mədəniyyət və mətbuat orqanlarında məsul vəzifələrdə işləyən Q.Məmmədli 1950-55-ci illərdən əsasən Azərbaycan ədəbiyyatının və mətbuatının tədqiqatı ilə məşğul olmağa başlayır. Axtarışlarını yalnız respublikada deyil, Moskva, Tbilis, Yerevan, Kiyev, Kazan, Aşqabad və Həştərxan arxivlərində, muzeylərində, kitabxanalarında davam etdirir. Burada rus, ərəb, fars, türk, tatar dillərində olan mətbuat orqanlarındakı materialları oxuyur, arxivlərdəki sənədlərlə tanış olur və nəticədə son dərəcədə zəngin material toplayıb, onları tədqiqata və təhlilə cəlb edir.

Görkəmli ədəbiyyatşünas alim Əziz Mirəhmədovun təbrincə desək "...bizdə yeni elmi-bioqrafik janr olan salnamənin ilk nümunələrini Qulam Məmmədli yaradır" (2.s.4). Beləliklə, ədəbi fəaliyyətə toplayıcı və tərtibçi kimi başlayan tədqiqatçı alimin M.Cəlil, H.Cavid, N.Nərimanov, C.Zeynalov, Ü.Hacıbəyli, Cənubi Azərbaycanın Sabiri adlandırılan M.Ə.Möcüzün və onlarla digər qələm sahiblərinin həyat və yaradıcılığına həsr etdiyi əsərləri təkcə ədəbiyyat və mətbuat sahəsində deyil, həm də Azərbaycanın ictimai-siyasi, ədəbi-mədəni mühitinin mənzərəsini "canlandırmaq" üçün əvəzsiz mənbələrdəndir. Tədqiqatçı 1966-cı ildən başlayaraq bir-birinin ardınca Molla Nəsrəddin (salnamə) 1966, Hüseyn Ərəblinski (salnamə) 1967, Cahangir Zeynalov (salnamə) 1968, Azərbaycan teatrının salnaməsi (I hissəsi) 1974, Üzeyir Hacıbəyov (albom kitab) 1975, İmzalar 1977, Cavid ömrü boyu 1982, Azərbaycan teatrının salnaməsi (II hissə) 1983, Üzeyir Hacıbəyov (salnamə) 1983, Molla Nəsrəddin (salnamə) II çapı 1984, Üzeyir Hacıbəyov (albom kitab) 1985, Abbas Mirzə Şərifzadə 1985, Nəriman Nərimanov (salnamə) 1987, Sizə kim lazımdır? 1990 kimi sanballı əsərlərini yazaraq çap etdirir.

Onlarla elmi-bədii kitabların, salnamələrin, yüzlərlə publisistik, elmi, siyasi, bədii məqalələrin, felyetonların, xatirələrin müəllifi olan Qulam müəllimin yaradıcılığında mollanəsrəddinşünaslıq əsas yer tutur desək məncə yanılmarıq. Bu bəlkə də tədqiqatçı alimin dahi Mirzə Cəlillə tez-tez ünsiyyətdə olmasından, ondan xeyli qayğıkeşlik və kömək görməsindən, ən əsası isə Mirzənin yaradıcılığına, şəxsiyyətinə olan hörmətindən, izzətindən irəli gəlirdi. Bu haqda Qulam müəllim deyirdi: "Mənim xoşbəxtliyimin, mətbuata gəlməyimin əsas səbəbi Mirzə Cəlil Məmmədqu-

luzadə olub. 1923-cü ilin 5 iyununda böyük ədibin məsləhətləri mənim bütün gələcək yaradıcılıq yolumu müəyyənləşdirdi" (5).

Qulam müəllim bu mövzuda onlarla məqalələr, xatirələr, oçerklər yazsa da geniş şəkildə ilk dəfə 1966-cı ildə "Molla Nəsrəddin" adlı salnaməsini, M.Cəlilin 100, jurnalın isə 60 illiy yubileyinə hədiyyə olaraq oxucularına təqdim edib.

On yeddi il sonra tədqiqatçı alim bu əsəri daha da təkmilləşdirilmiş halda yenidən nəşr etdirib. Çünki bu illər ərzində tədqiqatçı alim M.Cəlil və ümumən mollanəsrəddinçilər haqqında tədqiqatını davam etdirmiş, çoxlu sayda tarixi sənədlər, arxiv materialları əldə etmişdir. "Bunlar istər C.Məmmədquluzadənin həyat və fəaliyyətini, istərsə də mollanəsrəddinşünaslıq elminin bir çox cəhətlərinə yenidən baxıb, yeni nəticələrə gəlməyə əsas verir"(2.s.3). İkinci nəşr də Qulam müəllim M.Cəlilin elmi ictimaiyyətə bəlli olmayan bir neçə mətbu əsərini üzə çıxarmaqla yanaşı, dövrü mətbuatda onun həyat və yaradıcılığı haqqında çoxlu materiallar da tapıb elmi ədəbiyyata gətirmişdi. Alimin tədqiqata cəlb etdiyi məxəzlər sırasında arxiv sənədləri, vaxtilə ədiblə bir yerdə işləyən, müəyyən hadisələrin şahidi olan müasirlərinin xatirələri, məktubları üstünlük təşkil edir. Salnamədə ilk dəfə olaraq M.Cəlilin gizli imzalarından bəhs edən müəllif onun dili, üslubu, yazı tərzi, yaradıcılığının ideya-məzmun xüsusiyyətləri haqqında da geniş məlumat vermişdir.

Q.Məmmədlinin diqqəti cəlb edən digər bir tədqiqat əsəri 1982-ci ildə işıq üzü görən "Cavid–ömrü boyu" adlı salnaməsidir. "Yaxın Şərqdə yeni tipli fəlsəfi şeirin "Şərq romantizmini" yaradanlardan biri olan Hüseyn Cavid" (3.s.7) yaradıcılığına həsr edilən bu əsər də müəllif H.Cavidin həyat və sənət yollarında ədəbi ictimaiyyətə bəlli olmayan bir çox qaranlıq məqamlarını üzə çıxarır və 1930-36-cı illərdə Azərbaycan ədəbi tənqidinin H.Cavidə münasibətdə yol verdiyi metodoloji əyintilərdən bəhs edir.

Bu salnamənin üstün cəhətlərindən biri odur ki, ilk dəfə olaraq məhz burada Hüseyn Cavidin dövrü mətbuatdakı məqalələrindən və Cavidlə bağlı olan məqalələr haqqında qısa-qısa parcalar verilib. Cavidşünaslar əsasən ədibin poeziya və dramaturgiyası haqqında tədqiqat apardıqları halda Qulam müəllim bunlardan fərqli olaraq H.Cavidi həm də bir publisist kimi tədqiqata cəlb etmişdir. (Bir faktı da qeyd edək ki, H.Cavidin publisistikasına müraciət edən tədqiqatçı alim Kamran Məmmədov da bir neçə məqaləsini bu mövzuya həsr edib).

Qulam müəllim yazırdı ki: "1903-cü ildə ilk dəfə olaraq "Şərqi-Rus" qəzetində bədii publisistik məqaləsi çap olunan H.Cavidin son mətbu çıxışı "Ədəbiyyat qəzeti"nin 24 may 1937-ci il tarixində olub" (3.s.293). Bu dövr ərzində Cavidin yazıları əsasən "Həqiqət", "İqbal", "İrşad", "Füyuzat", "Şəlalə", "Dəbistan","Açıq söz", "İstiqlal", "Qurtuluş", "Bəsirət", "Azərbaycan", "Yeni yol", "Ədəbiyyat qəzeti", "İnqilab və mədəniyyət" mətbu orqanlarında çap olunmuşdur.

Salnaməsində H.Cavidin imzaları haqqında geniş məlumat verən Qulam müəllimin fikrincə: "Cavidə isnad edilən üç örtülü imzadan var: "Müxbir", "Növrəs", "Qədirşünas"dır (2.s.19). Tədqiqatçı alim hər üç imzanın H.Cavidə məxsus olduğunu faktlarla, dəlillərlə sübut edərək bildirirdi ki, Cavid "Qədirşünas" və "Müxbir" imzaları ilə "İqbal"da, "Növrəs" imzası ilə isə "Həqiqət"də çap olunub.

Ümumiyyətlə, salnamədəki bir sıra sənədlər göstərir ki, bu əsər Qulam Məmmədlinin Cavid yaradıcılığına, şəxsiyyətinə olan hörmətin, sevginin nəticəsində belə sanballı yaranıb. Müəllifin "Cavid salnaməsi" Cavid ətrafında ədəbi-tənqidi müba-

hisələrin və əyintilərin də tarixini olduğu kimi özündə əks etdirməsə idi, məhz bir salnamə kimi, obyektiv, mötəbər elmi-tarixi məxəz kimi natamam və naqis görünərdi" (3.s.5). Məhz ilk dəfə olaraq bu əsərdə Qulam müəllim H.Cavidin mətbuatda ilk çıxışı haqqında düz informasiya verərək, yanlışlıqlara öz münasibətini bildirir.

Əsərdə Qulam müəllim ən çox məşhur maarifçi xadimlərdən Məmmədtağı Sidqinin, Məşədi Qurbanəli Şərifzadənin arxivindən, professor Əziz Şərifin, şair Abdulla Şaiqin, akademik Məmməd Cəfərin və digərlərinin xatirə və yazılarından, Cavidin xanımı Müşginaz xanımın, qızı Turan xanımın xatirələrindən, XX əsrin əvvəllərində çap olunan dövrü mətbuatın səhifələrində nəşr olunan yazılardan, arxiv sənədlərindən və s. materiallardan istifadə etmişdir və nəticədə H.Cavidin yaradıcılığı, şəxsiyyəti haqqında çox maraqlı, məzmunlu bir tədqiqat əsəri yazmışdır. Bu haqda müəllif kitabın "Ön söz"ündə yazırdı ki: "Toplanmış sənədlər içərisində həcmcə kiçik, lakin məzmun və mənaca çox qiymətli nümunələrə rast gəlmək olar" (2.s.18). Doğrudan da müəllif bu əsərdə Cavidlə bağlı hər kiçik bir fakta da alim qayğısı, sayğısı ilə yanaşmış, bu amillərin ədibin həyatında və yaradıcılığında böyük rol oynamışdır. Xüsusən də o dövrün mətbuatında H.Cavidlə bağlı ədəbi tənqidin fikir və rəylərindəki kiçik bir cümlə də tədqiqatçının diqqətindən yayınmamışdır. "Ədəbi tənqidin uzun illər boyu Hüseyn Cavidə verdiyi qiymətin və təhlilin əsasında duran müxtəlif prinsiplər, ədəbi fikirlər, rəylər hər zaman maraq dairəsində olmuşdur".

Əsərdə cavidşünaslıq elminə yüksək qiymət verilərək qeyd edilir: "Cavid zaman münasibətlərinin bəlkə də ən mürəkkəbi, təzadlısı və ibrətlisidir. Bu mürəkkəblik Cavidin yaşayıb-yaratdığı tarixi epoxaların öz narahatlığı ilə, öz frtına və inqilabları ilə aşılanmışdır və dolayı inikasını (vulqar və bayağı ifratları ilə bərabər) bəzən Caviddən də çox cavidşünaslığın axtarışlarında tapmışdır. Buna inanmaq üçün çox dramatik, çətin bir taleyin və ömrün dünyaya və tarixə səpələnən, bu salnamədə isə ilk dəfə bir yerdə toplanan mənəvi izləri ilə hərəkət etmək, keçmişin bu kitabdan bizə boylanan son yüz ilinə nəzər salmaq kifayətdir" (2.s.6).

Tədqiqatçının 1977-ci ildə mətbuat tarixi ilə bağlı "İmzalar" adlı kitabı çap olunub. Əsər Azərbaycan mətbuatı tarixində çox gərəklidir. Azərbaycan ədəbiyyatında və mətbuatında müxtəlif zamanlarda işlənən gizli imzaların və təxəllüslərin şərhinə həsr olunmuş bu kitab, şübhəsiz oxucuların diqqətini cəlb edəcək, mütəxəssislər, müəllimlər və oxucular üçün faydalı bir mənbə olacaq."Ancaq bir cəhəti qeyd etmək istəyirik. Bu kitab Azərbaycan mətbuatının tarixi ilə bilavasitə bağlı olan, mətbuat xadimlərimizin bir neçə nəslini yaxından tanıyan, onların bir çoxları ilə dostluq edən, qəzetlərin, jurnalların səhifələrində, arxivlərin təkində uzun illər boyu axtarışlar aparan yorulmaz tədqiqatçı, qocaman jurnalist Qulam Məmmədlinin yarım əsrlik gərgin əməyinin, fəal müşahidələrinin məhsuludur. Əsəri oxuduqca bəlli olur ki, Q.Məmmədli hələ 1917-ci ildən gizli imza müəlliflərinin şəxsiyyətləri ilə maraqlanmağa başlamışdır. Qeyd etmək lazımdır ki, "ədəbi ictimaiyyətin və oxucuların mühakiməsinə təqdim edilən həmin kitab nəşriyyatımızın tarixində bu mövzuda ilk qiymətli əsərdir" (4.s.4).

Əslində müəllifin "Cavid ömrü boyu" əsəri ona görə cavidşünaslar tərəfindən daha yüksək qiymətləndirilir ki, əsərdə tədqiqatçı alim H.Cavidin ilk çap olunduğu "Şərqi-Rus" qəzetindən başlayaraq, son çap olunduğu "Yeni yol" qəzetinə kimi keçdiyi mətbu fəaliyyətini də ilk olaraq bu əsərdə vermişdir. Əsərin ikinçi bir üstün cəhəti də ondadır ki, 1903-cü ildən 1937-ci ilin may ayının əvvəllərinə kimi,

Azərbaycanda, Türkiyədə, Rusiyada, İranda nəşr olunan mətbu orqanlarında istər H.Cavidin öz yazıları, istərsə də onun haqqında çap olan yazılar əsasında geniş informasiya verib. Bildiyimiz kimi, naməlum, gizli, örtülü və uydurmalı imzalar, müəllifi məlum olmayan müxtəlif təxəllüslər, əsas etibarı ilə birinci rus inqilabından sonra Azərbaycan mətbuatında, xüsusən satirik qəzet və jurnallarda görünməyə başlamışdır. Bu kimi gizli imzalardan, təxəllüslərdən "Əkinçi"dən başlayaraq sonrakı mətbuat orqanları da istifadə etməyə başladılar, əsasən isə Azərbaycan satirik jurnalistikasının şah əsəri sayılan "Molla Nəsrəddin" jurnalı. 1906-cı ildə nəşrə başlayan "Molla Nəsrəddin" jurnalının ilk nömrəsində redaktorun adından başqa heç bir açıq imza yox idi. Beləliklə də, "Molla" örtülü imza ilə mətbuatda çıxış etməyi "qanuni" bir şəklə saldı və Azərbaycan mətbuatında gizli imzalar uzun müddət daha qabarıq çəkildə işlədildi.

Bütün bunlarla yanaşı Qulam müəllimin teatrşünaslığımızın inkişafında da çox rolu və yeri olub. Bu haqda "**Teatrşünaslığımızın tarixindən" adlı məqalədə yazılır: "**Ötən əsrin 60-cı illərindən teatrşünaslığımızda yeni bir sahə meydana gəldi. Mənbələrə istinadən keçmiş dövrün materialları əsasında məlumat xarakterli yazılarla – kitablar hazırlamaq. Bu işlə tədqiqatçı alim QulamMəmmədli məş-ğul olmağa başladı. Görkəmli mədəniyyət xadimi, öz prinsipiallığı ilə seçilən araşdırı-cı Qulam Məmmədlinin elmi yaradıcılığına sağlığında olduğu kimi, bu gün də münasibət bir-mənalı deyil. Əslində Qulam müəllim ona olan bu münasibətin fərqində də deyildi. Mübahisənin məğzində isə onun bizim fikrimizcə, Azərbaycan teatrşünaslıq elminə böyük yenilik gətirmiş salnamələri dururdu. Qulam müəllim salnaməçi kimi teatrşünaslıq fəaliyyətinə 60 yaşın-dan sonra başlamışdı. Gənc yaşlarından səhnə fəaliyyəti ilə məşğul olan, səhnə ustaları və görkəmli sənətkarlarla təmasda olan Qulam Məmmədli ötən əsrin 20-ci illərinin ortalarından yaradıcılığını mətbuatla, nəşriyyat işləri ilə bağlamış, eyni zamanda Cənubi Azərbaycan-dan olan soydaşlarımızın şeirlərtoplusunu nəşrə hazırlamışdır". Yeri gəlmişkən qeyd edək ki, Qulam müəllim bu mövzuda o zamanın dövrü mətbuatında saysız-hesabsız məqalələr, resenziyalar, rəylər yazmışdır. Bu məqalələrin əksəriyyəti "Azərbaycan kolxozçusu", "Dan yıldızı", "Yeni yol", "Ədəbiyyat", "Kommunist", "Gənc işçi", "Şərq qapısı", "Kommunist maarifi" kimi məşhur mətbu orqanlarında çap olunub və bu gün yaddaşlarda salnaməçi teatrşünas kimi yaşayır və Azərbaycan teatrşünaslı-ğına yeni - nəfəs gətirmişdir.

Lakin bunlar tədqiqatçı alimin illərlə çəkdiyi zəhmətin bahasına başa gəldi. 1959-cu ildə təqaüdə çıxan Qulam Məmmədliyə bir neçə il sonra arxivlərdə ehtiyac duyulmuşdu. Bu sahədə ki, boşluğu aradan qaldırmaq üçün Qulam müəllimi arxivə dəvət etdilər. Beləliklə, Azərbaycan ədəbiyyatının, mətbuatının, teatrının tarixində neçə-neçə qaranlıq səhifələrinə işıq salındı. O, altı il müddətində Azərbaycan Mərkəzi Dövlət Ədəbiyyat və İncəsənət Arxivində elmi məsələlər üzrə direktor müavini işlədi. Arxiv sənədləri ilə yanaşı, Azərbaycan mətbuatının əski əlifba ilə olan dövrünü də araşdırdı. Tədqiqatçıların fikrincə Qulam müəllimi Azərbaycan teatr tarixinin araşdırılması işinə cəlb edən görkəmli teatrşünas Cəfər Cəfərov olub (1).

Beləliklə, Qulam Məmmədli tədqiqatlarında o dövr teatrşünaslığına bəlli olmayan bir çox sənədlər, faktlar, maraqlı məqalələr üzə çıxardı və "Hüseyn Ərəb-

linski", "Cahangir Zeynalov", "Azərbaycan teatr salnaməsi", "Üzeyir Hacıbəyov", "Molla Nəsrəddin", "Abbas Mirzə Şərifzadə" və s. bu kimi salnamələrini yaratdı.

Bu salnamələr də 1918-1920-ci illər Azərbaycan Xalq Cümhuriyyəti dövründə Azərbaycan teatrının inkişafı haqqında da çox maraqlı məlumatlar toplanıb. Həmin məlumatlar tədqiqatçının ikicildlik "Azərbaycan teatr salnaməsi" adlı əsərini daha maraqlı, məzmunlu edib. Bu əsərdə Azərbaycanda teatrınn yaranması, inkişafı, bu inkişafa dəstək olan insanların səhnə sənəti ilə bağlı gördüyü işlər öz əksini tapıb. Ona görə də əsər səhnə tariximizə dair qiymətli mənbələrdən biridir.

"Teatrşünaslığımızın tarixindən" adlı məqalədə müəllif çox haqlı olaraq qeyd edir ki: "XX əsrin sonu XXI əsrin əvvəllərində Azərbaycan teatrşünaslığında-İlham Rəhimlinin elmi yaradıcılığı da bir mərhələ təşkil edir. İlham hələ gənclik illərindən teatrşünaslıq sahəsindəki yaradıcılığı ilə diqqəti cəlb etmişdi. Zəmanəsinin ən nüfuzlu qəzeti olan "Kommunist" qəzetindəki çıxışları gənc yaşlarındanonu teatr ictimaiyyəti arasında tanıtmışdı. Teatrşünaslıq yaradıcılığına tənqidçi kimi başlayan İlham o dövrdə Azərbaycan teatrlarında olan naqisliklәri, çatışmazlıqları, tamaşalardakı bədii nöqsanları, qüsurları peşəkar səviyyədə açıb göstərir, onlar haqqında həyəcan siqnalları qaldırırdı. Gənc teatrşünasın cəsarətli yazıları teatrlarımıza yaradıcı təşkilatdan çoxqazanc mənbəyi, "obyekt" kimi baxan məmurları əsəbiləşdirir, yaşlı teatrşünaslar tərəfindən isə qısqanclıqla qarşılanırdı".

Bu doğrudan da belədir. Lakin onu da qeyd edək ki, İlham müəllim bu əsərlərini yazmaq üçün dəyərli bir mənbə kimi tədqiqatçı Qulam Məmmədlinin əsərlərinə, elmi məqalələrinə və xatirələrinə istinad edib, yetərincə onlardan bəhrələnib.

Bu gün teatrşünaslığa, onun tarixinə aid saysız-hesabsız əsərlər, elmi kitablar var. Məsələn, təkcə teatrşünas İlham Rəhimlinin "Xalq oyun tamaşaları", "Azərbaycan Milli Teatrının poetikası", "Akademik Milli Dram Teatr" (II cilddə), "Füzuli meydanında sənət məbədi", "Üç əsrin yüz otuz ili", "Azərbaycan teatr tarixi" və s. əsərlərin yaranmasında da Qulam müəllimin dəsti-xətti hiss olunur. Deməli bir tədqiqatçı alim kimi, Q.Məmmədli təkcə Azərbaycan ədəbiyyatının, mətbuatının tədqiqi ilə deyil, həm də teatrının tədqiqi ilə mütəmadi məşğul olmuş, saysız-hesabsız əsərlər meydana gətirmişdi. Bu kitablar onun uzun illər topladığı təcrübəsinin və elmi təfəkkürünün vəhdətindən meydana gəlib. Qulam müəllimin üstünlüyü-ondadır ki, o arxivlərdə səbrlə işləməyi bacarırdı. Ədəbiyyatşünaslığımızda, mətbuatşünaslığımızda və eləcə də teatrşünaslığımız-dakı boşluğu doldurur, diqqəti-unudulmuş, həllini gözləyən mövzulara yönəldirdi.

Bu gün Azərbaycan teatrşünaslığı öz inkişaf mərhələsini yaşayır. Böyük bir tarixə malik olan Azərbaycan teatrının yaranmasında, inkişafında Azərbaycan ədəbiyyatının, mətbuatının rolu çox böyük olmuşdur. Əlbəttə bir tədqiqatçı alim kimi, Qulam Məmmədlinin də bu xeyirxah işin həyata keçirilməsində əməyi şübhəsizdir.Biz yuxarıda da qeyd etdik ki, Qulam Məmmədli Böyük Vətən müharibəsi zamanı, 1945-1946-cı illər Cənubi Azərbaycanda yaşamış və ədəbiyyatımız, mətbuatımız, görkəmli şəxsiyyət-lər haqqında tədqiqat işi aparmış, maraqlı faktlar toplamışdır. Onlardan biri də Azərbaycan tarixşünaslığında müəyyən yer almış Şeyx Məhəmməd Xiyabanidir. Q.Məmmədli Təbrizdə olduğu müddətdə Xiyabani hərəkatında iştirak etmiş və onu yaxından tanıyan insanlarla təmasda olmuşdur. Əldə etdiyi materiallar ona sonrakı illərdə Ş.M.Xiyabani haqda dəyərli kitab yazmağa

imkan vermişdir. Q.Məmmədlinin bu kitabı Xiyabanini Azərbaycanın quzeyində ictimaiyyətə tanıtdırmaqda ilk vasitə olmuşdur.

Tədqiqatçıların fikrincə böyük tədqiqatçı-alim Qulam Məmmədlinin şəxsi arxivində Xiyabani və hərəkatı ilə bağlı hələ işıq üzü görməyən çoxlu materiallar var. Onları üzə çıxarıb tədqiqata cəlb etmək Azərbaycanda xiyabanişünaslıq üçün gözəl töhfə ola bilər. Onu da qeyd edək ki, Q.Məmmədlinin ənənəsini davam etdirən iranşünas alim, tarix elmləri doktoru, professor Şövkət xanım Tağıyevanın xidmətləri də bu sahədə diqqətə layiqdir. Xanım tədqiqatçının 1956-cı ildə rus dilində çap olunan "1917-1920-ci illərdə İran Azərbaycanında milli azadlıq hərəkatı" monoqrafiyasında Cənubi Azərbaycanda aparılan mübarizələrin sosial-iqtisadi köklərini araşdırmış və milli azadlıq hərəkatı və onun məğlubiyyətinin səbəblərini göstərməyə çalışmışdır. Burada Xiyabaninin ictimai-siyasi fəaliyyəti geniş şəkildə əks olunur.

Əbəbiyyat

1. "Ədəbiyyat" qəzeti. 8 fevral 2013
2. Məmmədli Qulam. Molla Nəsrəddin. Azərnəşr, 1966, Gənclik, 1985
3. Məmmədli Qulam. Cavid ömrü boyu. Bakı. Yazıçı. 1982
4. Məmmədli Qulam. İmzalar. Bakı. Yazıçı. 1977
5. "Yeddi gün" qəzeti, avqust 1991

Г.Гулиева

Ученый публисист

Резюме

Одним из тех ученых следователей, кто вложил больше труда в исследование Азербайджанской литературы и прессы считается Гулам Мамедли. Гулам Мамедли посвятил 60 лет своей в эту трудную и ответственную работу. Работы посвященные истории Азербайджанской прессы сегодня считается самыми надежными источниками для изучения развития нашей журналистики.

G.Guliyeva

Scientistpublicist

Summary

One of the research scientist who has more labor in researching of Azerbaijani literature and press is Qulam Mammedli. Qulam Mammedli devoted more than 60 years of his life to this difficult and responsible work.His works dedicated to the Azerbaijani culture are reliable sources for learning development and story of our journalism.

Rəyçi: Şamil Vəliyev
filologiya elmləri doktoru, professor

CAVİDƏ MƏMMƏDOVA
filologiya üzrə fəlsəfə doktoru

HÜSEYN CAVİD VƏ FRİDRİX NİTSŞENİN HƏYAT FƏLSƏFƏSİ

Açar sözlər: fəlsəfə, Nitsşe, Cavid, Hüseynzadə, həyat.
Ключевые слова: философия, Ницше, Джавид, Гусейнзаде, жизн.
Key words: philosophy, Nietzsche, Javid, Husseynzade, life.

Ötən yüzilliyin əvvəllərində bədii-fəlsəfi təfəkkür aləminə təsirsiz qalmayan cərəyanlardan biri də F.Nitsşenin həyat fəlsəfəsi idi. Bədii ədəbiyyatı və incəsənəti ideya baxımından zənginləşdirən, yeni fikir istiqamətinə yönəldən bu fəlsəfi cərəyan həyatı daimi hərəkət, təşəkkül prosesi kimi xarakterizə edərək onu varlığın əsası hesab edir. Həyatı fəaliyyət, yaradıcılıq, özünütəsdiq, özünüdərk imkanı hesab edən filosoflar bu məsələnin rasional idrakını rədd edirlər. Başqa sözlə desək, bu cərəyanın nümayəndələri insanın bütün həyatı boyunca hüdudlarında olduğu həyat axınının yalnız intuisiya, müxtəlif müsbət hisslər əsasında dərk oluna biləcəyi fikrini irəli sürürlər.

Qərb fəlsəfi təfəkküründə insan haqqında özünəməxsus bir təlim yaratmış alman filosofu F.Nitsşe (1844-1900) hakimiyyətə can atma, iradə məsələsini fundamental problem kimi qarşıya qoyaraq yalnız gücə, qüdrətə əsaslanan həyat prinsipini irəli sürür. ”F.Nitsşe volyuntarist idi; o inanırdı ki, həyatın hərəkətverici qüvvvəsi – ona məxsus potensiya iradədir; iradə isə zəka və ya elmi idrakla deyil, izah edilməsi mümkün olmayan mistik ilkin əsala - əsrarəngz ilahi başlanğıcla əlaqədardır” (1,13). F.Nitsşe “iradəyə malik”, “hakimiyyətə can atan” insanın “ağalar əxlaqı” adlandırdığı əxlaqa sahib olduğu fikrini irəli sürür və hər kəs tərəfindən qəbul olunan əxlaqı isə hamıya kor-koranə məhəbbət hissi aşılayaraq fərdin daxilində hakimiyyətə sövq edən iradəni zəiflətdiyinə görə yolverilməz hesab edir.

Həyat, filosofa görə, inam, arzu, iradə, amirlik kimi vacib amillərdən kənarda mövcud deyil və ola da bilməz. Başqa sözlə, F.Nitsşe bəşəriyyət üçün inamı bilik və təcrübədən, iradəni zəka və təxəyyüldən mühüm hesab edir, hərəkəti varlığın bu vacib atributlarından biri kimi irəli sürür. İnsanları, hətta “əxlaqdan yüksəkdə” (2,130) dayanmağa çağıran F.Nitsşe düşünür ki, əxlaq insanı xəstə və acizlərə, gücsüz və zəiflərə mərhəmətə sövq edərkən, əslində, fərdin mübarizə, amirlik duyğusunu zəiflədir ki, bu da şəxsin varlığına böyük zərbədir. Çünki, F.Nitsşeyə görə, insan bir varlıq olaraq özünü yalnız mübarizə meydanında təsdiq edir.

F.Nitsşenin fəlsəfi konsepsiyaları bu gün də mübahisə və müzakirə obyekti olaraq qalmaqdadır. Güman etmək olar ki, filosofun birmənalı qarşılanmayan fəlsəfəsinin özünü dövrün ictimai-siyasi gərginlik və zidiyyətləri doğurmuşdu.

H.Cavid hələ ötən əsrin əvvəllərində, hətta ən böyük filosofların, görkəmli şəxsiyyətlərin belə bəzən anlamaqda çətinlik çəkdikləri, yaxud yanlış şərh etdikləri mürəkkəb fəlsəfi müddəaları mənalı şəkildə izah et-

məyə, həmin ideyalar ətrafında baş verən mübahisələri cavablandırmağa müvəffəq olmuşdur. Bu baxımdan, H.Cavidin F.Nitsşenin şəxsiyyətinə və yaradıcılığına, insan və həyat konsepsiyalarına münasibəti və filosofun görüşləri barədə mübahisə doğuran fikirlərə yanaşma tərzi olduqca maraqlı və özünəməxsusdur. Hələ 1915-ci ildə ədib "Müharibə və ədəbiyyat" məqaləsində ədəbiyyat və fəlsəfənin insanların ruhuna, düşüncəsinə təsir göstərərək milli məfkurə yaratmaq, mübarizə əzmi aşılamaq qüdrətindən danışarkən bir çox filosofların görüşlərindən bəhs edir, o cümlədən, F.Nitsşenin fəlsəfi konsepsiyalarına da aydınlıq gətirir. Toxunduğu problemlə bağlı olaraq müəllif ingilis, fransız, italyan filosoflarının görüşlərini nəzərdən keçirir, yaradıcılığı həmin dövr üçün daha cox aktual olan, böyük mübahisə və maraq doğuran mütəfəkkirlərin – F.Nitsşe və Rusiyanın böyük ədibi L.N.Tolstoyun fəlsəfi baxışlarına məqsədli olaraq qarşılıqlı şəkildə nəzər salır: "Rus-alman mühitinə gəlincə, bu mühitdəki həyat və ədəbiyyat daha başqadır. Rus-alman sözü araya gəlir-gəlməz, həm ədib, həm filosof olmaq üzrə iki böyük sima, iki nüfuzlu mütəfəkkir qarşımızda dikilib durur. Onların biri məşhur Tolstoy, biri də alman filosofu Nitsşedir.

Son zamanlarda bu iki müqtədir dahinin Rusiya və Almaniyada oynadığı müvəffəqiyyət, inkar edilməyəcək bir nüfuz və qüvvətə malikdir" (3,236).

H.Cavidin qeydindən də göründüyü kimi, L.N.Tolstoyun (1828-1910) bədii yaradıcılığı və görüşləri dərin fəlsəfi mahiyyəti, böyük humanizmi, bitkin məhəbbət konsepsiyası baxımından xüsusi rəğbət qazanaraq bütöv bir milləti təmsil edə biləcək qədər nüfuza malikdir. Heç təsadüfi deyil ki, Ə.Hüseynzadə "Tolstoyluq nədir" məqaləsində yazarının görüşlərindəki bəzi məqamları qüsurlu hesab etsə də L.N.Tolstoy barədə yazır: "Bu gün Rusiyada yetişmiş olan bir zümreyi-kəsireyi-hükəma və üdəbaya bütün Avropa və Amerika qibtə edir. Lakin bu zümrənin sərəfrazı, heç şübhə yoxdur ki, qraf Lev Tolstoydur. Tolstoy sadə Rusiyanın deyil, bəlkə bütün cahanın ən böyük üdəbasından biridir" (4,13).

"Məsləkinin əsası dindarlıq və elpərəstlik olan" (4,15) L.N.Tolstoyun insansevər görüşlərinin əsasında, hər şeydən əvvəl, azadlıq, insanlar arasında qarşılıqlı sevgi, məhəbbət üzərində bərqərar olan bir cəmiyyət arzusu dayanır. L.N.Tolstoy yazır: "Sən sevmirsənsə, bu o demək deyil ki, səndə sevgi hissi yoxdur, bu onu göstərir ki, səndə sevməyə mane olan nə isə var... Sənin qəlbin sevgi ilə doludur, lakin sənin günahların onun üzə çıxmasına imkan vermir. Qəlbini onu ləkələyən şeylərdən azad et..." (5,205). İnsanın sevgi hissilə kamilləşərək ilahi həqiqətləri anlayıb Yaradana qovuşa biləcəyinə inanan ədib F.Nitsşenin fəlsəfi təlimini müharibələrə rəğbət, xəstələrə və yoxsullara sərt münasibətnə görə ziyanlı sayır, alman filosofunu "dəli, sərsəri" adlandırır.

Hər zaman fəlsəfə üçün aktual ola biləcək həmin mübahisə, təbii ki, H.Cavidin diqqətindən kənarda qala bilməzdi. L.N.Tolstoyun və F.Nitsşenin yaradıcılığına mükəmməl şəkildə bələd olan böyük mütəfəkkir hər iki filosofun görüşlərinin əsas mahiyyətini şərh edərək onların qənaətlərini dəyərləndirməyə nail olur. Hər iki filosofun ideyalarındakı özünəməxsus-

luğu dəqiqliklə xarakterizə edən H.Cavid L.N.Tolstoy haqqında yazır: "Tolstoy qocaman və möhtəşəm romanları ilə, ufacıq sadə risalələrilə, munis bir qayeni, əməl və məsihapəsəndanə bir məslək izləmiş, izlədiyi qayeyi-əməli, düşündüyü məsləki, rusiyalılara bəyəndirmiş, milyonlarca qarələrini, incili-şərifin əfv edici təlimatilə yaşatmağa çalışmış, az-çox müvəffəq də ola bilmişdir" (3,236).

L.N.Tolstoyun həyata fəlsəfi baxışını qısaca, lakin kifayət qədər mükəmməl şərh edən H.Cavid ədibin məktubunda məhz F.Nitsşenin fəlsəfi qənaətləri ilə ziddiyyət təşkil edən məqamlar üzərində dayanır.

Aydın olduğu kimi, həmin dövrdə L.N.Tolstoyun mərhəmət və sevgini, F.Nitsşenin isə mübarizə əzmi doğuran iradəni təbliğ edən ideyaları fəlsəfə və ədəbiyyatın diqqət mərkəzindəydi. Qeyd etmək yerinə düşər ki, L.N.Tolstoyun mərhəmət və sevgi təbliğ edən dünyabaxışını Ə.Hüseynzadə incəliklərinə qədər xarakterizə edərək bu nəticəyə gəlir: "Tolstoy məzhəbinin əssül-əsası şu qısa cümlə ilə ifadə oluna bilir: "Fənalığa müqabilə etmə!" Yəni zülm və sitəmdən, cövr və cəfadan, bəla və müsibətdən ibarət olan fənalığa səbr və təhəmmül et.

"Fənalığa müqabilə etmə" sözü tolstoyluqda bir qəziyyeyi-əsasiyyədir. Həmin bütün sair qəziyyələr bundan nəticələnir...

Tolstoy "Fənalığa müqabilə etmə" yerinə "Fənalığa fənalıqla, cəbr ilə müqabilə etmə", yəni "fənalıqdan ari bir surətdə müqabilə et" deyə idi, yenə bəlkə qəziyyənin bir məzhəbə əsas olacaq dərəcədə bir ləyaqəti olurdu. Lakin Tolstoyun sözündə heç bir qeyd və şərt yoxdur. Söz qətidir. "Fənalığa müqabilə etmə", yəni heç bir vəchlə müqabilə etmə! Vəssalam!" (4,22).

Ə.Hüseynzadə L.N.Tolstoyun görüşlərindəki məhz bu məqamala razılaşmır, ədibin taleylə barışaraq yamanlıqlara qarşı durmamaq çağırışına etirazını bildirir. Böyük ideoloqumuz Ə.Hüseynzadənin əqidəsincə, insan həyatı və cəmiyyəti ədalət prinsiplərinə əsasən qanunauyğun şəkildə qurmaq üçün mütləq yamanlıqlara, fənalıqlara qarşı mübarizə aparmalıdr. Bu mənada L.N.Tolstoyla heç cür razılaşa bilməyən Ə.Hüseynzadə yazır: "Lakin həyatın bütün zövqü fənalıqla mübarizədədir. Fənalıqla mübarizə caiz deyilsə, o halda "bəni-növünə məhəbbət və müavinət et" vəzifəsini nə surətlə ifa etməlidir? Bəni-növinin alam və iztirabatını rəfə, yaxud tənqisə cəhd etmək, bu yolda mübarizə etmək, yəni fənalığa müqabilə etmək "Bəni-növinə müavinət et" sözünün şərtlərindən bir qismini təşkil etmiyormu?" (4, 22).

Ə.Hüseynzadənin fikirləri L.N.Tolstoyun fəlsəfəsinin və onun F.Nitsşenin düçüncələrinə qarşı etirazının əsas mahiyyətini dəqiqliklə anlamağa yardım edir, eyni zamanda, həmin dövrdə ədəbiyyat və fəlsəfə aləmində mübahisələr və mühakimələr doğuran bu fərqli ideyaların "mübarizə" çevrəsi barədə təsəvvür əldə etməyə imkan yaradır.

Həmin mübahisələrə H.Cavidin olduqca elmi, obyektiv mülahizələr bildirməsi xüsusilə maraq doğurur. H.Cavid L.N.Tolstoyun F.Nitsşenin görüşlərinin fəlsəfə aləmində məhz daha çox səs-küy doğuran tərəflərini işıqlandıraraq yazır: "Məzkur Nitsşeyə gəlincə, o, daha başqa bir yol, daha başqa bir qayeyi-əməl təqib etmiş. Onun əsərlərində, Tolstoyun düşündüyü "mərhəmətlərdən" əsər yox...

O, zəiflərin əzilməsini qayət təbii bulur. Məhəbbət, mərhəmət kimi duyğuların xəyalpərəstanə, mənasız şeylər olduğunu isbata çalışır, həm də isbat etməkdən aciz qalmaz.

Ona görə də Tolstoy Nitsşeyə "yarımdəli alman", - deyə tənqid və müaxizə edir və onun məcnunanə əsərlərinin Rusiyada təb və nəşrinə, tərcümə edilməsinə, nüfuz qazanmasına qızmaqdan bir dürlü özünü alamaz. Və onun yürütməkdə olduğu fəlsəfənin yaxıcı zəhərdən başqa bir şey olmadığını da əlavə edir" (3,236).

Zamanın bir çox filosof və ədiblərindən fərqli olaraq H.Cavid F.Nitsşe fəlsəfəsinə münasibətdə daha obyektiv mövqe tutur, filosofun ideyalarına birtərəfli, məhdud düşüncə istiqamətindən deyil, geniş baxış bucağından nəzər salır. Belə ki, ədibin fikrincə, F.Nitsşe "mərhəmət kimi duyğuların xəyalpərəstanə, mənasız şeylər olduğunu isbata çalışır, həm də isbat etməkdən aciz qalmaz" (3,236). H.Cavid F.Nitsşenin fəlsəfəsinə daha ciddi yanaşır, sözlərin ilkin səslənişdə ifadə etiyi mənanın zahirinə qapılaraq qalmır, F.Nitsşe fikrinin dərin qatlarına enib iç dünyasına nəzər salaraq filosofun öz fikirlərini isbat edə bildiyi qənaətinə gəlir. Çünki F.Nitsşenin həyat, insan konsepsiyaları çoxcəhətli, mürəkkəb ideyalar sistemidir və bu fəlsəfi təlimə üzdən və birmənalı yanaşma, yalnız bir istiqamətdən salınan nəzər onu düzgün anlamamağa gətirib çıxarır. Məhz bunu nəzərdə tutaraq H.Cavid yazır: "Lakin eyi düşünülürsə, Nitsşe fəlsəfəsinin batini çox da zahirinə bənzəməyərək, daha səmimi bir mərhəmət və məhəbbətlə nəticələnir. O, Tolstoyun düşündüyü nüqtəyə acı olmaqla bərabər, daha kəskin və həqiqi addımlarla irəliləmək istər.

Rusiyada Nitsşenin qareləri az deyildir. Rusiyanın məşhur ədiblərindən, mətin üsluba, dərin düşüncəyə malik olan Dostoyevski – o böyük dahi və ruhşünas belə Nitsşe yolunu, ideyasını daha əvvəl ortaya sürmüş..." (3,236).

Dünyaşöhrətli rus nasiri, "dahi ideya ustası" (6,121) F.M.Dostoyevskini (1821-1881) düşündürən, yaradıcılığının əsas ideya mahiyyətini təşkil edən başlıca problemlərdən biri də "insan şəxsiyyətini yeni tərzdə başa düşmək məsələsi idi" (7,338-339). Mütəfəkkir yazar insanlar arasında qardaşlıq münasibətindən doğan, eləcə də hər bir fərdin kamilliyi, xoşbəxtliyi üzərində bərqərar olan sosial harmoniyanın ideallarına böyük inam nümayiş etdirmişdir. Yazıçı, hər şeydən əvvəl, insandakı azad iradəni təqdir edir, hansı şəraitdə yaşamasından asılı olmayaraq, necə ağır çətinliklərlə üzləşməsinə baxmayaraq güclü iradə sayəsində insanın ruhdan düşməməsini, bir ali varlıq olaraq mahiyyətini itirməməsini kəskin tələb şəkilində irəli sürür. Eyni zamanda, yazıçı insan təbiətində şərin mövcudluğunu da istisna etmir. Dahi ədib yaradıcılığında xeyir və şər, idrak və əxlaq kimi bir sıra məsələləri çözməklə həyatın mənasını, insanın mahiyyətini müəyyən etməyə çalışır. Ədib bəşəriyyətin səadətə, xoşbəxt cəmiyyətlərə yiyələnməsi üçün insan təbiətində güclü, azad iradənin mövcudluğunu vacib sayır. Bu məqama diqqəti cəlb edən H.Cavid F.M.Dostoyevskinin görüşlərinin ikinci mərhələsində yer alan prinsiplərin F.Nitsşe fəlsəfəsinin əsas müddəaları ilə uzlaşdığını xatırladır; F.M.Dostoyevskinin "Nə baş verirsə

versin insan olaraq qalmaq, insan olaraq yaşamaq" prinsipi F.Nitsşenin son dərəcə sərt və "amansızcasına" ortaya qoyduğu "iradə" təlimi ilə eyni mənanı bölüşməkdədir.

H.Cavid digər rus ədibi L.Andreyevin yaradıcılığında F.Nitsşe fəlsəfəsinin təsiri barədə yazır: "İndiki bərhəyat ədiblərdən Leonid Andreyevin faciələrində də az-çox F.Nitsşe ruhu görülməkdədir. İştə bunun üçün Tolstoy Nitsşeyə qızdığı kimi Andreyevə yazdığı bir məktubda deyir: "Leonid! Leonid! Sən məni qorxudursan, fəqət mən səndən qoxacaq deyiləm!" Demək ki, qoca Tolstoy bu cümlə ilə məslək və fikircə özünə müxalif sayılan, Nitsşe ruhuna yaxınlaşan Andreyevi bir dürlü düşündürmək, müaxizə (məzəmmət) etmək istəyir" (3,237).

F.Nitsşenin fəlsəfi düşüncələrini heç cür qəbul etmək istəməyən rus ədibinin görüşlərini alman filosofunun fəlsəfi konsepsiyaları ilə müqayisə edən H.Cavid bu nəticəyə gəlir: "Hər halda Tolstoyun ən ziyadə nüfuz qazandığı bir Rusiya olduğu kimi, Nitsşenin də ən çox rol oynadığı məmləkət, şübhəsiz Almaniyadır... İştə demək olur ki, bu böyük mütəfəkkirlərin ən səmimi təsirləri hər yerdən ziyadə öz məmləkətlərinə olmuşdur. Bu iki məmləkətdən hər birini gözdən keçirəcək olsanız təbii minlərcə, on minlərcə darülfünunlara, rüşdi, edadi məktəblərə rast gəlirsiniz və milyonlarca tələbə və talibənin elm arxasınca qoşulduğunu, məzkur məktəblərə davam etdiyini görürsünüz "(3,237).

H.Cavidin müqayisəli şərhindən aydın olur ki, ədib F.Nitsşe fəlsəfəsinin ideya mahiyyətini daha dəqiq anlamış, çoxlarından fərqli olaraq filosofun ideyalarındakı bəzi qüsurların olmasına baxmayaraq bir sıra müsbət məramı sezərək yüksək dəyər vermişdir. Eyni zamanda, H.Cavid Almaniyadakı elmi və mədəni inkişafın səbəblərini də, hər şeydən əvvəl, alman millətinin düşüncə və ideyalarında aramışdır. O cümlədən, müəllif F.Nitsşe fəlsəfəsini, onun insanın iradə və daxili gücünə qarşı insanlarda yartdığı inamı Almaniyada elm və təhsilin vüsət tapmasının əsas səbəblərindən biri kimi təqdir etmişdir.

Ədəbiyyat

1. İsmayılov F.Q. XX əsr fəlsəfəsinə dair oçerklər. Bakı: 1992
2. Ницше Ф. «Веселая наука». Москва: Эксмо, 2007, 528 с.
3. Cavid H. Əsərləri: 4 cilddə, IVc., Bakı: Yazıçı, 1985.
4. Füyuzat. Bakı: Çaşıoğlu, 2007.
5 Философия любви. 2-х ч. Ч. I., М.: Мысль, 1965.
6. Baxtin. M.M. Dostoyevski poetikasının problemləri. Bakı: "Kitab aləmi" Nəşriyyat Poliqrafiya Mərkəzi, 2005.
7. Qrossman L. Dostoyevski. Bakı: Gənclik, 1972.

Javida Mammadova

Husseyn Javid and Friedrich Nietzsiche's philosophy of life

Summary

One of the philosophy conceptions which influenced on the literature of XX century was the F.Nietzsche's philosophy of life. The great German fhilosopher

F.Nietzsche was interested in the enhancement of individual and cultural health, and believed in life, creativity, power, and the realities of the world we live in. Some famous thinkers as L.N.Tolstoy, the great Russian writer did not accept F.Nietzsche's philosophy thoughts and criticized his ideas. But the great Azerbaijan poet Husseyn Javid could explain F.Nietzsche's and ideas correctly and appreciated philosopher's ideas. And this article was devoted to H.Javid's those philosophy thoughts. At the same time in this article was explained the other Azerbaijan thinker A.Husseynzade's thoughts about Tolstoy.

Джавида Мамедова

Гусейн Джавид и философия жизни Фридриха Ницше

Резюме

Философия жизни Ф.Ницше – одно из философских направлений, которое оказало значительное влияние на художественную литературу XX века. Ф.Ницше проявлял большой интерес к внутреннему миру человека, проповедовал его силу, волю, «аристократическую» суть. Некоторые мыслители, в том числе русский писатель Л.Н.Толстой, не признавал философию Ф.Ницше, подвергали ее критике. Выдающийся поет Г.Джавид, в свою очередь, высоко оценивал прогрессивные особенности философской сущности Ф.Ницше. В статье исследуются воззрения Г.Джавида, а также повествуется о встречах А.Гусейнзаде, связанного с данной проблематикой.

Rəyçi: Şahbaz Musayev
filologiya üzrə fəlsəfə doktoru

PƏRİXANIM MURADOVA
Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin
Siyasi Sənədlər Arxivinin şöbə müdiri

FİRİDUN BƏY KÖÇƏRLİ VƏ ANA DİLİ

Açar sözlər: Dil, dil üslubu, ədəbiyyat, şeir, tənqid, maarifçilik.
Ключевые слова: Язык, языковые особенности, литература, поэзия, критика, просвещение,
Key words: Language, language features, literature, poetry, critique, education.

XIX əsrin sonlarında XX əsrin əvvəllərində Azərbaycan ədəbiyyatı tarixində tənqidçi-ədəbiyyatşünas Firidun bəy Köçərli mübariz qələmi ilə mətbuatda özünə görkəmli yerlərdən birini tutmuşdur.

1863-cü ildə Şuşada dünyaya göz açan F.B.Köçərli hələ kiçik yaşlarından doğma ana dilini sevməyə başlamışdır. O zaman Şuşa şəhərində tanınmış şairlərin təşəbbüsü ilə tez-tez şeir məclisləri təşkil olunurdu. Belə məclislərdən biri də Xurşidbanu Natəvan tərəfindən 1862 – ci ildə təşkil olunmuş " Məclisi - üns" adlanan şeir məclisi idi. Bir neçə il davam edən bu məclisə Firidun bəyin atası Əhmədağa kişi də dəvət olunurdu. Əhmədağa kişi Azərbaycan ədəbiyyatı nümunələrini gözəl bilirdi və gözəl də şeir demək qabiliyyətinə malik idi. Ona görə o dövrün tanınan və sayılan adamları içərisində Əhmədağa kişini də görmək olurdu. Belə məclislərə tez-tez atası ilə gedən balaca Firidun da məhz o zamandan Azərbaycan dilinə, ədəbiyyatına və folkloruna məhəbbət oyanmışdı. Klassik irsə böyük məhəbbəti olan ədib, gənc yaşlarından başlayaraq klassik ədəbiyyat nümunələri toplamağa maraq göstərmişdir.

Mükəmməl təhsilə yiyələn F.B.Köçərli mətbuatda tez-tez məqalələr dərc etdirməyə başlayır. O, Azərbaycanın klassik şairlərinin həyat və yaradıcılığını dərindən öyrənərək araşdırılmalar aparır, materiallar toplayırdı. Görkəmli alimi gördüyü bu işlərlə yanaşı dilimizin qorunub saxlanması məsələsi narahat edirdi.

Çarizm dövrünün qayda-qanunları bir çox ölkələr kimi Azərbaycanda da hökm sürürdü və onlar bu ölkəni öz müstəmləkələri altında saxlamaq üçün müəyyən qanunlar tətbiq edərək, həmən qanunların həyata keçməsinə çalışırdılar. Hətta kiçik bir müsəlman dövləti kimi onun dilinin və dininin təbliğinə qadağalar qoyulurdu. Belə məsələlərə münasibətini bildirən F.B.Köçərli mətbuat orqanlarında dolayı yolla da olsa fikrini çatdırmağı bacarırdı. Bu isə Azərbaycanı sevməyən qüvvələrin əlinə müəyyən fürsəti verirdi. F.B Köçərlinin ədəbi fəaliyyətində o dövrün tanınmış simalarından olan N.Nərimanovun, Ü.Hacıbəyovun, C.Məmmədquluzadənin, A.Şaiqin, M.Ə.Sabirin, A.Səhhətin və bir çoxlarının müəyyən rolu olmuşdur. Azərbaycan ziyalılarının vətəninə, millətinə olan sonsuz məhəbbətinin nəticəsidir ki, bu gün Azərbaycan dilini qoruyub saxlamaq mümkün olmuşdur. F.B.Köçərli bu ziyalı şəxslərin hər biri ilə vaxtaşırı görüşür və yaxud məktub vasitəsi ilə ana dilinin problemləri haqqında bir çox məsələləri həll edirdi. F.B.Köçərli insanların maariflənməsinin əsas meyar olduğunu anlayır və ən çox qüvvəsini də övladlarımızın maariflənməsinə həsr edirdi. Çünki, inkişafa doğru

gedən yol məhz məktəbdən və maariflənmədən keçirdi. Azərbaycanın böyük mütəfəkkiri və filosof alimi olan Abbasqulu ağa Bakıxanov maarifə doğru ilk addımı yalnız məktəblər təsis etməkdə görürdü. Şüurlarda kök salmış cahil təsəvvürlərin təsirilə bəzi asiyalıların düşündükləri kimi, "Avropa və Asiya qarşısında üstünlük verən tale və təsadüf deyil, maarifdir" deyən A.A.Bakıxanov həmvətənlərinin faydası üçün var qüvvəsini məktəb təsis etmək məsələsinə yönəldərək cəsarətlə bu fikri irəli sürmüşdür. Belə ziyalılarımızdan bəhrələnən F.B.Köçərli balalarımızın doğma ana dilində təhsil almaları üçün var qüvvəsi ilə çalışır və məktəbə, maarifə böyük üstünlük verirdi.

Qori Müəllimlər Seminariyasında çalışan azərbaycanlı müəllimlərlə tez-tez fikir mübadiləsi aparan F.B.Köçərli onlarla olan söhbətlərində də Azərbaycan dilinin tədrisinə, onun inkişaf etdirilməsinə çox diqqət yetirirdi.

F.B.Köçərli elm və maarifin insanın mənəvi inkişafında müsbət təsirini göstərməklə bərabər, qeyd edir ki, "elmsizlikdən və avamlıqdan müsəlmanların ürəyinə qorxu bərk sirişt edibdir. Cəhl və nadanlıq onları cürətsiz, hünərsiz və bir növ üftadə, xar və zəlil edibdir. Qorxuya ümdə səbəb bilməməzlik, elmsizlik və avamlıqdır"(9.s.71) deyən F.B.Köçərli xalqı elmə, maarifə çağırmaqla bərabər, öz mənliyini müdafiə etməyi, cəsarətli, hünərli olmağı da tövsiyə edirdi.

Bildiyimiz kimi XIX əsrin ikinci yarısı Azərbaycanda milli mətbuatın meydana çıxması kimi böyük bir hadisənin təməlinin qoyulması əsri olmuşdur. 1875-ci ildə maarifçi demokrat H.b.Zərdabinin nəşr etdirdiyi "Əkinçi" qəzeti nəinki Azərbaycanda eləcə də qonşu dövlətlərdə və yaxın Şərqdə əks-səda doğurmuşdu. Lakin qəzetin nəşri müəyyən səbəblər üzündən 1877-ci ildə dayandırıldı. Sonra, yəni 1880-ci ildə nəşrə başlayan "Ziya "("Ziyayi - Qafqasiyyə ") və " Kəşkül"ün də aqibəti "Əkinçi" qəzetinin aqibəti kimi oldu. Hər üç qəzet və jurnalın çar çinovniklərinin təqibləri nəticəsində bağlanmasına baxmayaraq, insanlarda sanki yeni bir fikir, bir ideya meydana gəldi. O dövrün ziyalılarının nəinki narazılığına hətta kədərinə səbəb olan bu hadisə başqa-başqa qəzet və jurnalların nəşr olunması üçün müəyyən yolların axtarılmasına səbəb oldu. İki-üç il fəaliyyət göstərən bu mətbuat orqanları bağlanana qədər yəni XX əsrin əvvəllərinədək Azərbaycan dilində heç bir jurnal və ya qəzetin nəşrinə təsadüf edilməmişdir. Bu səbəbdəndir ki, böyük pedaqoq və ədəbiyyatşünas F.B.Köçərli mətbuatımızın tarixində əmələ gəlmiş boşluğu ürək ağrısı ilə qeyd edərək yazırdı: "Axırıncı qəzetənin ki "Kəşkül" dən ibarət ola, zavalından on il gəlib keçdi və bu müddətin ərzində biz ruznaməsiz qaldıq" (1. s. 183).

F.B.Köçərli dil məsələsinə xüsusi diqqət yetirirdi. O hər bir millətlərdə olduğu kim Azərbaycanlıların da öz dillərinə hörmətlə yanaşmalarını və dilləri uğurunda mübarizə etməyin vacib olduğunu vurğulayırdı. F.B.Köçərliyə görə ana dilinə hörmət ilk növbədə ailədən başlayır. Əgər uşağa körpə yaşlarından doğma dilini sevməyi öyrədilərsə sözsüz ki, onda bu dilə qarşı sevgi həmişə olacaqdır. F.B.Köçərli bunun üçün ailə tərbiyəsinə böyük əhəmiyyət verirdi.

Sivilizasiyanın ümumi mənzərəsində hər bir xalqın yeri və mövqeyi onun məktəb və kitabxanalarının, əlyazma və çap kitablarının, yazıçı və alimlərinin təkcə sayı və sanbalı ilə deyil, şüur, bilik, əqidə və yaradıcı qüvvə ilə göstərdiyi səmərəli işin təsiri ilə ölçülür. Bu sahədə XIX əsrdə Azərbaycanda vəziyyət necə idi?

Akademik Mirzə İbrahimovun qənaətinə görə "Azərbaycan xalqının tarixində XIX əsr dönüş əsridir. Bu əsrdə Azərbaycan xalqının həyatı və tarixinin yeni səhifəsi açılmış oldu". (8. s. 345). Dünyanın digər ölkələrində olduğu kimi Azərbaycanda da kitab nəşrinə diqqət artmaqda idi. Bu da öz növbəsində Azərbaycanda təhsilin, səhiyyənin, elmin inkişaf etməsi ilə yanaşı, maariflənmənin də inkişafından xəbər verirdi. Azərbaycan dilində qəzet, jurnal və kitabların çətinliklə də olsa işıq üzü görməsi artıq inkişafın başlanğıcından xəbər verirdi.

Tədqiqatlardan görünür ki, bu əsrdə elm, mədəniyyət, ədəbiyyat və digər sahələrin tərəqqisində onlarca Azərbaycan ziyalıları kimi Azərbaycanın görkəmli publisisti, ədəbiyyatşünası, pedaqoqu və tənqidçisi Firidun bəy Köçərli də yaxından iştirak etmişdir.

Azərbaycan nəsri XX əsrin əvvəllərində özünün yeni inkişaf mərhələsinə çatdı, yeni janrlarla, forma və şəkillərlə, süjet və obrazlarla zənginləşdi, dil, üslub və sənətkarlıq baxımından kamilləşdi.(1. s. 67).

Dil insan həyatında ən mühüm ünsiyyət vasitəsidir. Bu səbəbdən də dil və dil üslubu ədəbiyyatın ayrılmaz hissəsi hesab edilir. Ədəbiyyat xalqın həyat tərzinin əsas tərəflərindəndir. Lakin bu yolun düz olan tərəfini saxlamaq üçün ilk növbədə dilimizin inkişaf edərək təkmilləşməsinə və qorunmasına fikir vermək vacib idi. F. b. Köçərli də bu yolda az əmək sərf etməmişdir.

Əsrin əvvəlindən başlayaraq Azərbaycanın ictimai və siyasi həyatında dil məsələsi əsas məsələlərdən biri oldu. Bəzi hallarda maarifçilərlə inqilabçı demokratların fikirlərində nəzərə çarpacaq cəhətlər olurdu. Lakin hər iki cərəyanın nümayəndələri ümumi xalq dilinə əsaslanan dil uğrunda mübarizə aparır, onu yad təsirlərdən qorumağa səy göstərirdilər. Maarifpərvər və vətənpərvər olan F.B.Köçərli bu sahədə həm də beynəlmiləlçi idi. O xalqlar arasında mehribançılığın və dostluğun tərəfdarı idi. Lakin o bu dostluğun heç bir millətin adət-ənənələrinə, dilinə, dininə toxunulmadan olmasını arzu edirdi. Azərbaycan dilinin saflığı uğrunda mübarizə aparan beynəlmiləlçi alim, eyni zamanda həm də yenilikçi idi. O başqa xalqların ədəbiyyatlarından tərcümələr etməklə, Azərbaycan ədəbiyyatının da başqa xalqlar tərəfindən tanınması üçün və əsərlərimizin həmən xalqların dilinə çevirməyini vacib hesab edirdi. Yüksək biliyə, savada malik olan və mükəmməl rus dilinə yiyələnən F.B.Köçərlinin ədəbiyyatımızın bu sahəsində gördüyü işlər çox böyük olmuşdur.

Dil mədəniyyətin bir forması olduğundan F.B.Köçərli Azərbaycan dilinin yüksək mədəniyyətə malik, axıcı, səlis bir dil olduğunu və Şərq xalqları mədəniyyətində Azərbaycan mədəniyyətinin, xüsusilə də dilinin özünəməxsus gözəlliyini dünya xalqlarına çatdırmaq üçün səy göstərirdi. Dil üslubuna xüsusi diqqət yetirən F.B.Köçərli Azərbaycanın bir çox klassik şairlərini bu cəhətdən çox yüksək qiymətləndirirdi. O, M.V.Vidadinin, M.P.Vaqifin, Q.Zakirin, S.Ə.Şirvaninin, A.Şaiqin, M.Ə.Sabirin əsərlərində dilin qorunmasının nəzərə çarpacaq dərəcədə səlis, saf işləndiyini diqqətə çatdırırdı. Məsələn Vaqifi "Milli şair " adlandıran ədib onun şeirlərinin sadə və axıcı olduğunu qeyd etməklə yanaşı asan başa düşüldüyünü də əsas gətirirdi. Q.Zakirin isə qoşmalarından bəhs edərkən, F.B.Köçərli onu Şuşa şairlərinin içərisində ən birinci və görkəmli yeri məhz Zakirin tutduğuna qeyd edirdi(2. s. 140). F.Köçərli Q.Zakiri "məişətimizin güzgüsü" adlandırmışdır (3. s. 67). Zakirin sadə dil üslubu və şirinliyi Azərbaycan poeziyasında bir çox yaradıcı

insanların diqqətini cəlb etmişdir. F.B.Köçərlinin Zakirin yaradıcılığına verdiyi qiymət onun Azərbaycan dilinin bütün xüsusiyyətlərinin məhz Zakir yaradıcılığında, Zakir qoşmalarında cəm olunmasına bir işarədir.

Dil üslubu cəhətdən F.B Köçərli M.V.Vidadi və M. P. Vaqifin yaradıcılığını yüksək dəyərləndirmişdi. Məlumdur ki, ədəbiyyatımızın XVIII əsr lirikasının zirvəsində M.V.Vidadi və M. P. Vaqif dayanır. F. Köçərli sonradan onlar haqqında materialları əsas əsərinə daxil etmişdir(7. s. 38-39).

Doğma dilinin vurğunu olan F. Köçərli başqa xalqların əsərlərindən tərcümələr edərkən o qədər anlayışlı, sadə Azərbaycan sözlərindən istifadə edirdi ki, oxucular onu gözəl anlaya bilsin. O hər kəlmənin və cümlənin üzərində düşünərək əsərin mənasını əsas götürür və formal təcrübədən uzaq qaçırdı. F. Köçərli rus dilində təhsil almasına baxmayaraq, Azərbaycan poeziyasının və Azərbaycan dilinin vurğunu idi. Tərcüməni xalqlar arasında ədəbi ünsiyyət forması hesab edən ədib, Azərbaycan dilindən rus dilinə tərcümələr etdikdə də bu vasitədən istifadə edirdi.

Zəngin ədəbi dili olan Azərbaycan dilini çox zaman musiqili dil kimi anladırlar. Bu söz xatirinə deyilmiş kəlam deyildir. Həqiqətən də Azərbaycan dili dünya dilləri içərisində özünəməxsusluğu ilə fərqlənir. F.B Köçərli və onun müasirləri bu dilin zənginliyini, saflığını əsas gətirərək onun başqa xalqların dilinə qarışmasına, leksikonuna yabançı sözlərin daxil olmasına qarşı narazılıqlarını bildirirdilər. F. b. Köçərlinin fikrincə yenilikçi və yaxud müasirlik heç də dilin dəyişdirilməsi demək deyil, əksinə dilin daha gözəl formada səslənməsinin inkişaf etdirilməsidir.

Görkəmli ədəbiyyatşünas və dilçi olan F.B. Köçərli dil məsələsinə sırf bu aspektdən yanaşdığı üçün, ciddi şəkildə bəzi ziyalılarla elmi mübahisələr etməli olurdu.

Tarixi mənbələrdən məlum olduğu kimi lüğətlərin, elmi və bədii əsərlərin doğma ana dilində olması məhz XIII əsr ədəbiyyatının ən böyük nailiyyətlərindən hesab edilir. Əvvəlki əsrlərdə olduğu kimi bu dövrdə də Azərbaycan Şərqin ən mühüm mədəni mərkəzlərindən biri olaraq qalmaqda idi. Bu dövrdə yaşayıb yaradan müəlliflər ərəb, fars dilləri ilə yanaşı Azərbaycan dilində də əsərlər yazıb yaradırdılar. "İzzəddin Zəncani (? - ?), Zülfüqar Şirvani(1190 – 1245), Nəsrəddin Tusi(1201 – 1274), Əvhədi Marağayi (1275 – 1338), İzzəddin Həsənoğlu(? – 1260) və başqaları məhz bu qəbildən olan müəlliflərdir"(8. s. 197).

F.B Köçərli ədəbiyyata dərindən bələd olduğu üçün klassiklərin dilimizə olan münasibətini daha çox dəyərləndirirdi. Köçərlinin yaradıcılığını araşdırdıqda onun ən çox klassiklərimizə, folklorumuza və xüsusilə də ana dilimizə istinad etdiyini görürük. O ana dilini sevdiyi qədər torpağına və vətəninə də bağlı idi. Əgər onda bu sevgi olmasaydı, sözsüz ki, belə tədqiqatlarla da məşğul ola bilməzdi. Bu səbəbdən F.B. Köçərlini böyük dilçi alim, hətta "ana dilinin aşiqi" adlandırmaq olar. Bəzi məqalələrində O, dilə səthi yanaşan, onu kökümüzdən uzaqlaşdırmaq istəyənləri kəskin tənqid etməkdən çəkinməyirdi. "Hər bir xalqın dili onun mənəvi sərvəti olduğu kimi, Azərbaycan dili də onun mənəvi sərvətidir" deyən ədib, dilimizin əsrlərdən bəri canımıza və qanımıza hoparaq həyat tərzimizə çevrildiyini anlatmağa çalışırdı. F.B Köçərli "hər bir xalqın dili gözəldir və başqa dillərin öyrənilməsi yaxşıdır və hətta vacibdir, lakin bu heç də o demək deyildir ki, mən öz dilimi dəyişərək başqa dillərdən gələn sözləri dilimə qarışdırmalıyam" deyərək bunun qətiyyən yolverilməzliyini mətbuatda dəfələrlə qeyd edirdi. Təcrübəli müəllim olan F.B Köçərli dilin mədəni həyatımızdakı rolunu düzgün başa düşürdü. O se-

minariyada dərs dediyi tələbələrinə dilin mədəniyyətin əsas qollarından biri və həyatımızın ayrılmaz bir parçası olduğunu anladırdı. F.B. Köçərli dilimizə qiymət verməyimizi və bu dilin başqa xalqlar tərəfindən də hörmətlə qarşılanması üçün ilk növbədə özümüzün dilimizə hörmətlə yanaşmalı olmağımızdan bəhs edirdi.

Dilimizin öyrənilməsi ilə yanaşı klassiklərimizin həyat və ədəbi yaradıcılığına, qədim və zəngin folklorumuza, kitab mədəniyyətinə, dinə və başqa bu kimi məsələlərə də diqqətlə yanaşırdı. Hətta sosial-məişət məsələləri də F. b. Köçərlini narahat edirdi və yeri düşdükdə öz münasibətini bildirirdi. Çünki bütün bunların bir-biri ilə birbaşa əlaqəsi olduğunu anlayırdı.

F.B Köçərli dilin mədəni inkişafı üçün çalışırdı. Təlim-tərbiyə işində dilin, kitabın, təhsilin ən vacib faktor olduğunu və Azərbaycanın gələcəyi olan gənc nəsillərin məhz belə ruhda böyüməsini arzu edirdi. F. Köçərlinin ən çox diqqət ayırdığı sahələrdən biri balalarımız üçün hazırlanan dərsliklərin keyfiyyətli və maraqlı olması idi. O, kiçik yaşlı uşaqlar üçün ancaq onların anlaya biləcəkləri dildə dərsliklərin olmasını vacib hesab edirdi. Bünövrəsi ibtidai sinifdən qoyulan balalarımızın ilk dərsliklərdən aldıqları biliklər onların gələcək həyatlarının inkişaf etməyində əsas mənbə hesab edilirdi. F.B Köçərli bu səbəbdən dərsliklər üzərində həmişə səylə çalışırdı və proqramların tərtibinə xüsusi diqqət yetirirdi. İlk ibtidai əlifba kitabı 1882 – ci ildə çap olunmuş "Vətən dili " dərsliyi hesab olunur. Bu qiraət kitabı Qori müəllimlər seminariyasının Azərbaycan şöbəsində dərs deyən A.O. Çernyayevski tərəfindən tərtib olunmuşdur. "Vətən dili" azərbaycanlı oxucular üçün gözəl bir hədiyyə idi. Ona görə ki, ana dilində dərsliklər demək olar ki, yox dərəcəsində idi(4. s. 51-52).

XX əsrin birinci rübü Azərbaycan ictimai fikri tarixində yeni mərhələ idi. 1905 – ci il inqilabı milli şüurun oyanmasına, elm, maarif və mədəniyyətin inkişafına təkan verdi. Azərbaycanda bir-birinin ardınca maarif ocaqları, xeyriyyə cəmiyyətləri, nəşriyyatlar, kitabxanalar yaradıldı. Milli dilin, milli ədəbiyyatın tədris olunduğu məktəblərin, xüsusilə qız məktəblərinin sayı artdı(5. s. 81).

Qızların təhsil almasına xüsusi tələbkarlıqla yanaşan F.B Köçərli bu yolda əlindən gələn köməyi əsirgəməyərək, ilk növbədə qızların təhsilə cəlb olunmasına və maariflənməsinə çalışırdı. Onun fikrincə təhsilli ana gələcəyə təhsilli övlad verən və övladına millətini, dilini, vətənini sevməyi öyrədən demək idi. Bu əslində belədir. Çünki övlad əsasən ana ilə ünsiyyətdə olduğu üçün, ana onu lazım olan səmtə yönəldə bilir. Görkəmli maarifpərvər olan F.B Köçərli bu xeyirxah işdə tək deyildi. Belə bir xeyirxah və nəcib işə maarifçi-demokrat yazıçılar, ictimai xadimlər və mətbuat ətrafında toplaşan tərəqqipərvər ziyalılar və müəllimlər yaxından kömək edir, əllərindən gələni əsirgəməyirdilər. N. Nərimanov, C. Məmmədquluzadə, M.Ə.Sabir, R. Əfəndiyev, Ə Haqverdiyev, Ü. Hacıbəyov, A. Şaiq, A. səhhət, S. M. Qənizadə, M. Mahmudbəyov kimi onlarla müəllimlər və yazıçılar bu işdə yaxından iştirak edirdilər. F. Köçərli də bu ziyalıların sırasında idi. O həm dərs deyir, həm dərslik və dərs vəsaitlərinin proqramlarını hazırlayır, eyni zamanda da dövrü mətbuatda fəaliyyət göstərirdi.

F.B. Köçərlini ancaq və ancaq yeni üsullu məktəblərin açılması məsələsi düşündürürdü. Yeni dərsliklərin yaradılmasında yaxından iştirak edən ədibin bu sahədə rolu böyükdür. Uşaq ədəbiyyatının zənginləşməsində və yayılmasında da görkəmli onun xüsusi xidmətləri olmuşdur. O şifahi xalq ədəbiyyatının ən yaxşı

nümunələrindən toplanıb hazırlanmış "Balalara hədiyyə"(1912) adlı dərs vəsaitini yeni pedaqoji prinsiplər əsasında tərtib etmişdir. Kitab ziyalılar tərəfindən rəğbətlə qarşılanmışdır. F. Köçərli Azərbaycan uşaq ədəbiyyatının bir sıra məsələlərindən bəhs edən məqalələr vasitəsi ilə və ayrı-ayrı yazıçılara məktublar yazaraq uşaq ədəbiyyatının ilk növbədə dilinin saflığı uğrunda mübarizə aparmağa çağırmışdır. O zaman mütərəqqi ziyalılar tərəfindən rəğbətlə qarşılanan "Ana dili " məqaləsində F. b. Köçərli yazırdı: "Hər millətin özünəməxsus ana dili var ki, onun məxsusi malıdır. Ana dili millətin mənəvi diriliyidir, həyatının mayəsi mənziləsindədir...Hər kəs öz anasını və vətənini sevdiyi kimi, ana dilini də sevir"(5. s. 86).

F.B Köçərli ana dilinin qorunmasında uşaqlarla təbliğatın aparılmasını ən vacib məsələ hesab edirdi. Ədib gənc nəslin tərbiyəsində əxlaqi məsələlərə həmişə ictimai və mədəni inkişaf baxımından yanaşırdı. Kiçik yaşlarından hər bir uşaqda doğma dilinə məhəbbət oyatmaq, onları vətənə və xalqa məhəbbət ruhunda böyütmək, mədəni vərdişləri, müsbət əxlaq normalarını onlara aşılamaq lazımdır. O zaman hər bir fərd öz dilinə hörmətlə yanaşaraq onu qoruyacaqdır. Bax bu idi F.B Köçərlinin ən ümdə arzusu, ən nəcib istəyi. F.B Köçərli Azərbaycan dilin üslubuna, öyrənilməsinə, eləcə də inkişaf etməsində çox ciddi yanaşırdı.

Ana dilini həm tarixi dəlillərlə, həm də müasir həyati misallarla müdafiə edən tənqidçi qələm dostlarına, yazıçılara, müəllimlərə çoxlu məktublar yazır, onlara əsərlərində ərəb, fars ibarələrindən uzaqlaşmağı məsləhət görürdü. A. Şaiqə göndərdiyi bir məktubunda F.B Köçərli ədəbi dilin mənbələri və inkişaf yolları, onun bu gün hələ kifayət qədər öyrənilmədiyi haqqında qiymətli fikirlər söyləmişdir: "Biz dilimizi bilmirik və bunda təqsir bizdədir, dilimizdə deyil. Fars və ərəbə meyl və rəğbətimiz o qədər olubdur ki, öz dilimizdə olan sözləri atıb əvəzinə əcnəbi dillərin qəliz ibarələrini götürmüşük(5. s. 86). Onun dostları olan qələm sahibləri F. Köçərlinin haqlı tənqidindən incimirdilər, əksinə onun bu tənqidini rəğbətlə qarşılayırdılar və hətta əllərindən gələn köməyi ondan əsirgəməyirdilər. Ümumiyyətlə o dövrün maarifpərvər insanlarının yaradıcılığı ilə yaxından tanış olduqda hər birinin Azərbaycanın dilinə, dininə, adət - ənənələrinə olan hörmətini görmək mümkündür. Sadəcə hər kəs öz mövqeyindən yanaşdığı üçün bəzən fikirlərin toqquşması yaranırdı. Əksər hallarda isə bu ziyalı insanların fikirləri üst-üstə düşür.

F.B. Köçərli o dövrün qabaqcıl, maarifpərvər ziyalıları ilə söhbətlərində öz fikrini izah edir və dilinin qorunması uğrunda yerli mübahisədən çəkinməyirdi. Bu çox vaxt bəzi insanların xoşuna getmədiyindən onun dediklərini hətta siyasətləşdirmə həddinə qədər gətirirdilər və haqqında mənfi rəy yaranmasına nail olurdular. Lakin vətənpərvər ədibi heç bir şey fikrindən çəkindirə bilməyirdi. F. Köçərlinin yaşadığı dövr çarizmin hökm sürdüyü ağır bir dövrə təsadüf etmişdir. Bir tərəfdən savadsızlıq, bir tərəfdən ağır sosial durum Azərbaycanda çətin vəziyyətin yaranmasına səbəb olmuşdur. Belə olan vəziyyətdə qəzet, kitab, jurnal nəşr etdirmək və yaxud savadsızlığın aradan götürülməsi üçün məktəblərin açılmasını tələb etmək ağlagəlməz bir iş idi. Hər kəs sabaha necə çıxacağı ümidi ilə yaşayırdı. Lakin maarifpərvər və vətənpərvər ziyalılarımız bu cür çətin şəraitdə həm məktəblərin açılmasına, həm mətbuat orqanlarının nəşrinə əziyyətlə də olsa nail ola bilirdilər. F.B. Köçərli də bu ziyalılardan biri idi. Gənclərin təlim və tərbiyəsində məktəbin misilsiz rolunu qiymətləndirən F.B. Köçərli ana dilində dərsliklərin olmasına böyük ehtiyac duyulduğunu anlayırdı.

F.B. Köçərlinin yaradıcılığında və mətbuatda dərc olunan məqalələrində vətəninə, millətinə, onun adət ənənələrinə olan məhəbbətini görürük. Köçərlinin doğma dilinə məhəbbəti bu məhəbbətdən yaranmışdır. O, Azərbaycan dilinin dünya dillərindən heç də geri qalmadığını və zəngin olduğu qədər çox qədim olduğunu sübut etməyə çalışırdı. Azərbaycan dili bu dildə danışanların tarixi ilə daima əlaqədar olmuş və onların cəmiyyət quruluşlarında baş vermiş hər cür dəyişikliyi özünəməxsus bir halda əks etdirmişdir (6. s. 16).

Dil ünsiyyət vasitəsi olaraq insan fəaliyyətinin bütün sahələrində ona lazımdır. Azərbaycan dili tarixinin bilən F.B Köçərli Azərbaycan ədəbiyyatının tarixi haqqında materialları toplamağı qarşısına məqsəd qoyaraq, klassik yazıçıların qəzəllərində Azərbaycan dilinin zənginliyini və qədimliyini göstərməyə çalışırdı. Öz dövrünün dilçi alimi olan dahi klassikimiz Məhəmməd Füzulinin yaradıcılığına məxsusi rəğbət bəsləyən F.B Köçərli onu özü üçün örnək hesab edirdi. M. Füzuli kamil bir şəxsiyyət olaraq dövrünün fəlsəfəsini, elmini və dilini mükəmməl bilirdi. Bu xüsusiyyətlərinə görə Füzuli əsrlərdən bəri bütün dövrlərdə həm sevilib və həm də yetərincə tədqiq olunub. M. Füzulinin Azərbaycan ədəbi dilinin klassik şeir qolunu-klassik şeir üslubunu yüksək zirvəyə qaldırmaq kimi şərəfli bir işi öhdəsinə götürməsi F. b. Köçərlini Füzuli yaradıcılığına müraciət etməsinə səbəb olmuşdur.

Klassik türkdilli şeirin ilk mərhələsi farsdilli şeirin geniş vüsət tapmış dövrünə, yəni XIV-XV əsrlərə təsadüf etmişdi. Bu dövr elə bir dövr idi ki, əruz vəznində yazılmış əsərlər üstünlük təşkil edirdi. Bu vəzndə yazılmış əsərlər az zaman içərisində yüksək, ali şeir səviyyəsinə yiyələnmək kimi qanuniləşmişdir. F.B Köçərlinin bu cür klassik əsərlərə müraciət etməsi onun ədəbiyyat tariximizi öyrənmək marağına səbəb olmuşdur.

Ədəbiyyat

1. "XX əsr Azərbaycan ədəbiyyatı məsələləri" - Bakı, 1979.
2. "Qasım bəy Zakir" – Bakı, 1985.
3. F. S. Qasımzadə: "XIX əsr Azərbaycan ədəbiyyatı tarixinə dair tədqiqlər" Bakı, 1960.
4. "Kitabxanaşünaslıq və biblioqrafiya seriyası" № 2, Bakı, 1973.
5. Q. Namazov: "Azərbaycan uşaq ədəbiyyatı", Bakı, 1984.
6. Ə. Dəmirçizadə: "Azərbaycan dilinin tarixi", I hissə, Bakı, 1979.
7. Ə. Dadaşzadə: "XVIII əsr Azərbaycan lirikası", Bakı, 1980.
8. İ. Zəkiyev: "Azərbaycan kitabının inkişaf yolu ", Bakı, 2000.
9. Ş. Nəzirli: "Qoridən gələn qatar", Bakı, 2011.

Периханум Мурадова

Ф. Кочарли и радной язык

Резюме

Критик, просветитель и языковед Ф. Кочарли является одним из видных представителей Азербайджанской литературы. Трепетно относившийся к родному языку, Ф. Кочарли критиковал засорение родного языка чуждыми

элементами. Ф. Кочарли был прекрасным педагогом, его также называли фольклористом азербайджанской литературы.

Perixanim Muradova

F. Kocharli and mother tongue

Summary

F. Kocharli is one of the famous figures of Azerbaijan literature, was critic, educator and linguist. F. Kocharli attitudes ninth love for the nature language and criticized the clogging of the language by foreign elements. F. Kocharli was an excellent pedagogue, he was also called folklorist of Azerbaijan literature.

Rəyçi: Şamil Vəliyev
filologiya elmləri doktoru, professor

ƏZİZAĞA NƏCƏFZADƏ
filologiya üzrə fəlsəfə doktoru, AMEA-nın Nizami adına
Ədəbiyyat İnstitutunun doktorantı

NİZAMİ GƏNCƏVİNİN "LEYLİ VƏ MƏCNUN" ƏSƏRİNDƏ OZAN-AŞIQ YARADICILIĞININ TƏSİRİ

Açar sözlər: Məcnun, Qeys, Leyli, türk, ozan, saz
Ключевые слова: Меджнун, Кайс, тюрк, озан, саз
Key words: Mejnun, Qeys, Leyli, a turkish, ashing, saz.

Şərq ədəbiyyatında "Leyli və Məcnun" mövzusunda ilk bitkin süjetə malik iri həcmli əsər yazan Nizami Gəncəvinin eyniadlı poemasının qaynaqları haqqında iki istiqamətdə tədqiqatlar mövcuddur. Əsərin ərəb rəvayətlərinin əsasında qələmə alındığını, Nizaminin məhz Məcnun təxəllüsü ilə şeirlər yazan Qeys ibn-Müləvvəhin rəvayətə çevrilən həyat tarixçəsini ərəbdilli məxəzlərdən götürdüyünü təxmin edənlərlərlə yanaşı, onun xalq yaradıcılığından bəhrələndiyini, Nizami dövründə artıq Azərbaycan folklorunda xalq arasında geniş yayılan mövcud bir dastandan istifadə etdiyini söyləyənlər də var.

Bu müddəalardan hər ikisinin müəyyən mənada doğru olduğunu hesab edirik. Belə ki, Nizami adı gedən əsərində bir neçə yerdə həm "iliyə qədər bədəni çürümüş *fars əsilli, ərəb dilli"* birisindən bəhrələndiyini göstərir, həm də xalq sənətçilərindən də eşitdiklərinə istinad etdiyini bədii şəkildə ifadə edir. (Əlavə məlumat üçün bax: 6, s.162,272)

"Leyli və Məcnun" poemasının ayrı-ayrı fəsillərində Nizaminin ***"Söz sərrafı o vaxtdan bəri düzmüş söz sapına bu inciləri"***, ***"Əfsanə yaradan bir sahib hünər bu qəmli dastanı belə nəql edər"***, ***"Bu söz incisini düzən zaman mən belə danışmışdı bu nəqli deyən", "Deyir söz ustası, onu dinlə sən", "Bu gözəl dastanı bizə nəql edən, o iliyə qədər çürümüş bədən"*** kimi misralarla sözə başladığını görürük. (Bax: 6, s.75, 177, 225, 241, 275)

Aşağıdakı misralarda Nizami sanki bir dastan deyən aşığı dinləmiş olduğunu bəyan edir:

Dinləyin bu ötən, sədəfli sazı,
Görün nələr deyir onun avazı. (6, s.137)

Bu aşiqanə mənzum romanının ağız ədəbiyyatı ilə bağlılığını şairin oğlu Məhəmmədin Axsitanın təklifindən boyun qaçırmaq istəyən atasına söylədiyi aşağıdakı misralarda da görmək olar:

Harda ki, eşq əli bir süfrə açar,
Bu gözəl hekayə ona duz saçar.
Bütövsə, parçasa hələ bu duzlar,
Süfrədə bişməmiş çiy kabab da var.
Sənin qüdrətinlə duz əziləcək,
Kabab da sayəndə bişə biləcək.
Bu qədər nazəndə, incə bir dilbər
Nədən çılpaq qalsın bu vaxta qədər? (6, s.49)

Göründüyü kimi, bu misralarda obrazlı olsa da, xalq arasında geniş yayılmış, eşqdən, aşiqdən söhbət zamanı ilk yada düşən bir mövzunun, belə demək mümkünsə, hələ formalaşmaqda olan bir məhəbbət dastanının nizamsız, pərakəndə şəkildə mövcudluğundan şikayət, hadisələr yığınının bir qəlibə salınmasına, süjet daxilində bədii həllə ehtiyac olduğuna işarə var. Bu da öz növbəsində Nizaminin Azərbaycan şifahi xalq ədəbiyyatında o zaman mövcud olması güman edilən dastanlarla tanış olduğunu, onlardan bəhrələndiyini söyləməyə əsas verir, məhəbbət dastanlarımızın tarixini də daha qədimə aid etmək üçün zəmin yaradır.

Əsərin əvvəlində əxlaqi-didaktik məzmun daşıyan bir hissə ilə rastlaşırıq. *"Hikmət və moizə haqqında"* adlanan bu hissə məhəbbət dastanlarının əvvəllərində işlənən *ustadnamələri* xatırladır. Aşağıdakı misralara diqqət edək:

Boş təbli döyərək hay-haray salma,
Heç kəsin səsinə biganə qalma.
Bir toz görünsə də hər zərrə əgər,
Dünya pərdəsində o da iş görər.
Yaxud, elə orada:
Nə şəhvət, nə yuxu, nə dəki, yemək
Həyatın mənası olmasın gərək.
Yatmağı, yeməyi bu aləmdə sən
Eşşəkdə, öküzdə görə bilərsən.
Təbiət quranda xilqətimizi
Başqa səhifədə yazmışdır bizi. (Bax: 6, s.41)

"Azərbaycan şifahi xalq ədəbiyyatı" adlı dərsliyin müəllifi Paşa Əfəndiyevin məhəbbət dastanlarındakı ustadnamələrin məzmun və vəzifəsi ilə bağlı dediyi aşağıdakı cümlələrə nəzərə salaq: "Məhəbbət dastanları forma cəhətdən də diqqəti cəlb edir. Bu dastanlar ustadnamələrlə başlanır. Hər bir dastanın əvvəlində adətən ustadnamə verilir. Əlbəttə, burada əsas məqsəd dinləyicilərə gözəl insani keyfiyyətlər aşılamaqdan ibarətdir. ... Aşıqlar ustadnamə yaradarkən xalqın təcrübəsini ifadə edən atalar sözündən, aforizmlərdən istifadə edirlər." (2, s.276)

Göründüyü kimi, yuxarıda Nizaminin "Leyli və Məcnun" əsərindən nümunə verdiyimiz misralar öz səciyyəsi etibarı ilə ustadnamələrin tələbini ödəyir.

Nizamişünas Nüşabə Araslının "Nizaminin poetikası" kitabında da *"Qədim türk abidələri və Nizami sənəti"* fəslində şairin "Leyli və Məcnun" poeması ilə xalqımızın ata kitabı "Dədə Qorqud" dastanı arasında müəyyən paralellər aparıldığını görürük. Alim yazır: "Leyli və Məcnun" əsərində oğlunu acınacaqlı vəziyyətdə görən ata öz müsibətini əmmaməsini yerə vurmaqla ifadə edir. ... Maraqlıdır ki, Beyrəkin ölümünü Qazana çatdıran igidlər də belə təsvir olunur: "Qırx-əlli yigit qara geyinib göy sarındılar. Qazan bəyə gəldilər. Sarıqlarını yerə urdular, "Beyrək", - deyü çox ağladılar". (1, s.73)

Nizami "Leyli və Məcnun"unun digər xarakterik süjet incəlikləri ilə də "Dədə Qorqud" kitabına, başqa türk məhəbbət və qəhrəmanlıq dastanlarına yaxınlaşdığını görürük. Məsələn: Məcnun səhraya ilk dəfə at belində, bir əlində silah, bir əlində isə saz güzar edir; *"Məcnunun qəzəl oxumağı"* fəslində aşiq sevgilisini saz kimi bağrına basmağı arzu edir; Xarabalıqda oğlunu tapan atasına müraciətlə Məcnun "Dədə Qorqud" qəhrəmanlari kimi: *"Ey başım tacı, könlüm taxtı"*, - deyir; Leyli isə adı gedən dastan qəhrəmanları tək yaslı ikən qara geyib, göy bağlamasa da, libasını bə-

növşələr tək göy edir; Dəli Domrulun xatunu eşqində sadiq olduğunu sübuta yetirmək üçün "sinəsinə erkək milçək qondurmayacağını" dediyi kimi, Məcnun da məktubunda yarın üzərinə qonan bir milçəyin həqiqi aşiqə bir qartal göründüyü bildirilir və s. belə paralellər aparmaq da olar.

Zənnimizcə, mənzum roman boyu Leyliyə və onun ailəsinə istinadən tez-tez rast gəldiyimiz: ***"əcəm türkü kimi könül ovlardı"***, ***"olmuşam o türkə çolaq bir şikar"*** və başqa bu kimi misraları, Leylinin atasının Nofəllə söhbətində ***"Qorxaraq ərəbin tənələrindən əcəm ləqəbini gəzdirirəm mən"*** deməsi, Məcnunun səhraya güzar etməsinin ***"o evdən türk kimi çıxaraq yenə düşdü köçərilik düşərgəsinə"*** misraları ilə təsvir olunması və türk sözünün işləndiyi başqa nümunələr də bu dastanın şairin dövründə türkdilli aşıqlar içərisində də yayıldığından bir nişanədir. (Əlavə məlumat üçün bax: 6, s.79, 91, 92, 134,)

Maraqlıdır ki, Nizami Leylini və onun ailəsini türk əsilli ərəb adlandırır:

Ərəb torpağında türk idi onlar.

Xoşdur ərəbboylu türk olan nigar. (6, s.114)

Görkəmli dövlət xadimi və ədib M. Ə. Rəsulzadə də *"Azərbaycan şairi Nizami"* adlı monoqrafiyasında bu mövzu ilə bağli ilk danışanlardandır. Lakin, zənnimizcə, şairin "türk" sözünü müxtəlif semantik çalarda işlətməsi faktını Nizaminin Leylinin əsli-nəsli ilə bağlı yazdığı misralardakı fikrilə qarışdırmaq olmaz. Alim yazır: "Bir kürd qızının gözəllini ifadə etmək üçün "gözləri bir türk gözü qədər gözəl idi" deyir. Ərəb gözəllərindən bəhs edərkən yenə türklə müqayisə edir. Məcnunun sevgilisi Leylinin ətrafındakı ərəb qızlarına "Ərəbistanda yaşayan türklər" deyir, sonra da "ərəb əndamlı türklər"ə məftun olur". (10, s.142)

Fikrimizcə, alimin Nizami misralarını tərcümə edərkən verdiyi: ***"Adları Ərəbistanda yaşayan türklər, Ərəb bədənli türk xoş olar"***, - çıxarışı da Nizaminin Leyli və onun nəslinin türk əsilli ərəb, yaxud Ərəbistanda yaşayan türk olduqlarını bildirmək məqsədi daşıdığını göstərir.

Y. E. Bertels *"Nizaminin "Leyli və Məcnun" poemasının mənbələri"* məqaləsində adı gedən əsərin qaynaqları haqqında doğru qənaətə gəlir: "Nizaminin istifadə etdiyi mənbələr iki qrupdan ibarət ola bilər: yazı materialları, ədəbi tradisiya (ənənə - Ə. N.), bir də şifahi rəvayətlər – folklor". (7, s.180)

Alim Məcnun haqqında ilkin orta əsrlərdə qələmə alınan bir çox ərəbdilli mənbələri araşdırarkən *İbn-Küteybin "Kitab əş-şeir və şüəra"* (Poeziya və şairlər haqqında risalədir) əsərindəki qeydə nəzər yetirir, mənbəyə əsasən Məcnunun əsl adının Qeys-ibn-Müad, yaxud Qeys-ibn-Müləvvəh olduğunu və onun Bəni-Ükeyl-ibn- Kəb-ibn-Rəbi) qəbiləsinə mənsubluğunu qeyd edir. Mənbələrdə Məcnunun həyatı ilə bağlı məlumatları sadalayaraq *Əbülfərəc İsfahaninin "Kitab əl-əğani"*də verdiyi məlumatın da Nizami əsəri ilə səsləşdiyini yazmışdır: "Məcnun haqqında rəvayətlərin ən dolğunu "Divani-Məcnun" deyilən əsər sayılmalıdır. Bu kitabda Məcnunun şeirləri toplanmış və Əbubəkril-Valibi əsərə komentarilər (şərhlər – Ə. N.) yazmışdır. (7, s.188)

Ərəbdilli ədəbiyyatimizin mahir tədqiqatçisi Malik Mahmudov *"Nizami və Məcnun barəsində ərəb rəvayətləri"* adlı məqaləsində Nizaminin "Leyli və Məcnun" poemasını yazarkən Azərbaycan folkloru ilə yanaşı digər xalqların şifahi ədəbiyyat nümunələrindən də bəhrələndiyini söyləyir və əsərin mənbələri haqqında yazır: " ... "Leyli və Məcnun"un ərəb dastanları ilə bağlılığı, onun oxşar və fərqli

cəhətləri hələ də həll olunmamışdır, aparılan tədqiqatlar problemin elmi izahı üçün yalnız ilkin zəmin əhəmiyyəti kəsb edirlər. ... Onun XII əsrdə Azərbaycanda da ağızlarda dolaşması sözsüz qəbul olunmalıdır. Nizami də "bu əhvalat məşhur olsa da" deyərkən həmin fikri bir daha təsdiq edir". (4, s.51)

Həmid Araslı "Nizami" toplusunun 1-ci kitabında dərc olunan *"Şərqdə "Leyli və Məcnun" əsəri"* məqaləsində Dunayevski adlı bir alimin qeydlərində "Leyli və Məcnun" haqqında rəvayətin eramızdan 6 əsr əvvəl Babildə yaranmış olduğu versiyasına da rast gəlirik. Həmid Araslı Leylinin – Lilaqs, Qeysin – Qis, İbn-Salamın isə Salamonun oğlu adı ilə verilən bir abidənin mövcudluq faktının şübhəli olduğunu söyləmişdir.

Yusif Ziya Şirvani isə "Nizami" toplusunun 3-cü kitabında dərc olunan *"Leyli və Məcnun" əsərinin meydana gəlməsi məsələsinə dair"* məqaləsində bu məsələyə qayıtmışdır. O yazır: "Leyli və Məcnun" haqqındakı hekayə dərin keçmişlərə, xristianlığa qədərki dövrə, bütpərəstlik mədəniyyətinin son parlayış dövrünə qədər kök atmışdır. Heç şübhə yoxdur ki, bu hekayənin doğması Mesopotamiyada sakin olmuş bəzi xalqların xristianlığa qədər olan ədəbiyyatında əmələ gəlmişdir. Belə fərz etməlidir ki, bu süjet əvvəlcə şifahi xalq yaradıcılığında – folklorda yaranmış, sonra isə tədriclə öz inikasını bu xalqların yazılı ədəbiyyatında tapmışdır, yəni bu süjet qədim sanskrit ədəbiyyatının "Sakuntala", "Gəlilüddəmnə" kimi dünya ədəbiyyatı inkişafına olduqca böyük təsir etmiş qədim abidələrin əmələ gəlməsi tarixi üçün xarakterik olan bütün ədəbi təşəkkül mərhələlərini keçmişdir". (8, s.115)

Müəllif əsərin bütpərəstlik dövrünə aid ilkin variantının bəzi mənbələrdə qeyd olunan Babilistanda mövcud qədim gil lövhələrdə qorunduğu ehtimalının mümkün olduğunu yazır. Alimin fikrincə, əsərin ilkin mənbəsinin ərəblərə məxsus olması şübhəlidir. Belə ki, epik janr özü-özlüyündə ərəblərin klassik ədəbiyyatına ziddir və ərəb mənbələrində kompozisiya baxımından tam və yetkin "Leyli və Məcnun" süjetinə rast gəlinmir.

Yusif Ziya Şirvani Nizaminin "Leyli və Məcnun" poeması üçün daha tutarlı mənbənin məhz xalq ədəbiyyatının, özəlliklə də Azərbaycan-türk folklorunun olduğunu qeyd edir. O yazır: "...poemanın yaranmasında şair üçün əsas mənbə olan və o zaman Azərbaycanda geniş ölçüdə intişar tapmış olan xalq əfsanələri üstünlük təşkil edir. Müxtəlif variantlarda olan bu əfsanələr bu günə qədər təkcə Azərbaycanda deyil, Özbəkistanda və Yaxın Şərqin bir sıra başqa ölkələrində də dildən-dilə dolaşmaqdadır". (8, s.120)

Yekun olaraq alim yenə də əsərin ilk ünsürlərinin Babilistandan Azərbaycana keçdiyini və Azərbaycan, İran folkloru vasitəsi ilə dünyaya yayıldığı fikrinə qayıdır. Lakin Nizaminin "Leyli və Məcnun" yaradarkən Azərbaycan folkloruna istinad etdiyi qənaətinə gəlir: "Öz "Leyli və Məcnun" poemasını yaradarkən Nizami şifahi ədəbi yaradıcılığın bütün zənginliklərindən geniş ölçüdə istifadə etmişdir. Nizami öz əsərində bu gün belə Azərbaycan kəndlərində (xüsusilə dağlıq rayonlarda) ölkənin ən gözəl aşıqlarının sazla ifa etdikləri Azərbaycan xalq variantını əsas götürmüşdür". (8, s.124)

Yusif Ziya Şirvaninin bu tədqiqatındakı tezislər yuxarıda danışdığımız başqa bir məsələyə də aydınlıq gətirir, Nizaminin Leylinin türk əsilli – *"ərəb torpağında türk"* olduğunu müəyyən mənbələrə istinadən söylədiyini iddia etməyə dolayı yolla olsa da əsas verir.

Belə ki, İ. T. Kanyeva, Osman Nədim Tura kimi məşhur şumeroloqlar, görkəmli qazax şairi və diplomatı Oljas Süleymenov və başqaları Babilistanda, İkiçayarasında yaşayan şumerlərin dilinin morfoloji quruluş etibarilə iltisaqi (aqlütinativ) dillər qrupuna aid olmasını əsas alaraq onların türklərlə genetik bağlılığının mümkünlüyünü söyləmiş, şumer dili ilə qədim türk dillərinin bağlılığına aid tutarlı dəlillər gətirirmişlər. (Daha geniş məlumat üçün bax: 5; 60-63)

"Nizami Gəncəvi və Azərbaycan qaynaqları" monoqrafiyasının müəllifi Tağı Xalisbəyli Nizaminin "Leyli və Məcnun" poemasının ideya-mövzu əsası haqqında mövcud mübahisəyə münasibət bildirərkən yazır: "Leyli və Məcnun" mövzusu ilə bağlı əfsanə və rəvayətlər tarixin hər hansı bir bölümündə Ərəbistan yarımadasında və ya Babilistanda əmələ gəlsə də, onun yayılma hüdudları çox geniş olmuşdur. Hətta Azərbaycanda bu mövzunun həm yazılı, həm də şifahi şəkildə geniş yayılmasına dair örnəklər vardır. "Leyli və Məcnun" mövzusu müxtəlif şəkildə çox erkən çağlardan xalqımızın dilinin əzbəri olmuşdur". (3, s.72)

Aparılan araşdırmalar və Malik Mahmudovun da mövzu ilə bağlı tədqiqatı Məcnunun real tarixi şəxsiyyətdən daha çox əfsanəvi sima olduğunu təxmin etməyimizə imkan yaradır. Məcnun təxəllüsü ilə nakam eşqdən şeirlər yazan şair – Qeys ibn Müləvvəhin əsərləri əfsanəvi qəhrəmanın real dona girməsinə zəmin yaratmışdır. Babil lövhələrindəki əfsanəvi şəxsiyyət Qis VII əsrdə yaşadığı güman edilən, Məcnun obrazının prototipi kimi artıq qəbul edilmiş Qeys ibn Müləvvəhdən daha uludur və Malik Mahmudovun da göstərdiyi kimi: "Məcnun istər ömür səhifələri baxımından, istər şeirlərinin kəmiyyəti sarıdan, istərsə də eşqinin mahiyyəti və mündəricəsi cəhətdən Qeys ibn Müləvvəh adı ilə tanınmış real şairdən qat-qat zəngindir. Məcnun sözün əsl mənasında ərəb filoloqlarının fantaziyasının, xalqın yaradıcı təfəkküründün məhsuludur və dünya ədəbiyyatına da, Nizami sənətinə də buradan yol tapmışdır". (4, s.54)

Tədqiqatlarda öz qəribə eşqinə görə "əl-Məcnun" adı ilə tanınan şairin haqqında mövcud olan qədim ərəbdilli yazılı mənbələrin eyni bir məlumatdan qaynaqlandığı, eyni fikrin sadəcə təkrarı olduğu da qeyd olunur.

"Şeir və şüəra" adlı kitabında Məcnun haqqında ilk məlumat verən ərəb filoloqlarından biri, IX əsrdə yaşamış İbn Quteybənin yaradıcılığını xüsusi monoqrafik tədqiqata cəlb edən İmamverdi Həmidov *"İbn Quteybə Dinavari"* əsərində kitabın məlum mövzu ilə bağlı hisssəsinin təsvirini verir və Məcnunun proobrazı haqqında yazır: "Əş-şeir və şüəra" kitabının böyük əhəmiyyəti həm də ondadır ki, o, Məcnun (onun proobrazı şair Qeys ibn Müləvvəh) haqqında bioqrafik məlumat verən ilk yazılı mənbədir. Bu material Leyli və Məcnun eşqi mövzusunda ilkin ərəb rəvayətlərinin əsas əlaqələndirici həlqəsi vəzifəsini oynayıb". (11, s.129)

Sədnik Pirsultanlı da "Nizami və folklor" adlı məqaləsində "Leyli və Məcnun" əfsanəsinin hələ XII əsrdə Şirvan ərazisində bir dastan şəklində yayılmış olduğu fikrini digər alimlərin qeydinə əsasən təsdiqləyir və "Leyli və Məcnun" dastanının qədim dastan versiyasını topladığını qeyd edir: "Tədqiqatçılar "Leyli və Məcnun"u daha çox ərəb əfsanəsi kimi qeyd edirlər. Yusif Ziya Şirvaninin, Azadə Rüstəmovanın qeyd etdikləri kimi, əgər Şirvan torpağında "Leyli və Məcnun" bir dastan kimi oxunmasaydı, onun musiqi sədaları Axsitanın qulağına çatmasaydı, "Leyli və Məcnun" poemasını yazmaq üçün Nizamiyə sifariş verməzdi. Mən Şirvan torpağını gəzərkən "Leyli və Məcnun"un qədim variantını toplamağa nail olmuşam. Das-

tanda Məcnunun hamisi başı taclı bir ilandır. "Leyli və Məcnun" poeması ilə səsləşən çox sayda əfsanələr mövcuddur. Bunların içərisində *"Qanlı göl" və "Pərvanə gölü"* əfsanələri daha çox diqqəti cəlb edir. Həmin əfsanələrdə valideynlər qızlarının azad məhəbbətinə mane olurlar. (9, s.15)

Aparılan araşdırmalar, müxtəlif alimlərin mövzu ilə bağlı qeydləri onu söyləməyə imkan verir ki, Nizami Gəncəvi "Leyli və Məcnun" poemasının mövzusunu şifahi xalq ədəbiyyatından, Azərbaycan folklorunun məhəbbət dastanları, rəvayət və əfsanələrindən götürmüş, özünəqədərki klassik mənbəşünasların və ədəbi tənqidçilərin irsindən öyrəndiyi fikirlər əsasında əsərini real faktlarla zənginləşdirmişdir. Bunun sayəsində də Nizaminin "Leyli və Məcnun" mənzum romanında əfsanə ilə həqiqət, ərəb rəvayətləri ilə türk dastan düşüncəsi çulğalaşmış, qədim köklərə malik məhəbbət əfsanəsi əbədi aşiqlik simvoluna çevrilmişdir.

Ədəbiyyat

1. Araslı Nüşabə. Nizaminin poetikası (ədəbi qaynaqlar və bədii təsvir vasitələri), Bakı, Elm, 2004, 454 səh.
2. Əfəndiyev Paşa. Azərbaycan şifahi xalq ədəbiyyatı, Bakı, Maarif, 1992, 447 səh.
3. Xalisbəyli Tağı. Nizami Gəncəvi və Azərbaycan qaynaqları, Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1991, 296 səh.
4. Mahmudov Malik. Nizami və Məcnun barəsində ərəb rəvayətləri, Nizami və şərq ədəbiyyatı (elmi əsərlərin tematik məcmuəsi) Bakı, Azərbaycan Dövlət Unuversiteti Nəşriyyatı, 1983, səh. 48-68.
5. Nağıyev Cəlil. Qədim Şərq ədəbiyyatı tarixi, Bakı, Asiya nəşriyyatı, 2009, 560 səh.
6. Nizami Gəncəvi. Leyli və Məcnun, Tərcümə edəni Səməd Vurğun, Bakı, Yazıçı, 1983, 303 səh.
7. Nizami. Birinci kitab, Bakı, Azərnəşr, 1940, 265 səh.
8. Nizami. Üçüncü kitab, Bakı, Azərnəşr, 1941, 259 səh.
9. Pirsultanli Sədnik Paşa. Nizami və folklor, "Pirsultan" jurnalı, № 19, 2011, səh. 15
10. Rəsulzadə Məmməd Əmin. Azərbaycan şairi Nizami, Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1991, 232 səh.
11. Гамидов Имамверди. Ибн Кутейба Динавари (Жизнь и труды по шуубизму, «адабу» и критике поэзии), Баку, Элм, 1997, 144 стр.

Азизага Наджзаде

Влияние озано-ашугского творчества в произведение «Лейли и Меджнун» Низами Гянджеви

Резюме

Как первые источники поемы «Лейли и Меджнун» можно взять и легенды в эту тему имеющиеся в Азербайджанской устной литературе. Исследование дают возможность предположить, что во времена Низами уже был сложен любовный дастан в эту тему, которая ходил на устах. В произведение

Низами реальность и легенда, арабские сказание и тюркское дастанское мышление используется во благо обшей идеи.

Azizaga Najafzade

Influence of ozan's and ashug's literature in a poem "Leyli and Mejnun" by Nizami Gandjavi

Summary

Existing legends of Azerbaijan folklore will be able to take as primary sources of Nizami's "Leyli and Mejnun" poem. Investigations allows to suppose existing love epos which telling in this subject in Nizami's time. In Nizami's work reality and legend, the Arab stories and Turkic national thinking it is used for one idea. Nizami uses skill national creativity and creates the original poem.

Rəyçi: Nüşabə Araslı
filologiya elimlər doktoru, professor

LALƏ ƏLİZADƏ
AMİU-nun dosenti
filologiya elmləri namizədi

NİZAMİ SƏNƏTİNİN SİRLƏR DÜNYASINA BİR NƏZƏR

Açar sözlər: Memar, Sənətkar, Çadır, Tağ, Günbəz, Gəzərgi, Qala, Qəsr.
Ключевые слова: Архитектор, зодчий, мастер, шатер, арка, купол, передвижной, крепость, замок, дворец.
Key words: Architect, master, hipped roof, arch, cupola, fortress, castle.

Mütəfəkkir şairimiz Nizami Gəncəvinin əsərlərində dövrünün bir çox elm sahələrinə maraq, təbiət hadisələrinə analitik baxış, nəhayət, bütün bunların cəmiyyət və şəxsiyyətin formalaşmasında tərbiyəvi, estetik rolu, yaşayışın-ölümün, gəldi-gedər dünyanın mahiyyəti və s. yüksək poetik ifadəsini tapmışdır. Bəllidir ki, orta əsrlər Şərq klassikləri, müsəlman ədəbi-bədii təfəkkürünün dini-idealist görüşləri, mifik-əsatiri inanclarla bahəm dünyəvi iliklər və anlayışları da ədəbiyyatın obrazlar aləmində məcaz-simvol sistemi üzərində yüksək poetik ifadələrlə gerçəkləşdirə bilmişlər. Məhz həmin ədəbi stixiya ensklopedik bilik və düşüncəyə yiyələnmiş Nizami Gəncəvinin «Xəmsə»sində özünü məzmun, mündəricə, sujet, kompozisiya, istiqamətində həmçinin ədəbi obraz və simvollar örtüyündə təcəssüm etdirmişdir. Tarixən bəlii mövzu və sujetlər zaman-zaman ayrı-ayrı müəlliflərin qələmində fərqli çalarlar tapmış, hər əsərin təsir və təlqin qüvvəsini bir-birindən seçməyə imkan vermişdir. Bu cəhətdən Nizami yaradıcılığı da istisna deyildir. Şairin «Xosrov və Şirin» poeması əsasında mövzu ilə bağlı mühakimələrimizi bu yazıda ortaya qoymağa çalışmışıq. Dünya, kainat, yaradılış və bunların təbiət hadisələri ilə elmi-fəlsəfi baxımdan əlaqəsi mütəfəkkir şairin nəzərində cazibə qanununa onun elmi məntiqinə əsaslansa da, insan və cəmiyyət planında bunlar daha çox psixoloji, əxlaqi, mənəvi, hissi, idrakı anlam daşıyır. Bütün bular əsərdə «Eşq haqqında» olan mətndə öz yüksək poetik həllini tapır. Eşqin, məhəbbətin, sevginin, sevdanın çox maraqlı poetik yozumları verilir. Bütün bunların insanlar arasında ünsiyyət, doğmalıq, sədaqət, etibar bağları yaratması ilə bahəm cəmiyyətdə əməyə, qurub-yaratmağa bir həvəs oyadan qüvvə olduğunu da anlayırıq.gülün-çiçəyin açılmasında, buludun yağış tökməsində, kəhrəbanın quru samanı özünə çəkməsində, daş-kəsək içində gövhər doğulmasında və s. təbiət hadisələrində insanlara məxsus olan bu böyük həyati gerçəkliyi vacib bir hadisə hesab edir. Bu mənada şairin poetik fikri memarlıq, təsviri sənət, şəhərsalma, nəqqaşlıq və s. bu kimi sənət sahələrində də Nizami qələmində öz yüksək poetik həllini tapır.

Olunca nəqqaşı bu büdxanənin,
Bəzək vurdum ona rövnəqli, zəngin.

Şairin özünün söylədiyi kimi bütün əsərlərinə, o cümlədən sözü gedən «Xosrov və Şirin»nə aid olan bu fikir bizi şairin təsviri sənətlə bağlı mühakimələrinin poetik imkanlar daxilində şeirə gətirildiyinə bir işarədir.

«Xosrov və Şirin»in tərtibindən danışarkən əsəri büdxanə, ona sözdən bəzək düzən müəllifi isə nəqqaşa bənzədir. Demək hər bir bədii əsər özlüyündə bir inşa olunmuş binaya bənzədilir. Binanın inşasında isə elm, bilik və mərifət mütləqdir. Nizami kimi ensklopedik biliyə malik sənətkar memarlıq və təsviri sənətin digər sahələri ilə bağlı fikirlərini ortaya qoyarkən oxucusuna dolayısı yolla məcazın-metaforanın alleqorik ifadə tərzi ilə həm bədii-estetik, həm də elmi-təcrübi biliklər aşılayır. Poemada Xosrov Pərvizin sarayları, saray eyvanı, tağ, çadır, onun sevdiyi Şirini üçün çəkdirdiyi süd arxı haqqında poetik təsvirlərdə bunun şahidi oluruq.

Şəbdiz atın şəkli Bisutun dağı,
Pərviz sarayının eyvanı, tağı.
O qəsri-Şirinə gələn süd çayı,
Xosrovun ovlağı, zəngin sarayı.

Burada şəkil, saray, eyvan, tağ kimi memarlıq terminlərindən istifadə yolu ilə şairin öz ideal qəhrəmanına münasibəti ifadə olunur. Başqa bir yerdə sözdən imarət qurulması, onun özündən sonra yaradanını yaşadacağı bir sənət ərsəyə gətirməsini ifadə edir.

Nizaminin bu əsərində kapital tikililər - qala, qəsr, saray və başqaları ilə bahəm Azərbaycan memarlığı üçün xarakterik olan və xalq arasında olan geniş yayılmış bir termin-söz də diqqəti çəkir.

O altı tağlı filan tirməni bayıra çıxardı.

Və ya

Qarşıda çadır qur, şəqqəni bağla.

Və yaxud

Xosrovun iki çadırı var idi
Sürəyya kimi cəvahirlə bəzənmişdi.
Biri badə içmək üçün aşkarda idi
Biri yatmaq üçün gizlində idi.

Poemada memarlığın bədii-funksional cəhətləri ilə yanaşı, konstruktiv cəhətləri də özünü biruzə verir.

Növbəti çadır kəndiri bir mil, bir milə,
Qapıda növbə ilə bir-bir bağlanmışdı.

Memarlıqda gəzərli adlanan söz termində Nizami dilində elmi cəhətdən öz ifadəsini tapır. Məlum olur ki, «gəzərgi» memarlıq nümunələri olan ç adırda həm həcm-məkan, bədii-estetik, həm də funksional məzmununa görə differensiallaşdırılır.

Memarlıqla bağlı düşüncələrimizi Nizaminin dünya görüşü əsasında ortaya qoyarkən şairin bütün bu sənət düşüncələrinin əlbəttə ki, bədii-estetik xarakterini, onun poemada oynadığı məcaz-metafora sistemi ilə bağlı funksiasını aşkarlamaq məsələlini əsas götürmüşük. Bu baxımdan məsələyə yanaşdıqda iki obrazı qarşı-qar-

şıya qoyarkən müəllif hər ikisinin aşiqliyini və bu yolda fədakarlığını göstərərkən onların Şirinə zansı yollarla qovuşmaq niyyətini maraqlı bir faktla diqqətə çatdırır. Fərhad da, Xosrov da aşiqdir. Lakin onların mənəvi dünyaları bir-birindən fərqli olduğu üçün uğrunda apardıqlartı mübarizə vasitələri də fərqlidir. Xosrov şahzadə imkanlarından istifadə edərək Şirin qəsrinə süd yolu çəkdirmək istəyir. Fərhad isə həmin nəzəri işin təcrübədə iştirakçısıdır. Xosrov pulu ilə, hökmü ilə, Fərhad isə zəhməti, əməyi və zəkası ilə bu işi həll etməyə çalışır. Əslində hər ikisinin məqsədi Şirinə yetməkdir. Burada heç birini qınamaq olmaz. Sadəcə bunu demək kifayətdir ki, eşq əməkçi insan, memar Fərhadı daha böyük sənət uğurlarına həvəsləndirdiy halda, şahzadə Xosrovu pis əməllərdən, eqoistlikdən, xudbinlikdən xilas edib, onu humanizmə, adilliyə və sevdiyinin uğrunda canından belə keçməyə doğru aparan ali bir yoldur. Hər iki aşiqin faciəli taleyi oxucuya çox böyük bir ibrət, əxlaq dərsi verir.

Fərhadla bağlı əsərdən maraqlı bir parçanı diqqətə çatdırmaq yerinə düşərdi.

Dedi: «Burada usta bir mühəndis vardır,
O bilici cavaın adı Fərhaddır,
Mühəndislikdə xariqə yaradandır
Məcəsti bilən və İqlidis açandır.

***

Hər bir iqlimdə və hər bir fəsildə
Özü üçün müəyyən bir yer seçir.
Gül fəslində yeri Muğandır ki,
Ayaq basdığı yerlər (həmişə) yaşıllıq olsun.

Göründüyü kimi təbiət motivi memarlıq və şəhərsalma işində coğrafi-bioloji baxımdan sənətkarın gərəyinə gəlir. Bunlarsız salınan memarlıq kompleksi, tikinti obyekti etibarsız ola bilər. Məsələnin bu cəhəti Nizamiyə, əslində, poetik – lirik psixoloji planda lazımdır. Şairin ədəbi qəhrəmanlarının xarakterində insan xislətindəki müsbət və mənfi cəhətlərin yanaşı yaşaması, tikib-qurmaqla bərabər xeyir işlərlə bahəm, yıxıb-dağıtmaq, paxıllıq, bədxahlıq, pislik və s. mənfi cəhətlərin islahına xidmət edir. Şair göstərmək istəyir ki, insan dünyada xeyir əməlləri ilə qurub-yaratmaq eşqi ilə özünə əbədiyyət qazana bilər. Poemanın başqa bir yerində maraqlı bir fikir keçir.

«Ən pis havası olan bir yer tap
Orada yaraşıqlı bir qəsr tik
Muzdun nədir, bizdən tələb et».

Bu parçada dediklərimiz öz əksini tapır. Bizim üçün daha maraqlı bütün bunların yüksək obrazlı dillə məcazla alleqoriyanın ipək örtüyü arxasından canlandırılmasıdır. Təbiət obrazı insan düşüncəsində sanki eşqlə bərabər keçir. Çünki ulu tanrının yaratdığı hər bir təbiət lövhəsi eşqin cilvələnməsinə, aşiqlərin bir-birinə ruhi-mənəvi qovuşması üçün şairlərin qələmində daima bir əlaqələndirici vasitə olmuşdur. Sanki bitkilərin özündən də insan bir memar kimi əsər yaradır. Təbiət

bir növ özü-özlüyündə dekoratvi sənət nümunəsi qismində insanların xidmətində durmuşdur.

Budaqda meyvə yetişəndə
Əkinçi evini unudur.

Və ya

Şah fərman verdi ki, bağı bəzəmək
Çəmən əkmək, sərv yetirmək lazımdır.

Yaxud da

Çəməndə elə bir sərv bəzədim ki,
Hamı onun şərəfinə yeyib-içir.

Bu baxımdan su, çay, dənizlə bağlı bədii təsvirlər də xüsusi maraq doğurur. Bunların şəhərsalma ilə bağlı vacib əhəmiyyəti Nizaminin poetik misralarında özünü tez-tez biruzə verir. Binalar tikmək, şəhər salmaq üçün konkret coğrafi. Topoqrafik tələblər, bunların iqlim şəraitinə uyğunlaşması dəniz havasının quru və sərin iqlim şəraitində ucaldılan binanın müsbət cəhətləri diqqətə çatdırılır. Onu da deyək ki, şəhərsalma işində dəniz sahili özü də yararlı sahələrdən sayılır. Torpağın üzərində salınacaq tikilini saxlaya bilməsi – memarlıqda ərazinin yükdaşıyıcı xüsusiyyətini nəzərə alınması məsələsini şair aşağıdakı kimi poetikləşdirir.

Torpağın ki, sinəsi boş oldu
Onun üstündə bina qurmaq olmaz.

Burada dolayısı yolu ilə insanlara şamil olunan mənəviyyat məsələsi diqqəti cəlb edir. Atalar sözü var: «Su quyunun dibindən çıxmalıdır, quyuya su tökməklə quyu sulu olmaz». Başqa bir yerdə oxuyuruq.

Hər şeyin təməli əvvəldən gərək möhkəm olsun
Süst binalar tez də uçub dağılar.
O evin dörd divarı möhkəm olmaz ki,
Əsası əvvəldən düzgün qoyulmamışdır.

Mühitdən ayırıb tənhalığı təmin etmək üçün Nizami hətta yeraltı, işığın belə düşmədiyi bir mühiti yaratmağı məqsədəuyğun sayır. Çünki təzadlar kompleksi olan real həqiqətdə özünü dərk etməkdə səs və danışıq kimi bəzən işıq da psixofizioloji tarazlığın əldə olunmasına mane olur.

Yer altında onun xəlvəti bir otağı var idi,
Kədərli (dostunu) həmin otaqda oturtdu.

Binaların, qəsrlərin, qalaların memarlıq xüsusiyyətinə gəldikdə isə Şeyx onların ucalığını, möhkəmliyini, gözəlliyini və əlverişliliyini vacib şərtlərdən sayır. Şairin bu fikri ilə biz aşağıdakı parçalarda qarşılaşırıq:

Şahanə sarayı çox ucadır,
Gördüyü bir saray var göylərə çatır,
Zaman da, zəmin də onun qarşısında yer öpür.
Qranit daşlardan bir günbəz ucaltdı
Əfsun kimi rənglərlə onu bəzədi.

Və yaxud:

Çadırının başı aya qalxmışdı.

Nizami memarlığında gözəllik keyfiyyəti əsərə sonradan əlavə olunmayıb, əsəolə üzvü şəkildə bağlıdır. Ona görə də şair gözəlliyin varlığını vacib komponent kimi qeyd edir.

Orada çox gözəl, müəyyən bir bina var idi
Qranitdən tikilmişdi, bərli-bəzəkli idi.

Yaxud:

İki cür kərpicdən əzəmətli bir qəsr tikilmişdi
Əqiqdən ayrıca bir köşk gördü
Onda xalis qızıldan işıqlı bir igünbəz
Günəşin günbəzi kimi nur saçırdı.

Əsərdən görünür ki, memarlığın bədii-estetik keyfiyyətində müəllifin fərdi yaradıcılıq özümlüyü ilə yanaşı, ənənəyə də böyük əhəmiyyət verir:

Rum qaydası ilə çox bina saldı
Bir aşqası dedi: «Rum əhlinin rəssamlığı
Hər ökə aə diyarda bəyənilmişdir
Digəri tez cavab verdi: «Ey naxışları seçən, eşitmədik ki,
Çin naxışı dünyada əfsanəyə çevrilmişdir?!

Nizami evlərin planlaşdırma və həcm-məkan qurulşunun sifarişçinin, yaxud sahibinin psixi-fizioloji xüsusiyyətləri ilə birbaşa bağlılığının kəşfində funksionalistləri və üzvü memarlıq tərəfdarlarını 800 il qabaqlamışdır. Diqqət yetirək:

Gildən olan ev ki, mənim sarayımdır –

(Onu) mən deyil, mənim yerimə olan bir heykəl hesab et.

«İskəndərnamə»də şair şəhərlər haqqında məlumat verir və şəhərs alma problemlərinə öz münasibətini bildirir: Şəhərlərin plan-məkan quruluşundan nəzəri ümumiləşdirmə səviyyəsində danışdıqca Nizami şəhəri dairəvi, demokratik, bərabər sistemləşdirilmiş harmonik planlaşdırma quruluşu əsasında görür. Konkret şəhərlərə gəldikdə isə ilk növbədə onu qeyd etmək lazımdır ki, 30-a qədər şəhər və ölkə haqqında fraqmentar və yaxud informativ məlumat verir. Təbiidir ki, şəhərlər içərisində Gəncə haqqındakı məlumatına həyəcan və nigaranlıq qoşulmuşdur. Nizami böyük ürək ağrısı ilə Gəncənin 1139-cu ilin payızında baş vermiş zəlzələsini təsvir edir. Eyni zamanda qısa bir müddətdə şəhərin yenidən qurulması

sevinc hissə ilə açıqlayır. Şəhər ərazisində baş vermiş relyef əyintilərinin nəzərə alınmasını da tövsiyə edir.

Şənbə gecəsi Gəncəni yaddan çıxartdı
O qədər qadın, kişi, cavan və qocadan
Ah-nalədən başqa ayrı səs çıxmadı.
Ancaq bir sap gövhər yerində qaldığı üçün
Yenidən o sapa bir daha gövhər düzüldü.
Az bir müddətdə o viranə olmuş yer
Onun hümməti ilə Rumdan da abad oldu.
Sən Yerin titrəməsindən əmələ gələn o çala-çuxura baxma,
İndi artıq xarabəlik ölkədən uzaqlaşıb
Bax ki, taxtı göylər olan bu şahla
Ölkə yenidən necə quruldu,
Palçıqdan olan hasarını çox bəzək-düzəklə
Yenidən qızıl divarlarla əvəz etdi.

Bərdənin təsvirində isə təbiət-iqlim keyfiyyətləri ön plana çəkilir. Azərbaycanın bu dilbər guşəsində cənnəti xatırladan meşələri və İrəm bağına bənzərr bağı Səfidi xüsusi qeyd edir.

Göründüyü kimi Nizami şəhərin sadə təsvirini deyil onun funksional, şəhərsalma, yaxud praktiki cəhətdən əhəmiyyətli olan xüsusiyyətini açıbb göstərir:

Dərbənd bir qala idi, içində çoxluca dövlət.g

Qala o qədər uca idi ki, onun başına ox, yaxud kəmənd çatmır, mancanaqdan atılan daşlar bir kəsək belə qopara bilmir və cəngi arabaları oraya yol tapa bilmirdi.

Ordu qırx gün nərə çəkdisə
O qaladan (Dərbənd-N.Ə.) bir kəsək də qopara bilmədi.
Qalanın ucalığında oxlar qanad salırdı,
Elə bir kəmənd yox idi ki, onun başına çatsın
Daş atanlar div kimi dəli olmuşdular,
Gəlin kimi alınmaz qala qarşısında xəcalətdə idilər.

Şair Dərbənd yaxınlığında olan Sərir qalasından məlumat verir. Bu qala haqqında elmi ədəbiyyatımızda iz qalmadığından şairin Sərir qalası haqqındakı sözləri müəyyən mənada tarixi və coğrafi fakt kimi də maraqlıdır:

Dedilər: «Burada bir yaxşı qəsr var,
Tünd cənub yelləri ondan uzaqdır.
Mina çəkilmiş daşdandır, cənnət daşıtək,
Gözəllikdə, ürək açmaqda behişt kimidir.
«Sərəfraz sərir: onun adıdır.

«Sərir» qalası - - «Sərəfraz sərir» - Keyxosrovun taxtı və camı da ordadır. Nizaminin fikrincə, Dərbənddən Sərir qalasına getmək üçün dağlara çıxmaq lazımdır.

O qədər üzü yuxarı qalxdı ki, sanki göylərdən keçdi
Hey qalxdı, hşeç yerdə dayanmadı,
O fırlanan çərxə çatmaq üçün yüz dəfə fırlandı
Gördü bir qaladır, göylərə qalxmış
Döyüşlərdə heç kəs onun adını hələl çəkməmişdi.

Şəhərin bədii tərtibindən danışdıqca şair həyati və nəzəri müəddəaların kompleksini verərək milli fəlsəfi-estetik simbioz nümayiş etdirir. Şəhərdə məhəllələr, mərkəz və ucqarlar kimi differensiallaşma aparılmaqla yanaşı o, şəhəri teatrabənzər emansipativ paradiqma kimi göstərir. Şəhər insanların yalnız gündəlik maddi tələblər intaqralı deyil, həm də mənəvi dünyasının təcəssümüdür.

İsfahan da ürəyə yatan şəhər
İpəklə, gövhərlərdə bəzəyə tutmuşdu.
Küçələrdə evlər üstündən
Əlvan əqiq xatılar asıldı.

Burada şəhərin Azərbaycan milli tətbiqi sənət atributları ilə bəzədilməsi də diqqəti cəlb etməyə bilməz. Şəhər ipəklə, gövhərlərlə, evlər üstündən asılmış əlvan əqiq xalılarla, bayraqlarla, küçə və bazarda çadırlarla və b. bəzədilmişdi. Hər çarşu başına nəğmələr oxuyan mütriblər, bərbət çalanlar gəlmişdi, gül-çiçəyin qədəri bilinmirdi.

Şair şəhərlərdən danışarkən onların həcm-məkan xüsusiyyəti ilə yanaşı, rəng düzümünə, rəng çalarına da əhəmiyyət verir.

Şair rəng faktorunu şəhərsalma vacib- şərtlərdən sayır. Rəng şəhər haqqında ümumi təsəvvür yaradan ilkin və emosional estetik əhvalın səviyyə və istiqamətərini yaradan amildir. Həqiqətən bizim şəhərin plan quruluşundan əvvəl gördüümüz onun həcm-məkan və rəng xüsusiyyətidir.

Nizami adi həyati qayğılar içərsində yaşayan şəhərləri belə, koloristik xüsusiyyətdən kənar təqdim etmir. Burada rəng xüsusiyyəti əhəmiyyəti keyfiyyət səviyyəsinə qaldırılır:

Dəniz kənarında ilkin olaraq
Yaşıl bahar kimi bir şəhər saldı.

Nizami bizi şəhərlərlə bağlı bir çox hadisələrdən sonra «ölmüş şəhərlə də qarşılaşdırır. Şəhərə daxil olanlar onu insansız-boş görüb tərk edib də gedirlər. Ola bilsin ki, bununla bizə şəhərin gözəlliyii və qiyməti şəhərsalma quruluşundan, bağlarından, binalarından, yollarından da çox insanlarıdır, - deyir.

O yerdən bir şəhərə gəldi
Ki, (orada) adam çox axtardı və onu tapmadı
Şahın ordusu yola düşdü.

Yaşayış məskənlərinin funksional planlaşdırma cəhətinə də diqqət yetirir. Məlum olur ki, şəhər və kəndliyindən asılı olmayaraq bağlar kütləvi yaşayış mə-

həllərindən, zonasından aralıdır. Eyni zamanda şəhərlər kimi bağ-bostanlar da mühafizə səddi içərisindədir. Başqa sözlə desək, yaşayış məskənlərində mahiyyətindən irəli gələn funksional bölgülər aparıldığından xəbər verir.

Güllər gəldi, bağın qapısını aç!
Nizami şəhər bəndindən qurtulub bağa gəlmişdir
Sən bostanı Çin ipəyiylə bəzə.

Yaxud:

Cənnət kimi bəzənmiş bir kənd görəcəkdir
Ətrafı bağ-bağat, su və əkinlə dolu.

Nəhayət, Nizami bizi həyati həqiqi və fantasmoqoniq şəhər, ölkə və diyarla qarşılaşdırandan sonra öz analitik təxəyyülünün, yaxud fəlsəfi düşüncələrinin məhsulu olan nəzəri quruma gətirib çıxarır. Məlum olur ki, bütün əsər boyu təriflədiyi şəhərlər və yaşayış məskənləri, onun arzuladığı ideal şəhərdən çox-çox uzaqdır. Əfsanəvi, əlçatmaz görünən, eyni zamanda obyektiv və dahiyanə yaratdığı Günəş şəhəri ilə bizi tanış edir.

Göründüyü kimi dahi şairimiz Nizami Gəncəvinin «Xosrov və Şirin» poemasında eşqin ali qüdrəti, onun insanlarda yaşayıb, yaratmaq həvəsi xüsusi bir eşqlə, zövqlə tərənnüm edilmişdir. Məqaləmizdə məqsədimiz bu deyilənlərin poetik dilin, bədii sözün qüdrəti ilə canlandırılmasında hansı xüsusi bədii təsvir vasitələrindən istifadə olunduğunu araşdırmaqdır. Əlahiddə olaraq şairin yaradıcılığından qırmızı xəttlə keçən təsviri sənət və bununla bağlı düşüncələrin həmin əsərdə sujet, kompozisiya və obrazlar silsiləsində məcaz-metafora baxımından yerini müəyyənləşdirməkdir.

Düşünürük ki, Nizami yaradıcılığı üçün səciyyəvi olan bütün sənət örnəkləri bu əsərində də özünün yüksək bədii həllini tapmışdır.

Ədəbiyyat

Nizami Gəncəvinin «Memarlıq düşüncələri Nəriman Əliyev Bakı-Gəncə 2012
Nizami Gəncəvi. «Xosrov və Şirin». Bakı, «Elm» nəşriyyatı, 1981, 376 səh.
А.Ю.Казыев. «Художественное оформление Азербайджанской рукописной книги XIII-XVII веков» Москва, 197, 357 страница
Nizami Gəncəvi Bakı. 1947
Nüşabə Araslı Nizami poetikası Bakı, 2004

L. Alizade

Mystery of Nizami`s akt at glanse

Summary

In a given article we concentrated on a less researched side of Nizami's works. Because, words, allegoric expression style and symbolism found in all works of the great poet needs special research. It is clear that, in order to understand thoughts, hidden meanings and philosophic and esthetic harmony of the poet with encyclopedic knowledge, we need to understand overall literary style and idea

streams of the Eastern poetics. In this meaning, literary expression of knowledge in architecture, painting, typography, urban planning, in one word, engineering and architecture with technology is the main characteristic of our research.

Every single amazing saying certainly is stemming from word treasure and worldview of the great poet. Our purpose is to underline these characteristics. Yet, a larger research of the poet in this area is the work of future.

Л. Али-заде

Краткий взгляд в тайный мир творчества Низами

Резюме

В настоящей статье рассматривается поэтические оссобенности великого мыслителя, в частности аллегории. Оссобе внимание уделяется к образной выражении, иносказание, которое вооплашает в себе научные, а также эстетические знание в области архитектуры, зодчества, живописи, инжинерно – строителъствео… Конкретно в поэме «Хосров и Ширин»

В своих кратких заметкво и анализов «Хосров и Ширин» мы думаем, что поэма эта пока еще не достаточно расследована в порядке языка аллегории – иносказание.

Приведенные нами примеры из поэмы, кажется, подтверждают отмеченную характерную черту аллегорического стиля творчества Низами.

Rəyçi: Teymur Kərimli
AMEA-nın müxbir üzvü

ШОНИЁЗОВ МАХМУДЖОН ОЧИЛОВИЧ
докторант Национальной университет Узбекистана

ЯВЛЯЕТСЯ ЛИ ОДА СИДДИКИЯ ЗАКИРХАДЖИ ЭШОНА НАМАНГАНИ МУНАЖАТ В ВИДЕ МУХАММАС ПО-АРАБСКИ

Açar sözlər: müxəmməs, münacat, mütəsəvvüf, məsnəvi, Ravx (cənnət bağı), bülbül, antologiya, behişt, Dahbəd
Ключевые слова: Мухаммас, мунажат, мутасаввиф, месневи, ёри гор, този, приверженность, «Тохо», «Коф», Равх (райский сад), соловей, бехишт, анталогия, Даҳбед.
Keywords: muhammas, minaja, masnavi, Ravh (gardens of paradise), paradise, nightingale

Зокирходжа Эшан Намангоний является одним из шайхулисломов кокандского хана Умархана (1810-1822). Во введении «Мажмуаишоирон» не приводятся сведения о нем, однако несмотря на это, разбросанная информация о нём свидетельствует о том, что он был духовным наставником. Вторая часть «Мажмуаишоирон» состоит из од, сначала начинается мухаммас посвященная Закирхаджи Эшону на арабском языке. Перед началом этого мухаммаса Фазли приводит месневи в 44 бейтах. В этом месневи пишется о приверженности Сиддику Хазрата Абу Бакр и написанию мухаммас и названию «този калом» в кругу мастеров слова. Арабское слово «този» имеет значение араби конь, летающий конь. Впервые Фазли использовал арабский стих, потому что в сборниках других авторов не встречался арабский стих. во-вторых никто не говорит красноречивей и прекрасней, чем Закирхаджа Эшон Намангани. Факты наших слов приводятся в месневи:

Значение: Его стихи как слова великих наставников, в нем есть духовенство и художественный афоризм.

Пулатджан Домулла Кайюми в “Тазкираи Кайюми” дает краткую информацию о жизни и деятельности Закирходжи Эшон Намангони:

«Закир – этот человек из Намангана, зовут Закирходжа. В истории встречается как Эшони шайхул ислом Намангани. В начале учился в Намангане, затем в Бухаре и прославился в области поэзии и литературы. В Самаркандском области в поместье Дахбед получил знания от шейха Халифа Сиддик, в Какане Умархан встретил с почетом и дал звание преподаватель медресе и шайхулислама в соборном мечете» [2, ст. 351-354].

Значение: Его слова четко ясны как Муножоти Сиддиқи Акбар. Абу Бакр приятель пророка в горе, он путеводитель всего поколения в религии. Иногда имел молитвы Богу, из этого появился этот мунажат. В качествах горного приятеля пророка есть привычка стильных стих. Он дружился с людьми последующими Богу, в душе у него сильное благородство. Исследуя его слов в виде мунажат, написан этот мухаммас.

«В «Мажмуа туш шуаро Фазли отметил его как Хожаи Калон. В книге «Қасидаи Сиддиқий» на арабском языке приведено другое имя» [2, ст. 351-354].

Мухаммас Эшони Шайхул Ислом. Сравнивая самую достоверную рукописную копию №7510 “Мажмуаи шоирон”, сохраняемую в фонде рукописей АН РУз ИВ, ташкентской копией 1900 года изданной в Ташкенте издательстве «Ильн» были некоторые текстовые различия. Мунажат в виде мухаммас состоит из 11 пунктов. Слово в литографии “Истажид” являющий первое слово третий строки первого пункта в рукописи «Усжуд», значения в литографии прими, в рукописи клонись, в рукописи правильно. Первое слово четвертой строки в литографии «жад» в рукописи «хуз», «жад» по-арабски дед, «хуз» держи, в оригинале правильно. Во втором слове третий строки второго пункта тоже есть орфографические ошибки, “алайҳи” написано как “илайҳи”. “алайҳи” значит наверх “илайҳи” на расстояние. В арабском алфавите слово “алайҳи” пишется с буквой “айн”, “илайҳи” с “алиф”. Последнее слово третий строки седьмого пункта в литографии “талал” в рукописи “халал”. В арабском “талал” значит руина, развалина, “халал” недостаток, повреждение, уничтожить. Третье слово последней строки последнего одиннадцатого пункта в литографии “акбар” в рукописи “осий” слово в рукописи по значению правильно.

В результате наших исследований факты и сведения в книгах “Жибалул зунуб сайлул гуфрон” и Авроди Карани, изданные в Медине показывает что, эта ода в виде мунажат относится Абу Бакр Сиддику. В книге Авроди Карани эта ода издана в арабской графике. Но в процессе издание текст укорочен и 33 бейта пропущены. Изданы только две последние строки каждого бейта. Фақат ҳар бир банднинг охирги икки мисраси нашр қилинган. Более того, оригинальный текст № 7510 АН РУз ИВ и тексты книги “Жибалул зунуб сайлул гуфрон” изданной в Медине похожи по сравнению букв и порядку строк. При сравнении текста Авроди Карани с оригинальным текстом порядок 5,6,7,10 строк изменен и нарушен. Кроме того, литография сохраненная под № 23240 АН РУз ИВ изданный в Турции и текст Абу Бакр Сиддика в виде мунажат неполный.

Значение:

О, боже! Окажи милость у себя и укажи (правильную) дорогу. Не отказывай мне быть в Равхе (райском саду) и пить воду салсабил (название источника в рае).

Сказав эту преданию от угрозы и алчности вдохновлюсь,
Прояви милосердия к бедным, О мой бог!
Во истину придет к тебе нищий, О Жалил!
Из за страдание его души нет доброты и милосердия,
В любой ситуации Тебе молятся из ада.
Положи капельку из реки своей достоинства, О Халим.
Грех его велик, прости этот великий грех.
Конечно, он бедный, грешный и жалкий (божий) раб.
Движение к эгоизму неправильно,
В нем есть смута и недостатки, эгоизм за эгоизмом.
Невоспитанность, коварные слова, затем веселье и бесполезные дела.
В нем есть бунт и предания, ошибка за ошибкой,
А у тебя милость и совершенство за великим даром.

О, добрейший к своим рабам, О, Собур! О, Сомад!
Твой раб стоит у твоего порога, с покорностью, О, Ахад!
День и ночь плача от угрозы Смерти,
молвит: «О, Боже! Мои грехи как пески».
Помилуй каждый мой грех! Прости Жамил.
Отбери грехи с нас,
Помилуй нас, О, милостивый! Сделай наши ошибки помилованными.
Прими наши молитвы из уважения к «Тоҳо» и «Қоф»,
Дай нам богатство и береги от боязни.
О, Боже! Безусловно, Ты присуждаешь, а Джебраил призывает,
О, наш Бог! Если Ты не помилуешь наши грехи в совершенстве,
Твой раб не покорил бы достижение и спасение при нас.
Ты присуждаешь справедливо среди людей, где бы они не были,
прикажи огню охладится! О, во имя Бога Халил, как ты сказал,
«О, огонь, Становись холодным».
Мое покорность, О, Бог! Если даже выше горы,
Твоя речь и милость выше его.
Не имею ни намаза, ни уразы без недостатка.
О, Боже! Как мне быть теперь? Нет моих благих дел.
Много плохих дел, мои молитвы бессильны.
О, Боже! Ты оживаешь заново в сердцах,
Не допускай меня к коварным людям!
Ты знаешь и секреты и откровенности душей.
Ты довольствуешь, лечишь в трудных ситуациях.
Ты мой Бог, Я доволен тобой, Ты наилучший посланец для меня.
Прими мои требования, О, Боже! Ты принимаешь требований и милуешь многократно.
Ты лечащий больных, окажи любезность и исцели меня, я болен.
Не бросай меня в плен как грешника моей прожорливости.
О, мой Бог! Дай ключ к совершенству, Ты Ваххоб и Ты Карим.
Дай мне мою мечту и укажи правильный путь.
Помилуй мои грехи и прими мою молитву.
Пусть добрые слова и дела станут моей манерой,
Улучшай мое состояние и надежды соответственно моим терпениям..
У меня больная душа, Ты лечишь недуг недомогание.
О, Закир твоя прожорливость беспредельна и неправедна,
Раскаивайся к Аллаху истинно и убого как Насух.
Совершай радения, молись день и ночь,
Кде Моисей? Кде Исус? Кде Яхя? Кде Нух?
О, Ты мой грешный друг! Кайся Мавлоно Халилу.

Пулатжон домуло Каюми сказал в книге «Тазкираи Каюми» что, Закир Худжа Эшон Намангани создал мухаммас к известному газелью Фузули начинающий со слов «Шифои васл қадрин ҳажр ила бемор ўландан сўр» и газелью Муҳаммада Амина Ходжа Эшон (Кияс).

Не смотря на то что, ода упомянувшая поэта в виде мухаммас не является его творчеством, в «Мажмуаи шоирон» кроме мухаммаса есть также га-

зель на персидско-таджикском языке. Следуя некоторым исследование стало известно приверженность узбекских и таджикских поэтов духовному наставнику и учителю. В частности, один из первоначальных стихов Фано написанных здесь следует, Зокирхаджи Намангани сказав:

Парешонй зулфат кам мабодо як сари муе,

Ба ҳар тораш гирифт ораст чандин сарви дил жўе**.**

Значение:

Не уменьшай распущенность твоих волос,

Сколько людей являются пленниками его локон» [6, ст. 31]. Также многие поэты написали вслед за ним.

Мы ощибимся сказав что, Фазли Намангани не знав автора отметил Закира Ходжи Эшона автором оды Абу Бакра Сиддика в виде мухаммас. Потому что, в 44 бейтном месневи перед оды сколько бы не хвалили Закира Хаджи Эшона особенно указали Абу Бакра. В «Тазкираи Кайюми» Пулотджан Домулла Кайюми ограничился словами Фазли. У него не было цели сделать исследование по Закиру Хаджи Эшона Намангани.

Исследование деятельность суфистического поэта имеет значение не только в узбекской литературе, но и в таджикской литературе оно несравнимо, многие поэты сделали приверженность написав татаббуъ и тахмисы. И считали его наставником и преподавателем. Узбекской литературе считается главным успехом находка рукописей этого узбекского поэта занимавшимся одинаково в арабском, персидско-таджикском и узбекском языке.

Список использованной литературы

1.Муҳаммад Зоҳид Қутқу ибн Иброҳим ал- Бурусавий.Авроди Қуръоний. Моваруннаҳр. Тошкенг. – 2005,703 бет. (Таржимон, шарҳ ва изоҳлар муаллифи: Баҳриддин ибн Сафар ан-Нурий ал Ҳанафий)

2.Пўлотжон Домулла Қайюмий. Тазкираи Қайюмий. –Т.: “ЎзФРА қўлёзмалар институти таҳрир-нашриёт бўлими”, 713 б.

3.Фазлий Намангоний «Мажмуаи шоирон» ЎзРФАШИ қўлёзмалар фонди. №7510 қўлёма.

4.Фазлий Намангоний «Мажмуаи шоирон»нинг тошбасма нусхаси. –Т.: «Ильн», 1900 .- 504 бет

5.Фузулий М.Девон.“Шарқ”. Т.– 2009, 303 б. (Тузувчи, сўз боши ва изоҳлар муаллифи Э. Очилов)

6.Шодиев Э. XIX аср хўжанд шоирлари ижодида зуллиисонайинлик анъаналари (Ўзбек-Тожик адабий алоқалари тарихидан). Ленинобод – Тошкент. 1971,445-бет.

Шониёзов Махмуджон Очилович

Является ли ода Сиддикия Закирхаджи Эшона Намангани
мунажат в виде мухаммас по-арабски

Резюме

В данной статье исследуются оды Закирходжи Эшана Намангани в форме мухаммасов, приведённые в антологии «Мажмуаи шоирон». Зокирходжа Эшан Намангоний является одним из шайхулисломов кокандского хана Умархана (1810-1822). Во введении «Мажмуаишоирон» не приводятся сведения о нем, однако несмотря на это, разбросанная информация о нём свидетельствует о том, что он был духовным наставником. В статье осуществлен текстологический анализ и перевод с арабского на узбекский язык даного мухаммаса.

Shoniyozov Makhmudzhon Ochilovich

Whether Siddiky Zakirkhadzhi Eshon Namangani's ode is
minajat in a look of muhammas in Arabic

Summary

In this article Zakirkhodzhi Eshan Namangani's odes in shape muhammas, given in the anthology “Majmuai Shoiron” are investigated. Zokirkhodzha Eshan Namangony is an one of shayhulislam of Kokand khan Umarkhan (1810-1822). Data aren't provided in "Majmuai shoiron's" introduction about is mute, however despite it, scattered information on it testifies that he was the spiritual instructor. In article the textual analysis and transfer with Arab on the Uzbek language given muhammas is carried out.

Şoniyazov Mahmudjon Oçiloviç

Zakirhacı Eşon Namanqaninin minacatı ərəb dilində müxəmməs kimi

Xülasə

Bu məqalədə Zakirhacı Eşon Namanqaninin “Məcmuəyi şairon” antologiyasında müxəmməs formasında verilən odaları araşdırılır. Zakirhacı Eşanov Namanqani Kokand xanıl Umarxanın şeyxülislamlarından olmuşdur (1810-1822). “Məcmuəyi şoiron”un girişində onun haqqında məlumat vermir, lakin buna baxmayaraq, onun haqqında səpələnmiş məlumat onun mənəvi ustad olduğunu göstərir. Məqalədə bu müxəmməsin mətn təhlili və ərəb dilindən özbək dilinə tərcüməsi təqdim edilir.

Rəyçi: Afaq Ramazanova
filologiya üzrə fəlsəfə doktoru, dosent

PƏRİXANIM SOLTANQIZI
filologiya elmləri üzrə fəlsəfə doktoru

HİYLƏGƏRLİK MOTİVİNİN XALQ QAYNAQLARINDA, QAZAX VƏ AZƏRBAYCAN ƏDƏBİYYATLARİNDA ƏKSİ

Açar sözlər: Xalq yaradıcılığı-hiyləgərlik Motivi-sxolastika
Key words: Folk art, Styness motive, Scholasticism.
Ключевые слов: Народное творчество- хитрость Мотив- схоластика

"Əzim haqqında nağıl" (Tərcümə edən Ələkbər Ziyatay) əsərini görkəmli Qazax şairi Abay Kunanbayev şərq motivləri əsasında yazıb. Müəllif bu nağılı "Min bir gecə" nağıllarının söyləyicisi Şəhrizadın dilindən qələmə alıb. "Şəhrizad danışan bir nağılı mən, danışmaq istərəm xalqıma həmən Mustafayla Səfa o iki qardaş Bağdad şəhərində tutmuşdu məskən" (1, səh187). Səfa nəqşbənddir, Mustafa isə rəssamdır. Atadan yetim qalan qardaşlar seçdikləri sənətlə güc-bəla ilə dolanır. Güzəranlarının ağırlığından şikayətlənir və dolanışıq üçün hansı biri varlanarsa, kasıb olana kömək etmək ümidi ilə vədələşib ayrılırlar. Gənc olduqlarından üzləşdikləri əzab-əziyyətə, hicrana qatlaşırlar. Böyük ümidlə Səfa Çinümaçində Mustafa Balsura şəhərində məskunlaşır. Müəllif onların sonrakı aqibətindən söz açmır. Əsərdəki əhvalatlar Əzimlə bağlı təsvir olunur. Əzim Balsura şəhərində məskunlaşan Mustafanın oğludur. Mustafa sənətilə yaxşı dolanmış hətta öləndən sonra da ailəsi, oğlu ehtiyac içində belə yaşamamışdır. Qardaşlar ayrılandan sonra Mustafadan fərqli olaraq Səfanın heç bir yerdə əsərdə adı çəkilmir. Bəlkə də əsər yarımçıq qaldığından müəllif ondan bəhs edə bilməmişdir. Onunla bağlı əsərin sonunda nəsə demək istəmişdirsə də bu cəhətdən mümkün olmamışdır.

Əzim mədrəsə təhsili alır. Atasından rəssamlıq sənətini mükəmməl öyrənir, sənətini sevir. Güzaranı yaxşı keçir. Zəhmətə qatlaşır. Lakin tamahının qurbanına çevrilir. Saxta kimyagərin "Oyunbazlığının oyunçusu" olur. Rahat firavan həyatı ilə vidalaşır.

Bir gün Əzim dükanında tək oturduğu vaxt bər-bəzəkli, üst-başı bərq vuran bir qoca onun yanına gəlir. Onunla hal-əhval tutur. Rəssamlıq sənətilə onun yaxşı dolanmadığına işarə edir, özünün "kimyagər" olduğunu, misdən qızıl düzəltdiyini az əmək sərf etməklə çox qazandığını deyib Əzimdə maraq yaradır. Gənc rəssam əhvalatı anasına danışır. Ana qocanın istədiyi misi ona verməyə razı olub varlanmaq eşqi ilə xəyal qursa da şübhəyə düşür.Oğluna ehtiyatlı olmağı xəbərdarlıq edir. "Belə bir elm var-dedi: anası, amma bax. --- deyib başını tərpətdi. Ovsunçu olmasın o qoca iblis?" (1, səh190) Ana tamahı üzündən özü də bilmədən oğlunu fəlakətə sürükləyir. Narahatçılığı da səbəbsiz deyil. Kimya elmindən saxta kimyagərlərdən onun da xəbəri var. Oğlunun saxta kimyagərin ovsununa düşə bilməsindən qorxsa da var-dövlət hərisliyi ananın ağlını, şüurunu korlaşdırır.

Xalq yaradıcılığından qaynaqlanan Nizami Gənəvi hiyləgərlik motivinin kimya elmində işlənməsini "Sirlər xəzinəsi"(Tərcümə edən Xəlil Rza Ulutürk) poemasında çəkişən iki filosofun dastanında poetikləşdirmişdir. Mənəm-mənənlik iddiasında olan bir mülkə iki ortaq həkimin arasındakı ədavət kəskinləşir.

Mənlik olan yerdə sənlik-şam yanmadı
Birdir iki olsa haqq kimsə onu dinləməz,
Bir bədəndə iki baş yaramaz birini kəs!
Bir qında iki qılınc qərar tutub durarmı?
Məclisdə iki cəmşid bir taxta oturarmı?

(4, səh 56)

Söhbətlər kəskinləşir ortada ədavət qızışır. Oturduqları evi satışa çıxardırlar. Bu da baş tutmayanda kimya elminə müraciət edirlər. Qərara gəlirlər ki, bir qabda şərbət hazırlayıb içsinlər. Kim istedadlıdır, bacarıqlıdır, qalib odur. Birinci iddiaçı şərbətə zəhər qatıb məslək yoldaşına verib deyir: "Canpərvər şərabdır al! Zəhər deyil, şərbətdır, al iç məndən razı qal". Digəri şərbətdəki zəhəri ayrıd etsədə onu şəkər kimi qəbur edir. Nuskiya otunu qaynadıb öncədən içmiş, zəhər dəyən yeri tiryəkləmişdir.Tiryək zəhərin təsirini bir anda məhv edir. Yanan pərvanə yenidən qanadlanıb yolüstü bağçadan bir gül üzüb əfsun oxuyur. Zəhərdən daha güclü, daha təsirli olan əfsunlu gülü rəqibi əlinə alan kimi qorxudan bağrı yarılır, canını tapşırır. Nizaminin poetikləşdirdiyi iki filosofun dastanında xalq qaynaqlarından süzülüb gələn hiyləgərlik- paxıllıq, çəkişmə, nadanlıq, ağıl, xeyir, şər və s. motivlər Abayında yaradıcılığında poetik deyimlərlə əks olunub.

"Əlkimya- orta əsr sxolastikası idi. Sxolastika isə dinin məhsulu idi. Şərqdə yüksək elmi naliyyətlərlə bir sırada sxolastikada geniş surətdə yayılmışdır". (2. səh 205) Sxolostikaya böyük Nizami "İsgəndərnamə" poemasında (Tərcümə edəni Mikayıl Rzaquluzadə)"Qibtli Mariyənın hekayəsi və onun kimyagərliyi"ndə münasibət bildirmişdir. Nizami bu məsələyə iki müstəvidə yanaşmışdır.

1) həqiqi kimya elmi, onun sirləri, naliyyətləri, ecazkarlığı, faydalı tərəfləri. 2) saxta kimya və zərgərlik xülyasına düşənlər.

Nizami kimya elminin sirlərindən, ecazkarlığından bəhs edən sujetli, dərin məzmunlu hekayətdə sxolostikadan istifadə edən zərgərlik xülyasına düşənlərin də obrazını yaratmışdı. Kimya elminin imkanlarından bəhs edən şair saxta kimyaya uymamağı tövsiyə edir.

Bu qədər var ikən elmdə imkan,
Əfsus, pay almamış hamı kimyadan.
Kim əsl kimyaya verərsə ürək
O saxta kimyaya uymasın gərək!

(4, səh58)

İsgəndərin sarayında filosof Ərəstun ona qulluq edən Qibtli Mariyəyə kimya elmindən təlim keçir.Bu elmin sirlərini ona bir-bir anladır. Qızıl iksirini ona öyrədir. Alimin sayəsində Qibtli Mariyə iksir alimi tək ad-san qazanır. Bu elmlə ölkəsini xərracdan, borcdan qurtarır. Xəzinəsini doldurur, var-dövlətini artırır, hətta "Qoşunda nə qədər süvari vardı. Atının nalları qızıl nallardı. Çoxu bu sarayda yeyib gəzərdi, hətta eşşəyində palanı zərdi. Qızıl bəzəklərin yox idi həddi, itində zənciri qızıldan idi". Xəzinədən xəbər tutanlar hökmdardan iksir elmini öyrənmək istəyirlər. Mariyə parlaq gövhərlərdən saçlarına xaç şəklində kəmənd edir. "Alimlərə "Gəlin bir" yaxın, qaşımın tağında bu bəndə baxın, o gizlin iksiri, diqqət etsəniz, səhərtək alnımda görərsiniz siz". Kimyaçı alimin sirrini heç kəs öyrənə, bilmir. Yenə də alimlər onun yanına gəlib bu sirri açmağı təkrar xahiş edirlər. Hökmdar qadın kimya elminin gözəlliyindən bəhs edir, sirli bir aləm, xəzinə göstərir.

O laləzar dağlar, sirli nəbatat
O sehrli sözlər, o rəmz, o büsat,
O qızıl mədəni, o "səngi-əzəm"
Nağıldır, kimyasa başqa bir aləm!

(5, səh 57)

Hökmdar- kimyaçı alim kimya elminin sirrini bəyan etdikdən sonra kimi kimyaya ürəyini verdi, kimidə saxta kimyaya uydu. Zərgər xülyasına düşənlərdə oldu. Bağdada səfər edən Xorasanlı bir kişi "kimyagərliyi" özünə sənət seçdi.

Dinin məhsulu olan Əlkimya sxolostikası XIX əsrə də gəlib çıxmışdır. Ondan faydalanan zərgərlik xülyasına düşən bəzi dindarlar saxta kimyagərliklə avam xalqı öz torlarına salırdı.

Böyük maarifçi, dramaturq M. F. Axundov da yaradıcılığında bu mövzuya müraciət etmiş, ilk komediyası olan " Hekayəti Molla İbrahimxəlil kimyagər" də saxta kimyagərləri-dindarları ifşa etmişdir.

"Nuxa qəzasında Molla İbrahimxəlil adlı bir aferist zərgər xülyasına qapılaraq, yalnız avam xalqı deyil, çar hökumətinin yerli işçilərini də aldatmağa müvəffəq olmuşdu. Molla İbrahiimxəlil bir qədər gümüşü qumlu torpağa qatıb, sərdar dəftərxanasına gətirir. Bir ərizə ilə sərdara müraciət edərək Xaçmaz dağlarında gümüş mədəni tapdığını bildirib həmin mədəni işlətməyə icazə istəyir və hökumətdən maddi yardım tələb edir. Sərdar Molla İbrahimxəlilin gətirdiyi qarışıq torpağı müayinə üçün Peterburqa göndərir. Müayinə nəticəsində torpağın içərisində əlli faiz gümüş olduğu aydınlaşdırıldığından, həmin mədəni işlətmək üçün hökumət Molla İbrahimxəlilə icazə və dörd min manat pul verir: Molla İbrahimxəlil icazə aldıqdan sonra gedib bir müddət Xaçmaz dağlarında çadır qurub oturur. Hər tərəfdən tacirlər və bəylər onun yanına gəlirlər.

Molla İbrahimxəlil isə, yanına saçlı-saqqallı bir dərviş alıb iksir ilə misi gümüşə döndərmək haqqında xəbər yayır: Beləliklə, az bir zaman içərisində Molla İbrahimxəlil çox pul toplayır...." (9, səh 15)

Yarı həqiqət,yarı rəvayət olan bu əhvalatda Mariyənin hekayəti və onun kimyagərliyinə oxşar ünsürlər var. Qibtli Mariyə kimya elmini ondan öyrənmək istəyənlərə -- alimlərə, sadə insanlara anlatmaq üçün "Şəngi-əzəm" adlı qayaya çıxır. Molla İbrahimxəlil isə Xaçmaz dağlarında çadır qurub orada məskunlaşır. Hər tərəfdən onun yanına tacirlər gəlir.

Xorasanlı "kimyagər" qızılı ovub ona palçıq qatıb, sayını artırdığı qızıl möhrələrin saxta olmadığına müştərilərini, Xəlifəni belə inandırır. Molla İbrahimxəlil isə bir qədər gümüşü qumlu torpağa qarışdırıb gümüş mədəni tapmasına Çar hökumətini belə inandırır.

Rəvayətin özülündə bir həqiqət olduğunu nəzərə alsaq belə güman etmək olar ki, Molla İbrahixəlil hiyləgər, savadlı bir şəxsimiş. Əlkimya elmindən və Nizamidən xəbərdar olmuşdu.

Bu mövzuya-sxolostikaya Qazax ədəbiyyatının görkəmli nümayəndəsi Abay Kunanbayev də "Əzim haqqında nağıl"ında müraciət etmişdi. Sənətkar bu nağılını yuxarıda qeyd etdiyimiz kimi "Min bir gecə" nağıllarından Şəhrizadın söylədiyi nağılın əsasında yazdığını söyləsədə, bununla yanaşı onun qoca "iksirçisi" həm Nizaminin Xorasanlısını, həm də Axundovun Molla İbrahimxəlilini yada salır. Sanki, Molla İbrahimxəlil Xorasanlının, Qoca isə Molla ibrahimxəlilin kiçik qardaşıdır.

Hər üç əsərdə əsas qayə maarifçilikdir. Tamahkarlığın, nadanlığın, acgözlüyün insanı fəlakətə sürükləməsinin acı nəticələri göstərilmişdi. Nizami insanları elmdən faydalanmağa xeyirli işlər görməyə, xeyirxahlığa düz yola islah olunmağa, çağırırsa, Axundov və Abay xalqı maarifçiliyə səsləyir. Maarifçiliyi təbliğ edir.

Xorasanlı kimyagərin də, Molla İbrahimxəlilin də məqsədi birdir: Var-dövlət yığmaq, varlanmaq. Qoca isə bunlardan uzaqdır. Məqsədi Əzimi öz dinindən, imanından döndərməkdir. "Əzim haqqında nağıl" " Hekayəti -Molla İbrahimxəlil kimyagər" komediyası ilə ideya məzmun cəhətdən səsləşir. Hər iki əsərdə "Qibtli Mariyənin hekayəsi və onun kimyagərliyi"nə poetik oxşarlıqlar var.

Qoyun üstümdə də mənim bir nəfər
İşbilən yetirsin işimə nəzər.
Əgər hünərimi təsdiq eləsə,
Daha söz deməsin mənə bir kimsə,
Yox, əgər görsəniz yalançıyam mən,
Baş məndən teşt ilə qılıncda sizdən,
(5, səh259)

Keçirmək istəsən bunu sınaqdan,
Apar bu külçəni yoxlat, ey cavan,
Desələr bu misdir, qızıl deyildir?
Bil ki, yoxdur məndən yalançı insan.
(1, səh 191)

Onların kimya oyununda qurduqları səhnələrdə oxşar xətlər bir qırmızı lent kimi keçir. Xorasanlı zərgər:

Zərgər qaydasıyla bir kürə qurdu
Bir qaba cürbəcür dərman doldurdu.
(5, səh 59)

Qoca

Tezcə ocaq çatıb, misdən qopartdı,
Od üstə qoyduğu qazana atdı,
Elə ki, əriyib mayeləşdi mis,
Cibindən qara bir şüşə çıxartdı,

Qatıb-qarışdırdı aşqarla misi,
Artdı qazandan pıqqanıq səsi...
Ərimiş metalı soyutdu sonra,
Qızılla dönmüşdü o mis külçəsi.
(1, səh 191)

Xorasanlı kimyagərin qaba tökdüyü cürbəcür dərmanları Molla İbrahimxəlil və -Qoca öz işində tətbiq edir. Molla İbrahimxəlil Molla Həmidə göstəriş verərək deyir:

"Molla Həmid çadırdan tez zərgər kürəsini bütəsilə kiçik körük ilə çıxar gətir. Kürəni yerə qoy. Çadırın dalısından kömür cuvalını gətir. Kürənin yanına tök. Gır çadıra, bir məcməi içində üç rəng-rəng balaca şüşə var və üç rəng-rəng bükülmüş kağız var, götür gətir. Sarı bükülmüş kağızı aç, içindən əzcanı tök bütəyə, yaşıl şüşənin suyunu endir, bütənin içinə, otur körüyü bas"

"Molla İbrahimxəlil cəld bütəyə bir zad tullayır ki, birdən bütədən güllə kimi qığılcımlar sıçrayıb hər tərəfə dağılır. Bütə part edir. İksir mövhimi barıt kimi havaya uçur". (41,səh 43)

Xorasanlı kimyagər, qoca da şərabdan hiylə toru kimi istifadə edirlər. Xorasanlı hiyləgər xəlifəyə xam şərab içirdib, saf qızıl alır, qoca isə Əzimə şərab içirdib onu əsir götürür.

Əzim dinini, vətənini, torpağını sevən bir gəncdir. Qoca ona əqidəsindən, dinindən, döndərmək üçün nə qədər işgəncə versə də o, öz məsləkindən dönmür. Hiyləgər qoca atəşpərəstliyi qəbul edəcəyi təqdirdə onu azad edəcəyini bildirəndə Əzim kəskin cavab verərək deyir:

Əzim müqəddəsdir-söylədi---dinim
Odpərəst dininə yoxdur yəqinim.
Min əzab çəksəm də haqqın yolunda,
Dözərəm möhkəmdir, əqidəm mənim.
(1, səh 105)

Əsər əxlaqi-tərbiyəvi əhəmiyyət kəsb edir. Tufanın qopması, göyün gurultaması Əzimə göstərilən zorakılığa, ədalətsizliyə qarşı tanrının etirazı kimi səslənməsi də türk mifologiyasına söykənir. Əzimin gözünə cinlərin görünməsi, qoca ilə birgə sahildə dəfə rast gəlməsi, qocanın dəfi üç dəfə dınqılldatması, torpağın altından üç dəvənin çıxması, Əzimin əjdahanın öldürməsi, onun dərisini soyub özünə kəmənd düzəltməsi, Qaf dağının başından aşağı enməsi, gözəl bir saraya rast gəlməsi saraydakı qızlarla əhd-peyman bağlaması və s. xalq yaradıcılığından süzülən motivlərdir. Bu motivlərdə Əzimin vətəninə, torpağına, dininə sədaqəti, vətəninə ürəyi istədiyi vaxt getmək istəyi, qızlarla bağladığı əhd-peymanda onlarla şərtləşməsndə əsas amil kim önə gətirilir. "Əzim haqında nağıl"la Azərbaycan nağılı "Tələtin nağılı"nın sujet xəttində bir oxşarlıq var. "Tacir Məlik bir dağın əlçatmaz, ünyetməz zirvəsində çoxlu ləl-cəvahirat yerləşdiyini bilir. Tez-tez dəvələrini yükləyib ora gedir. Bir yabının qarnını yarıb nökərliyə götürdüyü uşağı orada gizlədir. Nəhəng ac quşlar cəmdəyi göyə qaldırıb ləl-cəvahirat olan yerə aparır. Tacirin tapşırığı ilə nökər yabının qarnından çıxır və kisələri qızılla doldurub aşağı atır. Sonra ləl-cəvahiratla dolu olan kisələri götürən tacir Tələti orada qoyub geri qayıdır".

Qoca ruzimiz ordadır deyə Əzimi Qaf dağının başına çıxartmaq və orada onu itirmək məqsədilə hiylə qurur, dəvənin qarnını yarıb orada onu gizlədir. Qaf dağından düşmək və dəvənin qarnını yarıb çıxmaq üçün ona ip və xəncər də verir:

İp və xəncər verib qoca dedi: "Al"
Dəvənin qarnına girib orda qal,
Bu ölü cəmdəyi görüb gələcək,
Qatın tək sakini cütbaşlı qartal
Sancıb caynağını o bu cəmdəyə
Bir göz qırpımında qaldırar göyə,
Qonunca zirvəyə, tikişi yar çıx,
O quş səni görcək düşər ürküyə
(1, səh 199)

Sadəlövh Əzim onun dediyi kimi edir.Torbanı götürüb torpaqla doldurur, Qafdan aşağı sallayır. Qoca iblis torbanı alıb, ipi də özüylə götürüb qaçır.

Nağılda Tələt qır-qızıl üçün dağın başına çıxarılır. Əzim isə torpaq götürmək üçün. Abay "İsgəndər" poemasında olduğu kimi öz fikirlərinə, nəsihətlərinə yenidən qayıdır. "Əzim haqqında nağıl"da da torpağı ruzi bərəkət simvolu, müqəddəs nemət kimi təsvir edir.

Ədəbiyyat

1. Abay Kunanbayev Şeirlər və poemalar ADN 1970
2. XIX əsr Azərbaycan ədəbiyyatı . ADN Bakı 1962
3. Pənah Xəlilov Türk xalqlarının və Şərqi Slavyanların ədəbiyyatı. Maarif nəşriyyatı 1984
4. Nizami Gəncəvi. "Sirlər xəzinəsi" Bakı, Lider nəşriyyatı 2004
5. Nizami Gəncəvi. "İsgəndərnamə" Bakı, Lider nəşriyyatı 2004
6. BDU-nun Türk xalqları ədəbiyyatı kafedrasının elmi iş planına daxil olan əlyazma
7. Firuzə Ağayeva Abay və Azərbaycan Bakı Elm 2011
8. M.F. Axundzadə əsərləri üç cilddə. I cild. Bakı Şərq-qərb
9. R. Əfəndiyev "M. Fətəli haqqında bildiklərim və eşitduklərim. İnqilab və mədəniyyət". 1928 № 51 (3)

П.Солтанкызы

Отражение мотива хитрости в народных источниках,
в казахской и азербайджанской литературах

Резюме

В статье особое внимание уделяется мотиву хитрости в народном творчестве, в Казахской и Азербайджанской литературех.

К научному анализу как основной объект исследования привлечена Алхимия --- использование в художественной литературе схоластики средневековья, паралельно исследуется с научной стороны мотив хитрости. Проводиться исследование по поэти- народные источники, творчества поэтов таких как Н.Гянджеви, М.Ф.Ахундзаде, А.Кунанбаева.

P. Soltangizi

The contrary of the styness motives in the eople's sources
and in the Kazakh and Azerbaijan Literature

Summary

In this article the styness motive is brought to the front in the folk art, Kazakh and Azerbaijan literature. The science of the using in the art literature of scholasticism is analyzed as the main investigation object. The using of styness motive is parallel investigated. Poetical similarity is learned. The people's sources, N.Ganjavi's, M.F.Akhundov's, A.Kunanbayev's creatives are supported.

Rəyçi: Ramazan Qafarlı
filologiya elmləri doktoru, professor

AFƏT QULİYEVA
AMİ-nin Mingəçevir filialı

NƏBİ XƏZRİ YARADICILIĞI

Açar sözlər: bədii ədəbiyyat, nümayəndə, yaradıcılıq, nümunələr**.**
Key words:fiction, representative, creation; examples.
Ключевые слова: художественная литература, представитель, творчество, примеры.

Azərbaycan ədəbiyyatı tarixində xüsusi və mühüm bir mərhələni təşkil edən XX əsrin milli ədəbi-mədəni mühitində müstəsna yer tutan, ədəbi-bədii proseslərin istiqamətləndirilməsində və inkişafında əlamətdar rolu olan görkəmli tarixi şəxsiyyətlərdən biri də şair, dramaturq, nasir, publisist kimi çoxcəhətli bir yaradıcılıq yolu keçən, özündən sonra olduqca maraqlı bir irs qoyub gedən Nəbi Xəzridir.

Azərbaycan gerçəkliyinin ictimai-siyasi, mənəvi-psixoloji mənzərəsini, tariximizin bir çox olaylarını, müasirlərimizin duyğu və düşüncələrini əks etdirən N.Xəzri ədəbiyyat və mədəniyyət tariximizdə öz işıqlı düşüncə və əməlləri ilə müasirlərinə və özündən sonrakı nəsillərə əhəmiyyətli dərəcədə təsir etmiş görkəmli sənətkardır. Dövr və mühiti üçün mütərəqqi sayıla biləcək bir çox fikirlərin yer aldığı dəyərli əsərlər müəllifi Nəbi Xəzrinin fəaliyyətinin günümüzədək müxtəlif istiqamətlərdən öyrənilməsinə rəğmən sənətkarın yaradıcılığı tam, sistemli şəkildə araşdırılmamışdır. Xalq şairinin poetik yaradıcılığı, dram əsərləri qismən araşdırılma obyektinə çevrilsə də, nəsri və publisistikasının öyrənilməsinin xüsusi tədqiqə ehtiyacı var. O, dilimizə xüsusi məhəbbət oyadan Füzuli, Vaqif, Vazeh, Sabir, Vurğun, S.Rüstəm, M.Müşfiq kimi yazarların sənətkarlıq ənənələrini davam etdirən şairlərdəndir.

Görkəmli dilçi alim Y.Seyidov yazır: «Nəbi Xəzri yaradıcılığında ilk növbədə diqqəti cəlb edən, daha dəqiq desək, duyulan, hiss edilən səmimiyyətdir; həm də böyük səmimiyyət. ...Nəbinin yaradıcılığına və onun şəxsən özünə yaxından bələd olan hər kəs etiraf edə bilər ki, Nəbinin şeirləri ilə şəxsiyyəti bir-birini tamamlayır. Şairin düşüncələri ilə hissləri, istəyi ilə dedikləri çarpazlaşır, bir-birini tamamlayır. Bu əsasda yazılmış əsərlər səmimi olmaya bilməz.

Ağamusa Axundov, haqlı olaraq, N. Xəzrinin şeirlərini «Səmimi hisslər poeziyası» adı ilə təhlil edir».

Son illər bədii əsərlərin dilinin tədqiqi genişlənmiş, ayrı-ayrı şair və yazıçıların dilinin öyrənilməsi dilçiliyin aktual mövzularından birinə çevrilmişdir. «Bədii əsərin dili təhlil edilərkən bütün diqqət sözlərin mənalarına, zəngin üslubi cəhətlərinə və müəllifin dilin bu imkanlarından fərdi istifadə bacarığına yönəldilməlidir».

Ədəbi-bədii dil prosesini düzgün başa düşüb qiymətləndirmək üçün ədəbiyyatın ayrı-ayrı janrlarının dilinin tədqiqinə hər zaman elmi cəhətdən ehtiyac olmuşdur. Məhz buna görə də XX əsrin 50-ci illərindən özünün mövzu, dil və üslub yeniliyi ilə diqqəti cəlb edən poeziyamızın görkəmli nümayəndəsi N. Xəzrinin əsərlərinin öyrənilməsi dövrün bədii dili üçün zəngin qiymətli material verir ki, bu da təqdim olunan dərs vəsaitində öz əksini tapmışdır.

Lirika onun yaradıcılığının məzmunu, poetik "məni" və mürəkkəb təlatümlü bir aləmidir. Onun lirikasını məhəbbətsiz təsəvvür etmək olmur. Çünki şairin tərənnüm etdiyi insan, hər şeydən əvvəl sevən insandır. Məhəbbət isə insanın ən ali, ülvi hissidir. Məhəbbətsiz insan isə daxilən boşdur. Onun lirik qəhrəmanının əhəbbəti sadəcə aşiq-məşuq məhəbbəti deyil, yüksək insani hisslərlə qidalanan bir məhəbbətdir. Yəni bu sevgi vətən məhəbbətinə, təbiət vurğunluğuna, ümumən humanizm ideyalarına söykənən, çevrilən hisslərdir. O, təbiəti təsvirdə çox həssas və bənzərsizdir. Yalçın qayalar, sıx ormanlar və digər təbiət mənzərələri şairin yaradıcılığında çox zaman məcazi mənada işlənib.

Özün dağlar üstdə
Dağlar sinəndə.
Sonsuz dəniz sənə bir qətrə gəlsin!
Yay günü zirvədən yerə enəndə
Səndən duman ətri,
Qar ətri gəlsin.

O, daha çox təbiətin, daha doğrusu, təbiət gözəlliklərinin dili ilə danışır: sən gərək həmişə əsrin tələbləri səviyyəsində danışasan. Şeirindən zamanın ən uca ali fikirlərinin ətri gəlsin. Onun yaradıcılığında bəzən ən adi, ötəri hisslərlə də qarşılaşırsan. Bu da onu göstərir ki, şair üçün böyük-kiçik həyat hadisələri yoxdur.

Çünki kiçik bir detal, müşahidə olunan müəyyən ani hadisə hansısa bir həqiqəti, fikri poeziya dilinə çevirə bilir. İnsanı məşğul edən problemlər baxımından Nəbi Xəzri lirikasının əhatə dairəsi çox genişdir. Çünki onun yaradıcılığında yeni insanın mənəviyyatı öz siyasi kəskinliyi və hərtərəfliliyi ilə seçilir...

Hər bir yazıçının fərdi üslubu konkret dövr ədəbi dilin ümumi mənzərəsini xarakterizə edir. Yazıçı praktik-nəzəri cəhətdən bədii dilin poetik ifadə vasitələrini fərdi üslubu ilə yaradır və milli ədəbi dilin inkişafına məhz fərdi yaradıcılığı, fərdi üslubu ilə öz töhfəsini vermiş olur. Odur ki, yazıçı dilinin dərindən öyrənilməsi dilimizin inkişaf mənzərəsini, onda baş verən dəyişiklikləri – istiqamətləri aşkar etmək baxımından əhəmiyyətli və aktualdır. «Hər bir xalqın dilinin, ədəbiyyatının öyrənilməsi o xalqın mədəniyyət tarixinin öyrənilməsi ilə sıx bağlıdır. Çünki ədəbi dillə yazı mədəniyyəti, ədəbiyyatı xalqın mədəniyyət tarixinin orbitinə daxildir» .

N.Xəzri 50-60-cı illərin ədəbi prosesində xüsusi fərqlənən, sözün kəsərini, nüfuzunu həmişə öz yaradıcılığında qoruyan bir sənətkardır. O, yaradıcılığının ilk dövrlərində sözün qüdrətindən, xüsusən də sənətkar üçün əvəzsiz əhəmiyyətindən bəhs edən «Söz» adlı şeirində onu belə vəsf edir:

Əzəl başdan açarıdır sirlərin,
Öz gücünü ürəklərdən alar söz.
Ümid verər, sevinc verər, qəm verər,
Müşkül olan dərdə çarə qılar söz ...

N. Xəzrinin söz haqqında olan fikirləri təkcə bir şeirlə qurtarmır. O, söz haqqında danışarkən qeyd edir ki, «Söz arzu və düşüncələrə sərkərdəlik edərək

onlara yol göstərir»; «Sözün mənzili uzaq olur. Bu gün yazılan söz yalnız bu günün deyil! Söz gələcək aylara, illərə, bəlkə də, əsrlərə çatacaqdır».

Elə buradan da şair üçün söz axtarışları başlanır: «Şair də söz üçün keçər dərə, düz...»; «Sözlər axtarmışam, sözlər gəzmişəm; Vurmuşam özümü alova, oda»; «Bəlkə, illər boyu gəzdiyim sözü; Büllur bir bulaqda tapacağam mən».

N.Xəzri dilinin özünəməxsusluğu ilə seçilən sənətkarlardandır. Şair bütun yaradıcılığı boyu xalqa yaxın olmuş, ondan qaynaqlanmışdır. Bu haqda professor N.Xudiyev yazır: «50-ci illərin sonu, 60-cı illərin əvvəllərində şeir dilində folklor ifadə tərzinə qayıdış baş verir; yaradıcılığa 60-cı illərdən əvvəl gəlmiş B.Vahabzadə, N.Xəzri, H.Arif, N.Həsənzadə, Qabil kimi şairlərin dilində folklor ifadə tərzinin havası duyulur.

Şübhəsiz, ədəbi-bədii dilin, eləcə də şeir dilinin folklor ifadə tərzinə meyil etməsi ədəbi-bədii fikrin məzmunca xəlqi əsaslar üzərində köklənməsindən irəli gəlir; xəlqilik, birinci növbədə oradan başlayır ki, insanın daxili aləminə maraq güclənir, süni [yaxud elə təbii] patetika əvəzinə, poetik fikir təhlilinə can atır və bu da imkan verir ki, şeir dilinin obrazlar sistemində əsaslı dəyişikliklər meydana gəlsin». Məhz bunun nəticəsidir ki, şairin əsərlərində xalq dilinin ruhu özünün bariz əksini tapmışdır.

Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Nəbi Xəzrinin yaradıcılığında onun bədii nəsri mühüm yer tutur. Nəbi Xəzri adı çəkiləndə heç şübhəsiz, ilk növbədə, şair Nəbi Xəzrini xatırlamalı olursan. Onun drammaturgiyasında da şair nəfəsi hiss edilir, nəsrlə yazdığı pyeslərində poeziyasından gələn notlar açıqca duyulur. Filologiya elmləri doktoru, tənqidçi Rəhim Əliyev haqlı olaraq yazır ki: "Şairi nəsrə və drammaturgiyaya gətirən daxili ehtiyacdır, onun yaradıcılıq axtarışlarının, sənətkar qayələrinin təbii inkişafıdır"

Rəhim Əliyev belə bir faktı da nəzərə çatdırır ki, N.Xəzrinin nəsri ilə poeziyası arasında sıx bağlılıq var, onları problematika cəhətindən müqayisə etdikdə şairin poeziyası üçün ən səviyyəvi cəhətlərin nəsrdə də təzahür etdiyini görməmək mümkün deyil. Ən başlıcası isə Nəbi Xəzrinin poeziyasından nəsrinə keçən ümdə cəhət-mətləb və həqiqətlərin mənəviyyatla, daxili aləmlə bağlıdır. Bu cəhəti tənqidçi Vaqif Yusifli də doğru sezmişdir: "N. Xəzrinin dram, nəsr və publisistik əsərlərində onun poeziyası ilə bağlı cəhətlər çoxdur. Bu əlamət özünü yazıların ümumi ahəngində, lirik-romantik yazı tərzində, gərçəkliyə poetik yanaşılmasında hiss etdirir".

Nəbi Xəzrinin nəsr əsərlərinin tematikasına nəzər yetirək: " Heykəlsiz abidə" sənədli povesti görkəmli Azərbaycan şairi Mirzə Şəfi Vazehin keçməkeşli ömür yoluna həsr edilmişdir.

"Səssiz fəryadlar" silsiləsindən olan hekayələrdə və "Miras" povestində N.Xəzri qürbətdə yaşayan, Vətən həsrəti ilə alışıb-yanan yurddaşlarımızın həyatından söz açır. N.Xəzrinin müasir həyatdan alınmış, müasirlərinin mənəvi dünyasını, narahat ömür yolunu əks etdirən hekayələri də vardır.

Göründüyü kimi, N.Xəzrinin nəsri mövzu və problematika baxımdan rəngarəngdir. Mövzu müxtəlifliyi olsa da, N.Xəzrinin povest və hekayələrinin qəhrəmanlarını bir nöqtədə birləşdirən cəhətlər var – o da bundan ibarətdir ki, təqdim olunan qəhrəmanlar daxilən narahat insanlardır, onların həyatı əzablar, məşəqqətlər içində keçir, halbuki bu insanlar daxilən çox saf, mənən təmizdirlər.

"Heykəlsiz abidə" əsəri Azərbaycanın mütəfəkkir şairi Mirzə Şəfi Vazeh həyat yoluna həsr olunub. Müəllif bu əsəri mənsur poema kimi təqdim edir. Fikrimizcə, əsərini bu cür adlandırması N.Xəzrinin şairlik stixiyasından irəli gəlir. Doğrudan da, bu povestdə N.Xəzrinin şairliyindən gələn məqamlar çöxdur: şeirlərində olduğu kimi, bu əsərdə də poetik cümlələr, bədii təsvir sıralanmalarındakı yerdəyişmələr, müraciət, monoloq və dioloqlardakı emosionallıq diqqəti cəlb edir.

"Heykəlsiz abidə" əsərini mənsur poema adlandırmaq o qədər də dəqiq deyildir. Bizim fikrimizcə, bu əsər janr etibarilə sənədli povestdir. Müəllif Mirzə Şəfi Vazehin keşməkeşli ömür yolunu təsvir edərkən mütəfəkkir şair haqqında yazılan elmi-tədqiqi əsərlərdən, arxiv sənədlərindən faydalanıb, povestdə bir neçə yerdə "nəfəsini dərib" sənədli ricətlərə də müraciət edir.

M.Ş.Vazehin həyatını təsvir edərkən müəllif bədii təxəyyülə də biganə olmayıb, yəni müəyyən hadisələri mənalandırarkən sənəd həqiqətindən daha çox sənət həqiqətinə - bədii bədii təxəyyülə müraciət edib. Bu da təbiidir, tarixi nəsr praktikasında belə hallar normal qəbul olunur. Ancaq əsas məsələ tarixi həqiqətləri və tarixi şəxsiyyətlərin həyatını təsvir edərkən ciddi təhriflərə yol verməməkdir.

"Heykəlsiz abidə" bu mənada sənədli povest kimi təhlil edəcəyik. "Heykəlsiz abidə" sənədliu povesti M.Ş.Vazehə həsr edilən ilk nəsr əsəri deyil. Azərbaycan ədəbiyyatında M.Şəfi barədə ilk romanın ("Nəğməyə dönmüş ömür") müəllifi Əlisa Nicatdır. Nəbi Xəzrinin "Heykəlsiz Abidə" povesti onun nəsr yaradıcılığında, doğrudan da, nümunə gətiriləsi, örnək olası bir əsərdir.

Nəbi Xəzri istedadının yeni bir xüsusiyyəti – onun həyatı, gerçəkliyi, tarixi və müasir varlığımızı lirik nəsr diliylə söyləmək bacarığı nasirlik qabiliyyəti bu əsərdə daha bariz şəkildə diqqəti cəlb etdi.

Nəbi Xəzrinin "O uzaq gecə" povesti onun 1937-ci ilin repressiya hadisələrinə həsr olunmuş ilk əsəridir. Ayrı-ayrı şeirlərində, eləcə də poemalarında sətiraltı işarələrlə bu mövzuya toxunsa da, "O uzaq gecə" repressiya mövzusunda qələmə alınmış tam və bitkin bir əsərdir. Bu əsərdə N.Xəzri dolğun xarakterlər yaratmağa, hadisələri drammatik axarda inkişaf etdirməyə, təqdim etdiyi obrazların psixoloji aləmini, daxili dünyasını təsvir etməyə can atır. Onun şairliyi ilə nasirliyi bu povestdə vəhdət təşkil edir.

N.Xəzrinin " Miras" mənsur poeması doğma torpaqlardan uzaqlarda, qürbət ellərdə min cür əzab-əziyyətlərə, ağrı-acılara, təhqir və hədələrə məruz qalan həmvətənlərimizin həyatından söz açır. "Miras" mənsur poeması bizə bunu deməyə əsas verir ki, N.Xəzri Avropa sayahəti zamanı yalnız diplomatik səciyyə daşıyan məclislərin iştirakçısı olmamış, həm də xaricdə yaşayan həmvətənlərimizin taleyi ilə də yaxından maraqlanmışdır. Onların vətən həsrətini ifadə etmək üçün şairin seçdiyi detallar, Azərbaycanla bağlı xatirələr bədii niyyətin reallaşmasında önəmli rol oynayır.

"Miras" müəllif tərəfindən mənsur poema adlandırılsa da, bunu şərti qəbul etmək lazımdır. Əsərdə N.Xəzri poeziyasından süzülüb gələn və doğrudan da, mənsur şeiri xatırladan sözlər, ifadələr, cümlələr olsa da, onu "mənsur poema" kimi səciyyələndirmək yerinə düşmür. "Miras" povestində Nəbi Xəzri qürbət mövzusunda yazdığı digər əsərlərindən fərqli olaraq təqdim etdiyi qəhrəmanı əvvəldən axıradək bütöv şəxsiyyət kimi təqdim edir. "Miras" povesti bütün məziyyətlərinə rəğmən "Heykəlsiz abidə" əsəri ilə müqayisədə bədii-sənətkarlıq cəhətdən o qədər də uğurlu

deyil. Burada hadisəçilik, təsvirçilik çox güclüdür. Obrazların keçirdiyi psixoloji halla bədii tədqiqdən kənarda qalır.

Adını çəkdiyimiz hər iki hekayədə N.Xəzri, böyük ədibin qeyd etdiyi kimi "sözü deməyi və mətləbi mənalandırmağı" bacarmışdır. Nəzri Xəzrinin istər tarixi keçmişdən, istərsə də müasir həyatdan yazdığı hekayələrində tarixliklə müasirlik bir-birindən ayrılmazdır.

Ədəbiyyat

1. Əliyev R. Ümmandan damlalar. "Ədəbiyyat və incəsənət", 1979, 27 iyul
2. N.Xəzri Ağ şimşəklər. Bakı: Yazıçı, 1986, 517s.
3. Mir Cəlal P. Klassik və Müasirlər. Bakı: Azərnəşr , 1973, 296s
4. N.Xəzri Seçilmiş əsərləri. (iki cilddə) İ cild, Bakı Gənclik, 1973, 376s.

Quliyeva Afet

Creation of Nabi Khazri
Summary

This article is about the examples of fiction used in the creation of Nabi Khazri well-known representative of the Azerbaijan literature. In the creation of representative of the Azerbaijan literature Nabi Khazri literary prose plays an important role. In the works by Nabi Khazri everybody can feel the breath of the poet.

Афет Кулиева

Творчество Наби Хазри
Резюме

Эта статья посвящается примерам художественной литературы, используемые в творчестве Наби Хазри известного представителя азербайджанской литературы. В деятельности представителя азербайджанской литературы Наби Хазри литературная проза играет важную роль. В работах Наби Хазри можно почувствовать дыхание поэта.

Rəyçi: Həqiqət Qədimova
filologiya üzrə fəlsəfə doktoru

GÜLARƏ MAHMUDOVA
AMİ-nin Mingəçevir filialı

NƏSİMİ POEZİYASI ŞƏRQ KONTEKSTİNDƏ YARANMIŞ POETİK FENOMENDİR

Açar sözlər: yaradıcı, şeirlər**,** fəaliyyət, tədqiq etmək
Key words: creative, poems; activity, to investigate
Ключевые слова: творческий, стихотворение, деятельность, исследовать

Vaxtilə böyük vətəndaş və böyük filosof şair özü haqqında
Bir günəşdir Nəsimi kim anın,
Neçələr zərrəsinə möhtacdır!
- deyərkən nə qədər haqlı olduğu sonralar şairin möhtəşəm bədii, bədii-fəlsəfi yaradıcılığı əyani şəkildə təsdiqləndi. Doğrudan da mədəniyyət tariximizin müvafiq zaman axarında neçə-neçə nəsimipərəst şairlər yarandı, onu təqlid edən söz sahibləri yetişdi. Lakin onlar Nəsimiyə bənzəmək istəyi ilə özlərini Nəsimi günəşinin alovuna çırpdılar, Nəsimi günəşinin zərrəsinə möhtac olaraq da tarixin səhifələrində qaldılar.

Nəsimi öz dövrünün bütün şeir növlərində, xüsusən əruz vəzninin əsas bəhrlərində qəzəl, qəsidə, məsnəvi, fəxriyyə və rübailər, hətta heca vəznilə həmahəng olan və qoşmalara yaxın bir sıra şeirlər də yazmışdır. O, Azərbaycan klassik şeirinin zəngin bədii ifadə xəzinəsindən öyrənməklə bərabər, Azərbaycan şifahi xalq ədəbiyyatından da məharətlə istifadə etmişdir. Onun qüdrətli qələmi Azərbaycan ədəbi dilini əsrlərdən bəri hakim mövqe tutan fars dili və rəqabətə girişən bir dil halına gətirmişdir.

Hər bir şairin şeri onun dünyagörüşünü, əqidəsini, etiqad və inamını müəyyən edir. Böyük şair-filosof İmadəddin Nəsimi Azərbaycan ədəbiyyatı tarixində bədii-fəlsəfi şerin əsasını qoymuşdur. Nəsimi öz şerlərində dərin mənalı kəlamlardan, simvol, rəmz və eyhamlardan çox istifadə etmişdir. Bəzi ədəbiyyatçılar şairin işlətdiyi xüsusi terminləri tam anlamayaraq, zahirinə diqqət etmişlər. Elə buna görə də Nəsiminin bəzi şerlərinin əsl mənasını düzgün açıqlamayıblar. Bəzən də belə yanlış nəticəyə gəliblər ki, guya şair Allah məfhumunu insana aid edərək insanı Allahlaşdırır. Bu fikrin isbatı üçün "Nəsimi divanı"ndakı şerlərdən iki beyti nümunə gətiririk:

Pir birdir, sirr birdir, sirr ilə bir olmayan
İkilik sığmaz arada, sirr ilə sirdar bir.
Gər Nəsiminin pənahı Şah Mərdandır Əli,
On səkkiz min aləmə hökm eyləyən Sərdar bir.

Bu misralardan dərk etmək olur ki, şair Allahın varlığının bir olmasını yüksək səviyyədə qeyd edir və yalnız bu aləmə deyil, bütün aləmlərə hökm edən varlığın - Tək Allah olduğunu bildirir. Nəsimi poeziyasında sözlər məntiqi cəhətdən aydın anlayışlar əvəzinə eyhamlara, poetik obrazlar simvollara və daha dərin mənaların canlı ifadəsinə çevrilir ki, bu da ilk növbədə şairin dönə-dönə müqəddəs Qurandan, Peyğəmbərin (s) hədislərindən faydalanması, dini mövzularla əlaqədar das-

tanlar gətirməsi ilə bağlıdır. Nəsimi poeziyasında dərin batini mənaları olan Quran ayələrinə, eləcə də Peyğəmbərin (s) hədislərinə və Həzrət Əlinin (ə) kəlamlarına tez-tez rast gəlinir.

İndi isə "Nəsimi divanı"ndan bir neçə şerin izahı nəzərinizə çatdırılacaq:

"Hər nəyə kim, baxır isən anda sən Allahı gör" misrası ilə başlayan şerdə şair bütün varlıqları Allahın nişanəsi kimi göstərir və insanları Allahın varlığını dərk etməyə çağırır.

Hər nəyə kim, baxır isən anda sən Allahı gör,
Qəncərü kim, əzm qılsan summə vəchullahı gör!

Yəni, hər nəyə baxsan Allahı xatırla və bil ki, hər şeyi Allah yaratmışdır. "Vəchullahı gör" - Allahın üzünü gör deməkdir. Bu misranı izah etmək üçün haşiyə çıxmaq lazımdir:

Bir gün Hz. Əlidən (ə) bir kişi soruşur ki, sən Allahı görüb ona ibadət edirsən? İmam (ə) cavabında buyurur:

"-Vay olsun sənə, mən görmədiyimə ibadət etmərəm, Allahı bu gözlə deyil qəlbin gözü ilə görmək olar!"

Şerin davamında şair belə buyurur:
Bu ikilik pərdəsindən keç, hicabı rəf qıl,
Gəl bu birlik rövzənindən bax, bu sirrullahı gör!

Yəni insan hər şeyə baxdıqda onu Allahın cilvəsi, nişanəsi bilsə və hər gördüyünü Allahdan ayırmazsa o zaman səadətə yetişib həqqə çatar. Ey insan! Bu vəhdət pəncərəsindən bax, onda Allahın sirrlərini dərk edərsən və görərsən ki, hər varlıqda Allahın bir sirri vardır.

Keç ənaniyyət sözündən könlünü viranə qıl,
Necəsi tezcik bilürsən küntə-kənzullahı gör!
Yəni mənəmliyi (mən-mən deməyi) kənara qoyaraq nəfsini əz!

Necə ki, tezliklə bilirsən, Peyğəmbərdən nəql olunan və "Kuntu kənzən məxfiyyən" adı ilə məşhur olan qüdsi hədisdə Allah-Taala buyurur: "Mən gizli bir xəzinəyəm, insanı yaratdım ki, Məni tanısın!"

Həcci-əkbər qılmaq istərsən gəl, ey zahid, bəri
Aşiqin qəlbi içində sən bu beytullahı gör!

Ariflərin nəzərinə görə insanların Məkkə şəhərinə gedərək Kəbəni təvaf etmələri kiçik həcc, insanın öz ürəyini Kəbəyə çevirərək tavaf etməsi isə böyük həcc sayılır. Elə əsl həcc də budur! Əgər qəlb qibləni, Kəbəni və Allahı düşünərsə hər an Kəbəni təvaf etmiş olar. Allahın evi Allaha aşiq olanın qəlbindədir!

Can gözü ilə baxdın isə kainatın eyninə,
Ondan özgə nəsnə varmı, həsbətən lillahı gör!

Qəlbin gözü ilə kainata baxsan Allahdan başqa bir şey varmı?! Hər şey Allahındır!

Nəsimi ilk dəfə qlobal şəkildə Ana dilli söz və ifadələrinə, qrammatik formalarına ədəbi dil səlahiyyəti verdi, onlardan öz möhtəşəm bədii yaradıcılığında bolbol istifadə etdi. Beləliklə, XIII-XIV əsr Azərbaycan ədəbi dilini milli zəmində inkişafa istiqamətləndirdi, xalq dili elementləri ilə zəngin ədəbi dil çələngi hördü. Məhz Nəsimi ilk dəfə qlobal şəkildə Ana dilini-Azərbaycan-türk dilini, zamanın qalib şeir dilini - fars dili ilə, zamanın qalib elm dilini isə ərəb dili ilə sağlam rəqabətə qatdı və Nəsiminin doğma Azərbaycan dilində bədii-fəlsəfi, bədii-poetik dili bu rəqabətdən uğurla çıxdı, Azərbaycan ədəbi-bədii dilinin sonrakı inkişafı üçün yaşıl işıq odu. Nəsiminin poeziyası Nəsimi şəxsiyyətindən süzülüb gələn xarakter poeziyasıdır. Nəsimi **"***Məndə sığar iki cahan, mən bu cahana sığmazam***"**, - deyərkən həm də şəxsiyyət Nəsimi ilə şair Nəsimi ikiliyini nəzərdə tutmuşdur. Azərbaycan ədəbi dilinin başlanğıc mərhələsində həm şifahi ədəbi dilin ilk abidəsi sayılan "Dədə-Qorqud" dastanlarında, həm ilk yazılı ədəbi dil nümunələrində, o cümlədən Nəsiminin əsərlərində aktiv sözlər halında işlənilən əsl

Azərbaycan sözlərinin bir qismi artıq işlənilməz-arxaik sözlər kimi tamamilə unudulmuş-ölü sözlər sırasına daxil olmuşdur. Belə sözlərə aşağıdakıları nümunə göstərmək olar: **ağmaq-** "*ucalmaq, qalxmaq*" mənasında, "*Kurseyn rəhmanə ağdın getdin ərşullahı gör*"; **uçmağ-** "*cənnət"* mənasında, *"Səkkiz oldu qamusu uçmağın"*; **əsrük-** *"sərxoş"* mənasında, "*Qanı əsrüklərin cəmində bir huşyar*" və s.işlənmişdir.

Nəsiminin əsərlərində alınma sözlərin böyük bir hissəsini də XIII-XIV əsrlər Azərbaycan ədəbi dilində də məhdud dairədə, məsələn, Nəsiminin fəlsəfi görüşlərinin ifadəsi ilə bağlı olaraq işlədilmiş, öz dövründə belə ümumxalq dilinə daxil olmamış, əsasən termin səciyyəli isimlər təşkil edir. Elə bu səbəbdən də həmin sözlərin fəaliyyəti getdikcə daralmış, xalq dilinə girə bilməmiş və nəticə olaraq bu gün də onların izləri Azərbaycan dilində mühafizə olunmayıb. Məsələn, ***əhməq, əhvəl, ixlas, ərğəvan, istiva, əshab, ənvər, tabeş, bab, bak,*** *xoc*a və s. sözlər artıq dilimizdə yoxdur.

Nəsimi Şah İsmayıl Xətainin yaradıcılığına dərindən təsir göstərmişdir. Bunu aydın görmək üçün Nəsiminin məşhur ***"məst"*** rədifli qəzəlinə Xətanin yazdığı şeiri nəzərdən keçirmək kifayətdir:

Adəmi oldur ki, onda hüsnü xülqü lütf ola,
Adəmi demə onu kim, cübbəvü dəstar məst.

Müasir Azərbaycan dilində tamamilə başqa mənalarda işlənən ***bağır (qara ciyər)***, ***tütün (bitki adı)***, ***ər (həyat yoldaşı)***, ***yemiş (bostan bitkisi)***, ***kəpənək (bioloji termin)*** isimləri XIII-XIV əsrlər ədəbi dilində, Nəsiminin əsərlərində işlənən semantik mənada sonrakı əsrlərdə bir sıra əsərlərdə müşahidə olunur. Azərbaycan şifahi xalq ədəbiyyatında da Nəsiminin alovlu şair, vəfalı, sədaqətli aşiq kimi tanınmasını aşağıdakı bayatı göstərməkdədir.

Gözəllik soy iləndir,
Şahmar da soy ilandır,

Nəsimi tək yolunda
Bu aşiq soyulandır.

Başlanğıc mərhələsində Azərbaycan yazılı ədəbi dilinin, xüsusən klassik şeir üslubunun Azərbaycan dili vahidləri hesabına zənginləşdirilməsi baxımından Nəsimi əsərlərində bənzətmə birləşməsi əsasında düzəldilmiş təşbehlər sırasında ***kibi, tək, leyin, cileyin***...kimi köməkçi sözlər vasitəçiliyi ilə Azərbaycan dilinin daxili qanunlarına uyğun qurulmuş təşbehlər də diqqəti cəlb edir.

Məsələn,

"Bülbül kibi məstəm, anın eşqindən uş zar olmuşam".
"Aləmdə bu gün səncileyin yar kimi var..."
"Qanı gerçəkleyin bir həqqə aşiq".

Kolumbiya Universitetinin professoru nəsimişünas Ketlin Baril yazır: *"Nəsimi poeziyası onunla üstünlük qazanır ki, o musiqi ilə yoğrulmuşdur. Bu musiqi xüsusi bir alətdə ifa edilmək üçün yaranmışdır. Hər vəziyyətdə bu musiqi ən gözəl ifaçının ən gözəl ifaçının ən gözəl musiqi alətində ifasını xatırladır".*

Beləliklə, Nəsimi dilində alınma sözlərin böyük əksəriyyəti bu gün Azərbaycan dilində türkmənşəli isimlərlə eynihüquqlu sözlər kimi işlənməkdədir. Bu sözlər Azərbaycan ədəbi dilində "*vətəndaşlıq hüququ*" qazanmış ümumxalq və məişət dilinə, bəzən də dialekt və şivələrə belə alınmalar çoxluq təşkil etmiş, şairin poetik dilinin parlaq olmasını təmin etmiş, həqiqətən də Nəsimi poeziyasını məhz Şərq konteksində yaranmış poetik fenomen olmasını təsdiqləmişdir.

Nəzər-diqqətinizə çatdırmaq istəyirəm ki, xalq şairimiz Qabil İ.Nəsimi haqqında hər kəsin sevə-sevə oxuduğu "Nəsimi" poemasını yazmışdır. Qabil qeyd edir ki, böyük şair-filosof İmadəddin Nəsimi dərin, sarsılmaz inam və işıqlı ideal sahibi olub. Sözün böyük mənasında heyrət doğuran cəhət budur ki, Nəsimi öz həqiqətini, öz "əhəlhəqq" ini yalnız poeziyanın öz qüdrəti ilə deyil, şəxsi dönməzliyi, fədakarlığı ilə- əfsanələrə çevrilmiş mərdanə və amansız ölümüylə təbliğ və təsdiq etdi.

Qabil "Nəsimi" poemasında yazır:

İlimiz dörd fəsil-yaz, yay, payız, qış...
Bahar kəsimisən hər fəsildə sən.

Sonda fikrimi poemadan götürülmüş, aşağıdakı misralarla tamamlamaq istəyirəm:

Ana dilimizin axar-baxarı
Şeirində bir daha aşikar oldu.
Böyük Füzulinin şah misraları
Sənin bünövrəndə bərqərar oldu.

Ədəbiyyat

1. Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutu, "Azərbaycan ədəbi dili tarixi" I cild- XIII-XIV əsrlər. Bakı 2007
2. "Azərbaycan ədəbiyyat tarixi" Azərbaycan Milli Elmlər Akademiyası. Bakı 1960.
3. Ə.Dəmirçizadə, "Azərbaycan ədəbi dilinin tarixi", I hissə. Bakı 1979.

4. Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutu, "Azərbaycan dilinin dialektoloji lüğəti". Bakı 2007.
5. Qabil "Nəsimi "Yazıçı" nəşriyyatı. Bakı 1980.

Gulara Mahmudova

Poetry by Nesimi is the poetic phenomena in the East context

Summary

This article is about creative activity of the great Azerbaijan poet Nasimi. His poems are investiqated in this work. XIII-XIV century the development of the literary language directed on national basis. Nasimi enriched literary language with the elements of the nation. Nasimi wrote in his native language, in his mother tongue-azery. It was the language of poetry, winner of the time .

Гулара Махмудова

Поэзия Насими поэтическая феномена в Восточном контексте

Резюме

Эта статья посвящается творчеству великого Азербайджанского поэта Насими. Его стихи исследованы в этой работе. XIII-XIV века развитие литературного языка направлены на национальной основе. Насими обогащал литературный язык элементами нации. Насими писал стихи на родном азербайджанском языке. Это был язык поэзии, победителем времени.

Rəyçi: Həqiqət Qədimova
filologiya üzrə fəlsəfə doktoru

XATİRƏ XƏLİLOVA
Azərbaycan Dövlət Pedaqoji Kolleci
xatire 82@gmail.com

MİR CƏLAL HEKAYƏ USTASIDIR

Açar sözlər: hekayə, xarakter, yumoristik hekayə, realizm, janr, tipik obraz.
Key words: Story, character, humorous story, realism, genre, typical image.
Ключевые слова: рассказ, характер, юмористический рассказ, реализм, жанр, типический образ.

Bədii ədəbiyyatın müxtəlif janrlarında qələmini sınayan Mir Cəlal yaradıcılığında hekayə janrının özünəməxsus yeri var.

Mir Cəlal yaradıcılığı bütünlükdə orijinallığı ilə Azərbaycan yazıçıları içərisində təkrarsızdır. O, Azərbaycan ədəbiyyatı tarixində maraqlı hekayələr ustası kimi kimi də diqqəti çəkib. Heç təsadüfi deyil ki, M. Arif yazırdı : ”Mir Cəlal mahir bir hekayə ustasıdır. Onun hekayələri yığcam və ibrətlidir. Mir Cəlalın hekayələrindəki sənətkaranə sadəlik, fövqəladə təbiilik, heyranedici səmimilik təqdirəlayiqdir”.

Mir Cəlal nədən yazırsa-yazsın öz hekayələrində həyatın dərin qatlarına nüfuz etməyə, hadisələrin daxili mahiyyətini açmağa çalışmışdır. Hekayələrindəki yumor hissi, təbiilik, səmimilik, həyatilik, yığcamlıq, konkretlik, sözçülükdən qaçmaq və birbaşalıq onun yaradıcılığının, bədii üslubunun ən qüvvətli fərqləndirici cəhətidir. Adamlarımızı mərhələ-mərhələ inkişafda əks etdirən, güldürə-güldürə düşündürüb fəaliyyətə çəkən onlarca hekayəsi vardır.

Mir Cəlalın ədəbi fəaliyyəti üçün hekayə və roman janrları əsas olmuşdur. O, hər şeydən əvvəl, mahir hekayə ustasıdır. Sovet dövrü Azərbaycan ədəbiyyatında hekayə janrının inkişafında böyük xidmətlər göstərmişdir. İnsanda sağlam duyğular, xoş arzu-ümidlər oyadan, gerçəkliyə baxışa həqiqət işığı, tənqidi ruh və ayıqlıq hissi gətirən, haqsızlığa, nöqsan, eybəcərlik və mənfiliyə qarşı mübarizə keyfiyyəti aşılayan bədii gülüş ədibin yaradıcılığında mühüm tərkib hissə, əsas estetik əlamət və məziyyətlərdəndir.(1,səh7)

Mir Cəlalın əsas hekayələri həyati problemlər qaldıran, mənəvi-əxlaqi və ictimai-sosial məsələlər əks etdirən oxunaqlı, məzmunlu, tərbiyəvi əsərlərdir. Hekayələrin demək olar ki, hamısının mövzusu həyatdan alınmışdır. Sanki, yazıçı rast gəldiyi, şahidi olduğu hadisələri qələmə alıb. Oxuyanların nəticə çıxarmasını, belə gülünc vəziyyətlərdən özlərini qorumasını, yaxşını pisdən ayırmağı, tərbiyələnməsini istəyir. Azərbaycan xalqının, millətinin, adət-ənənələrinin, dövlətinin keçdiyi bir çox yollar M.Cəlal əsərlərində öz əksini tapmışdır.

Yazıçı 1984-cü ildə “Ləyaqət” adlı kitab nəşr etdirir. Bu kitabda onun hekayələri və “Dağlar dilə gəldi” adlı povesti çap olunmuşdu. Kitabda maraq çəkən bir cəhət də bu idi ki, ”Ötən günlər”, “Həyat hekayələri”, “Mətləb hekayələri”, “Günün hekayələri”, “Bizim ailə” başlıqları ilə verilən hekayələr mövzularına görə qruplaşdırılmışdır. Hər başlığa daxil olan hekayələr oxucunu ümumi ortaq nəticəyə gətirir. Ümumiyyətlə, bütün yaradıcılığı boyu M.Cəlil ənənələrinə sadiq qalan və onun dəst-xəttini davam etdirən M.Cəlal güldürür, düşündürür, heyrətləndirir.Özünü və silahdaşlarını “Növruzəlinin poçt qutusundan çıxmış” hesab edən Cəlalda

yumoristik hekayə yazmaq qabiliyyəti vardır. Mir Cəlalın hələ otuzuncu illərdə yazdığı «Həkim Cinayətov», «Anket Anketov», «Mərkəz adamı» hekayələrində məhz Mirzə Cəlil və Haqverdiyev ənənələrinin yaxşı mənada təsirini hiss edirik. «Xarakter bir hadisə, yığcam bir süjet, ümumiləşdirici bir mətləb, sadə söyləmə, nəqletmə üsulu hekayə sənətində əsasdır»- hekayə üçün müəyyənləşdirdiyi bu prinsipə Mir Cəlal bütün yaradıcılığı boyu sadiq qalmağa çalışırdı.(3, səh12) Və qaldı da.Sadə söyləmə yolu ilə yazıçı həyatımızın hər sahəsində baş verənləri bizə eşitdirir. Təkmilləşdirməyə, yaxşını pisdən, yalanı doğrudan seçməyə çağırır. Mir Cəlal canlı həyat lövhələri yaradır.Adi ,gündəlik məişətdə baş verən hadisə onun hekayələrinin mövzusudur.

"Bostan oğrusu" hekayəsinə baxaq. Əslində hekayə bamәzəliklə başlayır. İki qardaşın bir-birinə münasibəti,düşüncəsi,atdıqları addımlar oxucunu güldürsə də dərindən və dərindən düşünməyə vadar edir.Qardaşların paxıllığı, yalnız öz qazanclarını axtarması, qardaşı bircə addım onu keçərsə bu dərdi sinirə bilməyəcəyi düşüncəsi onların hər ikisinə baha başa gəlir.Qardaşının ondan çox qazanacağını fikirləşən Kərbəlayi Tapdıq ona badalaq gəlməyi düşünür. Eyni fikir elə Durmuşu da rahat buraxmırdı. Və gecələrin birində bir-birinin bağını soyub talayan qardaşlar heç nə olmamış kimi yataqlarına uzanıb səhəri gözləyirlər. Səhər açılanda isə bostanın talandığını görüb bostanı belə ağlar günə qoyanın arxasınca o ki var söyüb

Kənd sovetinə şikayətə gəlirlər.Katib bostanların eyni adam tərəfindən talandığı ehtimalını deyəndə Tapdıq etiraz edir; mənim bağımı başqası dərib.

2-3 gündən sonra isə bazarda bir-birinin malını satarkən üz-üzə gəlirlər.

Əslində belə qardaşların varlığına və yoxluğuna inanmaq çətindir.Yazıçı qardaşların nəfsinin başlarına bəla olduğunu göstərir. Eyni atanın və ananın övladları olsalar da bir-birlərinə düşmən kəsilirlər.

Dövrümüzün acı həqiqətləri də Cəlal hekayələrində öz əksini tapıb. "Həkim Cinayətov", "Ay İsmayıl, başa sal","Plovdan sonra", "Elçilər qayıtdı", "Badam ağacları" kimi hekayələr bu qəbildəndir.

"Həkim Cinayətov " hekayəsində işyarıtmaz, öz vəzifə borcunu başa düşməyən, insanların taleyi ilə oynayan dırnaqarası həkimlərdən söhbət açılır.Xəstə atası üçün təngnəfəs müalicəxanya yollanan Ramazan burda bir xeyli ləngiməli olur. Çünki, həkim qızlarla laqqırtı vurur.

Müalicəxanaya gələrkən Ramazan düşünürdü ki, həyəcanlanmağa dəyməz. Bu saat həkim gedib baxacaq, atasında qorxulu bir şeyin olmadığını deyəcək. Həkimin bu davranışı onun heç ürəyincə olmadı. Sanki həkim Ramazanın gəlişindən xəbərsiz idi, arxayınca əyləşmişdi. Nəhayət, xəstəyə baxmağa gedən Cinayətov lazımı şeylərini unutduğu üçün ağır addımlarla yenidən müalicəxanaya qayıtdı. Bu hekayənin mövzusunun həyatdan alındığını demək çətindir. İnsan həyatına, insan taleyinə biganə həkimin varlığına inanmaq mümkün deyil. Mir Cəlal obrazı bəzən qrotesk səviyyəsində təqdim edirdi, obraza bu cür yanaşma çox zaman əndazəni aşsa da, ümumiləşdirici mahiyyət daşıyırdı. «Həkim Cinayətov» hekayəsində təsvir olunan «qəhrəman» bəlkə də həyatda yoxdur və varsa da tək-tükdür.Amma, Mir Cəlal öz işinə səhlənkarlıqla yanaşan, insan sağlamlığı qeydinə qalmayan bir həkimin hərəkətlərinə elə məna verir ki, həmin həkim doğrudan da çox suçlu və cinayətkar kimi gözlərimiz qarşısında canlanır. Bəlkə də, bu, adi bir əhvalat təsiri bağışlayır, amma, bu adilikdə insan xarakteri tamamilə açılır. Çünki, Mir Cəlal xarakter ustasıdır.

Diqqəti zahiri effektə yox, daxili mənaya, səciyyəvi əlamətə yönəltmək, obrazı konkret əməlləri, duyğu-düşüncələri, fərdi və ümumi cizgiləri ilə canlandırmaq Mir Cəlal sənətini dəyərləndirən keyfiyyətlərdəndir.

Müəllifin əlvan mövzulu hekayələrində həyat bir rəngli deyil, müxtəlif sahələri, əxlaqi-tərbiyəvi motivləri, ailə-məişət məsələləri, adi əhvalatları, dərin mətləbləri, aktual və gərəkli hadisələri ilə tədqiq olunurdu.(1: səh 8,)

Mir Cəlalın müxtəlif səciyyəli çoxlu hekayələri içərisində realizmi səthi olanları da var. Amma ədib çox zaman çalışırdı ki, dərinə nüfuz etsin, ziddiyyətləri araşdıranda dolaşıq və dumanlı təsvirlərə uymasın, təmiz, sadə və aydın dildə yazsın. Sənətin, yeri gələndə işarə və simvollarla danışmaq səlahiyyətini də unutmurdu. Mir Cəlal uzunçuluğu, sözçülüyü xoşlamır, yığcam, konkret və təbii yazırdı. Bu, onun üslub xüsusiyyəti idi. Bütün bunları başqalarına da tövsiyə edir, imkan düşdükcə öyrədir, müzakirə və redaktə zamanı köməyini əsirgəmirdi. Təsadüfi deyil ki, akademik Məmməd Arif Mir Cəlalın əsərlərindən aldığı xoş, güclü, unudulmaz təəssüratın başlıca səbəbini, hər şeydən əvvəl, onun üslubundakı səmimiyyət, sadəlik və təbiiliklə bağlayır, bu cəhəti ən yaxşı yazıçılara xas keyfiyyət kimi yüksək qiymətləndirirdi.

Var-dövlət eşqində, qazanmaq həvəsində olan Kəmtərovlar dəbdəbəli yaşamaq arzusunda ikən əllərində olanı da itirirlər. "Kəmtərovlar ailəsi"hekayəsini yazmaqla Cəlal "çox istəyən azdan olar" atalar sözünü isbatlamış olur. Gələcəkdə göz qamaşdıran yaşayışları ilə qohum-qonşunu yandırıb yaxacaq Qulam sonda özü yanıb –yaxılr. Altı- üstünə çevrilmiş evinə tamaşa edəndə səhvlərini anlayır.Yeni ailə quran Qulam üçün pul hər şeydən önəmlidir. Özü üç yerdə, xanımı isə iki yerdə işləyir. Bu gənc ailə bir-birini demək olar ki, görmür. Ya məktublar, ya da qapı ağzında salamlaşmaqla görüşüb ayrılırlar. Əslində yazıçı günümüzün reallığından yazır. Pul insanların həyatının, varlığının, yaşayışının sübutudur.Daha çox qazanmaq, varlanmaq istəyənlər sonda əliboş qalırlar.

Yazıçı həyat hadisələrinə fəal münasibət bəsləyir, qələmə aldığı mövzunu aydın yazıçı mövqeyi və estetik ideal baxımdan işləyirdi. O, bütün bacarığı və istedadının gücü ilə sülh, asayiş, dinc, xoşbəxt həyat uğrunda mübarizə aparırdı. Onun beynəlxalq mövzuda yazdığı "Çin qızı" (1950), "Sülh istəyənlərə" (1951), "Badam ağacları" (1953), "Ərəb qızı" (1962) və b. hekayələrdə sülh, əmin-amanlıq, humanizm, yer üzündə insanların dinc, məsud yaşaması ideyası təbliğ olunurdu."Od içindən çıxanlar" (1945) silsilə hekayələrində gözləri ilə dəhşətlər görmüş insanlar haqqında söhbət açır, onların fədakarlığını, arzu və məqsədlərini işıqlandırırdı. "Badam ağacları" Cəlalın hekayələri içərisində xüsusi seçilir və nəsrimizin qiymətli nümunəsi kimi diqqəti cəlb edir. Real fakt, mənalı təfərrüat və canlı xarakter vasitəsilə, möhkəm süjetdə təbii əks olunmuş hadisə və vəziyyət əsasında müstəmləkə siyasətinin mahiyyəti açılırdı. Ədibin realist üslubunu, təsvir-təcəssüm üsulunu əlvanlaşdıran bir keyfiyyət burada da gözlənilirdi.Hekayə həm də tərbiyəvi xarakter daşıyır.Atasından xəlvət ağzına bir badam qoyan Ədalət onu yeyə bilmir. Badam sanki ağzında böyüyür. Oğurluq şeyi yemək nə çətin olurmuş! Bütün ömrü boyu halal zəhmətdən başqa bir şey bilməyən Ağarza gözlərini badamlığa dikmişdi. Və indi onun son ümidi olan badamlığı "Marşal" planına uyğun olaraq kəsirlər. Hekayənin əsas ideyası da elə bundan ibarətdir.Kəndliləri lüt və möhtac, ac-yalavac

buraxan, əlindən son tikəsini alan müşavirlər, xarici soyğunçulara baş əyən məmurlar pislənir.

Tərbiyə problemi, müəllim-şagird-tələbə münasibətləri Mir Cəlalın yaradıcılığında xüsusi yer tutur. Ağıllı, namuslu, mərd övlad, həqiqi vətəndaş böyütmək haqqında düşünən, zəhmət çəkən, yollar axtaran ata-anaları, baba-nənələri, müəllim-tərbiyəçiləri sənətkar məharətlə təsvir edir, çox vaxt onların yaddaqalan maraqlı surətlərini yaradırdı. Tərbiyə məsələlərində çalışırdı ki, quru nəsihətçiliyə uymasın, həyati müşahidələrə, həssas müəllim-yazıçı duyğu və düşüncələrinə əsaslansın. Diqqətə layiq uğuru da o zaman qazanırdı ki, qabaqcıl mövqedən qələmə aldığı əsərində fikirlə hissin, əqllə emosiyanın, bədii təfəkkürlə elmi mülahizənin, yazıçılıqla müəllimlik məharətinin vəhdətinə nail olurdu. Ümumiyyətlə, tərbiyə-əxlaq probleminə dair elə mövzular seçib, elə hadisə və surətlər qələmə alırdı ki, onlar oxucunu düşündürüb, mənəviyyatca saflaşdırır, düzgün istiqamətləndirir, məhəbbət və nifrət duyğuları ilə zənginləşdirirdi.

Satirik mövzuda qələmə alınmış ”Plovdan sonra” hekayəsinin qəhrəmanı Ramiz də belə surətlərdəndir.Ərknaz xanımın yeganə və əziz-xələf övladı olan Ramizi ali təhsil almaq üçün Moskvaya yola salırlar. Orta məktəbdə bütün fənlərdən zəif olan,qəbul imtahanlarında çox aşağı nəticə göstərən oğlunu “Dəridən – qabıqdan” çıxıb instituta yerləşdirən Ərknaz xanım onun xoşbəxtliyi üçün çalışdığını düşünür. Ananın həddindən ziyadə məhəbbəti uşağın səriştəsiz, savadsız və məsuliyyətsiz bir gənc kimi yetişməsinə səbəb olur. Yazıçı Ərknaz xanımın simasında valideynlərə məsləhət verir. Övladı uşaqlıqdan düzgün istiqamətləndirməyə, tərbiyəsi, təhsili ilə ciddi məşğul olmağa dəvət edir.Acı nəticələrlə üzləşməmək üçün.

Yaradıcılığında həm Haqverdiyevin həm də M. Cəlilin elementləri hiss olunsa da Cəlalın öz yumoru, öz gülüşü, öz satirası vardır.

Hər addımında “Ay, İsmayıl, başa sal!” deyən Rütubət xanım bazarda istədiyi şeyləri alıb yığır. Kimsənin ona söz deməyə ixtiyarı yoxdur. Çünki, o “kişinin“ bacısıdır. Rütubət xanım hamının qəssabın, parça satanın, dərzinin, dükan- bazarın – bir sözlə hamının ona borclu olduğunu hesab edir. Onu tanımayıb pulunu istəyən satıcıya isə cavab vermir, Çevrilib yanında onun hər hərəkətinə “bəli, baş üstə” deyən İsmayıla “Ay İsmayıl, başa sal” deyir.Başa sal ki, Rütubət xanım kimdir! Rütubət xanım obrazını gülüş hədəfinə çevirməkdə yazıçının məqsədi var. Vəzifəsindən sui-istifadə edərək özünü sahibi olduğu yerin Allahı sayanların aqibəti heç ürəkaçan olmur.

Mir Cəlalın əsərlərində kifayət qədər ibrətamiz ifadələrə, atalar sözü və məsəllərə rast gəlirsən. Həmin ifadələr yerində və dəqiq işlənmişdir.

Yazıçı kiçik və çox adi görünən bir hadisədən böyük ictimai nəticələr çıxarmağı bacaran sənətkarlardandır. O, həyatın dərin qatlarına nüfuz edə bilmək iqtidarına malikdir. O, heç bir zaman gurultu, təntənə uydurmur. Mir Cəlal həmişə sadə danışır, aydın dildə yazır.Əsərlərində yalançı təntənə və gəlişigözəl ifadələrə yer yoxdur. Mir Cəlal son dərəcə realist yazıçı idi.Bu gün də onun əsərlərini oxuduqda təsvirlərin canlı və reallığına heyrət edirsən. Elə bil ki, həyat hadisələri, insanlar, heç yazıçı müdaxiləsi olmadan birbaşa bədii əsərə köçürülüb. Amma, belə deyil, Mir Cəlalın bədii nəsrindəki gerçəklik yazıçının bədii qüdrətiylə yaradılan gerçəklikdir.

Ədəbiyyat

1.M. Cəlal – Seçilmiş əsərləri, Bakı- "Şərq-Qərb"-2005-ci il.
2. M. Cəlal- Ləyaqət(hekayələr və povestlər), Bakı- "Yazıçı"-1984-cü il.
3.Məmməd A Sənətkar qocalmır. B; Yazıçı, 1980.
4.İsmayılov Y. Mir Cəlalın yaradıcılığı. B; Elm, 1975.

Kh.Khalilova

Mir Jalal the story master

Summary

Mir Jalal isthe master of far story Jalal from the word collection and chatter. Problems of our time are show in his all stories. Mir Jalal have/has written stories in different subject , interesting images have created.

Mir Jalal has always addressed to story genre. Briefly and with/by compact close, small stories, 1 has created 2 images, he has forced reader to think with/by these images. We meet each theme in the stories: satire, humour, sorrow, joy. Author, or he she, it tellsthe event, or he (she, it) observes, or is participant. We learn some things from of these stories narrated with/by naivety.

Х.Халилова

Мир Джалал великий мастер рассказов

Резюме

Мир Джалал великий мастер рассказов, который не любил множество слов и продолжительности. Все его рассказах речь идет о проблемах и вопросах наших времен. М.Джалал обратился в разным темам образуя интересные образы.

В своём творчестве М.Джалал обратился только в жанр рассказов. В своих коротких рассказах, с помощью 1–2 образов, он мог заставить своего читателей заставить думать и познать себя. В его рассказах есть и юмор, и сатира, и радость, и печаль. Автор иногда рассказывает то, или другую историю, иногда наблюдает прошедшую событию, иногда и сам присутствует в историях, но независимо от этого эти простодушно рассказываемые рассказы нам помогает много чего понять.

Rəyçi: Həqiqət Abdıyeva
filologiya üzrə fəlsəfə doktoru, dosent

ŞƏFƏQ DADAŞOVA
f.e.n. Bakı Slavyan Universiteti

AVTOBİOQRAFİYA VƏ DİSKURS

Açar sözlər: avtobioqrafiya, diskurs, hermenevtika, mədəniyyət.
Ключевые слова: Автобиография, дискурс, герменевтика, культурология.
Key words: Autobiography, discourse, hermeneutics, culture.

Ümumiyyətlə, dilin praqmatik tərəfi, onun psixologiya ilə bağlılığı son dövrlər dil və ədəbiyyatın müştərik tədqiqatlarının sayının artmasına səbəb olub. Tərcümə olunmuş və ya adaptasiya edilmiş əsər orijinaldan fərqli effekt gücünə malikdir. Bu effekt əvvəlkindən zəif də güclü də ola bilər. Amma əsas diqqəti cəlb edən cəhət onun mütləq fərqli olmasıdır. Tərcümədə yaranmış fərqlər iki dilin təsvir və ifadə resurslarının, şərhlərdəki uyğunsuzluqlar isə şərhedənin təcrübəsi, maraq dairəsi, dəyərlər sistemindən doğan kriterilərin əsasında formalaşır. Müxtəlif dillərin daşıyıcılarının fərqli düşünmələrinin səbəbi bir zaman insanların əsrlər boyu yaratdığı dilin geriyə onların psixologiyasına təsir edərək bütövlükdə xalqın düşünmə tərzini formalaşdırma gücünə malik olmasıdır. Hansısa bir hissin, emosiyanın dəqiq adı bir dildə olmadıqda onu ümumi hiponim Adı ilə əvəz edərkən, bu hissin hədəf dilinin oxucusu tərəfindən olduğu kimi, bütün ştrixləri ilə qavranılması qeyri-mümkün olur. İki-üç dildə səlis danışan insanlar çox zaman hansısa bir fikri müəyyən dildi daha dolğun ifadə oluna biləcəyini söyləyir. Bunun səbəbi isə, yuxarıda da qeyd etdiyimiz kimi, əl altında olan dil resursunun imkanlarıdır.

Avtobioqrafiyalarda müəllifin səmimi və ya qeyri-səmimi olması tərcümədə də özünü biruzə versə də, onun çatdırmaq istədiyi, oxucuya bəyan etməyə çalışdığı bəzi psixoloji məqamlar tərcümə zamanı tam dolğunluğunu saxlamaya bilər.

Beləliklə, avtobioqrafik diskursda tərcümə ilə bağlı yarana biləcək anlaşılmazlıq müəllifin ifadə etdiyinin tərcümə dilində tam çatdırmağın imkansız olması baxımından daha qabarıq şəkildə görsənir. Kulturoloji fərqlər avtobioqrafiyanın dərk edilməsini nə qədər çətinləşdirirsə, tərcümə də bəzən avtobioqrafik məqamların, xüsusilə psixoloji tərəflərini bəzən anlaşılmaz edir.

Həm Bencamin Franklinin, həm Jan Jak Russonun, həm də və xüsusilə də Fukuzava Yukiçinin avtobioqrafiyalarının tərcüməsi orijinalın yaratdığı təsiri oyatmır. Təsirin fərqli olması yalnız təsvir və ifadə vasitələrinin mənbə və tərcümə dilində üst-üstə düşməməsi deyil. Dillərin sintaktik quruluşlarındakı fərqlər də əsərin orijinal təsir qüvvəsinin olduğu kimi saxlanılmasına əngəl törədir.

Baninin fransız dilində yazdığı «Qafqaz günləri» və «Paris günləri» avtobioqrafiyası Azərbaycan dilinə uğurlu tərcümə olunsa da, müəllifin fransız dilində ifalə etdiyi hiss və fikirləri tam dəqiqliyi və aydınlığı ilə çatdıra bilmir. Bir dil üçün endoforik istinad, yəni haqqında danışılan məsələ aydın olmadıqda, onu cümlənin və ya mətnin əvvəlinə qayıtmaqla, və ya kataforik istinad, yəni anlaşılmazlığa aydınlıq gətirmək üçün cümlənin və ya mətnin sonrakı hissələrinə müraciət etməklə izahat vermək olar. Bunlar formal cəhətlər olsa da, şübhəsiz ki, mətnin təsirini dəyişir və oxucunun gözləntilərini formalaşdırır. Formalistlərin iddia etdikləri «obyektiv mütənasiblik» formanın məzmuna təsir edərək onu dəyişdirməklə yeni bir ideya yaratmaq gücündə olmasının bariz nümunəsidir. Əsərin ideyasının, ənənəvi ədəbiyyat nəzəriyyəsinin iddia etdiyi kimi onun məzmunu deyil, formalistlərin

dediyi kimi, süjetin, kompozisiyanın və xüsusilə də, dilin yartdığı, müəllifdən asılı olmayan obyektiv bir ünsür olduğunu qismən qəbul etməli oluruq. Qismən, ona görə ki, formalistlər mətnin şərhində oxucunun rolunu tamamilə inkar edir, onun təcrübəsinin, mövqeyinin, kulturoloji xüsusiyyətlərinin oxu prosesinə heç bir cəhətdən təsir etmədiyini söyləyir. Avtobioqrafiyalar isə real insanların həyatlarından bəhs etdikləri üçün və ya bu rola iddialı olduqlarına görə oxucu neytral qalmaq istəmi və təsvir olunan hadisələrə münasibət bildirməyi üstün tutur. Müəyyən filmə baxdıqdan sonra oradakı qəhrəmanların davranışını, filmdəki epizodları, iştirakçıların geyimlərini, epizodların səbəb-nəticə bağlılığını şərh etməyə çalışan eksplisit oxucu qismində çıxış edən oxucu oxuduğu avtobioqrafiyanın hadisələrini özü üçün aaydınlaşdırmağa cəhd göstərir, bu hadisələri izahını tapan zaman, özü, yaxınları ilə bağlı oxşarlıq görəndə, izahı çətin olan məsələləri real həyatda qarşılaşdığı üçün şərh edə bilmək iqtidarında olduğunda sevinir və eksponent yanaşmadakı «tanış nümunələri görməkdən məmnun olur». Oxşar epizodlar, obrazlar, simvolların sayı çoxaldıqca, anlama məmnunluğu da artır və özləri kiçik tamlıqlar, bütöv obrazlar, şəkillər olan epizodlar, fraqmentlər ümumi bir ideya ilə birləşərək daha dolğun, mükəmməl və mürəkkəb bir tamlıq yaradır.

Öz həyatlarının gündəlik ictimai məqamlarını xatırlayarkən və onlardan danışarkən insanlar stabillik və dəyişkənlik faktlarını təsvir edir və öz formalaşmalarının hesabatını verir. Müəlliflərin həyat hekayələri ilə onların həyatı və ya ictimai fəaliyyətində olan uyğunsuzluq təhlil olunmaq üçün əhəmiyyəətli mövzudur. Transformativ araşdırmalar belə təcrübənin təsvirinin müəllif perspektivindən izah edilməsi hallarına tətbiq edilir. Bu dəyişikliklər yeni bir həyat tarixinin yaranmasına səbəb olur. Tarnsformativ araşdırmanın metaforik adı sayılan avtobioqrafiya transformativ tədqiqatın da təxəyyül ilə qurulan təhkiyə olduğu fikrini irəli sürür. Öz daxili və xarici dünyalarındakı hadisələri təsvir edərək müəlliflər öz həyat hekayələrini yaradır. Sosial kontekst avtobioqrafiyanın öyrənilməsi üçün dinamik çərçivədir. Onun quruluşu və dəyərlər sistemi müəllifin tarixi vəziyyətlə formalaşan sosial və mədəni ənənələrini konkretləşdirir. Bu ənənələrin yaratdığı ekspozisiya vasitəsilə avtobioqrafiya müəllifləri reallığı qəbul edir və ona uyğun olan həyat və həyat hekayəti yaradır. Qadamerin hermenevtik şüur anlayışı Rikoeurun tənqidi hermenevtikası müəlliflərin öz əsərlərində öz həyat hekayəətlərini yaratmasını, özlərini yenidən kəşf etməsini təmin edən interpretasiya fəaliyyəti kimi, demək olar ki, tədqiq olunmamışdır. Altı keçmiş Roma katolik keşişindən öz həyatlarını bir neçə dəfə təsvir etmək xahiş olunub. Təəcrübə göstərib ki, hər növbəti hekayədə danışan keşiş sərbəstləşdikcə onun qəhrəmanı da sərbəstləşir, daha azad fikirlər irəli sürür. Müəllifin psixzoloji vəziyyəti qeyri-iradi olaraq onun qəhrəmanına da təsir edir. Hal-hazırki əhval ruhiyyə , ictimai, fərdi, psixoloji vəziyyət şüurla şüuraltı arasında şəffaf bir körpü yaradır, keçmiş hadisələrə təsir göstərərkə onların dəyişkən interpretasiyasına səbəb olur. İndiki zaman, hal-hazırki eqo retrospektiv baxışı yönəldən və təyin edən əsas amil kimi çıxış edir.

Hermenevtika digər interpretasiya formalarından fərqlənir. O, mətnə dəyişilməz işarələr yığını kimi yox, oxucu ilə gözəgörünməz bir diskurs nümunəsi kimi baxır. Mətn yalnız bitmiş bir tamlıq yox, həm də həmişə kimin üçün isə açıq olan bir məkandır. Mətnin bu gözəgörünməz ölçüsü onun «dünya»sıdır, bu dünya oxucu üçün mütləq yox mümkün olan bir dünyadır. Mətnin şərhində son addım mənanın oxucu tərəfindən yenidən anlaşılması və özü üçün izah edilməsidir ki, bu da tədqiqata şəxsi izah, fərdi münasibət gətirir. «Dialoji vəziyyət» konsepsiyası, mətnin modeli, mətnin «çüjetləşdirilməsi» (Rikoerin terminidir) bu gün zahirən bir-birin-

dən uzaq məqsədlər arasında nəzəri əlaqə yaratmağa çalışır. Bu məqsədlərdən biri insanın məğzini simvollar strukturu kimi izah etmək, digəri isə sosial hadisələri mürəkkəbliyini qoruyan dərin semantikadır.

Bəs onda həyat hekayəsi nədir? İlk növbədə, avtobioqrafik təhkiyə keçmiş hadisələrə bir quruluş, qayda gətirməkdir, müəllifin keçmişdə olduğu insanla indikinin arasında qırılmaz bir xətt yaratmaqdır, keçmiş, indii və gələcək arasında əlaqə qurmaqdır, keçmiş hadisələrlə onların indi müəllif üçün kəsb etdiyi mənası arasında məntiqi əlaqə qurmaqdır.

Canlı həyat hekayəsi keçmiş xatirələrin yığınıdır, nə də bədii əsər. O, tarixlə ədəbiyyat arasında epistemoloji vasitəçi yerini tutur.tarix kimi o, «baş vermiş» hadisələrə sadiqdir, ədəbiyyat kimi isə bədii vasitələrdən, texnikadan istifadə edə bilir. Həyat təsvirində ifadə olunan keçmişlə indii arasında labüd münasibət onun keçmişin dəqiq təsviri olmadığını iddia etməyə əsas versə də, faktların göstərir ki, bir çox dəyişikliklərə baxmayaraq, keçmişlə indii arasında əlaqə, transformasiyalar vasitəsilə qurulmuş özünüidentifikasiya mövcuddur.

Daha sonra, avtobioqrafiyada müəllifin, təhkiyəçinin və protaqonistin eyni şəxs olmasıdır. Burada müəllif həm də öz həyatının tədqiqatçısı, həm öyrənən, həm də öyrənmə obyektidir. Avtobioqrafik təhkiyəni qurmağın iki yolu var. Birincisi, dəyişmə prosesində identifikasiya axtarıb tapmaq, ikincisi isə, özü ilə başqaları arasındakı boşluq üzərində körpü qurmaqdır. Həm identifikasının dialektikası, həm də özgələşməyin dialektikası «mən kiməm» sualına cavab verməyə çalışır ki, bu sual hər bir həyat hekayəsinin dərinliyində yer tutur. Bioqrafik materialların epistemoloji başlanğıcı kimi, bu iki dialektika qiymətləndirmənin iki fərqli kriterisini səciyyələndirir.

Biz təhkiyəyə «Bu, doğrudanmı baş verib?», «təhkiyəçi düzünümü söyləyir?», «keçmiş indiki nöqteyi nəzərdən nə dərəcədə dəyişdirilib?» sualları ilə yanaşırıqsa, onun düzgünlüyü heç bir yolla yoxlanıla bilməz. Bu suallara identifikasiya dialektikasında inandırıcı cavab verməyin heç bir yolu yoxdur. Çünki biz bilirik ki, təhkiyə keçmişik güzgüsü deyil, o, keçmiş hadisələrlə onların indii kəsb etdiyi məna arasında münasibət qurmaqla vasitəçilik edir. Hadisələrin nə dərəcədə doğru təsvir edilməsi bu münasibətlərin özlərini təhlil etməklə, əsərdə təkrarlanan hadisələrin təsvir formalarını öyrənməklə, müəllifin müxtəlif vəziyyətlərdə münasibətinin dinamikasını müşahidə etməklə təyin oluna bilər. Həmçinin. Bir təhkiyənin tam mənası onun yazıldığı tarixi dövrdə qələmə alınmış, eyni problemlər üzərində fikri cəmləşdirən başqa həyat hekayələrini öyrənməklə müqayisəli şəkildə tədqiq oluna bilər. Hər bir əsərdə təklif olunan fikir tədqiqatçının öyrəndiyi problemin bir fraqmentinə aydınlıq gətirir və beləliklə müəllifin öz həyat hekayəsində nə dərəcədə səmimi olub-olmadığı haqqında müəyyən nəticələrə gəlməyə yardım göstərir.

Özgələşmə kriteriyası, həmçinin, qiymətləndirmənin xüsusi bir sistemini yaradır. Müəllifin hadisələrə, qiymətləndirməyə müdaxilə edərək oxucunun fikirləri ilə əsər arasında hazır körpü yaratması ənənvi olaraq obyektiv qiymətləndirməyə Mane olan fakt kimi qiymətləndirilir. Avtobioqrafiyada müəllif özü barədə nəyisə təlqin etməyə çalışsa belə, oxucu onu subyektiv qəbul edərək öz qiymətləndirməsini təsdiqləməyə çalışır. Özgələşmə bioqrafik materialın başlanğıc nöqtəsidir və eyni zamanda o, bu materialın təhlili üçün epistemoloji əsasdır.

Mətn, kontekst və bioqrafik hadisələr arasında qurulmuş əlaqələr ikitərəfli funksiyaya malikdir. Birincisi, biz bioqrafiyanı onun sosial strukturuna nəzərən izah edirik, ikincisi, sosial strukturu onun tərkib hissələrinə bölərək onların fərdlərin həyatı üçün fərqli çəkilərini və mənasını təyin edirik. Ədəbiyyat nəzəriyyəsin-

də süjet hadisələrin düzlənib hekayə yaratmasıdırsa, ictimai təhlil anlamında süjetləşmə sənədlərin və sosial strukturların sosioloji konsepsiyalar vasitəsilə düzənlənməsini təmin edən birləşdirici əməliyyatdır. Beləliklə, süjetləşmə tədqiqatçı tərəfindən təmin olunan şərhedici prosedurlardır.

Son kriteriy isə özünüqiymətləndirmə məsələsidir. Avtobioqrafiyalarda özünüqiymətlənqdirmə, özünüidentifikasiya başqa problemlərdən daha həcmli, diqqiti cəlb edən bir tərəfdir. Hermenevtika şərhin uyğunluğunu və onun həyat hekayələri üçün mümkün olub-olmadığını təyin edir. Özünüqiymətləndirmə elə özünün yarandığı mətnə nəzərən müəyyənləşir. O, şərh nəzəriyyəsinin ən ağrılı məsələlərindən biridir. Çünki bizim qarşılaşdığımız hadisələr, qarşılaşmağımızı gözlədiyimiz hadisələrin təsirinə məruz qalır. Fərziyyələr başqa mətnləri öyrənməklə, ehtimal dairələrini darlaşdırmaqla, faktların tərkibb hissələrini ayrı-ayrılıqda öyrənməklə qurulur. Əslində, mətn məhdud konstruksiyalar məkanıdır ki, bir-biri ilə mübarizə aparan şərhlər arasında ayrı-seçkilik nisbi əminsizlik ucbatında yarana bilər.

Qadamer «həqiqət və metod» kitabında sorğu-sualın ən yaxşı interpretasiya metodu olduğunu yazır. Kollinqvud isə öz məqalələrinin birində söyləyir ki, insan nə qədər aydın danışırsa-danışsın, nə qədər açıq yazırsa-yazsın, onun fikrini dediklərindən və yazdıqlarından öyrənmək mümkün deyil. Onların mənasını anlamaq üçün bu yazılanların və söylənilənlərin hansı suala cavab kimi verildiyini təyin etmək lazımdır. Müəllif öz hekayəsini bu sualı açıq-aşkar qeyd etmədən söyləyə bilər. Onda şərhçi özü bu sualı bərpaa edib yerinə qoymalıdır. Avtobioqrafiyanın ilk səhifələrində bu sual qeyri-müəyyən və qaranlıq olsa da, getdikcə aydınlaşır və gözləntilər daha anlaşılan olmağa başlayır. Avtobioqrafiyanı yazan şəxs üçün əsəri yazma prosesinin, oxuyan üçün isə oxumağa başlayanda, bu sualların təbiəti tutqun, qeyri-müəyyən ola bilər. Amma get-gedə həm yazıçı, həm də oxucu sualları aydınlaşdırır və yeni suallar qoyur. Həyat hekayəsinin və onun vasitəsilə kiminsə həyatının mənasını onun tarixi kontekstində izah etmək bu həyatın gələcək nəsillər üçün nə dərəcədə əhəmiyyətli olması ilə əlaqədar olub-olmaması əvvəlki sualın davamı kimi ortaya çıxır. Burada oxucunun münasibətini nəzərə almamaq mümkün deyil. «Həyətdə neçə maşın var?», «Üçbucağın daxili bucaqlarının cəmi nəyə bərabərdir?» suallarının cavabı sual verəndən və cavablandıranın fikrindən asılı deyil. Həyat hekayəsində isə, humanitar sahənin hər bir tərəfində olduğu kimi nəsildən-nəsilə suallar və bu suallarla bağlı gözləntilər dəyişir. «Bu üçbucağı necə görürsən?» sualı ortaya çıxanda isə vəziyyət dəyişir, sual verən, sualı cavablandıracaq şəxs və obyekt arasında əlaqə yaranır və sualın mürəkkəblik dərəcəsindən asılı olaraq müxtəlif səviyyəli gözləntilər ortaya çıxır. Belə suallara müxtəlif fərdlər müxtəlif doğrucavablar verir. Bir şəxsin həyatının iki müəllif tərəfindən yazdığı həyat hekayəsi fərqlidir, bir insanın özü barədə yazdıqları və yazılanların oxucu tərəfindən qavranılması da eyni deyil. Hər bir yazıçı və oxucu öz xüsusi suallarını və gözləntilərini formalaşdırır və onlara özünəməxsus cavablar axtarır.

Dünyada hər bir şeylə bağlı suallar mövcuddur. Avtobioqrafiyaya ilə bağlı suallar Vitqenşteyn tərəfindən belə səciyyələndirilir: «Təsəvvür edək ki, mənim elə yaxşı yaddaşım var ki, bütün hisslərimi xatırlaya bilirəm. Bu halda məni prima fasie onları təsvir etməkdən məni heç nə çəkindirə bilməz. Bəs niyə mən bu təsvirdə nəyisə fərziyyə olaraq saxlamamalıyam». Amma bioqrafik sual həyatın fraqmetləri ilə yox, bütöv həyatla bağlıdır. O, uşaqlıq, yeniyetmələk, gənclik, cavanlıq, ahıllıq, arzular, şəxsi münasibətlər, məna axtarışı kimi həyatın tərkib hissələrini birlikdə öyrənir. Bütün yaşınmış təcrübələri təsvir etmək zəruridir, çünki hər hansı bir əhəmiyyətli təcrübənin ötürülməsi həyatın izahını qeyri-

mümkün edir. Buradan aydın orlur ki, bizi maraqlandıran sualtam həyat dövrünə aiddir. Bu, müəllifin identifikasiyası, mövqeyi, karyerasının formalaşdığı, müəyyənləşdiyi dövrdür. Avtobioqrafiya bu dövrü nəticə kimi, bioqrafiya isə çox vaxt səbəb kimi verir. Bioqrafiyanın predmeti məşhur adamın karyerası, bəzən şəxsi həyatı, avtobioqrafiyanın predmeti isə bu nailiyyətlərə çatana qədər fərdin keçdiyi yolun izahıdır. Janrın tələblərinə görə həm yazı tərzi, həm də oxu və interpretasiya dəyişir. Hermenevtikanın məqsədlərindən biri mətni müxtəlif mətndənkənar mənbələrin köməyi ilə izah və şərh etmək və bu yolla mətndəki gizli, sətraltı mənanı oxucu üçün açaraq ona həqiqi, dibdə, dərində olan gerçəkliyi göstərmək, bir hadisəni digərinin köməyi ilə təfərrüatlı tərzdə interpretasiya etməkdir. Belə olan halda oxucu əsl motivləri görür, onları müxtəlif mövqelərdən dərk edir və beləliklə də həm başqalarının, həm də özünün özünə belə etiraf etmədiyi cəhətlərini görür, etiraf edir və beləliklə özü ilə ətraf mühit arasında harmoniya yaradır.

Avtobioqrafiyada şərhetmənin təbiəti bir qədər fərqlidir. Burada müəllif öz həyatının gizli, intim məqamlarını açıqlamaqla özünə kənardan baxır və öz interpretasiyası vasitəsilə özünü tanımağa, dərk etməyə, əvvəlcə başa düşmədiyi və ya etiraf etməkdən çəkindiyi cəhətlərini görməyə çalışır. Avtobioqrafiyanı yazmağa başlayanla onu bitirən Adam elə bu səbəbdən tam fərqli şəxslərdir. Arxetipik motivlərin qəhrəmanlarının bir növü olan «kamilliyə doğru gedən qəhrəman» əsərin sonunda kamilləşir, artıq dünyaya başqa, daha mükəmməl nəzərlərlə baxır, səhvlərini görür, başqalarını yox, özünü onlar üçün günahkar bilir. Beləliklə, Aristotelin dediyi «katarsis, mənəvi təmizlənmə, saflaşma baş verir və hermenevtikanın ən ümdə məqsədi olan özünü özgələrinə və özünə tam aydın izah edərək özünün və başqalarının psixologiyasını, arzularını və qorxularını, gizli-aşkar, zahiri-dərin motivlərini aydınlaşdıraraq həqiqi rahatlıq, harmoniyaya nail olmaq vəzifəsi avtobioqrafiyada daha dolğun tərzdə reallaşır.

Ədəbiyyat

Starobinski J. Le style de l'autobiographie// Poytique. Revue de thyorie et d'analyse littyraires. Paris, 1970. N 3.
Mandel J.B. Full of Life Now// Autobiography: Essays Theoretical and Critical. Princeton, N.Y. 1980.
Witgenstein, S. Philosophical remarks/ Oxford 1974, s.97

Ш.Дадашева

Автобиографический дискурс
Резюме

Автобиографический дискурс отличается от языка романа и документалистики. Здесь автор смотрит на скрытые, личные моменты своей жизни со стороны, старается видеть и анализировать те качества, на которые он закрывал глаза во время их происхождения. Язык автора подчеркивает его индивидуальность, и при переводе такие произведения часто теряют в качестве выражения коллективного и индивидуального подсознания.

Sh. Dadashova

Autobiographical discourse

Summary

Autobiographical discourse differs from both novels and documentary. The author observes the events of his past life from outside, tries to see and analyze the qualities he turned a blind eye when they were progressing. The writer's language emphasizes his individuality and in translation autobiographical works lose in expression of personal and collective unconscious.

Rəyçi: Ədibə Məmmədova
filologiya elmləri namizədi, dosent

TAHİR NƏSİBLİ
AMEA Folklor İnstitutunun elmi işçisi

URAL-ALTAY XALQLARININ ŞİFAHİ XALQ YARADICILIĞINDA AT MOTİVİNİN YARANMASININ TARİXI-MƏNƏVİ ƏSASLARI VƏ "QESER", "KOROĞLU" DASTANLARINDA BUNUN ƏKSİ

Açar sözlər: ural, altay, monqol, türk, at, Qeser, Koroğlu, Qırat, Durat, Uzaqgörən kəhər, quray-duray.
Ключевые слова: урал, алтай, монгол, тюрк, конь, Гесер, Кероглы, Гырат, Дурат, Вещий-гнедой, гурай, дурай
Key words: Ural, Altai, Mongol, Turk, horse, Geser, Koroghlu, Girat, Durat, sagacious, bay, guray, duray

Hər hansı bir irqin, soyun, xalqın maddi-mənəvi tarixi inkişafının nəticələri, təsiri onların şifahi xalq yaradıcılığında əks olunaraq qorunub saxlanılır. Eyni zamanda dünya xalqlarının folklor nümunələrinin qarşılıqlı müqayisə etməklə, ən qədim ibtidai universal ortaq dünya baxışların yarandığı dövrdən fərqli olaraq, etnogenetik maddi-mənəvi arealların ayrılaraq müstəqil vəziyyətdə təşəkkül və təkamül tapmasını, onların təkrarsız və özünəxas xüsusiyyətlər, keyfiyyətlər qazanmalarını da müəyyənləşdirmək mümkündür. Bəllidir ki, milli-genetik dəyərləri, xüsusiyyətləri qabarıq və tam incəliyi ilə müəyyənləşdirmək üçün, istər-istəməz paralel olaraq həmin soyun, xalqın gerçək maddi-siyasi tarixi də daima diqqət mərkəzində tutulmalıdır. Həmin bu yanaşma üsulu ilə də atların dünya xalqları tərəfindən əhliləşməsi məsələsinə müraciət olunsa, yanlış olmazdı. Buna görə də qədim dövrün maddi-mənəvi və siyasi-hərbi vəziyyəti haqda qısa bir müqayisə verilsə, araşdırılan məsələ daha tez aydınlaşardı.

Atların əhliləşməsi və təsərrüfatda istifadəsi qəbul edilən 3-4 min il əvvəlki tarixi dövrdə semit-hamit tayfaları demək olar ki, bunlardan istifadə etmədiklərinə görə öz hərbi işğallarında qərbdən şimala və şərqə doğru çox cüzi səviyyədə irəliləmişdilər. Bunlar Akkad, Assur, Babil dövlətləri zamanında, m.o. II-I minilliklərdə, Dəclə və Fərat çaylarının orta axarlarından və İran yaylasının, Urmiya gölünün qərb tərəflərindən kənara çıxa bilməmişdilər. M.o. I minillik ərəfəsində hind-avropalı mənşəli tayfalar ("arilər") bunlara nisbətən bir az çox şərqə doğru – Kiçik Asiya, İran ərazilərində və Hindiquş dağlarının cənub yamaclarına keçərək, genişlənirlər. Çox güman ki, bu ərəfədə "arilər" yerli türksoylu xalqlar vasitəsi ilə ilk dəfə atlarla tanış olur və sonra hind və yunan mifologiyasında at müqəddəsləşdirilərək rəmzləşdirilir. Lakin həmin minillikdə, qeyd edilən hadisələrin cərəyan etdiyi 20 mln. kv. kimə yaxın ərazinin ətrafında, buralardan dəfələrlə çox geniş olan qonşu coğrafi məkanlarda daha sürətli və köklü dəyişikliklər yaşanırdı. M.ö. IX-VII əsrlərdə mərkəzi Tanrı (Tyan-Şan) dağları olmaqla, Sakit okean sahillərindən başlayaraq Sibiri, Hindiquş dağlarını, Xəzər və Qara dənizin ətraflarını, Şərqi və Qərbi Avropanın böyük əksəriyyətini, bütün Qafqazı, Şimali Afrikanın çox hissəsini, İran yaylasını, Kiçik Asiya və Ərəbistan yarımadasının bəzi yerlərini əhatə edən ucsuz-bucaqsız ərazilərdə türksoylu xalqlar olan massagetlərin, kimmerlərin, sakların, iskitlərin (skiflər) yaratdıqları birlik, demək olar ki, bütün dünyanı idarə edir, özlərinin siyasi-

hərbi-mənəvi təsirlərində saxlayırdılar. Bəllidir ki, həmin tayfa birlikləri bu ölçüyəgəlməz üstünlüklərinə sürətli hərəkət vasitəsi olan və artıq özlərinin ayrılmaz parçaları kimi qəbul etdikləri atları vasitəsi ilə nail olurlar. Qeyd edilən həmin hadisələr Troya (Truva) müharibələrindən (m.ö.1194-1184) bir-neçə əsr sonra baş verirdi.

Türksoyluların həyatında, şifahi xalq yaradıcılığında atların tutduğu yer, əhəmiyyət, şübhəsiz ki, digər soyların, xalqların maddi-mənəvi aləmi ilə müqayisədə daha qədim və qiymətlidir. Arxeoloji məlumatlar atların insanlar tərəfindən ilk dəfə əhliləşdirilməsini də türksoylularla əlaqələndirib təsdiqləyir. Müasir dövrdə də atların ilk əcdadları sayılan, vəhşi-ibtidai şəkildə qalan atların Mərkəzi Asiya çöllərində yaşaması da mülahizələri əsaslandıran amillərdəndir.

Atların massaget-iskitlərin (türksoyluların) həyatında böyük dəyər daşımasını təsdiqləyən tarixi incəliklərdən biri də onların öz müttəfiqləri olan assuriyalılarla olan siyasi-hərbi münasibətləridir. Belə ki, yunanlıların Protoriy, assuriyalıların Partatua dedikləri massaget – iskit xaqanının qəbri (kurqan) Kiyevin 100 km-dəki Perepiyatixa kurqanında aşkarlanıb. Partatuanın qəbri yerləşən ərazi, məlumdur ki, türksoylu tayfa birliklərinin mərkəzi hesab edilirmiş.

M.ö. 681-668-ci illərdə Assuriya hökmdarı olmuş Asarxoddonun müttəfiqi olan Partatuanın massaget-iskit orduları assuriyalıların midiyalılara və babillilərə qarşı müharibələrdəki çağrışlarında müntəzəm iştirak etmişlər. Bunu sakların, iskitlərin (skiflər) m.ö. VII-V əsrlərdə Urmiya gölü ətrafındakı ərazilərdə yaşamaları da təsdiqləyir. Massaget-iskitlər müttəfiqləri assuriyalıların köməyinə, məlumdur ki, atlı ordularının sürətinə görə çox tez çatırmışlar. Lakin assuriyalıların Mərkəzi Avropa ərazilərində olmaları, öz müttəfiqlərinə kömək etmələri haqda heç bir tarixi məlumat yoxdur. Bu, bir tərəfdən massaget-sakların çox güclü olmaları və köməyə ehtiyaclarının olmaması ilə bağlıdırsa, digər tərəfdən assuriyalılarda atlı orduların zəifliyi ilə əlaqəlidir. Bütün hallarda massaget-iskitlər (skif) atlı-süvari ordularının çoxluğuna və sürətinə görə qısa bir zamanda dünyanın hər bir yerində öz təsirlərini, nüfuzlarını təsdiqləyirdilər.

Qədim türksoyluların atlardan özlərinin bütün məqsədləri üçün istifadə etmələrini təsdiqləyən dəlillər massaget-sak dövründən də min il əvvələ gedir. Belə ki, qədim Misir tarixindən xəbər verən mənbələrə görə m. ö. XVIII əsrin əvvəllərində şərqdən gələn qiksos tayfaları Afrikanın şimal-şərq hissəsini özlərinə tabe edirlər. Şumerlərin soydaşları olan hurrit tayfalarından qiksoslar, elmi dünyanın qəbul etdiyi kimi, semit-hamit və hind-avropalı mənşəli deyildilər. Qiksosların sayəsində qədim misirlilər ilk dəfə olaraq iki təkərli atlı döyüş arabaları və dəmir silahlarla tanış olurlar. Eyni zamanda, qiksoslar Misirdə 250 ilə yaxın hakimlik edirlər. Qiksosların baş kəndi Avaris (avar, abar, bar, var hun-türk tayfalarının qədimliyini təsdiqləyir, bunlar Atilladan sonra VII-IX əsrlərdə Qərbi Avropada Avar xaqanlığı imperiyasını yaradırlar) adlanırdı, hökmdarlarına isə "xekan-xasu" deyilirdi, bu ad nə qədər semit-hamitcə təhrif olunsa da "xaqan" adının ən qədim şəkillərindəndir. Hakim sülalədən olanlardan biri də "Xian" (xan) adlanırdı. Bu ad da yenə qədim ural-altaylarla əlaqəlidir. Qədim çinlilərlə türklərin qarışığı olan xalq "xanərlər", Xan imperiyası, Çingiz xanın adı, Azərbaycanda dövlətlər bölgüsünu bildirən xanlıqlar ifadəsi bu mənşədən törəmədir.

Qiksoslardan 100 il sonra, m.ö. XVI əsrin əvvəllərində onların digər soydaşları kassitlər şərqdən, İran yaylasından (həmin dövrdə hind-arilər Avropadan Şərqə

doğru hərəkət etməmişdilər) babillər tərəfindən işğal olunmuş qədim Şumer ərazilərinə daxil olurlar və burada 450 ildən artıq hökmranlıq etməklə bunları da Misirdəki semit-hamit xalqları kimi ilk dəfə hərbi və təsərrüfat işlərində atları və qatırları istifadə etməklə, əkinçilikdə universal işlədilən dəmirdən cüt və taxılsəpənlə tanış edirlər. (6,263)

Atların əhliləşdirilməsi və dəmirin istifadəsi işığın istiqamətində, şərqdən qərbə doğru, qədim türksoylulardan soydaşları şumer-hurit tayfalarına, bunlardan da hind-avropalı və semit-hamit mənşəli xalqlara nüfuz edərək qəbul olunub. Bu xüsusda Troya (Truva) müharibələrində axeylərin troyalıları at müqəvvası ilə aldadıb şəhəri işğal etməsi hadisəsi də təsadüfi deyil. M. ö. X-IX əsrlərdə Kiçik Asiya yarımadasından olan etrusklar dəniz yolu ilə soydaşları lusirlərlə, korslarla, sardlarla, tirsenlərlə və s., Siciliyaya, Apenin yarımadasına, Sardiniya və Korsika adalarına, Şimali Afrikaya (Karfagen ərazilərinə) köç edirlər. Tarixdə bunlara "dəniz xalqları" deyirlər. 2004-cü il 8 dekabrda İtaliya Arxeologiya İnstitutu və Ferrar universitetinin biologiya üzrə professoru Quidio Barbucaninin genetik incələmələrinin nəticələrinə görə etruskların türksoylu olmaları təsdiqləndi və bu haqda Türkiyə elmi dairələrinə məlumat göndərildi.(9,131) Çox böyük ehtimalla troyalılar ilə etrusklar eyni soylu xalqlar olublar və Egey, Aralıq dənizi sahillərində yaşayan hurit tayfaları Misirdəki soydaşları qiksoslar, Babildəki kassitlər kimi ata xüsusi xeyirxah münasibət bəsləyib və sitayiş ediblər. Bunu bilib və ondan sui-istifadə edən işğalçı axeylər onları aldatmağı bacarıblar.

Yuxarıdakı səhifələrdə qısa da olsa incələnən tarixi məlumatlardan və əsası olan rəvayətlərdən belə nəticəyə gəlmək olar ki, xalqın uzun tarixi müddət ərzində yaşanılmış maddi-mənəvi gərginliklərini süzgəcdən keçirib cilalayan, təbəqələşdirən etno-genetik yaddaş olan folklordakı hadisələr boş yerdən yaranmayıb, hər bir məlumatın arxasında gerçəkçi əsas var. O cümlədən də ilk dəfə bir soyun həyat tərzində qəbul edilmiş, dəyərlərin, alışqanlıqların sonradan bütün bəşəriyyətin maddi-mənəvi xəzinəsinə çevrilməsinin də real səbəbləri vardır və dövrünə, məkanına görə də bunları nisbi də olsa müəyyənləşdirmək mümkündür.

Türksoyluların əfsanələrində və dastanlarında dişi, yaxud da erkək qurddan (börü, şena) törəmə, başlanğıc götürmə olduğu kimi, nağıllarında da su ayqırından, atından yaranma motivi var. "Reyhanın nağılı"nda Gülcahan qızını axtardığı zaman susuzladıqda gölməçəyə girir və burada hamilə qalır. Doğulan oğlu Ayqır Həsənin atası su və su ayqırı olur (1, 22). Belə mövzunun, süjetin yaranması bir tərəfdən "Yaradılış" ("Törəyiş") dastanında okeandakı Ak Ana ilə əlaqəlidirsə, (3,12) digər tərəfdən də "Koroğlu" dastanının dəyişik mətnlərinin çoxunda Qırat və Düratın dəryadakı ayqırdan törəməsi ilə eynilik təşkil etməsi ilə çox qədim motiv olduğunu əsaslandırır (7,5).

Ümumi etno-genetik maddi və ruh aləminin üzvləri olan ural-altay xalqlarında, monqollarda və türklərdə, onların yaşayış tərzlərində və şifahi xalq yaradıcılığında ata sevgi və münasibət eyni səviyyədə qorunaraq tərənnüm edilib. Bu xüsusda "Qeser" və "Koroğlu" dastanlarında atlarla əlaqəli uyğunluqlar da çox oxşar və yaxındır. Hər iki dastanda ural-altaylara xas olan qədim köklü dünyabaxışları, təbiət varlıqlarına, göy cismlərinə münasibət, sitayiş, inanclar eyni olduğu halda, əfsanə, nağıl motivlərinin, mövzularının, ideya və süjetlərinin çoxluğuna, üstünlüyünə görə "Qeser"in daha qədim olması açıqca hiss olunur. "Koroğlu"da bu xüsusiyyətlər

hiss olunacaq dərəcədə zəif inkişaf edib. Hər iki dastanın əsas qəhrəmanlarının tarixi şəxsiyyətlər olmasına olan ehtimallardan da – Qeserin IV-V, Koroğlunun XVI-XVII əsrlərdə yaşadıqları qəbul olunur, bəlli olur ki, "Qeser" dastanı "Koroğlu"dan çox qədimdir. Buna görə də dastanlarda atlarla əlaqəli uyğunluqların başlanğıcının yaranmasını "Qeser"də tapmaq daha məntiqli olardı.

"Qeser"də dolayı yolla da olsa, qəhrəmanın atı, "Uzaqgörən-kəhər", insani keyfiyyətlərə malikdir. O, hadisələri, təhlükələri, düşmənləri hiss etmədə uzaqgörəndir, sahibinin nə edəcəyini, nə demək istədiyini bilir, onunla insan dili ilə danışır. Atın qeyri-adi xüsusiyyətləri, görkəmli, yüksək keyfiyyətləri var:

Uzaqgörən-kəhər (bax belə idi):
Dağa bənzər bədəni ilə,
Uzun nəhəng quyruğu ilə,
280. Yüz səksən arşınlıq quyruğu ilə,
On səkkiz arşınlıq saçıyla.
...
Ağır yəhər qoydu,
285. ... dirsək qalınlığında
Səndəl yəhər geyindirdi (Qeser)... (10, 136)

Aşılması mümkün olmayan nizə kimi iti zirvələrdən ibarət dağların yaratdığı qorxulu keçidə çatdıqda, xilaskar üç bacılar Qeserə məsləhət verirlər ki, öz Uzaqgörən-kəhərinə (atına) bu dağları aşmaqda ona kömək etməsini xahiş etsin (10, 137-139). Qeserin müraciətinə atı:

Hökmdar Qeser-merqen,
Öz fikirlərini sakitləşdir!
430. Əgər bu dağları aşıb
Keçə bilməsən,
Deməli bacarıqsız Uzaqgörən –
Kəhərinəm mən sənin,
...
Qoy onda mənim dörd dırnağım qopub düşsün! – deyir (10, 140).

Dastanın mətnində Qeserlə atın nəql olunan danışıqlarından bəlli olur ki, nağılların hər üç (sehirli, heyvanlar haqda, məişət) növü ilə mövzu, ideya, süjet cəhətdən yaxınlıq var. "Qeser"də nağıl xüsusiyyətlərinin qabarıq və canlı olması onun dastan keyfiyyətinə maneçilik törətmir, əksinə zənginləşdirir, qədimliyini əsaslandırır. "Koroğlu"da Qıratla Düratın təsvirlərində qeyri-adiliklər, demək olar ki, yox dərəcəsindədir. Qırx gün qaranlıq tövlədə bəslənən Qıratın qanadlarının yaranıb yox olması hadisəsi istisna olmaqla (7, 8) dastanın ayrı-ayrı mətnlərində atlarla əlaqəli möcüzəli təsvirlər yaradılmayıb.

Qıratla Dürat Koroğlunun nə etmək, nə demək istədiyini hiss edib yerinə yetirirlər. Keçəl Həmzənin Qıratı oğurlamasından sonra Həsən paşanın tövləsində günlərlə ac-suz qalan at Koroğlunun səsini eşitdikdə dünya-aləmi bir-birinə qatır (7, 151). O sahibinin çətin vəziyyətə düşdüyünü hiss etdikdə düşmənləri şil-küt edir (7, 157). Nəhayət, düşmən ordularının cəbhəsini yarıb atıyla suya tullanan Koroğlu atının çətinlik çəkdiyini gördükdə onu ürəkləndirmək üçün tərifləməyə başlayır:

Ceyrana bənzər qaçışın,
Addımla, qurban qoluna!
Tərlana bənzər uçuşun,
Əl çatmaz ipək yalına!..

Koroğluyam güman belə,
Deməyinnən gəlməz dilə,
Məni çıxart Çənlibelə,
Qotaz düzdürrəm çuluna! (7, 158)

Bunu duyan Qırat özünü də, Koroğlunu da sudan çıxardıb düşmənlərdən uzaqlaşdırır. Hər iki dastanda da qəhrəmanlarla atlar arasındakı münasibətlər haqda çoxsaylı misallar gətirmək, nümunələr göstərmək olar. Buradan bəlli olur ki, "Koroğlu" dastanı mövzu, süjet, ideya tərənnüm cəhətdən öz təsvirlərində həyati gerçəkliklərə çox yaxındır, həm də atların təsvir və tərənnümündə də hər incəlik təbiidir. Lakin yuxarıda qeyd edildiyi kimi , "Qeserin" çox qədimliyinə və nağıl xüsusiyyətlərinə yaxınlığına görə də qəhrəmanın atı qeyri-adi keyfiyyətlərə, insani xüsusiyyətlərə malikdir.

"Qeser" və "Koroğlu"da atların təsvir və tərənnümlərindən belə nəticəyə gəlmək olar ki, hər iki dastanda da qəhrəmanların onlara canlı və xeyirxah münasibət bəsləmələri əsas sinir damarı kimi mahiyyətcə və ruhən eynidir.

Yeganə fərqlilik dastanların qədimliyi və tarixilikləri ilə əlaqəli istifadə olunmuş yanaşmaların, poetik üslubların gerçəkçi-həyati, yaxud da təxəyyüli-məcazi, mifoloji məzmunda olmasıdır.

Hər iki dastanda da atlara münasibətin eyni ruh dünyasından başlanğıc almasını göstərən əsas səbəblərdən biri də onlara müraciətlərdə işlədilən adların, sözlərin oxşarlığı, uyğunluğudur. Qeser haqda Şərqi-Monqolustanda toplanmış mətnlərin içərisində gedən (10,271) "Qızıl dağ Sumeru" dastanında atların adlandırılması və təsviri "Koroğlu" ilə daha yaxından səsləşib uzlaşır. "Qızıl dağ Şumeru"nun "Qeser" dastan mətnlərinə aid olub olmamasından asılı olmayaraq, atların adlandırılmasının və təsvirinin ümumiyyətlə monqol şifahi xalq yaradıcılığında "Koroğlu"ya daha yaxın olması axtarılan məsələnin aydınlaşmasına heç bir xələl gətirmir, əksinə daha da təsdiqləyir. Bir halda ki, "Qeser"ə aid digər monqol-buryat dastanlar silsiləsində türk dastanlarında olduğu kimi atların tərənnümü və adlandırılması var, bu inkişaf ümumi etno-genetik birliyin olması ilə əsaslanır.

"Qızıl dağ Sumeru"da Açıq-Teneq-batır cənubi-qərb qitənin (qədim türklərdə, monqollarda, tibetlilərdə dünyanın dörd tərəfinin ruhlarına xeyirxah və mənfi münasibət təsəvvürü var idi) hökmdarının qızı, şahzadə Burma Yanqsanı (yeri gəlmişkən, Burma Yanqsa ilə "Kitabi Dədə Qorqud"dakı Burla xatun adları, Acıq-Teneq-batırla beyrəyin Banu Çiçəyin arxasınca getdiyi epizod arasındakı oxşarlıq da maraq doğurur) nişanlamaq üçün əvvəlcə lamaya müraciət edir. Lama birinci dəfə əlverişli şəraitin yaranmadığını söyləyib onu hirsləndirir. Lakin müəyyən zaman keçdikdən sonra ikinci müraciətində əlverişli şəraitin yarandığını söyləməklə Acıq-Teneq-batırı sevindirir. Hökmdar vaxt itirmədən yola düşmək üçün sevimli, qiymətli açıq sarı rəngli bumbay atını çağırır:

"Quray, quray!" – çağırdı deyirlər,
Üç saat çağırdı deyirlər.
95. "Duray, Duray!"- çağırdı deyirlər
Dörd saat çağırdı (10, 273).

...

Bu çağırışları eşidən at öz daxili səsiylə düşünür ki, görəsən bir günah işlətməyib ki, sahibi onu səsləyir. Sahibi hökmdar onu şimal budaqlı ağaca bağlayır və hər gün yoxlamaq şərti ilə ön gün nəzarətdə saxlayır. Gündə atın bədəninin bir hissəsi, üzvü möhkəmlənib inkişaf edir. "Koroğlu" da Qıratla Düratı qırx gün bəsləmişdilər. Atın hazır olduğuna əmin olduqdan sonra Acıq-Teneq-batır dörd aylıq yola hazırlaşır. Bu parçadan açıqca bəlli olur ki, dastan mətnində atın hazırlanması, bəslənməsi "Koroğlu"dakı eyni motivlə çox yaxındır. Ən maraqlısı isə "Koroğlu"da atların Qırat, Dürat adlandırılmasına bənzər "Qızıl dağ Sumeru"da atın üç saat "quray, quray!", dörd saat "duray, duray!" çağrılmasıdır. Adların çox yaxın oxşarlığı və səslənməsi təsadüfi hal deyil və məlum olur ki, "Qır", "Dür" kökü qədim ural-altaylarda magik, xeyirxah yüksək ruh anlayışı daşıyırmış.

"Koroğlu"da qırx gün qaranlıq tövlədə bəslənən atları yoxladıqda Alı kişi qanadların çıxıb-çıxmamasını bilmək üçün əlini atların belinə çəkir (7, 9). Qanadlı atın quş kimi uçacağı təsəvvürünə görə belə düşünülürmüş. "Qeser"də Uzaqgörənkəhər at öz sahibinə verdiyi sözü tutmaq, ölümcül təhlükəli maneələri keçmək üçün buludların üzərinə, göyün havasına qalxır və sanki addımlayırmış kimi uçur, süzür (10, 141). Acıq-Teneq-batır da birinci gündən sonra atı yoxladıqda Alı kişi kimi onun belinə fikir verir (10, 274).

Məqalədəki bu qısa incələmədən hansı nəticəyə gəlmək olar? Bir halda ki, ural-altay mənşəli bir köklü olan monqol və türk xalqlarının qədim maddi-mənəvi tarixləri ortaqdır, eynidir, hunlar, Göy Türk Xaqanlığının qurucuları Aşinaoğlulları, Çingiz xan bunların hər biri üçün eyni dərəcədə əhəmiyyətli və müqəddəsdir, onda dastanlarda atlara olan münasibətlərin də oxşarlığı, uyğunluğu təsadüfi hal deyil, ümumi etno-genetik inkişafın yaratdığı nəticədir. Türksoylular tərəfindən atların əhliləşdirilməsinin lap qədim dövrdən, min illərlə əvvəldən başlayaraq gündəlik həyatda və siyasi-hərbi məqsədlər uğrunda istifadəsi şifahi xalq yaradıcılığında özünü əks etdirərək qoruyub saxlayıbdır. Eyni zamanda, ata bu qədər önəm verən, igidə qardaş sayan türksoylular bir zamanlar öz dövrünün qabaqcıl sürət vasitəsi sayılan atların əhliləşdirilməsi, yetişdirilməsi və ondan istifadə etmə təcrübəsini başqa xalqlara da yayıblar.

Ədəbiyyat

1. Azərbaycan ədəbiyyatı tarixi. VI cilddə. I c. Bakı, Elm, 2004.
2. Авдиев В.И. История древнего Востока. Г.Н.П.И. Москва, 1953.
3. Banarlı N.S. Resimli Türk Edebiyatı Tarihi. Milli Eğitim Basımevi. İstanbul, 1998.
4. Дяков В.Н. История древнево мира. Г.Н.П.И. Москва, 1962.
5. Qumilyov L.N. Qədim türklər. Bakı, Gənclik, 1993.
6. Кондратов А.П. Справочник необходимых знаний. Москва, РИПОЛ КЛААСИК. 2002
7. Koroğlu. Bakı, Gənclik, 1975

8. Tahir Nəsibli. Tarixin ən qədim adlarından türk. Elmi axtarışlar. №1, 2009. Bakı, Nurlan
9. Tahir Nəsibli. Türklərdə əcdad "Kormos" ruh qavrayışı, bundan yaranma adlar və Dədə Qorqud haqda Elmi axtarışlar. № 1, 2010. Bakı, Nurlan,
10. Неклюндов С.Й., Тумурсерен Ж. Монгольскиу сказания о Гесере. Новые записи. Наука. Москва, 1982.
11. Немировский А.И. Етруски. Наука. Москва, 1983.

Тагир Насибли

Историко-духовные особенности происхождения мотива коня в фольклоре урало-алтайских народов и отражение, единство его в эпосах «Гесер» и «Кероглы»

Резюме

В статье исследуется происхождения мотива коня в материально-духовной жизни урало-алтайских народов и его отражение в устно-народном творчестве их, а также место в темах, сюжетах эпосов «Гесер» и «Кероглы».

Историко-духовные основы указанного мотива обусловливаются и оцениваются неотделимо от древне-тюркских народов и воздействие на народов мира связывается с ними.

Tahir Nasibli

The image of historical-spiritual basics of the origins of horse motive in the oral creativity of Ural-Altai nations, and its placement in the "Geser" and "Koroghlu" eposes

Summary

The article is lightened the horse motive position problem in the material-spiritual life of Ural-Altai origin nations, its image in the oral creativity, the placement in the topic and plot of "Geser", "Koroghlu" eposes. The link between Turk nations and the historical-spiritual basics which agree with arising of the pointed motives is appraised and indicates its influence to the World foreign nations.

Rəyçi: Tahirə Məmmədli
filologiya elmləri doktoru, professor

DÜRDANƏ ƏSGƏROVA
Azərbaycan Müəllimlər İnstitutunun doktorantı
VAQİF QURBANOV
Pedaqogika üzrə fəlsəfə doktoru, dosent

BƏDİİ MÖVZULARIN MƏNİMSƏDİLMƏSİNDƏ BAŞLICA AMİLLƏR

Açar sözlər: ana dili, bədii materiallar, kurikulum tələbləri, mənimsəmə, tədris etmək, gözlənilən nəticələr, son nəticələr.
Ключевые слова: родной язык, художественные материалы, требования курикулума, усвоения, изучать, ожидаемые результаты, окончательные результаты.
Key words: native language, art supplies, the demands of curriculum, learning, study, expected results, ca results onchatelnye.

Ana dili dərsləri dedikdə geniş mənada I-IV siniflərdə əlifba, hüsnxət, dil qaydaları və oxu məqsədli materialların mənimsədilməsi prosesi nəzərdə tutulur. Azərbaycan dili dəsrsliklərindəki oxu məqsədli materialların isə, bir qayda olaraq, 90-95 faizini bədii üslubda olan materiallar təşkil edir ki, bu da təsadüfi deyil. Belə ki, ibtidai təhsildə bədii materiallar üzrə işlər ana dili kurikulumunda əsas və alt-standart olmaqla yanaşı, həm də sonrakı siniflərdə ədəbiyyat təliminə möhkəm hazırlıq yaradılması mərhələsi kimi qiymətləndirilir.

İbtidai siniflərdə oxu təliminin ilkin mərhələsində hərflərlə, səslərlə - sözlərlə başlanan ədəbi qiraət təlimidir. Bu prosesdə əsasən sadə, aydın və anlaşıqlı bədii ədəbiyyat nümunələri oxunur, getdikcə onların üzərində müxtəlif məqsədli və ya aspektli işlər gedir və nəhayət, məzmunun nəql edilməsi ilə tamamlanır.

Oxumaq bacarıqdır; bir sıra faktorlar kompleksini özündə birləşdirir: 1)oxu qaydası; 2)düzgünlük; 3)optimal sürətlilik; 4)ifadəlilik; 5)şüurluluq. Şagirdlərin oxu texnikası bu tələblər baxımından təkmilləşdirilməzsə, oxu dərsləri uşaqlara oxumağı və düşünməyi, oxumağı və hiss etməyi, oxumağı və müstəqil biliklər əldə etməyi, oxumağı və həyatını, fəaliyyətini zənginləşdirməyi öyrədə bilməz.

Oxu keyfiyyətlərinin hər biri özlüyündə alt-sistemlər təşkil edərək böyük əhəmiyyətə malik olur və olmaqla yanaşı, həm də bir-biri ilə sıx əlaqədə həyata keçirilir. Oxu vərdişləri arasındakı belə məzmundaxili qarşılqlı əlaqələr qanunauyğun haldır; çünki oxunun düzgünlüyü mətnin məzmununun şüurlu oxunmasına xidmət edən bir vasitədir [1.187].

İbtidai siniflərdə oxu ifadəli oxu mərhələsindən sonrakı mərhələ ədəbiyyat təlimi kimi qurulur. Ədəbiyyat və ya bədii mətnlər anlayışı haqqında nələri demək olar?

Ədəbiyyat, ümumiyyətlə, ədəbi qiraət və bədii ədəbiyyatdan daha geniş anlayışdır. M.F.Axundovun təbirincə, "Literatur ki ibarətdir hər növ təsnifdən, xah nəzm ilə, xah nəsr ilə". Bədii ədəbiyyat isə ədəb, mərifət, əxlaq, zərflik, incəlik və s. aşılayan söz sənətidir və yaxud da, incəsənətdir və ya obrazlı təfəkkürün məhsuludur. Odur ki, məktəbdə ədəbiyyat təlimindən söhbət düşəndə siyasi, texniki, fiziki və s. ədəbiyyat deyil, məhz bədii ədəbiyyat nəzərdə tutulur ki, bu da bədii ədəbiyyatın daha geniş məzmuna malik olması ilə əlaqədardır. Deməli, biz burada bədii

ədəbiyyat nümunələrinin tədrisindən, nəticə etibarilə onun estetik və əxlaqi dəyərlər aşılamaq funksiyasından, humanist qayələr aşılamaq cəhətdən rolundan və əhəmiyyətindən söhbət açacağıq.

Qeyd etdik ki, ibtidai təhsildə bu işlər Azərbaycan dilindən oxu təlimində bədii mətnlər vasitəsilə həyata keçirilir. Əlbəttə, belə bir cəhəti də xüsusilə nəzərə almalıyıq ki, ədəbiyyat təlimində hansı nəzəri biliklərin və təcrübi bacarıqların aşılanması nəzərdə tutulursa, ana dili təlimi sistemində də, təxminən, həmin bilik və bacarıqların ibtidai səviyyədə aşılanması, nəzərdə tutulur. Ana dili təlimində oxu materiallarının məqsəddən asılı olaraq seçilir və bu fənnin məzmuna daxil edilir. **Oxu** dünya təhsilində **standart** kimi qəbul edilmişdir. Oxu qiraət vərdişlərinin, xüsusilə də, bədii qiraət vərdişlərinin aşılanması dünya təhsilində humanistləşdirmə strategiyası sayılır. Əlbəttə, dinləyib-anlama standartına da şagirdlərdə daha çox bədii qiraətə fəal münasibət, həssalıq yaratmaq aspektindən önəm verilir. Çünki bədii əsərlərdən seçilmiş mətn parçalarının oxunması və ya dinlənilməsi bədii zövq, bədii duyğu, hiss aşılayan pedaqoji-əxlaqi vasitələrdir ki, bunlar da insanı saflaşdırır, büllurlaşdırır. Bədii ədəbiyyat insanı getdikcə təkmilləşməyə bələdçilik də edir, bu yolda kamilliyin özünün nədən ibarət olduğunu da açıb göstərir. Bədii ədəbiyyat bu cəhətdən çox təsiredici qüvvəyə malikdir. ədəbi əsər təbii şəkildə göstərir ki, kamillik nədir. Kamillik mükəmməllikdir. Mələklər kimi təmiz, pak olmaqdır? Ədiblər ayrı-ayrı fərdlərin simasında əxlaqi gözəllikləri müşahidə edərək (onlarda yalnız yaxşı cəhətləri görərək naqislik axtarmadan) təxəyyüllərdə Məcnun, Fərhad, Leyli, Şirin kimi əsl insan obrazı formalaşdırırlar. M.Ə.Sabir belə insanlar haqqında yazır:

"Pak görər pak görən nəzər hamını,
Nazənin-nazənin süzər hamını".

Ölməz şairimiz bu fikri fars dilində də gözəl səsləndirib:

Dideye pak-in çenin bined,
Nazənin comle-nazənin bined. [3,s. 229]

Şair və yazıçılar bu məqamı duymaqda çox həssadırlar. Axı "Onlar peyğəmbərlərdən sonra dünyaya gələnlərdir" (M.Gəncəvi). Deməli, şairlər yaranmışların ən şərəflisi olan insanı həyatın amansız burulğanlarından əxlaqı saf şəkildə salamat çıxmağa çağırırlar, habelə səciyyələndirdikləri belə qəhrəmanları da nümunə göstərirlər.

Məhz elə buna görə də, bədii əsərlərin yazılması prosesinə kamil insan modeli yaratmaq laboratoriyası deyilir. Bu yaradıcılıq prosesinin məhsulu ya nəzmlə - şeirlə, ya nəsrlə hasilə gəlir. Şeirin daha obrazlı, daha ürəyə yaxın olması bir faktdır. Şeir incəsənətdir. Böyük Azərbaycan şairi Məmmədhüseyn Şəhriyar demişkən:

"Şeir mədəniyyət, incəsənətdir,
Incə ruh, incə zövq, incə sənətdir".

Şeir elmlə, sənətlə doludur. Deməli, elmdir. Dahi Füzuli yazır: "Aydın məsələdir ki, şeir də elmin müstəqil bir növüdür, həm də mötəbər bir növüdür və kamalın mötəbər növlərindən biridir. Onu inkar edənlər şeir zövqündən agah olmayan, şeir deməyə qüdrət tapa bilməyənlərdir" [4,s.102].

Ədiblərin qələmindən müdrik filosofların da, xeyirxah, zəhmətkeş insanların da obrazı çıxır, qəddar, xunxarın obrazı da. Müsbət qəhrəmanların xarakterindən oxucu müsbət, mənfi qəhrəmanların obrazlarının təhlildən daha xeyirxah, daha ədalətli, insaflı olmaq kimi nəticələr çıxarılır.

Bədii ədəbiyyat insanın kamilləşməsindən ötrü parlaq bir aynadır. Şair və yazıçılar insan tərbiyəsi ilə məşgul olur, işıqlı sima axtarır, açıq səma arzulayırlar.

İ.Kantın elə bir gözəl fikri var ki, onu bu məqamda söyləmək yerinə düşər: "Mən iki halda daha artıq təəccüblənir və heyrətdə qalıram: bir – başımız üstündəki işıqlı ulduzların sayrışmasını görəndə, bir də bəzi insanların daxilindəki mənəvi normalara uyğun işıqlı aləmi görəndə" [2,c.31] (Известны слова И.Канта, что есть две вещи, которые вызывают наиболшее восхищение и удивление, звездное небо над нами, и нравственный закон внутри нас).

Bunları şərh etməyə də,dərk etməyə də ehtiyac var. Doğrudan da, işıqlı ulduzlar qədər qəlbi parlaq olmaq böyük xoşbəxtlikdir. Həzrəti Yusifdən, Məhəmməd Peyğəmbərdən bəhs edən əsərlər oxucunu saflaşdırır.İnsanlarda yalnız yaxşı cəhətləri görən bədii əsər qəhrəmanları məgər imanı kamil insanlar deyilmi? Şeyx Nizami müdriklərin, dahilərin obrazını yaratmaqla oxucuya humanistcəsinə təsir göstərmək istəmişdir. Dünyanın işlərinin düzəlməsi üçün özünü fəda edən insanlara həsəd aparmaq deyil, heyranlıqla qibtə etmək lazımdır. Müdriklər kamil insanlardır və heç vaxt baş verən hadisələrə görə təqsiri başqalarında yox, özlərində görürlər "Совершенний человек все ищет в себе, ничтожный – других (Конфуций)" [2,s. 91].

Xalq müdrikliyində isə həmin hallar belə ifadə olunmuşdur:

Когда грозит беда,
Когда бывает туго,
Мудрец винить себя,
Глупец – друга. [2,c. 262]

Ibtidai təhsildə bədii obrazların təhlili geniş panoramda həyata keçirilir. Bu konsentrdə bədii əsərlərin aşıladığı ideyalar saymaqla qurtarmır. Anaya məhəbbət, vətənə bağlılıq, dövlətə, xalqa sədaqət, səxavət, yaxşılıq, qəhrəmanlıq, iradi dözüm, haqqa inam və etiqad, hörmət və ehtiram və s.i.a.

Azərbaycan Respublikasının dövlətçilik ideologiyasının prinsipləri içərisində dövlətçilik, azərbaycançılıq, və bəşərilik milli tərbiyənin əsasında dayanır. Yazıçı və şairlərin bədii ümumiləşdirmələri məhz belə ideyaların təcəssümünə həsr olunur. Məktəb isə günəşin ocağıdır, həmin ocaqdan çıxan tərbiyə alovu cəmiyyəti isindirməlidir. Bədii əsərlər məktəb dərslikləri vasitəsi ilə böyüyən nəslin qəlbini işıqlı ulduzlara çevrilir.

Bütün bunları bir ümumidə də göstərmək olar: ölümsüzlük ideyasında. Ölümsüzlük odur ki, əbədi olaraq tarixi bəzəmək, yaddaşlarda qalmaq. Bədii əsərlər - ədəbi-bədii adlandığı kimi, yaratdığı obrazlar da əbədi, müqəddəs adlanır. İnsanı əxlaqi saflıqlar, məənəvi gözəlliklər dünyasına aparan bədii sözün insanı real şəkildə zinətləndirdiyini də görürük. Azərbaycanın şəhid qəhrəmanlarının işıqlı amallarından bəhs edən əsərlər Mübariz İbrahimov, Fərid Abdullayev, Ramil Səfərovu əbədiləşdirmədimi? Onları xalq qəhrəmanlarına çevirmirmi? Xocalı faciəsindən bəhs edən bədii əsərlər düşmənə nifrət hissini coşdurmurmu?

Bədii əsər üzərində işləyərkən ədiblər mənfi obrazlara mənfi münasibətin necə yaranacağı məsələlərini də ölçüb-biçir və belələrinin portretlərini çəkirlər. Eqoistin, karyeristin cəmiyyət üçün bəlaya çevriləcəyini də nəzərdə tuturlar. Cəmiyyətdə özünü daha çox sevənləri, düşmənləri görüb onların bədii obrazını yaratmaq lazım gəlir. Ədiblər eqoizmin ictimai bəla olduğunu filosofcasına dərk etdikləri üçün lovğaları, özlərinin hamıdan yüksəkdə olduqlarını zənn edənləri – "высокомер"ləri

(İ.Kanta görə, "fastuş – чванство, стремление иметь переимущество перед другими не за ум или выдающиеся заслуги, а лишь за счёт внешнего превосходства перед другими".

Nəhayət, bədii materiallar insana məhəbbəti coşdurur, humanist imic formalaşdırır, onun tərbiyəsində bugünkü inkişafı realistik-romantik pafosla dünyaya bəyan edir. Bədii əsərlərin mütaliəsi yolu ilə kiçikyaşlı məktəblilrdə pak əməllər, saf arzular, işıqlı amallar uğrunda yaşamaq və təhsil almaq əqidəyə çevrilmiş olur. I-IV siniflər üçün Azərbaycan dili dərsliklərinə ədəbi-bədii mətnlərin daxil edilməsində məqsəd də elə budur. Başqa cür olsa, bədii ədəbiyyat cəmiyyətə bu qədər yaxın ola bilməz və ya gənclərin tərbiyəsində belə fəal rol oynaya bilməz. Azərbaycan dili dərsliklərində oxu materiallarının 80-90 faizinin bədii materiallardan olmasının da səbəbləri bununla əlaqədardır.

Bəs ana dili kurikulumunda bədii materialların öyrənilməsi ilə bağlı təlim məqsədlərinə və standartlarına nələr daxil edilmişdir? Kurikulumda dinləyib-anlama və oxu standartları və məzmun xətləri üzrə gözlənilən təlim nəticələri nələrdə təcrübi inteqrasiya olunur?

Bu suala belə cavab vermək olar:

IV sinifdə şagird:

- mətni düzgün, sürətli – ifadəli, şüurlu oxuyur;
- mətndəki obrazlı ifadələri təhlil edir;
- oxuduğu bədii mətnlərin obrazlı məzmununa münasibət bildirir;
- bədii mətnin hissələri arasındakı məna bədii cəhətdən əlaqələrini müəyyənləşdirir;
- mətnin hissələrini (giriş, əsas hissə, nəticə), abzasları, cümlələri, onlar arasında bağlılıqları müəyyən edir;
- oxuduğu mətni məzmununa görə təhlil edir;
- obrazlı ifadədəki mətnaltı ideyanı açmağı bacarır;
- Azərbaycan xalqının dili, tarixi, əxlaqi-mənəvi dəyərləri, incəsənəti, adət-ənənələri haqqında obrazlı şəkildə verilən məlumatı əldə edə bilir;
- danışanın obrazlı fikrinə münasibəti bildirmək qabiliyyəti nümayiş etdirir;
- müsahibinin emosional ifadələrinə münasibət bildirir və hörnətlə yanaşır;
- danışarkən bədii nitq etiketlərindən (salamlaşmaq, təbrik etmək, təşəkkür etmək, üzr istəmək və s.) istifadə edir;
- ədəbi dilə yiyələnir, mədəni rəftara bələd olur;
- nitqinin tonunu həmişə nəzarətdə saxlayır;
- mənbələrdən istifadə etmək bacarıqlarına yiyələnir;
- obrazlı ifadələrlə danışarkən məntiqin qanunlarına necə riayət edildiyinə bələd olur;
- dinlədiyi fikirləri bədii yolla ümumiləşdirməyi bacarır, dinlədiyi fikirləri müqayisəli təhlil edib nəticə çıxarmaq, rəy bildirmək vərdişləri nümayiş etdirir və s.

ifadəli və ya bədii oxuya şagirdləri hazırlamaq obrazlı ifadələr üzərində oxu ilə bağlı məzmunlu məşqlər etməkdən başlaya bilər. Bu cür məşqlərdən qabaq isə şagirdlərin diqqətini bədii söz və ifadələr üzərində müşahidələrə yönəltmək lazım gəlir. Məsələn, aşağıdakı parçalar qrupların müşahidə obyekti kimi seçilə bilər:

1. “Ağaclar göy atlazdan paltar geyirlər”, “ağaclar paltarını soyunurlar”, “ağaclar soyuqdan üşüyürlər”;
2. Narlar fikirləşirlər: “Görəsən, hansımızı birinci dərəcəklər?” “Ağ süfrənin üstünə dəvət edərlər, orada da qonşu olarıq”, nar bərk qışqırdı və partladı. Sərçələr nara hücum çəkdilər...”
3. “Karvan çəkər göydə qara buludlar”. “Xan çinarın əyməz məğrur başını”. “Söyüdlərin saçlarını küləklər öz əlləri ilə darayırdı”.
4. “Göyün çırağı axşam sönür, yavaş-yavaş “çökür zülmət”, könül açan gülşən...”
5. “Ümmanların birliyi, dənizlərin birliyi”,
   “Xor oxuyur meşələr,
   Xor oxuyur dənizlər,
   Bir mahnı ürəkdəki
   Milyon dərdi təmizlər”.

6. Göy üzündə yallı gedir buludlar,
   Göz oxşayır, naz eləyir göy otlar.
   Şaraq-şaraq şaqqıldayır ildırım,
   Sevincindən qaqqıldayır ildırım.

Müəllim qruplara paylanan vərəqlərdə müvafiq ifadə və cümlələrin düzgün oxunmasını və leksik mənasını söyləmək tapşırığını qeyd edir. Qruplar tapşırığı öz aralarında müzakirə edəndən sonra müəllimin yardımçı sualları əsasında cavab verməyə başlayırlar.

Birinci qrupun versiyası: “Paltarı insan geyər, ağacların paltar geyinməyi təbiətə uyğun dəyişmək deməkdir. Müəllim: -Bəs ağacların soyuqdan üşüməsi nə deməkdir?”

- “Soyuqdan üşümək” təbiəti insan kimi təsəvvür etməkdir.
- Uşaqlar, narlar necə fikirləşir?
- “Narların insan kimi düşünməsi” ifadəsi bədii obraz yaratmaqdır.
- “Sərçələr hücum çəkdilər” nə deməkdir?
- Hücum çəkmək qoşuna aid xüsusiyyətdir; bu da sözün obrazlılıq əlamətidir.
- “Çəkər” sözü daha hansı sözlərlə birləşib obrazlılıq ifadə edir?
- Karvan çəkər, qoşun çəkər, gözlər yol çəkər, qələm çəkər, keşik çəkər, fikir çəkər, əl çəkər, söz çəkər, qol çəkər, dərd çəkər, söz vaxtına şəkər, xalasına çəkər və s.
- Uşaqlar, bu sözlərin hər birinin mənasını əvəz edə bilən sözləri və ifadələri tapın.
- Karvan çəkər – bir-birinə qoşularaq çəkib aparar;
  qoşun çəkər – hücum edər;
  yol çəkər – yol düzəldər və s.
- Uşaqlar, “göyün çırağı” nədir?
- Burada günəş nəzərdə tutulur.

...Daha sonra qruplarla *zülmət çökür, könül açan gülşə\n, meşələr xor oxuyur, dənizlər xor oxuyur, buludlar yallı gedir, otlar naz eləyir* və s. kimi ifadələrin mənası üzərində iş gedir. Bütün bunlar da təbiidir ki, şagirdlərin həm ayrı-ayrı

obrazllı ifadələri, həm də bədii mətnləri təhlil etmək bacarıq və vərdişlərinin inkişafına öz müsbət təsirini göstərmiş olur. Belə nəticələrə də son nəticələr deyilir.

Ədəbiyyat

1. Ümumtəhsil məktəblərinin I-IV sinifləri üçün fənn kurikulumları. Bakı, Təhsil, 2008, 480 s.
2. Мирзаджан-заде А.Х. Этюды о гуманитаризации образования. Баку, Азеонешр, 1993,416 стр.
3. M.Ə.Sabir. Hophopnamə. İki cilddə, II cild, Bakı, Şərq-Qərb, 2004, s.384.
4. M.Araslı. Böyük Azərbaycan şairi Məhəmməd Füzuli. Azərbaycan Uşaq və Gənclər Ədəbiyyatı Nəşriyyatı, Bakı, 1958, 409 s.

Дюрдане Аскерова
Вагиф Курбанов

О главном факторе в усвоении художественных материалов

Резюме

Главная функция обучения художественных материалов-зстетичсокое воспитание школьников,в частности,младших классов, Для этого в современных учебниках I-IV классов имеются достаточные материалы. Курикулумные требования родного языка являются оптималъным исполызованием интерактивных методов обучения и резулътативных интеграции,как в теоретическом, так в практическом аспекте урока.

Статъе об этом и говоритъся.

Dyurdane Asgarova
Vagif Kurbanov

The principal factor in the assimilation of art materials

Summary

The main function of teaching art materials-zstetichsokoe shkolynikov education, in particular, Jr. classes For this purpose, modern uchevnikah I-IV classes to have enough material. Curriculum - a requirement of the native yazka calculating the best ispolyzovanie interactive methods of teaching and rezultativnyh integration, both in theoretical and practical aspect, the lesson.

State s and this govaritsya.

Rəyçi: Fikrət Xalıqov
filologiya elmləri doktoru, professor

YAŞAR QASIMOV
filologiya üzrə fəlsəfə doktoru,
AMEA Nizami adına Ədəbiyyat İnstitutu
yashargasimov@mail.ru

POETİK OBRAZIN İCTIMAİ-ESTETİK SƏRHƏDLƏRİ

Açar sözlər: Poetik obraz, obrazın məna tutumu, "Xalq", "Qara Dəniz", Fikrət Qoca, altmışıncılar .
Ключевые слова: Поэтический образ, общественно-эстетического семантика образа, «Народ», «Чёрное море», Фикрат Годжа, шестидесятники.
Key words: Poetic image, social-aesthetic semantics of image, "People", "The Black Sea", Fikrat Goja, the poets of the sixties

Altmışıncıların poetikasını rəmzi obrazlarsız tam təsəvvür etmək mümkün deyil. Rus və özbək, o cümlədən Azərbaycan altmışıncılarının yaradıcılığına bu nöqteyi-nəzərdən yanaşsaq, görürük ki, məşhur rəmzi obrazlarsız pleyadanın ictimai gerçəkliyə münasibəti haqqında bilgi və qənaət əldə etmək son dərəcə çətindir. Təkcə rəmzi surətlərdə deyil, ümumən, nəslin əsas və möhtəşəm obrazlarında, onların mahiyyətində və taleyindəki oxşarlıqlar həmişə diqqəti cəlb etmişdir. 70-ci illərin poetik axtarışları kontekstində ciddi rezonans doğuran Yevg. Yevtuşenkonun "Səhər xalqı" ("Utrenniy narod") şeirinin bənzərlərini başqa qardaş ədəbiyyatlarda da axtarıb tapmaq olardı. Burada söhbət qətiyyən ədəbi təsir və öyrənmədən getmir. Əsas məsələ altmışıncıların estetik mövqeyinin yaxınlığında, onların bədii ideallarının oxşarlığında idi. Yeni pleyada estetik fikrin mahiyyətinə və köklü problemlərinə münasibətdə həmrəy və həmfikir idilər. Həmin illərin əsas poetik nümunələrini dərindən təhlil edərkən vətənpərvərlik və milli özünüdərk duyğularının A.Voznesenskiy, Yevg. Yevtuşenko, R.Rojdestvenski, Ə.Kərim, M.Araz, X.R.Ulutürk, F.Qoca, F.Sadıq, V.Səmədoğlu, Ə.Salahzadə, o cümlədən məşhur özbək altmışıncıları E.Vahidov, A.Aripov, R.Pərfi, Ç.Erqaş, M.Əli, A.Mətcan, M.Cəlil və başqalarının yaradıcılığında həmahəng tərzdə əks olunduğunu müşahidə edirik.

Bu cəhətdən Fikrət Qocanın "Xalq" şeiri ilə bu mövzudakı başqa şeirlər, eyni zamanda, yuxarıda xatırlatdığımız "Səhər xalqı" şeiri arasındakı səsləşmələri qeyd etmək vacibdir. Hər iki şeirdə nəzərə çarpan bariz xüsusiyyət sovet dövründə yorucu təbliğat və təşviqatlar nəticəsində xalqın beyninə hopdurulmuş, həddindən artıq siyasiləşmiş və idealoji doqmaya çevrilmiş məşhur obraza tamamilə təzə və sərbəst yanaşmadır. Əgər Yevg. Yevtuşenkonun "Səhər xalqı" metaforası rus poeziyasında xalq obrazına yeni bir yanaşmanın başlanğıcı idisə, F.Qocanın "Xalq" şeiri də nəslin bu yöndəki gərgin axtarışlarının parlaq nəticələrindən biri idi. Bu şeir Azərbaycan poeziyasında ideal xalq obrazından real xalq surətinə keçid prosesini uğurla əks etdirən mühüm poetik nümunələrdən biri kimi diqqətə layiqdir:

"Min cür xoşbəxtlik var,
Min bir cür dərd var dünyada.
Amma bir böyük
Həqiqət var dünyada.

Nə qədər yaşasa da,
Nə qədər pisdisə də,
Yaxşısa da,
Bütün doğulanlar axırda ölür.
Xalq ona görə böyükdür ki,
Çalır-oyanyır, deyir-gülür".

(1, 71-72).

Altmışıncıların yaradıcılığında varlığa yeni estetik münasibət cəsarətlə ifadə olunmasaydı, Vətən və Xalq kimi taleyüklü poetik obrazlara real məndəricə və məzmun verilməsəydi, ümumən, pleyadanın yeni qayəvi-fəlsəfi konsepsiyası, həyatı dərindən əks etdirən metaforik-simvolik obrazlar sistemi formalaşa bilməzdi. Zira lirik "mən"in şüur və təsəvvürlərində siyasiləşmiş və real həyatdan uzaq, ideal Xalq obrazı hakim ola-ola, məsələn, "Ərkəc" kimi oyaq şüurun və ayıq beyinin məhsulu olan bir lirik rəmz meydana çıxa bilməzdi:

"Sallaqxanada bir ərkəc vardı,
Ələ öyrəşmişdi;
Yediyi kişmişdi"

(1, 147).

Sonra isə şair bu obraz haqqında aşağıdakı bilgi və informasiyanı da verməyi vacib sayır. Onun öz mühitində necə fərqləndiyi və seçildiyini də vurğulayır:

"Dağ kəli kimi
Buynuzları buruq-buruq,
Özü də buruq,
Zatıqırıq bir ərkəc vardı."

(1, 147).

Obrazın mənşəyi və həyat tərzi haqqındakı bu qısaca poetik təfərrüat və detallar onun mahiyyətini anlamğa kömək edir. Sonra isə müəllif ərkəcin fəaliyyət göstərdiyi meydanı və mühiti gözlərimiz önündə canlandırır:

"Sallaqxana tilsimli bir dünya idi
Sağ qalan qoyunlar üçün.
Neçə qoyun sürüsü girərdi ora hər gün.
Dəstə çəkəndə həmin ərkəc,
Sürü qayıtmazdı, ərkəc qayıdardı."

(1, 147).

Ərkəc sürülərə başçılıq etməkdən, onlara yeni-yeni vədlər verməkdən əsla usanmır. Hər dəfə də qoyunları aldatmağa, onları öz arxasınca aparmağa nail olur. Ərkəcin görkəmi və buynuzları sürüləri aldanmağa vadar edir:

"Deyərdi: təzə yol öyrənmişəm,
Bu dəfə dağ yamacına çıxdıq bəlkə".

Ərkəc mənfi və mənfur bir rəmzdir. Cəmiyyətdəki şərin və yamanlığın konkret ifadəsidir. İnsan həyatının bütün dövrlərində ərkəclər olur və yaşayır. Amma cəmiyyət həyatının müəyyən mərhələlərində, ayrı-ayrı ictimai-siyasi proseslər əsna-

sında ərkəclər fəallaşır, ön plana çıxırlar. İnsan həyatının bəlkə də ən böyük tragediyaları məhz bu ərkəclərin fəallaşdığı və iş başında olduğu zamanlarda baş verir:

"Sürünü çəkdi sallaqxanaya
Qoyunlar elə bildi ki, birinci həlak oldu buruq.
Sürü mələşdi:
Ərkəc tək deyil, arxasında biz varıq.
Qoyunlar nə qorxdu, nə də qayıdıb qaçdı.
Ərkəc xəlvət qapıdan qaçıb
Sürüyə görə bir ovuc kişmiş almışdı."

(1, 147).

Yeni nəslin mərd və mübariz şeiriyyətində mövcud hakim ideya və görüşlər, ictimai münasibətlər sistemi və siyasi quruluşun neqativ cəhətləri ilə yanaşı, eyni zamanda, xalqın müti vəziyyəti və zəbun haləti də rəmzlər arxasındakı dərdli həqiqətlərdə əks edirdi. Xüsusən ənənəvi və klassik rəmzlərdə xalqın məzlum qismətinin əks etdiyini hiss etmək çətin deyildi.

Xalq şairi Fikrət Qocanın lirikasını 60-70-ci illərin poetik prosesi və ümumən, altmışıncıların yaradıcılığı kontekstində dəyərləndirərkən akademik Bəkir Nəbiyevin aşağıdakı analitik müşahidə və təhlillərinə diqqəti cəlb etmək məqsədə müvafiqdir: "Bu sözlərim bəlkə də bəzilərində rəğbət oyatmayacaq. Axı son illərdə cəmiyyətimizin həyatı üçün səciyyəvi hal olmuş ictimai, idealoji sarsıntılar və bütünlükdə yenidənqurma prosesi elə vəziyyət əmələ gətirmişdi ki, bir qisim şairlər nəinki şəxsiyyətə sitayiş illərində, hətta, ümumiyyətlə, 85-ci ilin baharınadək yazdıqları əsərlərin heç də hamısını bir daha nəşr etdirmək istəməzdilər. Bu, həmin şairlərimizin, bütünlükdə poeziyamızın qüsuru olmaqla yanaşı, həm də şəxsiyyətə sitayiş və durğunluq zamanlarının özləri ilə şərtlənən faciəsidir. Fikrət Qocanın şeirləri isə vaxtın, müasirliyin ötəri, keçici təsirlərinə məruz qalmayıb. Onun yaradıcılığının bu məziyyəti barədə danışmaq vacibdir. Məncə, bu məziyyəti yalnız şəxsi keyfiyyət kimi izah etmək doğru olmazdı. Burada Fikrətin poeziyaya gəldiyi dövrün dərslərinin, ədəbi-ictimai meyarlarının da rolu böyükdür. Məlumdur ki, F.Qoca 60-cı illər nəslinə mənsub şairdir. Bu nəsil bir çox cəhətdən, indiki təbirdən istifadə edib desək, 60-cı illərin yenidənqurması şəraitində formalaşmışdır. Həmin nəsil əvvəlki nəsillərin yaradıcılığının məruz qaldıqları çox sınaqlardan xəbərdar oldu və bu cəhət gənc şairləri poeziyanın vəzifəsi, xalq mənəviyyatının inkişafında yeri, rolu, sənətin taleyi barədə dərindən düşünməyə vadar etdi. F.Qocanın əksər şeirlərinin, poemalarının mövzusu və mətləbcə, ruhca köhnəlməməsinin bir səbəbi də, məncə, elə bu amillə bağlıdır" (2, 7-8).

Bir sıra altmışıncılar kimi, Fikrət Qocanın yaradıcılığında da gerçəkliyin rəmzi ümumiləşmələri səviyyəsinə yüksəlmiş yadda qalan bədii nümunələr sırası mövcuddur. Bu şeirlərin hər biri ciddi fəlsəfi-rəmzi semantik yük daşıyır. İkinci tərəfdən isə şairin simvolik obrazları ilə yaşıdlarının bu yöndəki poetik rəmzləri arasında güclü oxşarlıq tapmaq da çətin deyil. Bu cəhətdən F.Qocanın poeziyasında, yuxarıda nəzərdən keçirdiyimiz "Ərkəc" şeirindən başqa, özünəməxsus bir silsilə olan "Pələng arzusu", "Küçük", "Tənha ağac", "Qoca fil", "Kəndirbazlar", "Gizlənpac", "Qoca ağaclar", "Quzu", "Balta səsi" və başqa şeirlərində öz nəsildaşları ilə həma-

həng nöqtələr və səsləşmələr diqqəti cəlb edir. Bu mənada görkəmli şairimiz Fikrət Qoca da altmışıncıların həm özünəməxsus, həm də tipik nümayəndəsidir.

Fikrət Qocanın "Qara dəniz" (1962) adlı gözəl bir şeiri var. İlk baxışda o, dəniz mənzərəsi haqqında lirik əsər təsiri bağışlayır:

"Qəzəbindən ağarıb,
Qara dənizim, rəngin.
Dalğaların,
qəzəbli pəncəsi kimi pələngin,
sahili cırmaqlayır.
Elə bil sahil qaçmaq istəyir,
dalğaları tutur, saxlayır."

(1, 34).

Bu şeirdə də müəllif rəmzi ümumiləşdirmələr yolu ilə getmişdir. Qəzəbli Qara dənizin pələng pəncələri sahili didib parçalamq istəyir. Sahil isə dənizin qəzəb və ittihamlarından qorxub qaçmaq istəyir. Qara dəniz öz doğmalarını axtarır, yadlaşmış sahilləri özündən uzaqlaşdırmağı arzulayır:

"Sahildə yaralı göyərçinə dönürsən,
Lal adam xəbər gətirən kimi çırpınıb döyünürsən"

(1, 34).

Şair sanki aşağıdakı bu misralarda öz ürək ağrılarını və niyyətini ehtiyatla söyləmək istəyib:

"Baxışlarımla tumarlayıram səni,
ay sirlərin bağlı sandığı,
Qara dənizim!"

(1, 34).

Eyni zamanda, müəllif "sirlərin bağlı sandığı" etnopoetik simvolu ilə türk dünyasının faciələrinə işarə etsə də, lirik fikrin dinamikası bu nöqtədə dayanıb durmur və ümuminsani və dünyəvi miqyasa sarı hərəkət edir:

"Balıqların duzlu vətəni,
Gəmilərin mavi qəbiristanlığı,
Qara dənizim!"

(1, 34).

Yeni Azərbaycan şeirinin parlaq nümayəndələrindən sayılan Fikrət Qocanın ictimai-fəlsəfi pafosla yoğrulmuş və özünəməxsus sənətkarlıqla yaradılmış poetik rəmzləri altmışıncılar nəslinin bədii uğurlarının milli-estetik fikir tarixində tamamilə təzə bir mərhələ olduğunu göstərən inkaredilməz dəlil-sübutlardan biri kimi xüsusi əhəmiyyətə malikdir. Fikrət Qoca poeziyasının ictimai-fəlsəfi məna qatları XX yüzildə estetik fikrin və bədii inikas sisteminin mühüm uğurları sırasına daxildir.

Ədəbiyyat

1. Qoca F. Seçilmiş əsərləri. Bakı, "Şərq-Qərb", 2004. – 248 s.
2. Nəbiyev B. Şair fərdiyyəti. Ön söz. Bax: Fikrət Qoca. Sönən deyil bu ocaq. Bakı, "Elm və təhsil" 2012. səh. 7-8.

Яшар Гасымов

Общественно-эстетические рубежи поэтического образа

Резюме

В статье «Общественно-эстетические рубежи поэтического образа» анализируется некоторые блестящие стихотворения один из представителей шестидесятников, народного поэта Фикрат Годжа. В особенности делается акцент на своеобразию и созвучностью поэтического стилья с шестидесятниками видного мастера слова. В плоскости сравнительного анализа стихотворений «Народ», «Чёрное море» и др. исследуется процесс создания эстетического образа времени.

Yashar Gasimov

Social-aesthetic boundaries of a poetic image

Summary

In the article "Social-aesthetic boundaries of a poetic image" is analysed some bright poems of national poet Fikrat Goja. Especially, shown originality and harmony of poetic style of the poet with the generation of the 60th years' poets. On the basis of comparative investigation of the poems "People", "The Black Sea" and etc. is researched the process of making the aesthetic image of time.

Rəyçi: Nizaməddin Şəmsizadə
filologiya elmləri doktoru, professor

İSMAYIL AĞAYEV
filologiya üzrə fəlsəfə doktoru
Azərbaycan Müəllimlər İnstitutu Sumqayıt filialı

TARİXİ DRAMLARDA MÜASİRLİK ESTETİK KATEQORİYA KİMİ

Açar sözlər: tarixi mövzu, müasirlik prinsipi, estetik kateqoriya, ictimai məzmun, milli düşüncə, siyasi mühit, bədii-fəlsəfi təhlil, ictimai problem
Ключевые слова: историческая тема, принципы современности, эстетическая категория, социальный контакт, национального мышления, политическая среда, художественный- философский анализ, социальная проблема.
Key words: historical subject, principes of modernity, aesthetic category, social contact, national thought, political environment, art-philosophical analysis, social problem

Müasir Azərbaycan dramaturgiyasında həm müasir, həm də tarixi mövzular əsasında yazılmış dram əsərləri sənətlə gerçəklik arasındakı münasibətin obyektiv qanunauyğunluqlarına uyğun olaraq, mürəkkəb ictimai-siyasi mühiti, sosial zamanı, cəmiyyətdaxili münasibətləri əks etdirən sənət nümunələridir. Müasir dramaturgiyamızda müraciət edilən mövzuların zaman baxımından tarixi keçmişlə müasir dövr arasında müəyyənləşməsi bədii idrak və düşüncənənin özünəməxsus keyfiyyətlərindən, bədii düşüncənin köməyi ilə gerçəkliyin dərk edilib öyrənilməsindən, eləcə də zamanın-xalqın tarixinin, yaşadığı dövrün bədii tədqiqindən söhbət açmağa imkan verir. Həm tarixi, həm də müasir mövzulu dram əsərlərində xalqımızın həyatı, mübarizəsi, ictimai-sosial ziddiyyətlər və onların həlli yolları, mürəkkəb və müxtəlif siyasi mühitdə yaşayan insanların dünyagörüşü, mənəvi-əxlaqi dünyası öz əksini tapmış, cəmiyyətdə insan amili və ona münasibət geniş miqyaslı problem səviyyəsində qoyularaq bədii-fəlsəfi təhlil obyekti kimi götürülmüşdür.

Azərbaycan dramaturgiyasının inkişafını öyrəndikcə müxtəlif mövzularda – həm müasir, həm də tarixi mövzular əsasında yazılmış əsərlərə geniş təsadüf edilir. Milli dramaturgiyamızda tarixi dramlar özünün bədii-estetik keyfiyyətləri ilə seçilir, həyatı əks etdirmək, xalqın tarixi keçmişini yaşatmaq, milli koloritini vermək baxımından əvəzsiz sənət nümunələri kimi diqqəti cəlb edir. Sənətin varlıqla, gerçəkliklə qarşılıqlı münasibəti obyektiv qanunauyğunluqla bağlıdır, bu prinsipə tarixi dramlarda bütünlüklə əməl edilir. Xalqın tarixi keçmişini, əxlaqi-mənəvi təkamülünü, azadlıq və mübarizə meyllərini, milli ruhunu və psixologiyasını təsvir etməsini tarixi dramların əsas aparıcı xətti kimi qəbul etmək bu janrda yazılmış əsərlərin ictimai-idraki əhəmiyyətinin, bədii-estetik dəyərinin, ictimai mahiyyətinin tam, bütün təfərrüatı ilə açılması demək deyildir. Tarixi dramlarda da müasirlik estetik prinsip kimi daim aparıcı mövqedə dayanmış, bu mövzuda yazıb yaradan sənətkarlar öz yaradıcılıqlarında müasirlik prinsipinə əməl etmişlər. Müasirlik estetik kateqoriya kimi həm müasir, həm də tarixi mövzulu dram əsərlərində gözlənilmiş, dramaturqlar bu kateqoriyanın prinsip və əsaslarına istinad etməklə yazıb yaratmışlar, «Müasirlik sənət əsərinin məfkurə və bədiilik keyfiyyətini, mündəricə və forma mahiyyətini

ifadə edən geniş əhatəli bir məfhumdur. Müasirlik əsrin mütərəqqi ideyaları səviyyəsində durmaq, həyat və cəmiyyət hadisələrinə, insan əməllərinə bu zirvədən baxmağı bacarmaq, eyni zamanda həyat müşahidələrini, xalq və insan taleyi haqqındakı düşüncələri yüksək sənətkarlıqla, parlaq bədii formalarla ifadə edə bilmək deməkdir». (1.4)

Müasirlik dram əsərlərində obrazlı təfəkkürün qanunları ilə ifadə olunaraq, həyata estetik münasibətlə, insan amili, onun daxili dünyasının bədii inikası və inikasın bədii-estetik mahiyyəti ilə üzvi vəhdətdədir, «müasirlik yalnız yaşadığımız günləri əks etdirən əsərlərin deyil, tarixi keçmişə həsr olunmuş şeirlərin də ən yaxşıları üçün səciyyəvi bir keyfiyyətidir. Xalqın keçdiyi mübarizə yollarını tərənnüm edən lirika nə zamansa baş vermiş tarixi hadisəni sadəcə yada salmaqla, yaxud onu əhya etməklə məhdudlaşmır. Tarixə müraciət edəndə də əslində şair üzünü gələcəyə tutur; tariximizi qoruyub saxlayan bu günü qaldırır; daha gözəl olan sabahımız üçün işləyən bu günü!» (2.37)

Tarixi dramlarda müasirliyin ictimai-estetik mahiyyətinin araşdırılması sənətlə gerçəklik arasındakı münasibətin obyektivliyi ilə bağlıdır. Ümumiyyətlə, bədii əsərin tədqiqi zamanı «tarixi aspekt məsələsi və bədii əsərə tarixilik baxımından yanaşmaq»la (3.4) bərabər, yazıldığı dövrün təfəkkür tərzi ilə öyrənmə olduqca zəruridir, çünki həmin əsərin yaranması konkret tarixi şəraitlə bağlıdır. Bundan əlavə, tarixi dramların tədqiqi zamanı hazır ideya və prinsiplərlə deyil, «sənətkarın yaradıcılığını dəqiq öyrənmək, onun dünyasında yaşayaraq şərh eləmək və qiymətləndirmək yolu» (3.4) ilə hərəkət etmək doğrudur, tarixi dramın müasir ideyalara nə dərəcədə xidmət etdiyini aydınlaşdırmaq zəruridir. Yazıçı İsmayıl Şıxlı tarixi əsərlərdə müasirlik problemindən bəhs edərək yazırdı: «Tarixi əsərə yalnız tarixi əsər kimi baxmağın və ya müasirlik problemini ancaq bu gündən bəhs edən əsərlərlə məhdudlaşdırmağın yanlış fikir olduğu hamımıza yaxşı məlumdur. Əsl yazıçı hansı dövrə müraciət edir, etsin, yaşadığı cəmiyyətin, zəmanəsinin bədii-estetik və ictimai ideyaları mövqeyindən çıxış edir, tarix məqsəd olmur, vasitə olur».

Keçmişə müasir dövrün problemləri prizmasından baxmaq, müasir dövrün nailiyyətləri zirvəsindən yanaşmaq bacarığını və qabiliyyətini inkişaf etdirmək baxımından müasirlik olduqca mühüm ictimai-idraki əhəmiyyətə, bədii-estetik dəyərə malikdir, «Ədəbiyyatda əsl müasirlik istedadın dərəcəsi üçün meyar ola biləcək estetik bir kateqoriyadır. İstər tarixi mövzulu əsərlərdə, istər müasir həyatdan bəhs edən əsərlərdə səpgisindən-fəlsəfi, ictimai, epik, lirik, dedektiv, fantastik, sosioloji, bioqrafik və s. – asılı olmayaraq bir kateqoriya kimi müasirlik zəruridir». (4.233)

Müasirlik kateqoriyasının ən mühüm problem kimi tədqiq edilərək öyrənilməsində, onun nəzəri əsaslarının göstərilməsində Mehdi Məmmədovun, Yaşar Qarayevin, Elçinin əvəzsiz xidmətləri olmuşdur. Y.Qarayev yazır ki, «Dövrün və zəmanənin müasir ictimai həyatın inkişaf qanunauyğunluğunu bədii təhlilin obyekti etmək daha böyük sənətkarlıq tələb edir. Sənətdə müasirlik anlayışının izahları çoxdur, lakin bir tərif mübahisəsizdir: müasirlik-müasirlərimizi narahat edən, düşündürən suallara cavab verməkdir!». (5. 6) Bundan əlavə, o qeyd edir ki, «Müasir yazmaq-gerçəkliyin perspektiv istiqamətinə, əsas tendensiya və təmayüllərinə uyğun olaraq yazmaq deməkdir. Bunun üçün isə doğru, yüksək ideya mövqeyi lazımdır, həyatın

özündən, zamanın obyektiv inkişaf məntiqinin dərkindən təşəkkül tapan əsl yaradıcı, yüksək ideya mövqeyi».(5.8) Tənqidçinin fikrincə, müasirlik həyat həqiqətinə dərindən yaxınlaşma, əsrin, zamanın mürəkkəbliklərini, inkişaf meyllərini üzə çıxarmaq, aşkarlamaq deməkdir, «Böyük bədii sənət həm də müasirliyə–milli ictimai–gerçəkliyin mahiyyətinə, həm də milli bədii təfəkkürün estetik qanunauyğunluqlarına eyni vaxtda sadiq qalır, yalnız bu günə, ötəri və keçici məqamlara yox, həm də bu günlə keçmişin və gələcəyin əlaqələrini – əbədi mənasını ifadə edən daha böyük bir həqiqətə sadiq qalır». (6.181).

M.Məmmədov müasirliyin estetik kateqoriya kimi öyrənilməsində elmi əsaslarla tədqiqat apararaq, müasirliyin estetik prinsiplərini müəyyənləşdirmişdir. Tənqidçinin fikrincə, «Müasirlik hər şeydən əvvəl mündəricə, özü də geniş, əhatəli mündəricədir», «Əsl müasirlik «nəyin», yəni hansı həyat mündəricəsinin «necə» inikas tapdığını öyrənmək, «nə» ilə «necə»nin nisbətini görmək, onların ahəngini duymaq yolu ilə aşkar edilə və öyrənilə bilər». (7.9). Tənqidçi «müasirliyin çoxlu həyat və yaradıcılıq problemləri ilə şərtlənən mürəkkəb mahiyyətini şərh etmək üçün bu kateqoriyanın üç tərkib keyfiyyətini» araşdırır, «Bunlardan biri müasirlik kateqoriyasının fəlsəfi-qnoseoloji, ikincisi siyasi-ideoloji, üçüncüsü isə bədii-emosional cəhətidir». (7.13)

Müasirlik kateqoriyasının «siyasi-ideoloji» cəhəti dövrün sosial ideologiyası, vulqar sosiologizmlə bağlı olduğundan sonrakı dövrlərdə estetik fikirdə siyasi-ideoloji prinsipə yer verilməmiş, xalqın milli azadlıq ruhu ilə üzvi bağlılıq təşkil edən milli-ideoloji prinsip önə çəkilərək, müasirlikdə bu keyfiyyətin dərindən öyrənilməsi əsas məqsədlərdən olmuşdur. Beləliklə, tarixi əsərlərdə müasirlik özünü aşağıdakı prinsipləri ilə reallaşdırır: birinci; fəlsəfi-idrakı, ikinci; milli-ideoloji, üçüncü isə bədii - hissi və ya bədii- emosional prinsipdir.

XIX əsr rus estetik fikrinin tanınmış nümayəndəsi N.Q.Çernışevski yazır: «sənətin istisnasız olaraq bütün əsərlərinə aid olan birinci mənası – təbiət və həyatı əks etdirməkdir». (8.116) Məlumdur ki, sənət ictimai həyatdan ayrı yarana bilməz, lakin ictimai həyata, obyektiv varlığa estetik münasibətin məhsulu olan sənət əsərlərinin bədii-estetik səviyyəsi, ictimai-fəlsəfi mahiyyəti tarixi şəraitdən, sənətkarın dünyagörüşündən asılı olaraq, həyata estetik münasibətin keyfiyyət dəyişiklikləri – həyatı izahın müxtəlif istiqamətləri yaranır. Müəyyən mənada tarixi mövzuya müraciət də ictimai-siyasi şəraitlə bağlı olur, real gerçəkliyi, cəmiyyəti bütün ziddiyyət və problemləri ilə inikasa siyasi şərait imkan vermədikdə sənətkar tarixi müstəvidə müasiri olduğu ictimai problemləri, sosial mühiti təhlil və əks etdirir, cəmiyyətin inkişaf meyllərini, daxili yaşantılarını verməyə cəhd göstərir, tarixi mövzu vasitə rolunda çıxış edir.

N.Q.Çernışevski daha sonra yazır: «İnikas əks olunanın mahiyyətini mümkün qədər hifz etməlidir; ona görə də sənət əsəri çalışmalıdır ki, onda mümkün qədər az mücərrədlik olsun, onda hər şey imkan daxilində konkret şəkildə, canlı səhnələrdə, fərdi obrazlarda ifadə olunsun». (8.123). Sənət qarşısında qoyulan bu tələb fəlsəfi-idraki baxımdan inikas olunan dövrün, cəmiyyətin doğru, dürüst əks olunmasını əsas estetik prinsiplərdən biri kimi müəyyənləşdirir. Real gerçəkliyə, mühitə estetik münasibətin keyfiyyət dəyişiklikləri tarixi şərait, sənətkarın dünyagörüşü və yaradıcılıq qabiliyyəti ilə bağlıdır.

Azərbaycanın ictimai-siyasi fikir tarixinə nəzər saldıqda məlum olur ki, XX əsrdə həyatın obyektiv inikasına ağır məhdudiyyətlər qoyulmuşdur. İnikas zamanı mürəkkəb olan həyatın, ictimai-siyasi şəraitin sosializm ideyaları prizmasından izahı sənətdə qeyri-real mənzərə yaratmış, «əks olunanın mahiyyətini» obyektiv əks etdirmək mümkün olmamışdır. Bütünlüklə cəmiyyətin, ictimai şəraitin analitik təhlil obyekti kimi götürülməsi məhdud səviyyədə olaraq, həyata münasibətdə birtərəfli baxış hakim olmuşdur. Belə məhdudiyyətlərə, qadağanlara baxmayaraq, ictimai mühit, sosial şərait özünün ciddi ictimai problemləri ilə sənətdə əks olunmuş, kəskin ictimai-sosial ziddiyyətlərə görkəmli sənətkarların yaradıcılığında tarixi mövzuların köməyi ilə müraciət edilmişdir. Sənətkarın tarixi hadisələrə müraciəti bilavasitə müasir dövrün ictimai problematikası və sosial ziddiyyətləri ilə bağlı olur, Müasir dövrün, sosial mühitin ziddiyyətlərini, cəmiyyətin mənəvi-əxlaqi dünyasını, insanların psixologiyasını, qarşılıqlı münasibətlərini vermək üçün tarixi mövzu vasitə rolunda çıxış edir, əsas məqsəd müasir dövrün inikasını, bədii-analitik təhlilini verməkdir.

Burada «müasirlikdən uzaqlaşma düz xətli yox, əyri xətli hərəkət şəklində, parabola şəklində baş verir və bu parabola artıq uzaqda, keçmişdə qalmış bir fikri, mənanı yenidən müasirliyə qaytarır». (9.169). Parabolik sistemə görə tarixi əsərdə qaldırılan problemlər, həlli axtarılan ictimai-siyasi ziddiyyətlər müasir dövrün problemi, ziddiyyətləri ilə məzmun və mahiyyətcə yaxın və ya eynidir, hər iki dövrün ictimai problemləri arasında simmetriya mövcuddur.

Sənətkar tarixdən elə hadisələri, problematik məsələləri götürür ki, onlar müasir dövrün ziddiyyətləri, ictimai-mənəvi problemləri ilə mahiyyət baxımından eyni olur. Yazıçı və ya dramaturq müasir dövrün ictimai problematikasını, mənəvi dünyasını vermək üçün tarixi mövzunu, dövrü müstəvi kimi qəbul edir, müasir problemlərlə tarixə enir. Dramaturgiyada tarixi mövzuya müraciət edəndə müasirlik aparıcı xətt olur, əsas estetik prinsip kimi gözlənilərək müasir problemlər tarixi mövzu daxilində bədii-fəlsəfi analitik təhlil obyekti kimi götürülür.

Tarixi dramlarda müasirliyin estetik kateqoriya kimi fəlsəfi-idraki cəhəti odur ki, tarixi hadisə və proseslərin inikası zamanı onların məzmun və mahiyyət baxımından müasir dövrün ictimai-siyaisi və əxlaqi problemləri ilə bağlılığı əsas götürülsün.

Tarixi dramlarda müasirliyin əsas prinsiplərindən biri milli-ideoloji amildir. Müasirliyin milli-ideoloji cəhətinin mahiyyəti tarixi dramlarda daha geniş və bədii-fəlsəfi ümumiləşdirmələrlə təsvir edilir. N.Q.Çernışevski yazır: «Həyatı əks etdirmək – sənətin mahiyyətini təşkil edən ümumi, xarakteristik əlamətidir: çox zaman sənət əsərlərinin başqa bir əhəmiyyəti də vardır ki, bu da həyatı izah etməkdən ibarətdir: çox zaman onlar həyat haqqında hökm vermək əhəmiyyətinə də malikdirlər». (8.135) Sənətin mahiyyəti həyatı, zamanı izah etməkdir. Cəmiyyətin daxili proseslərinə milli-ideoloji və milli dəyərlər mövqeyindən yanaşaraq, inikas başlıca prinsiplərdən biri kimi qəbul edilir. Tarixi keçmişə milli-etnik dəyərlər, milli-ideoloji nailiyyətlər zirvəsindən nəzər salınması müasirliyin əsas prinsiplərindən biridir.

Hər bir xalqın xarakterinin formalaşması milli düşüncə və dərklə bağlıdır. Həqiqi millilik hər hansı hadisə və prosesin təsvirində deyildir, o, xalqın daxili dünyasında, duyum və düşüncəsində, mənəvi-əxlaqi sferasındadır, «Milliliyin

mahiyyəti isə insanların müxtəlif etnik birliyinə aid olan mənəvi, psixoloji xüsusiyyətlərdədir ki, bunlar ənənədə, vərdişdə, əxlaq normalarında orijinal boyalarla, rəngarəng ifadə formaları vasitəsi ilə üzə çıxır. Bunları təsəvvür üçün düşünməkdən əlavə, duymaq da tələb olunur». (10.120). Sənətkar istər öz tarixindən yazanda, istərsə də başqa bir xalqın həyatına, tarixi keçmişinə müraciət edəndə öz xalqının təfəkkürü ilə düşünür, baxışları ilə reallığa nüfuz edir, xalqının duyğularını, hiss və həyəcanını, arzu və məqsədlərini verir. Cəmiyyəti daxili hərəkətə gətirmək, dövrün, zamanın yetişdirdiyi ən zəruri suallara cavab vermək üçün tarixi dramlar əvəzsiz bilik və məlumat verir, bu zaman milli-ideoloji prinsip ən aparıcı yerdə dayanır.

İncəsənətin, bədii yaradıcılığın zəminində milliliklə bərabər ümumbəşərilik də mövcuddur, sənət əsərləri bunların hər ikisini dialektik vəhdətdə qoruyub saxlayır. Millilik bilavasitə sənətkarın düşüncə və dərki ilə bağlıdır, bu isə sənətdə sənətkar fərdiyyətinin özünəməxsusluğu ilə həyata keçirilir. Müasirliyin milli-ideoloji əsası haqqında danışarkən milli dərk, milli xarakter, genezisual məzmunlu mənəvi-əxlaqi dünya və bunların ümumbəşəri dəyərlərlə dialektik vəhdəti, qarşılıqlı əlaqəsi nəzərdə tutulur. Sənətkar toxunduğu ictimai problemi yalnız milli təcrübə əsasında izah etməyə çalışmamalı, bədii analitik təhlil etdiyi həyat hadisəsini, ictimai problematikanı ümumbəşəri təcrübə ilə yanaşı qoyaraq ona bəşəri əhəmiyyət qazandırmalıdır.

Hər bir insan həm subyektiv-fərdi, həm də obyektiv – ictimai dairədə mövcuddur, Eləcə də xalq həm subyektiv - milli, həm də obyektiv-bəşəri sferada yaşayır. Bəşəri dəyərlər baxımından həyatı dərk etmək, qiymətləndirmək bütün xalqları yaxınlaşdırır, özünəməxsusluq odur ki, bu dəyərlər hər bir xalqın öz qəlbindən, ruhundan, mənəvi dünyasından qidalanır, xalq yaşayıb yaradanda tək millilik xüsusiyyətləri ilə kifayətlənmir, həm də «özünün bəşər qardaşını» (B.Q.Belinski) düşünərək onun ruhu və duyğuları ilə yaxınlaşır.

Bəşəri dəyərli sənət əsərləri həyatın tərənnüm və tərifi ilə deyil, zamanın, həyatın ən ağrılı, kəskin ziddiyyətləri, problemləri ilə məşğul olmuş, tədqiq etmişlər. Belə sənət əsərləri bəşəri ağrılardan, böyük məsuliyyət və narahatlıq hisslərindən yaranmışdır, bu zaman sənətkar öz fərdiliyini, milliliyini bəşərilik içərisində əridir, milli, fərdi faciəni bəşəri məzmunda verir. Hər bir xalqın yaranması, inkişaf etməsi özünəməxsus olsa da, cəmiyyətin formalaşması və inkişafı ictimai qanunlar əsasında olur, bu ictimai qanunlar hər bir xalqın tarixində orijinal, spesifik təzahürünü tapır.

A.Gertsen məqalələrinin birində yazırdı: «Siyasi azadlığı olmayan xalqın ədəbiyyatı həmin xalqın vicdanının səsidir, dövrə, zamana etirazını ifadə etmək üçün əvəzsiz yüksəklik və tribunadır». İctimai-siyasi azadlıqdan məhrum edilmiş xalq mübarizə ruhunu, azadlıq istəyini sənətə, ədəbiyyata köçürür, bu mübarizə ruhu ilə dolğun olan, onu yaşadan tarixi dramlarda müasirlik, müasirliyin milli-ideoloji məzmunu olduqca qüvvətlidir. Xalqın azadlıq uğrunda mübarizə ruhunu, onun ilkin titrəyişlərini yüksək həssaslıqla duyaraq, cəmiyyətin inkişaf meyllərini hiss etməklə, xalqın dərin düşüncə və zəkaya malik oğullarının ürəyinə, zəkasına yenicə yol tapmağa başlayan fikrə, cəmiyyətin daxili inkişafından doğan ehtiyaca dərhal cavab vermək müasirliyin milli-ideoloji cəhəti ilə üzvi vəhdətdədir.

Müasirliyin milli-ideoloji cəhətini öyrənərkən başlıca olaraq milli ruhun, mənəviyyatın, əsrlərin sınağından çıxmış əxlaq normalarının bəşəri dəyərlərlə qo-

vuşuğunu, zamanın yetirşdirdiyi, tarixi zərurətdən doğan sualların, ictimai problemlərin cavabının və ya həllinin tarixi inkişafın tələb etdiyi milli-azadlıq, müstəqillik, tarix səhnəsində özünütəsdiqləmək kimi amillərlə dialektik vəhdətini nəzərdə tuturuq.

Cəmiyyətin inkişaf tarixi təsdiqləmişdir ki, azadlıq dərk edilmiş zərurətdir. Yalnız insan özündənkənar şeyləri dərk etmək, qiymətləndirmək gücünə malikdir, əsarətə, köləliyə, istilaya baş əymək, onunla barışmaq insan ruhuna, qəlbinə yad olan xüsusiyyətlərdir. Hər bir insan özü ilə daxili mübarizədə olduğu kimi, cəmiyyətlə də mübarizədədir, çünki inkişafın, təkamülün əsasını müxtəlifliklərin vəhdəti, mübarizəsi təşkil edir. Belə bir mübarizəni tam açıqlığı ilə sənət dilində verməyə tarixi şərait imkan vermədikdə tarixi dramlar bu mübarizənin poetik dillə ifadəsi üçün əvəzsiz imkanlar açır, bu janrın poetik xüsusiyyətləri sənət meydanında müasir dövrün ziddiyyətlərinin, ictimai problematikasının dərinliyinə nüfuz etməyə olduqca mükəmməl şərait yaradır.

Tarixi dramlarda müasirlik estetik kateqoriya kimi öyrənilərkən onun bədii-hissi və ya bədii-emosional keyfiyyəti xüsusi baxış, münasibət tələb edir. Bədii - emosional keyfiyyətin öyrənilməsi bədii-estetik düşüncənin tərkib hissəsi olmaqla bərabər, dram janrının poetik xüsusiyyətləri, spesifik amilləri ilə bağlıdır. Tarixi dramlar səhnə əsərləridir, mövzu, obrazlar səhnədə canlandırılaraq sənətin dili ilə real şərait, vəziyyət yaradılır. Bədii- emosional keyfiyyət tələb edir ki, sənətkar yüksək müşahidə və ümumiləşdirmə qabiliyyətinə malik olsun, həyata estetik münasibətdə obyektivlik öndə dayansın. Səhnə əsərləri olduğundan tarixi dramların gücü, bədii təsir və ya əhatə dairəsi xüsusilə seçilir. Səhnədə oynanılan əsərlər tamaşaçılar qarşısında real tarixi hadisə kimi canlanır, hadisə və obrazlarla tamaşaçı bilavasitə təmasda olur, obrazların dolğunluğu, həyatiliyi canlı müşahidə sayəsində tamaşaçının düşüncə və təfəkkürünə təsir edir, hiss və duyğularını hərəkətə gətirir. Müşahidə ilə yaranan hiss estetik hissə, bədii-emosional duyğuya çevrilərək tamaşaçı fikrini əsərin ümumi pafosu ilə ifadə olunmuş ideya ətrafında cəmləşdirir, bu isə həyatı dərk etməyə, reallığı anlamağa sövq edir. Həqiqətən, «Oxucu fantaziyası özbaşına baş alıb gedən instinktiv hiss, duyum deyil, öz potensiyası ilə bilavasitə əsərin daxili quruluşu, canı ilə bağlı olan, ondan doğan məqsədəuyğun şüuri fəaliyyətdir». (11.80)

Müasirliyin bədii-hissi və ya bədii-emosional keyfiyyətindən danışanda adi emosiyalar deyil, yalnız bədii emosiyalar nəzərdə tutulur. Adi emosiyalar bioloji keyfiyyətə malik olub, əsasında yalnız bioloji amillərin dayandığı emosiyalardır. Bədii emosiyalar isə bədii əsərlərdən, obrazlar sistemindən yaranır, bunlar sənətkar yaradıcılığının nəticəsi kimi qəbul edilir. Bədii emosiyalar xarakterlərdən, fikir sistemi olan obrazlardan yarandığından o, «intellektə» malik olan, uzun ömürlü emosiyalar və estetik həzz kimi anlaşılır.

N.Dobrolyubov məqalələrinin birində yazırdı: «Bədii əsərin başlıca ləyaqət meyarı ondakı həyat həqiqətləridir». Həyat həqiqətlərinin təsviri, canlı obraz və xarakterlərin yaradılması, onların fikir və fəaliyyətinin baş verən hadisə və proseslərlə üzvi şəkildə bağlılığı bədii əsərin ləyaqət meyarıdır. Müxtəlif məzmunlu siyasi şüar və ifadələrlə, hansısa fəlsəfi təlimin mürəkkəb mühakimələri ilə yazılmış sənət əsərləri yüksək bədii emosional keyfiyyətlərdən məhrum olan,

unudulan əsərlərdir. Tarixi dramlarda isə yüksək bədii emosional keyfiyyətlərlə vəhdətdə olan müasirlik həmin sənət əsərlərinin ləyaqət meyarıdır.

Sənətkarın real həyat hadisələrinə münasibəti, oxucu ilə qarşılıqlı əlaqəsi obraz, xarakterlər vasitəsi ilə ifadə olunur. Dramaturqun həyatı dərk etməsi obyektiv xarakterdədirsə, gerçəkliklə, onun dialektik məzmunu ilə harmoniya təşkil edirsə, onda əsərlərdə təsvir edilən hadisələr məzmunlu, obrazlar dolğun olacaqdır. Obrazların fikir və fəaliyyətləri ilə ifadə olunan, bədii məntiqlə təsdiqlənən ideyalar düşünən insanı – oxucunu həqiqi istiqamətə yönəldəcək, doğru nəticəyə çatdırıb həyat üçün çox böyük məna, əhəmiyyət kəsb edəcək. Sənətkarın əsərdə müəyyənləşdirdiyi həyatı görmə, həyatı dərk etmə oxucunun yaşadığı mühitə, cəmiyyətə münasibətini müəyyənləşdirir.

Cəmiyyətdə yaşadılan və yaranan yeni ideyaların, fikirlərin tarixi dramlarda əks etdirilməsi ictimai-siyasi mühitin imkan verdiyi qədər bu ideyaların daxili mahiyyətinin və məzmununun təsviri cəmiyyəti düşündürən suallara yüksək sənətkarlıqla və cəsarətlə verilmiş cavablardır. Müasirlik cəsarət və vətəndaşlıq yanğısı tələb edir, bunlara isə tarixi dramlarda geniş miqyasda rast gəlinir, tarixi dramlar fikir və düşüncəmizdə özümüz haqqında «mürgü içində» saxlanılan həqiqətləri oyatmağa, reallaşdırmağa xidmət edən sənət əsərləridir.

İncəsənət xüsusi idrak vasitəsi olaraq obrazlı təfəkkürün qanunları ilə yaranır, ictimai-sosial mühiti gerçəkliyin insan psixikasında əks olunması ilə, obrazların hiss və həyəcanları, psixi vəziyyətləri ilə öyrənir. Hər bir insanın daxili istəyi, fikir və duyum dünyası onun öz fəaliyyəti, reallığa münasibəti ilə ifadə olunur. Bədii psixologizm mühitin, sosial şəraitin mənəvi-əxlaqi durumunu, ictimai ziddiyyətləri öyrənmək üçün fəlsəfi intellektualizmə əvəzsiz xidmət edir. Heç bir fərdi, onun dünyagörüşünü yaşadığı cəmiyyətdən, onun əxlaqi sferasından təcrid edilmiş şəraitdə öyrənmək mümkün deyildir. İncəsənət insanşünaslıqdır, o, şəxsiyyətin ahəngdar inkişafını, daxili təkamülünü, ictimai mühitlə harmoniyasını müəyyənləşdirən yaradıcı qüvvədir.

İctimai mühitin fəlsəfi-analitik təhlilini verərkən, mühitin daxili inkişafını, problemlərini öyrənərkən fəlsəfi fikir bədii əsərlərdən zəruri məlumatlar əldə edir. Müxtəlif səmtlərdən yanaşmalarına, həyatı izah etmələrinə baxmayaraq, hər ikisi – fəlsəfə və incəsənət bir-birindən ayrılmazdır, onların təhlil obyekti «gözəl-həyatdır». Bu baxımdan tarixi dramların vasitəsi ilə yazıldığı dövrün ictimai-sosial problemlərini öyrənmək mümkündür, bu isə müasirlik prinsipinin daim gözlənilməsi ilə bağlıdır.

Dramaturq toxunduğu problemləri, tam təhlil və təsvir etmək üçün tarixi hadisələrlə, tarixi şəxsiyyətlərlə bərabər tarixi proseslərdə iştirak etməyən insan surətləri də yaradır. Mövzu və ya hadisənin təsvir edilən dövrlə bağlı olması əsas şərtdir, obrazlara gəldikdə isə dramaturqa sərbəstlik verilir, o, öz yaradıcı təxəyyülünün və fantaziyasının imkanlarından istifadə etməkdə azaddır, bu isə bədii uydurma, bədii şərtilik adlanır. Tarixi drmalarda dramaturqun bədii şərtilikdən istifadə etməsi təbii haldır, lakin bədii uydurma tam sərbəstlik kimi başa düşülməməlidir, sənətkar xəyalı real həyat hadisələrinə əsaslanmalı, onları həm forma, həm də mahiyyət baxımından tamamlamalıdır. Real həyat hadisələri ilə uydurulan hadisə elə qovuşdurulmalıdır ki, heç bir yadlıq, həqiqətin təhrifi görünməməlidir, həyatın bütövlükdə

təsviri və qavranılması üçün əlavə olaraq dolğun fikir və məlumat verməlidir, buna görə də bədii uydurma yüksək sənətkarlıq və istedad tələb edir. Tarixi hadisələrlə, həyat faktları ilə bədii uydurmanın mütənasibliyi, ahəngdarlığı sənətkarlığın ən vacib şərtlərindəndir. Dramaturqun təsvir etdiyi tarixi hadisələr obrazların fikir və fəaliyyəti ilə verilir, onların taleyi ilə qovuşmuş olur, mühitin ictimai psixologiyası, mənəvi əxlaqi sferası insanların həyat tərzində, yaşayışında, qarşılıqlı münasibətlərində reallaşır. Yaxın və uzaq tarixi keçmiş müasir dövrün mühüm ictimai-siyasi tələbləri ilə qovuşur, tarixi obrazların fikirləri, baxışları müasir cəmiyyətin fikir axtarışları ilə birləşərək müasirlik məzmunu qazanır.

Bədii uydurma real həyat faktları ilə ümumiləşdirmə arasında bağlayıcı tellər kimi çıxış edir, real hadisə və faktlara ümumilik aşılayaraq mühitin bədii modelini yaradır. Bədii məntiq tələb edir ki, uydurma subyektiv xarakterdə olmamalı, hadisələrə yad görünməməlidir, o, hadisələrin məntiqi inkişafı ilə əlaqələnməlidir, tarixi dəqiqliyin sənətkar təxəyyülü ilə vəhdəti, nisbəti tarixi dramların estetik şərtlərindəndir.

Estetik fikirdə «əsərlərin intellektual və psixoloji tipləri bir-birindən əsaslı şəkildə» fərqləndirilir. Tarixi dramlarda bədii psixologizmlə bərabər intellektuallıq da mövcuddur. Sənətkar tarixi dramlarda peal mühitin, yazıldığı dövrün inkişaf meyllərini, zəruri tələblərini tarixi hadisə və proseslərin fonunda verir, tarixi şəxsiyyətlərin fikir və baxışları ilə ifadə edir. Burada psixoloji analizdən, yəni obrazların mənəvi dünyasından sevinc və iztirablarından, siyasi mühitin insan mənəviyyatına təsirindən, qəlb istəyi, ürək arzuları ilə mühitin təzadlığından yaranan ağır iztirab və mənəvi sarsıntılardan söz açmamaq mümkün deyildir, fikrin plastikası, daxili mübarizə psixoloji analizin tədqiq obyektidir. Tarixi dramların yaranma və inkişaf tarixinə nəzər saldıqda bunların intellektual əsər, yəni konseptual fəlsəfi təfəkkür tərzinin və ya konseptual fəlsəfi yaradıcılığın məhsulu olduğunu görürük. Psixoloji əsərdə «qəlb dialektikası», fikir hərəkəti, cəmiyyət və fərd qarşılaşması zamanı insanın daxili dünyasında baş verən dəyişikliklər, psixoloji vəziyyətlərin təcəssümü aparıcıdırsa, intellektual əsərlərdə daha geniş, mürəkkəb sosial problemlərdən – cəmiyyət, xalq, şəxsiyyət taleyindən danışılır, mövcud cəmiyyətin, xalqın fikir və münasibətlərinin analitik təhlili aparıcı olur. Tarixi dramlarda fəlsəfi konsepsiya bədii əsərin strukturuna daxil olur, həyatı dərk etməyə, ictimai hərəkatın daxili mahiyyətini açmağa yönəlir. İntellektual əsərlərin yaranması müasir bədii prosesin, fikir axtarışlarının tələblərindən irəli gəlir. Tarixi dramlar oxucu və ya tamaşaçıdan yüksək intellektual qabiliyyət, dərin müşahidə, ictimai problematikanın daxili mahiyyətini anlamağı və obyektiv nəticələr çıxarmağı tələb edir.

XX əsrin əvvəllərində N.Nərimanov, H.Cavid, C.Cabbarlı, Ə.Haqverdiyev, S.S.Axundov kimi dramaturqların tarixi drama müraciəti ictimai mühitin, sosial şəraitin dramatizmi ilə bağlı olmuşdur, mürəkkəb ictimai-siyasi, ictimai-psixoloji şəraitdə tarixi düşüncə, təfəkkür tərzi müasir dövrün təhlilinə, mühitin faciəvi xarakterinin açılmasına səy göstərirdi.

Azərbaycan dramaturgiyasının sonrakı inkişaf mərhələlərində S.Vurğun, Ə.Məmmədxanlı, M.Hüseyn, B.Vahabzadə, N.Həsənzadə, İ.Əfəndiyev, N.Xəzri tərəfindən yazılan tarixi dramlar özünəməxsus ideya və məzmun xüsusiyyətləri, estetik idealın yeni məna və mahiyyət kəsb etməsi ilə seçilir. Həmin tarixi dramlar

müasirliyə xidmət edərək, sosializm siyasi sisteminin ideoloji və hüquqi sferasını öyrənməyə, inqilabi proseslərin strukturunda nəyin, hansı ictimai qatın dayandığını aydınlşdırmağa xidmət edərək, əlavə informasiya mənbəyinə çevrilirlər.

Bədii yaradıcılığın inkişafı estetik fikrin, nəzəri baxışların da inkişaf etməsinə səbəb olmuşdur. Tarixi dramlarda müasirliyin estetik kateqoriya kimi öyrənilməsi bilavasitə bu janrın ideya-estetik tələbindən irəli gəlir. Müasirlik estetik kateqoriya kimi tarixidir, o, dövrün ədəbi-bədii fikir yenilikləri ilə zənginləşir, lakin müasirliyin üç keyfiyyəti yəni: fəlsəfi – idraki, milli-ideoloji, bədii hissi və ya emosional cəhətləri bazis kimi dəyişməz qalır. Bu keyfiyyətlər tarixi dramla oxucu arasında dayanır, real həyatla müəllif münasibətlərinin, oxucu ilə həyat, gerçəklik münasibətlərinin əsas tənzimləyicisi kimi təzahür edir.

Ədəbiyyat

1. Məmmədov M.Ə. *Həyat və sənət yollarında.* Bakı: Azərnəşr, 1965, 235 s.
2. Nəbiyev B.Ə. *Tənqid və ədəbi proses.* Bakı: Azərnəşr, 1976, 185 s.
3. Məmmədov M.Ə. *Acı fəryadlar, şirin arzular.* Bakı: Gənclik, 1983, 193 s.
4. Elçin. *Tənqid və ədəbiyyatımızın problemləri.* Bakı: Yazıçı, 1981, 316 s.
5. Qarayev Y.V. *Səhnəmiz və müasirlərimiz.* Bakı: Azərnəşr, 1972, 251 s.
6. Qarayev Y.V. *Poeziya və nəsr.* Bakı: Yazıçı, 1979, 197 s.
7. Məmmədov M.Ə. *Azəri dramaturgiyasının estetik problemləri.* Bakı: Azərnəşr, 1968, 348s.
8. Çernışevski N.Q. *Sənətin varlığa estetik münasibətləri.* Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1956, 171 s.
9. Borev. Y. *Estetika.* Bakı: Gənclik, 1980, 220 s.
10. Qasımzadə Q. *Ədəbiyyatda millilik və beynəlmiləllik.* Bakı: Elm, 1982, 272 s.
11. Abdullayev K.M. *Müəllif-əsər-oxucu*. Bakı: Yazıçı, 1985, 247 s.

Исмаил Агаев

Современность как эстетическая категория в исторических драмах

Резюме

Современность анализируются как эстетическая категория в драмах связанных с историческими событиями и личностями. Основные принципы современности определяется как эстетическая категория на основе сравнительного анализа. Не смотря на то что темы выбраны из истории, в исторических драмах показано необходимость дать смысл современной эпохи вместе с социальными и моральными проблемами и потребностями внимании. Для того что бы развивать наблюдение над истории как социальная- моральная и политическая проблема современной эпохи, современность определяется тут как социальное– когнитивное, художественное- эстетическое значение.

İsmail Agayev

Modernity as aesthetic cateqory in historical drams

Summary

Modernity is investigated as aesthetic cateqory in drams associated with historical events and personalities. Main principes of modernity are determined as aesthetic cateqory at the result of comporative analysis. Inspite of taking subjects from history, here are also shown the necessiry to give means to a modern period with social-moral problems and attention needs. To improve the ability and skills of observing on the modern era as social-moral and political problem modernity is determined here as social-cognitive, artistic, aesthetic value.

Rəyçi: dosent Yusif Aslanov

ATAJONOVA ANORGUL JUMANIYOZOVNA
O‘zbekiston, Urganch Davlat Universiteti
anorgul70 @ mail.ru

TOTEMLARGA ASOSLANGAN ETNONIMLARNING ETIMOLOGIYASIGA DOIR

Açar sözlər: etnonim, totem, etimologiya, folklor.
Keywords: ethnonims, totem, etymology, folklore.
Ключевые слова: этноним, тотем, этимология, фольклор.

Xalqimiz tarixi, taqdiri va turmush tarzining o‘ziga xos qomusi hisoblangan etnik nomlar ajdodlarimiz tafakkurining bebaho yodgorligi, boshqacha qilib aytganda, o‘zbek ma’naviyati xazinasini asrlar davomida boyitib kelgan muhtasham qadriyatlarimizdan biri sanaladi.

Ibtidoiy urug‘chilik tuzumi davrida qadimgi odamlar tomonidan mo‘tabarlashtirilgan hayvon, o‘simlik, muayyan narsa yoki hodisa totem hisoblangan. “Totem” so‘zi Shimoliy Amerika hindularining ojibve qabilasi tilidan olingan leksik birlik bo‘lib, “uning urug‘i” degan ma’noni bildiradi.

V.V.Bartold mashhur tarixchi Rashididdin ma’lumotlariga asoslanib, o‘g‘izlarda, hatto, islom davrida ham totemizm saqlanganligi va ular har bir qushni e’zozlashi, urug‘ a’zosi deb hisoblaganligi, ularga tegmagani va go‘shtini yemagani xususida yozgan. (1)

Ayrim qabila va urug‘ nomlari ana shu totemlardan yuzaga kelgan. Ba’zi uy hayvonlari ham totem sifatida e’tirof etilgan. Masalan, turkmanlarda ak-koyunlu va kara koyunlu (ya’ni “oq qo‘y” va “qora qo‘y”), teke “taka”, turk urug‘ qabilalari silsilasida aksiuirli (oq sigirli), qara-atli (qora otli), yuryuk qabilalari tizimida sari – kechili (sariq echkili), kara-tekeli (qora takali) kabi urug‘ nomlari bor . (2)

Turkiy etnonimlar tarkibiga kiruvchi avjin, buqa, bag‘ish, bahrin, bo‘ri, boybo‘ri, kirpi (tipratikan), tuyachi, ho‘kiz, ilonli, kaltatoy, kerayit, kiyikchi, olchin, toyloq, qarg‘a, qorabura, qoralochin, qoraqursoq, qo‘ng‘irot va boshqa etnonimlar ham totemik e’tiqodlar bilan aloqadordir.

Totem sifatida muqaddaslashtirilgan jonivorlar nomini anglatuvchi so‘z asosida yuzaga kelgan ba’zi etnonimlar zamirida ham hayvon yoki qush nomlari mavjuddir. Masalan, **bahrin** urug‘ining kelib chiqishi ham totem bilan bog‘liq bo‘lib, u qush nomini, ya’ni lochinning bir turini anglatadi. Bahrinlarni qushbonlar qo‘lga o‘rgatib qush va boshqa jonivorlarni ovlashgan. (3) Qabila jamoasi esa tug‘iga bahrin qushi tasvirini tushirib unga sig‘inishgan. Keyinchalik, aholisining etnik mansubligi asosida qishloqlar nomlangan. Qoraqalpog‘iston va Xorazmda Baxrin, Qashqadaryoda Bahrinbayot, Tolbahrin, Yetakbahrin kabi qishloq nomlari uchraydi.

Bag‘ish – qirg‘iz qabilalari tarkibiga kiruvchi urug‘lardan biri. N.I.Aristov bag‘ish va cho‘ngbag‘ish urug‘larining, asosan, Farg‘ona atroflarida yashaganligini aytadi.(4) Farg‘onada Cho‘ngbag‘ish deb nomlanuvchi o‘nlab qishloqlarning uchrashi bu erlarda qirg‘izlar istiqomat qilganligidan dalolat beradi.(5) Xorazmda Bag‘ish, Qashqadaryoda Begish, Toshkentda Bagis qishloqlari uchraydi. Bag‘ish

urug‘ nomiga ham totem asos bo‘lgan, turkiy tillarda bag‘ish – “bug‘u”, “kiyik” (“olen”, “los”) ma’nolarini beradi.

Qarag‘ursaq etnonimining ikkinchi qismi qarsaq bo‘lib, mo‘ynali hayvon, cho‘l tulkisi ma’nosini bildiradi.(6) “Qarsaq” so‘zi o‘zbek xalq og‘zaki ijodida esa “bo‘ri” ma’nosida qo‘llaniladi. Hatto xalq qo‘shiqlarida ham bu totemistik qarash izlari saqlangan:

Qamchi bo‘yi qor yog‘sa,
Qarsaq yo‘rtar yor-yor,
Bir yo‘rtar, ikki yo‘rtar,
Oxir to‘xtar yor-yor.

Bu to‘y marosim qo‘shig‘ida qo‘llanilgan “qarsaq” so‘zining ma’nosi “bo‘ri” demakdir. Qadimda ko‘pgina o‘rta osiyolik xalqlar o‘z urug‘boshilarini u yoki bu hayvon nomi bilan ataganlar. Ko‘pgina urug‘-qabilalar bo‘rini o‘z totemi - ilk ajdodi deb hisoblaganlar. Xitoy mualliflari ma’lumotlariga ko‘ra, VI asrda turkiy-larda bo‘ri va xon so‘zlari sinonim tushunchasini anglatgan. (7) Umuman, bo‘ri turkiy xalqlar uchun katta ahamiyat kasb etgan. Keyinchalik ko‘pgina turkiy xalqlar bo‘rini o‘zlarining himoyachisi deb hisoblaganlar. (8)

Qadimiy afsona va rivoyatlarda bo‘ri turkiy qabilalardan bir qismining buyuk ajdodi sifatida ulug‘langan va u ota-ona kabi xaloskor, yo‘l ko‘rsatuvchi, qahramonlarga yordam beruvchi, shavkatli, jasoratli jonzot sifatida tanilgan, shuningdek, odamlarni barcha kulfatlar va yovuzliklardan asrovchi homiy sifatida ham tasvirlanadi. (9)

Bo‘riga e’tiqod qilish izlari o‘zbek xalqining turli urf-odatlari va irimlarida bugungi kunga qadar ma’lum darajada saqlanib qolganligi haqida A.Ashirov o‘z kitobida qayd qiladi. Uning keltirishicha, bu narsa, Farg‘ona vodiysida farzandsiz ayollarning bo‘ri tishini taqib yurishida yaqqol namoyon bo‘ladi. Bundan tashqari, bola tug‘ilishini osonlashtirish niyatida bo‘lg‘usi onaga quritilgan bo‘ri yuragidan oz miqdorda yedirilgan yoki to‘lg‘oq tutgan ayol ko‘rpasining o‘ng tomoniga bo‘ri payi qo‘yilgan. (10) Shuningdek, yana bo‘ri tirnog‘i va tishlarini yomon ko‘zdan asraydi deb hisoblab, osib yurganlar.

Qadimiy turkiylar bo‘rini osmon bilan bog‘laganlar, shuning uchun ham bo‘ri kallasi tamg‘asi ular bayrog‘ida o‘z aksini topgan. (11)

Qadimgi turk asotirlarida bo‘ri, rangiga ko‘ra Ko‘k bo‘ri, Oq bo‘ri, Qizil bo‘ri deb atalgan va u Bo‘ri, Bo‘rta, Burshu, Sino, Shina, Jinu, Qashqir, Qurt nomlari bilan yuritiladi. (12) Mo‘g‘ullar o‘z avlodlarini kulrang bo‘ridan kelib chiqqan deb hisoblaganlar. Turkiy xalqlarning ashina urug‘i ham bo‘ri bilan bog‘liq bo‘lgan. Xitoy tilida a-prefiksi hurmat ma’nosini ifodalagan, mo‘g‘ulcha shono/chino esa bo‘ri demakdir. (13) Tadqiqotchilarning aniqlashicha, kelib chiqishi turkiy bo‘lgan boshqirdlar totemi ham bo‘ri bilan bog‘liq bo‘lib, “bosh qurt”- bosh bo‘ri yoki bo‘ri kallasi degan ma’noni bildirgan. (14) Shuning uchun ham, bo‘ri so‘zi va uning sinonimi bo‘lgan qurt(gurt) so‘zlari turkiy xalqlar etnonimlarida tez-tez uchraydi.

Qo‘ng‘irotlarda boybo‘ri, qoraqalpoqlarda baybura, turkmanlarda bo‘ri, bo‘ribeg degan urug‘lar bo‘lib, bu urug‘lar nomlanishi ham bo‘ri totemi bilan bog‘liq. O‘zbek, qirg‘iz, turkmanlar orasida bo‘ri urug‘i toponim tarzida ham saq-lanib qolgan. Xorazmda Bo‘riovul, Andijonda Bo‘rilik, Samarqandda Bo‘riqishloq, Turkmanistonda Bo‘ri o‘ba, Bo‘ribuloq va h.k. Bundan tashqari yana turkiy et-

nonimlardan **kerayit** mo‘g‘ulcha xeree(n)- qarg‘a so‘zidan olingan bo‘lib, oxiridagi -t affiksi jamlik ma’nosini beradi, (15) **no‘g‘ay** etnonimi asosidagi so‘z esa mo‘g‘ulcha noxoy, ya’ni- “it” ma’nosini anglatuvchi atamadan olingandir.(16) Bu etnonim O‘zbekiston (Xorazm)da **No‘g‘ay**, **No‘g‘ayovul**, **Oqno‘g‘ay**, **No‘g‘ayni yeri**, **Qo‘ylanno‘g‘ay, No‘g‘ayli** va h.k.shakllarda joy nomi sifatida uchraydi. Urug‘-qabilalarni nomlashda totemik qarashlarga suyanish turkiy va mo‘g‘ul xalqlari orasida yuzaga kelgan qadimiy an’ana hisoblangan. Abulg‘oziy Bahodirxon ham “Shajarayi tarokima” asarida O‘g‘uzxonning nevaralari avlodi uchun totem hisoblangan Burgut, Shunqor, Ukki, Qarchig‘ay, Turumtoy, Lochin, Xumoy, Tuyg‘un kabi qush nomlarini keltiradi. (17)

Burgut rus tilida Berkut shaklida uchraydi. Bu so‘z rus tiliga turkiy tillardan o‘tgan. Eski o‘zbek (chig‘atoy) tilida – birkt, qozoq tilida- brkt, qirg‘iz tilida – berkut, tatar tilida- birkut, mo‘g‘ul tilida – birgit va x.k. Ko‘pgina xalqlarning, jumladan, yevropa xalqlarining mifologiyasida uchrashi, so‘zning qadimiyligidan darak beradi. Shu jumladan, islomgacha bo‘lgan turkmanlar mifologiyasida Burkut-baba (Burkut – buyuk olloh) – bulutlar, momoqaldiroq, yomg‘ir hukmdori, kuch-qudratda Ollohga teng hisoblangan. (18) *Er (ar, or) o‘zagi “berkut” so‘zini “burgut” va “qarg‘a” so‘zlariga yaqinlashtiradi. Elementlari ilk va o‘rta paleolit davrlariga xos bo‘lgan Burkut-baba mifologik obrazining detallari uni burgut va qarg‘a timsoli bilan yaqin ekanligini ko‘rsatadi. Bu so‘zning kelib chiqish tarixi shuni ko‘rsatadiki, Uels aholisida yirik yirtqich qushlarni anglatuvchi “bargud” (19) so‘zining “berkut” so‘zi bilan o‘xshashligi tasodifiy emas va bu hind-yevropa xalqlari tilining kelib chiqish davri bilan bog‘liqdir. Osetin zooetnonimidan kelib chiqqan “cherkasogi” (bu nom keyinchalik “cherkasi” va “kasogi” kabi alohida etnonimlar sifatida atala boshlangan), ya’ni “cherkas” etnonimi ham osetincha -sargas>carkas “burgut” ma’nosidagi so‘zdan olingandir. (20)

Qadimgi odam totemik tasavvurlarida nomi mo‘tabarlashtirilgan hayvon, qush otlari asosida etnik guruhlar nomining kelib chiqishi nafaqat turkiy, balki Sibir xalqlarida ham mavjud an’ana bo‘lib, u erda yashovchi nganasan qabilasida turna, burgut, qarg‘a kabi urug‘lar bor. Shu qabilaga mansub kishilar urug‘ nomiga asos bo‘lgan hayvonlarni o‘ldirmaydilar, go‘shtini yemaydilar, hatto ularning tamg‘-alarida ham o‘sha qushlar surati chizilgan. Ilmiy adabiyotlar turkiy xalqlarning o‘tmishda bo‘ri, ayiq, burgut, ilon, echki, qo‘y, ho‘kiz va boshqa hokazo totemlarga e’tiqod qilganliklaridan guvohlik beradi. (21)

Morganning ma’lumotlariga qaraganda, amerikalik hindlarning seneka qabilasida sakkizta urug‘ bo‘lib, ular quyidagi hayvonlarning nomlari bilan atalgan: bo‘ri, ayiq, toshbaqa, bobr, bug‘i, qiziloyoq, qarqara, lochin.

O‘zbek, qozoq, turkman, shuningdek, mo‘g‘ullar orasida bo‘ri, ot, ayiq, ho‘kiz kabi hayvonlarga nisbatan totemistik e’tiqod nihoyatda kuchli bo‘lgan.

O‘zbekistonda uchraydigan **Qo‘ngg‘irot** //**Qongrot**, **Shirinqo‘ng‘irot**, **Jomonqongrot, Qo‘ng‘irot** kabi joy nomlari ham totemistik e’tiqod asosidagi etnonimdan yuzaga kelgan.

Turkiy filologiyada bu etnonimning etimologiyasi haqida turli xil munozaralar bildirilgan. Xususan, Z.Sh.Navshirvanov bu so‘zni ikki qismga ajratib izohlaydi: Qong‘ur - “kulrang, to‘q jigarrang” ma’nosini ifodalasa, at - mo‘g‘ulcha ko‘plik affiksi deb qaraladi.(22) Z.Sh.Navshirvanov qo‘ngirotlarni turkman qabilasi deb

hisoblaydi, bu qabila turkmanlarda gongrat deb yuritiladi. S.Abramzon bu nomning paydo bo‘lishi shu qavmga mansub suvoriylarning qo‘ng‘ir otga minib jang maydoniga chiqishlari bilan bog‘liq bo‘lsa kerak, deb faraz qiladi.(23) Chunki o‘tmishda har bir qabilaga mansub jangchilarning maxsus harbiy libosi bo‘lmaganligi sababli, ularni boshqa jamoa askarlaridan farqlash uchun bir xil rangli otga mindirib jangga kiritish rasm bo‘lgan. Turkiy xalqlar shajarasidagi alaatchin (q.alchin), qarat (qaraat) kabi urug‘larning nomi ham otning shu turlariga bog‘liq holda qo‘yilgan. Ot totemi-jahon xalqlari tarixida keng tarqalgan ilk diniy e’tiqod ko‘rinishlaridan biri hisoblanadi. O‘zbek urug‘laridan biri Farg‘ona vodiysi qipchoqlarida ot totemi bilan bog‘liq to‘rt ayg‘ir, saman otli, qora baytal, qulon kabi qator urug‘lar mavjud bo‘lgan. (24) Qadimda ko‘pgina xalqlarda insonni tirikligida minib yurgan oti bilan birga ko‘mish odati bo‘lgan, bunga sabab, otga minib jannatga ketishlariga ishonch bo‘lgan. Ot totemiga e’tiqod izlari o‘zbeklarning marosimlarida ham saqlanib qolgan. Keksalarimizning ta’kidlashlaricha, odatda, ot bor xonadonga ins-jinslar kirmaydi. Hozirda ham ko‘pgina xonadonlarda balo-qazolardan saqlash niyatida darvozaga ot taqasi qoqib qo‘yilganligining guvohi bo‘lishimiz mumkin. Muchal yillaridan ot yili qadimdan qutli, barakali keladi deb ishonishgan. Turkiy urug‘lar orasida kaltatoy urug‘ining nomi ham ot totemi bilan bog‘liqdir. O‘zbekistonn (Qashqadaryo) da Kaltatoy degan qishloq mavjud, joy nomi etnonim asosida yuzaga kelgan. (25) Kaltatoy so‘zi kichik jussali, kalta bo‘yinli otni anglatgan va u totem hisoblangan. (26)

S.P.Tolstovning ta’kidlashicha, qadim zamonlarda O‘rta Osiyoda ho‘kiz va ilon hukmron totemlar bo‘lgan. (27)

X.Doniyorov ilonli asosiy o‘zbek urug‘laridan biri deb hisoblaydi. (28) Turkmanlarning arsari qabilasida yilan urug‘i, (29) naymanlarning jilonni urug‘i hamda jilontamg‘ali (ilon tamg‘ali) kabi tarmoqlari bo‘lgan. (30) Bu urug‘ boshqirdlarda elan, ilan, idel-elan tarzida uchraydi. (31) Qashqadaryodagi Ilamji (32) qishlog‘i ham shu urug‘ asosida yuzaga kelgan va ilamji/ilonchi/ilonli tarzida shakllangan. Etnonim tarkibidagi –ji/-chi/-li qo‘shimchalari mansublik, xoslik ma’nolarini bildiradi. Shuni qayd etib o‘tish kerakki, ilon etnonimi ko‘pgina urug‘-qabilalarning tamg‘asi nomini ham anglatgan, ilonli, ilontamg‘ali kabi. Chunki ayrim tamg‘a nomlari totemiy tasavvurlar zaminida tanlangan.

Qadimdan ilonlarga sig‘inish odati ma’naviy madaniyatimizga singib ketgan. Zardushtiylik dinida ilonlar salbiy ko‘rinishda tasvirlangan bo‘lsa, islom dinida ilon ijobiy ma’noda talqin etiladi. Ilon xalqimizda donolik, farosat, go‘zallik ramzi sifatida e’zozlangan. Ilonlar jahon xalqlari qadimiy tasavvur va asotirlarida sezilarli o‘rinda turgan. Xalqimizda uy ilonlari, ayniqsa, oq ilon mo‘tabar sanalgan. Ko‘pgina joylarda hovlida oq ilon paydo bo‘lishini qut baraka va yaxshilikdan dalolat beradi, deb hisoblaganlar. Adabiyotlarda keltirilishicha, bu ilonlar asli parilar bo‘lib, har kimga ham ko‘rinish bermaganlar, faqat qalbi pok, halol insongina uni ko‘rish baxtiga muyassar bo‘larmish va uni ushlab olib nimani niyat qilsa, uning orzusi ushaladi degan tasavvurlar ham mavjud bo‘lgan. (33) Oq ilon to‘g‘risidagi ijobiy tasavvurlar hatto xalq qo‘shiqlarida ham aks etgan:

Oq ilon, oppoq ilon,
Oydinda yotganing qani.

Bizniku, yomon deding,
Yaxshini topganing qani.

Shunday qilib, muayyan urug‘ va qabila uchun afsonaviy totem-ajdod hisoblangan jonivorlar nomini vaqt o‘tishi bilan ana shu qabilalar o‘zlariga nom sifatida qabul qilganlar va ular hozirgacha etnonim va etnotoponim ko‘rinishlarida saqlanib kelmoqda.

Adabiyotlar

1.Бартолъд В.В. Сочинение.Т.2. Часть 1.М.: 1963. 1977-С.576.
2.Еремеев Д.Е. К семантике тюркской этнонимии // Этнонимы .-М., 1970.-с.133-142
3.T.Nafasov. Qashqadaryo qishloqnomasi. T.2009.55-bet.
4.Аристов Н.И. Заметки об этническом составе тюркских племен и народностей и сведения об их численности. Живая старина. Вып.III-IV. СПб, 1896, -С 440.
5.N.Oxunov. Joy nomlari ta’biri.T.1994.62-bet.
6.Qoshg‘ariy Maxmud. Devonu lug‘otit turk. T.: O‘zSSR Fanlar akad. Nashri, 1960. I tom 439-bet.
7.Гумилёв О.Н. Древные тюрки. –М. 1967. –с.23.
8.Кузеев Р.Г. Происхождение башкирского народа: Этнический состав, история расселения, –М.: Наука,1974. –С. 155.
9.A.Ashirov. O‘zbek xalqining qadimiy e’tiqod va marosimlari. T. A.Navoiy nomidagi O‘z.Milliy kutubxonasi nashriyoti.2007 y., 15-bet
10.A.Ashirov. O‘sha asar. 17-bet.
11.Бичурин Н.Я. Собрание сведений о народах, обитавщых в Средней Азии в древние времена. – Т.2. – С.220-221.
12.Murot O‘roz. Turk asotirlari // Sirli olam.-1991, № 6.-B-11
13.Ataniyazov S. Slovar turkmenskix etnonimov. Ashxabad. Ilim.1988. S.34.
14.Урматчеев Ф. По следам белого волка // СТ. 1978. –С.15.
15.Монголско-русский словарь -М.: Гос изд. иностр. и нац. Словарей, 1957. -С. 593.
16.O‘sha joyda 272-b.
17.A.Bahodirxon. Shajarayi tarokima.-T: Cho‘lpon, 1995. 22-23 b.
18.Лебедев И.Г., Константинов В.М. Значение и этимология некоторых русских названий хищных птицы сов фауны России. III конференция по хищным птицам Восточной Европы и Северной Азии: Матерыалы конференциии 15-18 сентября 1998 г. Ставрополь: СГУ, 1999. Часть 2.С.84.
19.Там же. 84-с.
20.Баскаков Н.А. Русские фамилии тюркского происхождения . – М.: Наука, 1979.-С. 136.
21.Толстов С. П.. Древный Хорезм. – М.: МГУ, 1948. - С. 223-226.
22.Навширванов З.Ш. Предварительные заметки о племенном составе тюркских народностей, проживающих на юге Руси и в Криму // Изв. Тавр. об-ва истор. археол. и этнографии. – Симферополь, 1929. – Т.3(60).

23.Абрамзон С.М. К семантике киргизских этнонимов // Советская этнография . –M.L., 1946.-№ 3 –С. 129.
24.A.Ashirov.-O‘sha asar. 20-bet.
25.T.Nafasov. Qashqadaryo qishloqnomasi. T.2009.133-bet.
26.Marqayev K. Totemistik tasavvurlar bilan bog‘liq etnonimlar.// O‘zbek tili va adabiyoti.2005.№1-B.94-95.
27.Толстов С.П. Древный Хорезм. М.: МГУ, 1948.-С.237.
28.X.Doniyorov. O‘zbek shajara va shevalari.-T.:Fan,1968.-B.80.
29.Ataniyazov S. Slovar turkmenskix etnonimov. Ashxabad. Ilim.1988. B.75
30.Qorayev S. Geografik nomlar ma’nosi.- T.O‘zbekiston.1978. –B.55.
31.Кузеев Р.Происхождение башкирского народа. –С.221,235,247,332.
32.T.Nafasov. O‘sha asar. 127-bet.
33.A.Ashirov. O‘sha asar. 27-bet.

Atajonova Anorgül

Totemlərə əsaslanan etnonimlərin etimologiyasına dair

Xülasə

Məqalədə totemlər, onlardan törəmiş etnonimlərin etimologiyası və mənşəyi və onların yer adları qismində istifadə yolları tədqiq edilmişdir. Müəllif geniş materiallar əsasında, Radlov və Rəşidəddin, digər türkoloqların əsərləri əsasında totemlərdən törəmiş etnonimlərin etimologiyasını təhlil etmişdir.

Атажонова Аноргуль

Об этимологии этнонимов основанных на тотемы

Резюме

В статье рассматриваются тотемы и исходящие из них этнонимы, происхождение и этимология этнонимов, а также случаи их употребления в виде названий местности. Автор на обширном материале, приведенным из научных произведений Радлова, Рашидаддина и др. тюркологов ведет полный анализ этнонимов основанных на названия тотемов.

Atajonova Anorgul

About etymology of ethnonims based on totems

Summary

The article introduees us with the totemas and etnonyms coming out of them, the origin and etymology of etnonyms, and the cases of their usage as the names of places. The author on the extensive material, given of Radlov, Rashidaddin's scientific works, etc. turkologists keeps the full analysis ethnonims based on names totems.

Rəyçi: S.Ruzimboyev
filologiya üzrə elmlər doktoru, professor

XURAMAN MƏMMƏDOVA
ADU
xuraman2003@box.az

AZƏRBAYCAN VƏ İNGİLİS İNANCLARININ FƏRQLİ VƏ OXŞAR CƏHƏTLƏRİ, ONLARIN DİLDƏ ƏKSİ

Açar sözlər: inanc, inam və etiqad, tərcümə, sınamalar, semantika
Key words: superstition, belief and religion, translation, tested beliefs, semantics
Ключевые слова: суеверие, вера и убеждение, перевод, испытанные приметы, семантика

İnsanlar həyatda daim uğur qazanmaq, rahat yaşamaq üçün bir sıra vasitələrə əl atırlar və düşünürlər ki, öz xoşbəxtliklərini məhz belə sığortalaya bilərlər. Bu vasitələrdən biri də inanclardır. Şifahi xalq ədəbiyyatının nümunəsi olan bu janr həyatımızın bir çox sahələrinə dərindən nüfuz etməklə yanaşı, psixologiyamızda, dilimizdə geniş yer tutur.

Hər bir xalqın öz tarixi köklərindən qaynaqlanan inam və etiqadları, inancları vardır. Bu baxımdan, xalqların inancları da tarixləri kimi fərqlilik və oxşarlıqları ilə zəngindir. Məqaləmizdə ana dilimizlə ingilis dilinin bu sahədə müqayisəsini aparacağıq.

İlk öncə "İnanc nədir?" sualına cavab axtaraq, bir sıra alimlərin, yazıçıların fikirləri ilə tanış olaq.

Görkəmli folklorşünas professorumuz Azad Nəbiyevin fikrincə, inanclar – sınamalar nəticəsində qətiləşən hökmlərin bədii ifadəsidir. (1,49)

Şifahi ədəbiyyatımızın bir janrı olan inaclarda onlarla etnoqrafik həyatla bağlı, adət, ənənə düşüncəsi ilə əlaqədar, eləcə də digər mənəvi-əxlaqi dəyərlərə söykənən nümunələr mövcuddur.

Gənc dilçi alim Cəmalə Məmmədova öz məqaləsində qeyd edir ki, ümumilikdə, inanclar hər bir xalqın sınamaları hesab olunur. Burada, əsrlər boyu müxtəlif vəziyyətlərdə özünü doğruldan sınamalar nəzərdə tutulur.

Digər alimlərin fikrinə toxunan müəllif göstərir "Azərbaycan arxeoloqu və etnoqrafı, tarix elmləri namizədi İshaq Cəfərzadə qeyd edir ki, hər bir xalqın qədim tarixinə əsaslanan mədiniyyəti vardır. Xalqın tarixi isə onun həyat tərzində, dilində, inam və etiqadlarında öz əksini tapır.

Bəzi alimlər düşünürlər ki, inanclara ehtiyac insanların dünya, təbiət və bəşəriyyət haqqında az biliyə malik olması səbəbindən yaranmışdır.

Digər alimlər isə düşünürlər ki, inanclar fikirlər və inamlar aləminin bir hissəsi olub, nəsildən-nəslə ötürülür.

İnanclar, bir hadisənin baş verməsini gələcəkdə digər bir hadisənin yaranmasına yol açan işarə forması kimi də anlaşılır."(2, 56-58)

Azərbaycan xalqının qədim inam və etiqad dünyası isə təbii ki, qədim türk qaynaqlarından süzülüb gəlmişdir. Qədim türkün inanc dünyası məhdud çərçivədə qalmamış, milli həyatın geniş çevrəsini əhatə edə bilmişdir.

Əgər bu gün diqqət yetirsək, görərik ki, təkcə "Kitabi Dədə Qorqud"da və oğuz türklərinin elə əski inanclar sistemi yaranmışdır ki, onların bir çoxu tarixin

sınaqlarından çıxdıqda alqışa, etiqada çevrilmişdir, müstəqil paremik vahid kimi formalaşaraq milli yaddaşa həkk edilmişdir.(3, 9)

İnam və etiqadların məzmun çevrəsi də geniş və əhatəlidir. Burada eyni zamanda xalqın məişət, mədəniyyət, flora, fauna, bir sözlə gündəlik həyatına aid hər şey özünü ifadə edir. Məsələn:

1. A bird that comes in your window brings bad luck. A bird in the house is a sign of a death. (4)
Evin üzərində uçan qarğa qarıldasa, yeni xəbər eşidəcəklərinə inanırlar. Bu xəbərin xeyirli olması üçün üç dəfə "xeyirli xəbər" deyə təkrar edir və deyirlər: Xeyir isən gəl bəri, Şər isən dön geri". (5, 85)
2. Bad luck will follow the spilling of salt unless a pinch is thrown over the left shoulder into the face of the devil waiting there. (4)
Süfrəyə duz dağılanda evə dava düşər. (6, 226)
3. If a mirror in the house falls and breaks by itself, someone in the house will die soon. To break a mirror means 7 years bad luck. (4)
Güzgünün qırılması fəna hesab olunur, evdəkilərin başına bir iş gələcəyinə inanırlar. (6, 224)

Güzgüdə əks olunanlardan da biri insanın ruhudu, buna görə güzgünün sınması insanın ruhuna pis təsir edir. Qədim zamanlarda ay işığında sınan güzgü hissələrini aparıb basdıqmaqla uğursuzluqdan xilas olurdular.

Başqa bir mənbədə göstərilir ki, güzgünün kəşfindən öncə inasanlar öz əksini göllərdə, hovuzda görürdülər. Əgər alınan təsvirdə əyrilik olardısa bu fəlakətə işarə idi.

Qədim yunan və misirlilərin "sınmayan" metal güzgüləri magiya gücünə malik olduğu üçün çox yüksək qiymətləndirilirdi. Romalılar isə sınmış saxsı güzgünü uğursuzluq rəmzi hesab edirdilər. Bu uğursuzluğun 7 il çəkməsi isə, onların inanclarından qaynaqlanır. Beləki, guya insan bədəni hər yeddi ildən bir təzələnir.(7)

4. Salty soup is a sign that the cook is in love. (4)
Xörəyə çox duz tökənə deyirlər ərini çox istəyir.(6, 227)
5. To drop a knife means a man will visit.(8)
Bıçaq yerə düşəndə kişi qonağı gələr.(6, 219)
6. Warm hands cold heart, cold hands warm heart. (8)
Əli soyuq olan adamın ürəyi isti olar.(6, 222)

Tərcümələrdən göründüyü kimi, yuxarıdakı misallar hər iki dildə eyni semantikaya malikdirlər. Müxtəlif mədəniyyətə, tarixi keçmişə malik xalqların bir çox hadisələr baxışı eyniyyət, oxşarlıq təşkil etmiş və dildə də bu cür əksini tapmı.Lakin digər nümunələrdə eyni məsələ ilə bağlı fərqli mənalara rast gəlirik:

1. If a black cat crosses your path you will have bad luck. – Qabağından qara pişik keçsə işin uğurlu alınar. (8)
Qabağından qara pişik keçsə getdiyin işdən boş qayıdarsan.(6, 220)

Belə rəvayət olunur ki, qədim Misirdə Allah Bast qara qadın pişik idi. Başqa dinlərdən cəmiyyəti xilas etmək istəyən xristianlar cahilləri inandırırdılar ki, şeytanlar qara pişik cildində gizlənirlər və onları məhv etmək lazımdır. Beləliklə, onlar qayğıkeş qara pişikləri öldürür və inanırdılar ki, qara pişik cildində şeytanlar kiminsə yolundan keçəndə Allahla insan arasında elə bir maneə yaradırlar ki, cənnətə girmək mümkün olmasın.(8)

2. If your nose itches, someone is coming to see you. If it's the right nostril, the visitor will be a female, left nostril male. (4) – Əgər burun qaşınsa evə qonaq gələr. Sağ tərəf qaşınsa qadın qonağı gələr, sol tərəfdirsə kişi.
Burun qaşınanda xiffət olacaq.(6, 220)
3. If your left palm itches, it means you will soon receive money; if your right palm itches, it means that you will lose or have to pay money. (7)– Sol ovuc qaşınırsa pul gələcək, sağ ovuc qaşınırsa pul gedəcək.
If your left hand itches, you're going to be rich. If your right hand itches, you're going to be poor. (7)- Sol ovuc qaşınırsa varlı olacaqsan, sağ ovuc qaşınırsa kasıb.
Sağ ovuc qaşınırsa para gələcəyinə, sol ovuc qaşınırsa para gedəcəyinə inanırlar.(5, 89)
"İtching palm" – *"qaşınan ovuc"* idiomu mövcuddur ki, pula həris adamlara belə deyirlər.(8)
4. To drop a fork means a woman will visit. (8) – Yerə çəngəl düşəndə qadın qonağı gələr.
Yerə qaşıq düşəndə arvad qonağı gələr. (6, 222)

Şifahi xalq ədəbiyyatının janrı olan inanclar, həm də bir çox yazıçıların əsərlərində istifadə olunmuşdur. Məsələn, Mark Tvenin "Tom Soyyerin Macəraları" əsərində bunun şahidi oluruq:

"My! I never once thought of it, Huck!"

"Well, I didn't neither, but all at once it popped onto me that it was Friday."

"Blame it, a body can't be too careful, Huck. We might 'a' got into an awful scrape, tackling such a thing on a

Friday."

"MIGHT! Better say we WOULD! There's some lucky days, maybe, but Friday ain't."

"Any fool knows that. I don't reckon YOU was the first that found it out, Huck."

"Well, I never said I was, did I? And Friday ain't all, neither. I had a rotten bad dream last night--dreampt

about rats."(9, 160)

- Vay! Bu mənim ağlıma gəlməyib, Hek!

- Heç mənim də. Birdən burada yadıma düşdü ki, bu gün cümədir.

- Ay səni zəhrimara qalasan! Cümə günü biz bu işə başlasaydıq, işimiz bitmiş olardı.

- Nə danışırsan, evimiz yıxılardı. Bəlkə də, xoşbəxtlik gətirən günlər var, ancaq cümə o günlərdən deyil.

- Bunu axmaq da bilir. Yoxsa elə bilirsən ki, bunu sən kəşf eləmisən!

- Mən demirəm ki, kəşf eləmişəm. Cümə günü olmağı hələ bir yana, bu gecə yuxuma çoxlu siçovul girib.(10, 159-160)

Nümunədən göründüyü ki, Cümə günün uğursuz gün olmasına inanırlar. Bəzi mənbələrdə göstərilir ki, Isa peyğəmbər məhz Cümə günü çarmıxa çəkilib. Ona görə də xristianlar müsəlmanlardan fərqli olaraq bu günü xoşlamırlar və aydın şəkildə bir çox əsərlərdə öz əksini tapır.(7)

Nəticə olaraq onu qeyd etmək istərdim ki, cəmiyyətdə elmlə inanclar arasında mübarizə hələ də davam edir. Savadlı təbəqənin olmasına baxmayaraq bu cənfəngiyyatı sevən xüsusi kütlə artıq formalaşıb.

Son illərdə qəzetlər, jurnallar astroloji proqnozlar verməklə, bu səpkili verlişlər hazırlamaqla insanları olmayan nələrəsə inandırmağa çalışırlar. Hətta bu sahədə elmi işlər yazılır, elmi dərəcələr alınır. Ancaq çalışmaq lazımdır ki, gənc nəsli bu cür məntiqsiz inamlardan çəkindirək, əks halda hər kəs öz həyatını lazımsız şeylərə əsasən quracaq.

Ədəbiyyat

1. Azad Nəbiyev. Azərbaycan folklorunun janrları. I hissə, Bakı, ADU nəşr., 1983
2. Jamala Mammadova. Superstitions in Azerbaijan as a sign of the Nation's Historical Remnants. Khazar-Review. Aprel-2013 (317)
3. İmanova Sevda. Azərbaycan xalq inancları və kiçik inanclar.Avtoreferat. Bakı, 2007
4. www.corsinet.com/trivia/scary.html
5. Azərbaycan Folkloru antologiyası. II kitab (Iraq-Türkmən cildi) Bakı –2009
6. Mərasim, adətlər, alqışlar. I cild. 1993
7. sangi.sanguinarius.org/creative/**Origins**OfPopular**Superstitions**.pdf
8. http://englishcenter.maxforum.org/2010/09/19/american-superstitions/
9. Mark Twain. Adventures of Tom Sawyer. pp: 160
10. Mark Tven. Seçilmiş əsərləri. Tom Soyyerin macəraları. Şərq-Qərb Bakı, 2009

M. Khuraman

The difference and similarity of Azerbaijani and English superstitions, their reflection in the language

Summary

The article deals with differences and similarities of specific examples between the Azerbaijani and English superstitions, also analyzes their reflection in the language. According to the translation, the semantics of some examples coincide, but others - are quite different.

The author states that the use of superstitions in everyday life is nonsense, it is better to retrict their usage in the language.

М.Хураман

Различия и сходства между азербайджанскими и английскими суевериями, их отражение в языке

Резюме

В статье рассматривается на конкретных примерах различие и сходство азербайджанских и английских суеверий, а также анализируется их отражение в языке. Как показывают переводы, семантика одних примеров совпадает, а других – совершенно различна.

Автор отмечает, что использование суеверий в повседневной жизни абсурдно, лучше ограничить их использование в языке.

Rəyçi: Ç.M.Qaraşarlı
filologiya üzrə elmlər doktoru

Mündəricat

DİLÇİLİK

Əzizə Hacıyeva. Hiteronimlər və onların homonimlərdən fərqi 3
Əlirza Əliyev. Yazılı ədəbiyyatda onomastik vahidlərin üslubi xüsusiyyətləri 8
Aytən Hacıyeva. Müxtəlif sistemli dillərində eyni inamlar əsasında yaranmış ifadələr 15
Dilarə Həmidova. Elmi-texniki tərcümənin bəzi problemləri 21
İlahə Məmmədova.İngilis dilində inversiya hadisəsi 26
Şəhla Əliyeva. Mənanın dəqiqləşdiriməsində söz birləşmələrinin rolu 32
Нина Бунятова,
Ляман Ахундова. Неологизми в английском морфосистеми 37
Aytən Rəcəbova. Danışıq aktı dil vahidlərinin variasiyası sahəsi kimi *(Azərbaycan və ingilis dillərinin materialları əsasında)* 42
Polad Poladov. Ielts reading and writing 47
Tahirə Quliyeva. Təhsilə və elmi tədqiqatlara qloballaşmanın təsiri 52
Zərif Xəlilova. Orfoqrafiya təliminin tədrisi metodikası 57
Səbinə Mənsümova. Azərbaycan dilçiliyində termin yaradıcılığı 62
E.H. Əhmədova. M.Ə.Sabirin şeirlərində say, əvəzlik və feillər 67
Şəlalə Abdullayeva. Sabit söz birləşmələrinin semantikasında emosional amillərin müqayisəli tədqiqi 73
Nigar Həsənova,
Leyla Nəcəfova. İngilis dilində leksik alınmaların fonetik mənimsənilməsi...78
Sevinc Bağırova. İngilis dilində frazeologizmlərin məna tərkibləri 83
Leyla Eminova. Kanada ingiliscəsində fonetik sistemin bəzi problemləri 88
Qənirə Allahverdiyeva,
Yeganə Qurbanova. İngilis dilində söz birləşmələrinin frazeologizmlərdən fərqli cəhətləri 93
Rəna Zülfüqarova,
Rəhilə Məmmədova. Writing: where we seem to be 98
İradə Abdullayeva. Türk diliçiliyində *ki* bağlayıcısı ilə formalaşan cümlələrin yeri məsələsi 103
С. Вердиева. Обучение лексике в неязыковых вузах 109
Dürsədəf Cəfərova. Fransız dilində budaq cümlələrdə işlənən "subjonctif"in Azərbaycan dilində qarşılığı..... 114
Abdulla O'razboyev,
Adolat Allazarova. Ogahiy tarixiy asarlari leksikasi boyishida Firdavsiy va Nizomiy ta'siri 120
Ибрагимова Фазилат Эркиновна. Бадиий матнда синтактик фигураларнинг лингвопоэтик восита сифатидаги ўрни 125
Shodiya G`aniyeva. Kategorial ma'no frazeologizmning tarkibiy qismi sifatida 132
İdris Abbasov. Deskriptiv və preskriptiv qrammatika haqqında..... 138
Gunay İmanquliyeva. Cooperative learning and its role in education 143

Fatma Ağamirova. İngilis dilinin leksik sisteminin zənginləşməsində latın dilindən alınma sözlərin təsiri haqqında 149
Sücəddin Əyyubov. Zoonim tərkibli frazeoloji birləşmələrin leksik-semantik və qrammatik xüsusiyyətlərinə dair 156
Бозорова Дилдор Бахроновна. Варианты форм родительного падежа в узбекском языке и их художественно-стетическая роль 163
Rasim Heydərov. Azərbaycan və talış dillərində hal kateqoriyası 168
Aynurə Əliyeva. "Bürhani-qate" lüğətində dini varlıqlar (mələklər) 174
Könül Mirzəyeva. Klassik irsin tərcüməsi və nəşri *(Nizaminin "Leyi və Məcnun" əsəri üzrə)* 183
Yeganə Ergin. Azərbaycan və Türkmən dillərində hal kateqoriyası 193
Əzizə Mikayılova. Dilçilik şöbələri və onların qarşılıqlı əlaqəsi 198
Samirə Şixkərimova. Alman dilində işlənən slavyan mənşəli sözlər və onların dilə daxil olma səbəbləri 205

Ədəbiyyatşünaslıq

Möhsün Nağısoylu. Seyid Yəhya Bakuvinin "Gülşəni-Əsrar" əsəri: şərh, yoxsa nəzirə 210
E. Səfərli. Sabir Mustafanın "Türk sonetləri" 217
Афер Ализаде. Воплощение женских образов в рассказах Нины Горлановой 225
Антига Ализаде,
Севда Новрузалиева. Значение перевода в обучении студентов-медиков русскому языку 236
Səbinə Mirzəyeva. İslam ədəbiyyatında ailə hüququnun yeri və əhəmiyyəti 241
Könül Cabbarova. Aşıq sənəti və onun ümumtəhsil məktəblərində tədrisi prosesi haqqında 246
Təranə Rəhimli. İsa Hüseynovun hekayələri janr, zaman və ədəbi qəhrəman kontekstində 251
Mohammadreza Zakerabbasalı,
Mohammad Jafar Jabbarı,
Ali Mammad Bagır. The role of modern approaches in the development of lifelong learning 256
Дилбар Мухамедалиева. Драматические мысли в мире действии 264
Салима Мирзаева. Узбекские народные заклинания как фольклорный жанр 270
Ульвия Аллазова. К вопросу о некоторых направлениях и новизне в послевоенной английской литературе 275
Nur Çevik. "Füyuzat"da satirik şeirin işlənilmə imkanları 281
Vüsale Guliyeva. Mutahhar hilli'nin "Tahriru'l-ahkami'ş-şer'iyye ala Mezhebi'l-imamiyye" eseri kapsaminda caferi fikhinda nikah hukuku ... 286
Sakibə Ələsgərova.Demokrat şairə Hökumə Billurinin vətən həsrətli, kədər motivli mühacirət yaradıcılığı 292

Sevil Həsənova.H.Cavid yaradıcılığında təlim-tərbiyə məsələləri 299
Qərənfil Quliyeva. Mətnşünas alim 306
Cavidə Məmmədova.Hüseyn Cavid və Fridrix Nitsşenin
həyat fəlsəfəsi 312
Pərixanim Muradova. Firidun bəy Köçərli və ana dili 318
Əzizağa Nəcəfzadə. Nizami Gəncəvinin "Leyli və Məcnun"
əsərində ozan-aşıq yaradıcıılığının təsiri 326
Lalə Əlizadə. Nizami sənətinin sirlər dünyasına bir nəzər 333
Шониёзов Махмуджон Очилович. Является ли ода сиддикия
закирхаджи эшона намангани мунажат в виде мухаммас по-арабски 342
Pərixanım Soltanqızı. Hiyləgərlik motivinin xalq qaynaqlarında,
Qazax və Azərbaycan ədəbiyyatlarında əksi..... 347
Afət Quliyeva. Nəbi Xəzri yaradıcılığı 353
Gülarə Mahmudova. Nəsimi poeziyası Şərq kontekstində yaranmış
poetik fenomendir 358
Xatirə Xəlilova. Mir Cəlal hekayə ustasıdır 363
Şəfəq Dadaşova. Avtobioqrafiya və diskurs..... 368
Tahir Nəsibli.Ural-altay xalqlarinin şifahi xalq yaradıcılığında
at motivinin yaranmasının tarixi-mənəvi əsasları və "Qeser", "Koroğlu"
dastanlarında bunun əksi 374
Dürdanə Əsgərova,
Vaqif Qurbanov. Bədii mövzuların mənimsədilməsində başlıca amillər 381
Yaşar Qasımov. Poetik obrazın ictimai-estetik sərhədləri 387
İsmayıl Ağayev. Tarixi dramlarda müasirlik estetik kateqoriya kimi 392
Atajonova Anorgul Jumaniyozovna. Totemlarga asoslangan
etnonimlarning etimologiyasiga doir 402
Xuraman Məmmədova. Azərbaycan və ingilis inanclarının fərqli
və oxşar cəhətləri, onların dildə əksi 408

«Elm və Təhsil» nəşriyyatının direktoru:
professor Nadir MƏMMƏDLİ
Yığılmağa verilmiş **27.06.2013.**
Çapa imzalanmış **28.07.2013.**
Şərti çap vərəqi 52. Sifariş **№ 200.**
Kağız formatı 6**0x108 1/8.** Tiraj **500.**

Kitab «Elm və Təhsil» **nəşriyyat-poliqrafiya müəssisəsində səhifələnib çap olunmuşdur.**
E-mail: nurlan1959@gmail.com
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.